Stanislav
Lem

MÜASİR DÜNYA ƏDƏBİYYATI

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyevin
**"Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında"** 2007-ci il 24 avqust tarixli sərəncamı ilə nəşr olunur.

*"Şərq-Qərb"*
Bakı – 2011

Stanisław Lem

# Stanislav Lem

## SEÇİLMİŞ ƏSƏRLƏRİ

MÜASİR DÜNYA ƏDƏBİYYATI

*"Şərq-Qərb"*
Bakı – 2011

**ISBN 978-9952-34-294-9**

Tərcümə edəni və
ön sözün müəllifi: Aslan Quliyev

Redaktor: Əsəd Nəsirli

Korrektorlar: Aqşin Məsimov
Lətafət Səmədova
Elsevər Muradov
Gültəkin Yusifova

Bədii tərtibat və
dizaynın müəllifi: Tərlan Qorçu

Kompüter düzümü: Hikmət Aydınoğlu
Arzu Orucova

**Stanislav Lem. Seçilmiş əsərləri.**
Bakı: "Şərq-Qərb", 2011, 568 səh.

Mətn: Bakı Slavyan Universiteti, "Kitab aləmi" NPM, 2011
Bədii tərtibat, səhifələnmə: "Tutu" nəşriyyatı, 2011
© "Şərq-Qərb" ASC, 2011

# STANİSLAV LEM –

# GERÇƏKLƏŞƏN FANTAZİYA

Əlbəttə, hər bir yazıçını və hər bir əsəri başa düşmək, ən başlıcası, üzərində düşünmək üçün xüsusi səy tələb olunmur. Axır vaxtlar müxtəlif kanallarla, nəşrlərlə, yayımlarla tirajlanan fantastik əsərlər bir daha sübut edir ki, bu əsərlər heç tərcümə olunmasaydı da, biz elə bir itki hiss eləməzdik. Amma əsl yazıçıların yaradıcılığı ilə üzləşərkən bu əsərlərdəki hər xırda detal, cizgi belə bizim üçün mühüm, dəyərli olur. İndiyə qədər belə qiymətli nümunələrlə tanış ola bilmədiyimizə görə heyifsilənirik. Bu kitabın müəllifi Stanislav Lem təkcə istedadlı yazıçı yox, həm də hər şeyi bilmək, öyrənmək istəyən alim, əsl mütəfəkkir idi.

Stanislav Lem 1921-ci il sentyabrın 12-də Polşanın Lvov (Lvov indi Ukraynanın tərkibindədir) şəhərində, həkim ailəsində anadan olub. Sonralar o, öz xatirələrində yazırdı: “Mən dörd yaşımda yazmağı öyrəndim. Doğrudur, bu qabiliyyətimdən əməllibaşlı istifadə eləyə bilmədim. Atama ilk məktubumu anamla birlikdə getdiyim Skole şəhərindən yazmışam; bu məktubda mənim taxtadan olan əsl kənd tualetindəki macəralarımın bir qismi təsvir olunurdu. Bəli-bəli, taxta döşəməsində deşiyi olan həmin tualetdəki. Doğrudur, bəzi şeylərin üzərindən sükutla keçdim. Həmin o deşiyə mən öz ev sahibimizin açar dəstini atmışdım...”

1932-ci ildə II kişi gimnaziyasında oxumağa başlayır və 1939-cu ildə oranı qurtarıb orta təhsil haqqında attestat alır.

1939–1941-ci illərdə Lvov Dövlət Tibb İnstitutunda oxuyur; o, bura dolayı yolla qəbul olunmuşdu: ilk dəfə sənədlərini texniki instituta vermişdi, texniki fənləri daha maraqlı hesab edirdi. İmtahanları uğurla verməsinə baxmayaraq, "sağlam sosial sinfə" mənsub olmadığına görə (atası varlı həkim, yəni burjua idi), onu instituta qəbul etmədilər. Yalnız atasının məşhur dostlarının köməyi ilə ona təhsilini tibb institutunda davam etdirməyə imkan verdilər.

Almanlar Polşanı işğal edəndən sonra Stanislav Lem xammal emalı ilə məşğul olan alman firmasında mexanik köməkçisi və qaynaqçı işləyir. 1944-cü ildə, Sovet Ordusu Lvova daxil olandan sonra Lem yenidən tibb institutunda təhsilini davam etdirməyə başlayır. 1946-cı ildən Lvov Ukraynaya ilhaq edilir və Stanislav Lem Krakova qayıdıb orada tibb təhsilini davam etdirir. 1948-ci ildə Krakovdakı Yaqellon universitetinin tibb fakültəsini bitirir. Stanislav Lem tibb təhsili haqqında şəhadətnamə alır, amma hərbi həkim olmaq istəmədiyindən, axırıncı imtahanları verməkdən boyun qaçırır. 1948–1950-ci illərdə kiçik assistent kimi işləyir.



1946-cı ildən çap olunmağa başlayır. Lemin ilk romanı olan "Aydan gələn adam" Polşada nəşr edilən həftəlik jurnalda çap olunur. 1948-ci ildə Lem ikinci romanını, həm də qeyri-fantastik romanı olan "Təyinatını dəyişən xəstəxana"nı yazır və bundan sonra da onun, əsasən, elmi-texniki, fantastik roman və povestləri, hekayələri, pyesləri çap olunmağa başlayır. 1951-ci ildə isə ilk elmi-fantastik kitabı olan "Astronavtlar" çapdan çıxır.

1953-cü ildə Stanislav Lem həkim Barbara Lesnyak ilə evlənir. Şərqi Almaniyaya, Praqaya, Sovet İttifaqına səfərlər eləyir. 1982-ci ildə Polşada hərbi vəziyyət elan olunandan sonra Stanislav Lem vətənini tərk edir. 1983-cü ildə Vyanaya köçür. 1988-ci ildə Polşaya qayıdır. 90-cı illərdə, əsasən, həftəlik katolik, aylıq "Odra" və "RS Maqazine" jurnalının polyak dilində çıxan versiyası ilə əməkdaşlıq eləyir.

1973-cü ildə Amerika Elmi Fantastlar Cəmiyyəti ədəbiyyat sahəsindəki uğurlarına görə onu öz sıralarına qəbul edir, lakin Lem bu cəmiyyətin sırala-

rında çox qalmır. Amerika elmi fantastikasının aşağı səviyyədə olmasını kəskin tənqid elədiyinə görə cəmiyyət üzvlüyündən xaric olunur. Lemin cəmiyyətin sıralarından xaric edilməsindən sonra Maykl Murkok və Ursula Le Quin də etiraz əlaməti olaraq cəmiyyət üzvlüyündən istefa verirlər.

Stanislav Lem yaradıcılıq nailiyyətlərinə görə bir çox adlara və mükafatlara layiq görülüb. Polşa Yazıçılar Assosiasiyasının üzvü, Vroslavski Politexnik İnstitutunun fəxri doktoru, Polşa Elmlər Akademiyasının üzvü (1994), bir çox milli və xarici mükafatların laureatı, o cümlədən Polşa Dövlət Mükafatı (1976), Avstriya Dövlət Mükafatı (1986), Frans Kafka mükafatı laureatı, "Ağ Qartal" ordeninin kavaleri (1996), çoxlu sayda elmi dərəcənin sahibi olub.

Lemin öz yazdığına görə, onun yaradıcılığına Amerika yazıçısı, Nobel mükafatı laureatı Sol Bellounun, ingilis yazıçısı, elmi-fantastik ədəbiyyatın banisi Herbert Corc Uellsin, Amerika filosofu, kibernetikanın banisi Norbert Vinerin, riyazi informasiya nəzəriyyəsini yaradanlardan biri olan Klod Elvud Şennonun, məşhur fransız yazıçısı Jül Qabriel Vernin, ingilis filosofu və fantastika yazıçısı Uilyam Olaf Stepldonun böyük təsiri olmuşdur.

İnformasiya – Lem yaradıcılığını xarakterizə eləyən, əsasən, bu sözdür. Hələ Lvov Dövlət Tibb İnstitutunun tələbəsi olarkən o, "Beyin funksiyasının nəzəriyyəsi" adlı əsər yazmış, amma çap etdirməmişdi. Lakin ömrünün sonuna kimi, sözün geniş mənasında, onu informasiya nəzəriyyəsinə bağlayan marağını gizlətməmiş və yaradıcılığında da bu maraq onun üçün həlledici amil olmuşdur. Lemin tamhüquqlu qəhrəmanları, əsasən, kompüterlər və robotlardır; onlar bəzən özlərini insanlar kimi aparır, bəzənsə insanlardan o dərəcədə fərqlənir ki, hətta onlarla əlaqə saxlamaq belə mümkün olmur.

Onu dünyanın hər yerində oxuyurdular, amma bu, ona öz yaradıcılığına sədaqətli qalmağa mane olmurdu. Bəlkə də, bu, ondan irəli gəlirdi ki, o yazmağa başlayanda nümunə götürüləsi kimsə yox idi, Polşada qırxıncı illərin sonlarında və əllinci illərin əvvəlində elmi fantastika bir janr kimi formalaşmamışdı,

Qərb nümunələri isə o dövrlərdə polşalı oxucular üçün əlçatan deyildi və ideoloji səbəblərdən bu məqsədlər üçün heç yaramırdı da. İstəsə də, istəməsə də, səhvlərdən və sınaqlardan nəticə çıxarıb ayıq redaktorlarla və senzorla qarşılaşan Lem özü janr növünü seçəsi oldu və bu da onun başqalarına bənzəməməsində başlıca rol oynadı.

Bu yazıçının yaradıcılığında oxucunu heyrətə salan ən üstün cəhət onun tamlığı və çoxcəhətliliyi, çoxşaxəliliyi ustalıqla uyğunlaşdıra bilməsidir: II Dünya müharibəsinin faciəvi hadisələri haqqında realistik trilogiyalar, uşaqlığı barədə avtobioqrafik kitablar, ciddi elmi fantastika, ulduzlarda gəzişən Sakit İyonun uydurma kosmik macəraları, robotların nağılları, olmayan kitablar haqqında rəylər, elmi əsərlər, ədəbiyyatşünaslıq monoqrafiyaları... "Nəyə görə o, Dostoyevskinin "Gizlindən qeydlər"inə belə tez-tez müraciət eləyir" sualına Lem, Stanislav Bereslə söhbətində belə cavab vermişdi: "Aman Allah, axı XX əsrin bütün "qara fəlsəfəsi" azman embrionlar kimi bu kitabda gizlənmişdir. Siz orada Kamyunun bütün iztirablarını tapa bilərsiniz. Orada hər şey spermatozoidin başlığı kimi sıx qablaşdırılmışdır..." Öz növbəsində, Lemin yaradıcılığı, yəqin, hələ yazılmamış kitabların gələcək embrionlarını özündə gizləyir.

Əsasən, aşağıda adları qeyd olunan əsərləri onu məşhurlaşdırmışdır: "Aydan gələn adam" (1946), "Təyinatını dəyişən xəstəxana" (1948), "Astronavtlar" (1951), "Sakit İyonun ulduz gündəliyi" (1953–1959), "Magellan buludu" (1955), "Zorla Aldebarana girmə" (1959), "İstintaq" (1959), "Edem" (1959), "Ulduzlardan qayıtma" (1961), "Vannada tapılan əlyazma" (1961), "Solyaris" (1961), "Məğlubedilməz" (1964), "Robotların nağılı" (1964), "Texnologiyanın yekunu" (1964), "Pilot Pirks haqqında hekayə" (1968), "Təsadüfün fəlsəfəsi" (1968), "Futuroloji konqres" (1971), "Zökəm" (1975), "Qolem XIV" (1981), "İflas" (1986), "Yer üzündə sülh" (1987) və s.

Bu kitabda Stanislav Lemin Azərbaycan oxucusunun indiyə kimi öz doğma dilində tanış ola bilmədiyi ən dəyərli əsərləri təqdim edilmişdir və bu zaman

onun yaradıcılığının müxtəlif sahələri nəzərə alınmışdır. Həm fantastik əsərləri, həm klassik tərzdə yazılmış romanları, həm də pyesləri və povestləri oxucuların ixtiyarına verilmişdir. Bu kitabda onu dünya oxucularına ən çox tanıdan "Təyinatını dəyişən xəstəxana" romanı, "Solyaris" elmi-fantastik romanı, "İstintaq" elmi-fantastik povesti, "137 saniyə" elmi-fantastik hekayəsi, "Aylı gecə", "Buterbrod", "Mister Cons, siz yaşayırsınızmı?" elmi-fantastik pyesləri toplanmışdır.

Eyni zamanda, kitaba daxil edilən bu əsərlərin bir qismi ayrı-ayrı ölkələrdə müxtəlif vaxtlarda ekranlaşdırılmış, tamaşaya qoyulmuşdur. Belə ki, "Təyinatını dəyişən xəstəxana" 1979-cu ildə Polşada, "Solyaris" 1972-ci ildə SSRİ-də, 2002-ci ildə Amerikada, "Pilot Pirksin istintaqı" 1978-ci ildə Polşada ekranlaşdırılmış, "Solyaris" 1968-ci ildə SSRİ-də tamaşaya qoyulmuş, "Mister Cons, siz yaşayırsınızmı?" teletamaşası çəkilmişdir.

Bakıda 1985-ci ildə Lemin əsəri əsasında çəkilən "Sakit İyonun ulduz macəraları" cizgi filmi istisna olmaqla, oxucular bu böyük yazıçının əsərlərini Azərbaycan dilində oxuya bilməyiblər və bu baxımdan ilk dəfə olaraq bu əsərlərin dilimizə çevrilməsi oxucularımıza Polşa ədəbiyyatı ilə tanışlığa daha çox imkan yaradacaq. Zaman keçsə də, əsla dəyərini itirməyən, günümüzün bugünkü reallığı ilə səsləşən, bu gün də aktual olan, oxucunu düşündürən bu əsərləri Azərbaycan oxucusunun bəyənəcəyinə əminəm.

Təbii ki, qısa da olsa, Lem yaradıcılığı, onun əsərlərinin, xüsusilə də bu kitabda toplanmış əsərlərin bədii-mənəvi dəyərləri haqqındakı fikirlərimi oxucularla bölüşmək istərdim. "Təyinatını dəyişən xəstəxana" romanı, yuxarıda qeyd etdiyim kimi, müəllifin ilk yazdığı, həm də fantastika janrında olmayan əsəridir. Nə qədər qəribə olsa da, istər Qərb ədəbiyyatşünasları, istərsə də Rusiyadakı Lem yaradıcılığını tədqiq eləyən tənqidçilər onu, əsasən, elmi-fantastik yazılar müəllifi kimi təqdim edir, bu janrda olmayan əsərlərinin üzərindən isə, adətən, sükutla keçir, ya da ötəri xatırlatmaqla kifayətlənirlər. Lakin istər yaradıcılıq məziyyətləri baxımından, istərsə də

o dövr alman işğalı altında olan Polşa həqiqətlərinin təsvir edilməsi, baş verən hadisələrə dürüst qiymət verilməsi baxımından bu əsər Lem yaradıcılığının zirvələrindən biridir. Buradakı səmimiyyət, təbiilik oxucuya da sirayət eləyir, psixoloji məqamlar, düyünlər, anlaşılmazlıqlar oxucunu bütünlüklə öz təsiri altına alır. Polşa ədəbiyyatşünası Ancey Stoff "Təyinatını dəyişən xəstəxana" romanını araşdırarkən bu nəticəyə gəlir ki, Lem yaradıcılığının bütün problemləri bu əsərdə cəmlənmişdir.

Romanın əsas süjeti tibb institutunu qurtarıb əmisinin dəfninə gələn cavan oğlan Stefanın ətrafında cərəyan edir. Lemin həkim olması, tibb sahəsindəki bilikləri bu romanın yazılmasında onun çox karına gəlmişdir; ümumiyyətlə, bu romanda avtobioqrafik elementlər çoxdur. Kənddə tələbə dostu gəlib onu tapır və onunla birlikdə yaxınlıqdakı psixi xəstələr üçün olan xəstəxanada – dəlixanada işləməyi ona təklif eləyir. Stefan əvvəlcə razılaşmır, sonda zəruriyyət onu buna məcbur eləyir və Stefan dostu ilə birlikdə bu xəstəxanada işə başlayır. Psixi cəhətdən normal olmayan insanlarla, onları müalicə edən həkimlərlə tanışlıq, xəstələrin müalicəsi və xəstəxanadakı abhava, xəstəxananın ətrafındakı meşələr, Polşa çölləri, meşədəki alman işğalçılarına müqavimət göstərmək fikrinə düşən elektriklər, Stefanın əmiləri və atası Lem tərəfindən ustalıqla təsvir olunub. Hər cümlədə, hər sətirdə böyük yazıçının məharətini, ustalığını sezməmək olmur. Ümumiyyətlə, Lem yaradıcılığına tamlıq, mükəmməllik, simmetriklik xasdır. Lem həmişə müxtəlif rənglərdən istifadə eləmiş, hadisələrə həmişə başqa gözlə baxmış, buna görə də yeni hisslər doğurmağı və yeni təəssüratlar bağışlamağı bacarmışdır.

Romanın sonunu isə, sadəcə, həyəcansız oxumaq mümkün olmur. Alman SS briqadası yaxınlıqdakı qəsəbəyə gəlir, onların komandirləri də həkimdir və onlara bu xəstəxanadakı bütün xəstələri güllələmək, bu xəstəxananı isə alman hərbi hospitalına çevirmək tapşırığı verilib. Bu zaman Lem Polşa həkimlərinin vəzifələrinə necə sadiq olduqlarını, məğrurluqlarını, vətənpərvərliklərini dəqiq cizgilərlə, böyük ustalıqla

verə bilir. Təsvirlər o qədər aydın, dəqiq, səlis olur ki, oxucu özünü bu hadisələrin içində hiss edir. O hadisələrin üzərindən artıq neçə on illər keçib, bu haqda çox yazılıb, filmlər çəkilib, amma bütün bunlar əsla və əsla Lemin bu böyük zəhmətinin dəyərini azaltmır. Əksinə, bütün yazılanlar, özündə yalnız rəqəmləri, tarixləri, faktları əxz eləyən tarixi mənbələr, qəzet materialları, ekran görüntüləri bu romanla müqayisədə solğun görünür. Yazıçı ustalığı da bundadır.

"Solyaris" romanında söhbət təkcə ayrı-ayrı adamlardan yox, bütün Yer sivilizasiyasının kosmosun dərinliklərində həll edilməsi mümkün olmayan tapmaca ilə üzləşməsindən gedir. Bütünlüklə planeti əhatə eləyən okean insanın Yerdəki şüur, düşüncə, məqsədəuyğunluq haqqındakı təsəvvürlərinə sığmır. Hər şeydən çətini Yerdənkənar həyatın nümayəndəsinin "yeganə nüsxədə" olması faktını alışdığımız biliklərin çərçivəsinə sığışdırmaqdır. Buradan da belə qənaət hasil olur ki, o, insan istəklərinin məğzini təşkil eləyən bir çox stimuldan məhrumdur (nəslin bioloji davamından, həyatın davam etməsindən və ölümsüzlük qazanmasından, kosmosun koloniyalaşdırılmasından, məişətin texniki tərəqqisindən). Solyaristiklik tənəzzül dövrünü yaşayır, bu problem ətrafında alverlər başlayır, planetin ətrafındakı nəhəng orbital stansiya bağlanmaq ərəfəsindədir. Bununla belə, romanın düşüncə mərkəzi başqa insanın – psixoloq Kris Kelvinin taleyidir. O, o cümlədən Breqq də öz həyatlarının müxtəlif dövrlərini birləşdirmək gücündə deyillər. Okean tərəfindən naməlum məqsədlə Kelvinin yanına göndərilən "sintetik Hari" tədricən Kelvinə sadiq olan, öz həyatına qəsd eləməyə məcbur olmuş əvvəlki Harini unutdurmağa çalışır. Nəyə görə Kelvin stansiyada qalır? Məşhur əlaqəni gözləyirdi? Sevgilisinin qayıdacağına ümid eləyirdi? Hadisələr zəncirinin ayrılmaz surətdə bir-biri ilə əlaqəli olduğu üzə çıxır. Kris üçün əvvəlki, kosmosa qədər olan dəyərləri – ailə, məhəbbət, ev əzizdir, lakin onların əldə edilməsinə yalnız burada, uzaq planetin ətrafında ümid bəsləmək olar.

Təkcə Kelvini yox, stansiyadakı digər insanları da okean bu kimi sınaqlara məruz qoyur və sonda onlar ağlın, texnikanın gücündən yararlanaraq okeanın sirlərini öyrənir, qarşılaşdıqları bu əngəli dəf eləməyə səy göstərirlər.

Lemin ən maraqlı əsərlərindən biri də onun "İstintaq" adlı elmi-fantastik povestidir. Bu povestdə qaldırılan məsələlər bu gün də aktualdır. Söhbət insanabənzər robotların kütləvi istehsalından və onlardan təkcə kosmosa, Yerdənkənar planetlərə uçuşlarda yox, insan məişətinin bütün sahələrində istifadə etməyi nəzərdə tutan layihənin gerçəkləşməsindən gedir. Kapitan Pirks robotlardan və insanlardan təşkil olunmuş ekipaja komandanlıq eləməyə razılıq verir, amma o, kimin insan, kimin robot olduğunu bilmir. Buna görə də uçuş vaxtı bunu ayırd eləyə biləcək müxtəlif sınaqlar düşünür.



"137 saniyə" elmi-fantastik povestində o vaxtlar üçün kompüterin əfsanəvi görünən uğurlarından, bu günün reallığında isə adidən adi olan mətləblərdən söz açılır. Pyeslərdə də baş verənlər bu gün artıq reallaşmış, o cümlədən orqan köçürmələri, Aydan süxurlar götürülməsi, sudan oksigenin ayrılması, insanlara süni orqanlar köçürülməsi və s. – adiləşmiş, öz fantastikliyi ilə çoxdan vidalaşmışdır.

Bəzən buna yazıçı uzaqgörənliyi də deyirlər. Amma bu uzaqgörənlik nədən irəli gəlir? Hər halda, mifləri, əfsanələri, nağıl qoxusu gələn bəsirətləri bir tərəfə qoymaq lazımdır. Bunun üçün yazıçıya, ilk növbədə, istedadı, fəhmi, reallıqla fantastika arasında körpü sala bilmək bacarığı, lazımi informasiyalara malik olması, elmi bilikləri kömək eləyir. Bunlar isə Stanislav Lemdə var idi. Elə buna görə də neçə illər bundan əvvəl onun yazdıqlarının əksəriyyəti artıq gerçəkləşib.

Stanislav Lem uzunsürən ürək xəstəliyindən sonra 2006-cı il martın 27-də Krakovda 84 yaşında vəfat etmişdir.

*Aslan Quliyev*

# SOLYARİS

*(roman)*

# SOLYARİS

*(roman)*

## GƏLMƏ

Gəmi vaxtı ilə saat on iki sıfır-sıfırda mən dəmir pillələrlə konteynerin içinə düşdüm. Onun içərisində yalnız dirsəklərimi qaldıra biləcək qədər yer var idi. Şlanqın ucluğunu divardan çıxan ştuserə keçirtdim, skafandr şişdi və mən daha kiçik bir hərəkət belə eləyə bilmədim. Metal qabıqla bütöv bir ahəng təşkil eləyərək dayanmışdım; daha doğ-

rusu, hava lojasının üzərində oturmuşdum.

Başımı qaldırdım, qabarıq şüşədən quyunun divarlarını, yuxarıda isə quyunun üzərinə əyilmiş Moddardın üzünü gördüm. Sonra sifət yoxa çıxdı və qaranlıq oldu, yuxarıda ağır qoruyucu konusu bağladılar. Elektromotorun səkkiz dəfə təkrar olunan fiti eşidildi: boltları bağlayırdılar; sonra amortizatorların havasının fısıltısı eşidildi. Gözlərim qaranlığa alışırdı. Mən artıq universal göstəricinin yaşıl cizgilərini görürdüm.

– Kelvin, hazırsan? – qulaqlıqdan eşitdim.

– Hazıram, Moddard, – cavab verdim.

– Heç nə üçün narahat olma. Stansiya səni qəbul eləyəcək, – o dedi. – Yaxşı yol!

Mən cavab verməyə çatdırmadım, yuxarıda nəsə cingildədi və konteyner titrədi. Mən instinktiv olaraq əzələlərimi gərginləşdirdim. Amma başqa heç nə baş vermədi.

– Start haçandır? – soruşdum və səs-küy eşitdim; sanki, membranın üzərinə xırda qumun zərrəcikləri səpələnirdi.

– Artıq uçursan, Kelvin. Salamat qal! – Moddardın yaxından gələn səsi cavab verdi.

Mən bunu necə lazımsa dərk eləməmişdən əvvəl, birbaşa üzümün qarşısında geniş yarıq açıldı və mən bu yarıqdan ulduzları gördüm. Əbəs yerə «Prometey»lə uçan

Alfu Bodeleyi axtarırdım. Qalaktikanın bu tərəfi mənə qətiyyən məlum deyildi. Dar pəncərədən qığılcımlı toz keçib-gedirdi. Atmosferin üst qatında olduğumu başa düşürdüm. Pnevmatik balışlarla bürünərək hərəkətsiz halda yalnız qabağa baxa bilərdim. Mən bunu tamamilə hiss eləmədən uçur və uçurdum, yalnız istiliyin tədricən bədənimi necə qəddarcasına bürüdüyünü hiss edirdim. Müşahidə pəncərələrini qırmızı işıq tutdu. Öz nəbzimin ağır tuppultularını eşidirdim, üzüm yanırdı, iqlimdəyişənin soyuq hava cərəyanı boynumu qıdıqlayırdı. «Prometey»i görə bilmədiyimə görə heyifsilənirdim, avtomatlar baxış pəncərələrini açanda o, yəqin ki, artıq görünmə hüdudlarından kənarda idi.

Konteyner bir dəfə guruldadı, bir dəfə də, sonra korpusu titrəməyə başladı. Bu dözülməz titrəyiş bütün izolyasiya buludlarının, hava balışlarının arasından keçərək bədənimin dərinliklərinə daxil oldu. Göstəricinin yaşıltəhər cizgiləri boyanmışdı. Qorxu hiss eləmirdim. Belə uzaq məsafəyə məqsədimə çatmaq üzrə olanda ölməkdən ötrü uçmurdum.

– Solyaris stansiyası! – mən çağırdım, – Solyaris stansiyası! Solyaris stansiyası! Nəsə eləyin. Deyəsən, mən stabilliyi itirirəm. Solyaris stansiyası, mən Kelvinəm. Qəbul.

Mən planetin görünmə anı kimi mühüm anı qaçırtdım. Nəhəng, yastı planet aşağıda sərilmişdi, onun üzərindəki zolağın ölçüsünə görə hələ uzaqda olduğumu müəyyən elədim. Daha dəqiqi, yuxarıda, çünki artıq görünməyən sərhədi keçmişdim, bu sərhəddən sonra isə göy cisminə qədər olan məsafə yüksəklik olur. Mən yıxıldım, hətta gözlərimi yumanda da bunu hiss elədim.

Bir neçə dəqiqə gözləyib çağırışı təkrar elədim. Yenidən cavab almadım. Qulaqlıqlarda atmosfer boşalmalarının yaylım halında çatırtıları eşidilirdi. Onların xırıltıları səs-küylü, dərindən gələn və sakit idi. Adama elə gəlirdi ki, bu, planetin özünün səsidir. Müşahidə pəncərəsində çəhrayı göy ağ işartılar içində üzürdü. Şüşə tutqunlaşırdı. İnstinktiv olaraq pnevmatik sarğıların imkan verdiyi qədər sıxıldım, amma sonrakı saniyədə bunun buludlar olduğunu başa düşdüm. Onlar sürətli axınla yuxarı qalxırdı. Mən gah günəşdən gözlərim qamaşaraq, gah da kölgəyə

qərq olaraq yavaş-yavaş enməyə başladım. Konteyner şaquli oxun ətrafında fırlanmağa başladı və nəhəng, sanki, şişmiş günəş diski sifətimin önündən bir bərabərdə üzüb keçdi, solda göründü və sağ tərəfə doğru getdi. Qəfildən səs-küyün və çatırtının içindən birbaşa qulağımda uzaqdan gələn səs eşidildi.

«Solyaris stansiyası, Kelvinə, Solyaris stansiyası, Kelvinə. Hər şey qaydasındadır. Siz Stansiyanın nəzarəti altındasınız. Solyaris stansiyası, Kelvinə. Sıfır anında enməyə hazır olun. Diqqət, başlayırıq. İki yüz əlli, iki yüz qırx doqquz, iki yüz qırx səkkiz...»

Ayrı-ayrı sözlər noxud dənələri kimi düşür, bir-birindən dəqiq ayrılırdı, sanki, avtomat danışırdı. Qəribəydi... Adətən, yeni kim gəlirdisə, həm də Yerdən, hamı, kimin imkanı varsa, enmə meydançasına qaçırdı.



Lakin düşünmək üçün vaxt yox idi. Günəşin ətrafımda çəkdiyi nəhəng üzük birdən mənə tərəf qaçan düzənliklə birgə şahə qalxdı. Sonra əyilmə başqa səmtə doğru dəyişdi. Mən kəfkirli saatın nəhəng əqrəbi kimi yırğalanırdım. Başgicəllənməsi ilə mübarizə apararaq planetin qonur zolaqlarla və çirkli-bulanıq xətlərlə cizgilənmiş divarının üst tərəfində ağ-yaşıl şahmat kvadratlarını – Stansiyanın tanınma nişanlarını gördüm. Bu an konteynerin üstündən çatırtı ilə dairəvi paraşütün uzun boyunluğu ayrıldı, paraşüt bərkdən xışıldayırdı. Bu səsdə neçə aydan sonra ilk dəfə sözlə ifadə oluna bilməyəcək, Yerə məxsus əsl küləyin səsi vardı.

Sonrası olduqca tez baş verdi: bu vaxta qədər mən yalnız endiyimi başa düşürdüm. İndisə gördüm. Artıq görünürdü ki, bu sahə uzunsov, gümüşü-parıltılı, yan tərəflərində radar qurğularının milləri görsənən, tündrəngli pəncərələri sıralanmış kitabənzər korpusun üzərində təsvir olunub. Bu metaldan düzəldilmiş quqant planetin üstündə dayanmamışdı, onun üzərində havadan asılmışdı. Bənövşəyi-qara fonda onun kölgəsi – daha tündrəngli ellipsvari ləkə görünürdü. Eyni zamanda, bənövşəyi tüstü ilə üzəri örtülən, tənbəlcəsinə diyirlənən okean dalğalarını da gördüm. Sonra yanlarını gözqamaşdıran fırfıralar bürümüş qara buludlar çox yüksəyə qalxdı; onların arasındakı göy uzaq və yastı, qonur-çəhrayı rəngdə idi. Müşahidə pəncərəsində özünün tüstülənən üfüqlərinə qədər məni həyəcanlandıran okean

civə işartısı ilə qığılcımlanırdı, paraşütün ipləri və dairəsi bircə anda aralandı və külək onları dalğaların üzəriylə qovmağa başladı, konteyner isə adətən, süni sınaq meydançasında olduğu kimi, xüsusi sərbəst hərəkətlə yüngülcə yırğalandı və aşağıya yuvarlandı. Mənim axırıncı gördüyüm şəbəkəli katapult[1] və yəqin ki, bir neçə mərtəbə qədər yüksəyə ucalan radioteleskopun incə güzgüləri oldu.

Konteyneri nəsə saxladı, bir-birinə möhkəmcə dəyən poladın cingiltili qıcırtısı eşidildi, ayaqlarımın altında hələ də ləhləyən, yırğalanaraq dümdüz durduğum metal qabıqda köks ötürərək nəsə açıldı, mən yüz səksən kilometrlik səyahətimə son qoydum.

– Solyaris stansiyası. Sıfır-sıfır. Enmə bitdi. Son, – mən nəzarətçi avtomatın cansız səsini eşitdim.

Hər iki əlimlə (sinəmdə aydın olmayan təzyiq, daxilimdə isə sanki, lazım olmayan bir yük hiss edirdim) dəstəkdən yapışdım və əlaqəni birləşdirdim. Yaşıl yazı göründü – «Yer». Konteynerin divarları aralandı, pnevmatik loja kürəyimdən yüngülcə itələdi və yıxılmamaq üçün mən irəliyə doğru addım atmalı oldum.

Kədərli ah çəkməyə oxşayan tərzdə hava sakit fışıltı ilə skafandrın örtüyünü tərk elədi. Mən azad idim.

Nəhəng gümüşü qıfın üzərində dayanmışdım. Divarları ilə borular dəstə ilə sallanır, dairəvi quyularda yox olurdu. Şaxtanın havadəyişən qurğuları enmə vaxtı bura dolan planet atmosferinin zəhərli qalıqlarını soraraq uğuldayırdı. Partlayan barama kimi boş olan konteyner qoyulmuş polad kasanın içində idi. Onun xarici örtüyü yanmış və çirkli-qəhvəyi rəng almışdı. Mən balaca maili enişə doğru bir neçə addım atdım. Sonra metalın üzəri kələ-kötür plastiklə örtüldü. Adətən, qaldırıcı raketləri daşıyan arabaların keçdikləri yerlərdə plastik sürtülmüşdü və arasından çılpaq polad görünürdü.

Havadəyişənlərin kompressorları susdu, ətrafa tam sakitlik çökdü. Köməksiz halda boylanır, hansısa bir adamın gələcəyini gözləyirdim, amma heç kim gəlmirdi. Yalnız neon əqrəb səssizcə hərəkət eləyən lentli transporteri göstərirdi. Mən transporterin meydançasında dayandım.

---

[1] Katapult – təyyarəni gəmidən havaya tullamaq üçün mexanizm

Parabola şəklində olan salonun qübbəsi dəhlizin borusuna birləşərək aşağı düşürdü. Onun taxçalarında sıxılmış qaz üçün balonlar, konteynerlər, dairəvi paraşütlər, yeşiklər qalaqlanmışdı; bütün bunlar səliqəsiz halda, necə gəldi yığılmışdı. Bu, məni heyrətləndirdi. Transporter genişlənən dairəvi dəhlizdə qurtardı. Burada daha çox səliqəsizlik hökm sürürdü. Tənəkə bankalar qalağının altından yağlı maye axaraq gölməçə əmələ gətirmişdi. Havanı xoşa gəlməyən kəsif qoxu bürümüşdü. Bu mayedə dəqiq naxışlar salmış yarımçəkmələrin izləri müxtəlif tərəflərə gedirdi. Tənəkə bankaların arasına, sanki, kabinələrdən süpürülüb atılmış ağ teleqraf lentləri, kağızların əzilmiş səhifələri və zibil tökülüb qalmışdı. Yaşıl göstərici yenidən məni ortadakı qapıya doğru istiqamətləndirərək yandı. Qapının arxasında isə iki adamın çətin ki yanaşı gedə biləcəyi dar dəhliz var idi. İşıq göyə açılan pəncərənin mərciməyi xatırladan şüşəsindən düşürdü. Daha bir ağ və yaşıl kvadratlar şəklində boyanmış qapı vardı. Qapı azacıq açıq idi. Mən içəri daxil oldum.



Yarımdairəvi kabinənin böyük pəncərəsi var idi. Pəncərədən tüstü ilə örtülmüş, tarım çəkilmiş göy görünürdü. Aşağıda qonur dalğalar səssizcə yuvarlanırdı. Divarlarda çoxlu açıq şkaf var idi. Şkafları alətlər, kitablar, qurumuş çöküntüləri olan şüşə qablar, tozlu termoslar doldurmuşdu. Çirkli döşəmədə beş və ya altı hərəkət eləyən mexaniki stol var idi; onların arasında da havaları buraxıldığı üçün bir neçə formasız kreslo qoyulmuşdu. Yalnız birinə hava vurulmuşdu. Bu kresloda da sifəti gündə yanmış yorğun birisi oturmuşdu. Onun burnunun üstündən və boynundan dərisi sallanırdı. Mən onu tanıdım. Bu, Snaut idi, kibernetik Qibaryanın müavini. Vaxtilə o, Solyaris almanaxında tamamilə orijinal olan bir neçə məqalə çap elətdirmişdi. Əvvəllər mən onu görməmişdim. Onun əynində tor köynək var idi; köynəyin torları arasından yastı sinəsindəki çal tükləri titrəyirdi və nə vaxtsa ağ olan, dizləri ləkələnmiş, reaktivlərlə yanmış çoxlu cibi olan kətan şalvar geymişdi. Əlində plastmas armud var idi; belə armudlardan kosmik gəmilərdə süni yolla saflaşdırılmış su içirlər. O, mənə, sanki, gözqamaşdıran işıqdan heyrətə düşmüş halda baxırdı. Armud onun boşalan barmaqlarının arasından buraxıldı və top kimi döşəməyə düşdü. Ondan bir qədər şəffaf maye axdı.

Tədricən onun sifətinin qanı çəkilirdi. Mən nəsə deyə bilmək üçün hədsiz sarsılmışdım və onun qorxusu hansı yollasa mənə ötürülənə kimi bu səssiz səhnə davam elədi.

Mən irəli bir addım atdım. O, kresloya sıxıldı.

– Snaut, – mən pıçıldadım.

O diksindi, sanki, onu vurdular. Mənə baxaraq təsviredilməz bir ikrah hissi ilə xırıldadı:

– Səni tanımıram, səni tanımıram, sən nə istəyirsən?

Dağılan maye ani buxarlandı. Mən spirtin qoxusunu hiss elədim. O içirdi? Sərxoş idi? Axı o, nəyə görə belə qorxurdu? Mən hələ də kabinənin ortasında dayanmışdım. Ayaqlarım yumşalmış, qulaqlarıma isə sanki, pambıq təpilmişdi. Döşəmənin təzyiqini nəsə elə də etibarlı hiss eləmədim. Qabarıq pəncərənin arxasında okean sakitcə yırğalanırdı.

Snaut qan sağılan gözlərini məndən çəkmirdi. Sifətindən qorxu ifadəsi çəkilsə də, ikrah hissi çəkilməmişdi.

– Sənə nə olub? – o, sakitcə dedi. – Aha, qayğıma qalacaqsan, hə? Axı niyə mənim? Mən səni tanımıram.

– Qibaryan hanı? – mən soruşdum.

Bir saniyəliyə Snautun nəfəsi tutuldu. Onun gözləri yenidən şüşə kimi oldu. Bu gözlərdə hansısa bir qığılcım parladı və dərhal da söndü.

– Qi... Qiba... – o pıçıldadı. – Yox!!!

O, dəlicəsinə səssiz bir gülüşdən titrədi və susdu.

– Sən Qibaryanın yanına gəlibsən? – bu sözləri, demək olar ki, sakitcə dedi. – Qibaryanın yanına? Sən onunla neyləmək istəyirsən?

O, mənə elə baxırdı, sanki, daha mən onun üçün təhlükə törətmirdim. Onun sözlərində, ən çox da deyiliş tonunda nəsə nifrətedici, təhqiredici bir şey var idi.

– Sən nə xərifləyirsən?.. – mən sarsılmış halda mızıldandım. – O, haradadır?

O donub-qaldı.

– Sən bilmirsən?

«O sərxoşdur, – düşündüm, – ağlı başından çıxana qədər içib». Məni getdikcə artan qəzəb hissi bürüyürdü. Mən, əlbəttə, getməliydim, amma səbrim tükəndi.

– Özünə gəl! – qışqırdım. – Mən yalnız indicə uçub gəlmişəmsə, haradan bilə bilərəm? Snaut, sənə nə olub?!

Onun çənəsi kənara dartındı. Yenidən bir anlığa təngnəfəs oldu. Gözlərində iti bir parıltı göründü. Titrəyən əlləri ilə kreslonun dəstəyindən çətinliklə elə yapışdı ki, oynaqları xırçıldadı, ayağa qalxdı.

– Necə? – gözlərində ayıq bir ifadə canlanmış halda dedi. – Uçub gəlibsən? Haradan uçub gəlibsən?

– Yerdən, – hirslə cavab verdim. – Bəlkə, sən onun haqqında eşidibsən? Deyəsən, yox!

– Yer... Böyük göy!.. Demək, sən Kelvinsən?

– Hə. Sən niyə belə baxırsan? Burada təəccüblü nə var?

– Heç nə, – gözlərini cəld qırparaq cavab verdi. – Heç nə.

O, alnını sildi.

– Kelvin, məni bağışla. Bu, bilirsən, sadəcə, gözləmədiyimdəndir. Gözləmirdim.



– Necə yəni gözləmirdin? Axı siz bir neçə ay bundan əvvəl məlumat alıbsınız, Moddard isə bu gün «Prometey»-dən radio ilə bir də xəbər verib.

– Hə. Hə... Əlbəttə... Ancaq görürsənmi, bu gün burada bir qədər... səliqəsizlikdir...

– Görürəm, – mən quru tərzdə dedim. – Bunu görməmək çətindir.

Snaut mənim skafandrıma baxaraq ətrafımda fırlandı; sinəsində bir yığın xətləri və kabelləri olan ən adi skafandr idi. Bir neçə dəfə öskürdü, sümüklü burnunu əlləşdirdi.

– Vanna qəbul eləmək istəyirsən? Səni gümrahlaşdırar. Əks istiqamətdəki mavi qapıdan keç.

– Sağ ol. Mən Stansiyanın planını bilirəm.

– Bəlkə, sən acsan?

– Yox. Qibaryan haradadır?

O, sanki, mənim sualımı eşitmədi, pəncərəyə yaxınlaşdı. Arxadan hədsiz dərəcədə qoca görünürdü. Qısa vurulmuş saçları çallaşmışdı, günəşdə yanmış boynu çapıqlara oxşar dərin qırışlarla örtülmüşdü. Pəncərənin arxasında dalğalar silsiləsi parıldayırdı, sanki, okean donmuşdu. Ora baxanda adamda belə təəssürat yaranırdı ki, Stansiya azacıq yanakı hərəkət eləyir, sanki, görünməyən bünövrənin üzərindən sürüşür. Sonra o, yenidən normal vəziyyətinə qayıtdı və yenidən tənbəlcəsinə əyilərək baş-

qa istiqamətə doğru getdi. Amma bu, yəqin ki, aldadıcı görünüş idi. Dalğaların arasındakı çökəklərə qan rəngində selikli köpük qalaqları yığılırdı. Bir andan sonra mən ürəkbulanması hiss elədim.

– Qulaq as... – gözlənilmədən Snaut sözə başladı. – Hələlik yalnız mən... – O, geri döndü. Əsəbicəsinə əllərini ovuşdurdu. – Sən mənimlə birlikdə olmaqla kifayətlənəcəksən. Hələlik. Məni Xorek deyə çağır. Sən məni ancaq şəklimə görə tanıyırsan, amma bu, boş şeydir, hamı məni belə çağırır. Qorxuram, burada heç nə eləyə bilməyəsən.

– Qibaryan hanı? – mən inadla soruşdum.

O, gözlərini qırpdı.

– Səni belə qəbul elədiyim üçün çox təəssüflənirəm. Bu... təkcə mənim günahım deyil. Tamam unutmuşam, burada o qədər hadisələr baş verib, bilirsən...

– Vecinə alma, hər şey qaydasındadır, – mən cavab verdim. – Bunu bir tərəfə qoy. Hə, hər halda, Qibaryana nə olub? O, Stansiyada deyil? Harasa uçub gedib?

– Yox, – kabel çarxları ilə doldurulmuş küncə baxan Snaut cavab verdi. – O, heç yerə uçmayıb. Uçmayacaq da. Çünki o...

– Nə olub? – soruşdum, sanki, qulaqlarım yenidən tutuldu və mən ağır eşitməyə başladım. – Sən nə demək istəyirsən? O, haradadır?

– Sən artıq bilirsən, – Snaut tamamilə başqa tonda dedi.

O, gözlərimin içinə soyuqcasına baxdı. Dərimin üzərində, sanki, qarışqalar gəzirdi. Bəlkə, Snaut sərxoş idi və nə danışdığını bilmirdi.

– Axı, hər halda, bir iş olmayıb?

– Olub.

– Bədbəxt hadisə?

O, başıyla təsdiq elədi. Təkcə təsdiq eləmədi, həm də eyni zamanda, mənim bu xəbərə necə reaksiya verəcəyimə də diqqət yetirdi.

– Nə vaxt?

– Bu gün səhər.

Qəribə iş idi, mən sarsıntı hissi keçirmədim. Bütün bu qısa suallar və cavablar, deyəsən, öz işgüzarlığı ilə məni

sakitləşdirdi. Mənə elə gəldi ki, artıq Snautun özünü belə aparmasının səbəbini başa düşürəm.

– Bu, necə baş verdi?

– Rahatlan, şeylərini yerbəyer elə və bura qayıt... Hə, deyək ki, bir saatdan sonra.

Bir anlığa tərəddüd elədim.

– Yaxşı.

– Dayan, – mən qapılara doğru dönəndə Snaut dedi. O, mənə nəsə xüsusi baxışlarla baxırdı. Hiss olunurdu ki, o, demək istədiklərini deməyə heç cür cürət etmir. – Biz üç nəfərdik, indi səninlə yenidən üç nəfərik. Sən Sartoriusu tanıyırsan?

– Səni tanıdığım kimi. Şəklinə görə.

– O, yuxarıda, laboratoriyadadır və mən onun oradan axşama kimi çıxacağını güman eləmirəm, amma... hər bir halda, sən onu tanıyacaqsan. Əgər kimisə, başqasını, nə məni, nə də Sartoriusu yox, görərsənsə, başa düşürsən də, onda...



– Onda nə?

Mənə elə gəlirdi ki, hər şeyi yuxuda görürəm. O, aşağı enmiş günəşin şüaları altında qan rəngində parıltılar saçan qara dalğaların fonunda başını aşağı salaraq oturmuşdu və sarınmış kabellər olan küncə baxırdı.

– Onda... Heç nə eləmə.

– Mən kimi görə bilərəm? Ruhları? – mən qışqırdım.

– Başa düşürəm. Elə düşünürsən ki, mən ağlımı itirmişəm. Hələ yox. Sənə başqa cür deyə bilmərəm, hələlik... Nəhayət ki, bəlkə də, heç nə baş vermədi. Hər ehtimala qarşı yadında saxla. Mən səni xəbərdar eləmək istəyirəm.

– Nədən? Sən nədən danışırsan?

– Özünü ələ al, – o, inadla öz sözünü deyirdi. – Elə hərəkət elə, sanki... hər şeyə hazır ol. Bu, mümkün deyil, mən bilirəm. Amma sən sına da. Bu, yeganə çıxış yoludur. Başqasını mən bilmirəm.

– Amma mən nə görəcəyəm? – yəqin, bu sözləri qışqıraraq dedim. O, günəşdə yanmış, üzgün sifətini küncə doğru çevirib oturaraq, aşkar bir səylə, hər sözü özündən zorla dartıb çıxarmaq üçün gücənməsin deyə, mən Snautun çiyinlərindən yapışıb onu necə lazımsa, elə də silkələməkdən özümü güclə saxlayırdım.

– Bilmirəm. Bəzi hallarda bu, səndən asılıdır.

– Hallüsinasiya?

– Yox. Bu, realdır. Hü... hücum eləmə. Yadında saxla.

– Sən nə danışırsan?! – mən öz səsimi tanımadım.

– Biz Yerdə deyilik.

– Politeriya. Amma axı bu, tamamilə insanlara oxşamır! – Mən bu qorxulu yuxudan necə çıxacağımı bilmirdim, qanı buza döndərən bu mənasız sözləri o, bu qorxulu yuxunun içindən dartıb qopardırdı.

– Məhz ona görə də bu, belə qorxuncdur, – o, sakitcə dedi. – Yadında saxla, ayıq ol!

– Qibaryana nə olub?

O cavab vermədi.

– Sartorius neyləyir?

– Bir saatdan sonra gəl.

Mən döndüm və çıxdım. Qapını açaraq Snauta bir dəfə də baxdım. O, üzünü əlləriylə örtərək bükülüb oturmuşdu. Yalnız indi mən onun sümüklü barmaqlarının qandan qızardığını gördüm.

## SOLYARİSÇİLƏR

Girdə dəhliz boş idi. Bir anlığa bağlı qapının qabağında durub qulaq asdım. Divarlar, yəqin, nazik idi, çöldən küləyin vıyıltısı eşidilirdi. Qapının üstündə bir qədər çəpinə üzərində karandaşla «İnsan» yazılmış düzbucaqlı lövhə səliqəsizcəsinə asılmışdı. Aydın olmayan tərzdə yazılmış söz məndə Snautun yanına qayıtmaq arzusu oyatdı, amma mən bunun mümkün olmadığını başa düşdüm.

Mənasız xəbərdarlıq hələ də qulaqlarımda səslənirdi. Sanki, görünməyən müşahidəçidən şüursuz halda gizlənərək beş qapısı olan girdə otağa qayıtdım. Üç qapının üstündən «D-r Qibaryan», «D-r Snaut», «D-r Sartorius» sözləri yazılmış lövhə asılmışdı. Dördüncünün üzərində lövhə yox idi. Tərəddüd eləyərək dəstəyi fırladım. Qapı ağır-ağır açılana qədər məndə əminliklə hüdudlanan belə bir hiss yaranmışdı ki, otaqda kimsə var. Mən içəri keçdim.

Otaqda heç kim yox idi. Qabarıq pəncərə okeana baxırdı, okean günəşin şəfəqləri altında yağlı parıltılarla

işıldayırdı; sanki, dalğalardan qırmızı yağ axırdı. Gəmi kayutuna oxşayan otağa fırfıralı parıltı hakim idi. Otağın bir divarı boyunca kitabla dolu rəflər düzülmüşdü, onların arasında üfüqi şəkildə karton asmalı çarpayı bərkidilmiş, nikelli çərçivələrdə planetin fotoşəkilləri asılmışdı. Metal torlarda ağzı pambıqla tıxanmış kolbalar dimdik durmuşdu. Pəncərənin altında iki cərgə ilə alətlərlə dolu olan emallı yeşiklər düzülmüşdü. Küncdə kranlar, sorucu şkaf, soyuducu qurğular var idi, mikroskop döşəmənin üzərindəydi, onun üçün pəncərənin yanındakı uzun stolun üzərində yer tapılmamışdı.

Mən geri döndüm və giriş qapısının yanında hündürlüyü tavana qədər olan açıq qapılı şkafı gördüm. Şkafda kombinezonlar, iş xalatları və qoruyucu xalatlar, rəflərdə ağlar, radiasiya əleyhinə olan çəkmə boğazlıqlarının arasında daşına bilən oksigen aparatları üçün alüminium balonlar işıldayırdı. Maskalı iki cihaz çarpayının tutacağından asılmışdı. Hər yerdə, sanki, sahmana salınmış xaos vardı.



Havanı ciyərlərimə çəkdim və kimyəvi reaktivlərin yüngül qoxusunu hiss elədim. Mexaniki olaraq gözlərimlə havatəmizləyənin barmaqlıqlarını axtardım. Onun üzərinə yapışdırılmış kağız parçaları yüngülcə titrəyərək kompressorların havanın normal dəyişməsini saxlayaraq işlədiyini göstərirdi. Kitabları, cihazları və alətlərlə birlikdə iki kreslonu küncə apardım, bütün bunları necə gəldi yığdım, şkafla rəflər arasında nisbətən boş bir sahə yarandı. Sonra skafandrı asmaq üçün asılqanı aşağı çəkdim və artıq skafandrın birləşdirici zəncirini açmaq istəyirdim ki, dərhal da əlimi çəkdim. Mən heç cür skafandrı çıxartmaq qərarına gələ bilmirdim; sanki, belə eləsəydim, müdafiəsiz qalacaqdım. Bir daha otağı nəzərdən keçirtdim. Qapı möhkəmcə bağlanmışdı, amma onun üzərində qıfıl yox idi və çox da düşünmədən iki ağır yeşiyi arxasına söykədim.

Barrikada qurandan sonra öz ağır, cırıldayan qabığımdan xilas oldum. Şkafın yuxarısındakı ensiz güzgü otağın bir hissəsini göstərirdi. Gözümün kənarı ilə hansısa bir hərəkəti sezib ayağa sıçradım, amma dərhal da bunun öz əksim olduğunu başa düşdüm. Skafandrın altındakı kombinezon tərləmişdi. Onu çıxartdım və şkafı itələdim. Şkaf

kənara çəkildi və divardakı oyuqda miniatür hamam otağının divarları işıldamağa başladı. Döşəmədə duşun altına olduqca böyük, yastı yeşik qoyulmuşdu. Yeşiyi çətinliklə sürüyüb otağa gətirdim. Onu döşəməyə qoyanda qapağı yaylıymış kimi açıldı və orada qəribə alətlərlə dolu olan bir bölmə gördüm. Yeşik ağzına kimi dəhşətli dərəcədə eybəcər hala salınmış qara metaldan olan alətlərlə dolu idi. Onların hamısı heç nəyə kara gəlməzdi, formasız, burulmuş, baş tərəfləri kəsilmiş haldaydı; sanki, yanğından çıxarılmışdılar. Ən qəribəsi bu idi ki, hətta keramikalar da bu cür zədələr almışdı, yəni tutacaqları ərimişdi. Heç bir laboratoriya sobasında onları əritməyə qadir olan istiliyi almaq olmazdı, bircə atom qazanının içərisi istisna olmaqla. Skafandrımın cibindən yığcam dozimetrimi çıxartdım, amma qara zummeri[1] alətlər qalağına yaxınlaşdıranda cihaz siqnal vermədi.

Əynimdə yalnız çimərlik alt paltarı və tor köynək var idi. Mən onları döşəmənin üzərinə atıb duşun altına girdim. Su məni yüngülləşdirirdi. İsti, möhkəm su şırnağının altında əyilir, bədənimi masaj eləyir, fınxırır və bütün bunları, nədənsə, qədərindən artıq eləyirdim, sanki, özümdən Stansiyanı bürüyən bu vahiməli, şübhə ilə dolu olan inamsızlığı kənarlaşdırmaq istəyirdim.

Şkafdan skafandrın altından geyilməsi mümkün olan yüngül məşq kostyumu tapdım və özümün cüzi əşyalarımı cibimə qoydum. Bloknotun vərəqlərinin arasında nəsə möhkəm bir şey hiss elədim, bu, hansısa möcüzə nəticəsində bura düşmüş Yerdəki mənzilimin açarı idi. Onunla neyləyəcəyimi bilmədən açarı əlimdə fırlayırdım, sonra stolun üzərinə qoydum. Ağlıma belə bir fikir gəldi: hansısa bir silahım olsaydı, heç də pis olmazdı. Çoxdilli cib bıçağı bunun üçün az yarayırdı, amma başqa bir şeyim də yox idi və mən hələ hansısa bir nüvə şüalandırıcısı və ya bu kimi nəsə axtarmaq səviyyəsinə də gəlib çatmamışdım. Bütün əşyalardan təmizlənmiş boş sahənin ortasındakı metal stulun üzərində oturdum. Mən tək qalmaq istəyirdim. Məmnunluqla hiss elədim ki, hələ yarım saat vaxtım var – iyirmi dörd saatlıq siferblatda rəqəmlər yeddini göstərirdi. Günəş batırdı. Burada yerli saatla yeddiydisə, «Prometey»

[1] Zummer – səs siqnalları vermək üçün elektrik cihazı

gəmisində saat iyirmiydi. Moddardın ekranlarında, yəqin, Solyaris qığılcım ölçülərinə qədər kiçilmişdi və ulduzlardan heç nə ilə fərqlənmirdi. Amma mənim «Prometey»ə nə dəxlim var idi? Gözlərimi yumdum. Ətrafa tam bir sükut hakim kəsilmişdi, yalnız hamamda su damcıları sakitcə kafelin üzərinə damcılayırdı.

Qibaryan ölmüşdü. Əgər mən Snautu yaxşı başa düşdümsə, onun ölümündən cəmisi bir neçə saat keçmişdi.

Onun meyitini neyləmişdilər? Dəfn eləmişdilər? Doğrudur, Solyarisdə bunu eləmək mümkün deyildi. Mən bunu bir müddət düşündüm, sanki, ölünün taleyi mənim üçün belə mühüm imiş. Belə düşüncələrin mənasızlığını dərk eləyərək ayağa qalxdım və hara gəldi atılmış kitabları ayağımla itələyərək, otaqda gəzişməyə başladım. Sonra tutqun şüşədən olan mehtərəni döşəmədən qaldırdım, mehtərə elə yüngüldü, sanki, onu kağızdan hazırlamışdılar. Mehtərənin arxasından tutqun halda şölələnən qürubun axırıncı şəfəqlərinin çirkli dumanı ilə örtülmüş pəncərədən çölə baxdım. Mənə nə olmuşdu? Nəyə görə axmaq işlərlə, hansısa cəfəngiyatla məşğul olurdum?



Mən diksindim – işıq yandı. Şübhəsiz, fotoelementlər qaranlığın düşməsinə reaksiya verirdi. Varlığıma bütünlüklə gözləmə hissi hakim kəsilmişdi; gərginlik o həddə qədər çatmışdı ki, artıq arxamda heç kimin olmadığını hiss eləməyə qadir deyildim. Bununla qurtarmaq lazım idi.

Kreslonu rəflərə tərəf itələdim, Hyuqa və Eqlin «Solyarisin tarixi» kitabının mənə yaxşı tanış olan ikinci cildini götürdüm və ağır, möhkəm cildi dizlərimin üzərinə qoyaraq kitabı vərəqləməyə başladım.

Solyaris, demək olar ki, mən anadan olan ildən yüz il əvvəl kəşf edilmişdi. Planet iki günəşin ətrafında fırlanır – qırmızı və mavi günəşlərin. Qırx ildən artıq bir müddətdə ona bircə dənə də olsun, belə kosmik gəmi yan almır. Eyni zamanda, Qamova-Şeplinin ikiulduzlu planetlərdə həyatın olmaması nəzəriyyəsi də şübhə doğurmur. Belə planetlərin orbitləri iki günəşin qarşılıqlı dövr etmələri nəticəsində cazibə qüvvələri daim olmadığından fasiləsiz olaraq dəyişir.

Cazibə sahəsində meydana gələn dəyişikliklər ya planetin orbitlərini ixtisara salır, ya da dartıb uzadır və həyat rüşeymləri yaranmış olsalar belə, yandırıcı istidən və ya

kosmik soyuqdan məhv olacaqlar. Belə dəyişikliklər müntəzəm olaraq bir neçə milyon ildən sonra baş verir, daha doğrusu, astronomik və bioloji ölçülərlə götürülərsə, olduqca qısa zaman kəsiyində... Belə ki, təkamül milyard illər olmasa da, yüz milyon illər tələb eləyir.

Qabaqcadan hesablamalara görə, Solyaris beş yüz min ildən sonra qırmızı günəşə qədər olan məsafəni yarı eləyəcəkdi, bundan bir milyon il sonra da onun közərən boşluğuna düşəcəkdi. Lakin bir neçə ildən sonra məlum oldu ki, planetin orbiti gözlənilən dəyişikliklərə məruz qalmayacaq, sanki, o, daimi idi, eynən bizim günəş sisteminin planeti kimi.

Bu dəfə mümkün qədər maksimal dəqiqliklə hesablamalar və müşahidələr aparıldı, bunlar da artıq məlum olanları təsdiq elədi: Solyarisin daimi orbiti var. Əgər buna qədər Solyaris cəmi-cümlətanı hər il kəşf edilən, sorğu kitabçalarında hərəkət elementlərinin təsvir edilməsinə bir neçə cümlə həsr olunan yüzlərcə planetdən biri idisə, indi o, yubanmadan ən layiqli diqqət tələb eləyən göy cisimləri cərgəsinə keçmişdi.

Bundan dörd il sonra planetə Ottenşeldin ekspedisiyası uçdu; o, Solyarisi «Laokoona»nın və iki yardımçı kosmik gəminin köməyi ilə öyrəndi. Bu ekspedisiya ilkin kəşfiyyat xarakteri daşıyırdı, həm də ekspedisiya planetin üzərinə enə bilməmişdi. Alimlər ekvator və qütb orbitlərinə böyük miqdarda avtomatik-sputnik-kəşfiyyatçılar buraxmışdılar. Sputniklərin əsas vəzifəsi cazibə potensialının ölçülməsi idi. Bundan əlavə, planeti bütünlüklə əhatəyə alan okean və okeandan baş qaldıran azsaylı yaylalar da öyrənilmişdi. Onların ümumi sahəsi Avropanın sahəsindən az idi, halbuki Solyarisin diametri Yerin diametrindən iyirmi faiz böyükdü. Bu necə gəldi səpələnmiş qayalıq parçalar və boş ərazilər başlıca olaraq cənub yarımkürəsində idi. Oksigendən məhrum olan atmosferin də tərkibi müəyyən edilmişdi və planetin möhkəmliyi, albedo və digər astronomik göstəriciləri son dərəcə dəqiqliklə ölçülmüşdü. Əvvəldən də təxmin edildiyi kimi, nə qurunun acınacaqlı hissələrində, nə də okeanda həyat əlaməti tapılmamışdı.

Sonrakı on il ərzində indi bu rayonun bütün müşahidəçilərinin diqqət mərkəzində olan Solyaris hər cür

şübhədən kənar olaraq, öz orbitinin stabil olmayan cazibə sahəsini qorumağa şübhəli bir tendensiya nümayiş etdirməyə başladı. Bir müddət bu işdən rüsvayçılıq qoxusu gəldi, belə nəticələr üçün günahı (elmin rifahına qayğı üçün) gah müəyyən adamların, gah da onların istifadə elədikləri hesablayıcı maşınların üzərinə yıxmağa cəhd eləyirdilər.

Maliyyə vəsaitinin olmaması üzündən xüsusi solyarisçilər ekspedisiyasını yola salmaq mümkün olmurdu. Bu, öz komandasını yığan Şennonun institutdan üç ədəd kosmodrom sinifli «S» tonnajlı gəmi almasına qədər davam elədi. Ekspedisiyanın gəlişinə il yarım qalmış institutun tapşırığı ilə digər təhqiqat qrupu Solyarisətrafı orbitə avtomatik «Ay-247» peykini çıxartdı. Bu peyk on il ara verən üç yenidənqurma işlərindən sonra bugünkü günə qədər işləyir. Onun topladığı məlumatlar Ottenşeldin okeanın hərəkətinin aktiv xarakteri haqqındakı nəticələrini tamamilə təsdiq eləyirdi.



Şennonun bir kosmik cihazı uzaq orbitdə qaldı, ikisi isə ilkin hazırlıqlardan sonra planetin cənub qütbünün altı yüz kvadratmilini əhatə eləyən qurunun qayalıq hissəsinə endi. Ekspedisiyanın işi on səkkiz aydan sonra qurtardı və cihazların nasazlığı ucbatından yaranan bir bədbəxt hadisə istisna olunmaqla çox uğurla keçdi. Lakin ekspedisiyanın alimləri iki düşmən düşərgədə qərar tutmuşdular. Mübahisənin mövzusu okean idi. Təhqiqatların nəticəsində o, üzvi materiya kimi qəbul olunmuşdu (kimsə onu canlı adlandırmaq qərarına gəlməmişdi). Əgər bioloqlar onda tamamilə ibtidai olan (onlar onu «biologiyadan əvvəlki quruluş» adlandırırdılar), bir nəhəng maye qəfəsin parçalanması nəticəsində yaranan, bəzi yerlərdə dərinliyi bir neçə milə çatan həlməşik selikli qişa şəklində bütün planeti əhatəyə alan orqanizmləri görürdülərsə, astronomlar və fiziklər bunun son dərəcə yüksək mütəşəkkilliyə malik bir quruluş olduğunu təsdiq eləyirdilər; onların fikrincə, bu quruluş əgər planet orbitinin formasına nüfuz eləmək iqtidarındaydısa, öz mürəkkəbliyinə görə Yerdəki orqanizmləri üstələyirdi. Solyarisin stabilliyini izah eləyən başqa heç bir səbəb tapılmamışdı. Bundan əlavə, fiziklər okean plazmasında gedən müəyyən proseslər arasında və «okean maddələ-

rinin şəklini dəyişməsindən» asılı olan cazibə potensialının lokal titrəyişləri arasında əlaqə olduğunu müəyyən eləmiş-dilər.

Beləliklə də, bioloqlar yox, fiziklər bizim dərkimizə görə canlı olmayan, amma astronomik ölçülərlə müəyyən məq-sədə yönələn hərəkətlərə qadir olan «plazma maşını»nın qeyri-adi və dəqiq formasını irəli sürmüşdülər.

Bu mübahisə burulğan kimi bütün görkəmli alimləri bir neçə həftə ərzində özünə cəlb elədi, Qamova-Şepli doktrinası səksən il ərzində ilk dəfə olaraq laxladı.

Bir müddət okeanın həyatla heç bir ümumi cəhətlərinin olmadığını, hətta onun buxarlandırmaq qabiliyyətinə malik olmadığını, amma bütün ehtimallara görə yalnız ağırlıq gücünün vasitəsilə Solyaris orbitinin stabilləşməsinə təsir eləməyə qadir olan qeyri-adi quruluş olduğunu təsdiqlə-yərək, hələ də onu müdafiə etmək istədilər, bu zaman da Le Şatalye qanununa istinad elədilər.

Konservatizmin əksinə olaraq, başqa fərziyyələr də yaranırdı (məsələn, ən çox təsdiq edilmiş Çivita-Vitti fər-ziyyəsi). Bu fərziyyəyə əsasən, okean dialektik inkişafın nəticəsində yaranıb, öz ilkin okeana oxşar vəziyyətindən – kimyəvi maddiyyatın zəif reaksiya verən məhlulundan xarici mühitin təsiri altında (yəni orbitin dəyişməsi nəticəsində onun varlığını təhlükə altına alan) inkişafın bütün yer mər-hələlərindən yan keçərək, bir və çoxqəfəsli orqanizmlərin, heyvanların və bitkilərin yaranma təkamülündən yan keçə-rək birbaşa «homeostatik» okean mərhələsinə sıçramışdı. Başqa sözlə desək, yer orqanizmləri kimi yüz milyon illər ərzində, yalnız belə uzun müddətdən sonra şüurlu irqçiliyə başlamaq üçün yaşayış şəraitinə uyğunlaşmamışdı, dərhal ortamın sahibinə çevrilmişdi.

Bu, tamamilə orijinal idi, amma heç kim həlməşik siropun göy cisimlərinin orbitini necə stabilləşdirdiyini bilmirdi. Artıq qravitatorlar – süni güc və cazibə sahəsi yaradan avadanlıqlar çoxdan məlum idi. Amma heç kim qravitatorda mürəkkəb nüvə reaksiyaları və yüksək tempe-ratur nəticəsində yaranan nəticəyə formasız mayenin necə nail olduğunu təsəvvür eləyə bilmirdi. Qəzetlərdə oxucu-ları məmnun edən, alimləri qeyzləndirən «Solyarisin sir-ləri» mövzusunda mənasız uydurmalar baş alıb gedirdi;

məsələn, yazırdılar ki, planetin okeanı... Yer elektrik kükrəyişlərinin uzaq qohumudur.

Tədqiqatlar göstərdi ki, okean bizim qravitatorlarda istifadə olunan prinsiplər üzrə hərəkət eləmir (yeri gəlmişkən, bu mümkün də ola bilməzdi). O, vasitəsiz olaraq zamanın əyri boşluğunun modelini hazırlayırdı – deyək ki, bu da planetin eyni meridianlarında zaman dəyişikliyinə gətirib çıxartdı. Beləliklə, okean təkcə özünü təmsil eləmir, amma (hansı ki bu sözləri bizim haqqımızda demək olmaz) Eynşteyn–Bovi nəzəriyyəsinin nəticələrindən istifadə eləməyi də bacarırdı.

Bu məlum olanda elm aləminə çaxnaşma düşdü – bizim yüzilliyin ən böyük tufanı! Ən nüfuzlu, hər yerdə sarsılmaz hesab edilən nəzəriyyələr toz kimi havaya uçdu, elmi ədəbiyyatda isə tamamilə erotik məqalələr görünməyə başladı, «dahi okean», «cazibə mayesi» alternativləri beyinləri coşdururdu.



Bütün bunlar mən anadan olmamışdan uzun illər əvvəl baş verib. Mən məktəbə gedəndə Solyaris sonradan müəyyən edilən faktlar əsasında yaşamağın mümkün olduğu, amma yalnız bir sakini olan planet kimi qəbul edilmişdi.

Mənim mexaniki olaraq vərəqlədiyim Hyuqa və Eqlin ikinci cildi sistemləşdirmədən başlayırdı, orijinal olduğu qədər də əyləncəli idi. Təsnifat cədvəli növbə ilə təqdim olunmuşdu: nümunə – Politeriya, sinif – Metamorfa, dəstə – Sintsitaliya. Sanki, biz bu növün Allah verən neçə nümunəsinin olduğunu bilirdik, əslində isə yalnız bir növü vardı, doğrudur, on yeddi milyon ton ağırlığında.

Barmaqlarımın altında rəngli diaqramlar, çertyojlar, təhlillər, spektoqramlar xışıldayırdı. Bu qalın kitabın nə qədər içərilərinə doğru gedirdimsə, bir o qədər də çox riyazi formullar gözlərim önündən keçib-gedirdi. Düşünmək olardı ki, qaranlıq gecədə stansiyanın metal dibindən bir neçə metr aşağıdakı bu Metamorfa sinfinin nümayəndələri haqda təsəvvürümüz müfəssəldir.

Mən çatırtı ilə qalın cildi yerinə qoydum və digərini götürdüm. O, iki hissəyə ayrılmışdı. Birinci hissə saysız-hesabsız, məqsədi okeanla əlaqə yaratmaq olan təcrübələrin eksperimental protokollarına həsr olunmuşdu. Bu

kontaktın müəyyən edilməsi mənim tələbəlik illərimdə sonsuz lətifələrin, lağlağıların və istehzaların mənbəyinə çevrilmişdi. Orta əsrlərin sxolastik nəzəriyyəsi, həqiqətiylə göz qamaşdıran bu problemin doğduğu həmin cəngəlliklərlə müqayisədə daha şəffaf olmuşdu.

İlk əlaqənin müəyyən edilməsi cəhdi hər iki tərəfə göndərilən impulsların şəklini dəyişən elektron cihazların köməyi ilə olmuşdu, həm də okean bu cihazların işində aktiv iştirak eləyirdi. Amma bütün bunları tam qaranlıqda eləyirdilər. İştirak eləyirdi – nə deməkdir? Okean ona yüklənən avadanlıqların bəzi elementlərinin şəklini dəyişir, nəticədə impuls ritmlərinin yazılan nəticələri dəyişir, qeydə alan cihazlar çoxlu siqnal müəyyən eləyirdi. Amma bütün bunlar nə deməkdi? Bəlkə, bu, oyanan okeanın ani vəziyyəti haqdakı məlumatlar idi? Bəlkə, bu, okeanın yer həqiqətlərini əks elətdirməsinin görünməyən elektron dillə ifadəsi idi? Bəlkə, bu, sənət əsəri idi? Bəlkə, onun nəhəng yaranışının əmələ gəlməsinin çağırış impulsları, haradasa, tədqiqatçılardan min mil uzaqda idi? Əgər eyni siqnala iki dəfə eyni reaksiyanı almaq mümkün olmurdusa, bunu kim bilə bilərdi? Əgər bir dəfə cavab, az qala, cihazları məhv eləyəcək impulsların tam partlayışı olurdusa, növbəti dəfə cavab səssiz sükutla müşayiət olunurdu! Əgər heç bir tədqiqatı təkrar eləmək mümkün olmasaydı!..

Bütün müddət ərzində adama elə gəlirdi ki, biz ara vermədən artıb-çoxalan qeydlərin şifrlənməsinin bircə addımlığındayıq, bundan ötrü məxsusən belə qabiliyyətlə informasiyaları yenidən işləyə bilən, indiyə kimi hansısa problemdən ötrü tələb olunmayan elektron beyinlər hazırlanırdı. Doğrudan da, müəyyən nəticələr əldə olunurdu. Okean – elektrik, maqnit, cazibə impulslarının mənbəyi idi – sanki, riyaziyyat dili ilə danışırdı; onun bəzi növlərinin elektrik boşalması mümkündür, daha çox yer təhlilinin abstrakt metodlarından, çoxluq nəzəriyyəsindən yararlanaraq bunu təsnif etmək olar; fizikanın sonu olan, sonsuz həcmlər, hissəciklər və sahələr, enerji ilə maddə arasındakı qarşılıqlı əlaqəni öyrənən bölməsinin köməyi ilə quruluşun xüsusiyyətlərini ayırd eləmək mümkün oldu. Bütün bunlar alimləri bu nəticəyə gətirdi ki, onların qarşısındakı

düşünən varlıqdır, bütün planetin protoplazma[1] dəniz-beynini örtən nəhəngcəsinə böyüyənə oxşardır, hansı ki qeyri-adi nəzəri tədqiqat mahiyyətinin öz vüsətinə görə bütün mövcud olanlara vaxt sərf eləyir, bizim cihazların ələ keçirdikləri isə yalnız okeanın dərinliklərində əbədi davam eləyən, bizim dərkimizin hər cür imkanlarını üstələyən nəhəng monoloqun qırıq parçaları, təsadüfən bu qırıq parçalara qulaq asmaqdan ibarət olurdu.

Bəziləri bu fərziyyələri insanın imkanlarına sayğısızlıq kimi, bizim hələ başa düşmədiyimiz nəyinsə qarşısında pərəstiş kimi dəyərləndirirdilər, amma qədim doktrinanın "ignoramus et ignorabimus" (Bilmirik və bilməyəcəyik də) xortlamasından nə başa düşmək olar? Bəziləri bunu ziyanlı və faydasız yalan-palanlar hesab eləyirdilər: belə ki, nəhəng beyində – fərqi yoxdur, elektron və ya plazma – ən ali var olmanın məramını – varlığını, məcmusunu görən riyazi ehtimallarda bizim zamanın əfsanəsi yaranmağa başlayırdı.



Digərləri həm də... amma tədqiqatçılar və nəzəriyyələr hədsiz çox idi. Bununla belə, «əlaqə yaratmaqdan» başqa digər problemlər də mövcud idi... Solyaristikanın elə qolları vardı, orada ixtisaslaşma o qədər uzaqlara getmişdi, xüsusilə də yüzilliyin axırıncı dörddəbir hissəsində, demək olar ki, solyarist-kibernetik solyarist-simmetriadoloqu başa düşə bilmirdi. «Əgər siz bir-birinizi başa düşmürsünüzsə, okeanı necə başa düşə bilərsiniz?» – bir dəfə mənim tələbəlik illərimdə institut direktoru olan Veybek zarafatla soruşdu. Bu zarafatda böyük həqiqət var idi.

Hər halda, okean təsadüfən Metamorfa sinfinə aid edilməmişdi. Onun dalğalı səthi yerdəkilərə qətiyyən oxşamayan ən müxtəlif formalara başlanğıc verə bilərdi, həm də məqsəd – uyğunlaşdırılmış, dərk edilən və ya başqa olsa da – bəzən plazma kütləsinin son dərəcə coşqun fışqırtısı büsbütün müəmmalı idi.

Ağır cildi yerinə qoyandan sonra düşündüm ki, kitabxananı dolduran bizim Solyaris haqdakı məlumatlarımız faydasız ballast və faktlar qəbiristanlığıdır və yetmiş səkkiz il bundan əvvəl onları harada üst-üstə yığmışdılarsa, biz

---

[1] Protoplazma – heyvan və bitki orqanizmi hüceyrəsinin əsasını təşkil edən maddə

də indi həmin yerdə təpik döyürdük. Lap dəqiqi, vəziyyət daha pis idi, çünki bu neçə illər çəkilən zəhmət hədər getmişdi.

Yəqin, bizim bildiklərimiz yalnız inkaretmə sahəsinə aid idi. Okean mexanizmlərdən istifadə eləmir və onları yaratmırdı, halbuki müəyyən şəraitlərdə buna qadir ola bilərdi. Okean ona yüklənən bəzi cihazların hissələrini artırıb çoxaldırdı, amma o, bunu birinci və ikinci tədqiqat işləri vaxtı eləyirdi, sonra bizim cəhdimizi inadla yeniləməyimizə reaksiya vermədi, sanki, bizim bütün cihazlara, avadanlıqlara olan marağını itirdi (buna uyğun olaraq bizim özümüzə də). Okeanın – mən özümüzün neqativ məlumatlarımızı təkrarlamaqda davam eləyirəm – heç bir əsəb sistemi, qəfəsi, zülalları xatırladan quruluşları yox idi, amma heç də həmişə qıcıqlanmaya reaksiya vermirdi, hətta ən güclülərinə də. (Məsələn, Qezenin ikinci ekspedisiyası zamanı köməkçi raketin qəzasına qətiyyən reaksiya verməmişdi, raket planetin üç yüz metr yüksəkliyində dağılmış, özünün atom mühərrikini mil yarım məsafəni əhatə eləyən partlayışı ilə məhv eləmişdi.)

Tədricən elmi dairələrdə «Solyaris əməliyyatı» «uduzma əməliyyatı» kimi səslənməyə başlamışdı, xüsusilə də institutun elmi müdiriyyətində; burada axır illərdə sonrakı tədqiqatlar üçün dotasiyalar verilməsini qadağan eləyən səslər ucalırdı. Stansiyanın bütünlüklə ləğv edilməsini deməyə heç kimin cürəti çatmırdı; bu, məğlubiyyətin tamamilə etiraf edilməsi kimi başa düşülərdi. Yeri gəlmişkən, bəziləri şəxsi söhbətlərində bizə lazım olan hər şeyi deyirdilər, bu söhbətlərin mövzusu da «Solyaris fırıldağı»nın daha «hörmətlə» uzaqlaşdırılması olurdu.

Çoxları üçün, xüsusilə də gənclər üçün «fırıldaq» tədricən öz dəyərlərinin sınaq daşına çevrilirdi. «Həqiqətdə, – onlar deyirdilər, – solyarist sivilizasiyasının öyrənilməsindən daha çox, söhbət bizim özümüz haqqında, insan dərkinin sərhədləri haqda gedir».

Müəyyən müddət ərzində ən məşhur mülahizə (gündəlik mətbuat tərəfindən səylə yayılan) Solyarisin sahillərini yuyan düşünən okeanın öz inkişafına görə bizim sivilizasiyanı milyon illərlə qabaqlayan, kosmik yoq, müdrik, hər şeyi bilməsini təcəssüm etdirən nəhəng bir beyin olması

haqqındakı mülahizə idi, hansı ki artıq çoxdan hər cür fəaliyyətin mənasızlığını başa düşüb və buna görə də (bizə olan münasibətində) qəti sükutunu qoruyub saxlayır.

Bu, sadəcə, doğru deyildi, çünki canlı okean fəaliyyət göstərirdi və insanın təsəvvür elədiyi kimi yox, başqa cür, şəhərlər, körpülər, uçan maşınlar yaratmadan, həm də fəzalara qalib gəlməyi və onu addımlayıb keçməyi sınaqdan keçirmir, amma min dəfələrlə başqa şəkillərə salmaqla – ontoloji avtometamorfoza ilə məşğul olurdu.

Digər tərəfdən solyariananın bütün mümkün hallarını inadla öyrənən insanda belə təəssürat yaranırdı ki, onun qarşısındakı intellektual konstruksiyanın dağıntılarıdır, ola bilsin, idiotizmlə dəlilik meyvəsinin heç bir sistem olmadan dahiyanə qarışdırılmasının sərhədidir. Buradan da «okean-yoqr» haqdakı təzaddan «okean-ala-səfeh» fikri yaranırdı. Bu fərziyyələri tabutdan qaldırır və qədim fəlsəfi problemlərdən birini – maddə və ruhla şüurun qarşılıqlı münasibətini canlandırırdılar. İlkin olaraq okeanın şüurlu olduğuna isnad eləmək üçün böyük cəsarət tələb olunurdu – de Haartda olduğu kimi. Metafizika tərəfindən tədricən qəbul edilən bu problem bütün mübahisə və müzakirələrin arxasından xəfifcə közərirdi. Şüur olmadan düşünmək mümkündürmü? Okeanda baş verən prosesləri «düşünmək» adlandırmaq olardımı? Dağı – çox böyük daş? Planeti – nəhəng dağ? Bu adlardan istifadə eləmək olardı, amma yeni böyük kəmiyyət səhnəyə yeni zahirolmanın yeni qanunauyğunluqlarını çıxarırdı.

Solyaris problemi bizim zamanın kvadrat dairəsinə çevrildi. Hər bir sərbəst düşünən mütəfəkkir solyaristika xəzinəsinə öz töhfəsini verirdi, bizim qarşımızdakının degenerasiyanın okeanın «intellektual böyüklüyü» mərhələsindən sonra gələn tənəzzülün məhsulu olması haqqında çoxlu nəzəriyyə yaranırdı; bu nəzəriyyələrə görə, əslində, okean qədim sakinlərinin bədənində yaranan yeni törəmədir: bu qədim sakinlər planeti məhv eləyərək udmuş, əbədi yaşayan quruluşun qalıqlarını əritmiş, onu öz-özünə cavanlaşan ali hüceyrəli orqanizmə çevirmişlər.

...Yer üzünün işığına oxşayan lampanın ağ işığında mən stolun üzərindən kitabları və cihazları götürdüm, plastmas stol üstlüyünün üzərinə Solyarisin xəritəsini sərdim. Canlı

okeanın dayaz və dərin yerləri var idi, adaları isə küləyin təmizlədiyi süxurlarla örtülmüşdü. Bu isə adaların nə vaxtsa okeanın dibi olduğunu göstərirdi. Bəlkə də, okean ondakı qaya quruluşlarının yaranmasını və yoxa çıxmasını tənzimləmişdi. Yenə də büsbütün zülmət. Xəritədəki mavi və bənövşəyi rənglərin müxtəlif çalarları ilə boyanmış nəhəng yarımkürəyə baxır, bilmirəm artıq neçənci dəfə heyrət hissi yaşayırdım; necəsə mən bu hissi ilk dəfə hələ məktəbdə oxuyanda Solyarisin varlığı haqqında eşidərkən yaşamışdım.

Bilmirəm nəyə görə, amma məni əhatə eləyən hər şey – Qibaryanın ölümünün sirri, hətta mənə naməlum olan gələcək də – indi mənə əhəmiyyətsiz görünürdü və mən heyrətləndirici xəritəyə baxarkən bu haqda düşünmürdüm.

Canlı planetin bəzi sahələri onları tədqiq eləyən alimlərin adını daşıyırdı. Ekvatorial arxipelaqlarını yuyan Qeksal dənizinə baxarkən kiminsə mənə baxdığını hiss elədim.

Mən hələ də qorxudan iflic olmuş halda xəritənin üzərinə əyilmişdim, amma artıq xəritəni görmürdüm. Qapı birbaşa mənimlə üzbəüz idi, yeşiklərlə və ona tərəf itələnən şkafla bağlanmışdı. «Bu, hansısa avtomatdır», – düşündüm, lakin bundan əvvəl otaqda heç bir avtomat olmamışdı və mən hiss eləmədən o, içəri keçə bilməzdi. Boynumun və üzümün dərisi ağır, hərəkətsiz baxışlara dözə bilmirdi. Buna görə özümə hesabat vermədən, instinktiv olaraq başımı çiyinlərimə qısıb, stola daha çox söykənirdim stol döşəməylə ağır-ağır hərəkət eləməyə başladı. Bu hərəkətdən mən özümə gəldim. Cəld geri döndüm.

Arxada heç kim yox idi. Yalnız böyük yarıqabarıq pəncərədə qaranlıq işarırdı. Amma qəribə hiss keçməmişdi. Bu formasız, nəhəng, gözsüz, sərhədi olmayan qaranlıq mənə baxırdı. Onu bircə ulduz belə işıqlandırmırdı. Stansiyada olduğum heç bir saat deyildi, amma artıq onun sakinlərində təqib olunma maniyasının nəyə görə yarandığını başa düşməyə başlamışdım. İnstinktiv olaraq bunu Qibaryanın ölümü ilə bağlayırdım. Mən onu tanıyırdım və indiyə qədər də onun şüurunu nəyinsə dumanlandıra bilməyəcəyini düşünürdüm. İndi bu əminliyim yoxa çıxmışdı.

Otağın ortasında, stolun yanında dayanmışdım. Nəfəsalma sakitləşmişdi və alnımdan axan tərin necə buxarlandığını hiss edirdim. İndicə mən nə haqqında düşünürdüm? Ah, hə, avtomatlar haqqında. Qəribədir, dəhlizdə onlardan biri ilə də qarşılaşmadım. Onlar hara yox olmuşdular? Yeganə gördüyüm avtomat o da bir qədər uzaqdan – raketodroma xidmət eləyən sistemə məxsus idi. Bəs digərləri?..

Saatıma baxdım. Snautun yanına getmək vaxtı idi.

Dəhliz zəif işıqlandırılırdı. İki qapının yanından keçdim və üzərində Qibaryanın adı görünən qapının yanında ayaq saxladım. Dəstəyi fırladım. İçəri keçmək niyyətim yox idi, amma dəstək fırlandı, qapı azacıq açıldı; yarıq bu an qaranlıq idi, sonra otaqda parlaq işıq yandı. İndi dəhlizdən keçən hər bir adam məni görə bilərdi. Cəld otağa keçdim, səssiz, amma var gücümlə qapını arxamca çəkib bağladım və dərhal geri döndüm.



Kürəyimi qapıya söykəyərək dayanmışdım. Otaq... mənim otağımdan böyük idi. Pəncərənin dörddəüç hissəsi Stansiyanın təchizatına aid olmayan, yerdən gətirilmiş, xırda, mavi və çəhrayı çiçəkləri olan pərdə ilə örtülmüşdü. Divar boyunca gümüşü-yaşıl emalla örtülmüş kitabxana rəfləri və şkaflar uzanırdı. Onların içindəkilər necə gəldi döşəməyə tökülmüş, kresloların arasında üst-üstə qalaqlanmışdı. Birbaşa qarşımda girişi kəsən iki stul var idi; stulların yarısı cırılan qovluqlardan səpələnmiş jurnal qalaqlarının altında itmişdi. Cırılmış kitablar sınan kolba və şüşələrdən axan mayeyə bulaşmışdı; bu şüşələrin divarları o qədər qalın idi ki onların nəyə görə sındıqları məlum deyildi: onlar hətta çox yüksəkdən döşəməyə düşsəydilər belə, sına bilməzdilər. Pəncərənin altında divara bənd edilən yazı stolunun üzərindəki iş lampası sınmışdı, yanında stul var idi, iki ayağı yazı stolunun yarıya qədər çəkilən yeşiklərinə girmişdi. Döşəmə kartoçkalar, yazılıb doldurulmuş kağızlar və digər kağız qatı ilə örtülmüşdü. Qibaryanın xəttini tanıdım və əyildim. Vərəqi qaldırarkən əlimdən iki kölgə düşdüyünü gördüm.

Geri döndüm. Çəhrayı pərdə şölələnirdi, sanki, yuxarısından od tutub yanırdı, mavi alovun dəqiq zolaqları sürətlə genişlənirdi. Pərdəni çəkdim və gözlərim birbaşa üfüqün

çoxunu tutan nəhəng yanğına sataşdı. Uzun, sıx kölgələrin dalğaları sürətlə Stansiyaya yaxınlaşırdı. Dan yeri sökülürdü. Stansiya birsaatlıq gecədən sonra göydə ikinci, planetin mavi günəşinin doğduğu sahədə yerləşirdi.

Avtomatik ayırıcılar işıqları söndürdü və mən səpələnmiş kağızlara tərəf döndüm. Onları seçərkən üç həftə bundan əvvəl sınaqdan keçirilməli olan təcrübənin qısa planına rast gəldim. Qibaryan plazmanın fəaliyyətini olduqca sərt rentgen şüasına məruz qoymaq istəyirdi. Mətndən bu planın qabaqcadan bu eksperimenti keçirməli olan Sartorius üçün nəzərdə tutulduğunu başa düşdüm: planın surəti əlimdə idi.

Ağ kağız vərəqləri məni qıcıqlandırmağa başlamışdı. Başlayan gün əvvəlki gün kimi deyildi. Narıncı göyün, soyuyan günəşin altında mürəkkəb rəngli okean, demək olar, həmişə buludları və dalğaları bütöv bir tam halında göstərən çirkli-çəhrayı çənlə örtülmüş olurdu. İndi bütün bunlar yoxa çıxmışdı. Hətta çəhrayı parçadan süzülən işıq belə güclü kvars lampasının işığı kimi alışıb-yanırdı. Günəşdə yanan əllərim bu işıqda, az qala, boz rəngdə görünürdü. Bütün otaq dəyişmişdi, qırmızı çalarları olan hər şey bürüncü rəng alır və sönürdü, bütün ağ, yaşıl, sarı əşyalar isə əksinə, daha da parlaq olmuşdu və sanki, özlərinin şəxsi işıqlarını saçırdı. Gözlərimi yumdum və əlhavasına hamama getdim. Orada rəfdə tündrəngli eynək tapdım və yalnız eynəyi taxandan sonra oxumağa davam eləyə bildim.

Bu, keçirilən tədqiqatların protokolları idi. Onlardan Stansiyanın indi olduğu yerindən min dörd yüz mil aralıdakı şimal-şərqi məntəqədən okeanın dörd gün şüalanmaya məruz qaldığını öyrəndim. Bu, məni sarsıtdı. Belə ki, rentgen şüalanmasından istifadə zərərli nəticələrinə görə BMT konvensiyası ilə qadağan edilib. Mən Yerdə kiminsə buna oxşar sınaq keçirmək haqqında icazə almaq üçün xahiş eləməyəcəyinə tamamilə əmindim.

İsti oldu. Ağ və mavi rənglər içində şölələnən otaq təbii görünmürdü. Amma bu zaman cırıltı eşidildi və çöldən pəncərəyə doğru hermetik qapaqlar süründü, qaranlıq oldu, sonra da mənə inanılmaz dərəcədə ağ görünən elektrik işıqları yandı.

Lakin isti keçmirdi. Deyəsən, isti daha da güclənirdi, hərçənd havadəyişənlərin uğultusuna görə Stansiyanın soyuducuları bütün qüvvəsiylə işləyirdi.

Birdən mən addım səsləri eşitdim. Dəhlizlə kimsə gedirdi. Addımlar ləngiyirdi. Gedən adam divarın qabağında dayandı. Dəstək yüngülcə fırlandı. Düşünmədən qeyri-iradi dəstəkdən yapışdım və saxladım. Dəstəyin fırlanması güclənmirdi, amma zəifləmirdi də. O biri tərəfdəki kimdisə, o da mənim kimi səssiz hərəkət eləmək istəyirdi. Bir müddət hər ikimiz dəstəyi buraxmadıq. Sonra mən dəstəyin buraxıldığını hiss elədim və yüngül xışıltı eşitdim. Qulaq verərək bir qədər də dayandım, amma sakitlik idi.

## QONAQLAR



Tələsik Qibaryanın qeydləri olan vərəqi dörd qatlayaraq cibimə qoydum. Ehtiyatla şkafa yaxınlaşıb içərisinə baxdım. Paltar bükülmüş və bir küncə sıxılaraq yerləşdirilmişdi, sanki, şkafda kimsə gizlənmişdi. Aşağı tökülən kağızların arasından bir zərfin küncü görünürdü. Zərfi götürdüm. Məktub mənə ünvanlanmışdı. Birdən boğazım qurudu.

Böyük çətinliklə özümü zərfi cırmağa və içindən balaca kağız vərəqi çıxartmağa məcbur elədim.

Özünün dəqiq və çox xırda xətti ilə Qibaryan yazmışdı:

«Ann. Solar. Vol. 1. Anex, həm də Vot. F işində Separat Messencer; «Kiçik Apokrif, Ravintser».

Vəssalam, daha bircə söz də yox idi. Qeyd özündə tələsikliyin izini saxlayırdı. Bu, hansısa mühüm bir məlumat idimi? Nə qədər mümkünsə, kitabxanaya tez getmək lazım idi. İldə bir dəfə çıxan birinci Solyarist məcmuəsinə əlavə mənə tanış idi, daha dəqiqi, mən onun varlığından xəbərdar idim, amma heç vaxt görməmişdim, onun yalnız tarixi əhəmiyyəti var idi. Lakin nə Ravintser, nə də «Kiçik Apokrif» haqqında heç vaxt eşitməmişdim.

Neyləməli?

Mən artıq iyirmi beş dəqiqə idi ki, gecikirdim. Divara yaxınlaşarkən bir daha otağı nəzərdən keçirtdim və yalnız indi Solyarisin açılan xəritəsinin qabağını kəsdiyi, divara

bərkidilən yığılıb-açılan çarpayını gördüm. Xəritənin arxasından nəsə asılmışdı. Bu, qabında olan cib maqnitofonu idi. Maqnitofonu çıxartdım, qabını isə yerindən asdım, maqnitofonu cibimə qoydum, sayğacına görə lentinin axıra qədər işləndiyinə əmin idim.

Daha bir saniyə gərginlik içində gözlərimi yumub, sakitliyə qulaq verərək qapının arxasında dayandım. Bircə səs belə yox idi. Ehtiyatla qapını açdım. Dəhliz mənə qaranlıq uçurum kimi görünürdü. Tünd şüşəli eynəyimi çıxartdım və tavan lampalarının zəif işıqlarını gördüm. Qapını arxamca bağlayıb sola, radiostansiyaya doğru getdim.

Dəhlizin təkərin milləri kimi hər tərəfə ayrıldığı dairəvi otaq tamam yaxında idi, hamama getdiyini təxmin elədiyim dar, yan keçidin yanından keçib-gedəndə böyük, aydın olmayan, az qala, toranlığa qovuşan birisini gördüm.

Yerimdəcə donub-qaldım. Dəhlizin içərilərindən tələsmədən, ördək kimi yırğalanaraq nəhəng bir zənci qadın gedirdi. Mən onun gözlərinin parıltısını gördüm və demək olar, eyni vaxtda da yalın ayaqların yumşaq şappıltısını eşitdim. Onun əynində sarı, çox gözəl olan, sanki, həsirdən tikilmiş dondan başqa heç nə yox idi. O, mənim yanımdan bir metrlik məsafədən keçib-getdi, hətta mənə tərəf baxmadı da; fil budlarını yırğalayaraq gedir, antropologiya muzeylərində görmək mümkün olan, daş əsrinin nəhəng heykəlini xatırladırdı. Dəhlizin döndüyü yerdə zənci qadın dayandı və Qibaryanın kabinəsinin qapısını açdı. Bir anlığa qadın kabinədən düşən parlaq işığa qərq oldu, sonra qapı bağlandı və mən tək qaldım. Sağ əlimlə sol əlimin oynağından yapışıb elə sıxdım ki, sümük xırçıldadı; mənasız halda ətrafa boylanırdım. Nə baş verirdi? Bu nəydi? Qəfildən, sanki, məni vurdular, mən Snautun xəbərdarlığını xatırladım. Bütün bunlar nə deməkdi? Bu qara Afrodita kim idi? Haradan gəlmişdi?

Qibaryanın kabinəsinə doğru bir addım atdım, yalnız bircə addım və dayandım. Ora girməyəcəyimi yaxşı bilirdim.

Divarın soyuqlaşan metalına söykənərək orada çoxmu dayandım, bilmirəm. Stansiyaya sakitlik hakim olmuşdu və yalnız havadəyişən avadanlıqların kompressorları yeknəsəq səslə uğuldayırdı.

Üzümü şillələdim və ağır-ağır radiostansiyaya doğru getdim. Qapının dəstəyindən yapışanda Snautun sərt səsini eşitdim:

– Kimdir?

– Mənəm, Kelvin.

Snaut alüminium yeşiklərin və ötürücülərin pultlarının arasındakı stolun arxasında oturmuşdu, birbaşa bankadan ət konservi yeyirdi. Onun yaşamaq üçün nəyə görə radiostansiyanı seçdiyi mənə məlum deyildi. Mən müti halda qapının yanında dayanmışdım, onun müntəzəm olaraq əti çeynəyən çənəsinə baxırdım və birdən çox ac olduğumu hiss elədim. Rəfə yaxınlaşaraq boşqab dəstinin içindən ən az çirkli olanını götürüb onunla üzbəüz əyləşdim.



Bir müddət sakitcə yedik, sonra Snaut ayağa qalxdı, divar şkafından termosu çıxarıb fincanlara isti bulyon süzdü. Termosu döşəməyə qoyaraq – stolun üzərində artıq yer yox idi – soruşdu:

– Sartoriusu gördün?

– Yox. Bəs o haradadır?

– Yuxarıda.

Laboratoriya yuxarıda idi. Biz sakitcə yeməyə davam elədik, yalnız boşalan bankalar çaqqıldayırdı. Radiostansiyada gecə hökm sürürdü. Pəncərə içəridən diqqətlə örtülmüşdü, tavanda dörd girdə çilçıraq yanırdı. Onların əksi ötürücülərin plastmas korpuslarında titrəyirdi.

Snauta baxdım. Onun əynində olduqca köhnə olan geniş toxunma yun köynək var idi. Almacıq sümüyünün üzərindəki gərilmiş dərisi tamamilə qırmızı damarcıqlarla örtülmüşdü.

– Sənə nəsə olubmu? – Snaut soruşdu.

– Yox. Mənə nə ola bilərdi ki?

– Sən tamam su içindəsən.

Əlimlə alnımı sildim və məni tamamilə tər basdığını hiss elədim. Bu, reaksiya idi. Snaut mənə sınayıcı baxışlarla baxırdı. Ona deyimmi? Onun mənə daha çox etibar eləməsini istəyirdim. Burada kim kimlə oynayır və hansı oyunu?

– İstidir, – dedim. – Mənə elə gəlirdi sizdə havadəyişənlər daha yaxşı işləyir.

– Tezliklə hər şey qaydaya düşəcək. Sən bunun ancaq istidən olduğuna əminsənmi? – o, başını qaldırıb mənə baxdı.

Özümü elə apardım, guya, bunu görmürəm.

– Neyləməyə hazırlaşırsan? – biz yeməyi qurtarandan sonra Snaut birbaşa soruşdu.

O, bütün qabları və boş bankaları əlüzyuyanın altına apardı və öz kreslosuna qayıtdı.

– Sizə qatılıram. Sizdə hansısa bir tədqiqat planı varmı? Hansısa bir yeni stimullaşdırıcı, rentgen və bu kimi bəzi şeylər. Hə?

– Rentgen? – Snautun qaşları yuxarı dartıldı. – Sən bu haqda harada eşidibsən?

– Xatırlamıram... mənə kimsə deyib. Bəlkə də, «Prometey»də. Nəydi ki? Artıq tətbiq eləyirsiniz?

– Mən təfərrüatlarını bilmirəm. Bu, Qibaryanın ideyası idi. O, Sartoriusla başladı... Amma sən bu haqda haradan bilə bilərsən?

Mən çiyinlərimi çəkdim:

– Təfərrüatlarını bilmirsən? Axı sən bunda iştirak eləməliydin, bu, sənin səlahiyyətinə daxi... – Sözümü qurtarmadan susdum.

Havadəyişənlərin səsi kəsildi, temperatur əsas həddə çatmışdı.

Snaut ayağa qalxdı, idarəetmə pultuna yaxınlaşdı və nəyə görəsə dəstəyini fırlamağa başladı. Bu, mənasız iş idi, əsas ayrıc sıfır vəziyyətdə idi. Bir qədər gözləyəndən sonra o hətta mənə tərəf dönmədən qeyd elədi:

– Bununla əlaqədər olaraq bütün rəsmiyyətləri yerinə yetirmək lazımdır...

– Hə?

O, geri döndü və mənə quduzcasına baxmağa başladı. Onu bilərəkdən tarazlıq halından çıxartdığımı deyə bilmərəm. Burada aparılan oyundan heç nə başa düşmədən mən özümü ehtiyatlı aparmağa çalışırdım. Onun iti xirtdəyi köynəyinin boyunluğu üzərindən aşağı-yuxarı hərəkət eləyirdi.

– Sən Qibaryanın otağında oldun, – Snaut birdən dedi.

Bu, sual deyildi. Qaşlarımı yuxarı qaldıraraq sakitcə onun sifətinə baxdım.

– Onun otağında oldun, – o təkrar elədi.

Mən başımı tərpətdim, sanki, demək istəyirdim: «Deyək ki, hə, nə olsun?» Qoy o, sözünün canını desin.

– Orada kim vardı?

O, zənci qadın haqqında bilirdi!!!

– Heç kim. Orada kim ola bilərdi ki? – mən soruşdum.

– Niyə sən məni buraxmadın?

Mən gülümsədim:

– Qorxdum. Sən özün məni xəbərdar eləmişdin və dəstək fırlananda mən instinktiv olaraq onu saxladım. Nəyə görə sən adını demədin? Mən səni buraxardım.

– Mən bunun Sartorius olduğunu zənn elədim.

– Hə, nə olsun?

– Sən bu haqda nə düşünürsən... baş verənlər haqqında? – o, suala sualla cavab verdi.



Mən tərəddüd elədim.

– Sən daha çox bilməlisən, nəinki mən. O, haradadır?

– Soyuducuda, – Snaut ani cavab verdi. – Biz onu dərhal da ora apardıq... səhər... istiydi...

– Onu haradan tapdınız?

– Şkafdan.

– Şkafdan? O artıq ölmüşdü?

– Ürəyi hələ döyünürdü, amma nəfəs almırdı. Can verirdi.

– Onu xilas eləməyə çalışdınızmı?

– Yox.

– Niyə?

Snaut gec cavab verdi.

– Çatdırmadıq. Biz onu yerə uzadana qədər öldü.

– O şkafdaydı? Kombinezonların arasında?

– Hə.

Snaut küncdəki divara bərkidilən balaca yazı stoluna doğru getdi, onun üzərindəki kağızı götürüb mənim qabağıma qoydu.

– Mən belə bir ilkin protokol yazmışam. Bu hətta yaxşıdır ki, sən onun otağına baxıbsan. Ölümün səbəbi... pernostalın ölümcül dozasıdır. Burada beləcə yazılıb...

Mən qısa mətni gözdən keçirtdim.

– İntihar... – astadan təkrar elədim. – Bəs səbəbi nəydi?

– Əsəb pozğunluğu... depressiya... ya da bunun adına nə deyirlər. Sən bu haqda məndən yaxşı bilirsən.

– Mən yalnız öz gördüklərimi bilirəm, – ona aşağıdan-yuxarı baxaraq cavab verdim.

– Sən nə demək istəyirsən? – o, sakitcə soruşdu.

– Qibaryan özünə pernostal iynəsi vurub və şkafda gizlənib. Eləmi? Əgər belədirsə, bu, depressiya deyil, əsəb pozğunluğu da deyil, kəskin psixozdur. Paranoyya... Ona, yəqin, elə gəlib, o, nəsə görür... – mən onun gözlərinə baxaraq bütün bunları ağır-ağır dedim.

O, məndən uzaqlaşıb yenidən ötürücünün pultuna yaxınlaşdı və dəstəyini fırlamağa başladı.

– Burada sənin imzan var, – bir qədər susandan sonra mən qeyd elədim. – Bəs Sartoriusun imzası?

– O laboratoriyadadır. Mən artıq dedim. Çölə çıxmır. Düşünürəm...

– Nə?

– Qapısını qıfıllayıb.

– Qıfıllayıb? O qıfıllayıb! Bax belə! Bəlkə, barrikada qurub?

– Ola bilər.

– Snaut... Stansiyada kimsə varmı?

– Sən gördün?

O, yüngülcə əyilərək mənə baxdı.

– Sən mənə özümü qorumağı tapşırırdın. Nədən? Bu, hallüsinasiyadır?

– Sən nə gördün?

– Bu, insandır, hə?

Snaut susdu. O, divara doğru döndü, sanki, mənim onun sifətini görməyimi istəmirdi və barmaqları ilə metal aralığı döyəcləməyə başladı. Onun əllərinə baxdım. Onlarda artıq qan izləri yox idi. Birdən ağlıma bir fikir gəldi.

– Bu, xüsusilə realdır, – astadan, az qala, pıçıltı ilə dedim, sanki, kiminsə eşidə biləcəyi sirri açırdım. – Hə? Ona toxunmaq olar. Onu yaralamaq da olar... Sən onu axırıncı dəfə bu gün görübsən.

– Sən haradan bilirsən?

O, mənə tərəf dönmürdü. Divarın lap dibində dayanmışdı, sinəsiylə divara toxunurdu.

– Mən bura uçub gəlməmişdən qabaq? Lap yaxında?

Snaut, sanki, zərbədən sıxıldı. Mən onun dəlisov gözlərini gördüm.

– Sən?! – qışqırdı. – Sən kimsən?

Deyəsən, o, indicə mənim üzərimə atılacaqdı. Bunu gözləmirdim. Hər şey kəllə-mayallaq oldu. O, mənim özümü təqdim elədiyim həmin adam olduğuma inanmırdı. Bu nə demək idi? Snaut mənə vahimə içində baxırdı. Bu nəydi, psixozdu? Zəhərlənməydi? Hər şey ola bilərdi. Axı mən o qadını gördüm... bəlkə, mən özüm də...

– O kim idi?

Bu sözlər onu sakitləşdirdi. Bir müddət mənə sınayıcı baxışlarla baxdı, sanki, hələ də mənə etibar eləmirdi. O, ağzını açmamışdan əvvəl mən cəhdimin uğursuz olduğunu və onun mənə cavab verməyəcəyini başa düşdüm.



Snaut ağır-ağır kresloya əyləşdi və başını əllərinin arasına soxdu.

– Burada nə baş verir?.. – o, sakitcə dedi. – Qızdırma...

– O kim idi? – mən yenidən soruşdum.

– Əgər sən bilmirsənsə... – o donquldadı.

– Sənə nə oldu?

– Heç nə.

– Snaut, – mən dedim, – biz evdən kifayət qədər uzağıq. Gəl səmimi danışaq. Belə hər şey dolaşır.

– Sən nə istəyirsən?

– Sənin kimi gördüyünü deməyini.

– Bəs sən?.. – o, şübhə ilə soruşdu.

– Hiyləgərlik eləyirsən? Mən sənə dedim və sən də mənə deməlisən. Narahat olmaya bilərsən. Mən səni dəli hesab eləməyəcəyəm, bilirəm...

– Dəli! Oy, Allahım! – o, gülümsəməyə cəhd elədi. – Axı sən heç nə, tamam heç nə... Bu, qurtuluş olardı... Əgər o, heç olmasa, bircə saniyəliyə bunun dəlilik olduğunu başa düşsəydi, belə eləməzdi, o, sağ olardı...

– Demək, protokolda əsəb pozğunluğu haqqında yazılanlar yalandır?

– Əlbəttə.

– Nəyə görə sən həqiqəti yazmayıbsan?

– Nəyə görə? – o təkrar elədi.

Ortalığa sükut çökdü. Mən yenidən dalana dirənmişdim və heç nə başa düşmürdüm. Amma mənə elə gəlirdi ki, mən onu inandırdım və biz birlikdə bu sirrə doğru hücum eləyəcəyik. Nəyə görə, nəyə görə o, danışmaq istəmirdi?!

– Avtomatlar haradadır? – mən soruşdum.

– Anbarlarda. Biz onların hamısını bağladıq, yalnız uçuşa xidmət eləyənlərdən başqa.

– Nəyə görə?

O, yenidən cavab vermədi.

– Demirsən?

– Bacarmıram.

Burada mənim tuta bilmədiyim nəsə var idi. Bəlkə, yuxarı, Sartoriusun yanına gedim? Birdən mən qeyd kağızını xatırladım və düşündüm ki, indi ən başlıcası elə budur.

– Belə şəraitdə sən bundan sonrakı işini necə təsəvvür eləyirsən?

Snaut çiyinlərini çəkdi:

– Bunun nə əhəmiyyəti var?

– Ax, eləmi? Sən neyləmək niyyətindəsən?

O susdu. Sakitlikdə yalın ayaqların şappıltısı eşidildi. Nikelli və plastmas cihazların, elektron cihazlar yığılmış şkafların, dəqiq cihazların arasında yenidən təkrar olunan bu şappıltı elə də normal olmayan adamın kobud zarafatına bənzəyirdi. Addım səsləri yaxınlaşırdı. Mən Snauta baxaraq gərgin halda dayanmışdım. O, gözlərini qıyaraq qulaq asırdı, amma elə də qorxan kimi görünmürdü. Demək, o, qadından qorxmurdu?!

– O, haradan gəlib? – mən soruşdum.

Snaut susurdu.

– Demək istəmirsən?

– Bilmirəm.

– Yaxşı.

Addım səsləri uzaqlaşdı və eşidilməz oldu.

– Sən mənə inanmırsan? – Snaut soruşdu. – Söz verirəm ki, bilmirəm.

Mən dinməzcə içində skafandrlar olan şkafı açdım və onların ağır boş qabıqlarını kənara itələməyə başladım. Gözlədiyim kimi, şkafın dərinliyində qarmaqlardan hərəkət

eləmək və çəkisizlik vəziyyətində istifadə eləmək üçün lazım olan qaz tapançaları asılmışdı. Silah kimi yararsız şeydi, amma seçim yox idi. Heç olmamasındansa, beləsinin olmağı yaxşıydı. Tapançanı yoxladım və futlyarın qayışını çiynimdən aşırdım.

Snaut məni diqqətlə izləyirdi. Mən qayışın uzunluğunu tənzimləyəndə, o, sarı dişlərini göstərərək istehza ilə gülümsədi.

– Ovun uğurlu olsun!

– Hər şey üçün sağ ol, – mən qapıya doğru gedərkən cavab verdim.

O, stuldan ayağa sıçradı.

– Kelvin.

Mən ona baxdım. Sifətində artıq istehza yox idi. Bilmirəm, mən nə vaxtsa belə üzgün sifət görmüşdümmü?

– Kelvin, bu... mən... doğrudan da, bacarmıram.



Mən onun daha nəsə deyəcəyini gözləmirdim, amma o yalnız dodaqlarını tərpətdi, sanki, sözü ağzından qopartmağa cəhd eləyirdi.

Mən sakitcə döndüm və çıxdım.

## SARTORİUS

Dəhliz boş idi. Əvvəlcə düz gedir, sonra sağa doğru dönürdü. Mən heç vaxt Stansiyada olmamışdım, amma ilkin məşqlərdə Yerdə İnstitutda eynən onun surətində yaşamışdım. Mən alüminium pilləläri olan pilləkənin hara apardığını bilirdim.

Kitabxanada qaranlıq idi. Əlhavasına işığın düyməsini tapdım. Kartotekada Solyaris illik məcmuəsinin birinci cildini əlavəsi ilə birlikdə tapanda düyməni də basdım, qırmızı işıq yandı. Qeydəalınma kitabını yoxladım, kitab Qibaryanda olmuşdu; digər, «Kiçik Apokrif» kitabı da. İşığı söndürdüm və aşağı qayıtdım. Onun kabinəsinə girməyə qorxurdum, zənci qadın ora qayıda bilərdi. Bir müddət qapının ağzında dayandım, sonra dişlərimi bir-birinə sıxaraq, qorxuya qalib gəlib içəri keçdim.

İşıqlandırılan otaqda heç kim yox idi. Pəncərənin yanında döşəmənin üzərindəki kitabları ayırıb seçməyə

başladım, sonra şkafa yaxınlaşıb onu bağladım. Kombinezonların arasındakı bu boşluğa baxa bilmirdim.

Əlavə pəncərənin altında yox idi. Sistematik olaraq kitabları bir-birinin üzərinə yığırdım, nəhayət, çarpayı ilə şkafın arasındakı sonuncu qalağa çatanda lazım olan cildi tapdım.

Onda hansısa bir qeydi tapmağa ümid eləyirdim və həqiqətən də, adlar göstəricisində əlfəcin qoyulmuşdu. Qırmızı qələmlə orada mənə heç nə deməyən ad, soyad yazılmışdı: Andre Berton. Kitabda ona iki dəfə rast gəlinirdi. Əvvəlcə mən birinci xatırlatmanı axtarıb oxudum və oradan Bertonun Şennon gəmisində ehtiyat pilot olduğunu öyrəndim. Sonrakı xatırlatmaya isə yüz səhifədən bir qədər sonra təsadüf olunurdu.

İlk vaxtlar – planetə ekspedisiyanın çıxarılması vaxtı olduqca ehtiyatla hərəkət eləyirdilər, lakin on altı gündən sonra məlum oldu ki, plazmalı okean təkcə hansısa təcavüzkar əlamətini büruzə vermir, həm də onun səthinə hər bir əşya yanaşanda, hər hansı bir cihazla və adamlarla bilavasitə hər cür əlaqədən qaçır. Şennon və onun müavini Timolis bəzi təhlükəsizlik tədbirlərini dəyişdirdilər, beləliklə, bu da dəhşətli dərəcədə işin görülməsini çətinləşdirir və ləngidirdi.

Ekspedisiya iki-üç adamdan ibarət olmaqla kiçik qruplara bölünmüşdü, onlar okeanın üzəriylə bəzən bir neçə yüz mil uçası olurdular. Əvvəllər qorunmaq məqsədi ilə istifadə olunan iş sahəsini əhatə eləyən şüalandırıcılar Bazada cəmlənirdi. Bu dəyişiklikdən sonra əgər hərdənbir skafandrdakı oksigen cihazlarının sınması nəzərə alınmazsa – belə ki, giriş klapanları zəhərli atmosferin korroziyalı təsirinə qarşı çox həssas idi – ilk dörd gün heç bir hadisə baş vermədən keçdi. Bununla əlaqədər olaraq onları, az qala, hər gün dəyişmək lazım gəlirdi.

Beşinci gün, ya da planetə enəndən sonra iyirmi birinci gün iki alim – Karuççi və Fexner (birincisi radiobioloq idi, ikincisi isə fizik) okeanın üzərində balaca ikiyerli vermobillə sınaq uçuşları keçirirdilər. Bu, uçuş maşını deyildi, sıxılmış havanın balışı ilə hərəkət eləyən qlisser[1] idi.

---

[1] Qlisser – yastıdibli, itigedən qayıq

Altı saatdan sonra onlar qayıtmayanda Şennon olmayanda Bazaya rəhbərlik eləyən Timolis həyəcan elan elədi və bütün işsiz adamları axtarışa göndərdi.

Şərait əlverişsiz olduğundan tədqiqat qrupunun uçuşundan, təxminən, bir saat sonra radioəlaqə kəsilmişdi. Səbəb qırmızı günəşdəki korpuskulyar axınla güclü şüalar şüalandıran böyük ləkə olmuşdu: bu şüalar atmosferin yuxarı qatına qədər gəlib çatmışdı. Yalnız iki yüz millik məsafədən əlaqə saxlamağa imkan verən ultraqısa dalğalı cihazlar işləyirdi. İşlər tamamlanmamışdan, günəş batmamışdan qabaq duman çökdü və axtarışları dayandırmaq lazım gəldi.

Yalnız xilasedici qrup artıq Bazaya qayıdanda onlardan biri sahildən səksən mil aralıda aeromobilə rast gəldi. Mühərrik işləyirdi və tamamilə saz maşın dalğaların üzərində asıla qalmışdı. Şəffaf kabinədə yalnız Karuççi var idi. O, şüursuz vəziyyətdə idi.



Aeromobili Bazaya gətirdilər və Karuççini həkimlərin sərəncamına verdilər. Elə həmin axşam o özünə gəldi. Karuççi Fexnerin taleyi haqqında heç nə deyə bilmədi. Yalnız onu xatırlayırdı ki, onlar qayıtmağı qərara alanda o, boğulduğunu hiss elədi. Nəfəsalma klapanı pərçimlənmişdi və hər dəfə nəfəs alanda skafandrın içərisinə kiçik miqdarda zəhərli qaz da dolurdu.

Onun cihazını qaydaya salmaq üçün Fexner qayışı açmalı və ayağa qalxmalıydı. Bu, Karuççinin xatırladığı son detal idi. Hadisənin mümkün gedişi mütəxəssislərin qənaətincə belə olmuşdu: Karuççinin cihazını qaydaya salarkən Fexner, yəqin, kabinənin yuxarısını açmışdı, çünki alçaq çətirin altında o, sərbəst işləyə bilmirdi. Bunu eləmək olardı, çünki belə maşınlar hermetik deyildi və yalnız bilavasitə atmosferin təzyiqindən və küləkdən qoruyurdu. Bu hərəkətlər zamanı Fexnerin öz cihazı da sıradan çıxa və huşunu itirən alim maşının açıq çətirindən aşağı yuvarlana bilərdi.

Okeanın ilk qurbanının əhvalatı beləydi. Meyitin axtarışı – skafandrda o, okeanın üzərində üzməliydi – nəticə vermədi. Yeri gəlmişkən, ehtimal ki, o, üzüb getmişdi. Az qala, səthi daima pırtlaşıq dumanla örtülən minlərlə kvadratmil ərazidəki dalğalı boşluqları diqqətlə axtarmaq ekspedisiyanın imkanı xaricində idi.

Qaranlıq düşənə qədər – mən əvvəlki hadisələrə qayıdıram – Bertonun uçduğu böyük yük vertolyotu istisna olmaqla, bütün xilasedici cihazlar Bazaya qayıtdı.

O, Bazanın üzərində qaranlıq düşəndən təxminən,bir saat sonra göründü, onun üçün artıq ciddi narahat olmağa başlamışdılar. Berton əsəbi şok vəziyyətində idi. O, vertolyotdan yalnız ona görə çıxırdı ki, qaçmağa başlasın. Onu tutanda o qışqırır və ağlayırdı. Arxasında on yeddi il, bəzən də ağır vəziyyətlərdə kosmik uçuşlar olan kişi üçün bu, heyrətləndirici bir iş idi. Həkimlər onun zəhərləndiyini qərara aldılar.

İki gündən sonra hətta Bertonun nəzərdə tutulan tarazlığa qayıtdığı güman ediləndə belə, o, bir anlığa belə ekspedisiyanın baş raketindən çölə çıxmaq istəməsə də, hətta okeana açılan pəncərəyə belə yaxın düşə bilməsə də, öz uçuşu haqqında raport yazmaq istədiyini dedi. O, bunda təkid edir və hamını söhbətin son dərəcə mühüm bir işdən getdiyinə əmin eləyirdi.

Onun raportuna ekspedisiyanın şurasında baxıldı; raportu atmosferin qazı ilə zəhərlənən insanın xəstə təxəyyülünün təzahürü kimi qəbul elədilər və bunu ekspedisiyanın tarixinə yox, Bertonun xəstəlik tarixçəsinə yazdılar. Bununla da iş qurtardı.

Əlavədə olan hər şey bundan ibarət idi. Mən başa düşdüm ki, şübhəsiz, Bertonun baş verən hadisə haqqında raportda yazdıqları, həqiqətən də, olmuşdu və pilotu da əsəb sarsıntısına gətirən baş verən hadisə olmuşdu. Yenidən kitabları yığmağa başladım, amma «Kiçik Apokrif»i tapa bilmədim. Çox yorulmuşdum və buna görə də sonrakı axtarışları səhərə qədər təxirə salıb kabinədən çıxdım.

Alüminium pilləkənin pillələrində yuxarıdan düşən işıq ləkələri görünürdü. Demək, Sartorius hələ də işləyirdi. Belə gec!? Mən düşündüm ki, mütləq onunla görüşməliyəm.

Yuxarıda bir qədər isti idi. Alçaq, enli dəhlizdə zəif külək əsirdi. Havadəyişən qurğuların yarıqları üzərinə yapışdırılmış kağız parçaları laqeydcəsinə xışıldayırdı. Baş laboratoriyanın qapısı metal çərçivəyə çalınmış qalın, kələ-kötür şüşədən hazırlanmışdı. İçəridən şüşənin üzərinə nəsə tutqun örtük çəkilmişdi. İşıq tavanın lap altındakı ensiz pəncərədən gəlirdi. Mən dəstəyi fırladım, amma gözlədiyim kimi,

qapı açılmadı. İçəridə sakitlik hökm sürürdü və yalnız hərdənbir hansısa zəif ciyilti eşidilirdi. Qapını döydüm, heç bir cavab olmadı.

– Sartorius! – qışqırdım. – Doktor Sartorius! Bu, mənəm, yeni gələn, Kelvin! Mən sizinlə görüşməliyəm, xahiş edirəm qapını açasınız!

Zəif xışıltı səsi gəldi, sanki, kimsə əzilmiş kağızların üzəriylə yeriyirdi və yenidən sakitlik oldu.

– Bu, mənəm, Kelvin! Axı siz mənim haqqımda eşidibsiniz! Mən iki saat bundan əvvəl «Prometey»dən uçmuşam! – dodaqlarımı qapının yaşmağı ilə metal çərçivənin arasındakı yarığa yaxınlaşdırıb qışqırdım. – Doktor Sartorius! Burada heç kim yoxdur, yalnız mənəm! Açın!

Sükut. Sonra zəif səs. Bir neçə dəfə nəsə cingildədi, sanki, kimsə metal alətləri metal məcməyiyə yığırdı. Birdən... Mən yerimdəcə quruyub qaldım. Balaca ayaq səsləri eşidildi, sanki, uşaq qaçırdı. Tez-tez, tələsik atılan balaca ayaqların tappıltıları. Bəlkə... bəlkə, kimsə olduqca bacarıqla barmaqlarını boş, yaxşı rezonans verən qutuya döyəcləyərək balaca ayaq səslərini təqlid eləyirdi?..



– Doktor Sartorius! – mən bağırdım. – Siz açacaqsınız, ya yox?

Heç bir cavab gəlmədi, yalnız yenidən ləng uşaq yerişi və eyni zamanda da, bir neçə cəld, güclə eşidilən, geniş atılan addım səsləri. Adamın barmaqlarının ucunda yeridiyi hiss olunurdu. Amma əgər o yeriyirdisə, eyni zamanda da, uşaq addımlarının səsini çıxara bilməzdi. «Yeri gəlmişkən, bunun mənə nə dəxli?» – mən düşündüm və artıq məni bürüyən qəzəbimi saxlaya bilməyərək bağırdım:

– Doktor Sartorius! Mən on altı ay bura sizin necə komediya oynadığınıza tamaşa eləmək üçün uçmamışam! Ona qədər sayıram. Sonra qapını yerindən çıxardacağam!

Buna nail ola biləcəyimə çox şübhə eləyirdim.

Qaz tapançasının püskürməsi elə də güclü olmur, amma mən bu və ya başqa üsulla öz hədəmi yerinə yetirməkdə tam qərarlı idim. Halbuki partladıcı axtarmağa getmək lazım gəlirdi, onlardan anbarda kifayət qədər olmalıydı. Özümə söz verdim ki, geri çəkilməyəcəyəm, bu ağıllarını itirənlərlə kart oynamayacağam, hansı ki şərait özü məni buna vadar eləmişdi.

Səs eşidildi, elə bil, kimsə kimisə itələyirdi, kimsə kiminləsə mübarizə aparırdı, içərinin pərdəsi, təxminən, yarım metr çəkildi, sanki, qırov bağlamış qapının üzərinə elastiki kölgə düşdü və kimsə bir qədər xırıltılı, zil uşaq səsiylə dedi:

– Açıram, amma siz içəri keçməyəcəyinizə dair söz verməlisiniz.

– Onda siz niyə açmaq istəyirsiniz? – mən qışqırdım.

– Mən özüm sizin yanınıza gəlirəm.

– Yaxşı. Söz verirəm.

Qıfılda fırlanan açarın yüngülcə cingiltisi eşidildi, sonra qapının yarısını tutmuş tutqun kölgə səylə qapının pərdəsini çəkdi və bir xeyli aydın olmayan hərəkətlər elədi. Mənə elə gəldi ki, yerindən tərpədilən ağac stolun cırıltısını eşitdim, nəhayət, qapı azacıq da olsa, açıldı və Sartorius sivişib dəhlizə çıxdı.

O, qapının ağzını kəsdirərək qabağımda dayanmışdı: ucaboylu, arıq birisi idi; adama elə gəlirdi ki, onun krem rəngli trikotaj kombinezonunun altındakı bədəni yalnız sümüklərdən ibarətdir. Boynuna qara yaylıq bağlamışdı, çiynindən iki dəfə qatlanmış, reaktivlərlə yandırılmış laboratoriya xalatı asılmışdı. Son dərəcə ensiz olan başını bir qədər yanakı tutmuşdu. Az qala, sifətinin yarısını əyri, qara eynək tutmuşdu, buna görə də gözləri görünmürdü. Onun uzun alt çənəsi, göyümtül dodaqları var idi; iri qulaqları, sanki, donmuşdu, çünki onlar da göyə çalırdı. Üzünü qırxmamışdı. Dirsəyindən məftillə qırmızı rezindən olan əlcək asılmışdı. Beləcə, gizlətmədiyimiz düşmənçiliklə bir-birimizə baxaraq, bir müddət dayandıq. Onun tüklərinin qalıqları (o, elə görünürdü, sanki, özü saçını maşınla dibdən qırxmışdı) qurğuşun rənginə çalırdı, üzündəki tüklər isə tamam ağ idi. Alnı Snautun alnı kimi günəşdə yanmışdı, amma günəşdə yanma düz alnının ortasındakı üfüqi xətdə qurtarmışdı. Yəqin, o, günəşdə hansısa şapka geyirmiş.

– Eşidirəm, – nəhayət, o dilləndi.

Mənə elə gəlirdi o, mənim nə vaxt danışacağımı o qədər də gözləmir, daha çox kürəyini şüşə qapıya sıxaraq elə həmin gərginliklə ətrafına baxır. Bir müddət yersiz danışmamaq üçün nə deyəcəyini fikirləşib tapa bilmədi.

– Mənim adım Kelvindir... siz, yəqin, mənim haqqımda eşidibsiniz, – mən sözə başladım. – Mən işləyirəm, daha doğrusu, Qibaryanla birlikdə işləmişəm.

Onun bütünlüklə üfüqi qırışlar içində olan arıq sifəti – yəqin, Don Kixot da sifətdən belə görünürmüş – heç nə ifadə eləmirdi. Eynəyin mənə tuşlanmış əyri, qara plastinləri danışmağıma çox mane olurdu.

– Mən öyrəndim ki, Qibaryan... artıq o yoxdur, – mənim səsim tutuldu.

– Hə. Eşidirəm!

Bu sözləri hövsələsizcəsinə deyirdi.

– O intihar eləyib?.. Meyiti kim tapdı, siz, ya Snaut?

– Nəyə görə siz bununla bağlı mənə müraciət eləyirsiniz? Məgər doktor Snaut sizə deməyibmi?..

– Mən sizin bu haqda nə deyəcəyinizi eşitmək istərdim...



– Doktor Kelvin, siz psixoloqsunuz?

– Hə. Nəydi ki?

– Alimsiniz?

– Hə də. Amma bununla hansı əlaqə...

– Mənsə elə düşündüm siz polissiniz, ya da xəfiyyə. İndi saat üçə iyirmi dəqiqə qalır, siz Stansiyada aparılan işlərə qoşulmağa çalışmaq əvəzinə, ən azından başa düşüləsi olsun deyə, həyasız bir cəhdlə laboratoriyaya soxulub hələ bir məni sorğu-suala da tutursunuz, guya, mən şübhəli şəxsəm.

– Sartorius, siz şübhəli şəxssiniz! – mən boğuq səslə dilləndim. Mən nəyin bahasına olursa olsun, onun ovqatını təlx eləmək istəyirdim, buna görə də qəzəblə əlavə elədim:

– Siz də bunu gözəl bilirsiniz!

– Kelvin, əgər siz öz sözlərinizi geri götürməsəniz və mənim qarşımda üzr istəməsəniz, mən radioməlumatda sizdən şikayət eləyəcəyəm!

– Mən nəyə görə üzr istəməliyəm? Nə üçün? Məni qarşılamaq əvəzinə, burada baş verənlər haqqında mənə düzgün-doğru məlumat vermək əvəzinə, siz laboratoriyaya qapanırsınız!!! Olmaya, birdəfəlik ağlınızı itiribsiniz?! Siz kimsiniz, alim, ya zavallı qorxaq?! Nədir? Siz, bəlkə, cavab verəsiniz?!

Daha nə qışqırdığımı xatırlamıram. Onun sifəti hətta tərpənmirdi də. Yalnız solğun, deşik-deşik dərisi üzərində iri tər damcıları gilələnirdi. Birdən başa düşdüm: o, ümumiyyətlə, məni eşitmirdi! Arxasında gizlətdiyi hər iki əliylə bütün gücüylə azacıq titrəyən qapıdan yapışmışdı, sanki, kimsə onu arxadan itələyirdi.

– Çıxın gedin... – o, qəribə, ağlağan səslə inildədi. – Çıxın gedin... yalvarıram! Gedin, aşağı gedin, mən gələrəm, gələrəm, nə istəyirsinizsə eləyərəm, yalnız çıxın gedin!!!

Onun səsində o qədər əzab var idi ki, mən özümü tamamilə itirmiş halda qapını saxlamaqda ona kömək eləmək üçün qeyri-iradi olaraq əlimi qaldırdım, qapı artıq açılmaq üzrəydi. Amma o, dəhşətli səslə qışqırdı, sanki, mən onun üzərinə bıçaqla cummuşdum. Geri çəkilməyə başladım, o isə hələ də zil səsiylə qışqırırdı:

– Get! Get! – və yenidən, – Gedirəm! Artıq gedirəm!!! Yox! Yox!!!

O, qapını azacıq araladı və içəri sıçradı. Mənə elə gəldi ki, onun sinəsi hündürlüyündə nəsə qızılı, necəsə işıldayan bir disk görünüb yox oldu. Laboratoriyadan indi boğuq səs gəlirdi, pərdə bir tərəfə sürüşmüşdü, şüşə ekranda nəhəng, hündür bir kölgə titrəyirdi, pərdə öz yerinə qayıtdı və daha heç nə görünmədi. Orada nə baş verirdi? Mən ayaq tappıltıları eşidirdim, azğın qaçdı-qovdu qulaqbatıran cingilti ilə sınan şüşənin səsiylə kəsildi və mən uğultulu uşaq gülüşü eşitdim.

Ayaqlarım titrəyirdi, özümü itirmiş halda ətrafa boylanırdım. Sakitlik oldu. Alçaq plastmas pəncərə altlığının üzərində oturdum və ola bilsin ki, iyirmi beş dəqiqəyə qədər orada oturdum, özüm də bilmirəm niyə, ya nəyisə gözləyərək, ya da tamam əldən düşmüş halda; belə ki, mən hətta ayağa qalxmaq belə istəmirdim.

Haradasa yuxarıda kəskin cırıltı eşidildi və eyni zamanda da, ətrafım işıqlı oldu.

Oturduğum yerdən laboratoriyanı əhatə eləyən dairəvi dəhlizin yalnız bir hissəsi görünürdü. Bu otaq Stansiyanın lap yuxarısında yerləşirdi – bilavasitə zirehin yuxarı döşəməsinin altında. Burada çöl divarlar çökük və maili idi, bir neçə metrdən bir düzülmüş pəncərələri isə qala bacasına oxşayırdı. Xarici qapaqlar yuxarıya doğru getdi. Mavi gün

sona çatdı. Qalın şüşələrin arasından içəri gözqamaşdıran parıltı süzülürdü. Hər bir nikellənmiş lövhə, hər bir qapı dəstəyi balaca günəş kimi şölələnirdi. Laboratoriyanın qapısı – kələ-kötür şüşədən olan böyük lövhə isə odluğun ağzı kimi par-par alışıb-yanırdı. Bu şəffaf işıqda dizlərimin üstünə qoyduğum bozaran əllərimə baxdım. Sağ əlimdə qaz tapançası var idi. Onu qabından nə vaxt çıxartmışdım, başa düşə bilmirdim. Onu qaytarıb yerinə qoydum. Artıq bilirdim ki, mənə atom mərmisi də kömək eləməz, onunla neyləyə bilərdim? Qapını yerindən eləyəcəkdim? Laboratoriyaya soxulacaqdım?

Ayağa qalxdım. Hidrogen partlayışını xatırladan disk okeana daldıqca arxasınca mənə, demək olar maddi şüalar göndərdi. Bu şüalar mənim yanağıma toxunanda (mən artıq pilləkənlə aşağı düşmüşdüm) mənə elə gəldi ki, sifətimə qızmar damğa basdılar.



Pilləkənin yarısına qədər düşəndən sonra fikrimi dəyişdim, yuxarı qayıtdım və laboratoriyanın ətrafına dolandım. Artıq dediyim kimi, dəhliz onu əhatəyə almışdı. Yüz addım gedəndən sonra digər tərəfdə eynilə o cür olan şüşə qapıya rast gəldim. Mən hətta onu açmağı belə sınamadım.

Plastik divarda hansısa bir pəncərə, heç olmasa, hansısa bir yarıq axtarırdım. Sartoriusu izləmək fikri mənə alçaq bir fikir kimi gəlmirdi. Bütün bu tapmacalara son qoymaq və həqiqəti öyrənmək istəyirdim, hərçənd onu necə başa düşəcəyimi tamamilə təsəvvür eləyə bilmirdim.

Ağlıma gəldi ki, laboratoriya yuxarı zirehdə yerləşən pəncərə vasitəsilə işıqlandırılır və əgər çölə çıxa bilərəmsə, onda, bəlkə də, bu pəncərədən laboratoriyanın içərisinə baxa bilərəm. Bunun üçün skafandr və oksigen cihazı götürməkdən ötrü aşağı düşməliydim. Pilləkənin yanında dayanmışdım, çəkdiyim əziyyətə dəyərdimi? Çox ehtimal ki, yuxarı pəncərənin şüşələri tutqun olacaqdı. Amma neyləyə bilərdim? Orta mərtəbəyə düşdüm. Radiostansiyanın yanından keçib-getmək lazım idi. Radiostansiyanın qapısı taybatay açıq idi. Snaut mən çıxanda kresloda necə oturmuşdusa, elə də qalmışdı. O yatmışdı, ancaq mənim addım səslərimi eşidib diksindi və gözlərini açdı.

– Alo, Kelvin! – xırıltılı səslə məni səslədi.

Mən susurdum.

– Hə, nə oldu? Nəsə öyrənə bildinmi? – o soruşdu.

– Hə, – mən ləng cavab verdim. – O, tək deyildi.

Snaut dodaqlarını büzdü.

– Lütfən, danışın, bu artıq nəsə deməkdir. Belə, deyirsən onun qonaqları var idi?

– Başa düşmürəm, nəyə görə siz bunun nə olduğunu mənə demək istəmirsiniz, – mən həvəssiz halda dedim. – Axı mən burada qalandan sonra gec-tez hər şeyi öyrənəcəyəm. Bütün bu gizləmələr nəyə lazımdır?

– Sənin özünə də qonaq gələndə onda başa düşərsən, – Snaut cavab verdi.

Deyəsən, o, nəyisə gözləyirdi və söhbəti davam etdirməyi elə də istəmirdi.

– Hara gedirsən? – mən geri dönəndə arxamca səsləndi.

Mən cavab vermədim.

Raketodrom mən onu hansı vəziyyətdə qoymuşdumsa, elə o vəziyyətdəydi. Taybatay açılmış, yanmış konteynerim yüksəklikdə idi. Mən dik dayanmış skafandrlara yaxınlaşdım və birdən çölə səfər eləmək həvəsim keçibgetdi. Geri döndüm və dolama pilləkənlə aşağı, anbarlar olan yerə düşdüm.

Ensiz dəhlizə yeşiklərə yığılmış balonlar qalaqlanmışdı. Divarları heç nəylə üzlük çəkilməyən göyümtül rəngdə metaldan idi. Daha on-on beş addım getdim və tavanın altından soyuducu cihazların ağ qırovla örtülmüş borularını gördüm. Bu borularla istiqaməti müəyyənləşdirərək yoluma davam elədim. Azacıq aralanmış sipərin içindən borular hermetik bağlı otağa keçirdi. Ağır, iki əlim qalınlığında, kənarları rezin haşiyəli qapını açıb içəri keçəndə məni sümüklərimə qədər soyuq bürüdü. Titrəyirdim. Üzərini qar basmış spiralşəkilli borulardan buzlar sallanırdı. Burada da qar örtüyü ilə örtülən yeşiklər, qutular var idi; divarın dibindəki döşəməyə bankalar və şəffaf plastikə bükülmüş, sarı buz parçaları ilə örtülən hansısa yağ var idi. Çəlləyəbənzər tağ dərinliyə getdikcə alçalırdı. Orada buzlu iynələriylə qığılcım saçan pərdə var idi. Mən pərdəni küncə çəkdim. Alüminium çərçivələrdən olan yüksəklikdə boz parça ilə örtülmüş uzunsov əşya var idi. Parçanın bir tərəfini qaldırdım və Qibaryanın dəyişmiş sifətini gördüm. Ağ zolaqları

olan qara saçları alnının üzərindən yumşaqcasına başına doğru yapışmışdı. Xirtdəyi boğazını iki yerə ayıraraq dimdik dayanmışdı. Qurumuş gözləri birbaşa tavana baxırdı, bir gözünün küncündə donmuş suyun bulanıq damcısı var idi. Soyuq məni kəsirdi, dişlərimi şaqqıldatmamaq üçün özümü güclə ələ alırdım. Kəfəni əlimdən buraxmadan o biri əlimlə onun yanağına toxundum. Məndə belə hiss yarandı ki, sanki, donmuş odun parçasına toxundum. Qara ləkələr şəklində sifətini örtən cod tükləri pırtlaşıq idi. Dodaqlarının büküklərində ölçüyəgəlməz, həqarətli dözüm ifadəsi donub-qalmışdı. Parçanı buraxandan sonra bədəninin o biri tərəfindəki büküklərin içindən bir neçə dənə qara, uzunsov muncuğun və ya paxla dənəsinin baş qaldırdığını gördüm. Ayaq üstəcə dondum.

Bu, mənim alt tərəfdən gördüyüm yalın ayağın barmaqları idi; barmaqların yumurtaya oxşayan ucları, – balışcıqları azacıq aralanmışdı. Kəfənin əzilmiş küncünün altında zənci qadın uzanmışdı.



O, üzü üstə uzanmışdı, sanki, dərin yuxuya dalmışdı. Qalın parçanı düymə-düymə onun üzərindən çəkdim. Başı balaca, göyümtül dəstələr halında bir yerə yığılmış tüklə örtülmüşdü, qara, iri əllərini qatlayaraq uzanmışdı. Onurğa sütununun təpəciklərinin üzərinə çəkilmiş dərisi işıldayırdı. Nəhəng bədəndə kiçik bir həyat əlaməti belə yox idi. Onun yalın ayaqlarının altına bir də baxdım və birdən məni qəribə bir detal heyrətləndirdi; qadının ayaqlarının altı yastı deyildi, gəzdirdiyi bu ağırlıqdan yastılanmamışdı, hətta onlarda ayaqyalın gəzməsinin də heç bir izi yox idi, ayağının altının dərisi də əlinin və çiyinlərinin dərisi kimi nazik idi.

Bu təəssüratı əlimlə toxunmaqla yoxladım, bu, mənim üçün ölü bədənə toxunmaqdan daha çətin oldu. Bu zaman inanılmaz hadisə baş verdi: iyirmi dərəcəlik şaxtada uzanan bədən sağ idi, o tərpənirdi. İt pəncələrini altına yığdığı kimi, zənci qadın ayaqlarını çəkib yığdı.

«O, burada donacaq», – mən düşündüm. Amma onun bədəni sakit idi və elə də soyuq deyildi. Mən yenə də barmaqlarımla yumşaq toxunmanı hiss elədim. Pərdəyə doğru geri çəkildim, pərdəni buraxdım və dəhlizə çıxdım. Mənə elə gəldi ki, dəhlizdə cəhənnəm istisi var. Pilləkən

məni yenidən raketodromun salonuna apardı. Yığılmış dairəvi paraşütün üstündə oturdum və başımı əllərimlə qucaqladım. Mənimlə nələr baş verdiyini bilmirdim. Tamamilə darmadağın olmuşdum, fikirlərim hansısa boşluğa doğru sürünürdü – şüurumu itirirdim, ölüm mənə sözlə ifadə edilə bilməyən qədər əlçatmaz görünürdü.

Mən Snautun, ya da Sartoriusun yanına getməli deyildim, təsəvvür belə eləmirdim ki, kimsə mənim indiyə qədər yaşadıqlarımı, gördüklərimi, məxsusən öz əllərimlə toxunduğumu hiss eləsin. Xilas olmaya, qaçmağa, izahata yeganə bir diaqnoz qoyula bilərdi – ağlını itirmək. Bəli, mən, yəqin, planetə enən kimi də ağlımı itirmişdim. Okean mənim beynimə təsir eləmişdi – mən qarabasma dalısınca qarabasma yaşamışdım, əgər beləydisə, onda, həqiqətən də, baş verən bu tapmacaların açmasına güc sərf eləmək lazım gəlmirdi, tibbi kömək axtarmaq, radio ilə «Prometey»i, ya da hansısa başqa bir ulduz gəmisini çağırmaq, «SOS» siqnalı vermək lazım idi...

Bu zaman elə bir hal oldu ki, heç vaxt bunu gözləməzdim, ağlımı itirməyim haqqındakı fikrim məni sakitləşdirdi.

Mən hətta Snautun sözlərini daha yaxşı başa düşdüm – əgər hansısa bir Snautun yaşadığını və mənim nə vaxtsa onunla söhbət elədiyimi ehtimal edəriksə. Axı qarabasma daha əvvəldən başlaya bilərdi. Kim bilir, qəfildən hansısa beyin xəstəliyinə yaxalanan mən, bəlkə, hələ də «Prometey»in göyərtəsində idim; ola bilsin, oyanan beynimin yaratdıqlarını yaşamışdım. Lakin əgər mən xəstəydimsə, onda sağala bilərdim, bu isə heç olmasa, mənə xilas olmağıma ümid verirdi, halbuki buna qədər bir neçə saat ərzində Solyaris dəhşətlərinin içində dolaşıq düşmüş halda əsla bu ümidi görə bilmirdim.

Bu səbəbdən də hər şeydən əvvəl öz üzərimdə məntiqi düşünülmüş eksperiment – *experimentum crucis* – keçirməliydim, əmin olmalıydım ki, həqiqətənmi mənim başıma hava gəlib və xəyali görüntülərin qurbanıyam, ya onların büsbütün absurd və həqiqətəuyğun olmadıqlarına baxmayaraq, mənim yaşadıqlarım realdır?

Raketodromun konstruksiyasını saxlayan metal dayaqlara söykənərkən belə düşünürdüm. Bu, divardan qabağa

çıxan, açıq-yaşıl rəngə boyanmış, üzərinə qabarıq plitələr döşənmiş polad dor ağacı idi; bir neçə yerdən, təxminən, bir metr yüksəklikdən boya soyulmuşdu, yəqin, onu buradan keçən raket arabaları soymuşdu. Mən polada toxundum, onu ovcumda bir qədər isindirdim, qoruyucu plitənin soyulmuş kənarını taqqıldatdım: sərsəmləmə reallığın bu həddinə qədər çata bilərdimi? «Bilər» – öz-özümə cavab verdim, necə olsa da, bu, mənim sahəm idi, mən bunları ayırd eləyə bilirdim.

Bu əsas eksperimenti düşünüb tapmaq mümkündürmü? Əvvəlcə mənə elə gəldi ki, yox, çünki mənim böyük beynim (əgər, əlbəttə, o xəstəydisə) ondan tələb elədiyim istənilən illüziyanı yaradacaqdı. Axı təkcə xəstəlik zamanı yox, ən adi yuxuda da olur ki, biz heç vaxt tanımadığımız adamlarla söhbət eləyirik, onlara yuxulu halda suallar veririk və onların cavablarını eşidirik; həm də bu adamların bizim şəxsi psixikamızın, həqiqətən də, məhsulu olmasına baxmayaraq, onun hissələrinin necəsə yalançı sərbəstliyi ilə müvəqqəti olaraq işlənib hazırlanmış, onlar bizə müraciət eləyənə qədər (bu yuxuda) onların hansı sözləri deyəcəyini bilmirik. Axı əslində, bu sözlər bizim şəxsi şüurumuzun xüsusi hissəsidir və buna görə də biz onları özümüz düşündüyümüz, yalançı surətin nitqinə daxil elədiyimiz o an da bilməliydik. Belə olan surətdə düşünməməyim, yerinə yetirməməyim üçün mən həmişə özümə deyə bilərdim ki, yuxuda necə hərəkət eləyirlərsə, elə də hərəkət eləmişəm. Snaut da, Sartorius da həqiqətdə olmaya bilərdilər, buna görə də onlara nə sual olursa olsun, verməyin mənası yox idi.

Mən hansısa bir dərman qəbul eləyə biləcəyimi düşündüm, hansısa güclü təsir eləyə biləcək vasitə, məsələn, peotil, ya da başqa bir dərman; bu dərmanlar qarabasma, ya da rəngli görüntülər yaradır. Bu fenomenlərin yaranması mənim gördüklərimin, əslində, məni əhatə eləyən həqiqətin bir parçası olduğunu sübut eləyərdi. «Amma bu da – düşünməkdə davam eləyirdim, – lazım olan əsas eksperiment ola bilməzdi, çünki mən bilirdim ki, dərman (mənim özümün seçəcəyim) təsir eləməliydi, demək, bu dərmanın qəbulu, onun yaratdığı effekt də mənim təxəyyülümün eyni məhsulu ola bilərdi».

Mənə artıq elə gəlirdi ki, bu dəlixana dairəsinə düşmüşəm və oradan çıxa bilməyəcəyəm, axı beyindən kənarda düşünmək mümkün deyildi, özün özündən kənara çıxa bilməzdin ki, orqanizmdə adi halda gedən prosesləri izləyə biləsən. Bu zaman birdən ağlıma sadə olduğu qədər də uğurlu olan bir fikir gəldi.

Ayağa sıçradım və birbaşa radiostansiyaya cumdum. Ora boş idi. Ani olaraq elektron divar saatlarına göz yetirdim. Gecə saat dördə yaxın idi, Stansiyada şərti gecə idi, çölə qırmızı işıq hakim kəsilmişdi. Cəld radioəlaqə cihazını işə saldım və lampaların qızmasını gözləyərkən bir daha eksperimentin hər bir mərhələsini fikrimdən keçirirdim.

Solyarisin ətrafında fırlanan avtomatik stansiyanın, peykin hansı siqnalla çağırılmasını mən bilmirdim, amma onu əsas pultun üzərindən asılan cədvəldən tapdım. Morze əlifbası ilə siqnal verdim və səkkiz saniyədən sonra cavab aldım. Peyk, daha doğrusu, onun elektron beyni təkrar olunan ritmik impulslarla çağırırdı. Onda mən ondan tələb elədim ki, on işarəli şkalayla beşinci işarəyə qədər dəqiqliklə məlumat versin: o, Solyarisin ətrafında fırlanarkən, Qalaktikanın ulduz çətirinin hansı meridianını iyirmi iki bucaq saniyəsində kəsir? Sonra oturdum və cavab gözlədim. Cavab on dəqiqədən sonra gəldi. Mən nəticələr dərc olunmuş kağız lenti cırdım və onu yeşikdə gizlətdim (ona hətta bircə dəfə nəzər salmağa belə səy göstərmədim). Kitabxanadan səmanın böyük xəritəsini, loqarifmik cədvəlləri, sputnikin gündəlik hərəkətinin sorğu cədvəlini və daha bir neçə kitab gətirdim, bundan sonra ən adi bir suala cavab axtarmağa başladım. Demək olar ki, bir saatım tənliklər tərtib eləməyə getdi. Axırıncı dəfə nə vaxt bu qədər hesablamalar apardığımı xatırlamıram, bəlkə də, tələbəlik illərində təcrübi astronomiya imtahanında.

Hesablamaları Stansiyanın böyük hesablama maşınında aparırdım. Mənim mühakimələrim, təxminən, belə idi. Səmanın xəritəsinə görə, mən peykin xəbər verdiyi rəqəmlərlə dəqiq üst-üstə düşməyən rəqəmlər almışdım. Ona görə dəqiq deyildi ki, peyk Solyarisin cazibə qüvvəsinin, onun bir-birinin yanında fırlanan hər iki günəşinin, həm də okeanın yaratdığı, lokal dəyişikliklər cazibəsinin əmələ

gətirdiyi mürəkkəb sarsıntılardan zədələnmişdi. Mənim əlimdə peykdən alınan və nəzəri olaraq hesablanan iki cərgə rəqəmlər olanda öz hesablamalarıma dəyişiklik eləyəcəkdim. Onda hər iki qrup nəticələr vergüldən sonra dördüncü işarəyə qədər dəqiqliklə üst-üstə düşməliydi. Fərqlənmə yalnız beşinci işarədə olacaqdı, onlar okeanın nəzakətsiz təsirini əks elətdirəcəkdi.

Əgər hətta həqiqətdə peykin göndərdiyi siqnallar yox idisə də, mənim təxəyyülümün məhsuluydusa da, onsuz da, onlar digər cərgədə olan hesablama nəticələri ilə üst-üstə düşə bilməzdi. Mənim beynim xəstə ola bilərdi, amma heç bir halda Stansiyanın böyük hesablayıcısı vasitəsilə hesablananları hesablamağa qadir ola bilməzdi; belə ki, bunun üçün bir aydan çox vaxt lazım gələrdi. Buna görə də əgər rəqəmlər üst-üstə düşürsə, demək, Stansiyanın böyük hesablayıcısı, həqiqətən də, var və mən ondan həqiqətən də istifadə eləmişəm, daha xəyalən yox.



Yeşikdən kağız teleqraf lentini çıxaranda əllərim əsirdi və onu hesablayıcıdan çıxan daha geniş lentin yanına sərdim. Hər iki cərgədə, təxmin elədiyim kimi, rəqəmlər dördüncü işarəyə qədər üst-üstə düşürdü. Fərqlənmə yalnız beşinci işarədən başlayırdı. Bütün kağızları yeşikdə gizlətdim. Demək, hesablayıcı məndən asılı olmadan hərəkət eləmişdi. Buradan da Stansiyanın və onda baş verənlərin real olduğu nəticəsi çıxırdı.

Mən artıq yeşiyi bağlamaq istəyirdim, yalnız indi yeşiyin bütöv bir bağ tələsik doldurulmuş kağızlarla dolu olduğunu gördüm. Kağızları çıxartdım və ilk baxışdan da başa düşdüm ki, kimsə mənim eksperimentimə bənzərini artıq keçirib; eksperimentlərdə yalnız bir fərq var idi: ulduz mühitinə aid məlumatlar əvəzinə, o, peykdən Solyaris albedosunun qırx saniyəlik məsafədəki dəyişikliklərini tələb eləmişdi.

Mən dəli deyildim. Ümidimin axırıncı şöləsi də söndü. Ötürücünü söndürdüm, termosdakı bulyonun qalanını içdim və yatmağa getdim.

## HARİ

Bütün hesablamaları hansısa bir qəzəblə aparırdım və yalnız bu, məni ayaq üstə saxlayırdı. Yorğunluqdan o qədər keyləşmişdim, hətta kabinədə çarpayını açmağı belə bacarmadım, yuxarı qısqacları açmaq əvəzinə, tutacağı dartdım və yorğan-döşək üzərimə aşdı. Nəhayət, onu buraxdım, paltarımı və ağları birbaşa döşəməyə atdım, yarıcanlı halda özümü balışın üzərinə saldım, hətta onu düzəltmədim də.

Nə vaxt oyandığımı xatırlamıram, amma işıq idi. Gözlərimi açanda mənə elə gəldi ki, cəmi bir neçə dəqiqə yatmışam. Otaq qaşqabaqlı qırmızı şəfəqlə dolmuşdu. Mənə soyuq və yaxşı idi. Çarpayı ilə üzbəüz, pəncərənin altında kimsə qırmızı şəfəqlə işıqlandırılan kresloda oturmuşdu. Bu, Hari idi. Ağ don geymişdi, ayaqyalın idi, qara saçları arxaya daranmışdı, döşlərinin üzərinə nazik parça çəkilmiş, dirsəklərinə qədər günəşdə yanan əllərini aşağı salmışdı. Hari hərəkətsiz halda qara kirpiklərinin altından mənə baxırdı. Mən onu xeyli və ümumiyyətlə, sakit halda nəzərdən keçirtdim. Mənim ilk fikrim belə oldu: «Yuxu gördüyünü biləndə, bunların sənin yuxuna girdiyini bilməyin necə də yaxşıdır». Hər halda, mən onun yoxa çıxmasını istəyirdim. Gözlərimi yumdum, bu istəyimin çin olmasını çox istəyirdim, amma baxanda qızın yenə də əvvəlkitək qarşımda oturduğunu gördüm. Dodaqlarını özünəməxsus tərzdə yığmış, sanki, fit verməyə hazırlaşırdı, amma gözlərində təbəssüm yox idi. Mən axşam yatmamışdan qabaq yuxu haqqında bütün düşündüklərimi yadıma saldım. Hari mən onda, axırıncı dəfə onu görəndə necəydisə, indi də elə görünürdü, axı onda onun on doqquz yaşı var idi. İndisə onun iyirmi doqquz yaşı olmalıydı, amma təbii ki, heç nə dəyişməmişdi: ölülər cavan qalırlar. O, mənə hələ də heyrət dolu gözləri ilə baxırdı. «Ona nəsə atım», – düşündüm, amma hərçənd ki bu, yuxu idi, atmadım.

– Zavallı qız! Mənə baş çəkməyə gəlibsən, hə? – dedim və bir balaca qorxdum, çünki mənim səsim tamamilə həqiqi çıxdı, otaq və Hari təsəvvür eləyə biləcəyim qədər real görünürdülər.

Necə də gözəl yuxu idi; hələ bu azmış kimi, həm də rəngliydi, əlavə olaraq mən burada hətta döşəmənin üzərində axşam yatarkən görmədiyim çoxlu şey görürdüm. «Nə vaxt oyanaram, – mən qərara aldım, – onların həqiqətənmi burada olduqlarını, yoxsa Hari kimi yuxu tərəfindən yarandıqlarını yoxlamaq lazım gələcək...»

– Sən çoxmu belə oturmaq fikrindəsən? – soruşdum və hiss elədim ki, çox sakit danışıram, sanki, məni eşidəcəklərindən qorxurdum. Sanki, yuxuda baş verənləri eşitmək də olarmış.

Bu zaman günəş artıq bir qədər qalxmışdı. «Hə, budur, – düşündüm, – əla. Mən uzananda qırmızı gün idi, sonra isə mavi gün olmalıydı və yalnız sonra qırmızı gün gəlməliydi. Nə qədər ki mən on beş saat fasiləsiz yata bilmərəm, onda bu, yəqin, yuxudur».



Sakitləşmiş halda Hariyə baxırdım. O, arxadan işıqlandırılmışdı. Pərdənin yarıqlarından süzülən şüa onun sol çiynindəki məxməri zərif tükləri qızılı rəngə boyamışdı, kirpiklərindən sifətinə uzun kölgə düşmüşdü. Qız olduqca gözəl idi. «Lütfən, deyin, – ağlıma bir fikir gəldi, – mən hətta reallığın o biri tərəfində belə necə də dəqiqəm. Günəşin hərəkətini hiss eləyirəm, heç kimdə olmayan, onun heyrətlənmiş dodaqlarından aşağıdakı çökəyi də görürəm». Bununla belə, bütün bunlara son verilməsini istəyirdim.

İşlə məşğul olmağın vaxtı idi. Gicgahlarımı sıxaraq yuxudan oyanmağa çalışanda qəfildən cırıltı eşitdim. Dərhal da gözlərimi açdım.

Hari çarpayının üstündə, mənim yanımda oturmuşdu və diqqətlə mənə baxırdı. Mən ona gülümsədim, o da mənə gülümsədi və mənim üzərimə əyildi. İlk öpüş yüngülcə oldu, sanki, biz uşaq idik. Mən onu uzun müddət öpdüm. «Məgər yuxuda belə öpüşmək olarmı?» – mən düşündüm. Amma axı hətta onu yaddaşım belə dəyişdirə bilməz, çünki o, mənim yuxuma girmişdi. O özü. Heç vaxt məndə belə hal olmamışdı... Hələ də heç nə danışmırdıq. Biz arxamız üstə uzanmışdıq. O, başını qaldıranda mən həmişə onun əhvalının barometri olan balaca burun deşiklərini gördüm. Barmaqlarımın ucu ilə onun qulaqlarına toxundum – sırğalıqları öpüşdən çəhrayı rəng almışdı. Bilmirəm buna görəmi narahat oldum, mən hələ

də özümə bunun yalnız yuxu olduğunu təlqin eləyirdim, amma ürəyim sıxılırdı.

Sıçrayıb çarpayıdan ayağa qalxmaq üçün bədənimi gərdim, amma uğursuzluğa uğradım – yuxuda biz tez-tez öz bədənimizi idarə eləyə bilmirik. Mən yalnız yuxudan oyanmağı düşünürdüm, amma oyana bilmirdim, sadəcə, çarpayının üstündə oturub, ayaqlarımı döşəməyə salladım. «Heç nə eləyə bilməzsən, qoy yuxunu axıra qədər görüm», – mən təslim oldum, amma yaxşı əhvalım büsbütün yoxa çıxdı. Mən qorxdum.

– Sən nə istəyirsən? – səsim xırıltılı çıxdı və mən öskürəsi oldum.

Qeyri-iradi olaraq ayaqlarımla ayaqqabılarımı axtarmağa başladım, amma dərhal da burada heç bir ayaqqabının olmadığını xatırladım və barmaqlarımı elə əzdim ki, qışqırdım. «Hə, indi buna son qoyulacaq», – mən məmnunluqla düşündüm.

Amma heç nə baş vermədi. Mən oturanda Hari kənara çəkildi. O, çiynini çarpayının arxasına söykəmişdi. Sol döşünün üzərindəki donun parçası ürəyinin döyüntü ritminə uyğun olaraq titrəyirdi. O, mənə sakit maraqla baxırdı. Mən: «Ən yaxşısı duş qəbul etməkdir», – deyə düşündüm, amma dərhal da başa düşdüm ki, yuxuya girən duş adamı yuxudan oyada bilməz.

– Haradan gəlibsən?

O, əlimi qaldırdı və tanış hərəkətlə yuxarı atmağa başladı.

– Bilmirəm. Bu pisdir?

Səsi də həmin asta səs idi... və dağınıq ton. O, həmişə elə danışırdı ki, sanki, fikrində nəsə başqa şeylə məşğuldur.

– Səni... kimsə gördümü?

– Bilmirəm. Mən, sadəcə, gəldim. Məgər bu vacibdir, Kris?

Hari hələ də əlimlə oynayırdı, amma onun sifəti daha bu oyunda iştirak eləmirdi. O, qaşqabağını tökmüşdü.

– Hari?

– Nədir, əzizim?

– Mənim burada olduğumu haradan bildin?

Bu sual onu karıxdırdı.

– Başa düşə bilmirəm. Gülməlidir, hə? Mən içəri girəndə sən yatmışdın və yuxudan oyanmadın. Mən səni oyatmaq istəmirdim, çünki sən acıqlısan. Acıqlı və zəhlətökənsən. – Öz sözlərinin taktına uyğun olaraq əlimi yuxarı atırdı.

– Sən aşağıda idin?

– Oradaydım. Mən oradan qaçdım. Orada soyuqdur.

O, əlimi buraxdı. Yanakı çevrilərək başını elə silkələdi ki, saçlarının hamısı bir tərəfə töküldü və mənə həmin yarıtəbəssümü ilə baxmağa başladı. Bu təbəssüm yalnız onu sevdiyimi biləndə məni qıcıqlandırmağa son qoymuşdu.

– Amma axı... Hari... axı... – daha bundan artıq heç nə deyə bilmədim.

Onun üzərinə əyildim və donunun qısa qolunu azacıq qaldırdım. Çiçəyə qarşı edilən çiçəyəoxşar peyvənd yerində iynənin xırda yeri qızarırdı. Hərçənd mən bunu gözləmirdim (belə ki, hələ də mümkün olmayanda məntiq işartısı axtarmağa cəhd eləyirdim), özümü itirdim. Barmaqlarımla illərlə yuxuma girən yaraya toxundum, beləcə mən parça-parça edilmiş yorğan-döşəkdə inildəyərək yuxudan ayılmışdım, həmişə də bir vəziyyətdə – beləcə qıc olmuşdum, çünki mən onu tapanda o soyumuşdu. Yəqin ki, mən yuxuda da elə eləmək istəyirdim, sanki, ona yalvarıb məni bağışlamasını istəyirdim, ya da onun artıq iynənin təsirini hiss eləyib qorxduğu o son dəqiqələrdə onunla birlikdə olmaq istəyirdim. O hətta adi cızıqdan da qorxurdu, qətiyyən ağrıya, qanı görməyə dözə bilmirdi və indisə mənə ünvanlanmış açıqcada beş söz yazaraq, belə qorxunc iş görmüşdü. Açıqca mənim kağızlarımın içində idi, yağ ləkələrinə batmış, qatlanan yerlərdən cırılmış açıqcanı həmişə özümlə gəzdirirdim və ondan ayrılmağa cəsarətim çatmırdı, minlərlə dəfə qızın onu yazdığı o ana qayıdırdım; onda qız nələr hiss edirmiş? Mən özümü inandırmağa çalışırdım ki, qız zarafat eləmək və məni qorxutmaq istəyirmiş və yalnız təsadüfən dərmanın dozası həddən artıq olmuşdu. Dostlarım məni əmin eləyirdilər ki, hər şey məhz belə də olub, ya da bu, depressiya – qəfil depressiya nəticəsində qəbul edilən qərar olub. Axı onlar mənim beş gün bundan əvvəl ona dediklərimi bilmirdilər, onda mən ona demişdim: bir daha onu burada görməyim, şeylərini yığışdırsın. Onlar isə mən

sakitləşəndə sakitcə soruşdular: «Sən bunun nə demək olduğunu bilirsənmi?» Mən özümü elə göstərdim, guya, başa düşmürəm, hərçənd əla bilirdim. Mən onu qorxaq hesab eləyirdim və ona bu haqda demişdim. Indisə o, çarpayıda köndələninə uzanmışdı və mənə diqqətlə baxırdı; sanki, mənim onu öldürdüyümü bilmirdi.

Otaq günəş şüalarından qırmızı rəngə boyanmışdı, Harinin saçları parıldayırdı, o, öz çiyninə baxırdı. Mən əlimi buraxanda soyuq, yumşaq yanağını ovcuma söykədi.

– Hari, – mən xırıldadım, – bu, mümkün deyil.

– Sus!

Onun gözləri yumulu idi, qaşlarının necə titrədiyini görürdüm.

– Hari, biz haradayıq?

– Bizdə.

– Bura haradır?

Bir gözü bir anlığa açıldı və yenidən yumuldu. O, kirpikləri ilə ovcumu qıdıqlayırdı.

– Kris, mən özümü çox yaxşı hiss edirəm!

Mən tərpənmədən onun üstündə oturmuşdum. Sonra başımı qaldırdım və əlüzyuyanın üzərindəki güzgüdə çarpayının bir hissəsini, Harinin səpələnmiş saçlarını və öz çılpaq dizlərimi gördüm. Döşəmənin üzərinə səpələnmiş, yarısı ərimiş alətlərdən birini ayağımla itələdim, onu boş əlimlə götürdüm, dərimə, yarıdairəvi, simmetrik çapıq qızaran yerə söykədim və bədənimə batırdım. Ağrı dözülməz idi. Mən budumla diyirlənən və sakitcə döşəməyə düşən iri qan damlasına baxırdım.

Hər şey əbəs idi. Başımda dolaşan dəhşətli fikirlər getdikcə daha da aydınlaşırdı. Mən daha özümə demirdim: «Bu yuxudur», indi mən düşünürdüm: «Müdafiə olunmaq lazımdır».

Onun yalın ayaqlarına baxdım, sonra əlimi onlara uzatdım. Ehtiyatla çəhrayı dabanlarına toxundum və barmaqlarımı ayağının altı ilə sürüşdürdüm. Qızın ayağının altı təzə doğulan uşağın ayağının altı kimi zərif idi.

Mən artıq bilirdim ki, bu, bəlkə də, Hari deyil və az qala, onun özünün bunu bilmədiyini bilirdim.

Ovcumda yalın ayaqlar tərpəndi, səssiz gülüşdən Harinin tutqun dodaqları şişdi.

– Əl çək... – o pıçıldadı.

Mən yüngülcə əlimi çəkdim və ayağa qalxdım. Tələsik geyindim, onun çarpayının üzərində oturub gülümsəyərək mənə necə baxdığını gördüm.

– Sənin şeylərin hanı? – soruşdum və dərhal da soruşduğuma peşman oldum.

– Mənim şeylərim?

– Nədir, sənin elə bu donun var?

İndi artıq bu, oyun idi. Mən bilərəkdən ehtiyatsız danışmağa çalışırdım, sanki, biz, ümumiyyətlə, heç vaxt ayrılmamışdıq. O, ayağa qalxdı və mənə tanış olan güclü bir hərəkətlə donunu hamarlamaq üçün əlini onun üzərində gəzdirdi.

Mənim sözlərim onu maraqlandırdı, amma o heç nə demədi, yalnız ilk dəfə real olan, axtaran baxışları ilə otağı nəzərdən keçirtdi və heyrət içində mənə tərəf döndü.



– Bilmirəm, – gücsüz halda dedi, – bəlkə, şkafdadır? – şkafın qapısını azacıq açaraq dedi.

– Yox, orada ancaq kombinezonlar var, – mən cavab verdim, əlüzyuyana yaxınlaşdım, elektrik üzqırxanını götürüb üzümü qırxmağa başladım, necə olmuş olsa belə, arxam qıza tərəf dayanmamağa çalışırdım.

O, bütün künclərə baxaraq kabinədə gəzişirdi, pəncərəyə baxdı, nəhayət, mənim yanıma gəldi.

– Kris, məndə belə bir hiss var ki, elə bil, nəsə baş verib.

O dayandı. Mən işləyən elektrik üzqırxanını əlimdə tutub gözləyirdim.

– Sanki, nəyisə unutmuşam... sanki, çox şeyi unutmuşam. Bilirəm... yalnız özümü xatırlayıram... və... və... daha heç nəyi.

Mən ona qulaq asır, hisslərimi büruzə verməməyə çalışırdım.

– Mən xəstə... idim?

– Hə, belə də demək olar. Hə, bir müddət sən bir balaca xəstə oldun.

– Aha. Bu, yəqin, ona görədir.

O, yüngülcə şənləndi. Mən nələr hiss etdiyimi danışa bilmərəm. O susanda, güləndə Harinin qarşısında oturmağımın təəssüratı, məni bürüyən həyəcandan daha

güclü idi. Sonra yenə də mənə elə gəldi ki, bu, bir neçə oxşar hərəkətləri, işarələri, müraciəti ilə uyğunlaşdırılmış bir bayağı Haridir. O, mənə tamam yaxınlaşdı, sıxdığı yumruğunu qarnıma söykəyib soruşdu:

– Səninlə mənim birlikdə olmağımız necədir? Yaxşıdır, yoxsa pisdir?

– Heç vaxt olmadığı kimi yaxşıdır!

O, yüngülcə gülümsədi.

– Sən nə vaxt belə deyirsən, demək, pisdir.

– Bunu haradan çıxartdın... Hari... əzizim... mən indicə getməliyəm, – tələsik dedim. – Məni gözlə, yaxşı? Bəlkə, sən acsan? – əlavə elədim, çünki özüm getdikcə güclənən aclığı hiss eləyirdim.

– Acam? Yox.

O, başını yellədi.

– Mən səni gözləməliyəmmi? Çoxmu?

– Bir saat, – mən demişdim ki, o, sözümü kəsdi.

– Mən də səninlə gedirəm.

Bu artıq tamam başqa Hari idi, o Hari yaxana yapışmazdı. Heç vaxt...

– Əzizim, bu mümkün deyil.

O, mənə aşağıdan-yuxarı baxırdı, sonra gözlənilmədən əlimdən yapışdı. Onun girdə, isti çiynini sığallamağa başladım. Birdən mən Harini əzizlədiyimi başa düşdüm. Mənim bədənim onu hiss eləmişdi, şüura, məntiqə və qorxuya baxmayaraq, məni ona doğru dartırdı.

Nəyin bahasına olursa olsun, sakitliyimi qorumağa çalışaraq təkrar elədim:

– Hari, bu mümkün deyil. Sən burada qalmalısan.

– Yox.

– Niyə?

– B-bilmirəm.

O, göz gəzdirdi və yenidən başını qaldırıb mənə baxdı.

– Bacarmıram... – o, tamam sakit dedi.

– Axı niyə?!

– Bilmirəm. Bacarmıram. Mənə elə gəlir... mənə elə gəlir...

O, inadla cavab axtarırdı və cavabı tapanda, bu, onun üçün kəşf oldu.

– Mənə elə gəlir ki, mən həmişə səni görməliyəm.

Bu sözlərin tələffüzündə məni həyəcanlandıran nəsə vardı. Yəqin, buna görə də qətiyyən eləməyə hazırlaşmadığım kimi hərəkət elədim. Onun gözlərinin içinə baxaraq əllərini arxasına qatlamağa başladım. Əvvəlcə tamam qərarlı görünməyən bu hərəkət anlaşılan görünməyə başladı, məndə bir fikir yarandı. Mən artıq gözlərimlə onu sarıya biləcəyim nəsə, bir şey axtarırdım.

Onun arxaya qanrılan dirsəkləri bir-birinə toxundu və eyni zamanda da elə bir qüvvəylə gərildi ki, mənim cəhdim mənasız oldu. Mən, bəlkə də, bir saniyə mübarizə apardım. Hətta Hari kimi, az qala, döşəməyə toxunacaq qədər arxaya qatlanmış atlet də beləcə özünü azad eləyə bilməzdi. Amma o, sifətinin cizgilərində bunu zərrəcə hiss elətdirmədən zəif, inamsız gülüşlə qollarımın arasından çıxdı və əllərini aşağı saldı.



Onun gözləri mənə lap başlanğıcda, mən oyananda olduğu kimi həmin sakit maraqla baxırdı. Sanki, o, məndə vahimə tutması yaradan ümidsiz cəhdimə diqqət vermirdi. O, hərəkətsiz, eyni zamanda da etinasız, gərgin və bütün bunlardan azacıq heyrətlənmiş halda dayanmışdı və sanki, nəyisə gözləyirdi.

Mənim əllərim boşaldı. Onu otağın ortasında qoyub əlüzyuyanın yanındakı rəfə doğru getdim. Qorxunc bir tələyə düşdüyümü hiss eləyir və daha çox amansız üsulları bir-bir gözdən keçirərək çıxış yolu axtarırdım. Əgər kimsə məndən soruşsaydı mənə nələr olur və bütün bunlar nə deməkdir, mən bircə söz belə tapıb cavab verə bilməzdim. Amma mən artıq özüm üçün aydınlaşdırdım – Stansiyada baş verənlər anlaşılmayan və dəhşətli bir tam halındadır. Lakin indiki anda mən yalnız necə qaçmaq haqqında düşünürdüm.

Geri baxmadan belə üzərimdə Harinin baxışlarını hiss eləyirdim. Döşəmənin üzərində divarda balaca bir aptek qutusu var idi. Mən qaçaraq baxışlarla onun içərisindəkilərə baxdım, içərisində yuxu dərmanları olan bankanı axtardım və tapan kimi də stəkana dörd həb atdım, bu, maksimum dozaydı. Mən hətta öz hərəkətlərimi Haridən gizləmirdim. Nəyə görə belə elədiyimi demək çətindir. Stəkana isti su tökdüm, həblərin əriməsini gözlədim və hələ də otağın ortasında dayanan Hariyə yaxınlaşdım.

– Hirslənirsən? – o, sakitcə soruşdu.

– Yox. İç bunu.

Nəyə görəsə onun məni eşidəcəyini düşünürdüm. Həqiqətən də, dinməzcə stəkanı əlimdən aldı və içərisindəki yuxugətiricini birnəfəsə başına çəkdi. Boş stəkanı stolun üzərinə qoydum, şkafla kitab rəfinin arasında oturdum. Hari ağır-ağır mənə yaxınlaşdı və kreslonun yanında, döşəmənin üzərində oturdu, ayaqlarını altına elə yığdı ki, o, bircə dəfə də belə eləməmişdi və mənə yaxşı tanış olan hərəkətiylə saçlarını arxaya atdı. Hərçənd bunun həmin o qız olduğuna tamam inanmasam da, hər dəfə onu kiçik vərdişləriylə tanıyanda nə isə boğazımdan yapışırdı. Bu, dərk edilməyən və dəhşətli idi. Ən dəhşətlisi isə bu idi ki, mən özüm də saxtakarlıq eləyərək özümü elə göstərməliydim ki, onu Hari kimi qəbul eləyirəm.

Axı o özü də özünü Hari hesab eləyirdi və onun hərəkətlərində heç bir hiyləgərlik yox idi. Belə düşünməyə necə nail olduğumu bilmirəm, amma buna əmindim – əgər mən, ümumiyyətlə, nəyəsə əmin ola bilirdimsə.

Mən oturmuşdum, qız isə çiyinlərini dizlərimə söykəmişdi, onun saçları əllərimi qıdıqlayırdı, biz hər ikimiz, demək olar tərpənmirdik. İki dəfə mən hiss etdirmədən saata baxdım. Yarım saat keçmişdi – yuxu dərmanı təsir eləməliydi. Hari astadan nəsə mızıldandı.

– Nə deyirsən? – soruşdum, amma o cavab vermədi.

Mən bunu artıq başlamaq üzrə olan yuxunun nəticəsi kimi yozdum, hərçənd düzünü deyim, qəlbimin dərinliklərində dərmanın təsir göstərəcəyinə şübhə eləyirdim. Nəyə görə? Bu sualın da cavabı yox idi. Ən çoxu da ona görə ki, mənim hiyləgərliyim çox primitiv idi.

Onun başı azacıq dizlərimə tərəf əyildi, qara saçları sifətini örtmüşdü. Yatan adam kimi aramla nəfəs alırdı. Mən onu çarpayıya aparmaq üçün onun üzərinə əyildim. Birdən o, gözlərini açmadan saçlarımdan yapışdı və ucadan gülərək uğunub getdi.

Mən donub-qaldım, o isə gülməkdən əldən düşmüşdü. Gözlərini qıyaraq sadəlövh və hiyləgər bir hərəkətlə məni izləyirdi.

Mən sarsılmış və köməksiz halda qeyri-iradi olaraq hərəkətsiz halda oturmuşdum, Hari isə gülümsəyərək yanağını mənim əlimə sıxdı və susdu.

– Sən nəyə gülürsən? – mən boğuq səslə soruşdum.

Onun da sifətində həyəcanlı bir ifadə canlandı. Mən onun həqiqi olmaq istədiyini gördüm. Barmaqları ilə balaca burnunu tərpədib, nəhayət, ah çəkərək dedi:

– Özüm də bilmirəm.

Bu sözlərdə səmimi bir heyrət var idi.

– Mən özümü səfeh kimi aparıram, hə? – o sözə başladı. – Mənə nədənsə... Amma sən də yaxşısan, təkəbbürlü halda oturubsan... Pelvis kimi...

– Kim kimi? – soruşdum, mənə elə gəldi səhv eşitdim.

– Pelvis kimi, hə, axı sən tanıyırsan onu, gonbulu.

Axı Hari heç bir halda Pelvisi tanıya bilməzdi, hətta onun haqqında məndən eşidə də bilməzdi, bircə sadə səbəbə görə ki, Pelvis öz ekspedisiyasından Hari öləndən üç il sonra qayıtmışdı. Mən özüm də buna qədər onunla tanış deyildim və onun institutlardakı yığıncaqlara sədrlik eləyərkən yığıncağı sonsuza qədər uzatdığını bilmirdim. Düzünü desəm, onun adı Pelle Villis idi, bu adın ixtisarından onun ləqəbi yaranmışdı, bu ləqəb də o qayıdana kimi eşidilməmişdi.



Hari dirsəklərini dizlərimə söykəyərək gözlərimin içinə baxırdı. Mən onun əllərindən yapışdım və yavaş-yavaş əlimi üzüyuxarı sürüşdürməyə başladım, beləcə barmaqlarım, az qala, onun nəbzi atan boynunun ətrafında birləşməyə başladı. Sonda bu, nəvaziş kimi də görünə bilərdi və onun baxışlarından bunu belə də qəbul elədiyi hiss olunurdu. Həqiqətdə isə mən onun bədəninin adi, isti insan bədəni olduğuna və əzələlərinin altında sümük olduğuna əmin olmaq istəyirdim. Onun sakit gözlərinə baxarkən şiddətli bir arzu hiss eləyirdim – barmaqlarımı sıxmaq arzusu.

Mən, az qala, belə eləyəcəkdim ki, Snautun qanlı əllərini xatırladım və əlimi boşaltdım.

– Sən necə baxırsan... – Hari sakitcə dedi.

Ürəyim elə döyünürdü ki, cavab verməyə qadir deyildim. Bir anlığa gözlərimi qapadım.

Birdən ağlıma necə hərəkət eləmək ideyası gəldi; əvvəldən axıra kimi, bütün detallarıyla. Bircə dəqiqə belə itirmədən kreslodan ayağa qalxdım.

– Hari, mən getməliyəm, – dedim, – əgər sən mənimlə belə getmək istəyirsənsə, onda gedək.

– Yaxşı.

O, ayağa sıçradı.

– Sən niyə ayaqyalınsan? – soruşdum, şkafa yaxınlaşaraq müxtəlif rəngli kombinezonların arasından ikisini seçdim – özüm üçün və onun üçün.

– Bilmirəm... Yəqin, ayaqqabılarımı harasa atmışam, – o, inamsız halda dedi.

Bu sözləri qulaqardına vurdum.

– Sən donunla bunu geyə bilməzsən. Donunu çıxartmalısan.

– Kombinezon? Nəyə görə? – o maraqlandı, dərhal da donunu çıxartmağa başladı. Amma bu zaman qəribə bir şey məlum oldu. Donu çıxartmaq mümkün deyildi, onun nə ayrıcı, nə düyməsi, bir sözlə, heç nəyi yox idi. Ortalıqdakı qırmızı düymələr yalnız bəzək idi. Hari tutqun halda gülümsəyirdi. Özümü bunun dünyadakı ən adi bir şey olduğuna inanan kimi göstərərək alətlərin içindən cərrah bıçağına oxşar birisini götürdüm, donu kürəyindən, qurtardığı yerdən kəsməyə başladım. İndi o, donu başından çıxarda bilərdi. Kombinezon olduqca böyük idi...

– Uçuruq?.. Sən də? – biz hər ikimiz geyinmiş halda otağı tərk eləyəndə əslinə yetişmək üçün o soruşdu. Mən yalnız başımla təsdiqlədim. Snautla rastlaşacağımdan dəhşətli dərəcədə qorxurdum, amma uçuş meydançasına aparan dəhliz boş idi, yanından keçdiyimiz radiostansiyanın qapıları isə bağlıydı.

Hari mənim balaca elektrik arabasında orta boksdan raketin boş yoluna necə çıxdığımı izləyirdi. Mən növbə ilə mikroreaktorun, məsafədən idarəetmə sükanının sazlığını yoxlayırdım, sonra start arabası ilə birlikdə raketi diyirlədib, çətirin mərkəzi ağzının altındakı start diskinin dairəvi sahəsinə apardım, qabaqcadan oradan öz boş konteynerimi götürdüm.

Bu, Stansiya ilə peyk arasında əlaqə saxlayan elə də böyük olmayan raket idi, adamların yox, yüklərin daşınmasında istifadə olunurdu. Onda adamlar yalnız müstəsna hallarda uçurdular, çünki onu içəridən açmaq olmurdu. Məhz bu, mənim planımın bir hissəsini təşkil eləyirdi.

Mən, əslində, raketi buraxmaq istəmirdim, amma hər şeyi elə eləyirdim ki, sanki, onu əslində də starta hazırlayırdım. Səyahətlərdə dəfələrlə mənim yol yoldaşım olan Hari bundan bir qədər baş çıxarırdı. Mən içəridəki oksigen cihazlarının və iqlimdəyişən avadanlıqların vəziyyətini bir də yoxladım, hamısını işə saldım və əsas zənciri qoşandan sonra siqnal lampası yananda darısqal kabinədən çıxdım və onu pilləkəndə dayanmış Hariyə göstərdim.

– Gir.

– Bəs sən?

– Mən də səninlə uçacağam. Mən lyuku bağlamalıyam.

Onun mənim hiyləmi hiss eləməyəcəyinə əmin idim. O, pilləkənlə qalxıb kabinəyə girəndən sonra dərhal başımı içəri salıb soruşdum: o, rahatmı yerləşib və boğuq «hə»ni eşidən kimi də geri çəkilib, zərblə lyuku bağladım. İki hərəkətlə hər iki tutacağı bağladım və hazırlanmış açarla örtüyün dərinliyində dimdik durmuş boltları bərkitməyə başladım.



Sivri qüllə şaquli dayanmışdı, sanki, həqiqətən də, bir andan sonra boşluğa uçacaqdı. Mən içəridə olana heç nə olmayacağını bilirdim. Raketdə kifayət qədər oksigen və hətta bir qədər də ərzaq var idi. Nəhayət ki, mən onu orada sonsuza qədər saxlamaq fikrində deyildim.

Nəyin bahasına olursa olsun, heç olmasa, saat yarımlıq azad olmaq istəyirdim ki, gələcəkdə neyləyəcəyim haqqında plan qurum və Snautla əlaqə yaradım. İndi artıq bərabər səviyyədə.

Sonuncu boltu bərkidəndən sonra raketin üzərində dayandığı metal dirəklərin titrədiklərini hiss elədim, amma elə düşündüm ki, var qüvvəmlə böyük açarı sıxan mən özüm titrəyirəm.

Lakin bir neçə addım aralanandan sonra elə şey gördüm ki, onu bir daha görmək istəməzdim.

Raket içəridən vurulan zərbə seriyalarının təsirindən titrəyirdi, həm də necə vururdular! Əgər qarasaçlı, qamətli qızın yerini polad avtomat tutmuş olsaydı, hətta yəqin ki, o, səkkiz tonluq kütləsi olan raketi belə titrədə bilməzdi.

Raketin cilalanmış örtüyü üzərində lampaların əksi rəngdən-rəngə çalır və rəqs eləyirdi. Doğrudur, mən heç

bir zərbə səsi eşitmirdim, raketin içərisində tamamilə sakitlik idi. Yalnız raketin asılı qaldığı konstruksiyanın geniş aralanmış ayaqları özlərinin dəqiq çevrələrini itirmişdi, onlar simlər kimi titrəyirdi. Titrəyişin tezliyi eləydi ki, mən örtüyün davam gətirməyəcəyindən ehtiyatlanırdım. Titrəyən əllərimlə axırıncı boltu da bərkidərək açarı bir tərəfə atdım və pilləkəndən yerə sıçradım. Ağır-ağır geri çəkilərkən daimi gərginliyə hesablanan amortizatorların millərinin yuvalarında necə oynadıqlarını gördüm. Mənə elə gəldi ki, raketin zirehlənmiş örtüyünün yekcins monolit parıltısı dəyişir. Dəli kimi məsafəli idarəetmə pultunun yanına sıçradım, hər iki əlimlə reaktorun və əlaqənin dəstəyini yuxarı itələdim. Bu zaman reproduktordan nə zingiltiyə, nə fitə, nə də insan səsinə bənzəməyən bir səs eşitdim, amma buna baxmayaraq mən: «Kris! Kris! Kris!» deyə fəryad edildiyini ayırd edə bildim.

Bunu aydın eşitdiyimi deyə bilmərəm. Soyulmuş əllərimdən qan axırdı, mən xaotik olaraq, dəli bir sürətlə raketi buraxmağa çalışırdım. Divara sarı işıq düşdü. Start meydançasından, qübbənin altından tozanaq qalxdı, onu qığılcım topası əvəz elədi və bərk, sürəkli uğultu bütün səsləri batırdı. Raket dərhal da birləşən alovun üç dili üzərində qalxırdı və alov tullayıcının qıfının arasından çölə vururdu. Qapaqlar dərhal da bağlandı, avtomatik olaraq işə düşən kompressorlar acı tüstünün burulduğu içəriyə təmiz hava vurmağa başladı.

Bütün bunları mən hiss eləmirdim. Əllərimlə pulta söykənib, hələ də pırtlaşıq tükləri yanmış sifətimdə alovu hiss eləyərək, qıc olmuş halda ağzımı açaraq ionlaşmaya xas olan, his qoxulu havanı udurdum. Start anında instinktiv olaraq gözlərimi yumsam da, alov, hər halda, gözlərimi kor eləmişdi. Bir müddət mən yalnız qara, qırmızı və qızılı dairələr görürdüm. Bir qədərdən sonra bu keçdi. Tüstü və toz uzun-uzadı uğuldayan ventilyasiya qurğularına sorularaq yoxa çıxdı.

Mənim ilk gördüyüm lokatorun yaşıl ekranı oldu. Axtarış antenası ilə manevrlər eləyərək raketi axtarmağa başladım. Nəhayət, onu tapanda o, atmosferdən çıxmışdı. Həyatımda heç vaxt mən belə dəlicəsinə, mahiyyətini dərk eləmədən, sürətləndirmə təyin eləmədən, ümumiyyətlə,

onu harasa istiqamətləndirmədən kor-koranə üsulla raket buraxmamışdım. Hamısından sadəsi onu, təxminən, min kilometr yüksəklikdə olan Solyarisətrafı dairəvi orbitə çıxartmaq olduğunu düşünürdüm. Onda mühərrikləri qoşa bilərdim, onlar uzun müddət işləmişdi və nəticədə onun qəzaya uğramayacağına əmin deyildim. Cədvələ baxarkən min kilometrlik orbitin stasionar orbit olduğuna əmin oldum. Doğrudur, bu özü də nəyəsə zəmanət vermirdi, sadəcə, bu, mənim gördüyüm vəziyyətdən çıxmağın yeganə yoluydu.

Startdan dərhal sonra söndürdüyüm reproduktoru açmağa cürət eləmədim. Mən hər şeyi eləməyə razı olardım, təki insanlıq adında heç nə olmayan bu dəhşətli səsi bir də eşitməyim. Bütün şübhələr – mən bunu özümə deyə bilərdim – məhv edilmişdi və Harinin xəyali sifətinin arxasından başqa, alternativinin qarışmasından azad olmuş əsl sifəti boylanmağa başlamışdı.



Mən raketodromu tərk eləyəndə saat birə az qalırdı.

## «KİÇİK APOKRİF»

Sifətimin və əllərimin dərisi yanmışdı. Hari üçün yuxu dərmanı axtaranda (əgər bacarsaydım, öz sadəlövhlüyümə gülərdim) orada yanıq mazı gördüyümü xatırladım və oz otağıma getdim. Qapını açdım və qürubun qırmızı işığında böyründə Harinin özünə yer elədiyi kresloda kiminsə oturduğunu gördüm. Qorxu məni iflic elədi, qaçıb canımı qurtarmaq üçün geri dartındım. Bu, saniyənin hansısa bir hissəsi qədər oldu. Oturan adam başını qaldırdı. Mən Snautu tanıdım. Ayaqlarını ayaqlarının üstünə aşıraraq, arxasını mənə çevirib hansısa kağızları vərəqləyirdi. Məni görəndən sonra Snaut bütün kağızları bir kənara qoydu və burnunun ucuna endirdiyi eynəyin yuxarısından qaşqabaqlı halda mənə baxdı.

Dinməzcə əlüzyuyana yaxınlaşdım, aptek qutusundan yarımaye halında olan mazı çıxartdım və onu alnımdakı və üzümdəki bir qədər çox yanmış yerlərə sürtməyə başladım. Xoşbəxtlikdən, üzüm elə də şişməmişdi. Üzümdəki və gicgahımdakı bir neçə qabarıqcığı isə steril iynə ilə deş-

dim və içərisindəki mayeni çıxartdım. Sonra üzərlərinə iki parça tənzif yapışdırdım. Bütün bu müddət ərzində Snaut məni diqqətlə izləyirdi. Mən ona əhəmiyyət vermirdim. Nəhayət, mən işimi qurtardım (üzümsə daha çox yanmağa başlamışdı) və digər kresloda oturdum. Əvvəlcə mən oradan Harinin donunu götürəsi oldum. Bu, tamam adi don idi, əgər düymə yerlərinin olmadığı istisna olunarsa.

Snaut əllərini dizlərinin üzərinə qoyub mənim hərəkətlərimi tənqidi baxışlarla izləyirdi.

– Hə, nədir, danışaq? – mənim oturmağımı gözləyərək soruşdu.

Üzümdən sürüşən tənzifi yanağıma sıxaraq cavab vermədim.

– Qonağın olub, eləmi, Kris?

– Hə, – mən sakitcə cavab verdim. Səsimin tonunu belə saxlamağa heç həvəsim yox idi.

– Sən də ondan xilas ola bilibsən? Hə-hə, sən bu işə yaxşı girişibsən.

O, hələ də dərisi soyulan alnına toxunur, soyulan yerin altından isə çəhrayı təzə dəri görünürdü. Nəyə görə Snautun və Sartoriusun günəşdə yanmaları məni düşünməyə məcbur eləməmişdi? Mən bunun günəşdən olduğunu zənn eləmişdim, axı Solyarisdə heç kim günəşdə qaralmırdı.

– Amma sən, heç olmasa, ciddimi başladın? – ağlıma gələn tapıntıdan mənim bütünlüklə alışıb-yandığıma əhəmiyyət vermədən Snaut dedi. – Müxtəlif narkotiklər, zəhərlər, sərbəst güləş üsulları, hə?

– Sən nə istəyirsən? Biz yalnız bərabər səviyyələrdə danışa bilərik. Əgər sən hoqqabazlıq eləməyi düşünürsənsə, yaxşısı budur, get.

– Bəzən istəmədən də hoqqabaz olmaq lazım gəlir, – o dedi və qıyıq gözlərini qaldırıb mənə baxdı. – Sən məni, hər halda, əmin eləməyəcəksən ki, ipdən, ya da çəkicdən istifadə eləməyibsən? Təsadüfən Lüter kimi mürəkkəbqabını atmayıbsan ki? Yox? Eee, – o, sifətini qırışdırdı, – sən necə lazımsa, elə oğulsan. Hətta əlüzyuyan salamatdır. Başını əzməyi, ümumiyyətlə, sınaqdan keçirməyibsən, otaq tam səliqə-sahmandadır. Demək, bir...iki – oturtdun, düyməni basdın və hazırdır? – Snaut

saatına baxıb sözünü bitirdi. – Bizim indi hansısa iki, bəlkə də, üç saatımız var.

O, mənə istehzalı təbəssümlə baxdı və birdən soruşdu:

– Demək, məni donuz hesab eləyirsən?

– Tam bir donuz kimi, – mən sərt tərzdə təsdiqlədim.

– Belə. Əgər mən desəydim, sən mənə inanardınmı? Heç olmasa, bircə sözümə inanardınmı?

Mən susdum.

– İlk dəfə bu, Qibaryanın başına gəldi, – o, elə sifətindəki həmin təbəssümüylə də davam elədi. – O, öz kabinəsinə çəkilmişdi və yalnız qapının arasından danışırdı. – Bizsə... bizim nə qərara gəldiyimiz ağlına gəlirmi?

Mən bilirdim, amma susmağa üstünlük verdim.

– Di, aydındır. Qərara aldıq ki, o, ağlını itirb. O, qapının arasından hamısını da olmasa, bizə nəsə danışmışdı. Bəlkə, sən başa düşürsən də, o, nəyə görə gizlənirdi və onun yanında kim var idi? Axı sən artıq bilirsən, hər kəs özününkünə baş çəkirdi. Amma o, əsl alim idi. O, bizim ona şans verməyimizi tələb eləyirdi.



– Prinsip etibarilə siz ona hansı şansı verə bilərdiniz?

– Belə də, mən düşünürdüm ki, o, necəsə təsnif etmək, necəsə danışmaq, nəsə qərara gəlmək istəyir. Bilirsənmi o neylədi? Yəqin, bilirsən?

– Bu hesablamaları, – mən dedim, – yeşikdəki. Radiostansiyada. Bu, onun işidir?

– Hə. Amma onda mən bu haqda heç nə bilmirdim.

– Bu nə qədər davam elədi?

– Qonaqlar? Bir həftəyədək. Qapının arasından danışırdıq. Amma orada nələr olurdu... Biz onda qarabasma olduğunu düşünürdük, motor oyandırması. Mən ona skopolamin verdim.

– Necə yəni... ona?

– Bax belə. O götürdü, amma özü üçün yox. Təcrübədən keçirtdi. Beləcə də hər şey baş verdi.

– Bəs siz?

– Biz? Üçüncü gün onun yanına girməyi qərara aldıq, başqa cür mümkün olmasa, qapını sındıracaqdıq. Biz onu, həqiqətən də, müalicə eləmək istəyirdik.

– Ah... demək, buna görə! – ixtiyarsız halda dedim.

– Bəli.

– Orada... o şkafda...

– Bəli, mənim əzizim. Bəli. O, həmin bu vaxt bizə də qonaqların baş çəkdiyini bilmirdi. Biz artıq onlarla məşğul ola bilmirdik. Amma o, bu haqda bilmirdi. İndi... indisə artıq bir qədər təcrübəmiz var.

O, bu sözləri o qədər astadan dedi ki, axırıncı sözü mən eşitmədim, sadəcə, təxmin elədim.

– Dayan görüm, mən başa düşmürəm, – mən dedim. – Necə yəni? Axı siz mütləq eşitməliydiniz. Sən özün qulaq asdığınızı dedin. Siz bir yox, iki səs eşitməliydiniz...

– Yox. Yalnız bir səs gəlirdi, amma əgər orada anlaşılmayan səslər olurdusa da, biz oyunları, özün başa düşürsən də, nəyin hesabına yazırdıq...

– Yalnız onun? Amma... nəyə görə?

– Bilmirəm. Doğrudur, bu münasibətlə mənim bir nəzəriyyəm var. Ancaq düşünürəm ki, bu haqda tələsmək lazım deyil, həm də o, bütünlüklə aydınlaşmayacaq. Bax belə. Amma sən axşam nəsə görməliydin, yoxsa bizim hər ikimizi dəli hesab eləyəcəkdin.

– Mən öz başıma hava gəldiyini düşünürdüm.

– Ax, belə de? Heç kimi də görmədin?

– Gördüm.

– Kimi?

Onun sifətinin ifadəsi artıq gülüşə uyğun gəlmirdi. Mən cavab verməmişdən əvvəl ona xeyli baxdım.

– O... qaranı...

O, heç nə demədi, amma onun bütünlüklə qıvrılan, qabağa əyilən bədəni bir balaca yumşaldı.

– Hər halda, məni xəbərdar eləyə bilərdin, – mən artıq qərarsız halda başladım.

– Axı mən səni xəbərdar elədim.

– Hansı vasitə ilə?

– Mümkün olan yeganə vasitə ilə. Başa düş, mən bunun kim olacağını bilmirdim. Bunu heç kim bilmirdi, bunu bilmək olmazdı...

– Qulaq as, Snaut, mən səndən soruşmaq istəyirəm. Sən bunu tanıyırsanmı... artıq bir müddət. Həmin... o... onunla necə olacaq?

– Səni onun qayıdacağımı maraqlandırır?

– Bəli.

– Qayıda da bilər, qayıtmaya da.

– Bu nə deməkdir?

– Başlanğıcda olduğu kimi, qayıda bilər... ilk təşrifindəki kimi. Sadəcə, heç nə bilməyəcək, daha dəqiqi, özünü elə aparacaq ki, sanki, sənin ondan xilas olmaq üçün elədiklərin heç vaxt olmayıb. Əgər onu bu vəziyyətə gəlməyə məcbur eləməsən, sənə qarşı pis münasibətdə də olmayacaq.

– Hansı vəziyyətə?

– Bu, şəraitdən asılıdır...

– Snaut!

– Səni nə maraqlandırır?

– Biz bir-birimizdən gizlənməkdə israfçılığa yol verə bilmərik.

– Bu, israfçılıq deyil, – o, soyuq tərzdə dilləndi. – Kelvin, mənə elə gəlir ki, sən hələ də hər şeyi başa düşmürsən... ya da dayan! – Onun gözləri işıldadı. – Sən onun kim olduğunu danışa bilərsənmi?!



Mən ağzımın suyunu udub, başımı aşağı saldım. Mən ona baxmaq istəmirdim. Yaxşı olardı ki, bu, kimsə başqası olsun, daha o yox. Amma seçim yox idi. Tənzifin bir parçası qopdu və ovcuma düşdü. Mən qəfil toxunmadan diksindim.

– Qadın, hansı ki... – Sözümü qurtara bilmədim. – O, özünü öldürmüşdü. Özünə... iynə vurmuşdu...

Snaut gözləyirdi.

– İntihar?.. – mənim susduğumu görüb özü soruşdu.

– Hə.

– Bu hamısıdır?

Mən susdum.

– Bu, hamısı ola bilməz...

Mən cəld başımı qaldırdım. O, mənə baxmırdı.

– Sən haradan bilirsən?

O cavab vermədi.

– Yaxşı, – mən dodaqlarımı yalayaraq dedim. – Biz mübahisə elədik. Şəxsən... Mən ona dedim, bilirsənmi, hirslənəndə necə deyirlər. Şeylərini yığışdırsın və çıxıb getsin. O, mənə işarə verdi ki... birbaşa demədi... amma əgər kiminləsə illərlə yaşamışdısa, onda bu lazım deyildi... Mən əmin idim ki, bunlar yalnız söz xatirinə deyilir... o, belə elə-

məkdən qorxar və... ona elə belə də dedim. Növbəti gün mən xatırladım ki, zəhəri... şkafa qoymuşam. O, bu haqda bilirdi. Zəhər mənə lazım idi, onu laboratoriyadan gətirmişdim və zəhərin necə təsir elədiyini ona başa salmışdım. Mən qorxdum və onun yanına getmək istədim, amma sonra fikrimi dəyişdim, bu, o anlama gələ bilərdi ki, guya, mən onun sözlərini ciddi qəbul eləyirəm... hər şey necə vardısa, elə də qaldı. Üçüncü gün, hər halda, getdim, bu, mənə rahatlıq vermirdi. Amma... mən gələndə o artıq ölmüşdü.

– Ah, sən, müqəddəs günahsız...

Bu, məni özümdən çıxartdı. Amma Snauta baxanda onun heç də məni ələ salmadığını başa düşdüm. Mən, sanki, onu ilk dəfəydi görürdüm. Onun boz sifəti var idi, üzünün dərin qırışlarından sözlə ifadə edilməyəcək yorğunluq yağırdı. Ağır xəstə adam kimi görünürdü.

– Sən niyə belə deyirsən? – mən heyrətləndirici dərəcədə qorxaqcasına soruşdum.

– Ona görə ki, bu əhvalat faciəlidir. Yox, yox, – mənim hərəkətimi görüb cəld əlavə elədi, – sən hələ də hər şeyi başa düşmürsən. Əlbəttə, sən bundan çox əzab çəkə, hətta özünü qatil də hesab eləyə bilərsən, amma... ən dəhşətlisi bu deyil.

– Sən nə danışırsan! – mən acıqla dilləndim.

– Mənə inanmadığına görə sevinirsən. O baş verən hadisə, yəqin, dəhşətli olub, amma ən dəhşətlisi hələ... baş verməyib. Heç vaxt.

– Başa düşmürəm, – qərarsız halda dilləndim. – Doğrudan da, heç nə başa düşmürəm.

Snaut başıyla təsdiqlədi.

– Normal insan... Normal insan nə olan şeydir? O insandır ki, heç vaxt alçaqlıq eləməyib. Belə, amma yəqin, bu haqda heç vaxt düşünməyib. Bəlkə də, hətta düşünməyib, amma onda nəsə düşünüb, on, ya da otuz il əvvəl belə bir fikir yaranıb, bəlkə də, bundan qorunub və yaddan çıxarıb, qorxmayıb, çünki bunu heç vaxt həyata keçirə bilməyəcəyini bilib. Hə, indisə özün üçün təsəvvür elə ki, gözlənilmədən, günün günortaçağı, digər adamların arasında ətinə, qanına yerimiş bunu qarşılayırsan, sənə yapışıb və ondan qopmaq heç cür mümkün deyil, onda neyləyərsən? Onda nə olacaq?

Mən susurdum.

– Stansiya, – o sakitcə dedi. – Onda Solyaris Stansiyası olacaq...

– Amma... necə yəni?.. Bu ola bilərmi? – mən qərarsız halda soruşdum. – Axı nə sən, nə də Sartorius qatil deyilsiniz.

– Amma Kelvin, sənsə psixoloqsan! – o, hövsələsizcəsinə sözümü kəsdi. – Kimin nə vaxtsa belə yuxusu olmayıb? Sayıqlama? Düşün... di deyək ki, çirkli ağ parçaya vurulmuş fanatik haqqında düşün, həyatıyla risk eləyərək yalvarış və hədəylə özü üçün qiymətli olan bu murdar parçanı ələ keçirdir... Bu, məzəli olmalıdır, hə? Hansı ki eyni zamanda öz şəhvətinin obyektinə görə xəcalət çəkir, ondan ötrü ağlını itirir və bəlkə də, Romeo və Cülyetta hissi səviyyəsinə qədər qalxaraq ondan ötrü həyatını verməyə hazırdır. Axı məlumdur, elə şeylər var... şərait... elədir, heç kim onları öz fikirlərindən kənarda həyata keçirməyə qadir deyil... hansısa bir an sarsıntı, düşkünlük, ağlını itirmə, bunu necə istəyirsiniz, elə də adlandırın. Bu sözdən sonra söz işə çevrilir. Bu hamısıdır.



– Bu... hamısıdır, – mən key səslə mənasız halda təkrar elədim. Başımda uğultu var idi. – Amma Stansiya? Stansiyalıq burada nə iş var?

– Sən özünü nə yerinə qoyursan? – Snaut donquldadı. O, mənə sınayıcı baxışlarla baxırdı. – Axı mən elə hey Solyaris haqqında danışıram, yalnız Solyaris və başqa heç nə haqqında. Əgər bu, mənim gözlədiyimdən belə kəskin fərqlənirsə, bu, mənim günahım deyildir. Yeri gəlmişkən, sən məni axıra qədər dinləyə bilmək üçün kifayət qədər gəzib-görübsən. Biz kosmosa yola düşərkən hər şeyə hazırlanmış oluruq, yəni təkliyə, mübarizəyə, əzablara və ölümə. Təvazökarlıqdan biz bu haqda ucadan danışmırıq, amma özlüyümüzdə düşünürük ki, biz əlayıq. Əslində isə... əslində isə bu, hər şey demək deyil və bizim hazırlığımız kifayət eləmir. Biz heç də kosmosu fəth eləmək istəmirik, sadəcə, Yeri onun sərhədlərinə qədər genişləndirmək istəyirik. Bəzi planetlər Sahara kimi səhralardan ibarətdir, digərlərində insanlar yaşayırlar, ya da bəziləri Braziliya cəngəllikləri kimi istidir. Biz humanistik, xeyirxahıq, biz başqa irqləri istila eləmək istəmirik, yalnız

onlara öz dəyərlərimizi vermək və əvəzində onların irslərini qəbul eləmək istəyirik. Biz özümüzü müqəddəs əlaqənin cəngavərləri hesab eləyirik. Bu, ikinci yalandır. İnsanlardan başqa heç kimi axtarmırıq. Bizə başqa dünya lazım deyildir. Bizə güzgü lazımdır. Biz başqa dünyalarla neyləyəcəyimizi bilmirik. Bu dünyalardan biri kifayətdir və o da artıq bizi əsarət altına alır. Biz şəxsi, ideallaşdırılmış surət tapmaq istəyirik; bu, bizimkindən daha mükəmməl sivilizasiyası olan dünya olmalıdır. Digərlərində bizim primitiv keçmişimizin əksini tapmağa ümid eləyirik, həmin bu anda isə digər tərəfdə də nəsə var, hansı ki biz onu qəbul eləmirik, ondan qorunuruq. Axı biz Yerdən təkcə insanın qəhrəmanlıq monumentini, distillə edilmiş comərdlik gətirmirik! Bura elələri uçublar, həqiqətdə də, belə olublar və digər tərəf bu həqiqəti bizə göstərəndə – biz bununla barışa bilmirik.

– Amma bu nə deməkdir? – mən ona hövsələylə qulaq asaraq soruşdum.

– Biz nəyi istəyirdik: digər sivilizasiya ilə əlaqəni. Bizim bu varımızdır, yəni əlaqə. Bizim şəxsi, sanki, mikroskop altında böyüdülmüş nəhəng eybəcərliyimiz kimi. Bizim təlxəkliyimiz və rüsvayçılığımız! – Onun səsi qəzəbdən titrəyirdi.

– Demək, sən düşünürsən ki, bu... okeandır? Bu elə odur? Amma niyə? İndi mexanizm mühüm deyildir, amma nədən ötrü? Sən ciddimi düşünürsən ki, o, bizimlə əylənmək istəyir? Ya da bizi cəzalandırmaq? Axı bu, olsa-olsa, primitiv demonologiyadır[1]. Olduqca nəhəng şeytan tərəfindən ələ keçirilmiş planet öz şeytani yumor hisslərinin həzz almasından ötrü elmi ekspedisiyanın üzvlərinə məşuqələrini sırıyır. Axı sən özün də başa çatmış bu idiotizmə inanmırsan.

– Bu şeytan heç də elə axmaq deyil, – o, dişlərinin arasından donquldandı.

Mən heyrətlə ona baxırdım. Ağlıma belə bir fikir gəldi: nəhayət, onun əsəbləri tab gətirməyəcək, hətta Stansiyada bütün baş verənləri dəlilik adlandırmaq mümkün olmasa belə. «Reaktiv psixo?..» – o, az qala, səssiz gülüşlə gülməyə başlayanda məndə ani olaraq bu fikir yarandı.

[1] Demonologiya – ibtidai insanların cinlərə inanması

– Mənə diaqnoz qoyursan? Tələsmə. İşin mahiyyəti etibarilə sən bunu elə adi formada yaşayıbsan ki, sadəcə, heç nə bilmirsən!

– Aha. Şeytanın mənə yazığı gəlib, – mən dilləndim, söhbət məni təngə gətirməyə başlamışdı.

– Sən şəxsən nə istəyirsən? İks metamorfoz plazmanın bilyon hissəsinin bizə qarşı hansı planları qurduğunumu sənə danışım? Bəlkə də, heç bir plan qurmur.

– Necə yəni heç bir? – mən sarsılmış halda soruşdum.

Snaut yenə də gülümsədi.

– Sən gərək biləsən, elm nəyinsə necə edilməsi ilə məşğul olur, daha bunun niyə edilməsi ilə yox. Necə? Hə, bu, rentgenlə həmin eksperimentdən səkkiz və ya doqquz gün sonra başlamışdı. Bəlkə də, okean bu şüalanmaya hansısa başqa şüalanma ilə cavab vermişdi, bəlkə də, bununla bizim beynimizi tədqiq eləyir və ondan hansısa izolə edilmiş psixika adacıqlarını tapıb çıxarır.



– Psixika adacıqları?

Bu, məni maraqlandırırdı.

– Hə də, özlərinə qapanmış, digərlərindən ayrılmış proseslər, əzilmiş, hansısa boğuq xatirələr, yaddaş lövhələri. O, onları resept kimi və ya hansısa konstruksiyanın planı kimi qəbul elədi... Sən axı yaddaş proseslərinin əsasını təşkil eləyən xromosomların simmetriyasız kristallarının və serebrosid birləşmələrinin nuklonlarının bir-birinə necə oxşadıqlarını bilirsən... Axı irsi plazma – xatırlayan plazmadır. Beləcə, okean bunu bizdən alır, qeyd eləyir, sonra isə... Sonra da nə olduğunu sən bilirsən. Amma bu, nədən ötrü edilir? Paho! Hər bir halda bizi məhv eləməkdən ötrü yox. O, bunu daha sadə üsulla eləyə bilərdi. Ümumiyyətlə, belə texniki sərbəstlikdə, necə deyərlər, o, hər şeyə qadirdir; məsələn, bizim yanımıza oxşarımızı göndərməyə.

– Aaa! – mən qışqırdım. – Birinci axşam mən gələndə ona görəmi elə qorxdun?

– Hə. Ola bilsin. Bəs sən haradan bilirsən ki, mən, doğrudan da, iki il bundan əvvəl bura uçan həmin xeyirxah qoca Xorekəm...

Snaut astadan gülməyə başladı, sanki, mənim sarsılmağım, Allah bilir, ona hansı ləzzəti bəxş eləyirdi, amma dərhal da gülüşünə ara verdi.

– Yox, yox, – o donquldandı. – Bunsuz da kifayət qədər... Bəlkə, fərq çoxdur, amma mən yalnız bir şeyi bilirəm: səninlə bizi öldürə bilərlər.

– Onlar ki yoxdurlar?

– Sənə sınaqdan çıxartmağı məsləhət görmürəm. Müdhiş mənzərədir!

– Heç nəylə?

– Bilmirəm. Hər bir halda nə zəhərlə, nə bıçaqla, nə də iplə yox...

– Atom mərmisi ilə?

– Sən yoxlayardın?

– Bilmirəm. Əgər onların adam olmadıqlarına əmin olsam...

– Bəs müəyyən mənada belədirsə? Subyektiv olaraq onlar insandırlar. Onlar tamamilə özlərinə hesabat vermirlər, özlərinin... mənşələri haqqında. Sən, şübhəsiz, bunu hiss eləyibsən?

– Hə. Di... bu necə baş verir?

– Qeyri-adi sürətlə regenerat[1] olurlar. Sənə deyirəm ki, qeyri-adi sürətlə, birbaşa gözlərinin qabağında və yenidən elə hərəkət eləməyə başlayırlar ki, necə...

– Necə?

– Bizim onları təsəvvür elədiyimiz kimi, yaddaşda olan həmin o müəyyən...

– Bəli. Bu doğrudur, – mazın yanan yanaqlarımdan axmasına və əlimin üzərinə damcılamasına əhəmiyyət vermədən mən təsdiqlədim.

– Bəs Qibaryan bilirdi? – mən cəld soruşdum.

O, mənə diqqətlə baxdı:

– O bilirdimi ki, biz?..

– Hə.

– Demək olar, şübhəsiz.

– Sən haradan bilirsən, o nəsə deyib?

– Yox. Amma mən onda bir kitabça tapdım...

– «Kiçik Apokrif»?! – mən ayağa sıçrayaraq səsləndim.

– Doğrudur. Bəs sən bu haqda haradan bilə bilərsən? – o, təşvişli baxışlarını sifətimə dikərək narahatlıqla heyrətləndi.

Mən onu işarə ilə dayandırdım.

[1] Regenerat – xassələri bərpa olunmuş işlənmiş material

– Sakit ol. Görürsən ki, mən yanmışam və tamamilə bərpa oluna bilmirəm. Kabinədə mənim üçün məktub var idi.

– Sən nə danışırsan? Məktub? Onda nə yazılmışdı?

– Çox az şey. Daha doğrusu, məktub yox, qeyd idi. Solyaris əlavəsinə və bu «Apokrif»ə biblioqrafik istinad. Bu nə deməkdir?

– Köhnə işdir. Bəlkə də, orada bütün bunlarla ümumi nəsə var. Saxla.

O, cibindən küncləri sürtülmüş dəri cildli kitabçanı çıxardıb mənə uzatdı.

– Bəs Sartorius?.. – mən kitabı gizlədərək dedim.

– Necə Sartorius? Belə şəraitdə hər kəs necə mümkünsə, başını saxlayır. O, normal olmağa çalışır – onda bu, deməli, rəsmidir.

– Bir görürsən!



– Bu belədir. Mən bir dəfə onunla bir işdə olmuşam... Təfərrüatlarını danışmayacağam, onu demək kifayətdir ki, bizim səkkizimizə beş yüz kilo oksigen qalmışdı. Bir-birimizin ardınca gündəlik işlərə son qoyurduq, sonda isə hamımız saqqallı gəzirdik, təkcə o üzünü qırxır, ayaqqabılarını təmizləyirdi... O, belə adamdır. Əlbəttə, indi o neyləsə, riyakarlıq olacaq, komediya, ya da cinayət.

– Cinayət?

– Yaxşı, qoy cinayət olmasın. Bunun üçün hansısa yeni bir təyinat tapmaq lazımdır; məsələn, «reaktiv ayrılma». Yaxşı səslənir?

– Sən son dərəcə ağıllısan.

– İstəyərdin ki, mən ağlayım? Nəsə bir şey təklif elə.

– Eh, məni rahat burax.

– Yox, mən ciddi deyirəm. İndi sən də mənim bildiyim qədər bilirsən. Sənin hansısa bir planın varmı?

– Sən necə də xeyirxahsan! Mən o... təzədən gələrsə, neyləyəcəyimi bilmirəm. Gələcəkmi?

– Çox ola bilsin ki, hə.

– Amma onlar içəri necə keçə bilirlər? Axı Solyaris hermetikdir. Bəlkə, zireh...

– Zireh qaydasındadır. Necə keçdiklərini başa düşə bilmirəm. Daha çox biz qonaqları yatanda görürük, amma heç olmasa, arada yatmaq da lazımdır.

O, ayağa qalxdı. Mən də onun arxasınca qalxdım.

– Snaut, bir qulaq as... Söhbət Stansiyanın ləğvindən gedir. Sən bunu yalnız məndənmi eşitmək istəyirsən?

O, başını yırğaladı.

– Bu, elə də asan deyil. Əlbəttə, biz həmişə qaça bilərik; heç olmasa, peykə və oradan SOS siqnalı göndərə bilərik. Başımıza hava gəldiyini güman eləyəcəklər – Yerdə biz bütün bunları yaxşıca unudana kimi hansısa sanatoriyada dincələcəyik – belə izolə edilən bazalara kollektiv müdaxilə cəhdləri olur... bəlkə, bu heç də ən pis çıxış yolu olmazdı... Bağ, sakitlik, ağ palatalar, oradakı qızlarla gəzintilər...

Snaut əllərini cibində saxlayaraq dalğın baxışlarını otağın küncünə zilləyib tamamilə ciddi deyirdi. Qırmızı günəş artıq üfüqün arxasında yox olmuşdu və qara boşluqda yallı dalğalar üzürdü. Göy alışıb-yanırdı. Bu ikirəngli qeyri-adi kədərli mənzərənin üzərində bənövşəyi haşiyəli buludlar süzürdü.

– Demək, qaçmaq istəyirsən? Ya yox? Hələ yox?

O qımışdı.

– Sarsılmaz istilaçı... Hələ də bunu sınamayıbsan, yoxsa belə tələbkar olmazdın. Söhbət nə istəməyimizdən yox, nəyin mümkün ola biləcəyindən gedir.

– Necə?

– Bax burasını mən bilmirəm.

– Demək, burada qalırıq? Düşünürsən ki, vasitə tapılacaq?

Snaut üzgün halda mənə baxırdı, üzünün qırışları cırılmış, dərisi soyulmuşdu.

O geri döndü, öz kağızlarını götürüb çıxdı. Mənim görəcəyim bir iş yox idi, mən yalnız gözləyə bilərdim. Pəncərəyə yaxınlaşdım və az qala, onu görməyərək qanlı-qara okeana baxmağa başladım. Ağlıma hansısa bir raketdə gizlənə biləcəyim fikri gəldi, amma bu haqda ciddi düşünmədim, bu, həddən artıq sarsaqlıq olardı – gec, ya tez, mən oradan çıxası olacaqdım. Pəncərənin yanında oturub Snautun mənə verdiyi kitabı çıxardım. İşıq hələ kifayət qədər idi, stansiya qızarırdı, otaq qırmızı rənglər içində şölələnirdi.

Bu, hansısa fəlsəfə alimi Otton Ravintser tərəfindən toplanan, danılmaz dəyəri olan məqalələr və işlər idi. Hər bir

elmi həmişə yalançı bir elm, onun müəyyən olunmuş tiplərin intellegentlərində heyrətləndirici dərəcədə dəyişən istiqaməti müşayiət eləyir. Astronomiyanın astrologiyada öz karikaturaçısı var, kimyanın nə vaxtsa əlkimyası var idi, solyaristikanın əsl nəhəng fikirlərin partlayışı ilə müşayiət olunması aydındır.

Ravintserin kitabı məhz bu qəbildən olan mənəvi qidanı ehtiva eləyirdi. Yeri gəlmişkən, düzünü demək lazımdır ki, ön sözdə o, bu panoptikumdan[1] əl çəkmişdi. Sadəcə, o, əsassız olaraq belə kitabın həm tarixçilər üçün, həm də psixoloqlar üçün qiymətli sənəd olduğu qənaətinə gəlmişdi.

Bentonun raportu kitabda özünə layiqli yer almışdı. O, bir neçə hissədən ibarətdi. Birinci hissə gəmi jurnalının tamam yığcam surətindən ibarətdi.



Saat on dörddən saat on altı qırx dəqiqəyə qədər şərti vaxtda ekspedisiyanın qeydləri qısa və neqativ idi.

*«Yüksəklik 1000, 1200, ya da 800 metr, heç nə görünmür, okean boşdur»*. Bu, bir neçə dəfə təkrar olunurdu.

Sonra 16.40-da: *«Qırmızı duman qalxır. Görüntü məsafəsi 700 metrdir. Okean boşdur»*.

17.00-da: *«Duman sıxlaşır, hava sakitdir, görüntü məsafəsi 400 metr, aydınlaşma ilə. 200 metrə enirəm»*.

17.20-də: *«Mən dumanın içindəyəm. Hündürlük 200 metr. Görüntü məsafəsi 20–40 metr. Hava sakitdir. 400 metr yüksəyə qalxıram»*.

17.45-də: *«Hündürlük 500. Duman üfüqlərə kimi uzanır. Dumanda qıfabənzər açıqlıqlar görürəm, bu açıqlıqdan okeanın səthi görünür. Bu qıflardan birinə girməyə çalışıram»*.

17.52-də: *«Burulğana bənzəyən bir şey görürəm – sarı köpük tullayır. Dumandan divarla əhatə olunub. Hündürlük 100 metrdir. 20 metrə düşürəm»*.

Bununla da Bertonun gəmi jurnalındakı qeydləri qurtarırdı. Raport adlanan bu hissənin sonrakı səhifələri Bertonun xəstəlik tarixçəsini əhatə eləyirdi, daha dəqiqi, bu, komissiya üzvləri tərəfindən verilən suallarla kəsilən, Berton tərəfindən diktə edilən izahatlar mətni idi.

---

[1] Panoptikum – qədimdə mumdan düzəldilən heykəllər muzeyi

*«**Berton.** Mən otuz metrə qədər düşəndə yüksəkliyi saxlamaq çətin oldu; belə ki, bu dairəvi, dumandan azad olan boşluqda kəsik-kəsik külək əsirdi. Mən bütün diqqətimi idarə eləməyə yönəltməyə məcbur idim və buna görə də bir müddət, 10-15 dəqiqə kabinədən çölə baxmadım. Buna görə də öz istəyimin əksinə olaraq dumana girdim, məni ora güclü külək atdı. Bu, adi duman deyildi, sanki, maye idi, məncə, kolloid[1] idi, bütün şüşələri örtmüşdü. Onu təmizləmək çətin idi, bu maye çox yapışqanlı idi. Bu zaman pərlərə küləyin göstərdiyi müqavimətdən dövrələrin sayı otuz faiz aşağı düşmüşdü və mən yüksəkliyi itirməyə başlamışdım. Çox aşağı düşdüm və dalğalara ilişməkdən qorxaraq qazı axıra qədər basdım. Maşın yüksəkliyi saxladı, amma yuxarı qalxmırdı. Məndə hələ raket sürətləndiricisinin dörd patronu da qalırdı. Onlardan istifadə eləmirdim, düşünürdüm ki, vəziyyət pisləşə və onda onlar mənə lazım ola bilər. Tam dövrələmədə güclü titrəyişlər başladı, mən pərin bu qəribə maye tərəfindən tutulduğunu başa düşdüm, ölçü cihazlarında yükqaldırma əvvəlkitək sıfır idi və mən bununla heç nə eləyə bilmirdim. Dumana girdiyim bu andan etibarən də günəşi görmürdüm, amma onun istiqamətində duman qırmızı rəngə çalırdı. Mən hələ də dövrə vurur, hələ də dumansız yerlərdən birinə çıxacağıma ümid eləyirdim və həqiqətən də, hansısa yarım saatdan sonra buna nail ola bildim. Açıq, az qala, tamam dairəvi, diametri bir neçə yüz metr olan boşluğa çıxdım. Onun sərhədlərini sürətlə burulub qalxan duman təşkil eləyirdi. Buna görə də mən bacardığım qədər bu boşluğun ortasına yaxın olmaq istəyirdim, orada hava nisbətən sakit idi. Bu zaman okeanın səthinin vəziyyətində dəyişiklik hiss elədim. Dalğalar, az qala, tamam yoxa çıxdı, okeanı təşkil eləyən bu mayenin səthi tədricən yoxa çıxan tutqunlaşma ilə yarışəffaf oldu. Belə ki, müəyyən müddətdən sonra hər şey tamamilə təmizləndi və mən, heç şübhəsiz, okeanın bir neçə kilometr dərinliyini görə bildim. Orada nazik zolaqlar şəklində yuxarı qalxan sarı lil üst-üstə qalaqlanmışdı və lil okeanın səthinə qalxandan sonra şüşə kimi parıldayır, qaynamağa və köpüklənməyə başlayırdı, sonra isə möhkəmləşirdi; çox qatı olan yanmış*

[1] Kolloid – kristallaşmayan və üzvi qişadan keçməyən maddə

*şəkər siropuna oxşayırdı. Bu lil, ya da selik böyük kəsəklər halında yığılmışdı, yuxarı qalxaraq rəngli kələmə oxşayan təpələr yaradırdı və tədricən müxtəlif fiqurlar formalaşdırmağa başladı. Dumanın divarı məni çəkməyə başladı və buna görə də mən bir neçə dəqiqə bu hərəkətlə mübarizə aparmaq üçün sükanla və dövrələrlə əlləşməli oldum, bir də yenidən aşağı baxanda özümdən aşağıda nəsə bağı xatırladan bir şey gördüm. Bəli, bağı. Alçaqboylu ağacları, yaşıl hasarları və cığırları görürdüm, amma bunlar həqiqi deyildi – hamısı elə sarı gips kimi bütünlüklə bərkiyən həmin substansiyadan[1] idi. Bu, belə görünürdü. Okeanın səthi möhkəm parıldayırdı. Necə lazımsa baxmaq üçün mən bacardığım qədər aşağı düşdüm.*

**Sual.** *Sənin gördüyün bu ağaclarda və digər bitkilərdə yarpaq var idimi?*



**Bertonun cavabı.** *Yox. Sadəcə, bütün bunların bağın modeli kimi bir görünüşləri var idi. Özüdür ki var. Model. Bu, belə görünürdü. Model, amma təbii böyüklükdə. Sonra hər şey çatlamağa və sınmağa başladı, tamamilə qara olan yarıqlardan okeanın səthinə dalğalar qatı lili sıxıb çıxartmağa başladı, lil donurdu, sonra hər şey daha güclü qaynamağa başladı, köpüklə örtüldü və köpükdən başqa heç nə görmədim. Eyni zamanda da, duman məni hər tərəfdən sıxmağa başladı, buna görə də sürəti artırdım və üç yüz metr yüksəkliyə qalxdım.*

**Sual.** *Sən tamamilə əminsən ki sənin gördüyün başqa şeyi yox, bağı xatırladırdı?*

**Bertonun cavabı.** *Bəli. Çünki mən orada müxtəlif detalları ayırd eləyə bildim. Xatırlayıram, məsələn, bir yerdə hansısa qutular cərgə ilə düzülmüşdü. Sonra bunun arıxana ola biləcəyi ağlıma gəldi.*

**Sual.** *Bu, sənin ağlına sonra gəldi? Amma sənin onu gördüyün anda yox?*

**Bertonun cavabı.** *Yox, çünki hər şey, sanki, gipsdən idi. Mən başqa şeylər də gördüm.*

**Sual.** *Hansı şeyləri?*

**Bertonun cavabı.** *Hansı olduqlarını deyə bilmərəm, çünki onlara yaxşıca baxmağa macal tapmadım. Məndə belə təəssürat vardı ki, bəzi kolların üzərində hansısa alət-*

---

[1] Substansiya – maddə

lər var. Onlar uzunsov formada idi, dişləri qabağa çıxmışdı, sanki, bağ maşınlarının qəlibdənçıxma gips nümunələri idi. Amma mən buna tam əmin deyiləm. Buna isə – hə.

**Sual.** Sən bunun qarabasma olduğunu düşünmədinmi?

**Bertonun cavabı.** Yox. Mən bunun illüziya olduğunu düşündüm. Qarabasma haqqında düşünmədim, çünki özümü çox yaxşı hiss edirdim, həm də ona görə ki, həyatımda heç vaxt buna oxşar bir şey görməmişdim. Mən üç yüz metrə qədər yüksəkliyə qalxanda aşağımdakı duman eynən pendir kimi deşik-deşik idi. Bu deşiklərdən biri boş idi və mən oradan okeanın səthinin necə həyəcanlandığını görürdüm, digər tərəfdən isə nəsə burulub qalxırdı. Bu açıqlığın birindən aşağı düşdüm və qırx metr yüksəklikdən, okeanın səthindən aşağıda, elə də dərinlikdə olmayan bir divar olduğunu gördüm; bu divar, sanki, nəhəng bir binanın divarı idi; o, dalğaların arasından dəqiq işıqlandırılmışdı və pəncərələrə oxşayan müntəzəm cərgələrlə düzülmüş düzbucaqlı yarıqları var idi. Mənə hətta elə gəldi ki, bəzi pəncərələrdə nəsə hərəkət eləyir. Amma buna elə də əmin deyiləm. Sonra divar ağır-ağır qalxmağa və okeandan çıxmağa başladı. Ondan bütöv burulğanlar şəklində hansısa selikli, qatılaşdırılmış damarcıqları olan həlməşiklər axırdı. Birdən o, iki yerə bölündü və okeanın dərinliyinə elə sürətlə getdi ki, bircə anda yox oldu. Mən yenidən maşını yuxarı qaldırdım və lap dumanın üzərində, az qala, təkərlərlə ona toxunaraq uçmağa başladım. Sonra növbəti qıfı gördüm. O, yəqin, birincidən bir neçə dəfə böyük idi. Mən artıq uzaqdan üzən əşyanı gördüm. O, işıqlı, demək olar ağ idi və mənə elə gəldi ki, bu, Fexnerin skafandrıdır, xüsusən formasına görə insanı xatırladırdı. Maşını çox sərt döndərdim – bu yerdən uçub keçəcəyimdən və onu bir daha tapa bilməyəcəyimdən qorxurdum. Bu zaman fiqur yüngülcə qalxdı, sanki, o üzürdü, ya da göbəyə kimi dalğaların içində dayanmışdı. Mən tələsdim və elə aşağı endim ki, təkərlərin nəsə yumşaq, ola bilsin, dalğaların ətəyinə toxunduğunu belə hiss elədim – burada dalğalar kifayət qədər idi. Bu insan idi... Hə, bu, insan idi. Skafandr geyməmişdi. Buna baxmayaraq hərəkət eləyirdi.

**Sual.** Sən onun sifətini gördünmü?

**Bertonun cavabı.** Bəli.

**Sual. O kim idi?**

**Bertonun cavabı.** *Bu, uşaq idi.*

**Sual.** *Hansı uşaq? Sən əvvəllər onu haradasa görmüşdünmü?*

**Bertonun cavabı.** *Yox. Heç vaxt. Hər ehtimala qarşı bunu xatırlamıram. Mən yaxınlaşan kimi – məni ondan qırx metr ayırırdı, bəlkə də, bir az çox – gördüm ki, onda nəsə yaxşı olmayan bir şey var.*

**Sual.** *Sən bununla nə demək istəyirsən?*

**Bertonun cavabı.** *İndicə deyərəm. Əvvəlcə mən bunun nə olduğunu bilmədim. Yalnız bir qədər keçəndən sonra başa düşdüm: o, qeyri-adi dərəcədə böyük idi. Nəhəng idi desəm, yumşaq demiş olaram. Onun boyu, bəlkə də, dörd metrə yaxın idi. Dəqiq xatırlayıram, təkərlərlə dalğalara toxunanda onun sifəti mənim sifətimdən bir qədər yuxarıdaydı, hərçənd mən kabinədə oturmuşdum, daha doğrusu, okeanın səthindən üç metr yüksəkdə idim.*



**Sual.** *Əgər o, belə böyük idisə, nəyə görə sən onun uşaq olması qərarına gəldin?*

**Bertonun cavabı.** *Ona görə ki, o çox balaca uşaq idi.*

**Sual.** *Berton, sənə elə gəlmirmi ki, cavablarında məntiq yoxdur?*

**Bertonun cavabı.** *Yox. Tamam yox. Çünki mən onun sifətini gördüm. Həm də, nəhayət, bədənin nisbətləri uşaq bədəninə uyğun idi. O, mənə tamam... körpə kimi göründü. Yox, şişirtmirəm. Ola bilsin, onun iki, ya da üç yaşı var idi. Onun qara saçları və mavi, iri gözləri var idi. O, çılpaq idi. Təzəcə anadan olan uşaq kimi tamamilə çılpaq idi. Yaş, sürüşkən idi, dərisi işıldayırdı. Bu görüntü mənə dəhşətli dərəcədə təsir eləyirdi. Mən artıq heç bir illüziyaya inanmırdım. Onu olduqca dəqiq görürdüm. O, yuxarı qalxır və dalğaların üzərinə enirdi, bundan asılı olmayaraq hələ bir hərəkət də eləyirdi. Bu, iyrənc idi!*

**Sual.** *Niyə? O neyləyirdi ki?*

**Bertonun cavabı.** *Hansısa muzeydəki kukla kimi görünürdü, amma canlı kukla kimi. Ağzını açır və yumur, müxtəlif hərəkətlər eləyirdi. İyrənc! Bu, onun hərəkətləri deyildi.*

**Sual.** *Sən bunu necə başa düşürsən?*

**Bertonun cavabı.** *Mən ona olduqca çox yaxınlaşmışdım. Deyəsən, iyirmi metr – bu daha dəqiqdir. Amma artıq*

onun nə qədər nəhəng olduğunu demişəm və buna görə də onu dəqiq görə bildim. Onun gözləri işıldayırdı və ümumiyyətlə, o, canlı uşaq təsiri bağışlayırdı, yalnız bu hərəkətləri, əgər kimsə necəsə sınayıbsa... sanki, kimsə onu tədqiq eləyirdi...

**Sual.** Bunun nə demək olduğunu dəqiq izah eləməyə çalışın.

**Bertonun cavabı.** Bilmirəm bunu izah eləməyə nail ola biləcəyəmmi. Məndə belə təəssürat vardı. Bu, intuisiya ilə yaranmışdı. Mən bunun üzərində düşünməmişəm. Onun hərəkətləri təbii deyildi.

**Sual.** Sən demək istəyirsən, deyək ki, əlləri ilə elə hərəkət eləyirmiş, insan əlləri oynaqlarının orqanik hərəkətliliyinə görə belə hərəkət eləyə bilməzdi?

**Bertonun cavabı.** Yox. Tamam elə yox... Amma... onun hərəkətlərinin heç bir mənası yox idi. Hər bir hərəkəti, ümumiyyətlə, nəyisə ifadə eləyirdi, nəyəsə xidmət eləyirdi...

**Sual.** Sən belə hesab eləyirsən? Körpənin hərəkəti nəyisə ifadə eləyə bilməz.

**Bertonun cavabı.** Bunu mən bilirəm. Amma körpənin hərəkəti səliqəsiz, uyğunlaşdırılmamış olur. Ümumi. Bunda isə... hə, başa düşdüm! Onun hərəkətləri müntəzəm idi. O, hərəkətlərini növbə ilə eləyirdi, qruplar və seriyalarla. Sanki, kimsə aydınlaşdırmaq istəyirdi ki, bu uşaq əliylə, bədəniylə və ağzıyla bunu eləməyə qadirdirmi? Hər şeydən pisi sifətinin hərəkəti idi, yəqin ona görə ki, sifət daha çox ifadəlidir, sifəti isə... Bunu müəyyən eləyə bilmirəm. Sifəti canlı idi, amma insanda olduğu kimi yox. Demək istəyirəm ki, sifətinin cizgiləri tam qaydasıncaydı, gözləri də, sifətinin rəngi də, amma ifadəsi, mimikası yox.

**Sual.** Ağız-burnunu əyişdirirdimi? Sən epileptik tutmalarda insanın sifətinin necə olduğunu bilirsənmi?

**Bertonun cavabı.** Bəli. Mən belə tutmanı görmüşəm. Başa düşürəm, yox, bu, nəsə başqa cür idi. Epilepsiya vaxtı tutmalar və qıcolmalar olur, onun hərəkətləri isə tamamilə rəvan və aramsız idi, yüngül idi, əgər belə demək olarsa, melodik idi. Mən başqa cür ifadə eləyə bilmirəm. Hə, sifəti də. Sifətində də eynən. Sifət belə görünə bilməz, yarısı kədərli, yarısı da sevinc içində, bir hissəsi qorxutsun və qorxsun, digəri isə şənlənsin və bu qəbildən olan nəsə eləsin.

*Amma uşaqda məhz belə idi. Bundan əlavə, bütün bu hərəkətlər və mimika oyunları görünməmiş sürətlə keçirdi. Mən orada elə də çox qalmadım, bəlkə də, on saniyə, bəlkə, az.*

**Sual.** *Sən bütün bunları belə qısa zaman kəsiyində gördüyünü təsdiqləyirsən? Yeri gəlmişkən, sən haradan bunun nə qədər davam elədiyini bilirsən? Sən saata baxırdın?*

**Bertonun cavabı.** *Yox. Mən saata baxmırdım. Amma artıq on altı ildir uçuram. Mənim peşəmdə vaxtı saniyəsinə qədər dəqiqliklə qiymətləndirməyi bacarmalısan. Bu refleksdir. Bütün şəraitlərdə hansısa hadisənin beş, ya on saniyə davam elədiyini müəyyənləşdirə bilməyən pilot heç vaxt dəyərli pilot hesab edilə bilməz. Müşahidəylə də eynən. İnsan bütün bu qısa zaman kəsiklərini tutmağı illərlə öyrənir.*

**Sual.** *Bu, sənin gördüklərinin hamısıydı?*

**Bertonun cavabı.** *Yox. Amma qalanını elə də aydın xatırlamıram. Bəlkə də, doza mənim üçün olduqca çox olmuşdu. Beynim necəsə tıxanmışdı. Duman çökməyə başlamışdı və mən yuxarı qalxmağa məcbur idim. Məcbur idim, amma bunu necə və nə vaxt elədiyimi xatırlamıram. Həyatımda ilk dəfə, az qala, qəzaya düşəcəkdim. Əllərim elə titrəyirdi ki, sükanı necə lazımsa saxlaya bilmirdim. Deyəsən, mən nəsə qışqırdım və Bazanı çağırdım, hərçənd əlaqənin olmadığını bilirdim.*

**Sual.** *Onda sən qayıtmağı sınaqdan keçirtdinmi?*

**Bertonun cavabı.** *Yox. Çünki mən yuxarı qalxanda düşünürdüm ki, bu açıqlıqlardan hansı birindəsə Fexner olmalıdır. Bilirəm, bu dediklərim mənasız səslənir. Amma mən belə düşünürdüm. Bir halda ki belə işlər olur, düşündüm, onda Fexneri də tapa bilərəm. Buna görə də hansı birini görərəmsə, bütün bu açıqlıqlara baş vurmağı qərara aldım. Amma üçüncü dəfə yuxarı qalxanda bu gördüklərimdən sonra heç nə eləyə bilməyəcəyimi başa düşdüm. Daha bacarmırdım. Zəiflik hiss eləyirdim və ürəyim bulanırdı. Əvvəllər bunun nə olduğunu bilmirdim. Həyatımda heç vaxt ürəyim bulanmayıb.*

**Sual.** *Berton, bu, zəhərlənmənin əlaməti idi?*

**Bertonun cavabı.** *Ola bilər. Amma üçüncü dəfə o dediklərimi görəndə bunu zəhərlənmə ilə izah eləməyin mümkün olmadığını düşünürdüm.*

**Sual.** *Sən haradan bu haqda bilə bilərsən?*

***Bertonun cavabı.*** *Bu, qarabasma deyildi. Qarabasma – mənim şəxsi beynimin yaratdığı haldır, eləmi?*

***Sual.*** *Elədir.*

***Bertonun cavabı.*** *Bax budur. Beynim isə beləsini yarada bilməzdi. Heç vaxt buna inanmaram. Beynim buna qadir deyil.*

***Sual.*** *Dəqiq danışın, bu, yaxşı idimi?*

***Bertonun cavabı.*** *Əvvəlcə mən öyrənməliyəm, mənim artıq danışdıqlarım necə qiymətləndiriləcək.*

***Sual.*** *Bunun nə əhəmiyyəti var?*

***Bertonun cavabı.*** *Mənim üçün prinsipial əhəmiyyəti var. Mən dedim ki, elə şey görmüşəm, heç vaxt unutmaram. Əgər komissiya qərara alarsa ki mənim danışdıqlarım, heç olmasa, bir faiz həqiqətə uyğundur və buna uyğun olaraq da bu okeanın öyrənilməsinə başlamaq lazımdır, onda hamısını deyərəm. Amma əgər bu komissiya tərəfindən bunun hansısa qarabasma olduğu qəbul edilərsə, heç nə deməyərəm.*

***Sual.*** *Niyə?*

***Bertonun cavabı.*** *Ona görə ki, mənim qarabasmamın mahiyyəti, nə olmuş olsa belə, mənim şəxsi işimdir. Mənim Solyarisdəki tədqiqatlarımın mahiyyəti isə – yox.*

***Sual.*** *Bu, o deməkdirmi ki, ekspedisiyanın səlahiyyətli orqanlarının tərəfindən qərar qəbul olunana kimi sən cavab verməkdən imtina eləyirsən?*

***Bertonun cavabı.*** *Bəli.*

*Birinci protokol bununla da qurtarmışdı. Digərindən, on bir gün gec yazılan protokoldan da fraqmentlər var idi.*

*«Sədrlik eləyən... bütün bunları nəzərə alaraq üç həkimdən, üç bioloqdan, bir fizikdən, bir mühəndis-mexanikdən və ekspedisiya rəisinin müavinindən ibarət komissiya bu rəyə gəldi ki, Bertonun verdiyi məlumatlar planetin atmosferindən zəhərlənmə nəticəsində əmələ gələn qarabasma kompleksinin əlamətlərini təcəssüm etdirir, baş beyin qabığının assosiativ*[1] *zonasını oyadan dumanlanma əlamətləri ilə eyni zamanda baş verir və bu məlumatlarda həqiqətdən heç nə, demək olar ki, heç nə yoxdur».*

***Berton.*** *Bağışlayın. «Heç nə, demək olar ki, heç nə» nə deməkdir? «Demək olar ki, heç nə» nə olan şeydir?*

---

[1] Assosiativ – şüurda ayrı-ayrı təsəvvürlər arasındakı əlaqə

***Sədrlik eləyən.*** *Mən hələ qurtarmamışam. Fizika doktoru Arçibald Messencerin votum separatum (şəxsi fikri) ayrıca protokollaşdırılıb; o bəyan eləyib ki, onun fikrincə, Bertonun danışdıqları, həqiqətən də, olub və vicdanla tədqiq olunmasını gözləyir. Bu hamısıdır.*

***Berton.*** *Mən öz sualımı təkrar eləyirəm.*

***Sədrlik eləyən.*** *Bu çox sadədəir. «Demək olar ki, heç nə» sənin qarabasmaların hansısa real hadisələri ifadə eləyə bilər, Berton. Ən normal insan belə küləkli havada yırğalanan kolu hansısa canlı əvəzinə qəbul eləyə bilər. Qalıb özgə planet haqqında danışasan, həm də müşahidəçinin beyni zəhərin təsiri altında olanda. Bunda sənin üçün tədqiqedici heç nə yoxdur, Berton. Sənin qərarınla yuxarıda deyilənlərin hansı əlaqəsi var?*

***Berton.*** *Mən əvvəlcə bilmək istəyərdim, doktor Messencerin şəxsi fikrinin nəticəsi necə olacaq?*



***Sədrlik eləyən.*** *Praktik olaraq heç bir nəticəsi. Bu, o deməkdir ki, bu istiqamətdə tədqiqatlar aparılmayacaq.*

***Berton.*** *Biz nə danışırıqsa, protokola əlavə olunurmu?*

***Sədrlik eləyən.*** *Bəli.*

***Berton.*** *Bununla əlaqədər olaraq demək istəyərdim ki, mənim fikrimcə, komissiya məni təhqir eləmədi, mən hesabda deyiləm, ekspedisiyanın ruhunu təhqir elədi.*

***Sədrlik eləyən***. *Bu hamısıdır?*

***Berton.*** *Bəli. Amma mən doktor Messencerlə görüşmək istəyirəm. Bu mümkündürmü?*

***Sədrlik eləyən.*** *Əlbəttə».*

İkinci protokol bununla da qurtarmışdı. Səhifənin aşağısında kiçik hərflərlə qeyd yazılmışdı. Bu qeyddə deyilirdi ki, doktor Messencer Bertonla üç saat gizli söhbət eləyib, bundan sonra ekspedisiya şurasına müraciətlə yenidən pilotun dediklərinin öyrənilməsini tələb eləyib.

O təsdiqləyirdi ki, onun belə qərara gəlməsində Bertonun ona təqdim elədiyi yeni, əlavə məlumatlar əsas rol oynayıb, amma o, bu məlumatları Şura müsbət qərara gələndən sonra Şuraya təqdim eləyə bilər. Şennonun, Timolisin və Traxyenin daxil olduğu Şura isə bu təklifi rədd eləyib və iş bununla da qurtarıb.

Kitabda Messencerin ölümündən sonra kağızlarının içindən tapılan bir məktubun fotosurəti də var idi. Bu, yəqin,

qaralama nüsxəsiymiş. Ravintser bu məktubun göndərilib-göndərilmədiyini və bunun bir nəticəsi olub-olmadığını öyrənə bilməyib.

«...*onun inanılmaz korazehinliyi*, – mətn belə başlayırdı, – *öz nüfuzunun qayğısına qalmasıdır. Şura, dəqiq desək, Şennon və Timolis (belə olan halda Traxyenin səsinin heç bir əhəmiyyəti yox idi) mənim tələbimi rədd elədilər. İndisə mən birbaşa İnstituta müraciət eləyirəm, amma özün də başa düşürsən, bu, zəif etirazdır. Verdiyim sözə sadiq qalaraq, təəssüf ki, Bertonun mənə dediklərini sənə danışa bilmərəm. Şuranın qərarına, şübhəsiz, onun heç bir elmi dərəcəsi olmadan kəşf eləməsi təsir eləmişdi, hərçənd hər bir tədqiqatçı bu pilota həsəd apara bilərdi – mətanətinə və müşahidəçilik qabiliyyətinə görə. Çox xahiş edirəm, mənə qayıdan poçtla aşağıdakı məlumatları göndər:*

*1) Fexnerin tərcümeyi-halını, uşaqlıqdan başlamış;*

*2) onun qohumları və qohumluq əlaqələri haqqında sənə nə məlumdursa; ehtimal ki, o, kiçik bir uşağı yetim qoyub;*

*3) onun böyüdüyü yerlərin fotolarını.*

*Bütün bunlar haqqında nə düşündüyümü sənə danışmaq istəyərdim. Sənin də bildiyin kimi, Fexnerin və Karuççinin uçuşundan müəyyən müddət sonra qırmızı günəşin ortasında korpuskulyar şüalanması ilə radioəlaqəni kəsən ləkə əmələ gəlib, peykin məlumatına görə, əsas etibarilə də cənub yarımkürəsində, yəni bizim Bazanın yerləşdiyi yerdə. Fexner və Karuççi tədqiqat qrupunun digər üzvlərinə nisbətən Bazadan daha çox uzaqlaşmışdılar.*

*Biz planetdə olduğumuz müddət ərzində qəzaya qədər bu cür qatı və hava tam sakit olanda belə inadla dayanan dumana təsadüf eləməmişdik.*

*Düşünürəm ki, Bertonun gördükləri bu yapışqanlı əjdahanın «İnsan» əməliyyatının bir hissəsidir. Bertonun gördüyü bütün canlı orqanizmlərin həqiqi mənbəyi olub. Fexner – onun beyni bir vaxtlar bizim üçün anlaşılmaz olan hansısa «psixoloji açılma»dır; söhbət eksperimental yaradıcılıqdan, onun bəzi yaddaş izlərinin (ehtimal ki, daha davamlılarının) yenidən qurulmasından gedir.*

*Mən bunun fantastik səsləndiyini bilirəm, bilirəm ki, səhv eləyə bilərəm. Xahiş edirəm, mənə kömək eləyəsən: mən indi Alarikedəyəm və burada sənin cavabını gözləyəcəyəm.*

*SƏNİN A.*

Mən çətinliklə oxuyurdum, artıq tamam qaranlıqlaşırdı və əlimdəki kitab boz rəngə çalırdı. Nəhayət, hərflər bir-birinə qarışmağa başladı, amma səhifənin boş hissəsi öz yaşadıqlarım əsasında mənə tamamilə həqiqətəuyğun görünən bu əhvalatı oxuyub başa çatdırdığımı xəbər verirdi. Pəncərəyə doğru döndüm. Arxasındakı boşluq tutqun-bənövşəyi rəngdə idi, üfüqlərin üzərində hələ də sönənközə oxşayan bir neçə bulud süzürdü. Qaranlıqla örtülən okean görünmürdü. Havatəmizləyicilərin üzərindəki kağız lentlərin yüngülcə xışıldadıqlarını eşidirdim.



Ozonun yüngül qoxusu ilə qızınan hava, deyəsən, soyumuşdu. Stansiyaya mütləq sükut hakim kəsilmişdi. Düşündüm ki, bizim qalmaq qərarımızda heç bir qəhrəmanlıq yoxdur. Qəhrəmancasına mübarizə dövrü, cəsarətli ekspedisiyalar, qorxunc ölümlər, heç olmasa, okeanın ilk qurbanı olan Fexner kimilərin dövrü çoxdan arxada qalmışdı. Məni, demək olar, Snautun və Sartoriusun qonaqlarının kim olması maraqlandırmırdı. «Bir müddətdən sonra, – mən düşündüm, – biz bir-birimizdən utanmağa və özümüzə qapanmağa son qoyacağıq. Əgər biz qonaqlardan yaxa qurtara bilməsək, onda onlara alışacağıq və onlarla yaşamağa başlayacağıq, əgər onları yaradan oyunun qaydalarını dəyişərsə, biz yeni qaydalara uyğunlaşarıq, hərçənd bir müddət əzab çəkəcək, vurnuxacağıq, hətta o və o birisi də özlərini öldürərlərsə belə, nəhayət, sonda tarazlıq bərpa olunacaq».

Otağa indi Yerdəkinə oxşayan qaranlıq çökmüşdü. Artıq yalnız əlüzyuyanın və güzgünün cizgiləri qaranlıqda ağarırdı. Ayağa qalxdım, əlhavasına rəfdən bir parça pambıq tapdım, nəm pambıqla üzümü sildim və arxası üstə çarpayıya uzandım. Haradasa mənim üzərimdə havatəmizləyicinin kəpənəyin titrəməsinə bənzəyən xışıltısı eşidilir və yoxa çıxırdı. Hətta pəncərəni belə görmürdüm, qaranlıq hər şeyi itirmişdi, hətta bilmirəm haradan: divardan, ya da

boşluğun dərinliklərindən, oradan, pəncərənin arxasından düşdüyü bilinməyən işıq zolağı mənim qarşımdaydı. Keçən dəfə solyaristik boşluğun mənə necə dəhşətli gəldiyini xatırladım və demək olar ki, gülümsədim. Mən ondan qorxmurdum. Heç nədən qorxmurdum. Əllərimi gözümə qaldırdım. Saatın fosforessensiyal[1] tacının əqrəbləri işıldayırdı. Bir saatdan sonra mavi günəş çıxmalıydı. Qaranlıqdan ləzzət alır və hər cür mənasız fikirlərdən azad olmuş halda dərindən nəfəs alırdım.

Tərpənəndə maqnitofonun yastı qutusunun qıçıma sıxıldığını hiss elədim. Hə. Qibaryan. Onun lentdə qalmış səsi. Maqnitofonu qoşub ona qulaq asmaq hətta ağlıma da gəlmədi. Onun üçün bundan artıq bir şey eləyə bilməzdim.

Çarpayının altında gizlətmək üçün maqnitofonu götürəndə xışıltı və açılan qapının yüngül cırıltısını eşitdim.

– Kris!.. – sakit, az qala, pıçıltı ilə deyilən sözü eşitdim. – Kris, sən buradasan? Necə də qaranlıqdır.

– Boş şeydir, – mən dedim. – Qorxma. Bura gəl.

## MÜŞAVİRƏ

Bircə fikrim belə olmadan arxası üstə uzanmışdım. Otağa hakim kəsilən qaranlıq qatılaşırdı. Addım səslərini eşidirdim. Divarlar yoxa çıxdı. Nə isə mənim üzərimdə çox yüksəyə qalxırdı, hüdudsuz dərəcədə yüksəyə. Qaranlıq iliklərimə işləmiş halda donmuşdum. Onun elastiki şəffaflığını hiss eləyirdim. O gəlmirdi. Mən yalnız balacalaşırdım, görünməz göy, görünməz üfüqlər, boşluq, formasını itirən buludlar, ulduzlar uzaqlaşır, məni özlərinin mərkəzinə çevirərək böyüyürdü. Üzərində uzandığıma sıxılmaq istəyirdim, amma mənim altımda heç nə yox idi və qaranlıq artıq heç nəyi gizləmirdi. Əllərimi sıxaraq üzümü qapadım. O, yox oldu. Əllərim bu tərəfdən o tərəfə keçdi, mən qışqırmaq, bağırmaq istəyirdim...

Otaq boz-mavi idi. Mebel, rəflər, divarların küncləri – sanki, geniş, tutqun sürməylə boyanmışdı, hamısı rəngsiz

---

[1] Fosforessensiya – bəzi cisimlərin fosfor kimi işıldamaq xassəsi

idi – yalnız cizgiləri rəngliydi. Pəncərənin arxasında şəffaf, mirvari ağlığı var idi. Mən tərdən tamam islanmışdım. Ona tərəf baxdım, o, mənə baxırdı.

– Sənin əllərin şişib?

– Nə?

O, başını qaldırdı. Onun gözlərinin rəngi də otağın rəngindəydi, boz, qara kirpiklərinin altından işıldayırdı. Mən onun pıçıltısında sözün mənasını başa düşməmişdən əvvəl istilik hiss edirdim.

– Yox. Aaa, hə.

Mən onun çiyinlərini qucaqladım. Bu toxunmadan əllərimlə qarışqalar qaçışdı. Onu ağır-ağır o biri əlimlə qucaqladım.

– Sən pis yuxu görübsən?

– Yuxu? Hə, yuxu. Bəs sən yatmayıbsan?

– Bilmirəm. Bəlkə də, yox. Mən yatmaq istəmirəm. Amma sən yat. Sən niyə belə baxırsan?



Gözlərimi yumdum. Onun ürəyi mənim ürəyimlə yanaşı dəqiq ritmlərlə döyünürdü. «Butaforiya[1]», – mən düşündüm. Amma məni heç nə təəccübləndirmirdi, hətta öz etinasızlığım da. Qorxu və çarəsizlik artıq arxada qalmışdı. Mən dodaqlarımla onun boynuna toxundum, sonra boğazındakı balaca, yumşaq, balıqqulağının çökəyi kimi çökəkdən öpdüm. Bu zaman nəbzim vurdu.

Dabanlarım üstə qalxdım. Heç bir üfüq, heç bir dan yerinin sökülməsi hiss olunmurdu; üfüqləri mavi elektrik qızartısı əhatəyə almışdı; ilk şəfəqlər otağa ox kimi daxil oldu; hər şey şəfəq saçırdı, şən alov dilləri güzgüdə, qapı dəstəklərində, nikellənmiş borularda əks-səda verirdi; adama elə gəlirdi işıq qarşısına çıxan hər bir əşyaya zərblə toxunaraq, sanki, darısqal otağı genişləndirmək, dağıtmaq istəyirdi. Artıq baxmaq mümkün deyildi. Mən geri döndüm. Harinin göz bəbəkləri tamam kiçilmişdi.

– Məgər artıq gündüzdür? – o, boğuq səslə soruşdu.

O, sanki, yarıyuxulu, yarıayıq idi.

– Bu planetdə həmişə belədir, mənim əzizim.

– Bəs biz?

---

[1] Butaforiya – teatr/konsert tamaşaları, kino/televiziya çəkilişləri, muzey ekspozisiyaları və bu kimi digər məqsədlər üçün hazırlanan hər hansı zahiri oxşatma, yalançı əşya: silah, bəzək, maşın və s.

– Nə biz?

– Burada çoxmu qalacağıq?

Mən gülmək istəyirdim. Amma sinəmdən qopan boğuq səs gülüşə oxşamırdı.

– Düşünürəm ki, kifayət qədər çox. Sən bunun əleyhinəsən?

Onun qaşları titrədi. Hari mənə diqqətlə baxırdı. O, sanki, mənə göz vurdu, bəlkə də, mənə belə gəldi. Sonra adyalı çəkdi və onun çiynində balaca, üçbucaq xal qızarmağa başladı.

– Sən niyə belə baxırsan?

– Sən çox gözəlsən.

O gülümsədi. Amma bu yalnız nəzakət xatirinə idi, kompliment üçün təşəkkür idi.

– Doğrudanmı? Sən elə baxırsan, sanki... sanki...

– Necə?

– Sanki, nəyisə axtarırsan.

– Uydurma.

– Yox, sanki, düşünürsən ki, mənə nəsə olub, ya da mən sənə bu haqda danışmamışam.

– Bu, haradan ağlına gəldi?

– Bir halda ki, sən belə inadla danışırsan, onda, yəqin belədir. Yaxşı, necə istəyirsən?

Alovlanan pəncərənin arxasında bərk isti düşürdü. Əlimi gözümün önünə tutaraq eynəyimi axtarırdım. Eynək stolun üstündəydi. Yatağın üzərində oturdum və onun əksini güzgüdə gördüm. Hari nəsə gözləyirdi. Mən yenidən onunla yanaşı oturanda o gülümsədi.

– Bəs mənə?

Mən birdən başa düşdüm.

– Eynək?

Ayağa qalxdım, yeşikləri eşələməyə başladım: stolun, pəncərə altlığının üzərinə baxırdım. İki cüt eynək tapdım, doğrudur, hər ikisi böyükdü və ona verdim. O, hər ikisini gözündə yoxladı. Eynəklər onun burnunun yarısına qədər düşdü.

Bu an qapaqlar qıcırdamağa başladı. Bircə anda tısbağa kimi qınının içində gizlənən Stansiyanın içində də gecə başladı. Əlhavasına onun gözündən eynəyi çıxartdım və özümünkü ilə yanaşı çarpayının üzərinə qoydum.

– Neyləyəcəyik?– o soruşdu.

– Gecə neyləyirsə, onu – yatacağıq.

– Kris?!

– Nədir?

– Bəlkə, sənin sarğılarını dəyişim?

– Yox, lazım deyil. Lazım deyil... əzizim.

Belə deyib özüm də başa düşmürəm ki, niyə birdən qaranlıqda onun nazik çiyinlərini qucaqladım və onun necə titrədiyini hiss eləyib ona inandım. Hərçənd bilmirəm. Mənə birdən elə gəldi ki, o, məni yox, mən onu aldadıram, həqiqi odur, mən yox.

Sonra mən daha bir neçə dəfə yuxuya getdim və elə hey qıcolmalar məni mürgüdən ayıltdı; quduzcasına çırpınan ürəyim tədricən sakitləşirdi; mən onu özümə sıxırdım, o, hədsiz dərəcədə yorulmuş halda, qayğı ilə mənim üzümə, alnıma toxunaraq çox ehtiyatla yoxlayırdı, görsün temperaturum yoxdur ki. Bu, Hari idi. Ən həqiqisi. Başqası ola bilməzdi.



Bu fikirdən daxilimdə nəsə dəyişdi. Mən mübarizə aparmağa son qoyub dərhal da yuxuya getdim.

Məni yüngül toxunma oyatdı. Alnımı xoşagələn bir soyuqluq bürümüşdü. Sifətimə nəsə nəm və yumşaq şey qoyulmuşdu. Sonra bu, ağır-ağır qalxdı və mən üzərimə əyilən Harinin sifətini gördüm. Hər iki əliylə tənzifi çini kasanın üzərinə tutmuşdu. Yanında yanıq əleyhinə olan mayenin şüşəsi var idi. O, mənə gülümsəyirdi.

– Ay yatırsan ha, – dedi, yenidən tənzifi alnıma qoydu. – Ağrıdır?

– Yox.

Alnımın dərisini tərpətdim. Həqiqətən, yanıqlar indi qətiyyən hiss ounmurdu.

Hari ağ, bənövşəyi zolaqları olan kişi çimərlik xalatına bürünərək yatağın kənarında oturmuşdu, qara saçları boynuna tökülmüşdü. Mane olmasınlar deyə qollarını dirsəklərinə qədər çırmalamışdı.

Mənim acından ürəyim gedirdi, artıq iyirmi saat idi ki, ağzıma bir şey qoymamışdım. Hari işini qurtarandan sonra ayağa qalxdım. Birdən baxışlarım yanaşı qoyulmuş qırmızı düyməli eyni iki dona sataşdı: birincisi mənim arxadan kəsərək çıxartmağa kömək elədiyim don idi, ikincisi

dünən geyib gəldiyi don idi. Bu dəfə o özü qayçıyla kəsib çıxartmışdı. Deyirdi, yəqin, düymə yerləri xarab olub.

Bu iki eyni don mənim indiyə qədər gördüklərimin ən dəhşətlisi idi. Hari şkafın yanında əlində dərman əlləşir, şkafı qaydaya salırdı. Oğrunca üzümü ondan döndərdim və əlimi qanı çıxana qədər dişlədim. Hələ də bu iki, daha doğrusu, eyni, amma iki dəfə təkrar olunan dona baxaraq dalı-dalı qapıya doğru çəkildim. Su əvvəlkitək səs-küylə krandan axırdı. Qapını açdım, səssizcə sivişib dəhlizə çıxdım və ehtiyatla qapını bağladım.

Otaqdan suyun zəif səsi, dolan şüşənin bul-bulu eşidilirdi. Birdən bu səslər kəsildi. Dəhlizdə uzun tavan lampaları yanırdı. Əks olunan işığın aydın olmayan ləkəsi qapının üzərinə düşmüşdü. Mən dişlərimi sıxdım və baxmayaraq ki qapının dəstəyini saxlaya bilməyəcəyimə əmin idim, yenə də dəstəkdən yapışaraq gözlədim. Sərt dartınma, az qala, dəstəyi əlimdən çıxaracaqdı, amma qapı açılmadı, yalnız titrədi və dəhşətli tərzdə cırıldamağa başladı. Karıxmış halda dəstəyi buraxdım və geri çəkildim. Qapı qeyri-adi dəyişikliyə uğrayırdı, onun yumşaq plastmas səthi əyilirdi, sanki, mən çöldən qapını içəriyə doğru itələyirdim. Qapının üzünə çəkilən örtük xırda hissələrlə qopur, getdikcə daha çox gərilən yanlıqların poladı çılpaqlaşırdı. Birdən mən başa düşdüm: o, dəhlizə açılan qapını çölə itələmək əvəzinə, qapını özünə tərəf dartaraq açmaq istəyirdi. İşığın parıltısı çökük güzgüdə olduğu kimi, ağ rəngli qapının üzərində əyilirdi, bərkdən xışıltı eşidildi və son həddə qədər əyilmiş lövhə çatladı. Eyni zamanda da, yuvasından çıxan dəstək otağa uçdu. Dərhal da yarıqdan qana batmış əllər göründü, lakın üzərində qırmızı izlər salaraq uzanmağa başladılar, qapı lövhəsi ortadan sındı, çəpinə həncamələrdən asıla qaldı və bənövşəyi-ağ varlıq ölü sifəti göyərmiş halda göz yaşları içində sinəmə atıldı.

Əgər bu görüntü məni sarsıtmasaydı, mən qaçmağa cəhd eləyərdim. Hari titrək halda havanı udur və başını mənim çiynimə döyəcləyirdi, sonra ağır-ağır döşəmənin üzərində oturdu. Onu qaldırıb, sındırılmış qapının yanından keçirdərək otağa apardım və çarpayının üzərinə uzatdım. Onun sınmış dırnaqlarının altından qan axırdı. O, əlini çevirəndə əti görünənə qədər dərisi soyulmuş ovcunu gördüm.

Onun sifətinə baxdım, açıq gözləri heç bir ifadə bildirmədən mənim ortamdan harasa baxırdı.

– Hari!

O, aydın olmayan donqultu ilə cavab verdi.

Barmağımı onun gözlərinə yaxınlaşdırdım. Göz qapaqlarını endirdi. Dərmanlar olan qab şkafına yaxınlaşdım. Çarpayı cırıldadı, mən geri döndüm. O, dikələrək oturmuşdu, qorxu içində özünün qanlı əllərinə baxırdı.

– Kris, – o inildədi, – mən... mən... mənə nə olub?

– Qapını sındırarkən yaralanıbsan, – mən quruca dedim.

Dodaqlarıma nəsə olmuşdu, xüsusilə də aşağıdakına; sanki, onda qarışqalar gəzirdi. Onu dişləmək lazım gəldi.

Hari dəqiqədənbir qapının yanlıqlarındakı diş-diş olmuş plastmasa baxırdı, sonra mənə baxdı. Onun buxaqları titrəyirdi, mən onun qorxuyla mübarizə aparmağa çalışdığını görürdüm.



Bir parça tənzif kəsdim, şkafdan yara üçün dərman götürdüm və çarpayının yanına qayıtdım. Mənim bütün apardıqlarım gözlənilmədən zəifləyən əlimdən tökülürdü, jelatin köpüklü banka sındı, amma mən hətta əyilmədim də. Dərmanlar artıq lazım deyildi.

Mən onun əlini qaldırdım. Qurumuş qan hələ də nazik parçalar şəklində dırnaqlarını əhatəyə almışdı, amma bütün yaralar artıq yoxa çıxmışdı, ovcunda isə artıq təzə dəri əmələ gəlmişdi. Çapıqlar göz qabağındaca ağarırdı.

Mən oturdum, onun sifətini sığallayır və ona gülümsəməyə çalışırdım. Buna nail olduğumu deyə bilmərəm.

– Hari, sən niyə belə elədin?

– Yox. Bunu... mən?

O, baxışları ilə qapını göstərirdi.

– Hə. Xatırlamırsan?

– Yox. Mən gördüm ki, sən yoxsan, dəhşətli dərəcədə qorxdum və...

– Və nə?

– Səni axtarmağa başladım, hamamda ola biləcəyini düşündüm...

Yalnız indi şkafın kənara itələndiyini və hamamın girişinin açıq olduğunu gördüm.

– Bəs sonra?

– Qapıya doğru qaçdım.
– Hə?
– Xatırlamıram. Yəqin, nəsə olub?
– Nə?
– Bilmirəm.
– Bəs sən nəyi xatırlayırsan? Sonra nə oldu?
– Burada çarpayının üstündə oturmuşdum.
– Səni otağa necə gətirdiyimi xatırlamırsan?

O tərəddüd eləyirdi. Dodaqlarının küncləri aşağı düşmüşdü, sifəti gərginləşmişdi.

– Mənə elə gəlir... Ola bilər... Özüm də bilmirəm.

O, ayaqlarını döşəməyə salladı və ayağa qalxdı. Sındırılmış qapıya yaxınlaşdı.

– Kris!

Mən arxadan onun çiyinlərindən yapışdım. O titrəyirdi. Birdən cəld döndü və mənim gözlərimə baxdı.

– Kris, – o pıçıldadı, – Kris.
– Sakit ol.
– Kris, əgər... Kris, bəlkə, məndə epilepsiya[1] var?

Epilepsiya, aman Allahım! Mən gülmək istəyirdim.

– Sən nə danışırsan, əzizim. Sadəcə, burada, bilirsən... qapılar, hə, qapılar elədir...

Biz otağı tərk elədik, xarici qapaqlar sürəkli qıcırtı ilə açılıb, okeanın üzərinə sərələnən günəş diskini göstərdi və dəhlizin əks tərəfindəki balaca mətbəxə yollandıq. Soyuducuların və şkafların içindəkiləri töküşdürərək Hari ilə biz burada ev sahibliyi eləyirdik. Mən tez hiss elədim ki, o, biş-düş eləmək üçün özünü elə də əziyyətə salmır və konserv bankalarını açmağı mən nə qədər bacarıramsa, o da o qədər bacarır. Mən iki belə bankanın içindəkiləri uddum və çoxlu qəhvə içdim. Hari də yeyirdi, amma elə yeyirdi ki, bəzən uşaqlar böyüklərə xoş gəlmək üçün hətta məcburiyyət olmadan, amma qeyri-iradi və etinasızcasına bu cür yeyirlər.

Sonra biz radiostansiya ilə yanaşı olan balaca əməliyyat otağına getdik. Bir planım var idi. Mən dedim ki, hər ehtimala qarşı ona baxmaq istəyirəm, onu açılıb-yığılan kresloda oturtdum və sterilizə edilmiş şpris və iynə çıxartdım. Yaddaşımın hesabına, demək olar, nəyin harada olduğunu

---

[1] Epilepsiya – özündəngetmə

bilirdim, bunu bizə Yerdə öyrətmişdilər. Onun barmağından bir damla qan götürdüm, şüşənin üzərinə yaxdım, buxarlandırıcıda qurutdum və yüksək vakuumda onun üzərinə gümüş ionlarını səpdim.

Bu işin maddiliyi sakitləşdirici təsir göstərirdi. Açılıbyığılan kreslonun balışında dincələn Hari əməliyyat otağının içərisindəki cihazlara baxırdı.

Sakitliyi daxili telefonun kəsik-kəsik zəngi pozdu. Dəstəyi qaldırdım.

– Kelvin, – gözümü son saatlar yaşadıqlarından yorulub, sanki, tamam süst düşmüş Haridən çəkmədən dedim.

– Sən əməliyyat otağındasan? Nəhayət ki! – mən rahatlıqla köks ötürüldüyünü eşitdim.

Danışan Snaut idi. Mən dəstəyi üzümə sıxaraq gözləyirdim.



– Sənin qonağın var, hə?

– Hə.

– Sən məşğulsan?

– Hə.

– Kiçik bir təhqiqatla, hm?

– Hə, nədir ki? Bir partiya şahmat oynamaq istəyirsən?

– Mənasız söhbətlərə son qoy, Kelvin. Sartorius səninlə görüşmək istəyir. Mən bizimlə demək istəyirəm.

– Bax bu yenilikdir! – Mən heyrətlənmişdim. – Hə, nədir... – mən dayandım və sözümü bitirdim: – Sən təksən?

– Yox. Mən fikrimi düzgün ifadə eləmədim. O, bizimlə danışmaq istəyir. Biz üçümüz viziofonda birləşirik, yalnız ekranı örtürsən.

– Belə de! Nəyə görə o, sadəcə, mənə zəng eləməyib? Utanır?

– Bunun kimi bir şeydir, – Snaut anlaşılmaz tərzdə mızıldandı. – Hə, necədir?

– Söhbət nəyisə müzakirə eləməkdən gedir? Deyək ki, bir saatdan sonra.Yaxşı?

– Yaxşı.

Mən ekranda yalnız onun ovucdan böyük olmayan sifətini görürdüm. Bir müddət o, diqqətlə mənim gözlərimin içinə baxdı. Nəhayət, bir qədər tərəddüdlə dedi:

– Hə, sən necəsən?

– Babatam. Bəs sən necə?

– Düşünürəm ki, sənə nisbətən bir qədər pisəm. Sən eləyə bilməzsənmi...

– Mənim yanıma gəlmək istəyirsən? – mən təxmin elədim. Çiynimin üzərindən Hariyə baxdım. O, başını balışın üzərinə qoyub uzanmışdı, ayaqlarını bir-birinin üzərinə qoymuşdu.

– Əl çək, eşidirsən ? Əl çək! – Snautun uca səsi gəlib mənə çatdı.

Mən ekranda onu görürdüm. Qalan dediklərini eşitmədim; o, əliylə mikrofonu örtdü, amma onun tərpənən dodaqlarını gördüm.

– Yox, gələ bilmərəm. Bəlkə də, sonra. Demək, bir saatdan sonra, – o cəld danışdı və ekran söndü.

Mən dəstəyi asdım.

– Bu kim idi? – Hari etinasız səslə soruşdu.

– Burada biri var... Snaut. Kibernetik. Sən onu tanımırsan.

– Çoxmu çəkəcək?

– Nədir, darıxdın? – mən soruşdum.

İlk aldığım preparatı neytron mikroskopun kasetinə qoydum və növbə ilə birləşdiricinin rəngli düymələrini basdım. Güc sahələri boğuqcasına uğuldayırdı.

– Burada əyləncə kifayət qədər çoxdur və əgər təkcə mənim burada olmağım sənə kifayət eləməsə, bu pis olacaq, – sözlər arasında böyük fasilələr verərək dalğın halda dedim, eyni zamanda da, hər iki əlimlə mikroskopun okulyarının[1] işıldadığı böyük qara başlığı sıxırdım və gözlərimi yumşaq rezin çanağa dikmişdim. Hari nəsə dedi, amma nə dediyi mənə çatmadı. Mən, sanki, böyük yüksəklikdən gümüşü şəfəqlərə qərq olmuş nəhəng səhra görürdüm. Bu səhrada yüngül tüstü ilə örtülmüş, elə bil, çatlayan və küləyin döydüyü yastı qayalı təpələr var idi. Bunlar qırmızı cisimciklər idi. Mən təsvir etməni birdən dəyişdim; gözlərimi okulyardan çəkmədən tüstülənən gümüşü daha dərindən nəzərdən keçirirdim. Eyni zamanda da, sol əlimlə stolun tənzimləyici dəstəyini fırlayırdım, lakin qaya parçasına oxşayan kürəcik qara xətlərin kəsişməsinə çatanda böyütməni artırdım. Obyektiv, sanki, ortada formasını dəyişmiş

[1] Okulyar – optik cihazlarda müşahidəçinin bilavasitə gözü qarşısındakı şüşə

eritrosit[1] aşkar elədi; bu, adama qaya kraterinin qara, sərt kölgələrlə haşiyələnmiş dairəvi çökəkləri kimi gəlirdi. Sonra gümüş ionlarının hücumu ilə qabaran çökək mikroskopun görmə sahəsinin sərhədindən kənara çıxdı. Bulanıq, sanki, tökülən suyun arasından işıqlandırılan zülalın çevrəsi alındı. Qara kəsişmədə bu sıxlaşdırılmış zülal parçasından birini tutub yüngülcə böyüdücü dəstəyi fırladım, sonra bir də; nəhayət, dərinliyə gedən bu yolun sonu görünməliydi; bir molekulun yastılaşdırılmış kölgəsi bütün okulyarı tutmuşdu. Görünmə aydınlaşırdı – indicə!..

Amma heç nə baş vermədi. Mən titrəyən, həlməşik kimi xışıldayan atom ləkələrini görməliydim, amma onlar yox idi. Ekran məsum gümüşü şəfəqlə şölələnirdi. Dəstəyi sona qədər fırladım. Uğultu gücləndi, qəzəbli oldu, amma mən heç nə görmədim. Təkrar olunan cingiltili siqnal mənə cihazın həddsiz yükləndiyini xəbər verirdi. Bir daha gümüşü boşluğa baxdım və elektriki ayırdım.



Hariyə baxdım. O məhz bu vaxt əsnəyirdi, amma cəld də gülümsəməyə başladı.

– Hə, mənim vəziyyətim necədir? – soruşdu.

– Çox yaxşı, – cavab verdim. – Düşünürəm... bundan yaxşısı ola bilməz.

Hələ də ona baxırdım, alt dodağımda təzədən bu lənətə gəlmiş qarışqaları hiss edirdim. Nə baş verirdi? Bu nə deməkdi? Bu bədən, görünüşcə zərif və kövrək olan, əslində, məhv edilməsi mümkün olmayan bu bədən, mahiyyət etibarilə... heç nədən yaradılmışdı? Mikroskopun silindrşəkilli korpusuna yumruğumla vurdum. Bəlkə, nəsə bir nasazlığı var idi? Bəlkə, fokusun sahəsinə yığışmırdı?.. Yox, cihazın qaydasında olduğunu bilirdim. Bütün mərhələlərlə aşağı düşdüm, qəfəslər, zülal konqlomeratı[2], molekullar – hamısı mənim gördüyüm minlərlə preparat kimi görünürdü. Amma aşağıya doğru axırıncı addım heç hara aparmadı.

Mən onun venasından qan götürdüm, üzərində ölçülər olan silindrə tökdüm, hissələrə böldüm və analizə başladım. O, mənim təxmin elədiyimdən də çox vaxtımı aldı;

[1] Eritrosit – qırmızı qan hüceyrələri

[2] Zülal konqlomeratı – tərkibində adi hallardan xeyli çox zülal olan maddə (bəzən bundan ötrü xüsusilə qatılaşdırılmış, zənginləşdirilmiş olur), birləşmə və yaxud yığın

vərdişlərimi bir qədər yadırğamışdım. Reaksiyalar normada idi. Hamısı. Hərçənd deyəsən...

Qatılaşdırılmış turşu damcısını qırmızı muncuğun üzərinə damcılatdım. Damcı tüstüləndi, bozardı, çirkli köpüklə örtüldü. Ayrılma. Denaturatlaşdırılma[1]. Sonra, sonra! Sınaq borusunu götürmək üçün əyildim. Yenidən damcıya baxanda, az qala, nazik şüşə əlimdən düşəcəkdi.

Sınaq şüşəsinin lap dibində, çirkli köpüyün altındakı tutqun-qırmızı kütlə yenidən çoxalırdı. Turşuyla yandırılan qan bərpa olunurdu! Bu, inanılası deyildi! Bu, mümkün olan iş deyildi!

– Kris! – mən haradansa uzaqlardan səs eşitdim. – Telefon zəng çalır, Kris!

– Nə? Ah, hə. Sağ ol.

Telefon artıq çoxdan zəng çalırdı, amma mən yalnız indi eşidirdim. Dəstəyi qaldırdım.

– Kelvin.

– Snaut. Mən xətləri elə qoşmuşam, biz üçümüz də eyni vaxtda danışa bilərik.

– Doktor Kelvin, sizi salamlayıram, – Sartoriusun uca, burun səsi eşidildi.

Bu səs elə çıxırdı, sanki, onun sahibi təhlükəli dərəcədə əyilmiş səhnəyə ayaq basan şübhəli, ayıq və xaricdən sakit görünən birisiydi.

– Salam, doktor, – mən cavab verdim.

Mən gülmək istəyirdim, amma bu şənlənməyin səbəbinin mənim üçün kifayət qədər aydın olduğuna əminliyim olmadığından bunu özümə rəva görmədim. Ən nəhayət, mən nəyə gülə bilərdim? Əlimdə nəsə saxlamışdım – içində qan olan sınaq şüşəsini. Sınaq şüşəsini silkələdim. Qan artıq yığılmışdı. Bəlkə, buna qədər olanlar qarabasma idi? Bəlkə, mənə belə görünmüşdü?

– Mən öz həmkarlarıma bəzi təəssüratlarımı danışmaq istəyərdim, bu... e... bu xəyalla bağlı, – mən, eyni zamanda, Sartoriusu eşidirdim, ya da eşitmirdim. Səs, sanki, mənim şüuruma daxil olurdu. Hələ də gözlərimi sınaq şüşəsindəki qatılaşan qana zilləyərək, bu səsdən müdafiə olunurdum.

– Onları F varlıqlar adlandıraq, – Snaut cəld dedi.

[1] Denaturatlaşdırılma – içmək üçün yararsız hala salmaqdan ötrü şərab spirtinə rəngli və zəhərli maddələrin qatılması

– Aaa, çox gözəldir.

Mənim eyni zamanda iki kanalı qəbul elədiyimi göstərərək ekranın ortasındakı şaquli xətt tutqunlaşdı, onun hər iki tərəfindən həmsöhbətlərimin sifətləri görünməliydi. Şüşə tutqun idi və yalnız çərçivənin ətrafındakı nazik işıq haşiyəsi cihazın işlədiyini, amma ekranın nəyləsə örtüldüyünü göstərirdi.

– Bizlərdən hər birimiz müxtəlif təhqiqatlar aparıb... – Yenidən burun səsiylə danışanda həmin ehtiyatlılıq hiss olunurdu. Bir dəqiqəlik sükut. – Bəlkə, biz əvvəlcə öz tədqiqatlarımızın nəticələrini bölüşək, sonra mən şəxsən nəyi müəyyən elədiyim haqqında məlumat verə bilərəm... Doktor Kelvin, bəlkə, siz başlayasınız...

– Mən?

Birdən mən Harinin baxışlarını hiss elədim. Sınaq şüşəsini stolun üzərinə elə qoydum ki, ştativin şüşəsinin üzəriylə diyirlənərək üçayağa söykəndi, onu ayağımla özümə yaxın çəkdim. İlk anda etiraz eləmək istədim, amma özüm üçün də gözlənilmədən dedim:



– Yaxşı. Kiçik məlumat? Yaxşı. Mən tamam az iş görmüşəm, amma deyə bilərəm. Bir histoloji[1] maddə və bir neçə reaksiya. Mikroreaksiya. Məndə belə təəssürat yarandı ki...

Bu, ana qədər nə deyəcəyimi bilmirdim. Qəfildən qızışıb özümdən çıxdım.

– Hər şey normadadır, amma bu kamuflyajdır. Maska. Bu, sözün bəzi mənalarında supersurətdir, orijinalından daha dəqiq yaradılmışdır. Deməк, biz insanda harada ki dənəvərliyin, bölünə bilmə quruluşunun sonunu tapırıq, buradan sonra yol atomun quruluşuna uyğun olaraq davam eləyir.

– İndicə. İndicə. Siz bunu necə başa düşürsünüz? – Sartorius soruşdu.

Snaut səsini çıxartmırdı. Bəlkə, onun tezləşən nəfəs alması dəstəkdən eşidilirdi? Hari mənə tərəf baxırdı. Mən qızışdığımdan axırıncı sözləri, az qala, qışqıraraq dediyimi başa düşdüm. Özümə gələndən sonra rahat olmayan stulumun üzərinə əyildim və gözlərimi yumdum. Bunu necə ifadə eləyim?..

---

[1] Histoloji – orqanizm toxumalarının mikroskopik quruluşundan bəhs edən elm

– Bizim bədən quruluşumuzun axırıncı elementləri atomlardır. Düşünürəm ki, F varlıqları adi atomlara nisbətən daha kiçik hissələrdən yaranıblar.

– Mezonlardan? – Sartorius yavaşcadan dedi. O, heç də təəccüblənməmişdi.

– Yox, mezonlardan yox... Mezonları aşkar eləmək olardı. Məndəki, aşağıda olan bu cihazın həll eləyə bilmə qabiliyyəti mənfi iyirmi anqstremə[1] bərabərdir. Düzdürmü? Amma hətta maksimal gücləndirilmədə belə heç nə görünmür. Buna görə də bunlar mezonlar deyillər. Deyəsən, daha çox neytronlardırlar.

– Siz bunu necə təsəvvür eləyirsiniz? Axı neytron sistemlər stabil deyil.

– Bilmirəm. Mən fizika mütəxəssisi deyiləm. Bəlkə də, onları hansısa güvvə cərəyanları stabilləşdirir. Mən bu sahədən baş çıxartmıram. Hər ehtimala qarşı, əgər hər şey mənim dediyim kimidirsə, onda quruluşu atomlardan on min dəfə kiçik olan hissəciklər təşkil eləyir. Amma bu da hamısı deyil! Əgər zülalların və hüceyrələrin molekullarının quruluşu bu mikroatomlardan təşkil olunubsa, onda onlar buna uyğun olaraq kiçik olardı. Qırmızı qan cisimcikləri də, fermentlər də – hər şey... Amma qətiyyən belə deyil. Bundan da belə çıxır ki, bütün bu zülallar və hüceyrələr, qəfəsin nüvəsi yalnız maskadır! «Qonaqlar»ın fəaliyyəti üçün məsul olan həqiqi quruluş daha dərində gizlənib.

– Kelvin! – Snaut, az qala, qışqırdı.

Mən qorxu içində dayandım. «Qonaq» dedim? Hə, amma Hari bunu eşitmədi. Bununla belə, o, onsuz da, başa düşməyəcəkdi. O, əllərini başının atına qoyub pəncərəyə baxırdı, onun yandan görünüşü al-qırmızı üfüqlərin fonunda nazik, aydın xətlərlə cizgilənmişdi. Dəstək susurdu. Mən yalnız uzaq nəfəsalmanı eşidirdim.

– Bunda nəsə var, – Snaut donquldadı.

– Hə, ola bilər, – Sartorius əlavə elədi. – Burada yalnız bir əngəl var: okean bu təxmini hissəciklərdən təşkil olunmayıb, Kelvin. Adi hissəciklərdən təşkil olunub.

– Ola bilər, amma o, belələrini də sintezləşdirməyə qadirdir, – mən qeyd elədim.

---

[1] Anqstrem – işıq dalğasının uzunluğunu göstərən ölçü vahidi

Gözlənilməyən bir süstlük hiss elədim. Bu danışıq hətta gülməli də deyildi. O lazım deyildi.

– Amma bu, qeyri-adi müqaviməti izah eləyə bilərdi, – Snaut donquldandı. – Regenerasiyanın tempi də. Ola bilər, hətta enerjinin mənbəyi də oradadır, dərinlikdə, axı ona yemək lazım deyildir...

– Söz istəyirəm, – Sartorius səsləndi.

Mənim ondan zəhləm gedirdi. Əgər o, heç olmasa, özünün uydurduğu rolundan çıxmırdısa!

– Mən səbəb məsələsinə toxunmaq istəyirəm. F varlıqlarının meydanaçıxma səbəbinə. Mən belə bir sual verərdim: F varlıqları niyə gəlirlər? Bunlar nə insan, nə müəyyən insanın surəti deyillər. Bu yalnız bizim beynimizin məlum adama uyğun olaraq maddiləşdirilmiş proyeksiyasıdır.



Bu təyinelәmənin dəqiqliyi məni heyrətləndirdi. Sartorius bütün xoşagəlməzliklərinə baxmayaraq, heç də axmaq deyildi.

– Bu doğrudur, – mən təsdiqlədim. – Bu hətta izah eləyir ki, niyə gəlirlər bu ada... belə varlıqlar, daha başqa cürləri yox. Beynin ən qüsurlu, daha çox digərlərindən izolə edilmiş yaddaşı seçilir, halbuki heç bir belə yaddaş onun surətinin çıxarılmasının gedişində tamamilə ayrıla bilməz və təsadüfən yaxınlıqda olan digər yaddaş qalıqları tərəfindən ələ keçirilə bilməz, buna uyğun olaraq da gəlmələr təkrar ola biləcək zatdan daha çox şüurluluq göstərir...

– Kelvin! – Snaut yenidən səsləndi.

Yalnız onun ehtiyatsız dediyim sözə reaksiya verməsi məni heyrətləndirdi. Deyəsən, Sartorius bu sözlərdən çəkinmirdi. Bu, o deməkdir ki, onun qonağı təbiəti etibarilə Snautun qonağından daha ağılsızdır? Bir saniyəliyə alim, doktor Sartoriusla yanaşı yaşayan cırtdan kəmağılı təsəvvür elədim.

– Hə, hə. Biz də hiss elədik, – bu an o danışdı. – İndisə F varlıqlarının meydana çıxmalarına dəxli olan səbəblər. Sərhədi təyin eləmək üçün onlar özlərini elə aparırlar, həqiqətdə özlərini belə apa..... belə hərəkət eləyərdilər...

O, sözünü heç cür başa çatdıra bilmədi.

– Orijinalları, – Snaut cəld dedi.

– Bəli, orijinalları. Amma nə vaxt ki şərait orta mümkünlüyü üstələyir... e... orijinallar F varlıqlarının şüurunu işəsalma rolunda çıxış eləyirlər və bilavasitə başqa hərəkətlər meydana çıxır, insana məxsus olmayan...

– Bu doğrudur, – mən dedim, – belə üsulla biz yalnız bu... varlıqların özlərini aparma kataloqunu tərtib eləyirik, daha heç nə. Bu, tamamilə səmərəsizdir.

– Mən buna əmin deyiləm, – Sartorius etiraz elədi.

Birdən onun məni nəylə qıcıqlandırdığını başa düşdüm: o danışmırdı, tamamilə İnstitutdakı iclaslarda olduğu kimi, çıxış eləyirdi. Görünür, o, başqa cür bacarmırdı.

– Burada oyuna şəxsiyyət məsələsi də daxil olur. Okean belə məfhumdan tamamilə məhrumdur. Belə də olmalıdır. Mənə elə gəlir, üzr istəyirəm, həmkarlarım, bu, bizim üçün... e... eksperimentin daha çox şoka salan tərəfi onun başadüşmə sərhədlərindən kənarda qalan kimi bütünlüklə ondan sürüşüb uzaqlaşır.

– Siz bunun bilərəkdən olduğunu hesab eləyirsiniz?.. – mən soruşdum.

Bu təsdiq eləmə məni son dərəcə heyrətləndirdi, amma düşünərək bunu istisna eləməyin mümkün olmadığını başa düşdüm.

– Bəli. Mən heç bir xəyanətə, bədxahlığa, daha həssas surətdə təhqir eləməyə inanmıram... həmkarım Snautun elədiyi kimi.

Mən, ümumiyyətlə, insan duyğularını, hisslərini ona aid eləmirəm, – ilk dəfə Snaut söz aldı. – Amma bəlkə, sən deyəsən: bu daimi qayıtmanı necə izah eləmək olar?

– Ola bilsin ki, qrammofon valı kimi işləyən hansısa dairəvi qurğu işə salınıb, – Sartoriusu sancmaq istəyimi gizlətmədən dedim.

– Xahiş edirəm, həmkarlar, dağılışmayın, – doktor burun səsiylə elan elədi. – Bu, mənim demək istədiklərimin heç də hamısı deyil. Normal şəraitdə mən öz işlərimin vəziyyəti haqqında qabaqcadan sizi məlumatlandıra bilərdim, amma xüsusi halı nəzərə alaraq bunu istisna eləyirəm. Məndə belə təəssürat yaranıb ki, doktor Kelvinin təxminlərində həqiqət var. Mən onun neytron quruluş haqqındakı ehtimalını nəzərdə tuturam... Belə sistemləri biz yalnız nəzəri olaraq bilirik və onları stabilləşdirmək müm-

kün olduğunu təsəvvür eləmirdik. Burada müəyyən şans yaranır: ya sistemə müqavimət qabiliyyəti verən həmin güc sahəsinin ləğv edilməsi...

Bundan bir qədər əvvəl mən hiss elədim ki, Sartorius tərəfdən ekranın örtüyü hərəkət eləyir; lap yuxarıda bir yarıq əmələ gəldi, orada nəsə çəhrayı bir şey tərpənirdi. İndi tutqun lövhə birdən düşdü.

– Əl çək! Əl çək! – dəstəkdə Sartoriusun ürəkparçalayan qışqırığı eşidildi.

Qəfildən işıqlanan ekranda kiminləsə mübarizə aparan doktorun əllərinin arasında diskəoxşar bir əşya göründü və mən bu diskin həsir şlyapadan başqa bir şey olmadığını düşünənə qədər hər şey söndü.

– Snaut? – dərindən ah çəkərək çağırdım.

– Hə, Kelvin, – kibernetikin yorğun səsi mənə cavab verdi.



Bu an mən onu sevdiyimi başa düşdüm. Mən, həqiqətən də, onun yanında kim olduğunu bilmək istəmirdim.

– Hələlik bəsimizdir, hə?

– Düşünürəm ki, hə, – mən cavab verdim. – Qulaq as, əgər bacarırsansa, aşağı düş, ya da mənim kabinəmə, yaxşımı? – o, dəstəyi yerə qoymağa macal tapmamış tələsik əlavə elədim.

– Danışdıq, – Snaut dedi. – Amma nə vaxt düşəcəyimi bilmirəm.

Bununla da bizim problemli müzakirələrimiz qurtardı.

## ƏJDAHA

Gecəyarısı məni işıq oyatdı. Bir əlimlə gözümü örtərək dirsəyim üstə azacıq qalxdım. Döşəkağına bürünmüş Hari ayaqlarını çarpayıdan sallayaraq büzüşmüş halda oturmuşdu, saçları üzünü örtmüşdü. Çiyinləri titrəyirdi. O, səssizcə ağlayırdı.

– Hari!

O, bir qədər də büzüşdü.

– Sənə nə olub? Hari...

Hələ də tamam ayılmamış halda yatağın üzərində oturdum, məni yalnız indicə əzən kabusdan tədricən azad

olurdum. Qız titrəyirdi. Onu qucaqladım. O, məni dirsəyi ilə itələdi.

– Əzizim.

– Belə demə.

– Hə, Hari, nə baş verib?

Mən onun yaş, şişkin sifətini gördüm. Uşağın göz yaşları böyük damlalarla yanağıyla gilələnir, buxağındakı çökəkdə işıldayır, döşəkağının üzərinə düşürdü.

– Sən məni sevmirsən.

– Bu, haradan ağlına gəlib?

– Mən eşitdim.

Mən sifətimin soyuduğunu hiss elədim.

– Nə eşitdin? Sən başa düşmədin, bu yalnız...

– Yox, yox. Sən dedin ki, bu, mən deyiləm. Dedin ki, çıxım gedim. Gedim. Gedərdim, amma bacarmıram. Mən bunun nə olduğunu bilmirəm. Bilmək istəyərdim, amma bacarmıram. Mən elə... elə... iyrəncəm!

– Əzizim!!!

Mən ondan yapışdım, bütün gücümlə özümə sıxdım, əllərini, yaş, duzlu barmaqlarını öpdüm, hansısa andları, andiçmələri təkrar elədim, məni bağışlamasını xahiş elədim, dedim ki, bu yalnız axmaq, ürəkbulandıran bir yuxu olub. O, bir qədər sakitləşdi, ağlamağa son qoydu, başını mənə tərəf döndərdi:

– Yox, belə demə, lazım deyil. Sən mənim üçün elə deyilsən...

– Mən elə deyiləm!

Bu sözlər mənim ağzımdan inilti kimi çıxdı.

– Hə. Məni sevmirsən. Mən daim bunu hiss eləyirəm. Özümü elə göstərirdim, guya, hiss eləmirəm. Düşünürdüm, bəlkə, mənə elə gəlir... Yox. Sən özünü... başqa cür aparırsan. Məni ciddi qəbul eləmirsən. Bu, yuxu idi, doğrudur, amma yuxuna ki mən girmişdim. Sən məni adımla çağırdın. Mən sənin üçün pisəm. Nəyə görə? Nəyə görə?

Mən onun qarşısında dizlərim üstə çökdüm, onun qıçlarını qucaqladım.

– Əzizim...

– Sənin belə deməyini istəmirəm. Eşidirsən, istəmirəm. Mən sənin üçün heç bir əzizim-filan deyiləm. Mən...

O, hıçqırıqlar içində boğulurdu və üzüstə yatağa düşdü. Ayağa qalxdım. Havatəmizləyicinin yarıqlarından sakit xışıltı ilə soyuq hava gəlirdi. Mən üşüməyə başladım. Hamam xalatını çiynimə atdım, çarpayının üstündə oturdum və onun çiyinlərinə toxundum.

– Hari, qulaq as. Mən sənə nəsə deyəcəyəm. Sənə həqiqəti deyəcəyəm...

O, əlləri üstə ağır-ağır qalxdı və oturdu. Mən onun nazik dərisinin altında damarının necə atdığını görürdüm. Sifətim yenidən keyləşdi və mənim üçün elə soyuq oldu ki, sanki, şaxtada dayanmışdım. Başım tamamilə boş idi.

– Həqiqəti? – o, təkrar soruşdu. – Müqəddəs sözündür?

Mən dərhal cavab vermədim, qıcolmadan boğazım tutulmuşdu. Bu, bizim köhnə andımız idi. Nə vaxt bunu deyirdik, bizlərdən heç birimiz nəinki yalan danışa bilərdik, hətta nəsə haqqında susa da bilməzdik. Vaxt var idi, biz həddən artıq düzlükdən əzab çəkirdik, sadəlövhcəsinə bunun bizi xilas edəcəyini düşünürdük.



– Müqəddəs sözümdür, – mən ciddi dedim, – Hari...

O gözləyirdi.

– Sən də dəyişibsən. Biz hamımız dəyişmişik. Ancaq mən bunu demək istəməzdim. Həqiqətən də, oxşayır ki... bizim heç birimizin bilmədiyimiz... səbəbdən... sən məni tərk eləyə bilməzsən. Amma bu, çox yaxşıdır, çünki mən də səni...

– Kris!

Döşəkağına bürünmüş Harini ayağa qaldırdım, otaqda gəzişərək onu yırğalamağa başladım. O, mənim sifətimə baxırdı.

– Yox. Sən dəyişməyibsən. Mən dəyişmişəm, – o pıçıldadı. – Mənə nə olub? Bəlkə, o?..

O, sındırılmış qapının qara, boş düzbucağına baxırdı, sınıqları mən dünən anbara aparmışdım. «Yenisini qoşmaq lazım gələcək», – düşündüm və onu çarpayının üstündə oturtdum.

– Sən nə vaxtsa yatırsan? – əllərimi aşağı salaraq onun qarşısında dayanıb soruşdum.

– Bilmirəm.

– Necə yəni bilmirsən? Düşün, əzizim.

– Bu, bəlkə də, əsl yuxu olmur. Bəlkə də, mən xəstəyəm. Beləcə uzanıram və düşünürəm, bilirsən...

O, yenidən titrədi.

– Nəyi? – pıçıltı ilə soruşdum, səsim qırıldı.

– Bu çox qəribə fikirlərdir. Bilmirəm onlar haradan gəlir.

– Məsələn.

«Nə eşitsəm belə, sakit olmalıyam», – onun sözlərini güclü bir zərbə kimi gözləyərək düşündüm.

O, gücsüz halda başını yırğaladı.

– Bu necəsə... birdən...

– Başa düşmədim.

– Belə, sanki, təkcə məndə yox, amma daha uzaqda, necəsə... mən deyə bilmirəm. Bunun üçün söz tapa bilmirəm...

– Bu, yəqin, yuxulardır, – mən könülsüz dilləndim və yüngülləşmiş halda ah çəkdim. – İndisə işığı söndür, səhərə kimi bizim heç bir kədərimiz olmayacaq; səhərsə, əgər istəsək, yenilərinin dərdini çəkə bilərik. Yaxşımı?

O, əlini düyməyə uzatdı, otağa qaranlıq çökdü, mən soyunaraq yatağa uzandım və onun yaxınlaşan isti nəfəsini hiss elədim. Onu qucaqladım.

– Bərk qucaqla, – o pıçıldadı. Uzun fasilədən sonra dedi: – Kris!

– Nədir?

– Səni sevirəm.

Mən qışqırmaq istəyirdim.

Səhər qırmızı idi. Nəhəng günəş diski üfüqlərin üzərindən asıla qalmışdı. Otağın kandarında məktub var idi. Konverti cırdım. Hari hamamda idi, mən onun necə oxuduğunu eşidirdim. Hərdənbir o, yaş saçları üz-gözünə yapışmış halda oradan boylanırdı. Mən pəncərəyə yaxınlaşdım və oxudum.

> *«Kelvin, biz batıb qalmışıq. Sartorius ciddi fəaliyyət tərəfdarıdır. O, neytron sistemləri destabilləşdirməyə nail olacağına ümid eləyir. Ona təcrübə üçün başlanğıc material kimi müəyyən miqdarda plazma lazımdır. Sənin kəşfiyyata çıxmağını və*

*konteynerdən azacıq da olsa, plazma götürməyini təklif eləyir. Necə lazım bilirsənsə, elə də hərəkət elə, amma öz qərarın haqqında mənə xəbər ver. Mənim heç bir fikrim yoxdur. Mənə elə gəlir, ümumiyyətlə, mənim heç nəyim yoxdur. Mən sənin bunu eləməyini yalnız ona görə istəyərdim ki, hər halda, bu, irəliyə hərəkət olardı, heç olmasa, az da olsa. Əks halda yalnız Q.-yə həsəd aparmaq qalır.*

*Xorek.*

*P.S. Radiostansiyaya gəlmə. Sən mənə görə bunu eləyə bilərsən. Yaxşısı budur, zəng elə».*



Bu məktubu oxuyanda ürəyim sıxıldı. Ona bir daha diqqətlə baxdım, cırıb tikə-tikə elədim və tikələrini əlüzyuyana atdım. Sonra Hari üçün kombinezon axtarmağa başladım. Bu, dəhşətli idi. Tamam keçəndəfəki kimi. Amma o, heç nə bilmirdi, yoxsa mən ona çölə kiçik bir kəşfiyyata gedəcəyimi deyəndə və ondan məni müşayiət eləməyi xahiş edəndə belə sevinə bilməzdi. Biz balaca mətbəxdə səhər yeməyini yedik (həm də Hari yenə çətinliklə bir neçə parçanı uddu) və kitabxanaya getdik.

Sartoriusun istədiyini eləməmişdən əvvəl neytron sistemlərə və sahələrə aid olan ədəbiyyata baxmaq istəyirdim. Hələ buna necə başlayacağımı bilmirdim, amma onun işinə nəzarət eləməyi qəti qərara aldım. Ağlıma gəldi ki, hələ bu fəaliyyət göstərməyən neytron anniqiyatoru[1] Snautu və Sartoriusu azad eləyə bilər, mənsə Hari ilə birlikdə əməliyyatın qurtarmasını haradasa başqa yerdə, məsələn, təyyarədə gözləyə bilərdik. Bir müddət mən ona suallar verərək böyük elektron kataloqla işlədim, kataloq sualların bəzilərinə üzərində «biblioqrafiyada yoxdur» yığcam qeydi olan kartoçkanı atmaqla cavab verir, ya da mənə xüsusi fiziki işlərin cəngəlliyinə baş vurmağı təklif eləyirdi, mənsə bununla neyləyəcəyimi bilmirdim. Nədənsə hamar divarları boyunca içərisində mikrofilmlər və elektron qeydlər olan şkaflar düzülmüş bu böyük, dairəvi otağı tərk eləmək istəmirdim. Stansiyanın lap mərkəzində yerləşən kitabxa-

[1] Anniqiyator – hissəciklərin və antihissəciklərin onların toqquşması vaxtı başqa hissəciklərə çevrilməsi

nanın pəncərəsi yox idi və polad çanağın içərisindəki ən çox izolə edilmiş yer idi. Kim bilir, axtarışlarımın açıq-aşkar nəticə verməməsinə baxmayaraq, bəlkə, elə buna görə bu yer mənə belə xoş gəlirdi. Kitabla dolu olan, tavana toxunan nəhəng rəfə çatana qədər böyük salonda dolaşdım. Bu külliyyatın qiymətli olması tamamilə şübhəli idi. Onları daha çox burada Solyarisi tədqiq edən pionerlərin xatirəsinə hörmət əlaməti olaraq saxlayırdılar. Rəflərdə altı yüz cildə qədər kitab vardı – hamısı klassik mövzudaydı, monumental işlərdən tutmuş, hətta müəyyən dərəcədə artıq köhnəlmiş Qezenin doqquz cildliyinə kimi. Mən bu cildi götürdüm, ağırlığından əlim aşağı sallandı və onu həvəssiz halda vərəqlədim; kreslonun yanlığının üzərində oturan Hari də özünə hansısa kitabçanı tapmışdı, onun çiyinləri üzərindən mən bir neçə sətri oxudum. Bu, ilk ekspedisiyaya aid olan çox az kitablardan biri idi, bəlkə də, hətta həmin Qezenin «Planetlərarası aşpaz» kitabıydı. Harinin hansı diqqətlə kosmonavtikanın sərt şərtlərinə uyğunlaşdırılan kulinariya reseptlərini öyrəndiyini görəndə heç nə demədim və dizlərimin üzərindəki kitaba qayıtdım. Qezenin «On il Solyarisi öyrənmə» kitabı dörddən on ikiyə kimi buraxılan «Solyariana» seriyasından çıxmışdı, onda da indi olduğu kimi onların dörd nişanlı nömrələri var idi.

Qezenin böyük fantaziyası yox idi; yeri gəlmişkən, belə qabiliyyəti Solyarisin təhqiqatçısına yalnız zərər vura bilərdi. Heç yerdə fərziyyələri cəld yaratmaq və ifadə eləmək bacarığı burada olduğu qədər təhlükəli ola bilməzdi. Ən nəhayət, bu planetdə hər şey mümkündür. Plazmanın yaratdığı formanın həqiqətəuyğun olmayan təsviri, hər halda, tamamilə dəqiqdir, hərçənd yoxlanılması mümkün deyil, belə ki, okean təsadüfi hallarda öz təkamülünü təkrar eləyir; onu ilk müşahidə eləyənləri anlaşılmazlığı və nəhəngliyi ilə heyrətə salır. Əgər onlar daha kiçik miqyasda əmələ gəlsəydilər – hansısa gölməçədə – onları, yəqin, gücün təsadüfi və kor oyunun əmələ gəlməsi kimi, təbiətin daha bir ədəbsizliyi kimi qəbul eləyərdilər. Solyaristik formaların məhvedilməz müxtəlifliyi qarşısında bacarıqsızlığın və dahiliyin eyni zamanda gücsüz olduğu da canlı okeanla münasibəti asanlaşdırmır. Qeze nə dahiydi, nə də bacarıqsız. O, sadəcə, vasvası-təsnifçi idi: o adamlardan ki, belələrinin

xarici sakitliyinin arxasında bütün ömürləri boyu işə bitib-tükənməyən ehtiras gizlənir. O nə qədər bacarmışdısa, təmiz yazı sözlərindən istifadə eləmişdi. Nə vaxt ki ona sözlər kifayət eləməmişdi, o, yeni, çox vaxt da uğursuz olan, təsvir elədiyi hadisələrə uyğun olmayan sözlərdən istifadə eləmişdi. Bununla belə, heç bir termini Solyarisdə olduğu kimi təqlid eləmirdilər. Onun «ağacaoxşar dağlar», onun «uzuncuqlar», «daraqcıqlar», «mimoidlər»[1], «simmetriklər» və «simmetriyasızlar», «gicgahlar» və «cəldlər» terminləri qorxunc dərəcədə süni səslənir, amma Solyaris haqqında bəzi təsəvvürlər yaradır, hətta aydın olmayan fotoşəkillərdən və qeyri-adi dərəcədə natamam filmlərdən başqa heç nə görməyən adamlar üçün də. Anlaşılan budur ki, bu vicdanlı təsnifatçı da çoxlu mənasızlıqlarla günaha batıb. İnsan həmişə fərziyyələr yaradır, hətta o çox ehtiyatlıdırsa belə, hətta o, tamam bu haqda düşünmürsə belə. Qeze hesab eləyirdi ki, «uzuncuqlar» əsas formadırlar və onları Yer dənizlərinin dəfələrlə böyüdülmüş və üst-üstə qalanmış qabarma dalğaları ilə müqayisə eləmişdi. Buna baxmayaraq, onun əsərlərinin birinci cildini kim oxumaq əziyyətinə qatlaşıbsa, bilir ki, geosentrizmdən[2] ruhlanıb, o, ilk olaraq onları «qabarma» adlandırmışdı, hansı ki belə köməksiz olmasaydı, yerini dəyişərdi.



Öz ölçülərinə görə Böyük Kolarad kanyonundan böyük olan, axı bu – əgər analoqlarını Yerdə axtarsaq – formasiya[3] kütlədə modeli yaradılan, yuxarı təbəqəsi həlməşikşəkilli – köpüklü konsistensiya[4] ilə örtülən (buna baxmayaraq, bu köpük nəhəng, yüngulcə dağılan haşiyələr və şəbəkələrdə donur; böyük özəkləriylə birlikdə, bəzi tədqiqatçılar tərəfindən onlar hətta «skeletli törəmələr» kimi təqdim olunurlar), onlarca metr dərinlikdə isə qayaların möhkəmliyini özündə əxz eləyən, hərçənd elastikliyini də qoruyan gərginləşmiş əzələ kimi daha çox möhkəm substansiyaya keçir. Əjdahanın onurğasındakı skeletlərin qovuşduğu gərilmiş pər-

[1] Mimoid – öz varlıqlarının mövcud olması sualı real olmayana qədər hakimiyyətdə qalan adamlara aid edilən söz birləşməsidir. Kamikadzeləri, intiharçı-terroristləri, kütləvi qətllər törədən sektantları da bu qəbildən olan adamlardan hesab eləmək olar

[2] Geosentrizm – Yeri kainatın sabit mərkəzi hesab edən qeyri-elmi təsəvvür

[3] Formasiya – bir dövrün geoloji çöküntülər təbəqəsi

[4] Konsistensiya – maddənin sıxlıq dərəcəsi

də kimi, öz uzuncuqları ilə çoxlu kilometr məsafəyə uzanır – görünüşü ilə tamamilə müstəqil olan varlıq hansısa azman, bütöv dağları udmuş və indisə sakitcə onları həzmdən keçirən pitona oxşayır; bu piton hərdənbir balıq kimi sıxılmış bədənini titrəyişli hərəkətə gətirir. Amma uzuncuq yalnız yuxarıdan, uçan maşından belə görünür. Əgər ona o qədər yaxınlaşmaq mümkün olarsa ki hər iki «mağara divarları» təyyarənin üzərindən yüz metrlərlə yüksəklikdə olsun, onda «pitonun gövdəsi» üfüqlərə qədər uzanan, başgicəlləndirici hərəkətlərlə dolu bir boşluq olacaq. Azacıq da olsa aydın olur ki, burada, sənin altında göylərə yüksələn, tədricən kristallaşan sirop qayalarını saxlayan gücün hərəkət mərkəzi yerləşir. Amma gözlə görünməsi mümkün olan şey elm üçün kifayət olmur. Okeanın sahilsiz genişliklərində dolaşan milyonlarla «uzuncuqların» nüvəsində məhz nəyin yerləşdiyi haqqında nə qədər qızğın müzakirələr aparılıb. Hesab eləyirdilər ki, bu, hansısa əjdahanın orqanlarıdır, onlarda maddələr mübadiləsi, tənəffüs prosesləri, bəsləyici maddələrin daşınması gedir və daha nələr olduğunu yalnız toz basmış kitabxanalar bilirdi. Hər bir fərziyyəni minlərlə çoxlu zəhmət tələb eləyən, bəzənsə təhlükəli tədqiqatlarla inkar eləmək olar. Bütün bunlar yalnız forma etibarilə ən sadə, ən davamlı «uzuncuq»lara aiddir (onların var olmaları bir həftə davam eləyir – görünmə burada tamamilə istisna təşkil eləyir).

Müşahidəçilərdə formasının əcaibliyi və meydan oxumaları ilə daha çox anlaşılmayan, ən kəskin etiraz (əlbəttə, instinktiv) doğuran «mimoid»lər olub. Şişirtmədən demək olar ki, Qeze onlara vurulub, özünü bütünlüklə onların varlıqlarını aydınlaşdırmağa həsr eləyib. O, ad seçməkdə insan üçün diqqətçəkən xüsusiyyətinə, onu əhatə eləyənlərin, uzaq və yaxın olmalarından asılı olmayaraq, formalarını təkrar etməyə can atmasına üstünlük verib.

Günlərin birində okean səthinin altında, dərinlikdə kənarları dağılmış, üzərinə isə sanki, qatran yayılmış olan yastı, geniş dairə tutqunlaşmağa başlayır. Bir neçə saatdan sonra o, hissələrə ayrılmağa başlayır, getdikcə daha çox parçalanır və eyni zamanda da, yuxarı qalxmağa çalışır. Müşahidəçilər and içə bilərlər ki, onlardan aşağıda dəhşətli mübarizə gedir, çünki bütün istiqamətlərə əyilmiş

dodaqlara bənzəyən, kraterlər tərəfindən udulan hissələr səpələnir, saysız-hesabsız dalğalar dərinlikdə dağılan, titrəyən qara xəyalın üzərində üst-üstə qalanır, şahə qalxaraq aşağı tökülür. Bir saniyə çəkən yüz tonlarla suyun beləcə sıçrayışını yapışqanlı, deməklstəyirsən ki, marçıltılı bir gurultu müşayiət eləyir. Burada hər şey nəhəng ölçülərdə baş verir. Tutqun əjdaha dərinliyə sıxışdırılmış olur, hər bir növbəti zərbə, sanki, onu basıb əzir və parçalayır, islanmış qanadlar kimi sallanan bəzi topalardan daralan uzun boyunbağılar şəklində uzunsov salxımlar ayrılır, əriyərək bir-birinə bitişir və yuxarı üzürlər, özləri ilə birlikdə sınıq-sınıq olmuş ana diski də sürüyüb aparırlar. Bu zaman isə yuxarıdan arasıkəsilmədən yeni dalğa dairələri şahə qalxıb tökülür. Belə oyun bəzən bir gün, bəzənsə daha az davam eləyir. Bəzən bununla da hər şey qurtarır. Vicdanlı Qeze belə variantı «yarımçıq yandan ötən» adlandırmışdı, sanki, dəqiq məlumatı olmuşdu ki, hər bir belə kəskin çevrilişin son nəticəsi «yetişmiş yandakı» olur, daha doğrusu, cilalanmışabənzər işıqlı törəmələrin koloniyasının (adətən, Yer şəhərinin ölçülərindən böyük olan) təyinatı ətrafdakı formaları yamsılamaq olur. Anlaşılan budur ki, dərhal da başqa bir Solyarist meydana çıxmışdı – İvens, o, degenerasiyanın axırıncı mərhələsini təhrifetmə, sönmə kimi qəbul eləmişdi, yaranan formaların cürbəcürlüyünü isə – «ana» hakimiyyətin tumurcuqlayan hissələrindən gözlə görünən azadolma kimi dəyərləndirmişdi.

Lakin Qeze digər Solyaris yaranışlarının təsvirində donmuş şəlalədə sürünən qarışqa kimi ehtiyatlı olsa da, bu hadisədə, sanki, özünə əmin olmuşdu, hətta mimoidin formalaşmasındakı ayrı-ayrı dövrlərin artan kamilliyini mərhələlər üzrə sistemləşdirmişdi.

Yuxarıdan müşahidə eləyən üçün mimoid şəhərə oxşayır, amma bu, məlum əmələgəlmələr arasında analoqlar axtarmanın yaratdığı, sadəcə, yanılmadır. Göy təmiz olanda bütün çoxmərtəbəli çıxıntılar və onların zirvələri qızdırılmış hava təbəqəsi ilə əhatə olunur; bu hava, onsuz da, çətinliklə müəyyən eləmək mümkün olan ani titrəyişlər və forma dəyişikliyi yaradır. Birinci bulud təcili reaksiyalar doğurur. Sürətli laylara ayrılma başlayır. Yapışan özəyindən tamamilə ayrılan, rəngli kələmə oxşayan bulud yuxarı

atılır; bulud dərhal da ağarır və bir neçə dəqiqədən sonra burula-burula qalxan buludu dəqiqliyi ilə təqlid eləyir. Bu nəhəng yaranış qırmızıtəhər kölgə salır, yandakının bir zirvəsinin yerinə digərləri əmələ gəlir, bununla belə, hərəkət həmişə əsl buludun hərəkətinin qarşı tərəfi istiqamətinə olur. Düşünürəm ki, niyə belə olduğunu öyrənmək üçün Qeze barmağını barmağının üzərinə qoymayıb. Amma belə «birgecəlik məhsullar» Yerdən gələnlərin onun üzərində ucaltdıqları tikililərdən və əşyaların iştirakından «qəzəblənən» yandakının qarşısıalınmaz fəaliyyəti ilə müqayisədə boş şeydir. O, səkkiz-on mil ətrafda nə varsa, hamısını yenidən yaradır. Ən çox da mimoid böyüdülmüş surətlər yaradır, bəzən onları deformasiya eləyir və karikaturaları gülünc varlıqlara çevirir, xüsusilə də bu, maşınlara aiddir. Anlaşılan budur ki, həmişə də material okean tərəfindən püskürülən ən tez işıqlanan kütlə olur. Suya düşmək əvəzinə, o, havadan asılı qalır. Təyyarə, çat və yelkənlər eyni cəldliklə yaranır. Mimoid yalnız adamların özünə, dəqiq desək, heç bir canlıya münasibət bildirmir, həm də yorulmaz tədqiqatçıların eksperiment məqsədi ilə Solyarisə gətirdikləri bitkilərə də. Lakin maneken, kukla, istənilən materialdan hazırlanmış it və ağac təsvirlərinin surətini dərhal çıxardır.

Əfsus ki, burada mimoidin tədqiqatçıların arzularına Solyarisdə çox az təsadüf olunan «itaət eləməsi»nin hərdənbir yox olmasını qeyd eləmək lazım gəlir. Yetkin mimoidin özünün, əgər belə demək mümkünsə, «istirahət günləri» olur, o, bu günlərdə yalnız olduqca ağır-ağır döyünür. Bu döyünmək gözlə tamamilə hiss olunmur. Onun ahəngi, nəbzin bir mərhələsi, iki saatdan artıq davam eləyir və bunu müəyyən eləmək üçün xüsusi çəkiliş cihazları tələb olunur.

Belə dövrlərdə mimoid – xüsusilə qocası – belə tədqiqatın təsiri altına düşür; belə ki, okeana salınan yardımçı disk və onun üzərində ucalan forma ayaq üçün tamamilə etibarlı olan dayaq yaradır.

Əlbəttə, mimoidin «iş» günlərində də onun dərinliklərinə varmaq olar, amma bu zaman görüntü sıfıra bərabər olur, nəticədə də xüsusi çıxıntılardan fasiləsiz olaraq yumşaq, kolloid qarına oxşayan surətçıxaran kütlə ayrılır.

Demək lazımdır ki, bu formalara yaxın məsafələrdən baxmaq lazım deyil, belə ki, onların ölçüləri Yerdəki dağların ölçülərinə yaxındır. Bundan əlavə, «işləyən» mimoidlərin əsasını yapışqan, yalnız bir neçə saatdan sonra möhkəm, süngərdaşından daha yüngül olan qabığa çevrilən kolloid qar təşkil eləyir.

Nəhayət, xüsusi cihazlar olmadan gah əyilmiş sütunlara, gah da yarımmaye qeyzerlərə oxşayan nəhəng konstruksiyanın dəhlizlərində asanlıqla azmaq olar; hətta atmosferə müntəzəm olaraq «yalançı partlayışlar» tullayan buludları yara bilməyən parlaq günəş işığında belə.

Mimoidi onun xoşbəxt günlərində müşahidə eləmək (daha doğrusu, onların üzərində olan tədqiqatçılar üçün xoşbəxt günlərdə) unudulmaz təəssüratların mənbəyi ola bilər. Mimoidin yaradıcılıq sıçrayışları hansısa qeyri-adi hiper məhsul yaradılan vaxt baş verir. Onda o ya onu əhatə eləyənin xüsusi variantını yaradır, ya mürəkkəbləşdirilmiş formasını, ya da hətta «formal olaraq davam etdirilməsini» və beləcə, saatlarla əbəs yerə baş verən prosesləri anlamağa cəhd göstərən alimin sevincinə rəğmən abstrakt-rəssam məzələnir. Zaman keçdikcə mimoidin fəaliyyətində uşaq bayağılığının cizgiləri görünür, bəzən o, «iddialı kənaraçıxmalar»a düşür, onda onun bütün yaratdıqları çirkinlikləri ilə seçilir. Yaşlı mimoidlər xüsusilə də həqiqi gülüş doğuran fiqurlar yaratmağa qadirdirlər.



Öz-özlüyündə aydın olur ki, tədqiqatın ilk illərində alimlər mimoidləri iki sivilizasiyanın arzuolunan əlaqəsinin gerçəkləşəcəyi Solyaris okeanının mərkəzi kimi qəbul eləyərək onların üzərinə hücum çəkiblər. Lakin tezliklə aydınlaşıb ki, heç bir əlaqədən söhbət gedə bilməz, çünki hər şey formaların imitasiyası ilə başlayıb və qurtarıb, bu isə heç yerə aparıb çıxara bilməyib. Antropologiya və ya zoomorfizm[1] tədqiqatçıları ümidsizlik içində yenidən və yenidən canlı okeanın yaratdığı ən müxtəlif «düşünən orqanları» və ya hətta alimlərin (Martens, Ekkonai) «əl-ayaq», Qezenin isə «cəldlər», «onurğa sütunu» kimi qəbul elədiklərini də nəzərdən keçirirdilər. Amma canlı okeanın bəzən atmosferə iki milə qədər yüksəkliyə püskürtüsünü «onurğa sütu-

[1] Zoomorfizm – allahları heyvanlar şəklində təsəvvür edən ibtidai dini etiqad

nu» hesab eləmək, zəlzələni yer qabığının gimnastikası kimi qəbul eləmək kimi bir şeydir.

Canlı okean müəyyən həddə qədər daim təkrar olunan formaların kataloqunu elə tez-tez yaradırdı ki, okeanın üzərində gün ərzində təxminən üç yüz adı əhatə eləyən formaları onlarca və ya hətta yüzlərcə dəfə görmək olardı. Daha çox insafsız düşüncədə hər şeyə oxşarlığın mütləq yoxluğu Qeze məktəbinə əsasən nə vaxtsa insan tərəfindən Yerdə tədqiq olunan simmetriyalılar olub. Tədricən okeanın aqressiv qərəz göstərmədiyi və onun plazmalı girdablarında yalnız bunu hədsiz istəyənlərin həlak olduqları aydın oldu (təbii ki, mən, məsələn, oksigen cihazının və havadəyişənin sınması nəticəsində yaranan bədbəxt hadisələri nəzərdə tutmuram). Hətta inamsız halda buludların arasında dolaşan «uzuncuqların» silindrik çaylarını və «gicgahların» əcaib sütunlarını təyyarə və ya digər uçan cihazlarla zərrəcə belə təhlükə olmadan bu üzündən o üzünə deşib keçmək olar; plazma Solyaris atmosferində işıq sürətinə bərabər sürətlə aralanaraq yolu açır, əgər bunun üçün lazım gəlirsə, okean səthinin altında dərin tunellər də yaradır (həm də bu məqsədlə işlədilən enerji qeyri-adi dərəcədə çox olur – Skryabin onu, təxminən, 10^19 erq dəyərində qiymətləndirmişdi!!!). Lakin simmetriyalının tədqiqatına daim geri çəkilərək, bütün təhlükəsizlik qaydalarına əməl eləyərək olduqca ehtiyatla başladılar. Doğrudur, tez-tez uydurmalarını tədqiq eləyirdilər, məhz hansılarını, onların dərinliklərinə kimin birinci ayaq basdığı Yerdə hər bir uşağa məlumdur.

Bu azmanların dəhşətli qorxu təlqin eləmələri isə onların xarici görünüşləri ilə izah olunmur, hərçənd öz görünüşləri ilə, doğrudan da, kabus dolu yuxulara səbəb ola bilərlər. Daha doğrusu, bu qorxu ondan yaranır ki, onların hüdudları daxilində daimi olan heç nə, heç bir yəqinlik yoxdur, onlarda hətta fiziki qanunlar da iflasa uğrayır. Məhz bu da alimlərə canlı okeanın şüurlu olduğunu daha inadla təkrar eləməyə əsas verirdi.

Simmetriadlar qəfildən peyda olurlar. Onların yaranması püskürməni xatırladır. Okean birdən şəfəq saçmağa başlayır, elə bil, onlarca kilometr məsafədə okeanın səthini şüşə ilə örtürlər. Bu zaman nə onun qatılığı, nə də

həyəcan ritmi dəyişir. Bəzən simmetriyalılar qıfların əmələ gəldiyi, «cəld»lərin sorulub üzüldüyü yerlərdə meydana gəlirlər, amma bu, qayda hesab olunmur. Bir müddətdən sonra şüşə qabıq nəhəng köpük halında yuxarı sıçrayır, bütün göy qübbəsini, günəşi, qara buludları, üfüqləri özündə təhrif olunmuş və istiqamətini dəyişmiş halda əks etdirir. Rənglərin ildırım sürətli oyunu qismən işığın udulması, qismən də sınması nəticəsində baş verir, özünə oxşarı da olmur.

Mavi günlərdə əmələ gələn simmetriadlar xüsusilə sərt işıq effekti verirlər, həm də günəş batmamışdan əvvəl. Bu zaman adamda belə təəssürat yaranır ki, planet hər an öz həcmini ikiqat artıran digər bir planeti yaradır. Çətinliklə dərinliklərdən sıxılıb çıxan qlobus alovlarla şölələnir, şaquli bölmənin təpəsində çatlaq-çatlaq olur. Amma bu, dağılma deyil. Bu, mərhələdir və elə də uğurlu olmayan adla «rəngli fincan mərhələsi» adlandırılır, ömrü saniyələrlə ölçülür. Göyə yönələn pərdəli tağlar fırlanır, görünməyən daxili hissə ilə birləşir və ani olaraq sümüklü gövdəyə oxşayan nəsə yaratmağa başlayır, hansı ki bu gövdənin daxilində eyni zamanda yüzlərcə təzahür baş verməyə başlayır.



Bir müddətdən sonra simmetriyalılar özlərinin ən qeyri-adi qabiliyyətlərini – modelləşdirməni və ya daha dəqiqi, fiziki qanunların pozulmasını göstərməyə başlayırlar. Qabaqcadan demək lazımdır ki, iki eyni simmetriyalı olmur və həndəsə onların hər birində özünü necəsə okeanın yeni «kəşfi» kimi büruzə verir. Sonra simmetriyalı öz daxilində adamların hazırladıqları maşınlara qətiyyən oxşamayan, tez-tez «ani maşınlar» adlandırılanları yaradır. Burada söhbət nisbətən məhdud və buna görə də necəsə «mexaniki» məqsədli fəaliyyətdən gedir.

Dərinliklərdən püskürən isti bulaqlar bütün istiqamətlərə yayılan qalın divarlı qalereyalar və ya dəhlizlər, pərdələr isə səthi kəsən sistemlər, sallanan kanatlar, qübbələr yaradır. Simmetriyalılar öz adlarını onunla doğruldurlar ki, bir qütb rayonundakı hər bir yaranışa əks qütbdəki digər bir yaranış hətta kiçik xırdalıqlarına qədər uyğun gəlir.

Hansısa iyirmi-otuz dəqiqədən sonra nəhəng əvvəlcə oz şaquli oxunu səkkiz-on iki dərəcə əyərək tədricən okeana çökməyə başlayır.

Simmetriyalılar böyük də, kiçik də ola bilirlər, amma hətta cırtdanları belə okeanda batandan sonra okean səthi üzərində onlarca mil məsafədən görünə bilən düz səkkiz yüz metr hündürlüyündə sıçrayışlar yarada bilirlər.

Simmetriyalının içərisinə düşməyin ən təhlükəsiz vaxtı tarazlığını bərpa eləyəndən dərhal sonra düşməkdir, bu zaman bütün sistem çökməyi dayandırır və şaquli vəziyyətinə qayıdır. Öyrənmək üçün daha maraqlısı simmetriyalının zirvəsidir. Qütbün nisbətən hamar «şapka»sı tunellərin və kameraların xəlbir kimi dəlik-deşik elədiyi boşluğu əhatəyə alır. Bütünlükdə bu dövr ali qaydanın hansısa tənliyinin üçölçülü modeli kimi əmələ gəlir.

Məlum olduğu kimi, hər bir tənliyi ali həndəsənin dili ilə ifadə eləmək və ona ekvivalent olan həndəsi cismi qurmaq olar. Belə başa düşülərsə, simmetriyalı Lobaçevski konususunun və Rimanın mənfi əyrilərinin qohumudur, amma özünün təsəvvürə gəlməyəcək mürəkkəblikləri nəticəsində çox uzaq qohumdurlar. Bu daha çox bütün riyazi modelin bir neçə kubmil modelini əhatə eləyir, lakin model dördölçülüdür, çünki tənliyin vuruqları həm də onun dəyişiklikləri müddətində baş verənlər zamanı ifadə olunur.

Təbii ki, ən sadə fikir bizim qarşımızdakının canlı okeanın hansısa «riyazi maşınının» olması fikriydi; bu maşın hesablama modelinin uyğun ölçülərində ona lazım olan bizim üçün məlum olmayan məqsədlə yaranmışdı. Amma Fermontun bu nəzəriyyəsini bu gün heç kim dəstəkləmir. Simmetriyalının hansısa daha çox aydın olan, daha çox əlçatan olan modelini yaratmaqda və buna cəhd eləməkdə də heç bir nöqsan yox idi. Amma bütün bunların heç bir faydası olmadı.

Simmetriyalılar təkrarsızdı, eynilə onların yaranmasında hər hansı baş verənlərin təkrarsız olduğu kimi. Bəzən hava səs keçirməyə ara verir. Bəzən işıq şüalarının sınma əmsalı artır və ya azalır. Müəyyən yerdə cazibə dəyişməsinin ritmik döyünməsi əmələ gəlir, sanki, simmetriyalıların döyünən cazibəli ürəyi var. Bəzən tədqiqatçıların girokompası[1] özlərini dəli kimi aparırdı, ionlaşmanın qatları əmələ gəlir və yoxa çıxırdı... Bu saymanı davam etdirmək olar. Yeri

[1] Girokompas – maqnit əqrəb əvəzinə hər cür vəziyyətdə sabitliyini saxlayan cihazı olan sərbəst oxlu kompas

gəlmişkən, əgər nə vaxtsa simmetriyalının sirri tapılacaqsa da, hələ simmetriyasızlar növbəsini gözləyir.

Ekspedisiya simmetriyalının yüzlərcə kilometr dərinliyində ölçmələr apardı, qeydə alan cihazlar, avtomatik kameralar qoydular; süni peyklərin televiziya gözləri mimoidlərin və «uzuncuqlar»ın əmələ gəlməsini, onların yetkinləşməsini və məhvini qeydə aldı. Kitabxanalar dolur, arxivlər şişirdi; bunların haqqını ödəmək bəzən çox baha başa gəlirdi. Kəskin çevriliş vaxtı artıq məhvə məhkum edilmiş bu azmanların içərisindən çıxmağa macal tapmayan yeddi yüz on səkkiz insan həlak olmuşdu; onlardan yüz altısı yalnız bir qəzada həlak olmuşdu, bu qəza ona görə məşhurdur ki, onda Qeze özü də həlak olmuşdu; həmin vaxt o, yetmişyaşlı qocaydı. Zirehli skafandr geymiş yetmiş doqquz nəfəri maşınlar və cihazlarla birlikdə bir neçə saniyə ərzində çirkli horranın partlayışı udmuşdu; bu partlayış öz sıçrantıları ilə tədqiqat yerinin üzərində dövrə vuran təyyarələri və vertolyotları da vurub salmış, bu maşınları idarə eləyən iyirmi yeddi nəfər də həlak olmuşdu. Qırx ikinci paralelin səksən doqquzuncu meridianla kəsişməsindəki bu yer xəritədə «Yüz altının püskürməsi» kimi qeyd olunub. Amma bu nöqtə yalnız xəritədə mövcuddur, orada okeanın səthi hansısa digər səthdən heç nəylə fərqlənmir.



Onda ilk dəfə olaraq solyarist tədqiqatçıların istilik-nüvə zərbəsi vurmağı tələb eləyən səsləri eşidilməyə başladı. Bu, qisasdan daha pis idi; söhbət ondan gedirdi ki, biz onu başa düşmürdük. Qezenin ehtiyat qrupunun təsadüfən sağ qalan rəisi Tsanken bu təklifin müzakirəsi zamanı Stansiyanı və orada qalan on səkkiz nəfəri özüylə birlikdə partladacağı ilə hədələmişdi. Hərçənd onun intihar ultimatumunun səsvermənin nəticəsinə təsir göstərməsini heç vaxt etiraf eləməmişdi; belə hesab eləmək olar ki, həqiqətən də belə olub.

Amma izdihamlı ekspedisiyaların planetə təşrif gətirməsinin vaxtı keçmişdi. Stansiya özü – bu, elə ölçüdə mühəndis qurğusuydu ki, əgər okeanın saniyə ərzində milyonlarla dəfə böyük qurğular yaratmaq qabiliyyəti olmasaydı, Yer onunla fəxr eləyə bilərdi – diametri iki yüz metr olan disk şəklində hazırlanmışdı, mərkəzdə dörd, kənarlarda iki

yarusu vardı, annihilyasiya[1] enerjisinin hərəkətinin yaratdığı cazibənin sayəsində okeanın üzərində beş yüz metrdən min beş yüz metrə qədər hündürlükdə asılı qalmışdı və digər planetlərin bütün stansiya və peyklərinin təchiz olunduğu adi cihazlardan əlavə xüsusi radar qurğuları ilə də təchiz olunmuşdu. Bu qurğular okean səthinin kiçik dəyişiklikləri vaxtı belə əlavə gücü işə salır, beləliklə də yeni nəhəngin yaranmasının ilk əlamətləri aşkar olunan kimi polad disk stratosferə qalxırdı.

İndi stansiya tamamilə adamsız olurdu. Avtomatlar aşağıdakı anbarlara yığılıb qapısı bağlanandan üzü bəri – mənə indiyə kimi məlum olmayan səbəbdən – dəhlizlərdə heç kimlə rastlaşmadan dolaşmaq olardı, komandanın məhvindən sonra axınla məqsədsiz halda hərəkət eləyən gəmidə olduğu kimi.

Qezenin monoqrafiyasının 9-cu cildini yerinə qoyanda mənə elə gəldi ki, xovlu penoplastın örtdüyü polad ayaqlarım altında titrəməyə başladı. Yerimdəcə donub-qaldım, amma titrəmə təkrar olunmadı. Kitabxana korpusdan diqqətlə izolə olunmuşdu və titrəyişin ancaq bir səbəbi ola bilərdi: hansısa raket buraxılmışdı. Bu fikir məni reallığa qaytardı. Əgər özümü elə aparacağamsa ki guya, onun planını tamamilə bəyənirəm, onda yaxşı halda böhranın vaxtını uzada bilərdim. Mən, demək olar ki, işin gedib toqquşmaya kimi çıxacağına əmindim, buna görə də Harini xilas eləmək üçün bütün mümkün olanları eləməyi qərara aldım. Bütün məsələ bundan ibarət idi: Sartoriusun uğur qazanmağa şansı varmı? Mənim qarşımda onun üstünlüyü çox böyükdür, bir fizik kimi o, problemi məndən on dəfə yaxşı bilirdi və mən nə qədər paradoksal olsa da, okeanın bizim qarşımızda qoyduğu məsələnin mürəkkəbliyinə ümid eləyə bilərdim. Sonrakı saat ərzində mən mikrofilmlər üzərində yorulmadan çalışdım; heç olmasa, bu neytron proseslər fizikasının dili ilə danışan ağılsız riyaziyyat dənizindən başa düşə biləcəyim nəyisə tutmağa çalışırdım. Əvvəlcə bu, mənə ümidsiz göründü, xüsusən də hədsiz mürəkkəb olan neytron sahəsinin düz beş tam nəzəriyyəsi vardı, bu da onlardan heç birinin doğru olmadığının inandırıcı

[1] Annihilyasiya – məhvetmə, hissəciklərin və antihissəciklərin toqquşması zamanı hansısa başqa hissəciyə çevrilmələri reaksiyası (*lat.*)

əlaməti idi. Lakin nəhayət ki mən, az qala, ümidverici nəsə tapa bildim. Bəzi formulları yazdım və bu zaman qapının döyüldüyünü eşitdim.

Cəld qapıya yaxınlaşdım və onu açaraq yarığın qabağını kəsdim. Qapının ağzında sifəti tərdən işıldayan Snaut göründü. Onun arxasında dəhliz boş idi.

– Aaa, bu sənsən, – qapını açaraq dedim: – Keç.

– Hə, bu mənəm.

Onun səsi xırıltılı idi, iltihablı gözlərinin altında kisəciklər əmələ gəlmişdi. Əynində radiasiya əleyhinə, elastiki asma qayışları olan işıldayan önlük vardı; önlüyün altından ləkələrə batmış, həmişə geydiyi elə həmin şalvarı geymişdi. Gözləri eyni qaydada işıqlandırılan dairəvi salonu qaçaraq nəzərdən keçirtdi və kreslonun yanında dayanmış Harini görəndə dayandı. Biz cəld baxışdıq, mən gözlərimi endirdim, onda o, yüngülcə təzim elədi, mənsə dostluq mühitinə uyğun olaraq dedim:



– Bu, doktor Snautdur, Hari. Snaut... bu... mənim arvadımdır.

– Mən... ekipajın az hiss olunan üzvüyəm və buna görə də... – təhlükəli fasilə yarandı, – tanış olmağa fürsət tapmamışam...

Hari gülümsədi və əlini ona uzatdı; o, Harinin əlini sıxdı; mənə elə gəldi ki, o, bir qədər donub-qaldı, bir neçə dəfə gözlərini qırpdı və duruxdu, sonra Harinin çiynindən yapışıb:

– Bağışlayın, – ona müraciət eləyərək dedi. – Mən doktor Kelvinlə danışmaq istəyirdim.

– Anlaşılandır, – mən hansısa kübar sadəliklə cavab verdim. Bütün bunlar aşağı səviyyəli komediya kimi səslənirdi. Lakin başqa çıxış yolu yox idi. – Hari, əzizim, bizə əhəmiyyət vermə. Doktorla bizim darıxdırıcı işlərimizdən danışmalıyıq.

Mən Snautun dirsəyindən yapışdım və onu salonun qarşı tərəfindəki kreslolara tərəf apardım. Hari buna qədər oturduğu kresloya oturdu, amma onu elə qoydu ki, başını kitabdan qaldıranda bizi görə bilsin.

– Hə, nədir? – mən sakitcə soruşdum.

– Ayrıldım, – o, fit çalan pıçıltı ilə cavab verdi. Ola bilsin, əgər kimsə mənə haçansa bu əhvalatı və söhbətin

belə başlanacağını danışsaydı, mən gülümsəyərdim, amma Stansiyada mənim yumor hissimi amputasiya eləmişdilər.

– Dünənki gündən etibarən mən bir neçə il yaşadım, Kelvin, – o, əlavə elədi. – Bir neçə elə də pis olmayan ili. Bəs sən?

– Belə də... – bir qədər sonra cavab verdim, çünki nə danışacağımı bilmirdim. Mən onu sevirdim, amma indi ondan qorunmalı olduğumu hiss edirdim, daha doğrusu, onun mənim yanıma kim kimi gəldiyindən.

– Belə də...– Snaut elə həmin tonda təkrar elədi. – Hətta belə?

– Sən nədən danışırsan? – Mən özümü elə göstərdim ki, guya onun nə dediyini başa düşmürəm.

O, qan sağılan gözlərini qıydı və mənə tərəf elə əyildi ki, sifətimdə onun nəfəsinin istiliyini hiss elədim, pıçıldadı:

– Biz başımızı itiririk, Kelvin. Sartoriusla artıq əlaqə yarada bilmirəm, yalnız sənə yazdıqlarımı bilirəm. O, mənə bunları bizim balaca müzakirədən sonra dedi.

– O, viziofonu qoşmuşdu?

– Yox. Onda orada qısaqapanma olub. Deyəsən, o, bunu bilərəkdən eləyib, ya da... – Snaut sərt halda yumruğunu endirdi, sanki, nəyisə əzirdi.

Mən dinməzcə ona baxırdım.

– Kelvin, mən ona görə gəlmişəm ki... – sözünü qurtara bilmədi, – sən neyləmək istəyirsən?

– Sən o məktub haqqındamı deyirsən? – ağır-ağır cavab verdim. – Mən bunu eləyə bilərəm, etiraz eləmək üçün bir səbəb görmürəm, ona görə də buradayam, aydınlaşdırmaq istəyirdim...

– Yox, – o, sözümü kəsdi. – Bu haqda yox...

– Yox? – mən heyrətlənərək təkrar soruşdum. – Eşidirəm.

– Sartorius, – qısa sükutdan sonra o mızıldandı. – Ona elə gəlir, yolunu tapıb... bax belə.

O, gözlərini məndən çəkmirdi. Mən sakitcə oturmuşdum, sifətimə etinasız ifadə verməyə çalışırdım.

– Birincisi, rentgenlə bağlı həmin əhvalat. Qibaryanın onunla neylədiyini xatırlayırsanmı? Bəzi modifikasiyalar mümkündür...

– Hansı?

– Biz, sadəcə, okeana dəstə ilə şüa göndərirdik və yalnız onun gərginliyini müxtəlif üsullarla modullaşdırırdıq...

– Hə, mən bu haqda bilirəm. Nilin artıq buna oxşar təcrübələri sınaqdan çıxardıb. Saysız-hesabsız sayda digərlərini də.

– Doğrudur. Amma onlar yüngül şüalanmanı tətbiq eləyirdilər. Bizdə isə sərtdir, biz okeanı əlimizdə olan şüalanmanın bütün gücündən istifadə eləyərək şüalandırırdıq.

– Bunun xoşagəlməz nəticələri ola bilər, – mən qeyd elədim. – BMT-nin və dördlərin konvensiyasının pozulması kimi.

– Kelvin ... üstümə gəlmə. Axı indi bunun heç bir əhəmiyyəti yoxdur. Qibaryan artıq diri deyil.

– Aha, Sartorius hər şeyi onun üstünə yıxmaq istəyir?



– Bilmirəm. Bu haqda onunla danışmamışam. Bu, vacib deyil. Sartoriusun fikrincə, madam ki qonaq həmişə oyanma anında gəlir, onda o, istehsal reseptini biz yuxuda olarkən bizdən götürür. Bizim ən mühüm vəziyyətimizin məhz yuxu olduğunu güman eləyir. Buna görə də belə hərəkət eləyir. Sartorius ona bizim ayıqlığımızı vermək istəyir, bizim ayıq vaxtımızdakı fikirlərimizi; başa düşürsənmi?

– Hansı yolla? Poçtla?

– Zarafatı sonra eləyərik. Bu şüalanma dəstəsini biz elektriklə bizlərdən kiminsə beynində modullaşdırırıq.

Birdən başımda hər şey aydınlaşdı.

– Aha. Bu kimsə mənəm. Eləmi?

– Hə. O, sənin haqqında düşünür.

– Ürəkdən təşəkkür eləyirəm.

– Buna nə deyirsən?

Mən susdum. O heç nə demədən oxumağa dalmış Hariyə ağır-ağır baxdı və baxışlarını mənim üzümə döndərdi. Mən ağardığımı hiss elədim; bunun öhdəsindən gələ bilmirdim.

– Hə, nə deyirsən?.. – o soruşdu.

Mən çiyinlərimi çəkdim.

– İnsanın əzəməti haqqındakı bu moizələri oyunbazlıq hesab eləyirəm. Sən də eləcə. Bəlkə, yox?

– Hə?

– Hə.

– Bu çox yaxşıdır, – o gülümsəyərək dedi; sanki, mən onun arzusunu yerinə yetirmişdim. – Demək, sən bütün bu əhvalatın əleyhinəsən?

Mən bunun hələ necə baş verdiyini başa düşmürdüm, amma onun baxışlarından oxudum ki, o hara istəyirdisə, məni ora da salmışdı. Mən susdum. İndi nə danışmalıydım?

– Əla, – o səsləndi. – Çünki daha bir layihə var. Roşenin cihazlarını təmir eləmək.

– Annihilyator?

– Hə. Sartorius artıq ilkin hesablamaları aparıb. Bu, realdır. Hətta böyük güc də tələb olunmur. Cihaz antisahə yaradaraq qeyri-məhdud vaxtda fəaliyyət göstərəcək.

– Da...ayan! Sən bunu necə təsəvvür eləyirsən?

– Çox sadə. Bu, neytron antisahəsi olacaq. Adi materiya dəyişməz qalacaq. Yalnız neytron sistemlər... məhv ediləcək. Başa düşürsənmi?

O, məmnun halda gülümsədi. Mən ağzımı açaraq oturmuşdum. Tədricən o, gülməyinə son qoydu, sınayıcı baxışlarla mənə baxdı, alnını qırışdırdı və bir qədər gözləyib davam elədi:

– Beləliklə, ilk layihə: «Fikir»dən imtina eləyirik. Bəs ikincisi? Sartorius artıq bunun üzərində işləyir. Onu «Azadlıq» adlandıraq.

Mən bir anlığa gözlərimi yumdum. Cəld götür-qoy elədim. Snaut fizik deyildi, Sartorius viziofonu ya söndürmüş, ya da məhv eləmişdi.

– Mən onu daha dəqiq adlandırardım – «Qırğın»... – mən ağır-ağır dedim.

– Sən özün qəssab olubsan. Bəlkə, belə deyil? İndisə bu, tamam başqa cür olacaq. Heç bir qonaq, heç bir varlıq – heç bir. Artıq materiallaşmanın başlanğıcı parçalanmağa başlayır.

– Bu ağılsızlıqdır, – şübhə ilə başımı yırğalayaraq cavab verdim və gülümsədim. Mən kifayət qədər təbii göründüyümə əmindim. – Bu, mənəvi xırdaçılıq yox, özünüqoruma instinktidir. Snaut, mən ölmək istəmirəm.

– Necə?

O heyrətlənmişdi və mənə şübhə ilə baxırdı. Cibimdən üzərinə formullar yazılmış kağızı çıxartdım.

– Mən özüm də bu haqda düşünmüşəm. Bu, səni təəccübləndirir? Axı ilk olaraq neytron fərziyyəsini mən irəli sürmüşdüm. Doğru deyilmi? Bax. Antisahəni oyatmaq olar. Adi materiya üçün o təhlükəsizdir. Bu doğrudur. Amma destabilləşdirmə anında, neytron quruluş dağılanda, onun stabilliyinin enerji artığı azad olur. Bir kiloqram rahatlıq kütləsinə səkkiz erq[1] qəbul eləyəndə, F varlıqlarına beşyeddi dəfə təsir eləmiş oluruq. Bilirsənmi bu nə deməkdir? Bu, Stansiyanın daxilində partladılan uranın enerjisinə ekvivalentdir.

– Sən nə danışırsan? Amma... axı Sartorius bunu nəzərə almalıydı...

– Hökmən deyil, – mən acıqlı təbəssümlə cavab verdim. – İş burasındadır ki, Sartorius Frezer və Kayoli məktəbinin nümayəndəsidir. Onların fikrincə, parçalanma anında bütün enerji işıq şüalanması şəklində ayrılır. Bu, sadəcə, güclü işıq ola bilərdi, ehtimal ki, tamam təhlükəsiz, amma məhvedici də olmaya bilər. Lakin digər fərziyyələr də var, neytron sahəsinin başqa nəzəriyyələri də. Kaye, Avalov, Siona görə, şüalanma spektri olduqca genişdir, daha çox sərt qamma-şüalanma ayrılır. Sartoriusun öz müəllimlərinə və onların nəzəriyyələrinə inanması yaxşıdır, amma başqaları da var axı. Bilirsənmi mən sənə nə deyirəm? – sözlərimin ona təsir elədiyini görüb ara verdim. – Okeanı da nəzərə almaq lazımdır. Əgər o nə eləməliydisə artıq eləyibsə, yəqin, ən əlverişli üsuldan istifadə eləyib. Başqa sözlə, onun hərəkəti mənə digər məktəbin – Sartoriusun əleyhinə olanların xeyrinə olan arqument kimi gəlir.

– Kelvin, bu kağızı mənə göstər...

Mən vərəqi ona verdim. O, mənim cızma-qaramı oxumağa cəhd eləyərək başını əydi.

– Bu nədir? – barmağını kağıza döydü.

Mən ondan vərəqi aldım.

– Bu? Sahənin transmutasiya[2] vektoru.

– Hamısını ver mənə...

– Sənə niyə? – mən onun necə cavab verəcəyini bilirdim.



---

[1] Erq – iş və enerji vahidi

[2] Transmutasiya – dəyişmə, çevrilmə, bir obyektin digərinə çevrilməsi, fizikada radioaktiv parçalanma zamanı bir kimyəvi element atomunun digərinə çevrilməsi (*lat.*)

– Sartoriusa demək lazımdır.

– Necə istəyirsən, – etinasız halda cavab verdim. – Götürə bilərsən. Amma bilirsənmi, bunu heç kim eksperimentlərlə sınaqdan çıxartmayıb. O, Frezerə inanır, mənsə Sionu əsas götürmüşəm. O, mənim fizik olmadığımı deyəcək və Sionun da o cümlədən. Heç olmasa, onun düşüncəsində. Amma bu mövzu mübahisə üçündür. Məni nəticədə buxarlanacağım mübahisə təmin eləmir, Sartoriusun şöhrəti daha böyükdür. Səni inandıra bilərəm, onu isə yox. Heç inandırmağa çalışmaram da.

– Bəs sən neyləmək istəyirsən?.. O, bunun üzərində işləyir, – Snaut duyğusuz səslə dedi. O, belini bükmüşdü, bütün dirçəlməsi keçmişdi. Bilmirdim o, mənə inanırmı, amma mənim üçün artıq fərqi yox idi.

– O insanı ki öldürmək istəyirlər, o neyləyirsə, mən də onu, – sakitcə cavab verdim.

– Onunla əlaqə yaratmağa çalışaram. Bəlkə, o, hansısa ehtiyat tədbirləri haqqında düşünür, – Snaut donquldadı və baxışlarını qaldırıb mənə baxdı. – Qulaq as, əgər hər halda?.. O, birinci layihə. Hə? Sartorius razılaşar. Yəqin ki. Bu... hər ehtimala qarşı... hansısa şansdır.

– Sən buna inanırsan?

– Yox, – o cavab verdi. – Amma... bunun nə ziyanı var?

Mən olduqca tez razılaşmaq istəmirdim, axı mənə elə bu da lazım idi. Ləngimə oyununda o, mənim müttəfiqim olurdu.

– Düşünərəm, – dedim.

– Hə, mən getdim, – Snaut ayağa qalxaraq dedi. O, ayağa qalxanda onun bütün sümükləri xırçıldadı. – Heç olmasa, özünə ensefaloqram[1] edilməsinə razı olacaqsan? – barmaqlarını önlüyə silərək soruşdu; sanki, barmaqlarından görünməyən ləkələri silirdi.

– Yaxşı.

Hariyə əhəmiyyət vermədən (o, dizləri üstə kitab, oturaraq dinməzcə bu səhnəyə baxırdı) qapıya doğru getdi. Qapı onun arxasınca bağlanandan sonra ayağa qalxdım. Əlimdə saxladığım vərəqi hamarladım. Formullar həqiqi idi. Onları özümdən yazmamışdım. Bilmirəm, doğrudan,

---

[1] Ensefaloqram – oksigenlə doldurulan baş beyinin rentgenoqrafik üsulla tədqiq olunması

Sion mənin onları necə artırmağımla razılaşardımı? Bəlkə də, yox. Mən diksindim. Hari arxadan yaxınlaşdı və əlimə toxundu.

– Kris!

– Nədir, əzizim?

– O kim idi?

– Mən sənə dedim. Doktor Snaut.

– O, necə adamdır?

– Mən onu az tanıyıram. Nəyə görə soruşursan?

– O, mənə elə baxırdı...

– Yəqin, sən onun xoşuna gəlibsən...

– Yox, – başını yırğaladı. – Bu, elə baxış deyildi. Mənə elə baxırdı... sanki...

O diksindi, baxışlarını qaldırdı və dərhal da endirdi.



## MAYE OKSİGEN

Gözlərimi saatın işıldayan siferblatındakı əqrəblərə zilləyərək tutqun otaqda hərəkətsiz halda nə qədər uzandığımı bilmirəm. Öz şəxsi nəfəsalmamı eşidir və bu zaman etinasız qalaraq nəyəsə təəccüblənirdim. Yəqin, mən, sadəcə, dəhşətli dərəcədə yorulmuşdum. Böyrü üstə döndüm, çarpayı qəribə tərzdə geniş idi, mənə nəsə çatmırdı. Mən nəfəsimi tutdum və donub-qaldım. Tamamilə sakitlik oldu. Kiçik bir səs belə eşidilmirdi. Hari? Nəyə görə onun nəfəs alması eşidilmirdi? Əlimi yatağın üzərində gəzdirdim, mən tək idim.

«Hari» – onu çağırmaq istədim, amma addım səsləri eşitdim. Böyük və ağır birisi gəlirdi, necə...

– Qibaryan? – mən sakitcə dedim.

– Hə, bu mənəm. İşığı yandırma.

– Yandırmayım?

– Lazım deyil. Belə bizim hər ikimiz üçün yaxşı olacaq.

– Amma sən diri deyilsən?

– Bu, boş şeydir. Sən axı mənim səsimi tanıyırsan?

– Hə. Sən niyə belə elədin?

– Eləməliydim. Sən dörd gün gecikdin. Əgər əvvəl uçub gələ bilsəydin, bəlkə də, buna ehtiyac qalmayacaqdı. Amma özünü məzəmmətləmə. Mənə elə də pis deyil.

– Sən, doğrudan da, buradasan?

– Ah, sən düşünürsən ki, mən sənin yuxuna girmişəm, Hari haqqında da belə düşünürdün?

– O haradadır?

– Sən nəyə görə düşünürsən ki, mən onun harada olduğunu bilirəm?

– Təxmin elədim.

– Təxminini özün üçün saxla. Fərz eləyək ki, mən burada onun əvəzinəyəm.

– Amma mən onun da olmasını istəyirəm.

– Bu mümkün deyil.

– Niyə? Qulaq as, axı bilirsən ki, sən, həqiqətən də, sən deyilsən, bu yalnız mənəm.

– Yox. Bu, həqiqətən də, mənəm. Əgər sən vasvası olmaq istəyirsənsə, deyə bilərəm – bu, bir daha mənəm. Amma söz oyununa son qoyaq.

– Sən gedirsən?

– Hə.

– Onda o qayıdacaq?

– Sən bunu istəyirsən? O, sənin üçün kimdir?

– Bu, mənim işimdir.

– Axı sən ondan qorxursan...

– Yox.

– Sənin zəhləni də...

– Sən məndən nə istəyirsən?

– Sənin ona yox, özünə yazığın gəlməlidir. Onun həmişə iyirmi yaşı olacaq. Özünü o yerə qoyma ki, guya, bunu bilmirsən!

Birdən qətiyyən bəlli olmadı ki, mən niyə sakitləşdim. Onu tamamilə soyuqqanlılıqla dinləyirdim. Mənə elə gəlirdi ki, o, indi yaxında dayanıb, çarpayının ayaqlarının yanında, amma mən, əvvəl olduğu kimi, qaranlıqda heç nə görmürdüm.

– Sən nə istəyirsən? – sakitcə soruşdum.

Səsimin tonu, sanki, onu təəccübləndirdi. Bir dəqiqəliyə susdu.

– Sartorius Snautu inandıra bilib ki, sən onu aldadıbsan. İndi də onlar səni aldadacaqlar. Rentgen cihazını təmir eləmək adı altında onlar sahə annihilyatorunu yığırlar.

– Qız haradadır? – mən soruşdum.

– Məgər eşitmədinmi mən sənə nə dedim? Səni xəbərdar elədim!

– Qız haradadır?

– Bilmirəm. Yadında saxla: sənə silah lazım olacaq. Sən heç kimə ümid ola bilməzsən.

– Hariyə ümid ola bilərəm.

Zəif, cəld səs eşidildi. O güldü.

– Əlbəttə, ola bilərsən. Amma hansısa həddə qədər. Nəhayət ki, həmişə mənim elədiyim kimi eləyə bilərsən.

– Sən Qibaryan deyilsən.

– Hə? Bəs kiməm? Bəlkə, sənin yuxunam?

– Yox. Sən onların kuklasısan. Amma özün bu haqda bilmirsən.

– Sən haradan bilirsən ki, mən kiməm?



Bu, məni karıxdırdı. Ayağa qalxmaq istədim, amma bacarmadım. Qibaryan nəsə deyirdi. Mən sözləri başa düşmürdüm, yalnız onun səsini eşidirdim, ümidsiz halda zəifliyimlə mübarizə aparırdım, bir dəfə də böyük səylə dartındım... və yuxudan oyandım. Sudan çölə atılan balıq kimi ağzımı açıb hava udurdum. Tamam qaranlıq idi. Bu, yuxu idi. Dəhşət. İndi... «həll eləyə bilməyəcəyim dilemma. Biz özümüz özümüzü təqib eləyirik. Bunun üçün bizim fikirlərimizin seçim qabiliyyətinin gücləndirilməsi üsulundan istifadə edilmişdi. Bu hadisədə sübut axtarışı antropomorfizmdir[1]. Orada harada ki insan yoxdur orada həm də insanın əli çata biləcək sübut da yoxdur. Tədqiqat planını davam elətdirmək üçün ya öz şəxsi fikirlərini məhv eləməlisən, ya da onların maddi reallaşdırılmasını. Birincisi bizim gücümüz daxilində deyil. İkincisi isə öldürməyə çox oxşayır...»

Qaranlıqda dərhal tanıdığım bu uzaq, ölü səsi eşidirdim: Qibaryan danışırdı. Əllərimi qabağa uzatdım. Yataq boş idi.

«Növbəti yuxu üçün oyanmışam», – ağlıma bu fikir gəldi.

– Qibaryan?.. – mən səsləndim. Səsim dərhal da yarıda kəsildi. Nəsə yüngülcə xışıldayırdı və mən yüngülcə nəfəsalmanı eşitdim.

[1] Antropomorfizm – Allahı insan şəklində təsəvvür etmə

– Hə, sən Qibaryansan? – mən əsnəyərək mızıldandım. – Beləcə, bir yuxudan digərinə kimi təqib eləmək, bilirsən...

Yanımda nəsə xışıldadı.

– Qibaryan! – mən ucadan təkrar elədim.

Çarpayının yayları cırıldadı.

– Kris... bu mənəm... – yanımda pıçıltı eşidildi.

– Bu sənsən, Hari... bəs Qibaryan?

– Kris... Kris... axı o... özün dedin ki, o ölüb...

– Yuxuda yaşaya bilər, – səsimi uzadaraq dedim. Mən artıq bunun yuxu olduğuna əsla əmin deyildim. – O, nəsə deyirdi. Burada olub.

Mən dəhşətli dərəcədə yuxulu idim. «Bir halda ki mən yuxuluyam, demək, yatıram», – ağlıma belə bir axmaq fikir gəldi. Dodaqlarımı Harinin soyuq çiyinlərinə toxundurdum və rahatca uzandım. O, mənə nəsə deyirdi, amma mən artıq huşsuz vəziyyətdəydim.

Səhər qırmızı işıqla işıqlanan otaqda bu gecə baş verənləri xatırladım. Qibaryanla danışıq yuxuma girmişdi, amma sonra? Mən onun səsini eşidirdim, buna and içə bilərəm, yalnız onun nə dediyini yaxşıca xatırlamırdım.

Bu, söhbət kimi deyildi, daha çox məruzə idi. Məruzə!

Hari yuyunurdu. Hamamda suyun şırıltısını eşidirdim. Çarpayının altına baxdım, bir az bundan qabaq maqnitofon oradaydı. İndisə maqnitofon orada deyildi.

– Hari, – çağırdım.

Onun yaş sifəti şkafın arxasından göründü.

– Sən təsadüfən çarpayının altında maqnitofon görməyibsən? Balaca, cib maqnitofonu...

– Orada cürbəcür şeylər var idi. Mən hamısını ora qoydum, – şkafın yanındakı dərmanlar olan rəfi göstərib hamamda yox oldu.

Çarpayıdan ayağa sıçradım, amma axtarış nəticə vermədi.

– Sən onu görməliydin, – Hari otağa qayıdanda dedim.

O cavab vermədi və güzgünün qabağında dayanaraq saçlarını daramağa başladı. Yalnız indi onun sifətinin ağardığını, gözlərimlə güzgüdə qarşılaşan gözlərində hansısa ehtiyatlılığı hiss elədim.

– Hari, – mən eşşəkliyimə salıb bir daha sözə başladım, – maqnitofon rəfdə yoxdur.

– Mənə bundan daha vacib nəsə demək istəmirsən?

– Bağışla, – mızıldandım, – sən haqlısan, bu axmaqlıqdır.

Bircə elə bizim mübahisə eləməyimiz çatmırdı...

Sonra səhər yeməyini yeməyə getdik. Hari bu gün hər şeyi, adətən, elədiyindən başqa cür eləyirdi, amma mən fərqi müəyyən eləyə bilmirdim. O, elə hey göz gəzdirirdi, sanki, xəyala dalıbmış kimi bir neçə dəfə mənim nə dediyimi eşitmədi. Bir dəfə o, başını qaldıranda onun gözlərinin işıldadığını hiss elədim.

– Sənə nə olub? – səsimi pıçıltıya qədər endirdim. – Sən ağlayırsan?

– Of, məni rahat burax. Bunlar əsl göz yaşı deyil, – o, dili dolaşa-dolaşa dedi.



Ola bilsin, bununla qane olmalıydım, amma mən «açıq söhbətlər»dən qorxduğum qədər heç nədən qorxmurdum. Bununla belə, ağlımda başqa şey var idi. Snautun və Sartoriusun fitnə-fəsadları indicə yuxuma girsə də, mən düşünməyə başladım, ümumiyyətlə, Stansiyada hansısa uyğun olan bir silah varmı? Onunla neyləyəcəyim haqqında düşünmürdüm, sadəcə, silahım olmasını istəyirdim. Hariyə anbara baxmalı olduğumu dedim. O, dinməzcə arxamca gəldi. Qutuları eşir, yeşikləri axtarırdım, lap aşağıya enəndə soyuducuya baxmaq arzumun qabağında tab gətirə bilmədim. Lakin Harinin ora girməsini istəmirdim, buna görə də qapını yalnız azacıq araladım və bütün otağı nəzərdən keçirtdim. Qara kəfən qalxaraq uzunsov əşyanı örtmüşdü, amma mənim durduğum yerdən zəncinin hələdəmi orada uzandığını görmək olmurdu. Mənə elə gəldi ki, onun uzandığı həmin o yer indi boşdur.

Özümə uyğun gələn bir şey tapa bilmədim, çox pis əhvaldaydım, birdən Harinin yanımda olmadığını hiss elədim. Bununla belə, o, dərhal gəldi, dəhlizdə qalıbmış, amma onun məndən hətta bircə saniyəliyə belə aralanmaq cəhdi diqqətimi cəlb elədi. Amma özümü hələ də, sanki, kiməsə hirslənmiş kimi, ya da sadəcə, gic kimi aparırdım. Başım ağrıyırdı, heç bir başağrısı dərmanı tapa bilmirdim, aptekin içində nə varsa, hamısını alt-üst elədim. Təzədən

əməliyyat otağına getmək istəmirdim. Təsadüfi hallarda özümü bu gün olduğu kimi mənasızcasına aparırdım. Hari kabinədə kölgə kimi vurnuxur, bəzən bir saniyəliyə yox olurdu. Günortadan sonra, biz nahar eləyəndə (doğrusu, o, ümumiyyətlə, heç nə yemirdi, mənsə iştahasız halda çeynəyirdim, çünki ağrıdan başım çatlayırdı, hətta yemək üçün onu dilə də tutmurdum) Hari birdən mənim yanımda əyləşdi və qolumdan yapışıb dartdı.

– Hə, nə olub? – qeyri-iradi olaraq mızıldandım.

Mənə elə gəldi ki, borulardan zəif taqqıltı səsi eşidilir. Düşündüm ki, yəqin, Sartorius yüksəkgərginlikli cihazı qurdalayır və yuxarı getmək istədim. Amma bu zaman ağlıma gəldi ki, Hari ilə getməli olacağam. Əgər kitabxanada onun olmasını necəsə izah eləmək olardısa, maşınların arasında o, ilk olaraq Snautun diqqətini cəlb eləyəcəkdi.

– Kris, – Hari pıçıldadı, – birlikdə olmağımız necədir?

İxtiyarsız ah çəkdim. Bunun mənim üçün xoşbəxt gün olduğunu deyə bilməzdim.

– Son dərəcə yaxşı. Sən yenə də nəsə demək istəyirsən?

– Mən səninlə danışmaq istəyirəm.

– Eşidirəm.

– Amma belə yox.

– Bəs necə? Di, mənim başım ağrıyır, bir yığın iş...

– Kris, bir qədər istək...

Mən özümü gülümsəməyə məcbur elədim. Yəqin, bu, biçarə təbəssüm idi.

– Hə, əzizim. Danış.

– Bəs sən mənə həqiqəti deyərsənmi?

Mən qaşlarımı qaldırdım. Belə başlanğıc xoşuma gəlmirdi.

– Nədən ötrü də aldatmalıyam?

– Bəlkə, sənin bunun üçün səbəbin var. Ciddi. Amma əgər istəyirsənsə... di, bilirsən... sən məni aldatma.

Mən susdum.

– Mən sənə nəsə deyərəm və sən də mənə deyərsən. Yaxşı? Bu, həqiqət olacaq. Heç nəyə baxmayaraq.

Onun gözlərinə baxmırdım, halbuki o, mənim baxışlarımı axtarırdı. Özümü elə aparırdım, guya, bunu hiss eləmirəm.

– Mən sənə artıq demişəm ki, bura haradan gəldiyimi bilmirəm. Amma bəlkə, sən bilirsən? Gözlə, mən hələ qurtarmamışam. Bəlkə, sən də bilmirsən. Amma əgər bilir, lakin indi bunu mənə deyə bilmirsənsə, onda, bəlkə, sonra, nə vaxtsa deyə biləsən? Bu ən pisi deyil. Hər ehtimala qarşı mənə şans verirsən.

Sanki, üzərimə soyuq hava axını axırdı.

– Sən nə danışırsan?.. Hansı şansı?.. – dilim dolaşırdı.

– Kris, mən kim olmuş olsam belə, hər halda, uşaq deyiləm. Sən söz verdin. De.

Bu «kim olmuş olsam belə» boğazımdan elə yapışdı, yalnız, sanki, onun sözlərindən qorunurmuşam kimi başımı axmaqcasına silkələyərək ona baxırdım.

– Mən axı dedim ki, mənə deyə bilmirsən. Deyə bilməyəcəyini desən, kifayət eləyəcək.



– Mən heç nəyi gizlətmirəm, – xırıltılı səslə cavab verdim.

– Bu yaxşıdır, – o ayağa qalxdı.

Mən nəsə demək istəyirdim. Onu belə buraxa bilməyəcəyimi başa düşürdüm, amma bütün sözlər boğazımda tıxanıb qalmışdı.

– Hari...

O, üzünü çevirərək pəncərənin yanında dayanmışdı. Tutqun-göy okean mavi səmanın altına sərilmişdi.

– Hari, əgər sən düşünürsən ki... Hari, axı sən bilirsən ki, mən səni sevirəm.

– Məni?

Mən ona yaxınlaşdım. Onu qucaqlamaq istədim. O, əlimi itələyərək qollarımın arasından çıxdı.

– Sən elə mehribansan... Məni sevirsən? Məni döyməyinə daha çox üstünlük verərdim!

– Hari, əzizim!

– Yox, yox. Yaxşısı budur, susasan!

O, stola yaxınlaşdı və boşqabları yığışdırmağa başladı. Mən göy boşluğa baxırdım. Günəş batırdı və Stansiyanın nəhəng kölgəsi dalğalarda sakitcə yırğalanırdı. Boşqab Harinin əlindən sürüşüb döşəməyə düşdü. Yuyucu cihazda su quruldayırdı. Üfüqlərdə sarı rəng çirkli-qırmızı qızılı rəngə çevrilirdi. Əgər mən neyləyəcəyimi bilsəydim...

Əgər bilsəydim... Birdən sakitlik oldu. Hari mənimlə yanaşı dayandı – arxada.

– Yox. Dönmə, – pıçıltı ilə dedi. – Kris, sən heç nədə günahkar deyilsən. Mən bilirəm. Özünü incitmə.

Mən əlimi ona uzatdım. O, kabinənin içərisinə qaçdı və bir yığın boşqabı yuxarı qaldıraraq dedi:

– Heyif. Əgər onlar sınsaydı, sındırardım, hamısını sındırardım.

Hansısa bir anlığa mən düşündüm ki, doğrudan da, boşqabları döşəməyə atacaq, amma o, mənə diqqətlə baxıb gülümsədi:

– Qorxma, sənin üçün tamaşa verməyəcəyəm.

Gecəyarısı yuxudan oyandım və dərhal da gərgin halda çarpayının üstündə oturdum. Otaq qaranlıq idi, yalnız dəhlizdən, azacıq açılmış qapının arasından içəri nazik işıq zolağı düşürdü. Nəsə acı-acı fışıldayırdı, səs boğuq küt zərbələrlə birlikdə güclənirdi, sanki, nəsə böyük bir şey divara çırpılırdı.

«Meteor, – ani olaraq düşündüm. – Zirehi deşib. Orada kimsə var!»

Sürəkli xorultu.

Bundan dərhal da özümə gəldim. Mən Stansiyadayam, daha raketdə yox, bəs bu qorxunc səs...

Dəhlizə sıçradım. Balaca laboratoriyanın qapısı taybatay açıq idi, orada işıq yanırdı. İçəri qaçdım. Məni buzlu soyuq ağuşuna aldı. Kabinənin içindəki qar qalağını nəfəsalmaya çevirən buxar doldurmuşdu. Ağ-qar buludları hamam xalatına bürünmüş güclə tərpənən bədənin üzərində fırlanırdı. Bu, Hari idi. Mən bu buzlu buludun içində olan qıza çətinliklə baxırdım, onun üzərinə atılıb onu qucaqladım, xalat əllərimi yandırır, o xırıldayırdı. Qızı götürüb dəhlizə qaçdım, qapıların yanından keçib-getdim. Artıq soyuğu hiss eləmirdim, yalnız onun buxar içində olan ağzından çıxan nəfəsi alov kimi çiyinlərimi yandırırdı.

Onu stolun üzərinə uzatdım, sinəsinin üstündən xalatı cırdım, bir anlığa əyilmiş, titrəyən sifətinə baxdım, qan açıq ağzının ətrafında donmuş, dodaqlarının üstünü qara

örtüklə örtmüşdü, dilinin üzərində buz kristalları işıldayırdı.

Maye oksigen!.. Laboratoriyada Dyuar borularında maye oksigen vardı. Onu qaldırarkən mən dolu şüşəni sıxdığımı hiss eləyirdim. O nə qədər içə bilərdi? Dəxli yoxdur. Nəfəs yolları, boğazı, ciyərləri yanmışdı, maye oksigen zənginləşdirilmiş turşudan daha pis təsir eləyir. Onun cırılan kağızın səsini xatırladan qıcırdayan, quru səsi kəsildi. Can verirdi.

İçərisində alətlər və dərmanlar olan böyük, şüşəli şkaflara baxırdım. Traxeotomiya? İntubasiya? Amma onun artıq ciyərləri yox idi! Yanmışdı! Dərman? Nə qədər dərman? Rəflərə cərgə ilə rəngli şüşələr və qutular yığılmışdı. Xırıltı bütün otağı bürümüşdü, onun açıq ağzından hələ də duman qalxırdı. Termofor...



Axtarmağa başladım, tapmamışdan əvvəl digər şkafın qapısını dartdım, içərisində ampulalar olan qutular döşəməyə səpələndi... İndi şpris... O haradaydı?.. Sterilizatorda... Keyləşmiş əlimlə onun qapağını aça bilmirdim, barmaqlarım sərtləşmişdi, əyilmək istəmirdilər. Dəlicəsinə sterilizatorun qapağını döyəcləməyə başladım, amma hətta bunu hiss eləmirdim. Yeganə hiss elədiyim yüngülcə sancı idi.

Hari daha güclü xırıldamağa başladı. Onun yanına sıçradım; gözləri açıq idi.

– Hari.

Bu hətta pıçıltı da deyildi. Mənim, sadəcə, səsim yox idi. Onun üzü özgə idi, sanki, gipsdən düzəldilmişdi, qabırğaları titrəyirdi, əriyən qardan islanmış saçları balışın üzərinə səpələnmişdi.

– Hari!

Mən bundan artıq heç nə deyə bilmədim. Bu özgə, ağaclaşmış əllərimlə dirək kimi dayanmışdım. Ayağımın altı, dodaqlarım daha bərk yanmağa başlamışdı, amma mən bunu hiss eləmirdim. İstidən əriyən qan onun boğazıyla axır, əyri cizgilər çəkirdi. Dili titrəyir və yox olurdu, o, hələ də xırıldayırdı.

Mən ondan yapışdım, nəbzi döyünmürdü, xalatını döşəməyə atdım və qulağımı adamı qorxudan dərəcədə soyuq olan bədəninə söykədim. Sanki, yanğındaymış kimi

səs-küyün arasından tez-tez zərbələr eşidilirdi, onları saya bilməyəcək qədər tez-tez. Aşağı əyilərək dayanmışdım, gözlərimi yummuşdum, bu zaman başıma nəsə toxundu. Onun barmaqları saçlarımda gəzirdi. Qızın gözlərinə baxdım.

– Kris, – o xırıldadı.

Onun əlindən yapışdım, o, əlimi sıxmaqla cavab verdi, az qala, barmaqlarımı qıracaqdı; onun dəhşətli dərəcədə əyilən sifətindən şüurluluq ifadəsi silinirdi, qaşlarının arasında qar dənəcikləri işıldayırdı, boğazı xırıldayırdı, ürəkbulanması bütün bədənini titrədirdi. O, stoldan sallana qalmışdı, başını çini qıfın kənarına vururdu. Mən onu saxlayır və stola sıxırdım, hər növbəti tutmasında o sürüşüb düşürdü, məni bircə anda tər basdı və ayaqlarım, sanki, pambıq kimi oldu. Ürəkbulanması sakitləşəndə onu yatağa uzatmağa çalışdım. O, inildəyərək havanı ciyərlərinə çəkirdi. Birdən bu dəhşətli dərəcədə qana boyanmış sifətdə Harinin gözləri işıldadı.

– Kris, – o xırıldadı, – çoxmu... çoxmu çəkəcək, Kris?

O, boğulmağa başladı, dodaqlarında köpük göründü, yenidən onu öyümə tutdu. Mən axırıncı qüvvəmi toplayıb onu saxlayırdım. Sonra o, üzü üstə elə düşdü ki, dişləri şaqqıldadı və tez-tez nəfəs almağa başladı.

– Yox, yox, yox, – o, hər dəfə nəfəs aldıqca çətinliklə deyirdi və adama elə gəlirdi ki, onun hər aldığı nəfəs axırıncı nəfəsidir. Amma ürəkbulanması bir də qayıtdı və o, yenidən mənim qucağımda çırpınmağa başladı; qısa fasilələrlə havanı udmağa cəhd eləyirdi, bunun nəticəsində də bütün qabırğaları yığılırdı. Nəhayət, onun görməyən gözlərində kirpikləri yarıya qədər qapandı. O soyudu. Mən bununla da hər şeyin bitdiyini düşündüm. Hətta köpüyü onun dodaqlarından silməyə belə cəhd eləmədim, onun üzərinə əyilərək dayanmışdım, haradasa böyük zəngin çalındığını eşidir və onun axırıncı nəfəsini gözləyirdim ki, ondan sonra döşəməyə yıxılım; amma o, hələ də, demək olar xırıldamadan, getdikcə daha sakit nəfəs alırdı, döşlərinin təpəciyi isə artıq titrəməyə son qoymuşdu. Birdən işləyən ürək cəld ritmlərlə hərəkətə gəldi. Mən bükülmüş halda dayanmışdım. Onun sifəti qızarmağa başladı.

Sanki, vurulub gicəllənmiş adam kimi heç nə başa düşmürdüm. Yalnız hər iki ovcum tərləmişdi və mənə elə gəlirdi ki, kar oluram, nəsə yumşaq, elastiki şey qulağımı doldururdu, hələ də o cingildəyən zəng səsini eşidirdim, indi səs boğuq çıxırdı, sanki zəng çatlamışdı.

O, qaşlarını qaldırdı və gözlərimiz rastlaşdı.

Mən «Hari» demək istədim, amma sanki, mənim ağzım yox idi, sifətim ölü, ağır maska idi və mən yalnız baxa bilirdim.

Onun gözləri otağı qaçaraq seyr elədi, başı tərpəndi. Tamam sakitlik idi. Arxamda hansısa başqa, uzaq bir dünyada yaxşı bağlanmamış krandan aramsız olaraq su damcılayırdı. O, dirsəkləri üstə qalxdı. Oturdu. Mən daldalı çəkildim. O, məni izləyirdi.

– Nədir, – soruşdu, – nə?... Alınmadı? Niyə?... Niyə elə baxırsan?..



Gözlənilmədən dəhşətli səslə qışqırdı:

– Niyə elə baxırsan!!!

Yenidən sakitlik oldu. O, öz əllərinə baxırdı. Barmaqlarını tərpədirdi.

– Bu... mənəm?

– Hari, – yalnız dodaqlarımı tərpədərək səssizcə dedim.

– Hari?.. – o təkrar elədi, başını qaldırıb, yavaşca döşəməyə sürüşdü və ayağa qalxdı.

Səndirlədi, sonra dikəldi, bir neçə addım atdı. O, bütün bunları hansısa trans halında eləyirdi; mənə baxır, sanki, məni görmürdü.

– Hari? – o, bir də ağır-ağır təkrar elədi. – Amma... mən... Hari deyiləm. Bəs kiməm mən? Hari? Bəs sən, sən?

Birdən onun gözləri genişləndi, işıldadı, təbəssüm kölgəsi və fərəhli heyrət sifətini işıqlandırdı.

– Bəlkə, elə sən də? Kris! Bəlkə, sən də?!

Mən arxamı şkafa söykəyərək susdum, məni ora qorxu sıxmışdı.

Onun əlləri yanına düşdü.

– Yox. Yox, sən qorxursan. Qulaq as, mən daha bacarmıram. Belə olmaz. Mən heç nə bilmirdim. Mən indicə... mən daha heç nə başa düşmürəm. Axı bu mümkün deyil!.. Mən, – o zəifləmiş əllərini sinəsinə sıxdı, – heç nə bilmirəm,

bircə... Haridən başqa! Bəlkə, sən mənim yalandan belə dediyimi düşünürsən? Mən yalan danışmıram, müqəddəs sözümdür, yalan danışmıram.

Axırıncı sözləri inilti kimi çıxdı. O, döşəməyə yıxıldı və hıçqırmağa başladı. Onun qışqırığı, sanki, mənim içimdə nəyisə qırdı, bir sıçrayışla onun yanında oldum, çiyinlərindən yapışdım. O, müdafiə olunur, məni itələyir, göz yaşları axıtmadan hıçqırır, qışqırırdı:

– Burax! Burax! Sən məni istəmirsən! Bilirəm! Belə istəmirəm! Bacarmıram! Sən özün görürsən, özün görürsən ki, bu, mən deyiləm, mən deyiləm, mən deyiləm...

– Sus! – mən onu silkələyərək qışqırdım.

Biz hər ikimiz bir-birimizin qabağında dizi üstə dayanaraq bunu dərk eləmədən qışqırırdıq. Harinin başı yırğalanaraq mənim çiyinlərimə dəyirdi, onu var gücümlə özümə sıxırdım. Ağır-ağır nəfəs alaraq yerimizdəcə donmuşduq. Su aramla krandan damcılayırdı.

– Kris... – o, üzünü sinəmə söykəyərək çətinliklə danışmağa başladı. – De görüm, mən neyləyim ki, olmayım, Kris...

– Qurtar! – mən bağırdım.

O, başını yuxarı qaldırıb mənə baxdı.

– Necə?.. Sən də bilirsən? Heç nə düşünüb tapmaq mümkün deyilmi? Heç nə?

– Hari... – mən büzüşdüm.

– Mən istədim... mən bilirdim. Yox. Yox. Burax. Sənin mənə toxunmağını istəmirəm. Sən istəmirsən.

– Özünü öldürmək istəyirdin?

– Hə.

– Mənsə istəmirəm, başa düşürsən? Bunu istəmirəm. Sənin burada, mənimlə olmağını istəyirəm və mənə başqa heç nə lazım deyil!

Böyük, boz gözlər məni heyrətlə süzürdü.

– Sən necə də yalan danışırsan... – o, tamam sakit dedi.

Mən onu buraxdım və ayağa qalxdım. O, döşəmənin üzərində oturdu.

– Mənə de görüm, mən neyləyim ki, sən mənim nə dediyimə, nə düşündüyümə inanasan? Bunun həqiqət olduğuna. Başqası yoxdur.

– Sən həqiqəti deyə bilmirsən. Mən Hari deyiləm.

– Bəs onda kimsən?

O, xeyli susdu. Onun buxağı titrəyirdi və başını aşağı salaraq pıçıldadı:

– Hari... amma... amma mən bunun doğru olmadığını bilirəm. Sən məni yox... orada sevirdin, əvvəllər...

– Bəli. O ki vardı, yoxdur. Ölüb. Amma burada səni sevirəm. Başa düşürsən?

O, başını yırğaladı.

– Sən mehribansan. Lütfən, elə düşünmə ki, mən sənin elədiklərini qiymətləndirməyi bacarmıram. Sən bacardığın qədər yaxşılıq elədin. Amma burada heç nə ilə kömək eləyə bilməzsən. Üç gün bundan əvvəl mən sənin yatağının üzərində oturmuşdum və gözləyirdim, onda mən heç nə bilmirdim. Məndə belə hiss var ki, sanki, bu çoxdan olub, lap çoxdan. Özümü elə aparırdım, sanki, ağlım başımda deyildi. Başımda nəsə bir duman vardı. Başa düşmürdüm ki, əvvəl nə olub, bundan sonra nə olacaq, narkozdan və uzun xəstəlikdən sonra olduğu kimi. Hətta düşünürdüm ki, bəlkə, xəstələnmişəm, ancaq sən bunu demək istəmirsən. Amma sonra getdikcə bəzi əhəmiyyətsiz şeylər məni düşünməyə məcbur elədi. Sənin kitabxanada onunla, bu Snautla söhbətin zamanı hansısa işıq ucu yarandı. Amma sən mənə heç nə demək istəmirdin, onda mən gecə ayağa qalxdım və maqnitofonu qoşdum. Sənə yalnız vur-tut bir dəfə yalan demişəm, sonra onu gizlətdim, Kris. O danışan kimdir, onun adı nədir?

– Qibaryan.

– Hə, Qibaryan. Onda mən hər şeyi başa düşdüm, baxmayaraq ki, düzünü deyim, daha heç nə başa düşmürəm. Bir şeyi bilmirdim, mən bacarmıram... mən yox... bu, belə də olacaq... sona qədər. Bu haqda o, heç nə demədi. Amma bəlkə də, dedi; lakin sən oyandın və mən maqnitofonu söndürdüm. Amma mənim insan yox, yalnız alət olduğumu başa düşmək üçün kifayət qədər eşitdim.

– Sən nə danışırsan?

– Hə. Sənin reaksiyalarını öyrənmək üçün və ya bu kimi bir şey. Sizin hər birinizin var... beləsi, mənim kimisi. Bu, xatirələrə və ya fantaziyalara əsaslanır... sarsıntılara. Buna oxşar nəsə. Bundan əlavə, sən bütün bunları mən-

dən yaxşı bilirsən. O, dəhşətli, həqiqətəuyğun olmayan şeyləri danışırdı və əgər hər şey belə uyğun gəlməsəydi, mən əsla inanmazdım.

– Nə uyğun gəlməsəydi?

– Hə, mənə yuxu lazım deyil və mən həmişə sənin yanında olmalıyam. Dünən səhər mən bir də düşündüm ki, sən mənə nifrət eləyirsən və buna görə mən özümü bədbəxt hiss eləyirdim. Mən necə də səfeh imişəm. Amma de, özün de, məgər mən bunu təsəvvür eləyə bilərdimmi? Axı o, ona, özününkünə əsla nifrət eləmirdi, amma onun haqqında necə danışırdı! Yalnız onda mən başa düşdüm! Yalnız onda mən başa düşdüm ki, neyləmiş olsam belə, heç fərqi olmayacaq, çünki mən istəyirəm, ya yox, sənin üçün, onsuz da, bu, əzab olacaq. Hətta daha pis, çünki daş kimi ölü və cansız əzab silahı açıla və öldürə bilər. Alətin yaxşılıq eləmək istəməsini və sevməsini isə mən özüm üçün təsəvvür eləyə bilmirdim. Mən bu lentə qulaq asanda, heç olmasa, onda mənimlə baş verənləri sənə danışmaq istəyirdim. Bəlkə, bunun sənə bir xeyri dəydi. Mən hətta yazmağı da sınadım...

– Buna görə işığı yandırdın? – qovuşan boğazımdan səsləri çətinliklə çıxardaraq soruşdum.

– Hə. Amma bundan bir şey alınmadı. Çünki mən özümdə axtarırdım... nəsə başqasını. Bir müddət mənə elə gəldi ki, dərimin altında bədənim yoxdur, məndə nəsə başqa bir şey var, mən yalnız... yalnız xaricdən... Səni aldatmaq üçün. Başa düşürsənmi?

– Başa düşürəm!

– Əgər gecə saatlarla belə uzanarsansa, onda fikirləşib uzaqlara gedə bilərsən, olduqca qəribə istiqamətlərə, bilirsən...

– Bilirəm.

– Amma mən ürəyimi hiss eləyirəm və hələ sənin məndən qan götürdüyünü də xatırlayıram. Mənim qanım necədir, de mənə, düzünü de. Axı indi olar.

– Mənim qanım necədirsə, elə.

– Doğrudanmı?

– And içirəm!

– Bu nə deməkdir? Bilirsən, mən düşünürdüm, bəlkə də, o, məndə haradasa gizlənib, o... axı o, çox kiçik

ola bilər. Amma harada gizləndiyini bilmirdim. İndisə mən bunun, sadəcə, mənim tərəfimdən yanılma olduğunu düşünürəm, mən eləmək istədiyimdən çox qorxurdum və başqa bir çıxış axtarırdım. Amma Kris, əgər mənim də qanım... əgər hər şey belədirsə, sənin dediyin kimi... Yox, bu mümkün deyil. Axı mən ölməliydim, doğrudur! Demək, hər halda, nəsə var, amma harada? Bəlkə, başda? Amma axı mən tamamilə adi qaydada düşünürəm... və heç nə bilmirəm... Əgər mən başqa cür düşünsəydim, onda dərhal hər şeyi bilməliydim və sevməməliydim, yalnız yalandan özümü belə göstərməliydim və yalandan özümü belə göstərdiyimi bilməliydim... Kris, səndən xahiş edirəm, nə bilirsənsə, mənə danış, bəlkə, nəsə eləməyə nail olduq.

– Nəyə nail olduq?

O susurdu.



– Ölmək istəyirsən?

– Deyəsən, hə.

Yenidən sakitlik oldu. Mən boş salona, emallı əşyaların ağ örtüklərinə, səpələnmiş, işıldayan alətlərə baxaraq büzüşmüş halda onun qarşısında dayanmışdım, sanki, baxışlarımla nəsə çox vacib olan bir şeyi axtarır, ancaq tapa bilmirdim.

– Hari, mən sənə nəsə deyə bilərəmmi?

O gözləyirdi.

– Sənin eynən mənim kimi birisi olmadığın doğrudur. Amma bu, o demək deyil ki sən pissən. Əksinə. Bununla belə, bu haqda necə istəsən, düşünə bilərsən, amma bunun hesabına... sən ölmədin.

Onun sifətində hansısa bir yazıq uşaq təbəssümü canlandı.

– Bu, o deməkdirmi ki... mən ölümsüzəm?

– Bilmirəm. Hər ehtimala qarşı daha az ölümsüzsən, nəinki mən.

– Bu dəhşətdir, – o pıçıldadı.

– Bəlkə də, sənin təsəvvür elədiyin kimi deyil.

– Amma sən mənə həsəd aparmırsan...

– Hari, amma bu, sənin məsələndir... təyinatındır, mən bunu belə adlandırardım. Başa düşürsənmi, burada, Stansiyada sənin həqiqətdə təyinatın qaranlıqdır, eynən

mənim və bizlərdən hər birinin olduğu kimi. O, Qibaryanın eksperimentlərini davam etdirəcək və hər şey ola bilər...

– Ya da heç nə.

– Ya da heç nə. Sənə deyirəm, mən heç nə baş verməməsini istərdim, hətta qorxduğuma görə yox (hərçənd o da hansısa rol oynayır), ona görə ki, bu heç nə verməyəcək. Lakin mən buna əsla əmin deyiləm.

– Heç nə verməyəcək. Nəyə görə? Söhbət o... okeandan gedir?

O diksindi.

– Bəli. Əlaqədən. Onlar bunun çox sadə olduğunu düşünürlər. Əlaqə – məlumatlar, anlayışlar, nəticələr mübadiləsidir... Amma əgər mübadilə eləməyə heç nə yoxsa? Əgər fil çox iri bakteriya deyilsə, onda okean olduqca böyük beyin ola bilməz. Əlbəttə, hər iki tərəfdən hansısa hərəkət olur. Mən sənə onların birinin hərəkətinin nəticəsi kimi baxıram və sənə izah eləməyə çalışıram ki, sən mənə Solyarisə həsr elədiyim o on iki ildən əzizsən və mən səninlə olmaq istəyirəm. Bəlkə də, sənin gəlişin əzab ola bilər, bəlkə də, xidmət, bəlkə, mikroskopik tədqiqat. Dostluğu izhareləmə, məkrli zərbə, ələsalma? Bəlkə də, mənə həqiqətəuyğun kimi gələn bütün bunlar nə isə başqa cürdür. Amma ən nəhayət ki, məgər valideynlərimizin niyyətləri bizi məşğul eləməlidirmi, onlar bir-birindən nə qədər fərqlənməmiş olsalar belə? Sən deyə bilərsən ki, bizim gələcəyimiz bu niyyətdən asılıdır və mən bununla razılaşaram. Nə olacağımı qabaqcadan görə bilmərəm. Sən də o cümlədən. Hətta sənə səni həmişə sevəcəyimi belə vəd eləyə bilmərəm. Baş verənlərdən sonra mən heç nəyə təəccüblənmirəm. Bəlkə, sən sabah yaşıl meduza olacaqsan? Bu, bizdən asılı deyil. Amma bizdən nə qədər asılı olacaqsa, biz birlikdə olacağıq. Məgər bu azdır?

– Qulaq as, – o dedi, – daha nəsə var. Mən... ona... çox oxşayıram?

– Oxşayırdın... amma indi... mən artıq bunu dəqiq bilmirəm.

– Necə yəni?

O, böyük gözləriylə mənə baxırdı.

– Sən artıq onun qabağını kəsdin.

– Sən, onun mənim qabağımı yox, mənim onun qabağını kəsdiyimə əminsənmi?.. Mənim?..

– Hə. Sənin. Bilmirəm. Qorxuram əgər sən, doğrudan da, o olubsansa, mən səni sevə bilməzdim.

– Niyə?

– Çünki o, qorxunc iş tutub.

– O?

– Bəli. O nə vaxt...

– Danışma.

– Niyə?

– Ona görə ki, istəyirəm sən biləsən: mən o deyiləm.

## DANIŞIQ



Növbəti gün nahardan qayıdanda pəncərənin qabağındakı stolun üstündə Snautun məktubunu gördüm. O xəbər verirdi ki, Sartorius annihilyator üzərində işini dayandırıb və axırıncı dəfə okeana sərt şüalanma ilə təsir eləmək istəyir.

– Əzizim, – Hariyə dedim, – mən Snautun yanına getməliyəm.

Okeanda qırmızı gündoğan alışıb-yanırdı və otağı iki hissəyə bölmüşdü. Biz kölgədə dayanmışdıq. Kölgədən kənarda hər şey misdən hazırlanıbmış kimi görünürdü, düşünmək olardı ki, əgər hər bir kitab rəfdən yerə düşərsə, cingildəyəcək.

– Söhbət həmin o eksperimentdən gedir. Yalnız bunu necə eləyəcəyimi bilmirəm. Mən istəyərdim, başa düşürsənmi...

– İzah eləmə, Kris. Mən elə istəyirəm... Əgər bu uzun sürməsəydi...

– Hə, bir qədər söhbət eləmək lazım gəlir. Qulaq as, əgər sən mənimlə getsəydin və dəhlizdə gözləsəydin?

– Yaxşı. Əgər dözə bilməsəm?

– Bu necə olur? – mən soruşdum və cəld əlavə elədim: – Mən maraqlandığımdan soruşmuram, başa düşürsən? Amma bəlkə, bunu aydınlaşdırandan sonra onun öhdəsindən gələ bildin.

– Bu qorxudur, – o, bir qədər ağarıb cavab verdi. – Mən hətta qorxduğumu deyə bilmərəm, ona görə ki, şəxsən qorxmuram, yalnız... necəsə yoxa çıxaram. Son anda izah eləyə bilməyəcəyim bir xəcalət hissi keçirirəm. Sonra isə heç nə. Buna görə də mən bunun xəstəlik olduğunu düşündüm... – o, sözünü sakitcə bitirdi və titrədi.

– Belə yalnız burada, bu lənətə gəlmiş Stansiyada ola bilər, – mən qeyd elədim. – Mənə qalanda isə, oranı nə qədər mümkünsə, tez tərk eləyərəm.

– Düşünürsən, bu mümkündür?

– Nəyə görə də yox? Ən nəhayət, mən ona bağlanmamışam... Amma bu, Snautla mənim nə qərar qəbul eləyəcəyimdən asılı olacaq. Necə düşünürsən, sən tək çoxmu qala bilərsən?

– Bu asılıdır... – o, ağır-ağır dedi və başını aşağı saldı. – Əgər sənin səsini eşidəcəyəmsə, onda, yəqin, özümlə bacararam.

– Sənin bizim söhbətimizi eşitməməyinə üstünlük verərdim. Səndən nəyisə gizləmək istədiyimə görə yox, sadəcə, Snautun nə deyəcəyini bilmirəm...

– Sona qədər deməyə bilərsən. Yaxşı. Elə dayanacağam, yalnız sənin səsini eşidə bilim. Bu, mənim üçün kifayətdir.

– Onda mən indicə ona laboratoriyadan zəng eləyirəm. Qapını açıq qoyacağam.

O, başını tərpədib razılığını bildirdi. Mən qırmızı işığın divarını yarıb dəhlizə çıxdım, dəhliz mənə, az qala, qara göründü, halbuki orada lampalar yanırdı. Balaca laboratoriyanın qapısı açıq idi. Maye oksigenin altında, döşəmədə Dyuar borusunun işıldayan qırıqları gecə burada baş verənlərin axırıncı izləri idi. Dəstəyi götürüb radiostansiyanın nömrəsini yığanda balaca ekran işıqlandı. Sonra, sanki, tutqun şüşə ilə örtülən işığın göyümtül pərdəsi partladı və hündür kreslonun qolu üzərinə yanakı əyilmiş Snaut birbaşa mənim gözümə baxdı.

– Salamlayıram, – mən eşitdim.

– Məktubunu oxudum. Səninlə söhbət eləmək istəyirəm. Gələ bilərəmmi?

– Bilərsən. İndi?

– Hə.

– Buyurun. Tək... olmayacaqsan?

– Tək.

Onun qabarıq şüşədə yana əyilmiş, köndələn, sərt qırışlı alnı, yanıqdan bürünc rəng almış sifəti (o, akvariumda yaşayan qəribə balığa oxşayırdı) çoxmənalı bir ifadə aldı.

– Hə, hə. Belə... gözləyirəm.

– Gedə bilərik, əzizim, – mən elə də təbii olmayan dirçəlişlə qırmızı zolağın arasından kabinəyə girərək dedim, burada yalnız Harinin silueti görünürdü.



Mənim səsim qırıldı. Qız kresloya sıxılaraq əlləri ilə kreslodan yapışmışdı. Ya o, mənim addım səslərimi olduqca gec eşitmişdi, ya da bu dəhşətli vəziyyətdən yaxa qurtarıb normal vəziyyət ala bilmirdi. Daxilində gizlənən anlaşılmayan qüvvə ilə onun necə mübarizə apardığını görmək üçün mənə bir saniyə kifayət idi və mənim qəlbimə kor, aciz bir qəzəb hissi hakim kəsildi, sonra isə tədricən ona yazığım gəlməyə başladı. Biz dinməzcə uzun dəhlizlə gedir, cürbəcür rənglərdən üzlük çəkilmiş bölmələrin yanından keçirdik; bu bölmələr, arxitektorların fikrincə, zirehli qına adamın gəlişini müxtəlifləşdirəcəkdi. Artıq uzaqdan radiostansiyanın azacıq açılmış qapısını gördüm. İçəridən dəhlizin dərinliklərinə işığın qırmızı zolağı düşürdü, günəş işığı buranı da tuturdu. Mən hətta gülümsəməyə cəhd belə eləməyən Hariyə baxdım. Bütün yol boyunca onun özüylə mübarizə aparmaq üçün gücünü necə topladığını görürdüm. Yaxınlaşan gərginlik artıq onun sifətini dəyişdirmişdi, sifəti ağarmış, sanki, kiçilmişdi. Qapıya bir neçə addım qalmış o dayandı. Mən geri döndüm, amma o, yüngülcə məni barmaqlarının ucu ilə itələdi. Bu an onun çəkdiyi əzabla müqayisədə mənim planlarım, Snaut, eksperiment, Stansiya – hamısı mənə dəyərsiz görünürdü. Mən özümü cəllad kimi hiss edirdim və artıq günəş işığının enli zolağı insanın kölgəsinin qabağını kəsəndə qayıtmaq istəyirdim. Addımlarımı yeyinlədərək kabinəyə daxil oldum. Snaut lap kandarda dayanmışdı, sanki, mənim qabağıma gəlirdi. Qırmızı günəş birbaşa onun arxasında şölələnirdi, sanki, al-qırmızı şüalar onun çal saçlarından düşürdü. Bir müddət bir-birimizə dinməzcə baxdıq. Sanki, o, mənim sifətimi öyrənirdi. Parıltı gözlərimi qamaşdırdığından onun sifətini

görmürdüm. Snautun yanından keçdim və mikrofonların elastiki qulplarının dimdik dayandığı yüksək pultun yanında dayandım. O, ağır-ağır döndü; sakitcə məni izləyirdi; adəti üzrə; ağzını büzmüşdü, hansı ki bəzən sifətindəki ifadədən onun gülümsədiyi, bəzənsə yorğunluğu hiss olunurdu. Gözünü məndən çəkmədən bütün divarı tutan metal şkafa yaxınlaşdı, şkafın hər iki tərəfində radiocihazların ehtiyat hissələri, termoakkumulyatorlar və alətlər qalaqlanmışdı; kreslosunu ora çəkdi, kreslonun arxasını şkafın emallı qapısına söykəyərək oturdu.

Bizim əvvəlkitək qoruduğumuz sükut azından qəribə görünürdü. Mən diqqətimi cəmləşdirərək Harinin qaldığı dəhlizi bürüyən sakitliyə qulaq verirdim, amma oradan heç bir səs-səsmir gəlmirdi.

– Haçan hazır olacaqsınız? – mən soruşdum.

– Hətta bu gün də başlaya bilərdik, amma yazı bir müddət vaxt aparacaq.

– Yazı? Sən ensefaloqramı nəzərdə tutursan?

– Hə də, axı sən razılaşdın. Nədir ki?

– Bir şey yoxdur.

– Eşidirəm, – sükut dözülməz olanda Snaut dedi.

– O artıq... özü haqda bilir, – mən səsimi pıçıltıya qədər endirdim.

O, qaşlarını qaldırdı.

– Hə?

Məndə belə təəssürat yarandı ki, o, elə də təəccüblənmədi. O, niyə özünü heyrətlənirmiş kimi göstərirdi? Mən dərhal danışmaq istəmirdim, amma özümü düşünməyə məcbur edirdim. «Əgər daha heç nə yoxdursa, – mən düşündüm, – onda qoy bu, loyallıq olsun».

– Bizim kitabxanadakı söhbətimizdən təxmin eləməyə başlamışdım, məni izləyirmiş, birini digəri ilə müqayisə eləyib, sonra Qibaryanın maqnitofonunu tapıb və lentə qulaq asıb...

O oturuşunu dəyişmədi, əvvəlkitək şkafa söykənmişdi, amma onun gözlərində kiçik qığılcımlar yanırdı. Pultun yanında dayanarkən mən dəhlizə açılan qapını gördüm. Bir az da astadan danışdım:

– Bu gecə, mən yatandan sonra özünü öldürmək istəyib. Maye oksigenlə.

Nə isə yelçəkənin kağızından daha astaca xışıldadı. Mən bu xışıltıya qulaq asaraq yerimdəcə donub-qaldım, dəhlizdə nəsə baş verirdi, amma səsin mənbəyi yaxında idi. Nə isə siçan kimi xırçıldatdı. Siçan! Cəfəngiyatdır. Burada heç bir siçan yox idi. Mən şübhə ilə Snauta baxdım.

– Eşidirəm, – o, sakitcə dedi.

– Anlaşılan budur ki, o, buna nail ola bilmədi... hər ehtimala qarşı o, kim olduğunu bilir.

– Sən niyə bunu mənə danışırsan? – o, cəld soruşdu.

Mən nə cavab verəcəyimi dərhal fikirləşib tapa bilmədim.

– Sənin xəbərdar olmağını istəyirəm... istəyirəm vəziyyətin nə yerdə olduğunu biləsən...

– Mən səni xəbərdar eləmişdim...

– Demək istəyirsən ki, sən bunu bilirdin? – ixtiyarsız olaraq səsimi qaldırdım.



– Yox. Əlbəttə yox. Mən bunun necə olduğunu sənə başa salmışdım. Hər bir qonaq, həqiqətən də, sənin özününkündən əxz edilmiş halda, yalnız qarabasma və obrazların, xatirələrin xaotik qarışıqlığı xaricində... tamamilə cəfəngiyatdır. O nə qədər səninlə olursa, bir o qədər insanilәşir. Əlbəttə, müəyyən həddə qədər müstəqilləşir. Buna görə də bu nə qədər çox davam eləyirsə, bir o qədər çətin olur....

O, sözünü bitirmədi. Mənə şübhə ilə baxdı və həvəssiz halda səsləndi:

– O, hər şeyi bilir?

– Hə, mən artıq dedim.

– Hər şeyi? Bir dəfə burada olmağını da və sənin...

– Yox!

O, istehza ilə gülümsədi.

– Kelvin, qulaq as, əgər iş bu həddə qədər... Sən neyləmək istəyirsən? Stansiyanı tərk eləmək istəyirsən?

– Hə.

– Onunla?

– Hə.

O susdu, sanki, mənim cavabım üzərində düşünürdü, amma onun sükutunda əlavə nəsə də var idi... Nə? Yenidən bu hiss edilməyən xışıltı, burada, birbaşa nazik divarın arxasından gəldi. O, kresloda tərpəndi.

– Əla. Niyə elə baxırsan? Düşünürsən yolunun üzərində dayanacağam? Necə istəyirsən, elə də elə, əzizim. Biz hələ bir məcbur eləməyə də başlasaq, əcəb görünərik! Sənə mane olmağa hazırlaşmıram, yalnız onu deyirəm ki, sən insan olmayan şəraitdə insan kimi hərəkət eləmək istəyirsən. Bəlkə də, bu gözəldir, amma mənasızdır. Bununla belə, mən heç gözəl olmasına da əmin deyiləm, məgər axmaqlıq gözəl ola bilərmi? Amma iş bunda deyil. Sən sonrakı eksperimentlərdən imtina eləyirsən, onu da götürərək getmək istəyirsən. Eləmi?

– Elədir.

– Amma bu da eksperimentdir. Sən bu haqda düşünübsənmi?

– Sən bunu necə başa düşürsən? Məgər o... bacarar?.. Əgər mənimlə birlikdə... onda bilmirəm...

Mən getdikcə daha tərəddüdlə danışırdım, sonra dayandım. Snaut yüngülcə ah çəkdi.

– Biz hamımız burada dəvəquşu siyasəti aparırıq, Kelvin, heç olmasa, bu haqda bilirik və fədakarlığımızı nümayiş etdirmirik.

– Mən heç nə nümayiş etdirmirəm.

– Yaxşı. Mən səni incitmək istəmirdim. Fədakarlıq haqqında dediklərimi geri götürürəm, amma dəvəquşu siyasəti öz qüvvəsində qalır. Sən onu xüsusilə təhlükəli formada yürüdürsən. Onu və özünü aldadırsan, sonra yenidən özünü. Sən neytron materiallardan quraşdırılmış sistemlərin stabilləşdirilmə şərtlərini bilirsənmi?

– Yox. Sən də bilmirsən. Bunu heç kim bilmir.

– Başa düşürəm. Amma bir şey məlumdur, belə sistem dayanıqsızdır və yalnız arası kəsilməyən enerji axınının sayəsində fəaliyyət göstərə bilər. Sartorius mənə izah eləyib. Bu enerji burulğanlı stabil sahə yaradır. Bax belə, bu sahəni qonağa münasibətdə xarici sahə adlandırmaq olarmı? Ya da sahənin mənbəyi onun bədənində yerləşir? Fərqi başa düşürsənmi?

– Bəli. Əgər o, xarici sahədirsə, onda... o, onda... belə...

– Onda Solyarisdən ayrılanda belə sistem dağılacaq, – o, mənim fikrimi tamamladı. – Biz bunu təsdiq eləyə bilmərik, amma axı sən artıq eksperiment aparıbsan.

Sənin buraxdığın o raket... hələ də orbitdədir. Asudə vaxtlarımda hətta onun hərəkət elementlərini müəyyən eləmişəm.

– Sən sərsəmləyibsən! – mən qışqırdım.

– Eləmi düşünürsən? Di... əgər... o raketi bura dartıb gətirsək? Bunu eləmək olar. Məsafədən idarə eləmə var. Onu orbitdən götür...

– Əl çək!

– Bunu da istəmirsən? Neyləməli, daha bir üsul var, çox sadə. Hətta onu Stansiyaya gətirmək lazım deyil. Niyə? Qoy özüyçün fırlansın. Biz yalnız onunla radio vasitəsilə əlaqə yaradaq, əgər o sağdırsa, onda cavab verəcək...

– Amma... Amma orada çoxdan oksigen qurtarıb! – mən çətinliklə dedim.

– Bəlkə, oksigensiz keçinir. Hə, sınayaq!

– Snaut... Snaut...



– Kelvin... Kelvin... – o, əsəbi halda məni yamsılayaraq cinləndirdi. – Sən necə insan olduğun haqqında düşün. Sən kimi xoşbəxt eləmək istəyirsən? Xilas eləmək? Özünü? Onu? Hansını? Onu, ya bunu? Hər ikisinə artıq cəsarətin çatmaz? Özün bunun nəyə gətirib çıxartdığını görürsən. Sənə axırıncı dəfə deyirəm, burada şərait əxlaqdan kənardır.

Yenidən mən həmin səsi eşitdim, sanki, kimsə dırnaqları ilə divarı cırmaqlayırdı. Bilmirəm, nəyə görəsə məni passiv, laqeyd bir rahatlıq bürüdü. Mən özümü elə hiss eləyirdim ki, sanki, bütün bu vəziyyətə, balaca, bir qədər gülməli, lazımsız olan bizim hər ikimizə mən xeyli uzaq məsafədən çevrilmiş binoklla baxıram.

– Hə, yaxşı, – mən dedim. – Bəs səncə, mən neyləməliyəm? Onu kənarlaşdırmalıyam? Sabah eynən eləsi varid olacaq, doğrudurmu? Yenə də? Beləcə hər gün? Bu nə qədər çəkəcək? Niyə? Bunun mənə nə xeyri olacaq? Bəs sənə? Sartoriusa? Stansiyaya?

– Yox, əvvəlcə sən mənə cavab ver. Onunla uçub gedəcəksən və deyək ki, başlayacaq dəyişikliklərin şahidi olacaqsan. Bir neçə dəqiqədən sonra qabağında görəcəksən...

– Hə, nə olsun? – mən sifətimi turşudaraq cavab verdim. – Əjdaha? Şeytan? Nə?

– Yox. Ən adi canverməni. Sən, doğrudanmı, onun ölümsüzlüyünə inanırsan? Səni inandırıram ki, öləcək... Onda neyləyəcəksən? Qayıdacaqsan... ehtiyatdakı üçün?

– Əl çək!!! – yumruqlarımı döydüm.

O, mənə mərhəmətli bir təbəssümlə baxıb gözlərini qıydı.

– Mənmi əl çəkməliyəm? Bilirsən, mən sənin yerinə olsaydım, bu söhbətə son qoyardım. Yaxşısı budur, nə isə başqa bir işlə məşğul ol, məsələn, oturub okeanı çubuqla qurdalaya bilərsən. Sənə nə əzab verir? Əgər... – o, əliylə şişirdilmiş vida hərəkəti elədi, eyni zamanda da, gözlərini tavana doğru qaldırdı, sanki, hansısa uçan əşyanı izləyirdi, – onda əclaf olacaqsan? Belə isə yox? Hönkürtü ilə ağlamaq istəyəndə gülümsəmək, barmağını dişləmək istəyəndə özünü sevinən və sakit göstərmək də əclaflıqdır onda? Bəs əgər burada olmamaq mümkün deyilsə? Bəs onda? Snautun üzərinə atılacaqsan, hansı ki hər şeydə o günahkardır, hə? Hə, əlavə onu da deyim ki, mənim əzizim, bir də sən gicsən...

– Sən özün haqqında danışırsan, – mən başımı aşağı salaraq dedim. – Mən onu... sevirəm.

– Kimi? Öz xatirələrini?

– Yox. Onu. Mən sənə onun neyləmək istədiyini danışdım. Heç bir həqiqi insan... belə eləməzdi.

– Özün etiraf eləyirsən...

– Məni öz sözümlə tutma.

– Yaxşı. Demək, o, səni sevir. Sənsə onu sevmək istəyirsən. Bu, elə eyni şey demək deyil?

– Səhv eləyirsən.

– Kelvin, mənim üçün olduqca xoşagəlməzdir, amma sən özün bu şəxsi işlərin haqqında danışdın. Sevmirsən. Sevirsən. O, canını qurban verməyə hazırdır. Sən də. Çox təsirləndirici, çox gözəldir, həyəcanlandırıcıdır, necə istəyirsənsə, elədir. Amma bütün bunlara burada yer yoxdur! Yox!.. Başa düşürsən? Yox, sən bunu başa düşmək istəmirsən. Sən o qüvvələrin işinə, onun da bir hissəsi olduğu o dairəvi proseslərə cəlb olunubsan ki, biz onlara nəzarət eləmək iqtidarında deyilik. Məkan. Təkrar olunan ritm. Əgər o olsaydı... əgər sənin üçün o, bütün yırtıcılıqlarını

eləsəydi, sən bir dəqiqə belə tərəddüd eləməz, onu özündən uzaqlaşdırardın. Doğrudurmu?

– Doğrudur.

– Bəlkə... bəlkə, o məhz buna görə də elə yırtıcı görünmür! Bu, sənin qollarını bağlayır? Axı söhbət ondan gedir ki, sənin qolların bağlıdır!

– Bu da kitabxanadakı milyonlarla fərziyyədən biridir. Snaut, bunu bir kənara qoy, o... Yox. Bu haqda səninlə danışmaq istəmirəm.

– Yaxşı. Özün başladın. Amma yalnız bunu düşün, həqiqətdə o, sənin beyninin bir tərəfini əks etdirən güzgüdür. Əgər o, çox gözəldirsə, bu ona görədir ki, sənin xatirələrin çox gözəl olub. Resepti sən verdin. Dairəvi prosesi yaddan çıxartma.

– Yaxşı, sən məndən nə istəyirsən? Mənim onu... onu... yox eləməyimi? Mən artıq səndən soruşdum, niyə? Sənsə cavab vermədin.



– İndicə cavab verərəm. Mən bu mövzuda danışmağı xahiş eləmədim. Sənin işlərinə qarışmadım. Sənə nəyisə əmr eləmədim və nəyisə qadağan eləmədim, hətta bacarsaydım da, bunu eləməzdim. Sən bura gəldin və hər şeyi ovcuma qoydun, bilirsənmi niyə? Yox? Ondan ötrü ki, günahları öz üzərindən atasan. Kiminsə üzərinə yıxasan. Mən bu çətinliyi bilirəm, mənim əzizim! Hə, hə, sözümü kəsmə. Mən sənə heç nədə mane olmuram, amma sən mane olmağımı istəyirsən. Əgər mən sənin yolunu kəssəydim, bəlkə də, sən mənim başımı əzərdin. Onda işin mənimlə olardı, qanı qanından, canı canından olan sənin kimi birisiylə və sən də özünü insan kimi hiss edərdin. Belədə isə... bunun öhdəsindən gələ bilmirsən və mənimlə mübahisə eləyirsən... mahiyyət etibarilə də özün özünlə! Mənə onu da de görüm ki, əgər o, birdən yox olarsa, dərd səni əgər... yox, heç nə demə.

– Di, bilirsən! Mən bura gəldim, sadəcə, loyallıq hissinə görə məlumat verim ki, onunla birlikdə Stansiyanı tərk eləmək istəyirəm, – mən onun hücumunu dəf elədim, amma mənim üçün bu, elə də inandırıcı səslənmədi.

Snaut çiyinlərini çəkdi.

– Çox ola bilər ki, sən öz fikrində qalasan. Əgər mən bu səbəbdən deyirəmsə, yalnız ona görə ki, sən getdikcə

daha yuxarı dırmanırsan; yüksəklikdən yıxılmaq isə, özün başa düşürsən də... Sabah səhər saat doqquza yaxın yuxarı gəl, Sartoriusun yanına...Gələrsən?

– Sartoriusun yanına? – mən heyrətləndim. – Axı o heç kimi yanına buraxmır. Sən dedin ki, hətta zəng eləmək də olmaz.

– İndi o, necəsə düzəlib. Biz bu haqda danışmırıq, bilirsən... Sən... tamam başqa məsələ. Bu vacib deyil. Sabah gələcəksən?

– Gələrəm.

Mən Snauta baxdım. Onun sol əli, sanki, təsadüfən şkafın qapısı arxasında gizləndi. Qapı nə vaxt açılmışdı? Deyəsən, artıq çoxdan, amma mənim üçün xoşa gəlməyən söhbətdən qızışdığımdan buna fikir verməmişdim. Bu necə də qeyri-təbii görünürdü... Sanki... orada kimsə gizlənmişdi. Ya da kimsə onun əlindən yapışmışdı. Mən dodaqlarımı yaladım.

– Snaut, sənə nə oldu?

– Çıx, – o, astadan və sakitcə dedi. – Get.

Mən sönməkdə olan qırmızı şəfəqlərin işıqlandırdığı dəhlizə çıxdım və arxamca qapını bağladım. Hari qapıdan haradasa on metr aralıda döşəmənin üzərində oturmuşdu. Məni görcək ayağa sıçradı.

– Görürsən? – işıldayan gözləri ilə mənə baxıb dedi. – Bacardım, Kris... Mən elə şadam!.. Bəlkə... bəlkə, hər şey yaxşı olacaq...

– O, yəqin ki, – mən dalğın halda cavab verdim.

Biz öz otağımıza qayıtdıq, mən bu lənətə gəlmiş şkafın tapmacası üzərində baş sındırırdım. Demək... demək, orada gizlətmişdi?.. Yanaqlarım elə alışıb-yanmağa başladı ki, ixtiyarsız olaraq üzümü sildim. Bu nə dəlilikdir. Biz nəyi danışıb müzakirə elədik? Heç nəyi. Doğrudur, sabah səhər...

Birdən məni eynən axırıncı gecədə olduğu kimi qorxu bürüdü. Mənim ensefaloqramım!.. Şüaların titrəyişi nəticəsində keçirilən bütün beyin proseslərinin tam yazılması aşağı göndəriləcəkdi. Bu ucu-bucağı olmayan, sahilsiz əjdahanın dərinliklərinə. O necə dedi: «Əgər o yox olarsa, sən dəhşətli dərəcədə əzab çəkərsən, hə?» Ensefaloqram – bu tam yazı idi. Şüuraltı proseslər də. Əgər mən onun

yox olmasını, ölməsini istəyirəmsə? Məgər belə olmasaydı, onun dəhşətli intihar eləməsi məni belə heyrətləndirərdimi? Öz şəxsi şüuraltına cavab verə bilərsənmi? Əgər mən onun üçün cavab vermirəmsə, onda kim cavab verir?.. Bu nə gicbəsərlikdir? Nəyə görə razılaşdım ki, məhz mənim... mənim... Əlbəttə, qabaqcadan bu yazını öyrənə bilərəm, amma axı onu oxumağı bacarmıram. Bunu heç kim bacarmır. Mütəxəssislər yalnız təcrübə altında olanın nə düşündüyünü, ümumi cizgiləri müəyyən eləməyə qadirdirlər; məsələn, riyazi tapşırığı həll elədiyini deyə bilərlər, amma hansını həll elədiyini demək iqtidarında deyillər. Onun mümkün olmadığını təsdiq eləyirlər. Belə ki, ensefaloqram – eyni zamanda baş verən çoxsaylı proseslərin təsadüfi qarışığıdır və yalnız onların bir hissəsinin psixi «astarı» var. Bəs şüuraltı?.. Onun haqqında, ümumiyyətlə, danışmaq istəmirlər, kiminsə məyus, ya da qeyri-məyus xatirələrini oxumaqdan isə danışmağa dəyməz... Amma mən niyə belə qorxuram? Axı səhər özüm Hariyə dedim ki, bu eksperimentin heç bir nəticəsi olmayacaq. Axı əgər bizim neyrofiziologiya yazıları oxumağı bacarmırsa, onda bu, dəhşətli dərəcədə özgə, qara, maye nəhəng...

Amma onun bütün yaddaşını ölçmək və ən ağrılı o yerini tapmaq üçün necə daxil olduğu məlum deyil. Buna necə şübhə eləmək olar? Əgər heç bir kömək, heç bir şüa ötürməsi olmadan Stansiyanın ağır zirehinin içindən keçərək ikiqat germetikləşdirilmiş zirehin içərisinə daxil olub orada məni tapır və ovuyla da çıxıb gedirsə...

– Kris?.. – Hari astadan çağırdı.

Mən pəncərənin yanında dayanıb dalğın baxışlarla başlayan gecəni seyr eləyirdim.

Əgər sonra o yox olarsa, bu, o demək olacaq ki, bunu mən istəyirdim... Buna görə də onu öldürdüm. Ora getməyim? Onlar məni məcbur eləyə bilməzlər. Amma mən onlara nə deyərəm? Bunu – yox. Bacarmaram. Demək, yenə də rola girmək lazımdır, yenidən və həmişəliyə aldatmaq lazımdır. Hamısı da ona görə ki, bəlkə də, məndə hansısa dəhşətli, cinayətkar fikir, niyyət, ümid var, amma mən onlar haqqında heç nə bilmirəm. Qaranlıq qapılarla barrikada qurmuş, öz şəxsi gizlinlərini, künc-bucaqlarını,

dərinliklərini axıra qədər dərk eləməyən insan başqa dünyaları, başqa sivilizasiyaları öyrənməyə göndərilir. Onu onlara verim... xəcalət çəkdiyim üçün? Ona görə verim ki, verməməyə cəsarətim çatmır?

– Kris... – Hari bundan əvvəl çağırdığından da yavaş çağırdı.

Eşitməkdən daha çox onun mənə necə səssizcə yaxınlaşdığını hiss elədim və özümü elə apardım ki, heç nə hiss eləmədim. Bu an mən tək olmaq istəyirdim. Hələlik qərara almamış, heç bir nəticəyə gəlməmişdim... Tutqunlaşan göyə, yer ulduzlarının yalnız xəyali kölgəsi olan ulduzlara baxaraq hərəkətsiz halda dayanmışdım, boşluqda, növbəylə gələn quduz fikirlər axınında isə sözsüz ölü, etinasız bir əminlik artırdı ki, orada, mənim üçün əlçatmaz olan şüurumun dərinliklərində mən artıq seçim eləmişəm və özümü yalandan elə göstərirəm, guya, heç nə baş verməyib, hətta bundan ötrü özümə nifrət eləməyə güc belə tapa bilmirəm.

## EKSPERİMENT

– Kris, bu, həmin o eksperimentə görədir?

Onun səsindən diksindim. Mən artıq bir neçə saatdır tamam tək halda qaranlığa dalaraq yuxusuz halda uzanmışdım. Xəyali, yarısı mənasız olan və bundan yeni məna kəsb eləyən gecə fikirlərinin labirintində dolaşaraq hətta onun nəfəsalmasını eşitmirdim, onu unutmuşdum.

– Necə... sən mənim yatmadığımı haradan bilirsən? – səsim qorxmuş adamın səsi kimi çıxırdı.

– Sənin necə nəfəs almağından... – o, sakit və nədəsə günahkarmış kimi cavab verdi. – Sənə mane olmaq istəmirdim... Əgər bacarmırsan, danışma...

– Yox, niyə ki? Hə, bu, həmin eksperimentdir. Düz tapıbsan.

– Onlar eksperimentdən nə gözləyirlər?

– Özləri də bilmirlər. Nə isə. Bir şey, zad. Bu əməliyyat «Fikir» yox, «Çarəsizlik» adlanır. İndi yalnız bir şey lazımdır: qərar üçün məsuliyyəti öz üzərinə götürən insan; amma bu cür cəsarət formasını çoxları adi qorxaqlıq kimi qəbul

eləyirlər, çünki bu geri çəkilmə, başa düşürsən də, barışmaq, qaçmaq, insana layiq deyil.

Mən dayandım, amma nəfəs almağım sakitləşməmişdən əvvəl məni yeni qəzəb dalğası bürüdü.

– Anlaşılan budur ki, praktik baxışları olan insanlarda heç vaxt heç bir çatışmazlıq olmur. Onlar deyirdilər, hətta əlaqə mümkün olmasa belə, onda bu plazmanı – gün ərzində yenidən yox olmaq üçün onun bətnindən qopan bütün bu azğın canlı varlıqları, – öyrənəndə biz materialın sirrini öyrənirik, sanki, bunun yalan olduğunu bilmirmişik; bu, eynən ona oxşayır ki, kitabları naməlum dildə yazılan kitabxanaya baş çəkəsən; çünki orada yalnız rəngli cildlərə baxa bilərsən. Bəs necə?

– Bəs yenə də belə planetlər varmı?

– Məlum deyil. Bəlkə də, var, ancaq biz yalnız birini tanıyırıq. Hər ehtimala qarşı olduqca nadirdir, Yerdə olduğu kimi deyil. Biz... biz Kainatın adi otlarıyıq və bu adiliyimizlə fəxr eləyirik; düşünürük ki, ona hər şeyi sığışdırmaq olar. Cəsarətlə və sevinclə uzaqlara, başqa dünyalara yola düşəndə sxem belə idi! Amma bu başqa dünyalar nə olan şeydir? Onları fəth eləyəcəyik, ya da fəth olunacağıq, bu bədbəxt beyinlərdə bundan başqa heç bir şey olmayıb... Eh, yaxşı. Danışmağa dəyməz.



Mən ayağa qalxdım. Əlhavasına tibb çantasını tapıb yuxu dərmanı axtardım.

– Yatacağam, əzizim, – üzümü havadəyişənin ucadan səs saldığı qaranlığa çevirərək dedim. – Mütləq yatmalıyam. Ya da... özüm də bilmirəm...

Səhər yuxudan yaxşı əhvalda və dinc halda oyananda eksperiment mənə nəsə əhəmiyyətsiz göründü. Ona necə belə əhəmiyyət verdiyimi başa düşə bilmirdim. Harinin də mənimlə birlikdə laboratoriyaya getməsi məni elə də həyəcanlandırmırdı. Bir neçə dəqiqəliyə otaqdan çıxanda onun bütün səyləri hədər oldu. Mən onun təkid elədiyi sonrakı təşəbbüsdən (hətta otağa girib qapısını bağlamağa da hazır idi) əl çəkdim və ona özüylə hansısa bir kitabçanı götürməsini məsləhət gördüm.

Prosedurun özündən çox, məni laboratoriyada nə görəcəyim maraqlandırırdı. Şkaflardakı və qəfəslərdəki böyük deşiklərdən başqa (bəzi şkafların hələ divarı belə

yox idi, bir şkafın yan tərəfində isə ulduzabənzər çatlaq var idi, sanki, burada lap yaxında mübarizə getmişdi və mübarizənin izləri tələsik, amma səliqə ilə yox edilmişdi) bu işıqlı-mavi salonda diqqətçəkən heç nə yox idi.

Cihazların yanında əlləşən Snaut özünü tamam yaxşı aparırdı; Harinin gəlməsini necəsə tamamilə adi qəbul elədi və uzaqdan ona yüngülcə baş əydi. Gicgahımı və alnımı fizioloji məhlulla isladanda Sartorius gəlib çıxdı. O, harasa qaranlığa aparan balaca qapıdan girdi. Əynində ağ xalat və topuqlarına qədər olan qara qoruyucu önlük var idi. Mənimlə elə salamlaşdı ki, sanki, biz Yerdəki böyük bir institutun əməkdaşlarıydıq və yalnız dünən ayrılmışdıq. Yalnız indi mən onun eynək əvəzinə vurduğu təmas şüşəsinin sifətinə ölü bir ifadə verdiyini hiss elədim.

Sartorius əllərini sinəsində çarpazlayaraq başıma qoyulan elektrodları Snautun tənziflə necə sarımasına baxırdı. O, bir neçə dəfə, sanki, ümumiyyətlə, divarın yanındakı balaca oturacaqda oturmuş, büzüşmüş, kədərli və özünü kitab oxuyan kimi göstərən Harini görmədən zalı nəzərdən keçirtdi. Snaut mənim kreslomdan uzaqlaşdı. Metaldan ağırlaşmış halda tərpəndim və onun cihazları necə qoşduğunu görmək üçün başımı döndərdim, amma Sartorius gözlənilmədən əlini qaldırdı və ilhamlanmış halda danışmağa başladı:

– Doktor Kelvin, xahiş edirəm, diqqətli olasınız. Mən sizə nəsə əmr eləmək fikrində deyiləm, belə ki, bunun bir nəticəsi olmazdı, amma xahiş edirəm, bütün təsadüfləri istisna eləmək və bütün diqqətimizi bizi bura yığan işə cəmləmək üçün özünüz haqqında, mənim haqqımda, həmkarınız Snaut haqqında, hansısa digər şəxslər haqqında düşünməyə son qoyasınız. Yer və Solyaris, bir bütövlük təşkil eləyən tədqiqatçılar nəsli, halbuki ayrı-ayrı adamların başlanğıcı və sonu olur, bizim intellektual əlaqə yaratmaq üçün inadkarlığımız, insanlığın keçdiyi tarixi yolun uzunluğu, bu yolun davam eləyəcəyinə əminlik, hər hansı bir qurban verməyə və çətinliyə hazır olmaq, bizim missiyanın bütün şəxsi hisslərinə tabe olmaq – sizin şüurunuzu dolduran mövzular bunlar olmalıdır. Doğrudur, fikir axını bütünlüklə sizin arzunuzdan asılı deyil, amma sizin burada olmağınız mənim tərəfimdən təqdim olunan məntiqin

həqiqiliyini təsdiq eləyir. Əgər siz tapşırığın öhdəsindən gələcəyinizə əmin deyilsinizsə, xahiş edirəm, bu haqda məlumat verəsiniz, həmkarınız Snaut yazını təkrar eləyər. Bizim vaxtımız kifayət qədərdir.

Axırıncı sözləri o, solğun, quru gülüşlə dedi, ancaq bu, onun baxışlarını dəyişmədi.

Belə əhəmiyyətli, təntənə ilə deyilən ciddi cümlələrin axınından daxilimdə hər şey bir-birinə qarışdı. Xoşbəxtlikdən, Snaut uzunsürən sükutu pozdu.

– Kris, olar? – o soruşdu, elektroensefaloqrafın yüksək pultuna dirsəyini etinasız və təklifsiz halda söykəmişdi, sanki, kreslonun arxasına söykənmişdi. Məni adımla çağırdığı üçün ona minnətdar idim.

– Olar, – gözlərimi yumaraq cavab verdim.

Snaut elektrodları bərkitmə işini qurtarıb, barmağını düymənin üzərinə qoyan kimi də beynimi dağıdan həyəcan yoxa çıxdı. Kirpiklərimin arasından cihazın qara panelində nəzarət lampalarının çəhrayı işığını görürdüm. Tədricən nəm, soyuq elektrodların toxunmasından aldığım xoşagəlməz hiss aradan qalxırdı. Mən, sanki, boz, işıqlandırılmamış səhnə idim. Bu boşluğu sükutun ətrafında yüksələn amfiteatra toplaşmış, Sartoriusa və Missiyaya istehzalı nifrəti artan tamaşaçılar izləyirdilər. Daxili müşahidəçilərin gərginliyi zəifləyirdi. «Hari?» – mən bu sözü dərhal geri çəkilməyə hazır halda, şüursuz bir narahatlıqla sınaq üçün düşündüm. Amma mənim ayıq, kor auditoriyam etiraz eləmədi. Bir müddət mən büsbütün həssas, tez mütəəssir olan, səmimi, rəhmdil, əzablı uzunsürən qurbanlara hazır idim. Hari məni formasız, cizgilərsiz, sifətsiz halda tamamlayırdı və birdən bu simasızlığın arasından boz qaranlıqda solyarisçilərin və solyaristikanın atası olan Qezenin fədakar, duyğusal sifəti bütün öz professor siması ilə mənə göründü. Amma mən onun sifətini tutmuş qızılı eynəyini və səliqə ilə daranmış çal bığlarını udan palçıq püskürməsi haqqında, üfunətli burulğan haqqında düşünmürdüm. Mən monoqrafiyanın titul səhifəsində yalnız qravüranı gördüm, sıx ştrixlənmiş fonla rəssam onun başını əhatəyə almışdı, beləliklə də, o, halənin içərisinə alınmışdı. Onun sifəti cizgiləri ilə yox, vicdanlı, köhnə dəbli düşüncəliliyi ilə atamın sifətinə necə də oxşayırdı və mən ən nəhayət, onlardan hansının

mənə baxdığını bilmirdim. Onların hər ikisinin qəbri yox idi; bu, bizim zəmanəmizdə o qədər adi və tez-tez rast gəlinən haldır ki, xüsusi heç bir kədər doğurmur.

Surət artıq yoxa çıxdı, mənsə bir, bilmirəm hansısa uzun bir anlığa, Stansiyanı, eksperimenti, Harini, qara okeanı – hər şeyi ildırım sürəti ilə yaranan əminliklə unutdum, artıq olmayan o iki nəfər, dəhşətli dərəcədə kiçik, quruyan bataqlığa dönən adamlar qarşılarına çıxan hər şeyin öhdəsindən gəlirdi və bu kəşfdən əmələ gələn sakitlik boz səhnəni əhatəyə almış, səssizcə mənim məğlubiyyətimi gözləyən formasız kütləni məhv elədi.

Cihazı söndürən iki çaqqıltı ilə eyni zamanda, gözlərimə işıq düşdü. Hələ də həmin vəziyyətdə duran Sartorius mənə sınayıcı nəzərlə baxırdı. Arxasını ona çevirən Snaut cihazlarla əlləşirdi, sanki, bilərəkdən ayaqlarından çıxmaq üzrə olan səndəllərini şappıldadırdı.

– Doktor Kelvin, siz necə hesab eləyirsiniz, alındımı? – Sartoriusun adamı itələyən burun səsi eşidildi.

– Bəli, – mən cavab verdim.

– Siz buna əminsinizmi? – Sartorius bir qədər heyrətlə, hətta şübhə ilə soruşdu.

– Bəli.

Mənim əminliyim və səsimin sərt tonu onun sifətindən bir anlığa soyuq ciddiliyi sildi.

– Bu yaxşıdır, – o donquldadı və sanki, indi mənimlə neyləyəcəyini bilmədən ətrafa boylandı.

Snaut mənə yaxınlaşdı və sarğıları açmağa başladı.

Mən ayağa qalxdım və salonda gəzməyə başladım, bu zaman qaranlıqda yox olan Sartorius artıq aydınlaşdırılmış və qurumuş lentlə qayıdıb gəldi. On-on beş metrlik sürüşən, uzun, qara sellüloid lentdə yazılar hansısa kifin və ya hörümçək torunun işıqlı dişcikləri kimi titrəyən xətlə uzanırdı.

Mənim burada daha bir işim yox idi, amma mən getmirdim. Onlar sonuna Sartoriusun bir daha baxdığı yazının yazıldığı oksidləşdirilmiş kaseti modulyatora qoydular, Sartorius inamsızlıqla qaşlarını çatmışdı, sanki, bu titrəyən xətlərdəki fikri şifrələmək istəyirdi.

Eksperimentin qalan hissəsi görünməz idi. Mən yalnız onların idarəetmə pultuna yaxınlaşıb, cihazları hərəkətə

gətirdiklərini gördüm. Elektrik polad döşəmənin altındakı çarxın dolaqlarında yüngül bir zümzümə ilə hərəkətə gəldi və yalnız sonra şaquli şüşə borularda işıq göründü. Göstəricilər rentgen cihazının böyük tubusunun[1] şaquli quyuya düşdüyünü göstərərək aşağı qaçdı. Tubus quyunun açıq boğazında dayanacaqdı. İşıqlar cədvəlin ən aşağı bölməsində dayandı və əqrəblər, daha dəqiqi, onları əvəz eləyən ağ işıq zolaqları yırğalanaraq tam dövr eləyənə qədər Sartorius gərginliyi artırmağa başladı. Uğultu güclə eşidilirdi, daha heç nə baş vermədi, lent makaraları qapağın altında yırğalanırdı, çünki hətta bunu da görmək mümkün deyildi, ölçü sayğacı saat mexanizmi kimi astaca çıqqıldayırdı.

Hari kitabın üzərindən gah onlara, gah da mənə baxırdı. Onun yanına getdim. O, mənə sınayıcı nəzərlərlə baxırdı. Eksperiment artıq qurtarmışdı. Sartorius ağır-ağır cihazın konus başlığına yaxınlaşırdı.



– Gedək?.. – Hari yalnız dodaqlarını tərpədərək soruşdu.

Mən başımı tərpətdim. O, ayağa qalxdı. Heç kimlə vidalaşmadan – bu, olduqca mənasız görünərdi – Sartoriusun yanından keçdim.

Yuxarıdakı dəhlizin böyük pəncərəsini qürub müstəsna gözəlliyə bürümüşdü. Bu, adi yox, kədərli, şişkin tünd-qırmızı rəng idi, bütün çalarları isə dumanlı idi, sanki, çəhrayı rəngin üzərinə xırda gümüşü zərrəciklər səpələnmişdi. Okeanın hərəkətsiz, ağır dərəli-təpəli intəhasız düzənlikləri, sanki, bu isti şəfəqlərə cavab verərək, yumşaq qırmızı-bənövşəyi rəngli işartılarla qığılcımlanırdı. Yalnız üfüqlərdə göy inadla sarı rəngdə qalmaqda davam eləyirdi.

Birdən aşağı dəhlizin ortasında dayandım. Mən, sadəcə, bizim yenidən həbsxana kamerasını xatırladan, pəncərəsindən yalnız okeanın göründüyü kabinəyə qapılacağımızı düşünməmişdim.

– Hari, – dedim, – bilirsən... mən bir kitabxanaya baxardım. Sən etiraz eləmirsən ki?

– Ooo, məmnuniyyətlə, oxumaq üçün nə isə axtarardım, – o, bir qədər süni canlanma ilə cavab verdi.

Mən dünənki gündən etibarən bizim aramızda çat yarandığını hiss eləyirdim və onunla mehriban olmalıydım,

[1] Tubus – optik cihazlarda boru

amma məni tam bir süstlük bürümüşdü. Bu süstlükdən necə yaxa qurtaracağımı bilmirdim.

Biz geri qayıtdıq və balaca tambura daxil olduq.

Kitabxanaya aparan ortadakı qapı hər iki tərəfdən qabarıq süni dəri ilə örtülmüşdü, nəyə görəsə həmişə bu dəriyə toxunmamağa çalışırdım. Tavanına stilləşdirilmiş günəş şəkli çəkilmiş böyük, dairəvi salon bir qədər sərin idi.

Solyarist klassiklərinin cildləri üzərində əlimi gəzdirirdim və Qezeni götürmək istəyəndə birdən keçən dəfə görmədiyim Qravinskinin köhnə cildi diqqətimi cəlb elədi.

Yumşaq kresloya oturdum. Tam sakitlik idi. Arxamda Hari hansısa kitabçanı vərəqləyirdi, onun barmaqları altındakı vərəqlərin yüngülcə xışıldadığını eşidirdim. Qravinskinin sorğu kitabçasında solyarist fərziyyələri əlifba sırası ilə düzülmüşdü. Solyarisi hətta bircə dəfə olsun belə görməyən kompilyator[1] bütün monoqrafiyanı, ekspedisiyanın protokollarını, ayrı-ayrı məqalələri və ilkin məlumatları alt-üst eləmiş, digər planetləri öyrənən planetoloqların işindən istifadə eləmiş və kataloq yaratmışdı, bayağı olan bu fərziyyələrdəki fikirlərdən doğan incələşdirilmiş mürəkkəbliyi ləğv eləyərək, qısaca və dürüst ifadə eləməsi ilə adamı bir az qorxudurdu. Buna baxmayaraq, ensiklopediklik baxımından bu əsər daha çox maraqlı hadisələrin təsnifatı kimi dəyərli idi. İyirmi il bundan əvvəl dərc olunmuşdu və bu müddət ərzində bir kitaba yerləşməyəcək yeni fərziyyələr dağı yaranmışdı. Sorğu kitabında təqdim olunan müəlliflərdən çox azı sağ idi və deyəsən, onlardan heç biri solyaristliklə aktiv məşğul olmurdu. Adamı bürüyən bütün bu ən müxtəlif intellektual varlığın istiqamətləri belə təəssürat yaradırdı ki, hər hansı bir fərziyyə, sadəcə, həqiqi olmağa borcludur. Sorğu kitabının girişində Qravinski ona altmış il ərzində məlum olan solyarist dövrü haqqındakı fikirlərini bölüşmüşdü. Onda, intuitiv olaraq, «sağlam fikir» nöqteyi-nəzərindən okeanın özünün kiçik vulkanik fəaliyyəti və proseslərinin özünəməxsus avtomatikləşdirilməsi, dayanıqsız orbiti stabilləşdirməsi sayəsində heyrətləndirici formalar yaradan ölü, kimyəvi konqlomerat olduğu qəbul edilmişdi.

[1] Kompilyator – müstəqil tədqiqat aparmayan, başqalarının əsərlərindən istifadə eləyən

Doğrudur, artıq üç ildən sonra Majino «həlməşik maşınının» canlı təbiəti haqqında danışmışdı, amma Qravinski bioloji fərziyyənin dövrünə yalnız doqquz il sonra tarix qoymuşdu, onda Majinonun tam təklikdə qalan fərziyyəsi öz ətrafına çoxsaylı tərəfdar toplamağa başladı. Sonrakı illərdə canlı okeanın müfəssəl nəzəri modeli haqqında çox mürəkkəb, bioriyazi tədqiqatlarla əsaslandırılan fikirlər bolluğu yarandı.

Üçüncü dövr solyarist monolit birliyinin, demək olar dağılması və çoxlu miqdarda qızğın rəqabət məktəblərinin yaranması ilə müşahidə olunur. Bu, Panmalleranın, Strablinin, Freyhayzanın, Leqreyenin, Osipoviçin fəaliyyətə başladıqları dövr idi. Qezenin bütün irsi onda kəskin tənqidə məruz qalmışdı. İndiyə qədər öyrənilməsi mümkün olmayan forma hesab olunanların ilk atlasları, kataloqları, simmetriyalıların stereofotosu yaradıldı. Dönüş uzaqdan idarə olunan, hər saniyədə dəhşətli partlayışları ilə təhlükə törədərək qaynayan dərinliklərə buraxılan cihazların sayəsində oldu. O zaman minimalistlərin fərziyyəsi yarandı; bu fərziyyəyə görə, hətta «ağıllı əjdaha» ilə bədnam ad çıxarmış «əlaqə» yaratmaq belə mümkün olmayacaqdı, belə olan halda da okeanın yenidən udmaq üçün tulladığı mimoidlərin və şarabənzər dağların öyrənilməsi tamamilə qiymətli olan kimyəvi və fiziki-kimyəvi biliklərin, nəhəng molekulların quruluşu haqqında yeni məlumatların mənimsənilməsinə gətirib çıxaracaqdı. Amma belə ideyaların müəllifləri ilə hətta kimsə polemikaya belə girmədi. Bu dövr, Frankın indiyə kimi öz əhəmiyyətini itirməyən, mimoidlərin standart metamorfoz və ya bioplazmatik nəzəriyyə kataloqunun yaranması dövrü idi, hərçənd bu nəzəriyyə uydurma kimi rədd edilsə də, hələ də intellektual gücün və məntiqin dahiyanə nümunəsi kimi qalır.

Bu «Qravinski dövrləri» gəncliyin sadəlövhlüyü, kortəbii optik romantizmi, nəhayət – ilk olaraq skeptik səslər tərəfindən qeyd olunan – solyaristikanın kamillik dövrü idi. Artıq iyirmi beş illiyin sonunda Solyaris okeanının psixikası haqqında onların gecikmiş törəmələri olan ilk kolloid-mexaniki fərziyyələrin yaranması başladı. Şüuri iradənin yaranmasının hər cür axtarışları, proseslərin məqsədəuyğunluğu, okeanın daxili tələbatına əsaslanaraq hərəkəti,

az qala, bütöv bir alimlər nəsli tərəfindən qəbul edilirdi. Onların iddialarını rədd eləməyə qızğıncasına səy göstərənlər Xolden, Eonidas, Stovil tədqiqatçı qruplarının analitik işlənmiş, diqqətlə seçilmiş çoxlu faktlarına əsaslanaraq ayıqlar üçün mənbə hazırlayırdılar. Bu, arxivlərin, mikrofilmlər kartotekasının sürətlə şişməsi və böyüməsi dövrü idi. Bir-birinin ardınca mümkün olan hər cür avadanlıqlarla – özü yazan, qeydə alanlarla, nişan vuranlarla, yalnız Yerin verə biləcəyi zondlarla təchiz olunmuş ekspedisiyalar göndərilirdi. Bəzi illərdə tədqiqatlarda eyni zamanda mindən artıq adam iştirak eləyirdi. Lakin materialların arasıkəsilmədən toplanılması tempi hələ də artan o dövrdə alimləri ruhlandıran ideyalar getdikcə daha çox nəticəsiz olurdu. Solyaristikanın tənəzzülü (zamanını dəqiq müəyyən eləmək çətindir) dövrü başladı.

Solyarisin öyrənilməsi tarixi öncə güclü xarakterləri, parlaq şəxsiyyətləri olan Qeze, Ştrobel, Sevda tərəfindən başlanılıb; Sevda böyük solyaristlərin axırıncısı olub. O, planetin cənub qütbündə sirli şəraitdə həlak olmuşdu, elə naşılıq eləmişdi ki, hətta təzə gələnlər də belə naşılıq eləməzdilər. Yüzlərcə müşahidəçinin gözü önündə ökeanın üzərində öz maşınını «iti axının» dərinliklərinə doğru istiqamətləndirmişdi. Hansısa qəfil yorğunluqdan, bayğınlıqdan, istiqaməti müəyyən eləyə bilməməkdən danışırdılar... Həqiqətdə isə, mənim fikrimcə, bu, ilk intihar idi, çarəsizliyin ilk qəfil partlayışı idi. Birinci idi, amma axırıncı deyildi.

Tədricən solyaristikada daha az böyük şəxsiyyətlər qalırdı. Böyük qabiliyyətləri və xaraktercə böyük gücü olanlar qismən daimi tezlikdə anadan olurlar, amma onların seçimləri eyni olmur. Onların elmin müəyyən sahəsində olmalarını və ya olmamalarını onların açdıqları perspektivlərlə izah eləmək olar. Solyaristika klassiklərini müxtəlif cür qiymətləndirərkən onların istedadını, hətta dahiliklərini danmaq olmaz. Elektrofiziologiya, informasiya nəzəriyyəsi, biofizika sahəsində ən yaxşı riyaziyyatçıları, fizikləri, məşhur mütəxəssisləri on illər ərzində susan nəhəng özünə cəlb eləyirdi. Sonra ildən-ilə tədqiqatçılar ordusu öz rəhbərlərini itirməyə başladı. Sonra səbirlə faktları toplayan adı-sanı olmayan boz kütlə, çoxlu orijinal eksperimentləri yaradanlar qaldı, amma artıq bütün planeti əhatə eləyən

cəsarətli, müxtəlif faktları və yaranan fərziyyələri birləşdirən kütləvi ekspedisiyalar yox idi.

Solyaristika dağılmağa başlayır və sanki, uçuşların da aşağı düşməsi onu müşayiət eləyir, degenerasiya, involyusiya[1] solyarist dənizinin ölməsi haqqında bir-birindən fərqlənən, ikincidərəcəli detalları olan fərziyyələr kütləvi şəkildə artırdı. Hərdənbir daha cəsarətli, daha maraqlı fikirlər yaranırdı, amma çoxdan, min il əvvəl ən yüksək təşkilolunma dövrünü yaşayan, indisə yalnız fiziki cəhətdən bütöv olan, artıq çoxsaylı lazımsız, mənasız can çəkişən varlıqlara bölünmüş okean, ümumiyyətlə, inkişafın son məhsulu kimi qəbul edilirdi.

Mən uzun müddət ərzində ən gözə çarpmayan deyimləri toplayan, qeyri-mütəxəssislərin fikrini hesaba alan, cəmiyyətin ümumi rəyinin reaksiyasını öyrənən bir neçə avropalı psixoloqun orijinal işləri ilə tanış idim; onlar, beləliklə də, bu rəyin dəyişməsi ilə eyni zamanda, elmi cəmiyyətdə baş verən proseslər arasında sıx əlaqə olduğunu göstərmişdilər.



Beləcə, tədqiqatlara maddi kömək məsələsinin həll olunduğu Planetologiya İnstitutunun əlaqələndirici qruplarında dəyişiklik baş verdi, onlar da fasiləsiz olaraq, heç olmasa, mərhələ ilə solyarist institutlarının və bazalarının büdcəsinin, hətta planetə yollanan ekspedisiyalara verilən dotasiyaların azaldılmasını deyirdilər.

İnadla tədqiqatlar davamını tələb edənlərin səsi, güclü təsir eləyən vasitələrin tətbiqini tələb edənlərin səsinə qarışırdı. Amma deyəsən, heç kim Ümumdünya Kosmoloji İnstitutunun direktorundan uzağa getmədi; o, inadla deyirdi ki, ümumiyyətlə, fil öz kürəyində dolaşan qarışqaya əhəmiyyət vermədiyi kimi, okean da insanlara məhəl qoymur, sadəcə, onlara diqqət yetirmir və okeanın diqqətini cəlb eləmək üçün, onun fikrini bizə yönəltməsi üçün mütləq daha güclü impulslardan və bütün planet həcmində olan nəhəng maşınlardan istifadə eləmək lazımdır. Mətbuatın da qeyd elədiyi kimi, burada maraqlı detal Solyarisi maliyyələşdirən Planetologiya İnstitutunun direktorunun yox, Kosmologiya İnstitutunun direktorunun belə bahalı

---

[1] İnvolyusiya – orqanların fizioloji xassələrinin tərsinə pozulması

işlərə başlamasını tələb eləməsi idi. Bu, başqasının cibinin hesabına səxavət göstərmək idi.

Yenidən yeni ehtimalların burulğanı, köhnələrin canlanması, onlara əhəmiyyətsiz dəyişikliklərin edilməsi...

Nəticədə solyaristika getdikcə daha çox şaxələnən, büsbütün dalanlardan idarət olan labirintə sıxışdırılmış oldu. Ümumi etinasızlıq, durğunluq ab-havasında və digərinin ruhdan düşməsi nəticəsində nəticəsiz, heç kimə lazım olmayan kağız okeanı Solyaris okeanı ilə yanaşı üzməyə başladı.

«Bəlkə, biz gəlib dönüş məntəqəsinə çatmışıq», – mən düşündüm. İmtina eləmək, geri çəkilmək haqqında fikir indi, ya da yaxın gələcəkdə əsas fikir ola bilərdi. Hətta Stansiyanın ləğv edilməsini də mən mümkün olmayan və az ehtimal olunan iş hesab eləmirdim. Amma mən belə üsulla nəyisə xilas eləməyin mümkün olacağına inanmırdım. Düşünən nəhəngin varlığı fikrinin özü adamlara rahatlıq verməyəcəkdi. Qoy biz qalaktikanı gəzib-dolaşaq, qoy həqiqətdə bizimkinə oxşayan başqa sivilizasiyalarla nəfəs alaq, Solyaris insanlığa səslənən əbədi çağırış olacaq.

## YUXULAR

Heç bir reaksiyanın olmaması altı gündən sonra bizi eksperimenti təkrarlamağa məcbur elədi, bununla belə, indiyə kimi hərəkətsiz olaraq qırx üçüncü paralellə yüz on altıncı meridianın kəsişməsində yerləşən Stansiya okeanın üzərində dörd yüz metr hündürlükdə qərar tutaraq cənub istiqamətində hərəkət eləməyə başladı, cənubda isə radar sayğacları və satelloidin radioqramları plazma aktivliyinin hissolunacaq dərəcədə artdığını göstərirdi.

İki gün ərzində mənim ensefaloqramıma əsasən rentgen şüaları hər bir neçə saatdanbir okeanın, demək olar, tamamilə hamar olan səthini şüalandırırdı.

İkinci günün axırında biz qütbə o qədər yaxınlaşmışdıq ki, mavi günəşin bütün diski, demək olar, az qala, üfüqlərin arxasında gizlənmişdi, onun əks tərəfində, buludun dövrəsindəki qırmızı cizgilər qırmızı günəşin doğmasından xəbər verirdi.

Mavi günəş batandan dərhal sonra şimal-qərb istiqamətində, dərhal da siqnalizatorlar tərəfindən qeydə alınan simmetriada göründü, elə şölələnirdi ki, onu, az qala, tünd-qırmızı rəngə boyanmış dumandan ayırmaq mümkün deyildi və onun fonunda, plazmanın və göyün baş-başa çatdığı yerdə yalnız ayrı-ayrı güzgülü parıltılarla sayrışan nəhəng şüşə çiçəyi xatırladırdı. Lakin Stansiya istiqamətini dəyişmirdi və dörd saatdan sonra bu nəhəng, sanki, sönən rubin lampası kimi titrəyən qırmızı işıqla şəfəq saçaraq üfüqlərin arxasında gizləndi.

Yenidən iki gün keçdi, eksperiment axırıncı dəfə təkrar olundu; rentgen iynələri artıq okeanın daha böyük hissəsini əhatə eləyirdi. Üç yüz kilometr aralıda olsa belə, cənubda Arrenida – sanki, zirvələri qarla örtülmüş qurunun qayalıq hissəsi aydın görünməyə başladı. Əslində isə bu, üzvi törəmələrin yaranışının hücumu idi: bu, formasiyanın nə vaxtsa okeanın dibi olduğundan xəbər verirdi.



Biz kursu cənub-şərq istiqamətində dəyişdik və bir müddət qırmızı günə xas olan buludlarla örtülmüş dağ silsiləsi ilə paralel olaraq irəlilədik. İlk eksperimentdən on gün keçmişdi.

Bütün bu müddət ərzində Stansiyada heç nə baş verməmişdi. Sartorius bir dəfə eksperimentin proqramını tərtib eləmişdi və indi onu cihazlar avtomatik təkrar eləyirdi, mən hətta kiminsə onun işinə nəzarət elədiyinə də əmin deyildim. Amma eyni zamanda da, Stansiyada arzuladığımızdan da çox hadisələr olmuşdu. Doğrudur, burada adamlarlıq bir iş yox idi. Mən Sartoriusun annihilyator üzərində işinə başlayacağından ehtiyat eləyirdim. Bundan əlavə, Snautun Sartoriusdan mənim onu aldatdığımı, təhlükəni şişirtdiyimi, nəticədə də neytron materialın məhvinə səbəb ola biləcəyimi öyrənəndə verəcəyi reaksiyanı da gözləyirdim. Lakin mənim üçün əvvəlcə tamamilə anlaşılmaz olan səbəblərdən buna bənzər heç nə olmadı. Təbii ki, onlar tərəfindən hansısa bir hiylə olacağını diqqətdən qaçırtmırdım. Düşünürdüm ki, onlar gizlicə hansısa hazırlıqla məşğul olurlar və işləyirlər. Hər gün baş laboratoriyanın altında yerləşən, annihilyatorun da orada olduğu pəncərəsiz otağa baxırdım. Bircə dəfə də olsa, orada kimisə görmədim, cihazları örtən nazik toz qatı isə

onlara bir neçə həftə ərzində hətta kiminsə toxunmadığını göstərirdi.

Bu zaman Snaut da Sartorius kimi görünməz və ondan daha çox ələkeçməz oldu: radiostansiyanın viziofonu cavab vermirdi. Stansiyanın hərəkətini kimsə idarə eləməliydi, ancaq bunun kim olduğunu deyə bilmərəm, bu, məni, sadəcə, maraqlandırmırdı, halbuki, ola bilər, bu, qəribə səslənsin. Okean tərəfindən reaksiyanın olmaması da məni o dərəcəyə qədər etinasızlaşdırmışdı ki, iki, ya da üç gündən sonra, demək olar, onlara ümid olmağa və ya onlardan qorxmağa son qoydum və tamamilə okeanı da, eksperimentləri də unutdum. Bütöv bir günü ya kitabxanada, ya da kölgə kimi yanımda hərlənən Hari ilə birlikdə kabinədə keçirirdim. Mən bizdə hər şeyin yaxşı olmadığını, bu vəziyyətin ölgün və mənasız olduğunu, bu dayanıqsızlığın sonsuza qədər davam eləyə bilməyəcəyini görürdüm. Necəsə bu vəziyyəti, bizim münasibətlərimizdə nəyisə dəyişməliydim, amma hətta dəyişiklik haqqındakı hansısa fikri belə yaxın qoymurdum, müəyyən bir qərar qəbul eləməyə qadir deyildim.

Mən dəqiq izah eləyə bilmirəm, amma mənə elə gəlirdi ki, Stansiyadakı hər şey, mənimlə Hari arasında baş verənlər dəhşətli dayanıqsız tarazlıq vəziyyətindədir və onun pozulması hər şeyi xarabazarlığa döndərə bilər. Niyə? Bilmirəm. Ən qəribəsi də bu idi ki, hər ehtimala qarşı hansısa dərəcədə qız da buna oxşar hisslər keçirirdi. İndi nə vaxt ki bu haqda düşünürəm, mənə elə gəlir Stansiyanın bütün otaqlarını bürüyən tərəddüd təəssüratı, bütün baş verənlərin keçiciliyi, irəliləyən sarsıntı hansısa başqa bir üsulla zahirə çıxmayanı yaradırdı. Hərçənd başqa bir anlaşılmazlıq da var idi: yuxular. Nə qədər ki mən onların məzmununu yazmağı qərara almışam, yalnız buna görə onlar haqqında nəsə deyə bilərəm. Amma bu da yalnız onların dəhşətli müxtəlifliyindən məhrum olmuş parçalardır.

Hansısa başa düşülməyən şəraitdə, göyü, yeri, tavanı, döşəməsi, divarları olmayan boşluqda mən, sanki, qarışdırılmış və ya əlaqələndirilmiş, xarici mənə yad olan substansiyada idim, əgər mənim bədənim yarım metr böyüsəydi, ağır tərpənən, formasız qaya parçası kimi olsaydı,

ya da dəqiqi, mən özüm qaya parçası olsaydım, özümü belə hiss edərdim. Məni havada olmasından əlavə, optik xassələrə malik olan boşluqdan asılı qalmış, əvvəlcə aydın olmayan solğun-çəhrayı rəngli ləkə əhatəyə alırdı; beləliklə, yalnız çox yaxın məsafədən əşyalar dəqiq və hətta həddən artıq qeyri-adi dərəcədə dəqiq görünürdü; çünki bu yuxularda bilavasitə mənim ətrafım bütün dəqiqliyinə və maddiyyatına görə ayıqlıq təəssüratını geridə buraxırdı. Mən yuxudan inanılmaz hisslərlə oyanır, bu qənaətə gəlirdim ki, gerçəklik, həqiqi gerçəklik məhz yuxudur, gözümü açarkən gördüklərim isə yalnız hansısa quruyan kölgələrdir.

Başlanğıcda yuxunu doğuran ilk surət beləydi. Mən yalnız ən adi yuxular haqqında nəsə danışa bilərəm. Digər yerdə qalanların isə artıq reallıqda analoqu yox idi.



Elə yuxular olurdu ki, səssiz, donmuş qaranlıqda özümü işgüzar, ləng tədqiqatların obyekti hiss edirdim; bu tədqiqatlarda mənim qətiyyən hiss eləmədiym alətlərdən istifadə olunurdu. Bu, daxilolma, doğranma, tam boşluğa qədər məhv olmaq idi. Bu səssiz, sürətli işgəncələrin sərhədi, dibi qorxu idi; bir neçə gündən sonra belə bircə dəfə xatırlayanda ürəyimin döyüntüləri güclənirdi.

Eyni, sanki, solmuş, hər şeyə qarşı tam darıxdırıcı bir ikrah hiss elədiyim günlər isə intəhasız etinasızlıqla ölgüncəsinə sürünürdü. Yalnız gecələr qorxurdum və onlardan necə yaxa qurtarmağı bilmirdim. Ümumiyyətlə, yuxunun lazım olmadığı Hari ilə birlikdə oyaq qalır, onu öpür, əzizləyir, amma bilirdim ki, burada iş nə onluqdur, nə də mənlik, bütün bunları mən yuxuqabağı qorxu içində eləyirəm, hərçənd bu sarsıdıcı yuxular haqqında ona bircə söz belə deməsəm də, o nə isə təxmin eləmişdi, çünki mən onun itaətində arası kəsilməyən təhqir hiss eləyirdim və bununla heç nə eləyə bilmirdim.

Mən artıq bütün bu vaxt ərzində nə Snautla, nə də Sartoriusla görüşmədiyimi demişəm. Doğrudur, Snaut hər bir neçə gündən sonra qeyd yazıb göndərməklə, ən çox da telefon zəngləriylə öz varlığından xəbər verirdi. Mənim təkrar eksperimentlərin doğurduğu reaksiya kimi qiymətləndirilməsi mümkün olan kiminsə, nəyinsə varid olmasını görüb-görmədiyimlə maraqlanırdı. Mən görmə-

diyimi deyərək cavab verir və özüm də həmin sualı verirdim. Snaut ekranın dərinliyindən yalnız başını yelləyirdi.

Eksperimentlərə ara veriləndən on beş gün sonra yuxudan adətən olduğundan erkən oyandım; qorxulu yuxular o qədər işgəncə vermişdi ki, sanki, güclü narkozun yaratdığı bayğınlıqdan ayılmışdım. Pəncərənin qabağını kəsən örtük yox idi və qırmızı günəşin ilk şəfəqlərini, ölü düzənliyin hiss olunmadan necə həyəcanlanmağa başladığını gördüm. Onun sıx, qara işığı, sanki, dumanın nazik pərdəsi ilə örtülübmüş kimi dərhal ağardı, amma bu duman tamamilə maddi konsistensiyalı[1] idi. Haradasa onda həyəcan mərkəzləri yaranırdı və tədricən qeyri-müəyyən hərəkət bütün görünən boşluğu bürüyürdü. Qara işıq tamam yoxa çıxdı, onu yüksəkliklərdəki işıqlı-çəhrayı və çökəklərdəki zümrüdü-qırmızı pərdə örtdü. Okeanın bu heyrətləndirici örtüyünü donub-qalmış dalğalar sırasına döndərərək əvvəlcə rənglər növbələnirdi, sonra hər şey qarışırdı və artıq bütün okean nəhəng parçalarla yuxarı qalxan və Stansiyanın altında, ətrafında qabarcıqlı köpüklə örtülürdü. Bütün tərəflərdən eyni zamanda boş, qırmızı göyə zərqanadlı köpük dalğaları sovrulur, tamamilə buludlara oxşamayan, qıraqları şarabənzər çöküntülər formasında üfüqi yayılırdı. Üfüqi zolaqlarla alçaq günəş diskini örtən köpük öz çalarlarına görə günəşin işartısı ilə kömürtək qara rəngdə idi; digərləri, günəşdən uzaqda olmayanlar doğan günəşin işıqlandırma bucağından asılı olaraq sarıya çalır, tünd-qırmızı, qırmızı-bənövşəyi rənglə alışıb-yanırdılar və bütün bu proses davam eləyirdi; sanki, okean qanlı təbəqələrlə qabıq verirdi: gah bu təbəqənin altındakı qara səthini göstərir, gah da onu yeni köpük təbəqəsi ilə örtürdü. Bu köpük qayalarından bəziləri tamam bizimlə yanaşı, pəncərənin qabağıyla, hansısa bir neçə metrlikdən uçurdu, hətta biri öz ipək kimi yumşaq səthi ilə pəncərəyə toxunaraq sürüşüb keçdi. Bu zaman əvvəl uçub keçənlər uzaq göydə uçub gedən quşlar kimi güclə görünür və xəyali yüksəklikdə şəffaf pərdə kimi əriyirdilər.

Stansiya hərəkətsiz halda donubmuş və üç saata yaxın beləcə asılıb qalmışdı, amma görüntü davam eləyirdi.

---

[1] Konsistensiya – maddənin sıxlıq və məhlulların qəlizlik dərəcəsi

Günəş artıq üfüqlərə enmişdi; bizim altımızdakı okean artıq qaranlığa bürünürdü; nazik, çəhrayı siluetlər dəstəsi yüksəyə qalxdıqca-qalxırdı; sanki, çəkisiz, hərəkətsiz halda görünməyən simlərdən asılı qalmışdılar və bu əzəmətli yüksəlmə tamam qaranlıq düşənə kimi davam elədi.

Bütün bu sakit vüsəti ilə adamı heyran eləyən görüntü Harini sarsıtmışdı, amma mən heç nə deyə bilmirdim. Onun üçün olduğu kimi, bir solyarist kimi mənim üçün də bu hadisə yeni və anlaşılmayan idi. Yeri gəlmişkən, heç bir kataloqda qeydə alınmayan formaları Solyarisdə il ərzində iki-üç dəfə müşahidə eləmək olar, əgər bir qədər bəxtin gətirərsə, hətta daha tez-tez.

Növbəti gecə mavi günəşin çıxmasına, təxminən, bir saat qalmış biz digər bir nadir hadisənin şahidi olduq – okean qaranlıqda işıldamağa başladı. Bu hadisə artıq qorxulu idi. Qəbul olunduğu kimi, bu hadisə simmetriyasızın görünməsindən əvvəl müşahidə olunurdu, ümumilikdə desək, bu, plazma aktivliyinin məhəlli gücləndirilməsinin tipik əlaməti idi. Lakin sonrakı iki həftə ərzində Stansiya ətrafında heç bir hadisə baş vermədi. Yalnız bir dəfə gecədən xeyli keçmiş mən haradan gəldiyi bilinməyən, sanki, hər tərəfdən eyni vaxtda eşidilən uzaq qışqırıq eşitdim; bu qışqırıq qeyri-adi dərəcədə yüksək, qulaqbatıran və sürəkli idi, insana məxsus olmayan hansısa güclü hıçqırtı idi. Qorxulu yuxudan ayılaraq xeyli uzandım; qulaq asırdım və bu qışqırığın da yuxu olmadığına tam əmin deyildim. Bu hadisələrdən qabaq qismən bizim kabinənin üzərində yerləşən laboratoriyadan boğuq səslər eşidilirdi; sanki, orada nəsə ağır bir şey hərəkət eləyirdi. Mənə elə gəldi ki, qışqırıq da yuxarıdan gəlir, həm də tamamilə anlaşılmayan bir vasitənin köməyi ilə; çünki hər iki mərtəbə bir-birindən səs keçirməyən örtüklə ayrılmışdı. Bu can çəkişən səsi mən, az qala, yarım saat eşitdim. Tərdən islanmış, az qala, ağlımı itirmiş halda yuxarı qaçmaq istəyirdim: bu səs əsəblərimi cırmaqlayırdı. Amma səs bir balaca azaldı və yenidən yalnız hərəkət eləyən ağır şeyin səsi eşidilməyə başladı.

İki gündən sonra axşam, Hari ilə biz balaca mətbəxdə oturanda gözlənilmədən Snaut içəri girdi. O, kostyumda idi, əsl Yer kostyumunda və bu paltarı onu tamam dəyişdirmişdi. O, sanki, qocalmış və boyu ucalmışdı. Demək

olar ki, bizə baxmadan stola yaxınlaşdı, bizim üzərimizə əyildi, hətta oturmadan soyuq əti birbaşa bankadan yeməyə başladı; əti çörəklə yeyirdi. Pencəyinin qolu bir neçə dəfə bankanın içinə düşdü və bütünlüklə piyə bulaşdı.

– Pencəyini batırırsan, – mən dedim.

– Hm? – o, ağzı dolu halda donquldandı.

O, elə yeyirdi ki, sanki, bir neçə gün dilinə heç nə dəyməmişdi, özünə yarım stəkan çaxır süzüb birnəfəsə içdi, dodaqlarını sildi və nəfəsini dərərək qan sağılan gözləri ilə ətrafa göz gəzdirdi. Sonra mənə baxdı və donquldadı:

– Saqqal buraxıbsan?.. Hə, hə...

Hari qabları gurultu ilə su çanağına tökdü. Snaut dabanları üstə yüngülcə səndirləməyə başladı, sifətini büzüşdürdü və dili ilə dişlərini təmizləyərək ağzını bərkdən marçıldatdı. Mənə elə gəldi ki, o, bunu bilərəkdən eləyir.

– Qırxmaq istəmirsən, hə? – həyasızcasına mənə baxaraq soruşdu.

Mən cavab vermədim.

– Bax! – o, ləng dilləndi. – Məsləhət görmürəm. O da ilk olaraq üzünü qırxmağa son qoydu.

– Get yat, – mən dedim.

– Nə? Burada axmaq yoxdur. Biz nəyə görə də danışmayaq? Qulaq as, Kelvin, bəlkə, o, bizə xeyirxahlıq arzulayır? Bəlkə, bizi xoşbəxt eləmək istəyir, amma necə eləyəcəyini bilmir? O, bizim beynimizdən arzularımızı oxuyur, axı əsəb proseslərinin cəmisi iki faizi şüurludur. Buna görə də o, bizi bizim özümüzdən yaxşı tanıyır. Deməli, ona qulaq asmaq lazımdır. Onunla razılaşmaq lazımdır. Eşidirsən? İstəmirsən? Niyə? – onun ağlağan səsi titrədi, – niyə sən üzünü qırxmırsan?

– Əl çək, – mən mızıldandım, – sən sərxoşsan.

– Necə? Sərxoş? Hə, nə olsun? Məgər dəyərinin nə olduğunu öyrənmək üçün öz zirzibilini Qalaktikanın bu başından o başına daşıyan insan içməyə bilərmi? Niyə? Sən missiyaya inanırsan? Qibaryan saqqal buraxmamışdan əvvəl sənin haqqında mənə danışıb... Sən eynən onun dediyi kimisən... Ancaq laboratoriyaya getmə, bir qədər də inamını itirərsən... Orada Sartorius yaradır, bizim Faust ölümsüzlük əleyhinə vasitə axtarır. Bu, müqəddəs əlaqənin axırıncı reseptidir... onun əvvəlki fikri də pis deyildi

– davamlı canvermə. Pis deyil, hə? Aqoniya perpetua... çubuq... həsir şlyapa... Kelvin, sən necə içməyə bilərsən?

Onun, demək olar ki, görməyən, qapaqları şişmiş gözləri divarın yanında hərəkətsiz halda durmuş Harinin üzərində dayandı.

– Oho, okeanın doğduğu ağ Afrodita, – təmtəraqla danışmağa başladı, gülməkdən uğunub gedirdi. – Demək olar ki... eynən... bəs Kelvin? – o, xırıldayaraq öskürdü.

Mən hələ də sakit idim, amma bu sakitlik soyuq qızğınlıqla əvəz olunmağa başlayırdı.

– Əl çək! – mən qışqırdım. – Əl çək və çıx get!

– Məni qovursan? Sən də? Saqqal buraxırsan və məni qovursan? Artıq mənim səni xəbərdar eləməyimi istəmirsən, bir ulduz yoldaşı kimi sənə məsləhət verməyimi istəmirsən? Kelvin, gəl aşağıdakı lyukları açaq və aşağı, ona qışqıraq; bəlkə, eşitdi? Amma onun adı necədir? Qulaq as, biz bütün ulduzlara və planetlərə ad vermişik, amma bəlkə də, onların artıq adları var imiş. Bu necə qəsb eləməkdir? Qulaq as, gedək ora. Qışqıracağıq... Ona vahiməyə düşənə qədər bizimlə neylədiyini danışaq... bizim üçün gümüşü simmetriyalılar tikəcək, öz riyaziyyatı ilə bizim üçün dua eləyəcək və bizi özünün qana batmış mələkləri ilə əhatəyə alacaq; onun əzabları bizim əzablar olacaq, onun qorxusu bizim qorxu olacaq, bizim üçün sonsuza qədər dua eləyəcək. Sən niyə gülürsən? Mən axı yalnız zarafat eləyirəm. Bəlkə də, bizim cinsimizin daha çox yumor hissi olsaydı, iş bura qədər gəlib çıxmazdı. Bilirsənmi o neyləmək istəyir? O, bu okeanı fəth eləmək istəyir, onu o həddə qədər gətirib çıxartmaq istəyir ki, o, bütün dağları ilə birlikdə eyni zamanda qışqırsın... düşünürsən ki onun öz planını təsdiq olunmaq üçün özgəsinin günahını yüngülləşdirən birisi kimi, bizi bura göndərən o sklerozlu divanxanaya təqdim eləməyə cürəti çatmayacaq? Sən haqlısan, qorxur... amma yalnız papağından. Papağını heç kimə göstərməz, o, bizim Faust kimi cəsur deyil.

Mən susurdum. Snaut daha güclü səndirləyirdi. Onun yanaqları ilə göz yaşları axır və kostyumuna damcılayırdı.

– Bunu kim elədi? Bunu bizimlə kim elədi? Qibaryan? Qeze? Eynştyen? Platon? Bilirsən, bütün bunlar qatillər

olublar. Düşün, raketdə insan qabarcıq kimi partlaya, ya da dona və ya bişə, ya da elə tez qanı axa bilər ki, hətta qışqırmaz, sonra isə yalnız sümükləri metalı taqqıldadar, Eynşteynin düzəlişi ilə Nyuton orbitində fırlanar, bu da bizim tərəqqinin çax-çuxu! Bizsə həvəslə... çünki bu, gözəl yoldur... biz gəlib çatmışıq... qəfəslərə, bu boşqabların üzərində, ölümsüz qabyuyanların arasında, sədaqətli şkaflar dəstəsi ilə, sadiq ayaqyolularıyla, biz... bax, Kelvin. Əgər mən sərxoş olmasaydım, belə çərənləməzdim, amma ən nəhayət, bunu kimsə deməlidir. Bunda kim günahkardır? Burada sallaqxanadakı uşaq kimi oturursan və saçın çoxalır... Bu, kimin günahıdır? Özün özünə cavab ver...

O, sakitcə dönüb çıxdı, kandarda yıxılmamaq üçün qapıdan yapışdı və hələ bir müddət dəhlizdən onun addım səslərinin əks-sədası gəlib bizə çatdı.

Mən Harinin baxışlarından qaçırdım, amma birdən bizim baxışlarımız rastlaşdı. Ona yaxınlaşmaq, onu qucaqlamaq, saçlarını sığallamaq istəyirdim, amma bacarmırdım. Bacarmırdım.

## UĞUR

Sonrakı üç həftənin hər günü, sanki, eyni gün kimi keçirdi, hər bir keçən gün eynən dünənki gün kimi təkrarlanırdı. Pəncərənin örtükləri hərəkət eləyir və qalxırdı, gecələr mən bir qorxulu yuxudan digərinə düşürdüm, səhər biz qalxırdıq və oyun başlayırdı əgər bu, oyun idisə. Mən özümü sakit göstərirdim. Hari də. Bu dinməz razılıq, yalanın qarşılıqlı dərk edilməsi bizim axırıncı sığınacağımız idi. Biz Yerdə necə yaşayacağımız haqqında, hansısa bir böyük şəhərin ətrafında məskən salacağımızdan və bir daha heç vaxt mavi göyü, yaşıl ağacları tərk eləməyəcəyimizdən çox danışırdıq, birlikdə bizim gələcək evimizin necə olacağını, bağ salınmasını müzakirə eləyir və hətta xırda şeylərdən ötrü mübahisələşirdik... canlı hasar haqqında... oturacaq haqqında... Mən bir saniyəliyə belə buna inanırdımmı? Yox. Mən bunun mümkün olmadığını bilirdim. Mən bunu bilirdim. Çünki o hətta Stansiyanı tərk eləyə bilsə də, Yerə ancaq insan uça bilərdi, insan isə – sənədi ilə. İlk nəzarət

məntəqəsi bu səyahətə son qoyardı. Onun şəxsiyyətini aydınlaşdırmağa başlayarlar, bizi şüalandırarlar və bu da onu dərhal ələ verər. Stansiya bizim birlikdə yaşaya biləcəyimiz yeganə yer idi. Hari bu haqda bilirdimi? Yəqin ki. Ona bu haqda kimsə demişdimi? Bütün baş verənlərdən sonra düşünürəm ki, hə.

Bir dəfə gecə yuxuda olarkən Harinin yavaşca ayağa qalxdığını eşitdim. Onu qucaqlamaq istədim. İndi yalnız dinməzcə, yalnız qaranlıqda biz bir anlığa sərbəst ola bilirdik, mürgü içində bizi əhatə eləyən çarəsizlik yalnız yeni işgəncəni bir qədər təxirə sala bilirdi. O, mənim oyandığımı hiss eləmədi və mən əlimi ona uzadana qədər çarpayıdan düşdü. Mən hələ də yarıyuxulu halda yalın ayaqların şappıltısını eşitdim. Məni anlaşılmayan qorxu bürüdü.



– Hari? – mən pıçıldadım. Qışqırmaq istədim, amma ürək eləmədim və çarpayının üstündə oturdum. Dəhlizə açılan qapı sona qədər örtülməmişdi. İşığın nazik şüası qapının yarığından içəri süzülürdü. Mənə elə gəldi ki, boğuq səslər eşidirəm. Hari kimləsə danışırdı? Kimlə?

Sıçrayıb çarpayıdan ayağa qalxdım; varlığımı elə dəhşətli qorxu bürüdü ki, ayaqlarım mənə tabe olmaqdan imtina elədi. Bir anlığa qulaq verərək dayandım; sakitlik idi, sonra yavaş-yavaş çarpayıya qayıtdım. Başımda qan quduzcasına vururdu. Hari içəri girdi və sanki, mənim nəfəsimə qulaq asaraq yerindəcə donub-qaldı. Təmkinlə nəfəs almağa çalışırdım.

– Kris?.. – o, sakitcə pıçıldadı.

Mən cavab vermədim. O, cəld yatağa girdi. Onun şax uzanaraq necə donub-qaldığını hiss edirdim və hərəkətsiz halda onunla yanaşı nə qədər uzandığımı bilmirəm. Hansısa bir məsələ haqqında düşünməyi sınadım, amma vaxt nə qədər çox keçirdisə, mən o qədər də yaxşı başa düşürdüm ki, birinci danışmayacağam. Bir müddətdən sonra, bəlkə də, bir saatdan sonra mən yuxuya getdim.

Səhər həmişə olduğu kimiydi. Mən şübhə ilə, amma yalnız onun hiss eləməyəcəyi tərzdə ona baxdım. Nahardan sonra biz qabarıq pəncərənin yanında oturmuşduq, pəncərənin arxasında alçaq tünd-qırmızı buludlar buxarlanırdı. Stansiya bu buludların arasıyla, sanki, gəmi kimi

üzürdü. Hari hansısa kitabçanı oxuyurdu, mənsə daxili aləmimə qapılaraq mənim üçün yeganə dincələ bildiyim bir vəziyyətdəydim. Hiss elədim ki, başımı müəyyən qədər əyəndə bizim pəncərədəki şəffaf, amma dəqiq əkslərimizi görmək mümkündür. Mən oturuşumu dəyişdim və əlimi kürsünün qoltuğundan götürdüm. Hari – mən bunu şüşədə görürdüm – cəld mənə baxdı, mənim okeana baxdığıma əmin olandan sonra kreslonun qoltuğuna tərəf əyildi və dodaqlarıyla indicə mənim əlimi qoyduğum yerə toxundu. Mən qeyri-adi dərəcədə hərəkətsiz oturmaqda davam eləyirdim, o isə başını kitabın üzərinə əymişdi.

– Hari, – mən astadan dedim, – sən bu axşam hara getmişdin?

– Gecə?

– Bəli.

– Sən... nəsə yuxu görübsən. Mən heç yerə getməmişəm.

– Getməyibsən?

– Yox. Sən, yəqin, yuxuda görübsən.

– Ola bilər, – mən dedim. – Ola bilsin, bu, mənim yuxuma girib.

Axşam yatağa girəndə yenidən bizim səyahətimiz, Yerə qayıtmağımız haqqında danışmağa başladım.

– Ah, bu haqda eşitmək istəmirəm, – sözümü kəsdi. – Lazım deyil, Kris. Sən axı bilirsən...

– Necə?

– Yox, heç nə.

Biz artıq yerimizə uzananda o, su içmək istədiyini dedi:

– Orada stolun üzərində bir stəkan şirə var, zəhmət olmasa, onu mənə ver.

O, stəkanı yarıya qədər içib mənə verdi. Mənim içmək istəyim yox idi.

– Mənim sağlığıma, – gülümsədi.

Mən şirəni içdim. O, mənə bir qədər duzlu göründü, amma mən buna diqqət vermədim.

– Əgər sən Yer haqqında eşitmək istəmirsənsə, onda nədən danışaq? – o, işığı söndürəndə mən soruşdum.

– Əgər mən olmasaydım, sən evlənərdinmi?

– Yox.

– Heç vaxt?

– Heç vaxt.

– Niyə?

– Bilmirəm. Mən on il tək idim və evlənmədim. Bu haqda danışmayaq, əzizim...

Başım uğuldayırdı, sanki, bir şüşə şərab içmişdim.

– Yox, danışacağıq, mütləq danışacağıq. Əgər mən səndən xahiş eləsəm?

– Mən evlənim deyə? Hari, cəfəngiyatdır. Mənə səndən başqa heç kim lazım deyil.

O, mənim üzərimə əyildi. Mən dodaqlarımda onun nəfəsini hiss elədim, sonra o, məni elə qızğınlıqla qucaqladı ki, qarşısını ala bilmədiyim yuxululuğum bircə anda yoxa çıxdı.

– Bunu başqa cür de.

– Mən səni sevirəm.



Hari üzünü sinəmdə gizləmişdi, mən onun ağladığını hiss elədim.

– Hari, sənə nə olub?

– Heç nə. Heç nə. Heç nə, – o, getdikcə daha astadan təkrar elədi. Mən gözlərimi açmağa cəhd elədim, amma onlar yenidən yumuldu. Necə yatdığımı xatırlamıram.

Məni qırmızı işıq yuxudan oyatdı. Başım qurğuşun kimi idi, boynum isə hərəkətsizdi, sanki, bütün fəqərə sümüklərim bitişmişdi. Kələ-kötür, hissiz-duyğusuz dilimi ağzımda tərpədə bilmirdim. «Bəlkə də, nədənsə zəhərlənmişəm?» – düşündüm və çətinliklə başımı qaldırdım. Əlimi Hariyə tərəf uzatdım, əlim soyuq mələfəyə toxundu və mən ayağa sıçradım.

Çarpayı boş idi, kabinədə isə heç kim yox idi. Qırmızı disklə şüşələrdə günəşin əksi təkrar olunurdu. Yəqin, mən komik görünürdüm, çünki sərxoş adamlar kimi səndirləyirdim. Mebellərdən yapışaraq şkafa qədər getdim; hamamda heç kim yox idi. Dəhlizdə və laboratoriyada da.

– Hari! – mən dəhlizin ortasında dayanaraq bağırdım və nizamsız halda əllərimi yelləməyə başladım. – Hari... – mən artıq başa düşərək bir də xırıltılı səslə dedim.

Sonra nə baş verdiyini dəqiq xatırlamıram. Yəqin ki, mən yarıçılpaq halda bütün Stansiya boyunca qaçmışam. Hətta soyuducuya girdiyimi, sonra ən axırıncı anbarda olduğumu və bağlı qapını yumruqlarımla döyəclədiyimi də

xatırlayıram. Bəlkə də, mən oralarda bir neçə dəfə olmuşdum. Pilləkənlər guruldayırdı, mən geri dönür, yerimdən qopub yenidən harasa cumurdum, bu, xaricə ikiqat zirehi olan qapıyla çıxışı olan şəffaf sipərin yanında olana kimi davam elədi. Mən qapını hər iki əlimlə var gücümlə döyəcləyir və qışqırır, bunun yuxu olmasını tələb eləyirdim. Kimsə artıq bir müddətdi mənimləydi, məni saxlamışdı, harasa dartırdı. Sonra mən balaca bir laboratoriyada oldum; köynəyim buzlu sudan islanmışdı, saçlarım üzümə yapışmışdı; burnumun deşiklərini və dilimi spirt yandırmışdı, mən yarıuzanılı halda metal kimi soyuq nəyləsə nəfəs alırdım, Snaut isə ləkəli şalvarıyla dərman şkaflarının yanında vurnuxurdu: nəsə tapdı; alətlər və şüşə dəhşətli dərəcədə cingildəyirdi.

Birdən mən onu qarşımda gördüm. O, diqqətlə, kədərli halda mənim gözlərimə baxırdı.

– O haradadır?

– O yoxdur.

– Amma... amma Hari...

– Daha Hari yoxdur, – o, sifətini mənə yaxınlaşdıraraq ağır-ağır, mənalı tərzdə dedi, sanki, məni vurmuşdu və indi də onun nəticələrini öyrənirdi.

– O qayıdacaq... – mən gözlərimi yumaraq pıçıldadım. İlk dəfə, həqiqətən də, bundan qorxmadım. Onun xəyali qayıdışından qorxmadım. Mən ondan nə vaxtsa necə qorxduğumu başa düşmürdüm.

– İç bunu.

O, mənə içərisində isti maye olan stəkanı verdi. Mən ona baxdım və birdən stəkanın içərisindəkini onun sifətinə çırpdım. O, gözlərini silərək geri çəkildi, gözlərini açanda isə mən onun yanında dayanmışdım. O, elə balaca idi...

– Bu sənsən?

– Sən nədən danışırsan?

– Aldatma, nədən danışdığımı bilirsən. Onda, gecə sən onunla danışıbsan. Mənə yuxu dərmanı verməyi ona sən əmr eləyibsən... Onu neyləyibsən? Danış!!!

O, sinəsində nəsə axtardı, sonra əzilmiş zərfi çıxartdı. Mən zərfi aldım. Zərf yapışqanla yapışdırılmışdı. Üzərində heç bir yazı yox idi.

Həyəcanla kağızı cırdım, içərisindən dörd qatlanmış vərəq düşdü. İri, bir qədər uşaq hərfləri, bərabər olmayan sətirlər. Mən xətti tanıdım.

«Əzizim, mən özüm ondan bunu xahiş elədim. O mehribandır. Dəhşətdir ki, səni aldatmaq lazım gəldi, amma başqa cür də mümkün deyildi. Ona qulaq as və özünə qarşı heç bir pislik eləmə – mənə görə. Sən çox yaxşı idin».

Aşağıda üstü xətlənmiş bircə söz vardı və mən onu oxuya bildim: «Hari». O, bu sözü yazmış, sonra üzərini qaralamışdı. Daha bir hərf var idi, onu da qaralamışdı, ya X, ya da K hərfi idi. Mən isterikaya qapılmamaq üçün kifayət qədər sakitləşmişdim, amma bircə səs belə çıxartmağa qadir deyildim, hətta inildəməyə də.

– Necə? – pıçıldadım. – Necə?

– Kelvin, sonra. Sakit ol.



– Mən sakitəm. Danış. Necə?

– Annihilyasiya.

– Bu necə ola bilər? Axı cihaz?! – məni, sanki, yuxarı tulladılar.

– Roşenin cihazı kara gəlmədi. Sartorius başqasını yığdı, xüsusi destabilizator, daha balaca. O yalnız bir neçə metrlik radiusda təsir göstərirdi.

– Ona nə oldu?..

– Yoxa çıxdı. Parıltı və küləyin ani şiddətlənməsi. Yüngülcə şiddətlənməsi. Başqa heç nə.

– Deyirsən kiçik radiusda?

– Hə. Böyük radius üçün material bəs eləmirdi.

Divarlar üzərimə uçmağa başlayırdı. Mən gözlərimi yumdum.

– Aman Allahım... o... qayıdacaq, axı qayıdacaq...

– Yox.

– Necə yəni yox?

– Yox, Kelvin. Yüksəyə qalxan o köpüyü xatırlayırsan? O vaxtdan artıq qayıtmırlar.

– Daha yox?

– Yox.

– Sən onu öldürdün, – mən astadan dedim.

– Hə. Bəs sən mənim yerimdə olsaydın, belə eləməzdin?

Mən yerimdən qopdum və cəld gəzişməyə başladım. Divarlardan küncə və oradan da geriyə. Doqquz addım. Dönmə. Doqquz addım.

Sonra onun qabağında dayandım.

– Qulaq as, raport verək. Bizi bilavasitə Şura ilə birləşdirmələrini tələb eləyək. Bunu eləmək olar. Onlar razılaşarlar. Mütləq. Planet Dördlərin konvensiyasından çıxarılacaq. Bütün vasitələrə icazə veriləcək. Antimateriyanın generatorlarını gətirərik. Düşünürsən antimateriyanın qarşısında dura biləcək nəsə var? Heç nə yoxdur! Heç nə! – göz yaşları gözümü örtmüş halda qışqırdım.

– Onu məhv eləmək istəyirsən? – o soruşdu. – Niyə?

– Çıx get. Məni rahat burax!

– Getmərəm.

– Snaut!

Mən onun gözlərinə baxdım. O «Yox», deyərək başını yırğaladı.

– Sən nə istəyirsən? Sən məndən nə istəyirsən?

O, stola yaxınlaşdı.

– Yaxşı. Raport yazaq.

Mən geri döndüm və gəzişməyə başladım.

– Otur.

– Məni rahat burax.

– Məsələnin iki tərəfi var. Birincisi – faktdır. İkincisi – bizim tələbimiz.

– Bu haqda indi danışmaq mütləqdirmi?

– Bəli, indi.

– İstəmirəm. Başa düşürsən? Bunun mənə dəxli yoxdur.

– Axırıncı dəfə biz Qibaryanın ərəfəsində məlumat göndərmişik. Bu, iki ay bundan əvvəl olub. Biz varidolmanın dəqiq proseslərini müəyyən eləməliyik.

– Əl çəkmirsən? – onun sinəsindən yapışdım.

– Məni vura bilərsən, – o dedi, – amma mən, onsuz da, danışacağam.

Mən onu buraxdım.

– Nə istəyirsən elə.

– İş burasındadır ki, Sartorius bəzi faktları gizlətmək istəyir. Mən buna, demək olar ki, əminəm.

– Bəs sən yox?

– Yox. İndi artıq yox. Bu, təkcə bizə aid olan iş deyil. Bilirsən söhbət nədən gedir? Okean şüurlu fəaliyyət göstərir. O, bizim orqanizmlərimizin quruluşunu, mikroquruluşunu, maddələr mübadiləsini bilir.

– Əla. Bəs sən niyə dayandın? Bizim üzərimizdə eksperimentlər seriyasını... sınaqdan çıxartdın. Psixi viviseksiya[1]. Bizim nəyə can atdığımızla hesablaşmadan beynimizdən oğurladığı biliklərə əsaslanaraq.

– Kelvin, bunlar artıq fakt deyil, heç nəticə də deyil. Bunlar ehtimallardır. Müəyyən mənada o nəyi istəyirdisə, yəni bizim şüurumuzun qapalı, gizli hissəsi ilə hesablaşırdı. Bu hədiyyələr verə...

– Hədiyyələr! Böyük göylər! – Mən gülməyə başladım.

– Sus! – o, əlimdən yapışaraq qışqırdı.



Onun barmaqlarını sıxdım və sümüklərin xırçıltısını eşidənə qədər getdikcə daha bərk sıxmağa başladım. O, gözlərini qıyaraq mənə baxırdı. Onu buraxdım, küncə çəkildim və üzü divara tərəf dayanaraq dedim:

– İsterikaya qapılmamağa çalışacağam.

– Bütün bunlar vacib deyil. Biz nə təklif eləyirik?

– Sən de. Mən indi bacarmıram. O nəsə dedimi əvvəl?..

– Yox. Heç nə. Mən bizim şansımız yaranacağını düşünürəm.

– Şans? Hansı şans? Nəyə? – birdən mən başa düşdüm. – Əlaqə? Yenidən əlaqə? Bu azmış kimi, sən, sən özün və bütün bu dəlixana... Əlaqə? Yox, yox, yox. Mənsiz.

– Niyə? – o, tamamilə sakitcə soruşdu. – Kelvin, sən hələ də, nə vaxtsa olduğundan daha çox indi instinktlə ona insan kimi yanaşırsan. Ona nifrət eləyirsən.

– Bəs sən yox?

– Yox. Kelvin, axı o, kordur.

– Kor? – mənə elə gəldi ki, səhv eşitdim.

– Bizim düşüncələrimiz baxımından. Biz onun üçün bir dost kimi yoxuq. Bizim gördüyümüz sifətlər, fiqurlar bizə ayrı-ayrı şəxsləri tanımağa imkan verir. Onun üçünsə bütün bunlar şəffaf şüşədir. Axı bizim beynimizin içərisinə nüfuz eləyib.

– Di, yaxşı. Amma bundan nə nəticə hasil olur? Sən nəyi sübut eləmək istəyirsən? Əgər o, canlana, mənim

---

[1] Viviseksiya – elmi məqsədlə heyvanların yarılması

yaddaşımdan kənarda olmayan insanı yarada bilirsə və bunu elə eləyirsə ki bu insanın səsi, hərəkətləri, səsi... səsi...

– Danış! Danışmaqda davam elə, eşidirsən!!!

– Danışıram... danışıram... Hə. Demək... səsi... bundan da o nəticə çıxır ki, o, bizi bir kitab kimi oxuya bilir. Mənim nə demək istədiyimi başa düşürsənmi?

– Bəli. Necə ki, əgər istəsəydi, bizi başa düşə bilərdi.

– Əlbəttə. Məgər bu görünmürmü?

– Yox. Ümumiyyətlə, yox. Axı o, təkcə istehsal reseptini götürə bilərdi, bu reseptsə sözlərdən ibarət deyil. Beynimizdə qorunub saxlanılan heç bir yazı yoxdur, spermatozoidin başlığı və ya yumurta kimi zülallı quruluşlar var. Beynimizdə heç bir söz, hiss, insan xatirələri yoxdur – bu, nuklein turşularının molekulyar asinxron kristallara yazdığı surətdir. O da bizim beynimizdə daha dərin izlər buraxanı götürüb, başa düşürsənmi? Amma o, tamamilə bunun bizim üçün nə əhəmiyyəti, nə mənası olduğunu bilməli deyil. Eynən belə ki, əgər biz simmetriadanı yarada bilsəydik və onun arxitekturasını və tikinti materiallarını bilsəydik, amma nəyə xidmət elədiyini, onun üçün nə demək olduğunu bilmədən okeana atsaydıq...

– Bu mümkündür, – mən dedim. – Bəli, bu mümkündür. Belə olan halda o, ümumiyyətlə... bəlkə də, bizi tapdalamaq və əzmək istəməzdi. Bəlkə də. Yalnız təsadüfən... – mənim dodaqlarım titrədi.

– Kelvin!

– Hə, hə. Yaxşı. Artıq hər şey qaydasındadır. Sən yaxşı adamsan. Hamı yaxşıdır. Amma niyə? Mənə izah elə. Niyə? Sən bunu nədən ötrü elədin? Sən ona nə dedin?

– Həqiqəti.

– Həqiqəti, həqiqəti! Nəyi?

– Sən axı bilirsən. Yaxşısı budur, mənim yanıma gedək. Raport yazacağıq. Gedək.

– Gözlə. Hər halda, sən nə yazmaq istəyirsən? Axı sən Stansiyada qalmağa hazırlaşmırsan?

– Hə, mən qalmaq istəyirəm. İstəyirəm.

# QOCA MİMOİD

Mən böyük pəncərənin yanında oturub okeana baxırdım. Heç bir işim yox idi. Beş gün ərzində işləyib tamamladığım raport indi dalğalara dönüb haradasa Orion bürcünün arxasındakı boşluqda sürətlə yayılırdı. Səkkiz trilyon kubmil sahəni əhatə eləyən, işıq şüalarını və istənilən digər siqnalları udan tutqun, tozlu dumanlığa çatandan sonra ilk olaraq ötürücülərin uzun zənciri ilə toqquşacaq. Buradan da bir radioötürücüdən digərinə ötürülərək, axırıncı ötürücüyə, sıx yerləşdirilmiş, dəqiq cihazlarla doldurulmuş, uzun burunlu, istiqamətləndirilmiş antenaları olan metal qayaya çatana kimi nəhəng qövsün içərisiylə milyardlarla kilometr yolu qət edəcək, burada isə onu axırıncı dəfə mərkəzləşdirmədən boşluğa, Yerə tullayacaqlar. Sonra aylar keçəcək və eynən arxasınca qalaktikanın cazibə sahəsinin zərbə deformasiyasının şırım kimi uzandığı belə bir enerji dəstəsi onun yanından sürüşüb keçəcək, boyunbağı kimi axınla hərəkət edən yelkənli gəmilərin boyunca gedəcək və onlar tərəfindən gücləndirilmiş halda, sürətini azaltmadan Solyarisin iki günəşinə doğru çapacaq.



Yüksələn qırmızı günəşin altındakı okean həmişə olduğundan qara idi. Hava həddən artıq bürkülüydü, sanki, planetdə ildə bir neçə dəfə baş verən, müstəsna dərəcədə nadir və ifadəolunmaz dərəcədə şiddətli tufanın yaxınlaşmasını nişan verirdi. Belə hesab eləyirdilər ki, onun yeganə sakini iqlimə nəzarət eləyir və bu tufanları özü yaradır.

Hələ bir neçə ay da mən bu okeandan baxası olacağam: yüksəklikdən ağ qızılın doğuşunu və hərdənbir hansısa maye püskürməsini özündə əks etdirən darıxdırıcı tünd-qırmızı rəngləri, simmetriadanın gümüşü qovuqcuqlarını müşahidə eləyəcək, küləkdən əyilən qəşəng düzülmüş itigedənləri izləyəcək, səpələnən, havasını dəyişən mimoidləri müşahidə eləyəcəyəm. Günlərin bir günündə bütün viziofonlar işıqla dolacaq, yüz min kilometrlərlə uzaqdan buraxılan, sürəkli gurultu ilə okeanın üzərinə düşəcək metal nəhəngin yaxınlaşmasını xəbər verən impulsların təsiri ilə artıq çoxdan ölmüş olan siqnalizasiyanın elektron sistemi canlanacaq. «Uliss» və ya «Prometey», ya da hansı-

sa başqa bir uzaq məsafəyə üzən gəmi... Stansiyanın yastı damından trapla düşən adamlar insanla əsas günahlarını bölüşməyən, hər bir əmri yerinə yetirəcək qədər sadəlövh olan zirehli, kütləvi avtomatlar cərgəsini görəcəklər. Əgər onların kristal yaddaşları belə proqramlaşdırılıbsa, lap özlərini və ya onların yolu üstə duran əngəlləri tam məhv eləmək üçün verilən bütün əmrləri belə yerinə yetirirlər. Sonra ulduz gəmisi havaya qalxır, səs sürətindən iti sürətlə uçur və yalnız sonra gurultunun konusvari boğuq dalğası gəlib okeana çatır, bütün adamların sifəti isə bir anlığa evə qayıtdıqlarını düşündükləri üçün işıqlanır.

Amma mənim evim yoxdur. Yer? Mən onun adamlarla dolu olan səs-küylü şəhərləri haqqında düşünürəm; bu şəhərlərdə ikinci, ya üçüncü gecə burada eləmək istədiyim kimi, aşağıda gərgincəsinə həyəcanlanan okeana atılmaq istədiym kimi itərəm, yoxa çıxaram. Mən adamların içərisində boğularam. Diqqətli və qaradinməz olacağam və bu müddət ərzində məni yoldaşlarım dəyərləndirəcəklər. Mənim çoxlu tanışım olacaq, hətta dostlarım və qadınlar da, bəlkə də, bir qadın. Bir müddət gülümsəmək, salamlaşmaq, ayağa qalxıb Yer həyatının əsasını təşkil eləyən minlərlə kiçik işi görmək üçün cəhd eləyəcəyəm. Yeni maraqlar əmələ gələcək, yeni məşğələlər... Amma mən hər şeyi bütünlüklə onlara verməræm. Daha heç nəyə və heç kimə heç vaxt. Bəlkə də, gecələr iki günəşin şəfəqlərinin qarşısını kəsən qara örtük kimi göyün üzünü örtən tozlu qara buludlara baxacağam və indi düşündüyüm kimi hər şeyi xatırlayacağam. Hələ bir qədər təəssüf hissi, amma eyni zamanda da, mənim ağılsızlığımın və ümidlərimin də üstünlüyü olan mərhəmətli təbəssümlə gülümsəyəcəyəm. Mən heç də özümü «Əlaqə» adlanan işdən ötrü hər şeyə hazır olan həmin o Kelvindən pis hesab eləməyəcəyəm. Və heç kimin məni mühakimə eləməyə haqqı olmayacaq.

Snaut kabinəyə girdi. O, içərini gözdən keçirdi, mənə baxdı. Mən ayağa qalxıb stola yaxınlaşdım.

– Sənə nəsə bir şey lazımdırmı?

– Mənə elə gəlir sənlik bir iş yoxdur, – o, gözlərini qırparaq dedi. – Mən sənə hansısa hesablamaları verə bilərəm, doğrudur, bu, elə də təcili lazım deyil...

– Sağ ol, – mən gülümsədim. – Vacib deyil.

– Sən buna əminsən, – o, pəncərəyə baxaraq soruşdu.

– Hə, mən müxtəlif şeylər haqqında düşündüm və...

– Sənin o qədər düşünməməyinə üstünlük verərdim, – Snaut sözə başladı və birdən tamam astadan, hansısa başqa səslə dedi: – Mimoid...

– Necə? Ah, hə. Mən artıq hiss elədim. O çox qocadır.

Biz hər ikimiz sarı çənlə örtülən göyə baxırdıq.

– Uçuram, – mən gözlənilmədən dedim. – Həm də bircə dəfə də Stansiyanı tərk eləməmişəm, bu isə yaxşı səbəbdir. Yarım saatdan sonra qayıdacağam.

– Nə məsələdir? – Snautun gözləri geniş açıldı. – Uçursan? Hara?

– Ora, – mən dumanda əriyən qayaları göstərdim. – Buna nə mane olur? Balaca vertolyotu götürəcəyəm... Bilirsən, nə vaxtsa mənim Yerdə etiraf eləməyim ki, mən, solyarist, bircə dəfə də ayağımı Solyarisin səthinə qoymamışam, gülməli olardı.



Vertolyotdan on-on beş addım uzaqlaşdım və cadar-cadar olmuş, çatlamış «torpağın» üzərində oturdum. Qara dalğa ağır-ağır sahilə doğru sürünürdü, yastılanır, tamam rəngsiz olur və arxasınca nazik titrəyən seliklər buraxaraq çəkilirdi. Mən aşağı düşdüm və əlimi növbəti dalğaya uzatdım. O, adamların ilk dəfə, demək olar ki, yüz il bundan əvvəl gördükləri həmin o nadir hadisəni təkrar elədi – yavaşıdı, bir qədər çəkildi, əlimə toxunmadan çünki əlcəyimin səthi ilə dərinləşmənin daxili divarı arasında elastiki, nazik hava axını vardı – əlimi ağuşuna aldı. Əlimi yavaşca qaldırdım. Dalğa, daha dəqiqi, onun nazik dili əvvəlkitək əlimi işıqlı, çirkli-yaşıl mayesi ilə əhatə eləyərək əlimin arxasınca yuxarı uzandı. Ayağa qalxdım – çünki əlimi yuxarı qaldıra bilmirdim – bu həlməşik maye də sim kimi gərildi, amma qırılmadı. Sanki, əsasını tamamilə yastılanmış dalğaların qoyduğu qəribə varlıq ayaqlarıma toxunmadan sahildə ayaqlarımın ətrafında qısılıb qalmışdı və səbirlə bu tədqiqatın qurtarmasını gözləyirdi. Sanki, okeandan ucalan bir çiçək boy atırdı, qönçəsi də mənim barmaqlarımı əhatəyə almışdı, eynilə barmaqlarımın neqativ əksinə oxşayırdı.

Mən geri çəkildim. Saplaq titrədi və könülsüz halda aşağı qayıtdı; elastiki, titrəyən, inamsız dalğa azacıq qalxaraq onu qoynuna aldı və sahillə dənizin sərhədində yoxa çıxdı. Mən bu oyunu təkrar elədim və yenidən, yüz il bundan əvvəl olduğu kimi növbəti dalğa, sanki, yeni təəssüratlardan doymuş halda etinasızcasına geri çəkildi. Mən onun «marağının» yenidən oyanması üçün bir neçə saat gözləmək lazım gələcəyini bilirdim. Yenidən sahildə oturdum, amma nəzəri cəhətdən mənə yaxşı tanış olan bu mənzərə məni nəsə dəyişmişdi. Nəzəriyyə real hissetməni əvəz eləyə bilmədi, bunu bacarmadı.

Bu varlığın yaranmasında, böyüməsində və yayılmasında, onun hər bir ayrı hərəkətində və hamısında birlikdə hansısa ehtiyatlı, amma ürkək bir sadəlövhlük var idi. O, ehtirasla, qızğınlıqla gözlənilmədən rastlaşdığı formanı öyrənməyə, anlamağa çalışırdı və yarıyolda, gizli qanunlarla müəyyən olunmuş sərhədləri pozmaq lazım gələndə isə çarəsiz halda geri çəkilirdi. Bu şux hər şeyi bilmək həvəsi işıldayaraq üfüqlərin özünə qədər uzanan nəhənglə qətiyyən bağlı deyildi. Mən heç vaxt onun nəhəng reallığını, əcaib mütləq sükutu belə hiss eləməmişdim.

Mən mütəəssir olmuş, sarsılmış halda xəyala daldım, sanki, hərəkətsizliyin əlçatmaz vəziyyəti, hər şey sürətlə bu maye, kor nəhənglə birləşirdi və özünü heç bir zora salmadan, sözsüz, bircə fikri belə olmadan hər şeyi ona bağışlayırdı.

Sonrakı bütün həftəni özümü elə düşüncəli apardım ki, Snautun inamsız baxışları məni təqib eləməyə son qoydu. Mən xaricdən sakit idim, amma qəlbimin dərinliklərində bu haqda özümə hesabat vermədən nəsə gözləyirdim. Nəyi? Harinin qayıtmasını? Bunu necə istəyə bilərdim? Bircə saniyəliyə belə inanmırdım ki, özündə yüzlərcə insanı məhv eləmiş, on illər ərzində mənim bütün irqimin azacıq da olsa başa düşməyə cəhd elədiyi, məni toz zərrəciyi kimi qaldıran və hətta bunu hiss belə eləməyən bu nəhəng əjdaha iki nəfərin faciəsindən təsirlənəcək. Amma axı onun hərəkəti hansısa hədəfə doğru istiqamətlənmişdi. Doğrudur, mən hətta buna da sona kimi əmin deyildim. Amma

getmək – yoxa çıxan kiçik, bəlkə də, yalnız təsəvvürdə mövcud olan, gələcəyi gizləyən bu şansdan imtina eləmək olacaqdı. Beləliklə, bizim hələ də nəfəs almağımızı belə xatırlayan, bizim hər ikimizin toxunduğu əşyaların, şeylərin arasında bir il yaşamaq? Nəyin xatirinə? Onun qayıtmasına ümid eləməklə? Mənim ümidim yox idi. Amma məndə bir gözləmə hissi yaşayırdı: ondan mənə qalan yeganə şey bu idi. Mən hələ də hansı yaranışları, təhqirləri, hansı əzabları gözləyirdim? Bilmirəm. Amma dəhşətli möcüzələr vaxtının hələ keçmədiyinə qəti inanırdım.

*Zakopane*
*İyun 1959 – iyun 1960*

# TƏYİNATINI DƏYİŞƏN XƏSTƏXANA

*(roman)*

# TƏYİNATINI DƏYİŞƏN XƏSTƏXANA

*(roman)*

## YAS MƏRASİMİ



Neçevada qatar bir neçə dəqiqəliyə dayandı. Stefan özünü qapıya güclə çatdırıb yerə atılmışdı ki, parovoz tövşüyərək qatarı arxasınca dartıb apardı. Səfərinin axırıncı saatında Stefana qatarı tərk eləyə bilməyəcəyi fikri əzab verir, başqa şey haqqında düşünə bilmirdi, hətta öz səfərinin məqsədi haqqında da. İndisə vaqonun bürkülü havasından sonra alışmadığı təmiz havadan dirçələrək, günəş işığından gözlərini qıyıb, cəsarətsiz halda harasa gedir, özünü, sanki, əzabverici yuxudan sonra olduğu kimi qandalları açılmış və köməksiz hiss edirdi.

Fevralın lap sonları idi, göy tamamilə kənarları ağarana qədər közərmiş boz buludlarla örtülmüşdü. Mülayim havadan bir qədər sivrilənmiş qar ağır-ağır qobulara və yarğanlara çökür, kövşənlikləri, pöhrəlikləri aşkara çıxarır, palçıqdan qaralan təpələrin gil yamaclarının və yolların cizgilərini çəkirdi. Yeknəsəq ağlıq hərc-mərcliyin möhürü ilə dağılırdı – bu, dəyişikliyin müjdəçisi idi.

Bu fikir Stefana baha başa gəldi: ayağını lazım olan yerə qoya bilmədi və tuflilərində su şappıldadı. İkrah hissindən hətta əti çimçəşdi.Uzaqlaşan parovozun fısıltısı Bejinets təpələrinin arxasında tamamilə eşidilməz oldu və bu zaman hər tərəfdən uçuşan cırcıramaların cırıltısına oxşayan hansısa xışıltı eşidilməyə başladı – bu, əriyən bulanıq qar sularının yeknəsəq səsi idi. Stefan özünün cındır paltosunda, yumşaq fetr şlyapasında və yüngül şəhər tuflilərində dağın bu ucsuz-bucaqsız ətəyində tamam gülünc görünürdü, özü də bunu başa düşürdü. Kəndə aparan yolda gözqamaşdıran, sürətli sular axırdı. Daşla-

rın üzəriylə tullana-tullana Stefan, nəhayət, gəlib yolayrıcına çatdı və saatına baxdı. Tezliklə bir olacaqdı. Dəfnin vaxtı dəqiq deyilməmişdi, amma tələsmək lazım idi. Meyit tabutla Kelesdən hələ dünən göndərilmişdi. Deməк, tabut artıq Ksaveriy əminin evində idi, bəlkə də, kilsədə, çünki teleqramda hansısa anlaşılmayan dəfndən yazmışdılar. Ya da, sadəcə, meyit üstündə dua oxuyacaqdılar? Stefan bunu xatırlaya bilmirdi və dini mərasimlər haqqında düşündüyünə görə özünə hirsləndi. Əmisinin evinə qədər on dəqiqəlik yol idi, qəbiristanlığa kimi də elə o qədər, amma əgər dəfn mərasimində iştirak eləyənlər kəsə yolla kilsəyə gedərdilərsə... Stefan neyləmək lazım olduğunu bilmədiyindən özünü tamam itirdi. Şosenin döngəsinə kimi getdi, dayandı, bir neçə addım geri qayıtdı və yenidən dayandı. Tarlada bir qoca kəndlini gördü – mərzlərin arasıyla gedirdi, çiynində dəfn mərasiminin önündə aparılan xaç var idi. Stefan onu səsləmək istədi, ancaq cürət etmədi. Dişlərini bir-birinə sıxaraq inamla qəbiristanlığa doğru getdi. Qoca qəbiristanlıq hasarının arxasında yox oldu. Amma o, kənd küçəsində görünmədi, beləliklə də, Stefan hər şeyə tüpürərək eynən arvad tumanının ətəklərini yığan kimi paltosunun ətəklərini yığdı və ümidsiz halda gölməçələrin içərisiylə getməyə başladı. Qəbiristanlığa aparan yol fındıq pöhrəliyi basmış balaca təpənin ətəyindən dolanaraq keçirdi. Stefan ayaqlarının qara batmasına və budaqların sifətinə çırpılmasına fikir vermədən yolla birbaşa düzünə qaçırdı. Gözlənilmədən sıx pöhrəlik seyrəldi. O, düz qəbiristanlığın yanındakı yola sıçradı. Burada sakitlik idi, qəbiristanlıq bomboşdu, qoca heç yerdə gözə dəymirdi. Stefan daha tələsmək istəmədi. Qan-tər basmış halda və ağır-ağır nəfəs alaraq ayaqlarına baxdı – topuqlarına qədər palçıq içində idi, qəbiristanlıq qapısının üzərindən boylandı. Orada heç kim yox idi. Qapını itələdi, qapı ucadan cırıldadı, kədərlə ah çəkdi və susdu. Palçıqlı, deşik-deşik qar dalğalarla qəbirləri bürümüş, xaçların ətrafında çökəklər yaratmışdı. Xaçların ağac cərgələri yabanı yasəmənlərə qədər düzülmüşdü, onlardan o tərəfdə isə neçevskili keşişlərin başdaşıları uzanırdı və bir qədər aralıda Tşinetskilərin ailə sərdabəsi ucalırdı, üç ağcaqayının əhatəyə aldığı qara mərmərdən olan başdaşının üzərində

qızılı hərflərlə tarix və adlar yazılmışdı. Sərdabəni digər dəfn olunanlardan ayıran, sanki, heç kimə məxsus olmayan boş yerdə ağ qarın üzərində təzəcə qazılmış qəbrin torpaq təpəciyi görünürdü. Stefan özünü itirmiş halda dayandı. Görünür, daha sərdabədə yer yox idi, onun genişləndirilməsinə isə vaxt və vəsait çatmırdı, beləcə Tşinetski də adi adam kimi torpaqda dəfn ediləcəkdi. Meyitin bura gətirilməsinə göstəriş verəndə Anzelm əminin nələr çəkdiyini Stefan təsəvvür eləyirdi, amma başqa çıxış yolu yox idi, nə vaxtsa Neçeva Tşinetskilərə məxsus idi, onların hamısını burada dəfn eləmişdilər və indi yalnız Ksaveriy əminin evinin salamat qalmasına baxmayaraq, ənənə davam edirdi və hər bir ölümdən sonra ailə Polşanın hər tərəfindən öz nümayəndələrini yasa göndərirdi.

Xaçlardan, yabanı yasəmənin budaqlarından şəffaf sırsıralar sallanırdı, onlardan sakitcə su damcılayır və su damcıları qarda deşiklər açırdı. Stefan açıq qəbrin üzərində dayanmışdı. Evə getmək lazım idi, amma o, bunu istəmədiyindən kənd qəbiristanlığında gəzib-dolaşmağı qərara aldı. Qızdırılmış dəmirlə taxtaların üzərində cızılan soyadlar qara qançırlara çevrilmişdi, çoxları, ümumiyyətlə, silinib yox olmuşdu, yalnız tərtəmiz taxta qalmışdı. Elə hey qara batan ayaqları tamam donmuşdu. Stefan qəbiristanlığı dolandı və birdən üzərində ağcaqayından böyük xaç yüksələn qəbrin yanında ayaq saxladı; xaçın üzərinə dəmir lövhə vurulmuşdu. Lövhənin üzərində hörmə yazılarla çətin anlaşılan mətn var idi.

*Yoldan Keçən, Polşaya De Ki*
*Burada Onun Oğulları yatır*
*Onlar Son Dəqiqələrinə Qədər*
*Ona Sadiq Olublar*

Aşağıdan isə soyadlar və hərbi rütbələr yazılmışdı. Axırıncı olaraq naməlum əsgər qeyd olunmuşdu. Bir də tarix qeyd olunmuşdu: «Sentyabr, 1939-cu il». Həmin sentyabrdan heç altı ay keçməmişdi, amma kiminsə qayğıkeş əli yazıları yeniləmək qayğısına qalmasaydı, yazıya yağışlı hava və şaxtalar rəhm eləməzdi. Qəbrə baş çəkildiyini qəbri örtən heyrətamiz dərəcədə böyük olan şamağacı da sübut eləyirdi. Burada bir neçə adamın yatdığına inanmaq

çətin idi. Stefan təsirlənmiş və eyni zamanda da pərt olmuş halda bir az dayandı, çünki bilmirdi şlyapasını çıxartması lazımdırmı? Heç bir qərara gələ bilmədən irəli getdi. Dondurucu qarın içində ayaqları hədsiz üşüyürdü, ayaqqabılarını bir-birinə vuraraq saatına baxdı. İkiyə iyirmi dəqiqə işləyirdi və malikanəyə vaxtında yetişmək üçün tələsmək lazım gəlirdi, amma Stefan düşündü ki, əgər dəfn mərasiminin iştirakçılarını burada gözləyərsə, özünün dəfn mərasimində iştirakının vaxtını uğurla azaldar beləliklə də, Leşeka dayını qəbul eləməyə hazır olan təzəcə qazılmış qəbrin yanına qayıtdı. Boş qəbrə baxan Stefan onun olduqca dərin olduğunu gördü. Ona dəfn texnikasının sirləri məlum idi və qəbrin bilərəkdən dərin qazıldığını başa düşdü; ona görə dərin qazmışdılar ki, gələcəkdə ona daha bir tabut – Aneli xalanın, Leşekanın dul arvadının da tabutu yerləşə bilsin. Bu kəşfi Stefana çox pis təsir elədi, sanki, o, təsadüfən nəsə ikrah doğuran bir şey görmüşdü, ixtiyarsız halda qəbirdən kənara çəkildi və əyilmiş xaçların cərgəsində durdu. Tənhalıq, deyəsən, onun həssaslığını artırmışdı, indi maddi vəziyyətə görə fərqin ölülərin arasında da yadında qalması ona cəfəng və əclaflıq kimi göründü. Boğazını qəhər tutdu. Ətrafda tam sakitlik idi. Yaxınlıqdakı kənddən əsla səs-səmir gəlmirdi, hətta Stefanı müşayiət eləyən qarğa qarıltıları da o, qəbiristanlıqda dolaşdıqca büsbütün eşidilməz olmuşdu. Xaçların qısa kölgələri qarın üzərinə düşmüşdü, soyuq ayaqları ilə qalxır, birbaşa ürəyinə sirayət edirdi. Stefan büzüşərək əllərini ciblərində gizlətdi və sağ əlində balaca bir bükülü aşkar elədi: evdən çıxarkən anasının ona verməyə macal tapdığı çörək idi. Birdən sonsuz bir istəklə yemək istədi, cibindən bükülünü çıxartdı və nazik kağızı açdı. Çörək dilimlərinin arasındakı qaxac edilmiş donuz əti çəhrayı rəngə çalırdı. Stefan çörəyi ağzına aparmaq istədi, ancaq açıq qəbrin üzərində yeməyi bacarmadı. Bunun mövhumatın əlaməti olduğuna özünü inandırmaq istəyirdi; böyük iş olub! Cəmi-cümlətanı gil torpaqda qazılmış çaladır, amma duyğularına qalib gəlməyi bacarmadı. Çörəyi əlində saxlayaraq qəbiristanlıq qapısına doğru getməyə başladı. Üzərində yazılar olmayan xaçlar da gözə dəyirdi, onların kələ-kötür səthlərində rəhmətlik sahibləri haqqında nəsə deyə biləcək hansısa fərdi cizgiləri

müəyyən eləməyə çalışmaq əbəs olardı. Stefan düşünürdü ki, qəbirlərin qorunması qayğısına qalmaq – çox qədim zamanlardan qalmış belə bir inamı ifadə eləyirdi ki, dinin təsdiq eləməsinin əksinə olaraq, aşkar çürümənin əksinə olaraq, duyğularımızın bizə diktə elədiklərinin əksinə olaraq, torpaq üzərində hansısa tanınma nişanları durduqca torpaq altındakı ölülər hansı yollasa yaşayırdılar.

Stefan qəbiristanlıq qapısına çatdı, uzaqdan bir daha qara batmış xaçları və qazılmış qəbrin sarıtəhər rəngə çalan gil təpəciyini nəzərdən keçirdi, sonra yorulub əldən düşmüş halda yola çıxdı. Sona qədər düşünüb qəbiristanlıq mərasiminin mənasızlığını bütün aydınlığı ilə başa düşdü, bugünkü dəfndə öz şəxsi iştirakını isə xəcalətverici iş hesab elədi. Hətta xəyalında belə onu bu cür, həm də cəfəng işə qatdıqları üçün valideynlərini məzəmmətləyirdi; o, burada şəxsən özü özünü yox, xəstə atasını təmsil eləyirdi.

Stefan tələsmədən donuz əti buterbrodunu yeməyə girişdi, hər bir tikəni xeyli ağız suyu ilə islatmaq lazım gəlirdi, tikələri çətinliklə udurdu, boğazı tamam qurumuşdu. Başında isə fikirlər bir-birini təqib eləyirdi. Hə, beləydi ki vardı, o düşünürdü, göz qabağında olan ən açıq-aydın dəlillərə belə kor-koranə yanaşan adamlar öz təbiətləri etibarilə indicə mənim tərəfimdən kəşf olunan «ölülərin varlığına» inanırlar. Əks halda əgər qəbirlərin qayğısına qalmaq dünyasını dəyişənlərə sevgi və kədərin ifadəsi olardısa, onlar yalnız qəbirlərin yerüstü, görünən hissəsinin qayğısına qalmaqla kifayətlənərdilər. Lakin qəbiristanlıq qayğıları adamların bu kimi hisslərindən irəli gəlirdisə, onda nəyə görə meyitləri daha rahat qoymağa, geyindirib bəzəndirməyə, başlarının altına balış qoymağa və onları kəfənə bükməyə çalışır, nə qədər mümkünsə onları təbiət güclərinin təsirindən qorumaq istəyirlər? Belə eləyənlərin varlığına, yəqin ki, ölənlərin sonrakı həyatları haqqında kor-koranə və mənasız inam hakim kəsilir – görünür, fəhm onlara canlı varlıqların qapağı mıxlanmış darısqal tabuta qoyulmasının, hər halda, tamamilə yox olmaqdan və torpağa həmişəlik qovuşmaqdan daha yaxşı olduğunu deyir.

Bu haqda özünə hesabat vermədən Stefan kəndə, kilsənin günəş işığında parıldayan qüllələrinə doğru addımla-

mağa başladı. Şosenin döngəsində birdən hansısa hərəkət olduğunu gördü və bunun nə olduğunu başa düşməzdən əvvəl tələsik buterbrodu cibinə soxdu.

Şosenin sıralanmış təpələrin yanında əyildiyi və onların sərt, gilli ətəklərinin yanından dolanaraq keçdiyi yerdə dəfn mərasimində iştirak eləyənlər tutqun kölgə kimi görünürdülər. Adamlar elə uzaqdılar ki, o, sifətləri ayırd eləyə bilmir, yalnız qabaqda üzən xaçı, onun arxasınca da cübbələrin ağ ləkələrini, avtomobillərin banlarını və bir qədər aralıda isə çoxlu balaca fiqurları görürdü mərasim iştirakçıları o qədər ağır hərəkət eləyirdilər ki, sanki, yerlərində ayaq döyürdülər. Onlar, yəqin, ağır-ağır hərəkət eləyirdilər, amma uzaqdan bu hərəkət elə cüzi görünürdü ki, bütün bunlar qeyri-adi təsir bağışlayırdı. Bu cırtdan mərasimə ciddi münasibət bəsləmək və onları lazım olduğu kimi burada gözləmək çətin idi, amma onların qarşısına getmək də asan deyildi. Mərasim qara rahib papağı geyənlərin necə gəldi səpələnməsini xatırladırdı, onlar bir yerə toplaşaraq sərt gil enişin altından keçirdilər və külək o tərəfdən hansısa anlaşılmayan oxşama səslərini gətirirdi. Stefan nə qədər mümkünsə, orada bir o qədər tez olmaq istəyirdi, lakin o tərəfə bircə addım belə ata bilmirdi və papağını götürüb – külək dərhal da onun saçlarını pırpızlaşdırdı – yolun kənarında dayanaraq gözləməyə başladı. Xəbərdar olmayan adam başa düşə bilməzdi ki, o, dəfn mərasiminə gecikmiş adamdır, ya təsadüfən yoldan keçəndir. Adamlar yaxınlaşırdılar və gələnlərin görüntüləri böyüyürdü. Budur, onlar artıq görənlərə qəribə təsir bağışlayan «uzaqlığın» anlaşılmayan sərhədini keçdilər. Nəhayət, Stefan öndə qara xaçla addımlayan qoca kəndlini, hər iki keşişi, onların arxasınca sürünən qonşuluqdakı taxta-şalban zavodunun yük maşınını və nəhayət, dağınıq halda vird oxuyan bütün ailə üzvlərini tanıdı. Kənd arvadlarının mənasız oxşamaları bir anlığa belə susmurdu, mərasim iştirakçılarının ona çatmasına bir neçə addım qalmış isə kilsə zənglərinin səsi eşidildi – əvvəlcə bir neçə cürətsiz zəng səsi gəldi, sonra isə güclü, möhtəşəm zəng səsləri ətrafa yayıldı. Kilsə zənglərini eşidən Stefan düşündü ki, ilk olaraq ipdən Şımçakovlardan ən kiçiyi Visek yapışıb, ancaq dərhal da sarışın Tomek onu kənarlaşdırıb; zənglərin çalınması etibar

olunan yeganə adam o idi; amma dərhal da ağlına gəldi ki, «kiçik» Visek artıq cavan oğlandır, Stefanın özüylə həmyaşıddır, o, şəhərə gedən gündən isə Tomekdən bir səs-soraq yox idi. Amma demək, Neçavda zəngi çalmaq uğrunda gənc nəsil arasında mübarizə gedirdi.

Həyatda yaxşı dərsliklərdə nəzərdə tutulmayan elə mürəkkəb və son dərəcə prinsipial hallar olur ki, ondan çıxmağa yalnız böyük bacarığı olan və özünə inanan adamlar qadir olurlar. Bu ləyaqətlərdən məhrum olan Stefan mərasimə necə qoşulacağını bilmirdi, yəqin, onu gördüklərini hiss eləyərək tərəddüd içində qalmışdı və bu yalnız onun özünü daha çox itirməsinə səbəb olurdu. Xoşbəxtlikdən lap kilsənin qabağında mərasim iştirakçıları dayandılar, keşişlərdən biri yük maşınının kabinəsinə yaxınlaşdı və sürücüdən nəsə soruşdu, sürücü başıyla razılıq işarəsi verdi. Stefana tanış olmayan kişilər maşının yük yerinə dırmaşdılar və tabutu düşürtməyə başladılar. Ümumi qarmaqarışıqlıq düşdü, Stefan bundan istifadə eləyərək yük maşınının ətrafına toplaşan adamlara qoşuldu. Elə bu zaman başını çiyinlərinə qısmış çalsaçlı və enlikürək Ksaveriy əmini gördü; əmisi Aneliya xalanın qoluna girmişdi, Aneliya qapqara geyinmişdi. Bu zaman kimsə onu çağırdı: tabutu kilsəyə aparmaq üçün adam lazım idi. Stefan ora yüyürdü, amma, adətən, hamının gözü qarşısında azacıq məsuliyyətli bir iş görmək lazım gələndə olduğu kimi bunu qızğınlıqla elədi, onun kömək eləməyə hazır olması yalnız yük maşınının ətrafında ayaqlarını əsəbicəsinə yerə döyməsi ilə özünü büruzə verdi. Nəhayət, tabut onun iştirakı olmadan yığışanların başı üzəriylə aparılmağa başladı, Stefan isə son dəqiqədə atasının böyük qardaşı Anzelm əminin onun üzərinə atdığı ayı dərisindən olan kürkü aparmaqla kifayətlənəsi oldu.



Stefan kilsəyə ən axırıncı daxil olaraq kürkü də içəri apardı, amma o əmin idi ki, bu nəhəng ayı dərisini özüylə gəzdirməklə mərasimin lazım gələn qaydada keçirilməsinə kömək eləyir. Zəng özünün yeknəsəq mahnısını qısa zərbəylə bitirdi, sanki, çeçədi, hər iki keşiş bir dəqiqəliyə harasa yox oldu, sonra yenidən gəldi, bu zaman isə ailə üzvləri əyləşmişdilər və mehrabdan dəfn duasının ilk latın sözləri yayılmağa başlamışdı.

Stefana əyləşməyə heç nə mane olmurdu, oturacaqlarda boş yerlər kifayət qədəridi, həm də dayısının kürkü də qollarını üzürdü, amma o, öz yükü ilə birlikdə ayaq üstə dayanmağa üstünlük verirdi, bəlkə də, ona görə ki, ayaq üstə dayanmaq çətin idi və o, bununla da özünün bir az bundan əvvəlki ağciyərliyinin hesabını ödəmək istəyirdi. Tabutu artıq mehrabın önünə qoymuşdular və tabutun ətrafında şamlar yandıran Anzelm əmi birbaşa Stefana doğru yönəldi, bununla hətta cavan oğlanı bir balaca karıxdırdı da (o, elə hesab eləyirdi ki, sütunların kölgəsi onun görünməsinə mane olar). Əmisi əlini Stefanın çiyninə qoyaraq keşişlərin duasının içərisindən pıçıldadı:

– Atan xəstəydi?

– Hə, əmi. Dünən ağrıları tutmuşdu.

– Elə daşların ucbatından, hə? – Anzelm cingiltili pıçıltıyla soruşdu və kürkü Stefandan almaq istədi, amma o, kürkü vermək istəmədi və mızıldandı:

– Yox, lütfən, mən saxlayaram...

– Di ver görüm, eşşək, burada soyuq adamı dara çəkir! – əmisi mehribancasına, amma demək olar ki, səsini alçaltmadan etiraz elədi, kürkü çiyinlərinə atdı və Stefanı axmaq vəziyyətdə qoyaraq dul qadının oturduğu oturacağa yaxınlaşdı; cavan oğlan yanaqlarının alışıb-yandığını hiss elədi.

Əslinə qalanda, bu mənasız hadisə onun əhvalını büsbütün korladı. Uzun müddət sakitləşə bilmədi və yalnız axırıncı oturacağın lap kənarında oturan Ksaveriy əmini görəndən sonra özünü ələ ala bildi. Stefan Ksaveriyin burada iştirakını necə mənasız bildiyini düşünüb hətta bir az şənləndi də: Allaha inanmayan bu davakar hər yeni gələn məhəllə keşişini həqiqət yoluna döndərməyə cəhd eləyirdi. Bu subay qoca olduqca coşqun və həqiqətsevən adam idi, Boy[1] kitabxanasının qızğın abunəçisi, doğumun nizamlanmasının tərəfdarı idi və üstəgəl on iki kilometrlik ətrafda yeganə həkim idi. Vaxtilə Keletsdəki qohumları qəza və dairə məhkəmələrində illərlə mübarizə apararaq onu köhnə evdən qovub çıxartmaq istəmişdilər, amma Ksaveriy bütün məhkəmələrdə qalib gəlmişdi, həm də elə

[1] Boy – məşhur yazıçı, tənqidçi və tərcüməçi Tadeuş Boy-Jelemski tərəfindən XX əsrin 30-cu illərində buraxılan fransız klassik ədəbiyyatının yüz cilddən artıq tərcüməsi

hiyləgərliklə, özünün dediyi kimi, onları elə tovlamışdı ki, ona heç nə eləyə bilməmişdilər. İndisə o, sakitcə oturmuşdu, iri əllərini üzərinə not və dua kitabı qoymaq üçün olan ştativin maili lövhəsinin üzərinə qoymuşdu, ondan üz çevirən qohumlarından onu boş oturacaq ayırırdı. Orqanın təsirli musiqisi eşidilən kimi də Stefanın qəlbində alovlu və itaətkar müqəddəs hisslər haqqındakı xatirələr baş qaldırdı; bu hisslər hələ lap uşaqkən qəlbini ağrıdardı, orqan musiqisinə həmişə dərin hörmət bəsləmişdi. Dəfn mərasimi bütün qaydalara uyğun surətdə gedirdi, keşişlərdən biri balaca kürədə buxurdanı körükləyir və tabutun ətrafına fırlanaraq tabutu ətirli – doğrudur, bir qədər yanıq iyi verən – tüstüyə verirdi. Stefan baxışları ilə dul qadını axtardı – o, ikinci cərgədə beli bükülmüş, acizanə halda oturmuşdu, elə hey onun, demək, rəhmətə gedənin də soyadını latınca oxuyan, oxuyaraq təntənə ilə və deyəsən, inadla təkrar eləyən keşişin dediklərinə heyrətləndirici dərəcədə etinasız idi. Amma keşişlər dirilərdən kiməsə yox, yalnız İlahi qüvvəyə müraciət eləyirdilər, onlar Ondan xahiş eləyir, Ona yalvarır, artıq yaşamayan adama, az qala, Ondan mərhəmət tələb eləyirdilər.



Orqan susdu və yenidən mehrabın qabağında qoyulmuş tabutu çiyinlərə qaldırmaq lazım gəldi, amma indi Stefan hətta ona yaxınlaşmağa belə cəhd eləmədi; hamı ayağa qalxdı və öskürərək yollarına davam etməyə hazırlaşdı. Bu an – tabut yüngülcə yırğalanaraq yarıqaranlıq kilsədən pilləkənlərə çıxarılarkən qəribə hadisə baş verdi: uzunsov, ağır tabut dəhşətli halda qabağa əyildi, amma dərhal da əllər meşə kimi qalxaraq tabutun tarazlığını bərpa elədilər və tabut, sanki, indicə baş verənlərdən həyəcanlanmış halda daha güclü silkələnərək, indi, az qala, yerə toxunan günəşə doğru üzməyə başladı.

Bu dəqiqədə Stefanın başında mənasız və qəribə bir fikir yarandı: əlbəttə, tabutdakı Leşek əmi idi, çünki o, həmişə cürbəcür hoqqalar çıxartmağı sevərdi, xüsusilə də təntənəli mərasimlərdə. Bu fikri dərhal da başından çıxartdı, daha doğrusu, onu tamam sağlam məcraya yönəltdi: bütün bunlar absurddur və tabutdakı heç də əmisi yox, yalnız ondan qalan, onun hansısa qalıqları idi, elə utancverici və ədəbsiz qalıqlarıydı ki, ağıllı adamlar onları dünyadan yox

eləmək üçün bütün bu uzun-uzadı və bir qədər süni olan mərasimi düşünüb tapmış və təşkil eləmişdilər.

Eyni zamanda da o, hamıyla birlikdə qəbiristanlığın taybatay açılmış qapılarına doğru gedirdi. Stefanı əhatəyə alan dəfn mərasiminin iştirakçıları, haradasa, iyirmi nəfər olardılar, burada, qəbirdən bir qədər uzaqda onlar olduqca qəribə təsir bağışlayırdılar, çünki onların geyimləri bayram və yol geyimləri arasında geyilən geyimlərdən idi (az qala, hamısı Neçevaya uzaqdan gəlmişdi), həm də qara rənglər daha çox üstünlük təşkil eləyirdi. Üstəlik, əksər kişilər dəri qoncları olan ingilis başmaqları, bəzi qadınlar isə boğazı xəzlə haşiyələnmiş çəkmə kimi uzun olan ayaqqabılar geymişdilər. Kimin əynindəsə – Stefan onu arxadan tanıya bilmədi – fərqləndirmə nişanları olmayan şinel var idi, sanki, nişanları qopardılmışdı, şinelin üzərindən qayış sıx çəkilib bağlanmışdı. Stefanın diqqətini uzun müddət cəlb eləyən bu şinel Sentyabr kampaniyasını ona xatırladan yeganə əşya idi – yeri gəlmişkən, yox – o, dərhal da düşündü, başqa şəraitdə bura mütləq gəlməli olanların, deyək ki, hər ikisi – indi alman əsirliyində olan Antoniya əmi və əmisi oğlu Petranın burada iştirak etməmələri də o hadisələri xatırladırdı.

Kənd arvadlarının təkrar eləyərək uzada-uzada «Allahım, ona əbədi rahatlıq ver...» oxşamaları, daha dəqiqi uğultuları hansısa müddət ərzində Stefanı qıcıqlandırırdı, amma tezliklə daha bu uğultu onun şüuruna gedib çatmadı. Mərasim uzanırdı, sonra mərasim iştirakçıları qəbiristanlıq qapılarının yanında bir yerə toplaşdılar və yuxarı qaldırılan tabutun arxasınca, xaçların arasıyla qara axınla axdılar. Qəbrin üzərində yenidən dua oxunmağa başlandı. Bu artıq Stefanı təngə gətirmişdi və o hətta düşünürdü ki, əgər o, dindar olsaydı, arasıkəsilmədən təkrar olunan bu yalvarışları müraciət elədikləri şəxsə qarşı qarayaxalıq hesab eləyərdi.

Hələ bunu axıra qədər düşünməmişdi ki, kimsə qolundan yapışıb dartdı. Stefan döndü və enli xəz boyunluğun arasından Anzelm əminin qartalburunlu sifətini gördü, əmisi yenə də uca səslə ondan soruşdu:

– Sən bu gün nəsə yeyibsən? – və cavab gözləmədən cəld əlavə elədi: – Narahat olma, ehsan olacaq!

O, qardaşı oğlunun çiyinlərini şappıldatdı və əyilərək hələ də boş qəbri əhatəyə almış yığışanların arasıyla keçməyə başladı. Hər kəsə barmağı ilə toxunur və dodaqlarını tərpədirdi – bu, Stefanı çox təsirləndirirdi, amma sonra əmisinin bu adi hərəkətinin mənasını başa düşdü: Anzelm, sadəcə olaraq, iştirakçıları sayırdı. Sonra da qara dairədən sadəlövh bir utancaqlıqla çıxan oğlana ucadan pıçıldayaraq nəsə göstəriş verdi, oğlan qəbiristanlıq qapılarından çıxan kimi də birbaşa Ksaveriy əminin evinə tərəf götürüldü.

Təşkilatçılıq işlərini qurtarandan sonra Anzelm əmi yenidən ya bilərəkdən, ya da təsadüfən Stefanla yanaşı dayandı və hətta qəbri dövrəyə almış qrupun axar-baxarlığına onun diqqətini cəlb eləməyə də fürsət tapdı. Bu zaman dörd boy-buxunlu kişi tabutu qaldırdı və qəbrin dibinə çatana kimi iplə tabutu qəbrə sallamağa başladı, amma tabut bir qədər əyildi, belə olanda onlardan biri göyərmiş əliylə qəbrin kənarına söykənərək tabutu çəkməsinin burnu ilə təpikləməli oldu. Bu ana qədər hamının hörmət bəslədiyi əşyaya qarşı belə hörmətsizlik Stefana toxundu. Bu faktda o, özünün «canlılar həyatdan ölümə dəhşətli sərt keçidlərini nə qədər təkmilləşdirməyə, yumşaltmağa çalışsalar da, ölülərə qarşı münasibətdə, hər halda, uyğun müntəzəm bir mövqe axtarıb tapa və düşünə bilmirlər» fikrini təsdiqləyən ideyanı görürdü.



Bellər fəaliyyətə keçərək səylə işləyib qəbri torpaqla dolduranda və gil qalağını usunsov şəkildə hamarlayanda bu dəfnin özünəməxsus hərbi xüsusiyyəti açıq-aydın görünməyə başladı, yoxsa düşünmək belə olmazdı ki, Tşinetskilərin birinin qəbrinin üstündən gedənlər qəbrin üzərinə çiçək səpmədən getsinlər, lakin həmin sentyabrdan sonrakı qışda bu haqda düşünmək artıq mənasız idi. Hətta qonşuluqdakı Pşetuloviçlərin malikanəsinin şüşəbəndi də dağılmışdı, çünki şüşələri döyüş vaxtı sındırılmışdı, beləliklə də, qəbirlərin üzərinə özünəməxsus şəkildə yalnız bir qucaq küknar budağı döşəyirdilər. Və budur, axırıncı dua oxunandan sonra toplaşanlar bir-birinin arxasınca xaç çevirərək, sanki, gizlincə arxalarını göyərən gil təpəyə doğru döndərməyə başladılar və su içində olan cığırla ard-arda palçıqlı kəndarası yola doğru getməyə başladılar.

Donmuş keşişlər də hamı kimi özlərinin ağ cübbələrini çıxardanda dərhal necə adi görünməyə başladılar. Hərçənd az da olsa, buna oxşar olaraq digərlərinin də görkəmi dəyişdi, təntənəli ciddilik yoxa çıxdı, hərəkətlərin və baxışların bunca ləng rəvanlığından əsər də qalmadı və sadəlövh müşahidəçiyə elə gələrdi ki, bu adamlar indiyə kimi pəncələri üzərində yeriyirmişlər, indisə birdən normal addımlarla yeriməyə başlamışdılar.

Geri qayıdanda Stefan var qüvvəsi ilə Aneli xalanın – dul qadının gözünə görünməməyə çalışırdı. Ona görə yox ki onu sevmirdi, ya da dərdinə şərik deyildi, əksinə, onun qadına yazığı gəlirdi, xüsusən də onların əmisi ilə necə xoşbəxt ailə olduğunu bilirdi, amma nə qədər çalışsa da, başsağlığı vermək üçün bircə söz belə düşünüb tapa bilmirdi. Bu qəlb iztirabları da onu qayıdanların ilk cərgəsinə qatmışdı, bu cərgədə Ksaveriy əmi Melanya Skoçinski bibinin qoluna girərək onu aparırdı. Çox qəribə və az təsadüf olunan mənzərə idi, Stefan donub-qalmışdı, çünki əmisinin Melanyanı görən gözü yox idi, onu «köhnə zəhər şüşəsi» adlandırırdı və deyirdi ki, onun ayağı dəyən torpağı mütləq dezinfeksiya eləmək lazımdır. Melanya bibi – qarımış qız qədim vaxtlardan ailədaxili münaqişələri qızışdırmaqla məşğul idi, bitərəf adamın şirin rolunu oynamaqdan həzz alırdı, evdən-evə zəhərli toxumları və şayiələri daşıyırdı, bunun ucbatından da böyük incikliklər başlayır, çoxlu xoşagəlməz hadisə baş verirdi, belə ki, bütün Tşinetskilər qızğınlıqları və qəlblərində bir dəfə kök salan duyğularında qeyri-adi möhkəmlikləri ilə fərqlənirdilər. Stefanı görəndə Ksaveriy hələ uzaqdan qışqırdı:

– Səni salamlayıram, həkimlik üzrə qardaşım! Artıq diplomunu alıbsan, hə?

Təbii ki, salamlaşmaq üçün Stefan dayandı və qolaylanaraq ağzı üstə qız-bibisinin üşüyən ovcuna dəydi, sonra da onlar üçü birlikdə ağacların arasından görünən evə doğru getdilər – əsl həqiqi malikanəydi, yumurta sarısı rəngindəydi, balaca sütunları klassik üslubdaydı və meyvə bağına baxan nəhəng artırması vardı. Girişdə dayanıb geridə qalanları gözləməyə başladılar. Ksaveriy əmi birdən özünü evin sahibi kimi hiss elədi – elə qızğınlıqla hamını evə dəvət eləməyə başladı ki, sanki, qohumları yalnız qarlı

cığırlarla və bataqlıq sahələrlə qaçıb dağılışmaq haqqında düşünürdülər. Artıq qapıda Stefan uzun çəkməyən, amma əzablı işgəncə verən salamlaşmalara məruz qaldı, dəfnin sonuna kimi təxirə salınan bu hal-əhval tutma indi onun üzərinə sel kimi axırdı. Bir-birinin dalısınca əlləri və «tikanlı» yanaqları öpərkən təsadüfən kişi əlini öpmək üçün əyilməməkdən ötrü ayıq olmaq lazım gəlirdi – onda bəzən belə hallar da olmuşdu. O hətta yerə sürtülən ayaqqabıların şappıltısına və çıxarılan paltarların xışıltısına qulaq asaraq nə vaxt qonaq otağına girməsini də hiss eləmədi. Döşəmənin üzərində ağırlıq daşları olan nəhəng saatları görəndə birdən özünü evdə hiss elədi; Neçevaya tətilə gələndə, bax, orada, qarşı divardakı buynuzlu maral başının altında onun üçün yer salardılar, künclərdə köhnə, tökülmüş kreslolar olardı, bu kresloların tüklü içərilərinə kimi əlini soxa bilmək üçün o, günlərlə mübarizə aparardı, gecələr isə bəzən onu yuxudan saatların boğuq səsləri oyadardı və siferblatın sipəri qaranlıqda süzülən ay işığında xəyal kimi – girdə, soyuq, yuxuya dalmış və eynilə ay kimi solğuncasına işıldayardı. Lakin Stefana uşaqlıq xatirələrinə dalmaq qismət olmadı, qonaq otağında hər şey canlandı. Qadınlar kreslolara əyləşdilər, kişilər siqaret tüstüsünün arxasında gizlənərək harada gəldi durmuşdular, söhbət hələ əməllicə qızışmamışdı, mətbəxin qapısının hər iki layı açılmışdı ki, kandarda Anzelm əmi göründü. Qaba bir mehribançılıqla, fikri yüngülcə dağılmış halda o, hamını stol arxasına dəvət elədi. Ehtimal ki, ehsandan söhbət belə gedə bilməzdi, bu haqda söz salmaq yersiz çıxardı, sadəcə, kədərlənmiş və yoldan yorulmuş qohumları adicə yeməyə dəvət eləyirdilər.

Burada, qohumların arasında mərasimə başçılıq eləyən bir keşiş də var idi. Arıq, sarıtəhər, yorğun, amma gülümsəyən sifəti olan birisiydi, sanki, hər şeyin belə rəvan getməsinə sevinirdi. Bu keşiş başını aşağı əyərək astadan Tşinetskilər nəslinin yaşlı nümayəndəsi ilə – bibisi Yadviqo nənəylə – uzun və olduqca geniş don geymiş balaca qarı ilə söhbət eləyirdi, sanki, qarı əzəldən bu paltarda olmuşdu, indisə paltar solub saralmış və büzüşmüşdü, ona görə də qarı əllərini dua eləyərkən yuxarı qaldırmalı olurdu ki, donunun krujevalı manjetləri qurumuş barmaqlarının

ucundan sürüşüb düşməsin. Onun azacıq yastı, ümumiyyətlə, nisbətən cavan sifəti bütün duyğulardan azad və inadkar görünürdü, sanki, o, əsla keşişə qulaq asmır, hansısa sadəlövh qocalıq hoqqası haqqında düşünürdü. Yığışanları mavi, girdə gözləri ilə nəzərdən keçirəndə qəfildən Stefanı gördü və qarmaq kimi əyilmiş barmaqları ilə işarə verərək onu çağırdı. Gənc həkim cəsarətə gələrək qarıya yaxınlaşdı, keşiş donub-qaldı, bibi-nənə isə Stefanı ayaqdan başa kimi diqqətlə nəzərdən keçirdi və bir növ, bic-bic, nəhayət, son dərəcə alçaq səslə sözə başladı:

– Stefan, Stefanın və Mixalinin oğlusan?

– Hə, hə, – o, razılıqla təsdiq elədi.

Bibi-nənə ona gülümsədi – yaddaşındanmı razı qalmışdı, ya qardaşı nəvəsinin görkəmindənmi, – özünün sümüklü, qocalıqdan qurumuş əli ilə onun əlindən yapışıb gözlərinə apardı, hər iki tərəfinə baxdı və birdən buraxdı, sanki, onda maraqlı heç nə tapa bilmədi. Yenidən öz işıqlı gözləri ilə bütün bunlardan özünü itirmiş Stefanın gözlərinə baxdı və dedi:

– Bəs bilirsənmi ki, sənin atan övliya olmaq istəyirdi?

Sakitcə üç dəfə nıqqıldadı və Stefana bircə söz belə deməyə imkan vermədən tamamilə yersiz halda əlavə elədi:

– Bizdə haradasa onun lentləri var, qalır.

Sonra baxışlarını birbaşa qarşısına dikdi və bir daha səsini çıxartmadı. Bu arada yenidən Anzelm əmi göründü və artıq enerjili şəkildə hamını yeməkxanaya dəvət elədi, sonra bibi-nənəyə çox qəşəng surətdə baş endirərək, ilk olaraq onunla birlikdə yeməkxanaya doğru hərəkət elədi, başqaları da onların arxasınca getdi. Bibi-nənə Stefanı yaddan çıxartmamışdı, onunla yanaşı oturmasını istədi. Stefan onun arzusunu böyük sevinclə yerinə yetirdi, elə olur ki, insanın bir-birinə zidd, əks olan hisslərə uyğunlaşması lazım gəlir. Yerlərə əyləşmənin müşayiət elədiyi ora-bura vurnuxma sakitləşdi, indiyə kimi görünməyən ev sahibi Ksaveriy əmi də əlində supun tünd iyini verən böyük saxsı supqabıyla gəldi və növbə ilə hamının yanına gedərək, barmaqları nikotindən saralmış öz həkim əliylə hərəyə bir çömçə sup çəkdi: supu boşqablara yuxarıdan elə məharətlə tökürdü ki, paltarlarının bulaşacağından ehtiyat

eləyən qadınlar kənara sıçrayırdılar – stolun ətrafındakıların kefi dərhal da kökəldi. Elə hey eyni şey haqqında danışırdılar: hava və müttəfiqlərin yaz hücumlarına bağladıqları ümidləri haqqında.

Stefandan solda hələ qəbiristanlıqda onun diqqətini öz ordu şineli ilə cəlb eləmiş ucaboylu, enlikürək kişi oturmuşdu. Bu, Stefanın anasının qohumu, Poznanşindən olan icarədar Qjeqoj Nedzits idi. O, bütün vaxt ərzində susurdu, oturuşunu dəyişəndə də bir müddət necə oturubsa, o vəziyyətdə donub-qalırdı, sanki, arşın udmuşdu və yalnız saf ürəklə, cəsarətsiz halda, eynən uşaq kimi gülümsəyirdi, elə bil, öz iştirakı ilə narahatçılıq yaratdığı üçün üzr istəyirdi, onun gülüşü gündə yanmış bığlı sifəti və paltarı ilə təzad təşkil eləyirdi – paltarını, yəqin, evdə əsgər adyalından tikmişdilər, çünki əyninə dəhşətli dərəcədə yaraşmırdı.

Hiss olunurdu ki, dəfndən sonra stol arxasında belə görüşlər toplaşanlar üçün yeni deyil və Stefan axırıncı dəfə bütün qohum-əqrəbanın Keletsdə Milad bayramını qeyd eləyərkən süfrə arxasına yığışdığını xatırladı. Bu, düşünmək üçün mənbə verirdi, çünki ümumi barışıq təsadüfi hallarda olurdu və qohumları istisna olaraq dəfnlər bir yerə yığırdı, amma baxmayaraq ki onda doğmalardan heç biri vəfat etməmişdi, ümumi kədərin közərməsi oxşar idi, çünki bu görüş yurdun işğalından bir az sonra baş vermişdi – bu səbəbdən də ondakı barışıq heç də qaydaların ziddinə deyildi.

Stefan bu cəmiyyətdə özünü rahat hiss eləmirdi, həm də bir çox səbəblərdən. O, ümumiyyətlə, böyük, xüsusilə də təntənəli yığıncaqları sevmirdi. Sonrası da keşişi görəndən sonra əvvəlcədən başa düşmüşdü ki, burada keşişin iştirakı hökmən Ksaveriyi kafirliyə və sancmağa təhrik eləyəcək, Stefan isə hər cür dava-dalaşa, sadəcə, dözə bilmirdi. Nəhayət, özünü ona görə pis hiss edirdi ki, onun atası (hansı ki, atasını burada təmsil eləyirdi) qohumlar arasında yaxşı ad qazanmamışdı – onun xatırladığı qədəriylə atası mülkədarlar və həkimlər arasında yeganə ixtiraçıydı, amma yaşının artıq altmışa çatmasına baxmayaraq, məxsusən heç nə kəşf eləməmişdi.

Qjeqoj Nedzits ilə qonşuluq belə əhvalını düzəltmirdi, o, deyəsən, anadan qaradinməz doğulmuşdu; belə ki,

onunla söhbət eləmək cəhdinə, adətən, olduğundan daha ılıq təbəssümlə və bir anlığa boşqabdan ayırdığı mehriban baxışlarla cavab verirdi, amma Stefan üçün bu az idi, o, söhbətə dalmağı çox arzulayırdı, xüsusən də ona görə ki, Ksaveriyin gözlərində kinli qığılcımlar alışdığını hiss eləyirdi, o, açıq-aşkar nəyəsə hazırlaşırdı. Nəhayət, nisbətən sakitlik olanda, ortalığa çökən sükutu yalnız boşqablara toxunan qaşıqların səsi pozanda əmisi dedi:

– Bəs sən, mənim əziz Stefanım, yəqin, kilsədə özünü hərəmxanadakı xədim kimi hiss eləyirdin, elədirmi?

Atmaca keşişə qırma kimi dəyməliydi və əmisi də hər ehtimala qarşı söhbətini daha sərt davam eləməyə hazırlaşırdı, amma o, öz sözlərinə reaksiyadan ləzzət ala bilmədi, çünki qohumları, sanki, komanda verilibmiş kimi ucadan və tələsik danışmağa başladılar, çünki Ksaveriyin belə sözlər danışacağını və onun zəhərinin qarşısını almağın yeganə yolunun bu sözləri yubanmadan ümumi söhbətin gurultusu altında batırmaqdan ibarət olduğunu bilirdilər. Sonra burada iştirak eləyən qadınlardan biri əmisini mətbəxə döş ətini axtarmağa çağırdı və süfrədə gözlənilməyən fasilə yarandı. Stefan bu fasilədən istifadə eləyərək qohumlarının ümumi görünüşünü müqayisə eləyirdi. Birincilik palmasını o, mübahisəsiz olaraq Anzelmə verirdi. Kürəkləri enli, dolubədənli, amma kök olmayan, daha çox yekəpər olan, sifəti gözəl olmasa da, bu sifətdən ağayanalıq, nəcabət yağırdı və Stefan belə adamların qiymətini bilirdi! Nə vaxtsa böyük təsərrüfat sahibi olan, təsərrüfatını iyirmi il bundan əvvəl itirmiş əmisinin, deyəsən, ayı dərisindən olan kürkü ilə bərabər elə bu sifəti qalmışdı. Guya, kənd təsərrüfatı eksperimentlərinin sayəsində müflis olmuşdu – amma bu haqda Stefan dəqiq heç nə bilmirdi. Şübhəsiz, yalnız bu məlum idi ki, Anzelm enerjili, davakar və eyni zamanda da qızğın adam idi, həm də ailədə hamıdan fərqli olaraq qəzəbinə təslim olmağı bacarırdı – beş il, on il, hətta Melanya bibi də ailədə dava-dalaşın məxsusən nədən yarandığını unudurdu. Uzunsürən bu münaqişələrə heç kim qarışmaq istəmirdi, belə ki, əgər əmisi qohumunun onun incikliyinin səbəbini bilmədiyini aşkar eləsəydi, onun qəzəbi avtomatik olaraq uğursuz vasitəçinin üzərinə yönəlirdi. Stefanın atası da məhz beləcə yanmışdı. Lakin

Anzelm əminin, ümumiyyətlə, ailədə hər kəsin qəlbindəki ən kəskin düşmənçilik hissləri belə qohumlardan birinin ölməsi ilə sakitləşirdi, bunun nəticəsində yaranan «*treuga Dei*»[1] vəziyyətdən asılı olaraq bir neçə gün və ya bir həftədən azacıq çox davam edirdi. Bu zaman onun anadangəlmə mehribançılığı hər baxışında və hər sözündə özünü büruzə verirdi – həm də bu səxavət və kin saxlamamaq elə hüdudsuz olurdu ki, hər dəfə də Stefan bunun müvəqqəti barışıq olmadığına, əmisinin qəzəbdən birdəfəlik əl götürdüyünə əmin olurdu. Amma sonra əmisinin ölümlə sırası pozulan hissləri yenidən bərpa olunur, amansız sərtlik illərlə davam eləyirdi və növbəti dəfnə qədər onu heç nə dəyişə bilmirdi.



Anzelm əminin ram oluna bilməməsi və onun zamanla bağlı olan hissləri uşaqlıqda Stefanın qeyri-adi dərəcədə xoşuna gəlirdi, sonra universitet illərində o, qismən məsələnin mahiyyətinin nədə olduğunu başa düşdü. Nə vaxtsa əmisinin tez hirslənməsi onun maddi gücünə, onun var-dövlətinə söykənirdi, sadə deyilərsə, gələcək mirası, amma xasiyyətinin tünd olması səbəbiylə Anzelm ailə içində qəzəblənməkdən də vaz keçmirdi və mal-mülkünü itirəndən sonra da ondan əvvəlki kimi ehtiyat eləyirdilər, baxmayaraq ki onun qəzəbi mirasdan məhrum eləmək hədəsi ilə müşayiət olunmurdu. Amma hətta bu açarı tapandan sonra belə Stefan atasının böyük qardaşlarından birinin yaratdığı qorxu qatılmış ehtiram hissindən azad ola bilmirdi.

Gözlənilmədən döş ətini elə buradaca, yeməkxanada tapdılar – qara bufetdən və bu nəhəng ət parçasını köhnə bufetin dərinliyindən dartıb çıxaranda onun qara rəngi Stefana tabutun qara rəngini xatırlatdı və o, bir anlığa özündə olmadı. Dəhlizə açılan qapıdan tappıltıyla, səs-küylə qızardılmış ördəklərin qatarını, ağızı sulandıran mərsin bankalarını, buğlanan kartof boşqablarını aparırdılar. Əvvəldən vəd edilən adi yemək süfrəsi açıq-aşkar ziyafətə çevrilirdi, həm də Ksaveriy əmi bufetdən bir-birinin ardınca şərab şüşələrini çıxardırdı. Burada iştirak eləyənlərə yovuşmazlıq hissi qəfildən və sərt halda kəskinləşdi, indiyə qədər də Stefanı danışıqların tonu və ölümü xatırlamamaq

[1] Xoşbəxt fasilə (*lat.*)

üçün edilən kəşflər bir qədər kədərləndirirdi; axı nəhayət ki, bu görüşün yeganə səbəbi məhz ölüm idi, indisə bu kədəri dəfələrlə artmışdı və Stefanı hər şey təhqir eləyirdi, o cümlədən çəngəllərin və çənələrin enerjili işinin müşayiət elədiyi itirilən vətən üçün edilən ah-zar da. İndi bomboş qəbiristanlıqda torpaq altında uyuyan Leşek əmi haqqında düşünəndə isə ona elə gəldi ki, indi ölən haqda yalnız o düşünür. Ziyafət iştirakçılarının qızarmış sifətlərini düşməncəsinə nəzərdən keçirirdi və onun qəzəbi ailə dairəsindən kənara çıxır, bütün dünyaya qarşı yönəlirdi. Amma hələlik Stefan qəzəbini bacardığı qədər yeməkdən imtina eləməklə büruzə verdiyindən, stolun arxasından, demək olar ki, ac ayağa qalxdı.

Amma bu vaxta qədər susan soldakı qonşusu Qjeqoj Nedzitsdə hansısa bir dəyişiklik oldu. Artıq bir müddətidi o, əndişə ilə bığlarını silir, cürətsiz halda ətrafına və qapıya doğru baxırdı, sanki, baxışları ilə məsafəni ölçür, açıq-aşkar nəyəsə hazırlaşırdı. Birdən Stefana doğru əyildi və pıçıltı ilə dedi ki, Poznan qatarına yetişə bilmək üçün onun getmək vaxtıdır.

– Nə danışırsan, gecənin qaranlığında getmək istəyirsən? – nədənsə, Stefan fikri dağınıq halda heyrətləndi.

– Hə, sabah işdə olmalıyam.

Qjeqoj izah eləməyə başladı ki, orada, Poznanşidə almanların polyakları görən gözü yoxdur və birgünlük icazəni çətinliklə ala bilib, bütün gecəni Neçavaya gəlmək üçün yolda olub, indisə geri qayıtmağın əsl vaxtıydı... Lopabığ rabitəsiz nitqinə ara verərək dərindən köks ötürdü, sərt halda ayağa qalxdı, az qala, stolun üstündəki süfrəni də qabları qarışıq dartıb aparacaqdı və hər tərəfə kor-koranə baş əyərək qapıya doğru çəkilməyə başladı. Suallar, etirazlar yağmağa başladı, amma inadkar qaradinməz bir daha hamıya baş əydi və artırmada yox oldu. Ksaveriy əmi onun arxasınca qaçdı, tezliklə giriş qapısı çırpıldı. Stefan pəncərədən baxdı. Həyətə artıq qaranlıq çökmüşdü. Gödək əsgər şinelində olan uzun adamı qarlı yolda təsəvvür elədi... Sol əliylə boşalmış stulu yoxladı, gördü ki, kraxmallanmış stol üstlüyünün aşağı sallanmış saçaqları açılıb və əllə səylə hamarlanıb, qəlbi sözün həqiqi mənasında uzaq qohumu olan, yalnız öləni son mənzilə yola salmaq üçün iki gecə

ardıcıl qaranlıq, soyuq vaqonda silkələnən, yüzlərcə addım yolu piyada gedən bu naməlum adama qarşı ılıq, həqiqi mərhəmət hissindən sıxıldı.

Qonaqlar bol yeməkdən sonra acınacaqlı görkəmi olan stolun arxasından qalxdılar, boşqablarda donmuş piyli, gəmirilmiş sümüklər qalaqlanmışdı. Bir dəqiqəlik sükut oldu, bundan istifadə eləyən kişilər siqaret çıxartmaq üçün əllərini ciblərinə saldılar, keşiş yumşaq parça ilə eynəyini sildi, bibi-nənə isə ağır xəyala dalmışdı, əgər geniş açılmış gözləri olmasaydı, onun mürgülədiyini güman eləmək olardı. Bütün bu ümumi sükutun içindən, deyəsən, ilk dəfə olaraq dul qadın Anelinin səsi eşidildi. Hələ də stol arxasında oturan, tərpənməyən, aşağı əydiyi başını yuxarı qaldırmayan qadın baxışlarını stolun üstlüyünə zilləyərək dilləndi:

– Bilirsiniz, hər şey necəsə gülməlidir...



Və onun səsi kəsildi. Bunun arxasınca da heç kimin pozmaq istəmədiyi sükut başladı, qətiyyən belə deyildi, bunu kimsə özünə rəva görməzdi, heç kim buna hazır deyildi. Doğrudur, keşiş dərhal Aneliyə doğru yönəldi, o, hansısa bir mühafizəkar əndişə ilə hərəkət eləyirdi, sanki, ilk yardımı eləməli olan, ancaq nə edəcəyini bilməyən həkimdi. Lakin o, bununla da kifayətləndi, qadının yanındaca donubqaldı, qadın bütünlüklə qara geyinmişdi, limon rəngli sarı sifəti və göz qapaqları şişmiş keşiş də qara geyimdəyidi. Keşiş dayanmışdı və tez-tez gözlərini qırpırdı. Onları bu vəziyyətdən xidmətçilər qurtardılar, daha doğrusu, onların vəzifəsini yerinə yetirən kənd arvadları; onlar içəri daxil oldular və anlaşılmayan səs-küylə boşqabları, iri nimçələri yığışdırmağa başladılar.

Qonaq otağının yarıqaranlığında, işıldayan palıd kitab şkaflarının yanında, yüngülcə his verən, portağal rəngli abajuru olan bürünc kerosin lampasının altında Ksaveriy əmi yarıpıçıltıyla qohumları ilə söhbət eləyirdi. Birini burada gecələməyə dilə tutur, digərini qatarların gediş-gəlişi haqqında məlumatlandırır, kimi nə vaxt oyatmaq barədə göstəriş verirdi. Stefan dərhal da qayıtmaq istərdi, amma qatarın yalnız gecə saat üçdə olacağını öyrənəndə tərəddüd elədi və səhərə qədər qalmağı qərara aldı. O, qonaq otağında gecələməliydi – saatların qarşısında, buna görə

də hamının dağılışmasını gözləmək lazım gəlirdi. Nəhayət, hamı dağılışanda artıq, az qala, gecəyarısı idi. Stefan cəld yuyundu, güc-bəla ilə səyriyən lampanın işığında soyundu, üfürüb lampanı söndürdü və soyuqdan büzüşərək adyalın altına girdi. Bu ana qədər varlığına hakim kəsilən yuxusu yoxa çıxmışdı. Gözlərini yummadan arxası üstə xeyli uzandı, zülmət qaranlıqda güclə seçilən saatlar isə hansısa çox güclü bir səylə hər saatın dörddəbir hissəsində və saat tamam olanda zəng çalırdı.

Onun fikirləri əvvəlcə qeyri-müəyyən, dumanlı şəkildə bu gün çəkdiklərinə doğru istiqamətlənirdi, lakin tələsmədən və düşünülmüş şəkildə, nədənsə, bir tərəfə meyil eləyirdi. Bütün ailənin xarakterinə buz kimi soyuqluq və od-alov, qızğınlıq və inadkarlıq xas idi. Keletsdən olan Tşinetskilər qızğınlıqları ilə ad çıxarmışdılar, Anzelm əmi tündməzaclığı ilə, bibi-nənə – kiminləsə zamanın silib yox elədiyi sevgisində ağılsızlığı ilə. Bu fəlakətli cizgilər özünü ailənin hər bir üzvündə özünəməxsus şəkildə büruzə verirdi. Atası ixtiraçı idi, digər qalan işlərlə isə kötək zoruna məşğul olurdu, yaşam qayğılarına milçək kimi etinasız idi, tez-tez həftənin günlərini qarışdırırdı, çərşənbə axşamını iki dəfə yaşayırdı, sonra isə aydın olurdu ki, çərşənbəni ötürüb, amma bu, adi huşsuzluq deyildi, yalnız indiki anda onu həddən artıq məşğul eləyən ideya üzərində fikrini cəmləşdirməsindən irəli gəlirdi. Atası yatmayanda və xəstə olmayanda düşünmədən onun çardaqda quraşdırdığı balaca emalatxanada, qaz və spirt lampalarının alovları arasında, bərk közərmiş alətlərin əhatəsində, turşuların və metalların qoxusunu udaraq, dimdik durub neylədiyini zənn eləmək olardı: nəyisə, necəsə sazlayırdı, nəyisə cilalayırdı, nəyisə bağlayırdı və axtarış proseslərinin özəyini təşkil eləyən bütün bu hərəkətlər heç vaxt kəsilmirdi, halbuki eksperimentlər istiqamətini dəyişirdi, atası bir uğursuzluqdan digərinə eyni inamla elə ehtirasla, o qədər coşqunluqla gedirdi ki, kənar adamlara bu işə mübtəla olmuş və ya ağlını birdəfəlik itirmiş adam təsiri bağışlayırdı. Stefanı o, heç vaxt uşaq kimi görməmişdi. Yarıqaranlıq emalatxanaya gələn oğlanla yaşlılarla danışdığı kimi danışırdı, həm də məsələn, ağır eşidən yaşlılarla olduğu kimi və buna görə də onlarla söhbət daima yarıda kəsilirdi, elə hey bir-birini

başa düşmürdülər. Buna baxmayaraq, atası ağzı yivlə dolu halda, yanmış xalatda xarrat dəzgahından məngənənin yanına keçərək, məngənədən də xarrat dəzgahının yanına qayıdaraq oğluyla elə danışırdı ki, sanki, mühazirə oxuyurdu, başında hansısa əməliyyatları həll eləmək üçün də fasilə verirdi. Bəs o, nədən danışırdı? Stefan indi dəqiq xatırlamırdı, bu danışıqları eşidəndə onların mənasını başa düşməyəcək qədər kiçik idi, amma deyəsən, atası, təxminən, belə deyirdi: «O şey ki olub və keçib, yoxdur, daha dəqiqi: heç vaxt olmayıb. Bu, dünən sənin yediyin pirojnaya bənzəyir, onun sənə bir xeyri yoxdur. Buna görə də özün üçün olmayan bir keçmiş uydura bilərsən, yalnız ona inanmaq qalır və elə olacaq ki, sanki, sən, həqiqətən də, bu keçmişi yaşayıbsan».



Bir dəfə isə ona belə dedi: «Məgər sən dünyaya gəlmək istəyirdin? Axı istəmirdin, doğrudurmu? Amma əgər sən yox idinsə, istəyə də bilməzdin. Görürsənmi, mən də sənin anadan olmağını istəmirdim. Yəni oğlum olmasını istəyirdim, amma səni yox, axı mən səni tanımırdım – demək, səni istəyə də bilməzdim... Ümumiyyətlə, oğlum olmasını istəyirdim, sənsə – gerçəksən...»

Stefan özü şəxsən atası ilə təsadüfən danışardı və ondan heç nəyi soruşmazdı, amma bir dəfə necə oldusa (onda on beş yaşı vardı), hər halda, soruşdu ki, əgər kəşf eləyərsə, atası neyləyəcək? Atası qaşqabağını tökdü, xeyli susdu, sonra isə cavab verdi ki, yenə də hansısa bir kəşflə məşğul olacaq. «Niyə?» – Stefan dərhal da soruşdu. Birinci sual kimi bu sual da atasının hamının lağlağı hədəfi olan – bunu yeniyetmə kifayət qədər yaxşı bilirdi – özünəməxsus peşəsinə diqqətlə gizlədilən, amma illərlə artan nifrətin diktəsi ilə verilmişdi və atasının əcaibliyinin kölgəsi onun da üzərinə düşürdü. Yaşlı Tşinetski böyümüş oğluna belə cavab verdi: «Stefak, belə soruşmaq olmaz. Görürsənmi, əgər ölən adamdan soruşarlarsa ki o, həyatını yenidən yaşamağa razıdırmı, yəqin, o razılaşardı və ümumiyyətlə, niyə yaşamalı olduğu ilə maraqlanmazdı. Mənim işim də beləcə».

Bu gərgin və üzücü iş evə heç bir gəlir gətirmirdi, evi anası saxlayırdı – daha dəqiqi, onun atası. Beləliklə də, atasını anası saxlayırdı və bunu öyrənəndə Stefan o həddə

qədər qəzəbləndi ki, bir müddət atasına nifrət elədi. Tşinetskiyə onun qardaşları buna oxşar, hərçənd bir qədər yumşaq hisslər bəsləyirdilər, amma illər keçdikcə bu, tədricən yoluna qoyuldu, uzun müddət alışdıqları şey, nəhayət, adamları usandırır. Pani Tşinetskaya ərini sevirdi, amma təəssüf ki, ərinin peşəsi onun ağlı üçün başadüşülməz idi, ər-arvad bir-birinə qarşı partizan müharibəsi aparırdılar, halbuki az qala, bunu sezmirdilər, çünki bu, iki sahəyə, evə və emalatxanaya aid olan əşyaların qarşıdurması idi. Atası mənzili emalatxananın davamına çevirməyi heç ağlına da gətirmirdi, amma bu, öz-özlüyündə baş verirdi, stolların, şkafların və süfrələrin üzərində məftil və metal qalıqları qalaqlanırdı, ana isə öz süfrələrinin, krujevalı dəsmallarının, evdə bəslədiyi gül və ağacların üzərində əsirdi. Atası bu bitkilərə rəhm eləmirdi, əlaltından köklərini kəsirdi, ölgünləşmə əlamətlərinə gizlicə sevinirdi. Ana evi yığışdıranda hansısa qiyməti olmayan kabeli, hansısa əvəz edilməsi mümkün olmayan vinti atırdı və bütün bunları heç də özgə məqsədi olmadan eləyirdi. İşə başı qarışanda, sanki, pan Tşinetski hansısa uzaq səfərə yollanırdı, oradan isə növbəti xəstəliyə yoluxmuş halda qayıdırdı. Hərçənd pani Tşinetskayanı ərinin xəstəlikləri narahat eləyirdi, amma əri ətrafına qızdırıcılar düzülmüş halda yatağa uzanıb, köməksizcəsinə inildəyəndə qadın tam rahatlıq əldə eləyirdi, çünki o zaman, ən azı, ərinə nə lazım olduğunu və onunla nə baş verdiyini başa düşürdü.

Xəyalları valideynlərinin evini tərk eləyib, bu gün yaşadıqlarına qayıdan Stefanın başı üzərində saatların ucadan çalınan zəngləri qaranlığı parçalayırdı. Soyuq başla qohumluq bağlarının, doğumlar və ölümlər vaxtı birləşən bu müəmmalı maraqların və hisslərin müzakirəsi ona mənasız və darıxdırıcı gəldi. Onun varlığına qızğın ifşa eləmək hakim kəsilmişdi, ona elə gəlirdi o, qohumlarının üzünə bütün acı həqiqətləri qışqırıb deməlidir; deməlidir ki, onların bütün adi günlərdəki və bayramlardakı vurnuxmaları boş şeydir, amma o, canlı adamlara demək üçün sözləri seçib axtaranda fikirləri Leşeka əmiyə toxundu və sanki, qorxusundan donub-qaldı. Bu baş verəndə o, fikirləşməyinə ara vermədi, amma indi onun fikirləri, sanki, öz-özünə axırdı, o yalnız onların qaçışlarını izləyirdi. Xoş bir

yorğunluq – tezliklə gələcək yuxunun müjdəçisi – bütün bədəninə yayılırdı, buradaca o, kənd qəbiristanlığındakı qardaş məzarlığını xatırladı. Məğlub edilmiş vətəni ölmüşdü – bu, metafora idi, amma əslinə qalarsa, o adi əsgər qəbiristanlığı əsla metafora deyildi və orada qüssədən, amma həm də sevincdən – birlikdə olmağın qabaqcadan ləzzətini duymaq, tənha yaşamaqdan və tənha ölməkdən daha yaxşıdır – sıxılan ürəyinlə sükut içində dayanmaqdan başqa daha neyləmək olardı? Buradaca Leşeka əmi də onlarla yanaşı. Stefan onun qarla örtülmüş qəbrini aydın, aşkar gördü, sanki, yuxuda görürdü. Amma o yatmamışdı və vətən onun şüurunda birdən ailəsi ilə qarışdı. Vətəni də, ailəsini də ağlının mühakiməsinə verdi və onlar hər ikisi onun özündə yaşamaqda davam eləyirdi, bəlkə də, o özü onlarda yaşayırdı... Ah, o artıq heç nə bilmirdi və yalnız yuxuya gedəndə əlini ürəyinin üzərinə qoydu, çünki dərk elədi ki, onlarla əlaqəni kəsmək, onsuz da, elə ölmək kimi bir şeydir.



## GÖZLƏNİLMƏYƏN QONAQ

Yuxudan dumanlanmış gözlərini açanda Stefan hələ də qarşısında qızılı rəng çəkilmiş gipsdən olan şirin pəncələrindəki oval güzgünü, yekəqarın kamodu və taxçalarda asparaqus güllərinin yaşıl buludlarını görəcəyini təsəvvür eləyirdi. Gerçəklik onun gözlədiklərini təkzib eləyəndə heyrətinin sonu olmadı. O, tanış olmayan çox böyük otaqda, alçaqda yatmışdı, az qala, döşəmənin üzərində; burada, sanki, hər şey ucadan cingildəyirdi, saçaqlı, şəffaf buz salxımlarının pərdə çəkdiyi balaca pəncərələrdə özgə dan yeri göyərir, beləliklə də, qonşu evin boz divarı görünmürdü.

Yalnız gərnəşəndən və yatağın üzərində oturandan sonra bütün dünənki günü xatırladı. Cəld ayağa qalxdı, soyuqdan titrəyərək artırmaya çıxdı, asılqanda öz paltosunu axtardı və onu köynəyinin üzərinə ataraq hamama getdi. Azacıq açılmış qapıdan artırmanın pəncərələrindən süzülən səhərin bənövşəyi rəngləri ilə, yanan şamların ziddiyyət təşkil eləyən narıncı rəngli şəfəqləri düşürdü. Hamamda kimsə vardı. Stefan Ksaveriy əminin səsini tanıdı və ona

qulaq asmağa qəlbində böyük bir həvəs yarandı. Dərhal da psixoloqun hər şeyi öyrənməyə olan həvəsinə istinad edərək özünə haqq qazandırdı, xüsusən də ona görə ki, hərdənbir insan haqqında hansısa yeganə, amma həqiqət olan bir nəsnəyə inanırdı, bu həqiqəti insan öz-özüylə təklikdə qalanda onu cinayət başında yaxalayarkən aşkar eləmək olardı.

Buna görə də hamamın yanında o, sakit gəzməyə və qapıya toxunmamağa çalışdı, yalnız ovuc boyda olan yarıqdan içəri boylandı.

Şüşə rəfdə iki şam yanırdı. Şamlar divarın yanındakı vannadan qalxan və kətan şalvar, Ukrayna stilində köynək geymiş Ksaveriy əminin bədənini şəffaf örtüyə bürüyən buxar burumlarını sarı rəngə boyamışdı. O, tərləmiş güzgünün qabağında fırlanaraq qeyri-adi görünən üzünü qırxırdı və ruh yüksəkliyi ilə, amma o qədər də aydın olmayan tərzdə – üzünü qırxması mane olurdu – ifadə ilə şeir söyləyirdi:

*... Acizanə xahiş edirəm, ələ, bu şirinlikləri*
*üfunətli şalvarın deşiyi arasından*

Stefan bir qədər ümidsizləşmişdi və qərara gələ bilmirdi ki, indi neyləsin. Əmisi isə sanki, onun baxışlarını hiss eləyərək (bəlkə də, qardaşı oğlunu güzgüdə görərək) dönmədən tamam başqa tonda dedi:

– Stefek, necə yaşayırsan? Bu sənsən, hə? Gəl bura, dərhal yuyuna bilərsən, isti su var.

Stefan əmisinə xeyirli sabahlar arzuladı və itaətkarcasına hamama girdi. Səhər tualeti ilə tələsik, əmisinin burada olmasına görə bir qədər sıxılaraq məşğul olmağa başladı, əmisi isə ona əhəmiyyət vermədən üzünü qırxmaqla məşğul idi. Müəyyən müddət hər ikisi susdu, sonra birdən əmisi dilləndi:

– Stefan...

– Hə, əmi?

– Bilirsənmi bu, necə oldu?

Əmisinin səsinin tonundan Stefan onun nəyi nəzərdə tutduğunu dərhal başa düşdü, amma belə məsələlərdə təkcə təxminə əsaslanmaq olmazdı, yenidən soruşdu:

– Leşek əmi?

Ksaveriy cavab vermədi. O, xeyli susdu, sonra üst dodağını qaşıyaraq birdən-birə sözə başladı:

– Avqustun ikisində o, bura gəldi. Balıqçılıq eləmək, forel tutmaq istəyirdi; orada, dəyirmandan yuxarıda, sən oranı tanıyırsan. Özü haqqında isə təbii ki, bircə kəlmə də danışmırdı. Mən onu çox gözəl başa düşürəm. Nahara isə axşam olduğu kimi ördək verdilər. Yalnız alma ilə, indisə alma yoxdur. Nə vardısa, əsgərlər sentyabrda yığıb apardılar. O, ördəyi yeməkdən imtina elədi, amma axı bu yeməyi həmişə çox xoşlayırdı. Bu, məni, nədənsə, həyəcanlandırdı. Hə, sifəti də artıq başqa cür idi. Yalnız yaxın adamda görə bilmirsən. Bu fikirləri özünə yaxın qoymursan ki...

– Ətə qarşı ikrah hissi və arıqlama? – sözlərinin necə ağır səslənməsinin hesabatını öz-özünə verərək Stefan soruşdu.



Şəxsi peşəsi onu bir qədər pərt elədi. Tələsik silinib qurulanmağa başladı, necə olsa da, sonra nə olacağını başa düşürdü, ancaq belə çılpaq vəziyyətdə qulaq asmaq iqtidarında deyildi. Bəlkə də, ona görə ki, özünü, sanki, tərk-silah edilmişə oxşar bir vəziyyətdə hiss edirdi? Özü isə bu haqda heç düşünmürdü. Ksaveriy əvvəlkitək arxası ona tərəf dayanmışdı, güzgüdə özünə baxırdı, Stefanın sualını qulaqardına vurdu və davam elədi:

– Özünə baxmağa icazə vermirdi. Di mən güc-bəla... Zarafata saldım, guya, qıdıqlanmanı öyrənirəm, onun qarnı ilə maraqlanıram, bizdən hansımızın şalvarı böyükdür və sair... Şiş isə yumruq boydaydı, yerindən tərpədə bilmirdin, möhkəm idi, büsbütün şaxələnmişdi, daha nələr...

– *Carcinoma scirrhosum,* – Stefan alçaqdan dedi, amma niyə? O özü də bilmədi. Xərçəngin latınca olan bu adı cinlərin qovulması formuluna uyğun gəlirdi – gerçək şəraitdən qeyri-müəyyənliyi, həyəcanı, qorxunu qovub çıxaran hansısa elmi ovsunlama – bu vəziyyəti aydınlaşdıran və əşyaların gedişinə təbii görüntü verən formula.

– Klassik hadisə... – Ksaveriy əmi üzündə eyni bir yeri qırxaraq mızıldandı.

Gödək hamam xalatına bürünmüş Stefan əlində şalvarını saxlayaraq hərəkətsiz halda kandarda donub-qalmışdı – daha neyləməliydi? O qulaq asırdı.

– Sən bilirsən, o, bugün-sabah həkim olmalıydı? Necə yəni, bunu bilmirsən? Doğrudanmı? Nə danışırsan, o, tibb fakültəsinin dördüncü kursundan qaçdı. Təkcə bir il əbədi tələbə olmadı, oxumağa isə biz bir yerdə başlamışdıq, axı mən gimnaziyadan sonra xeyli vaxt itirdim. Bir şeydən ötrü... Hə də. Belə ki, mən onu müayinə eləyəndə o, hər şeyi açıq-aşkar görürdü və ona hər şey aydın idi. Anlaşılan buydu ki, əməliyyat aparmaq gec idi, amma bir halda ki sən həkimsən, sənin tibbdə alternativlərin yoxdur – iş yalnız tabut düzəldən ustaya qalır. Bunu isə həmişə eləmək olar. Mən düşünürdüm, kim bilir nə dava-şavalar olacaq, amma o, dərhal razılaşdı. Mən də Xrubinskinin yanına getdim. Zibildir, amma əlləri qızıldır. Yalnız dollarla cərrahiyyə əməliyyatı aparmağa razı oldu, vəziyyət, bilirsiniz, qeyri-müəyyəndir, öz pulumuz əsgi parçası kimi qiymətdən düşür. Rentgen şəkillərinə baxdı və qəti imtina elədi, amma mən onu dilə tuta bildim.

Burada pan Ksaveriy Stefana tərəf döndü və sifətində eynən gülüşünü güclə boğurmuş kimi bir ifadə var idi, soruşdu:

– Sən, Stefan, sən, heç olmasa, bir dəfə kiminsə qarşısında diz çökmüsən? Kilsədə yox, – tələsik əlavə elədi.

– Yox...

– Bax, görürsən?.. Mənsə dayanmışam. İnanmırsan? Hə, mən sənə necə deyirəmsə, elə də olub! Xrubinski on ikisi sentyabrda əməliyyatı elədi. Alman tankları artıq Topolevdə idi, Ovsyan yanırdı, cadugər-monarx qadınlar qaçırdılar, mən özüm ona assistentlik eləyirdim. Gör hansı əsrdə... Xrubinski açdı, tikdi və işini qurtardı. Özündən çıxmışdı. Mən onu başa düşürdüm. Mənim üstümə bağırırdı. Amma hər yerdə büsbütün cəfəngiyat idi, bütün bu sentyabr, hər tərəfdə, Polşada, bax belə...

Pan Ksaveriy ülgücü qayışında itiləməyə başladı, onun hərəkətləri getdikcə daha ləng və tamam təmkinli olurdu, o, susmadan danışırdı:

– Əməliyyatdan azca əvvəl, artıq skopolomin iynələri vurulandan sonra Leşek soruşur: «Bu sondur, hə?» Mən, təbii ki, belə məqamda xəstəyə deyilən sözləri deyirəm. O isə: «Polşanın, deyəsən, sonudur». Bilirsən nə xahiş eləyir? Polşa yenidən bizim olanda mən onun qəbrinin üstünə

gedim, bunu ona pıçıldayım. Fantaziyaçı idi! Hərçənd, yeri gəlmişkən, kimi ölməyə öyrədirlər? Əməliyyatdan sonra oyananda isə di, onun yanında tək mən idim, saatın neçə olduğunu soruşdu. Mənsə, qoca gicbəsər, ona həqiqəti dedim. Saatların yerini dəyişmək ağlıma gəlmədi, axı o, bir həkim kimi ciddi əməliyyatın bir saat və daha da çox davam elədiyini bilməliydi, burada isə on beş dəqiqə keçib və hər şey qurtarıb. Demək, artıq bilirdi, hər şey...

– Bəs sonra? – Stefan ixtiyarsız dedi, təzədən ortalığa ağır sükut çökəcəyindən qorxurdu.

– Sonra mən onu Anzelmin yanına apardım, özü belə istədi. Mən onu üç ay idi görməmişdim, yalnız dekabrda... Amma bu, tamamilə ağlasığmazdır.

Ksaveriy əmi baxmadan ağır hərəkətlə ülgücü kənara qoydu və Stefanla yanaşı dayanaraq baxışlarını birbaşa qarşısına, bir qədər aşağıya dikdi, adama elə gəlirdi ki, o, ayaqlarının yanında nə isə əcaib bir şey görüb.



– Mən onu yataqda gördüm, arıqlamışdı, əsl skelet idi, artıq südü də çətinliklə içirdi və səsi çox cır olmuşdu, burada hətta kor adam da işin nə yerdə olduğunu təsəvvür eləyərdi, o isə... bunu necə deyim? Mən onu xoşbəxt gördüm! Hər şeyə, başa düşürsənmi, özünü hər şeyə inandırmışdı, əgər belə demək mümkünsə, əməliyyatın uğurlu keçdiyinəmi və hər keçən günlə gücünün artdığına, əmələ gəldiyinəmi, yataqdan qalxacağına lap az qaldığınamı inanmışdı? Ayaqlarının və əllərinin masaj edilməsinə göstəriş verir və həkimlərin onu düzgün müalicə etmələrindən ötrü səhərlər özünü necə hiss elədiyini Aneliyə diktə eləyib yazdırırdı... Şiş isə artıq kömbə kimi olmuşdu. Özünün də ona əli çatmasın deyə qarnına sıx sarğı bağlamağa icazə vermirdi, guya, tikiş belə daha təhlükəsiz olurdu. Öz xəstəliyi haqqında, ümumiyyətlə, danışmağı sevmirdi, əgər bu baş verirdisə də, «adicə şiş idi və kəsilib atıldı» deyirdi, daha sağlam olacaq və ümumiyyətlə, onun heç nəyi yoxdur...

– Əmi, siz elə zənn eləyirsiniz... o, normal adam deyildi? – Stefan cavabında nə eşidəcəyini təxmin eləmədən pıçıldadı.

– Normal! Ya da qeyri-normal! Axmaq, sən nə çərənləyirsən! Sən nə bilirsən? Normal ölənə, bax, normal olmaq

uyğun gəlirmi? Bu şişi bədənindən çıxarmağı bacarmadı, yaddaşından çıxartdı. Aldadırdı, inanır, başqalarını da inanmağa məcbur eləyirdi, mən haradan bilim birinin haradan başladığını və digərinin harada qurtardığını! Tamamilə sakitcə deyirdi ki, özünü yaxşı hiss eləyir və getdikcə daha tez-tez ağlayırdı.

– Ağlayırdı? – ata minmiş, çiynində qoşalülə tüfəng olan və tüfəngin lüləsi yerə yönəlmiş enlikürək Leşeka əmisini xatırlayan Stefan uşaq kimi qorxuya düşdü...

– Hə. Bilirsən niyə? Ağrılar şiddətli idi, ona morfi şamları təyin eləmişdilər. Özü onları bədəninə yeridirdi. Bir dəfə bunu baxıcı qadın eləyəndə isə yenə də ağladı. «Mən, – deyir, – artıq özüm heç nə bacarmıram, bircə şamları qoymaqdan başqa, bunu da mənim əlimdən alırlar...» Ayağa qalxa bilmirdi, amma deyirdi ki, özü qalxmaq istəmir. Əgər süd içirdisə, guya, süd içəndən sonra ayağa qalxmağa dəyməzdi, bulyon içsəydi, başqa məsələ. Bulyon içəndən sonra da nəsə düşünüb tapırdı. Bax belə! Onda mən onunla olurdum. Söhbət eləyirdim! Əllərini uzadır, əlləri oduna oxşayır, amma hamıya, guya, kökəldiyini deyirdi. Qəribə işdir, bu zaman o, necə də hər şeyə şübhə eləyən adam olurdu! «Siz orada, küncdə nə pıçıldaşırsınız? Doktor nə dedi?» Nəhayət, Skoçinskaya bibi keşiş çağırmalı oldu. Təbii ki, o, müqəddəs sovqatlarla gəldi. Mən, Allah bilir, nələr düşündüm, Leşeka isə buna tamam sakitcə yanaşdı. Yalnız həmin gecə mən onun yanında oturanda pıçıldadı. Mən sayıqladığını güman eləyib cavab vermirəm, o isə ucadan: «Ksav, nəsə bir şey elə...» Ona yaxınlaşıram, o isə yenə də: «Ksav, nəsə bir şey elə...» Stefan, sən ki həkimsən? Di başa düş, mən onun yanına morfi ehtiyatı ilə gəlmişdim. Əgər o istəsəydi... Mən özümlə lazım olan dozanı götürmüşdüm. Pencəyimin cibindəydi. Onda, gecə mən onun nə istədiyini başa düşdüm, di özün başa düşürsən. Amma mən onun gözlərinə baxdım və gördüm ki, o, kömək istəyir. Mən susuram, o isə öz sözünü deyir: «Ksav, nəsə bir şey elə...» Beləcə, ta sübhə kimi. Sonra isə heç nə demədi. Mənim getməyim lazım idi. Bax belə... Axşam Anelya mənə danışdı ki, dünən özünə gəldi, uzandı, səhər onun yanına gedirəm, o isə artıq ölüb. Yalnız yataqda əksinə uzanmışdı.

– Necə yəni əksinə? – qorxmuş və tələsik halda Stefan pıçıldadı.

– Əksinə – başının olduğu yerə ayaqlarını qoymuşdu. Niyə? Mən haradan bilim? Nəsə eləmək istəyirmiş, yaşamaqdan ötrü...

Əzik-üzük kətan şalvar, sinəsi açıq olan naxışlı köynək geymiş, üzünə sabun köpüyü yaxmış Ksaveriy əmi dərin fikrə getdi və başını ağır-ağır aşağı endirdi. Sonra ani baxışlarla Stefanı nəzərdən keçirdi. Onu özünün qara, indi isə ciddi və alışıb-yanan gözləri ilə dəlib keçdi.

– Mən bunu sənə ona görə danışıram ki, sən həkimsən və özümüzünküsən... Sən bunu bilməlisən! Bu... bütün mənim tibbi biliyimdir. Orada mən... doğrusu, bilmirəm, mən... mən, demək olar ki, dua eləyirdim. İnsan nələrə məruz qalır!



Güzgüdən suya çevrilən buxarın döşəməyə necə damcıladığı eşidilirdi. Birdən onlar hər ikisi diksindi, sanki, yuxudan ayıldı, qonaq otağındakı saatlar ucadan zəng çaldı, əzəmətlə, təmkinlə...

Əmisi çanağa doğru döndü, üzünə, boynuna qızğınlıqla su vurmağa başladı, burnunun sabununu yudu, Stefan isə bu zaman tələsik, sanki, oğrunca geyindi və sakitcə hamamdan sivişib çıxdı.

Yeməkxanada artıq süfrə açılmışdı. Pəncərədən sallanan mavi buz lülələri şəffaf günün büllur rəngini almışdı, pəncərə şüşələri ilə qızılı işıq zolaqları sürüşür, döşəmə saatlarının futlyarının şüşəsində əks olunurdu, stolun üzərindəki dolçanın kənarlarından şən qığılcımlar səpələnirdi. Anzelm əmi, Keletsdən olan Tşenitski qızı ilə, bibi-nənə Soçinskaya, Anelya xala da gəldilər.

Çoxlu isti qəhvə, mürəbbə, iri çörək kömbələri, dördkünc yağ, bal; səhər yeməyini dinməzcə yeyirdilər; hamı, nədənsə, sakit idi, günəş işığına qərq olmuş pəncərəyə baxır, ara-sıra nəsə deyirdilər. Stefan əsəbiləşirdi, qorxurdu ki, onun qəhvəsinə süd əvəzinə qaymaq tökərlər, onun qaymağı görən gözü yox idi. Anzelm əmi fikirli və qaşqabaqlı idi. Hər şeyin adi olduğu görünürdü, amma stol arxasında oturmaq nəyə görəsə dözülməz idi. Stefan ən axırda gələn, qalstuk taxmamış, düymələnmiş qara pencək geymiş Ksaveriy əmiyə bir neçə dəfə baxdı. Stefan onları elə indicə,

sanki, bir-birinə bağlayan gizli birlik yaratdıqlarına əmin idi, amma əmisi onun çoxmənalı baxışlarına əhəmiyyət vermədi, çörək kürələrini bürmələyərək stolun üstünə qoyurdu. Əmisinə təsərrüfatda kömək eləyən kənd qadınlarından biri içəri girdi və kandardan bütün otağa elan elədi:

– Hansısa cənab gəlib və kiçik Tşinetskini soruşur.

Bu «cənab kiçik Tşinetski» Leşeka əminin təxəyyülünün məhsulu idi, Ksaveriygildə qonaq qalanda mütləq onun xidmətçilərinə təlim keçirdi, elə hey «gənc cənab Tşinetski» və «cənab kiçik Tşinetski» deyə təkrarlayan bir inadkar qıza isə hətta bağırırdı: «Bu, sən dərk eləyən iş deyil! Sənə görə məgər «Allah, öz qulunu hifz elə» ilə «Cənab, öz qulunu hifz elə» eyni şeylərdir, kütbeyinin birisi! «Amma indi tutulmuş və heyrətə düşmüş Stefan heç bu haqda xatırlamırdı da, qorxmuş halda stolun arxasından sıçrayıb ayağa qalxdı və nəsə donquldanıb dəhlizə qaçdı. Ora işıq idi, amma işıq artırmanın şüşəbəndlərindən elə düşürdü ki, qonağın sifətini ayırd eləmək olmurdu – yalnız günəşin fonunda qara siluet görünürdü. Adam paltodaydı, şlyapasını əlində saxlamışdı və yalnız o danışmağa başlayanda, Stefan onu tanıdı.

– Staşek! Hə, Staşek! Sən burada nə gəzirsən... di bilirsən... kimi, kimi görəcəyimi təsəvvür edərdim, amma səni yox!!!

Stefan gələn adamı dartıb qonaq otağına aparmaq istərdi, amma qapıdaca onun üzərinə atıldı və az qala, güclə xəz boyunluqlu paltosunu əynindən çıxardı. Artırmaya apardı, qayıdıb qonağı kresloda oturtdu, özü üçünsə stul çəkib oturdu.

– Hə, nə var, necəsən? Nə iş görürsən? Haradan gəlibsən? Hə, danış görüm!

Stanislav Kşeçotek, Stefanın universitet yoldaşı sıxılır və eyni zamanda da sevinclə gülümsəyirdi. Stefanın qızğınlığı onu bir az karıxdırmışdı.

– Nə var? Belə də, məxsusi heç nə yoxdur, burada, yaxınlıqda işləyirəm, Bejintsdə. Axşam təsadüfən bu yas haqqında eşitdim, yəni sənin əminin... – sözünə ara verib, baxışlarını yayındırdı, sonra davam elədi: – Bax mən də düşündüm, yəqin, səni burada görə bilərəm. Çoxdandır səninlə görüşmürük, hə?

– Ax, demək belə, necə... hə. – Stefan heç cür fikirlərini toplaya bilmirdi. – Dayan görüm, demək, sən Bejintsdə işləyirsən? İşə bir bax! Demək, sən sarğı həkimisən, eləmi? Axı Ksaveriy əmi...

– Yox. Mən Paençkovun müalicəxanasında işləyirəm. Di sən ki bilirsən, axı bu yerlər sənə tanışdır...

– Ax! Necə də başa düşmədim! Bu müalicəxanada... icazə ver, demək, psixiatr? Bu sahə üzrə ixtisaslaşıbsan? Bu, mənim üçün yenilikdir!

– Belə olacağını mən özüm də bilmirdim. Amma hələ müharibədən qabaq, bilirsənmi, vakansiya oldu və Tibb palatasının elanı ilə...



Kşeçotek özünəməxsus uzunçuluqla – xeyli mövcud olmayan təfərrüatlarla Bejinetsə gəlməsinin tarixçəsini danışmağa başladı, Stefan həmişə olduğu kimi qızışırdı, məlumatların bütöv hissələrini qulaqardına vuraraq, onu sual yağışına tutmuşdu. Bu zaman da həmsöhbətini gizlətmədiyi bir sevinclə süzürdü. Tibb fakültəsinin birinci kursunda tanış olmuşdular, onları meyit yarılan otaqda olarkən öhdəsindən gəlməli olduqları hisslərinin oxşarlığı birləşdirmişdi. Staşek Stefanın yaxınlığında yaşayırdı və tezliklə dərs kitablarının həddən artıq baha olmasını və kitabla uzun müddət təkbətək qalmanın mümkün olmadığını əsas gətirərək, birlikdə hazırlaşmağı təklif elədi. Stefan əvvəllər də Staşeklə rastlaşmışdı, amma ona yaxınlaşmırdı, belə ki, ona elə gəlirdi Staşekdə əlaçıya xas olan nəsə var, amma əzbərləməsinə dözmürdü. Ona yalnız onun həmişə söz sahibi olduğu əyləncə gecələrində və ballarda inamla yaxınlaşırdı. Onu yaxından tanıyandan sonra Stefan tanışının şənliyinin və qızğınlığının süni olduğunu başa düşdü. Bu, kompleksli və özünə inanmayan gənc idi. İmtahanlardan, kurs yoldaşlarından, meyitlərdən, professorların necə əhvalda olmalarından, qadınlardan – qısası, həyatda nə varsa, hamısından qorxurdu. Çox məharətlə özü üçün kefcil adam maskası hazırlayır, amma elə fürsət düşən kimi də asanlıqla çıxarıb atırdı. Stefanı, xüsusən də, Staşekin qızların xoşuna gəlməsi heyrətləndirirdi və onlar Staşekin zarafatlarına həvəslə gülürdülər. Amma yalnız adamların çoxluğu Staşeki cəsurlaşdırırdı. İki qızla o, özünü hələ birtəhər hiss eləyirdi, hər ikisi ilə

eyni zamanda eşqbazlıq eləyirdi, amma biri ilə təkbətək qalanda tamamilə özünü itirirdi. Burada artıq zarafatın yeri deyildi, işə ciddi yanaşmaq lazım idi, bu isə onda heç cür alınmırdı. Rəqslər, mazaqlaşma, masqaraçılıq ümumi anlayışlara görə nəyləsə tovuzquşunun quyruğunu açaraq erkəyini heyran eləməsinə oxşar olan hansısa girişlərə hazırlıq manevrləri kimi başa düşülürdü. Halbuki Staşekin kübar istedadı bununla da qurtarırdı. Stefan Staşekdə gedən heyranedici dəyişiklikləri müşahidə eləyərək bunu təxmin eləyirdi, o, vuran ürəyi olduğu tədbirləri tərk eləyən kimi də ani olaraq susur, əhvalı pozulur və kədərlənirdi. İkilikdə uzun söhbətlərin, payız xiyabanlarında gəzintilərin, axşamlar sonsuza qədər filosofluq eləmənin, qızğın mübahisələrin başlanğıcı, «mütləq həqiqətlərin», «həyatın mənasının» axtarışları və varlıqların mahiyyəti haqqında sözləşmələr belə başlayırdı. Onlar bir-birini məlumatlandırır və zənginləşdirirdilər. Onların səmimiliyi, hər halda, sərhədsiz deyildi – daha intim əngəllərə dirənəndə zəifləyirdi. Staşek öz kişilik uğursuzluğunu bütöv bir nəzəriyyə ilə əsaslandırırdı, o, ümumiyyətlə, məhəbbətə inanmırdı. Məhəbbət haqqında oxumaq xoşuna gəlirdi, amma inanmağa qalanda isə inanmırdı. «Qulaq as, – deyirdi, – Abderqaldeni[1] oxu! Əgər meymuna prolaktin iynəsi vurub küçüyü onun altına atarlarsa, meymun dərhal da ona nəvaziş göstərməyə və onu sevə-sevə bəsləməyə başlayacaq, amma hormonların vurulmasını dayandıran kimi də – iki-üç gündən sonra o, öz sevimli küçüyünü vurub aşıracaq. Bax bu da sənə ana sevgisi, ən ali hiss, qandakı bir damla kimyəvi maddə!»

Stefan xəlvətdə öz ürəyiaçıq dostuna təkəbbürlü münasibət bəsləyirdi. Kşeçotekin sifəti ay kimi girdə və koppuş idi, hərçənd özü arıq-qıvraq idi, kartofa oxşayan burnunun ucunda həmişə iri sızanaq məskən salırdı. Qışda Staşek kişi alt paltarı geymədiyindən – bunu kişi üçün ləyaqətsiz bir şey hesab eləyirdi – həmişə soyuqdan donurdu. Bundan əlavə, ilin dörddəüç hissəsini nümayişkaranə tərzdə, çarəsiz və gülməli halda uğursuz məhəbbətdən əziyyət çəkirdi. Onların münasibətləri elə qurulmuşdu ki,

---

[1] Abderqalden Emil (1877–1950) – İsveçrə biokimyaçısı, zülalların quruluşunun və funksiyasının tədqiqatçısı

ümumiyyətlə, onlar çox söhbət eləyirdilər, amma şəxsi məsələlərə, demək olar toxunmurdular. Amma indi, burada, günəşli gün olmasına baxmayaraq, Ksaveriy əminin naxışlı, ipək divar kağızları çəkilmiş tutqun qonaq otağında nicatverici filosof atından kiminsə üzərinə sıçramaq çətin idi. Buna görə də Kşeçotek öz söhbətini qurtaranda ortalığa ağır sükut çökdü. Staşek sükutu pozmaq üçün Stefandan işinin necə olduğunu soruşdu.

– Mən? Ax, hələlik heç nə bilmirəm... Hələlik heç yerdə işləmirəm. İndi almanlar... işğal... özüm də bilmirəm. Baxıram. Nəyləsə məşğul olmaq, hansısa bir iş yeri tapmaq lazımdır, amma mən bu haqda ciddi düşünməmişəm...

Stefan getdikcə ağır danışırdı. Onlar hələ susurdular, indi artıq əsaslı surətdə. Dilxorçuluqdan onların, az qala, bir-birinə deməyə sözləri qalmamışdı, yalnız söhbəti davam etdirmək istəyinə görə Stefan həyəcanla mövzu axtarandan sonra soruşdu:



– Hə, orada, müalicəxanada vəziyyət necədir? Sən razısanmı?

– Müalicəxana...

Kşeçotek canlandı, danışmaq istəyirdi ki, sanki, yuxudan ayıldı, gözləri geniş açıldı və sifəti sevincdən işıqlandı.

– Qulaq as, Stefan! Bu, mənim yalnız indi ağlıma gəldi, hə, nə olsun? Arximed də birdən... Sən ki bilirsən! Stefan, qulaq as, əgər sən, hə, bizim yanımıza, müalicəxanaya gəlsən? Yaxşı yerdir, çox yaxşıdır, ixtisaslaşma, bu yerlər sənə tanışdır, burada sakitlikdir və iş də maraqlıdır... və... boş vaxtın da kifayət qədər olur, hə, elmlə məşğul olarsan, mən ki xatırlayıram, sən bunu qarşına məqsəd qoymuşdun....

– Mən – müalicəxanaya? – Stefan heyrətlənərək kəkələdi və çaşqın halda gülümsədi. – Bilirsənmi, bax belə, birdən-birə... yasa gəlmişdim və dərhal da... yeri gəlmişkən... şəxsən mənim üçün fərqi yoxdur, – o dilləndi və öz axırıncı qeydinin uyğunsuzluğundan çəkindiyindən deməyə söz tapa bilmədi, amma Staşek heç nə hiss eləmədi.

O daha on beş dəqiqə ağzını yummadı, yalnız bu haqda danışdı, sonra onlar Stefanın, əslində, müalicə həkimi kimi işə düzələrsə, vəziyyətinin necə olacağını müzakirə

elədilər; axı, doğrudan da, orada boş yer vardı. Staşek Stefanın şübhələrini bir-birinin ardınca yoxa çıxarırdı.

– Psixiatriya üzrə ixtisaslaşmayıbsan? Bu, fəlakət deyil, axı heç kim mütəxəssis kimi anadan olmur. Oradakı həkimlər əla həkimlərdir, özün görəcəksən! Hə, təbii ki, məlum olduğu kimi, axı həkimlər də insandırlar, yaxşısı, pisi olur. Amma hamısı maraqlı adamdır. Həm də necə rahatçılıqdır! Sanki, heç bir işğal yoxdur, hə, orada nə varsa, sanki, hansısa başqa planetdədir!

Kşateçok elə danışırdı, onun dilində müalicəxana hansısa yerdənkənar kosmik rəsədxanaya oxşar adaya çevrilirdi, bu adada yalqız yaşayanlar təbiətin bəxş elədiyi dərin ağıllarını münasib bildikləri kimi inkişaf etdirə bilərdilər. Onlar çənə vurdular, vurdular və Stefan hərçənd bundan heç nə alınmayacağına tamamilə əmin olsa da, dostuna həvəslə dəm tuturdu, sanki, bu söhbətdə onu hər tərəfdən əhatəyə alan dəhşətli boşluqdan xilas yolu axtarırdı.

Kimsə qapını taqqıldatdı, Anzelm əmi ilə bibisi artıq vağzala getməyə hazırlaşırdılar. Onları yola salmaq lazım gəlirdi, amma Stefan tələsik onların üzərinə cumaraq əllərini öpmək və baş əyməklə bundan yaxa qurtarmalı oldu. Deyəsən, Anelya yaxşı əhvalda idi, başqa şəraitdə Stefan onu mühakimə eləyərdi – Ksaveriyin danışdıqları yadından çıxmırdı – amma o, Kşeçotekin yanına qayıtmaq üçün olduqca tələsirdi və nəsihət verməyə vaxtı yox idi. Qohumları ilə növbəti vidalaşma, onu qucaqlayan, amma öpməyən, yalnız tikanlı üzünü onun yanağına toxunduran Anzelmin ağayanalığı, Melanya bibinin hansısa mənasız öyüdləri və tapşırıqları – bütün bunlar yalnız Staşekin gözlənilməyən təklifinə cazibədarlıq verirdi. Amma süni bir etinasızlıqla qonaq otağının divarlarından asılan köhnə qravüraları gözdən keçirən dostunu görən kimi də yenidən tərəddüd eləməyə başladı. Nəhayət, bütün «lehinə» və «əleyhinə»lər üzərində uzun müddət düşünəndən sonra Stefan evə getməyi qərara aldı – guya, orada o, hansısa işləri yoluna qoymalıydı (bu, bəhanə idi, heç bir işi yox idi, amma bəhanəsi ciddi və ağlabatan idi). Sonra qayıdar, yəni bir müddətdən sonra (Tşinetski donuz kimi görünməmək üçün bunu qeyd elədi) Bejinetsə gələr.

Düz günortaçağı Stefan əmisiylə nəzakətlə, amma soyuq vidalaşdı və stansiyaya getdi. Kşeçotek onu yola salırdı, Bejinetsə o, bu qatarla gedə bilərdi.

Mülayim və artıq xoş bir bahar günüydü, qar əriyirdi, sellər səs-küylə axaraq yolları əsl bataqlığa çevirmişdi, onlar az danışırdılar, gölməçələrdən keçmək diqqət tələb eləyirdi, həm də nədən danışasan? Stansiyada bir qədər darıxdılar və bundan yaxa qurtarmağın yolunu da siqaretdə gördülər – tələbəlik adətlərinə uyğun olaraq mühazirələrarası fasilələrdə çəkdikləri kimi siqareti ovuclarında gizlədirdilər. Di budur, qatar gəldi. Qatar hələ dayanmağa macal tapmamış onun görkəmindən qorxuya düşən Staşek piyada getməyi qərara aldı, vaqonlar ağzına kimi dolu idi, adamlar pəncərələrdən sallanıb qalmışdılar, vaqonun damından yapışmışdılar, məhəccərlərdən, qapı dəstəklərindən, pillələrdən asılı qalmışdılar. Qatar dayananda kəndlilərin və torbaçı qadınların dəstəsi qatara hücum çəkdi. Stefan özündən gözləmədiyi amansızlıq göstərdi, o bağıraraq kürklərdən olan divarı var qüvvəsi ilə elə yumruqlamağa başladı ki, sanki, yaşamaq uğrunda mübarizə aparırdı. Ayaqqabısının burnu ilə ağac pillənin kənarına toxunanda və ondan yuxarıda qapıdan asılı qalanların kürkündən və paltosundan yapışmağa nail olanda qatar ümumi bağırtının müşayiəti ilə artıq yerindən tərpəndi. Lakin onun belə vəziyyətdə bir neçə dəqiqə belə dayana bilməyəcəyini dərk eləməyə ağlı bəs elədi və qatar gedə-gedə yerə tullandı, az qala, palçığın içinə yıxılacaqdı. Lakin canı qurtardı, yalnız təpədən dırnağa kimi qara və çirkli suya bulaşdı. Stefan gücənməkdən və qəzəbdən qıpqırmızı qızarmış halda geri qayıtdı və Staşeki platformada gördü: o, təkəbbürlə, hərçənd şəfqətlə gülümsəyirdi. Hirsi yeni qüvvə ilə şiddətlənirdi, amma onun səylərini qiymətləndirən dostu hələ uzaqdan qışqırdı:

– Stefan, hirslənmə, özün görürsən, bunu mən yox, tale eləyir. Gəl bura, birlikdə Bejinetsə gedək...

Stefan tərəddüd içində dayanmışdı, sonra danışdı – amma hansısa «yoluna qoyulması lazım olan işdən yox, döşəkağılarından və sabundan, amma Kşeçotek ona xas olmayan enerji ilə dostunun qolundan yapışdı və bununla da lazım olan hər şeyin tapılacağını ona bildirdi; bu onda

elə təbii, səmimi alındı ki, yalnız indi öz paltosunda palçıqlı ləkələri görən Stefan birdən güldü, şərti olaraq əlini yellədi və dostu ilə birlikdə palçıqlı yolla işıqlanan üfüqlərdə uzaqdan görünən Bejinets təpələrinin üç donqarına tərəf yavaş-yavaş getməyə başladı.

## MƏKAN DÜYÜNLƏRİ

Neçavadan Bejinetsə qədər dairəvi, bataqlıq və palçıqlı yolla on iki kilometr idi. Yolçular ən sərt dikdiri qalxandan sonra yol dərin çökəyə doğru yönəldi, buradan isə elə beləcə bataqlıq olan torpaq yola çıxdılar və nəhayət, pöhrəliyin arxasında azacıq meyilli olan, kiçik meşəliklə dövrəyə alınmış təpəni gördülər. Təpənin üstündə kərpic divarlarla əhatəyə alınmış bir neçə bozumtul bina vardı. Mərkəzdəki darvazaya doğru çınqıl döşənmiş yol uzanırdı. Hədəfə çatmağa bir neçə yüz metr qalmışdı, amma iti yeridiklərindən təngnəfəs olmuş dostlar dayandılar. Buradan, yüksəklikdən Stefan intəhasız, yumşaq qırçınlarla şırımlanmış, üzərində batmaqda olan günəşin şəfəqləri altında haradasa duman burumları sürünən boşluğu nəzərdən keçirdi. Suyun yuduğu qar istinin görünməyən işini büruzə verirdi. Tutqun darvazanın üzərindən yanlardan kollarla örtülmüş daş tağ ucalırdı, üzərində solğun yazı var idi. Onlar yaxınlaşanda Stefan yazını oxuya bildi. *CHRISTO TRANSFIGURATO*[1]

Addımlarını yeyinlədərək və kölgəli yerlərdə donmuş gölməçələrin buzlarını qıraraq dostlar qapıya kimi gəlib çatdılar. Gonbul, üzünü qırxmamış dalandar onları içəri buraxdı. İndi Kşeçotek qaynar, hərçənd o qədər də hiss olunmayan fəaliyyətə keçdi. Stefana birinci mərtəbənin yan otağında gözləməyi tapşırdı, özü isə baş həkimin yanına cumdu. Stefan döşəmənin daş üzlükləri üzərində fırlanır, qismən suvaqla örtülmüş divar naxışlarına tənbəlcəsinə baxırdı; hansısa solğun-qızılı halə artıq maviyə çalan suvağın altından ağzını açmışdı, ya qışqırır, ya da oxuyurdu. Addım səslərini eşidən Stefan boylandı, Staşek gözlənilmədən tez qayıtdı. Əynində uzun, az qala, dabanlarına

[1] İsa yolunda dəyişmə (*lat.*)

düşən, tez-tez yuyulmaqdan qolları nimdaşlaşmış xalat olan Staşek, sanki, daha qədd-qamətli və boyundan uca olmuşdu. Onun girdə sir-sifətinə fərəhli bir təbəssüm yayılmışdı.

– Di çox gözəl, mən artıq Paypakla hər şeyi danışdım, – Stefanan qoluna girərək elan elədi. – O, bizim baş həkimdir, başa düşürsənmi? Əslində, onun soyadı Paençkovskidir, kəkələyir, ona görə də bu ləqəbi alıb, amma sən, yəqin, yemək istəyirsən? Boynuna al! Di bu dəqiqə təşkil edərik.



Həkimlər gözəl, çox rahat və işıqlı binada ayrıca yaşayırdılar. Burada hər şey xırdalıqlarına qədər nəzərə alınmışdı. Staşekin onu apardığı otaqda Stefan əlüzyuyanda isti su və elə də xəstəxana görkəmi olmayan olduqca səliqəli çarpayı, açıqrəngli, hərçənd xeyli ciddi üslublu mebel, hətta stolun üzərindəki stəkanda üç dənə novruzgülü olduğunu gördü. Ən başlıcası isə burada əsla yod iyi yox idi, ümumiyyətlə, binadan xəstəxana qoxuları gəlmirdi. Dostunun ara verməyən çərənləmələri arasında Stefan növbə ilə hər bir kranı açdı, hamama baxdı, duşun mehriban şırıltısından ləzzət aldı, otağa qayıtdı, südlə qəhvə içdi, çörəyin üzərinə yaxma yaxıb yedi... Amma bütün bunları, əslində, dostluq xatirinə, Staşek öz diribaşlığının nəticəsindən sevinsin deyə elədi.

– İndisə buradan otur, mənimlə yanaşı. Hə, necədir? İndi bu, necə olacaq? – hər şeyə baxılandan və stolun üstündəkilər yeyiləndən sonra Staşek soruşdu.

– Sən nədən danışırsan?

– Ümumiyyətlə, səninlə və dünya ilə necə olacaq?

– Ciddi söhbətə dəvət eləyirsən? – Stefan gülüşünü boğa bilmədi.

– Yox, nə danışırsan! Mübahisə eləməli bir şey yoxdur! Dünya – indi almanlardır. Hamı hesab eləyir ki, onlara qalib gələcəklər, hərçənd mən buna elə də inanmıram... təəssüflər olsun. Artıq rəhbərliyin dəyişilməsi haqqında söhbətlər gəzir – guya, polyakın direktor olmağa haqqı yoxdur... Amma bu, yəqin, olmaya da bilər. Hə, sənə qalanda isə – sən yavaş-yavaş burada hamı ilə tanış olarsan. Yalnız bundan sonra özünə şöbə seçərsən. Tələsmə, əvvəlcə bax.

«Staşek eynilə Skoçinskaya xala kimi danışır», – Stefan düşündü və ucadan soruşdu:

– Bəs onlar... haradadırlar?

Pəncərədən duman burumlarına bürünən çiçək ləklərini, bir-birinin arxasınca tikilən korpusların qeyri-müəyyən cizgilərini görürdü, ən uzaqda isə türk üslubundamı, mavritan üslubundamı tikilmiş – Tşinetski bunu müəyyən eləyə bilmədi – qüllə ucalırdı.

– Hamını görəcəksən. Onlar, bax, oradadırlar, o biri tərəfdə də yaşayırlar. Tezliklə bizim qocanın ad günüdür. Şənlənərsən. Bu gün, yəqin, palatalara getməzsən, çaşmayasan deyə mən hər şeyi sənə ətraflı izah edərəm. Əzizim, sən burada elə də normal olmayan adamların xəstəxanasındasan.

– Bunu bilirəm.

– Sənə yalnız belə gəlir. Sən psixiatriyadan imtahan veribsən və yəqin, hansısa əsəb həkiminin yanında bir xəstəni müşahidə eləyibsən, doğrudurmu?

– Bəli.

– Bax, görürsən?!. Daxili xəstəliklərin müalicəsində məxsusi heç nə yoxdur: qırx yaşa qədər dəlilik – bu *dementia praesox*[1]: skopolamin, brom və soyuq duş. Qırx yaşdan sonra – *dementia senilis*[2]: soyuq duş. Skopolamin, brom. Bir də ağır ruhi sarsıntılar. Bax, sözün həqiqi mənasında bütün psixiatriya bundan ibarətdir. Burada isə, əzizim, biz qəribə dənizdə balaca bir adayıq. Sənə deyirəm ki, əgər hətta buranın işçisi olmasam da, əgər... di yaxşı, zamanında özün başa düşərsən – hətta həkim olmasan da, bütün həyatını burada keçirməyə dəyər...

– Yəni dəli kimi; sən bunumu demək istəyirsən?

– Sən nə düşünürsən? Mən qonaq kimi qalmağı nəzərdə tuturam. Bizdə belələri də var. Burada görkəmli adamlarla tanış ola bilərsən; gülmə, mən ciddi deyirəm.

– Necə, necə?

– Məsələn, Sekulovski ilə.

– Sən nə danışırsan, bu şairlə? Demək, o...

– Heç də yox! Sadəcə, bizdə qalır, yəni bunu necə deyim? Narkomandır. Morfi, kokain, hətta həşiş... Amma

---

[1] Şizofreniya (*lat.*)
[2] Qocalıq alasəfehliyi (*lat.*)

o artıq bundan əl çəkib. Bizdə bağ evində yaşadığı kimi yaşayır. Sözün qısası, almanlardan gizlənir. Bütün günü oturub yazır, həm də şeir yox, fəlsəfi göy gurultularını və ildırımları arzulayır! Özün görəcəksən! İndisə mənim axşam yoxlamamın vaxtıdır, səni yarım saatlığa tərk eləyəcəyəm, yaxşı?

Staşek getdi. Stefan pəncərənin qabağında xeyli dayandı. Sonra özünün yeni yaşayış məskənini gözdən keçirtdi. Bizi əhatə eləyən hər şey necə də mühümdür. Bütün bunlar anlaşılmız tərzdə ona nüfuz edirdi, həm də, ümumiyyətlə, bu və ya digər şeyə, sanki, lupayla baxırmış kimi diqqətlə baxanda yox, sadəcə, beləcə dayanıb istirahət eləyəndə. Stefan axır günlər yaşadıqlarının necə də yeni, başqa qatla örtüldüyünü, xatirələrinin yalnız yuxularla cilalanan geoloji qatının aşağıdan möhkəmləndiyini, yuxarıdan isə yumşaq və davamsız olduğunu, xarici aləmin təsirinə məruz qaldığını hiss eləyirdi.



Güzgünün qabağında dayandı. Uzun müddət və gərgincəsinə güzgünün dərinliyindən alışıb-yanan sifətinə baxdı. Alnı bir az da hündür, saçları isə açıq, ya da işıqlı və ya qatran kimi qara ola bilərdi, halbuki üzünün tükləri mübahisə doğurmayacaq qədər qara idi, buna görə də o, həmişə üzünü qırxmayan kimi görünürdü. Amma gözlərinin isə, özü fındığı rəngdə olduğunu deyirdi, digərləri qonur rəngdə olduğunu hesab eləyirdilər. Demək, burada nə isə qeyri-müəyyənlik var idi. Yalnız atasından miras qalan burnu nazik idi, əyilmişdi, «ehtiraslı burun», – anası deyirdi. Üzünün cizgiləri kəskin, nəcib olsun deyə sifətinin əzələlərini yüngülcə yığdı. Bu mimikaların ardınca digərlərini də elədi, sir-sifətini büzüşdürdü, sonra güzgünün qabağından sərt şəkildə dönüb, pəncərənin qabağına getdi.

«Bəsdir özümü yamsıladım! – Stefan hirslə düşündü. – Praqmatik[1] olacağam. Fəaliyyətdə olmaq, fəaliyyətdə olmaq, fəaliyyətdə olmaq!» Atasının sözlərini xatırladı: «Həyatda məqsədi olmayan insan onu özü üçün düşünməlidir». Həm də bütöv bir yığın məqsədinin olması yaxşıdır, yaxın və uzaq məqsədlər. «Cəsur», «mehriban olmaq», «ayaqyolunda su çənini təmir eləmək» heç də qeyri-

[1] Praqmatik – müasir fəlsəfədə gerçəkliyin obyektivliyini inkar edən və yalnız praktik fayda verən şeyi həqiqət hesab edən cərəyan

müəyyənlik deyildi. Bu, yəqin, adama böyük məmnunluq verərdi. Birdən iliklərinə qədər sadə insanın həyatını yaşamaq istədi.

«Aman Allahım! Əgər mən şum eləməyi, toxum səpməyi, biçməyi və yenidən şumlamağı bacarsaydım... Mən hansısa stulları düzəldə, səbətləri toxuya və onlarla bazarda alver eləyə bilsəydim». Müqəddəslərin heykəllərini hazırlayan kənd memarının həyatı, ya da minalanmış qırmızı xoruzları bişirən dulusçunun yaşayışı ona xoşbəxtliyin zirvəsi kimi görünürdü. Sakitlik. Sadəlik. Ağac ağacdır, vəssalam. Heç bir səfeh, mənasız və hədsiz əzablı cəfəngiyatlar da olmazdı: nəyimizə lazımmış onun böyüməsi, «o canlıdır» nə deməkdir, bitki nədən ötrüdür, nəyə görə sən – sənsən, daha başqası yox, qəlb atomlardanmı təşkil olunub və ümumiyyətlə, bütün bunlarla birdəfəlik və həmişəlik qurtarmaq lazımdır! Stefan otaqda əsəbi halda irəli-geri gəzişirdi. Xoşbəxtlikdən, Staşek gəldi. Stefan şübhələnirdi ki, Staşek xəstəxanada təkgözlü özünü korların arasında hiss eləyən kimi hiss eləyir. O, kiçik ölçüdə sakit dəli idi, demək, ağılsızlığın gur çiçəklənməsinin bədii fonunda psixi cəhətdən qeyri-adi adam təsiri bağışlayırdı.

– İndisə gedək şam eləməyə...

Həkimlər üçün yeməkxana yuxarıda yerləşirdi, lap damın altında; geniş bilyard otağı, kart və başqa oyunlar oynamaq üçün stolları olan digər kiçik otaqlarla yanaşıydı. Stefan yanlarından keçərkən bu otaqlara baxırdı.

Pis yedizdirmirdilər: *zraza*[1] *verilən kaşadan* və lobya salatından sonra xırçıltılı kökə verdilər. Sonra da qəhvə; qəhvəni bardaqda gətirdilər.

– Həmkarlarım, müharibədir, *a la guerre comme a la guerre*[2], – qonşusu Stefana dedi. Sağda Staşek oturmuşdu; onlarla birlikdə yeyib-içənləri müşahidə eləyə bilirdi. Nə vaxt ki yeni sifətlər görürsən, həmişə olduğu kimi, onlardan bəzilərini ayırd eləyə bilmirsən, Stefanın nəzəri onlarda dolaşırdı, bu sifətlər onun hisslərinə heç cür təsir eləmirdi. Müharibə haqqındakı dərin mənalı aforizmi səsləndirən doktor Diter və ya Riqer – özünü anlaşılmayan

[1] Zraza – xörək adı
[2] Müharibədirsə, müharibədə olduğu kimi olaq (*fr.*)

tərzdə təqdim elədi – alçaqboylu, yekəburunlu, qarabuğdayı sifətli birisiydi, alnında dərin batığı olan çapıq var idi. Qızıl sağanaqlı gözlük vurmuşdu, gözlüyü daim sürüşür və doktor vərdiş elədiyi hərəkətlə onu yerinə qaytarırdı. Tezliklə bu, Stefanı qıcıqlandırmağa başladı. O, yavaş səslə başqa mövzuya keçdi: nəhayət, qış qurtardımı, kömürlə vəziyyət nə yerdədir, iş çoxdurmu, indi nə qədər əməkhaqqı verirlər. Doktor Riqer (hər halda, «R»-in üzərində dayandı) kiçik qurtumlarla qəhvə içirdi, kökələrin yaxşı qızardılmışlarını seçir, burnunda danışır və söhbətə elə də xüsusi maraq göstərmirdi. İş elə alındı ki, onlar hər ikisi Paençkovskiyə baxaraq danışırdılar. Yaxşıca qızardılmamış göyərçini özünün az təsadüf olunan lələkli, sivriuclu saqqalı ilə qıdıqlayan, gümüşü tüklərinin arasından çənəsinin çəhrayı dərisi işıldayan, qırışlı əlləri yüngülcə titrəyən, üzgün və kəkələyən bu qoca qəhvə içirdi, danışmağa başlayanda isə sanki, özüylə razılaşmırmış kimi hərdənbir başını yırğalayırdı.

– Demək, siz bizdə işləmək istəyirsiniz, hə? – Stefandan soruşdu və dərhal da başını yırğalayaraq özünə etiraz elədi.

– Hə, istəyərdim...

– Hə, əlbəttə... əlbəttə... dəyər...

– Axı təcrübə... mütləq lazımdır... kara gələrdi... – Stefan mızıldandı. O, qocaları, rəsmi tədqiqatları və cansıxıcı söhbətləri dəhşətli dərəcədə sevmirdi, burada isə hamısı birdən üstünə yağdı.

– Hə, elə biz sizə hamısını əsaslı surətdə... özünüz başlayan kimi... – Paypak dedi və başını yırğalamaqla özünə etiraz eləməyinə davam elədi.

Onlarla yanaşı arıq bir həkim oturmuşdu, həkim gümüş-nitrata bulaşmış xalat geymişdi. Dəhşətli, amma rəğbət oyandıran qədər yöndəmsiz olan, cərrahiyyə əməliyyatından sonra dovşan dodaqlarındakı tikiş izləriylə təmkinlə, solğuncasına gülümsəyirdi. O, əlini stolun üzərinə qoyanda onun əlinin ölçüləri və qəşəngliyi Stefanı heyrətləndirdi. Stefan iki şeyi əsas hesab eləyirdi: dırnaqların formasını və əlin uzunluğu ilə eninin uyğun olmasını. Doktor Marqlekskidə bu da, digəri də onun nəcabətli adam olmasına şəhadət verirdi.

Stolun arxasında bir qadın oturmuşdu. O, içəri girən kimi də Stefanın diqqətini cəlb eləmişdi; o, hamıyla salamlaşdı və bu zaman qadının həyat əlaməti olmayan ensiz və elastiki ovcunun soyuqluğu Stefanı sarsıtmışdı. Belə əli nəvazişlə sığallamaq fikri onu həm özündən itələyir, həm də həyəcanlandırırdı.

Xanım (və ya qız) doktor Nosilevskayanın şabalıdı saçlarının dövrəyə aldığı solğun sifəti var idi, saçlarının üzərinə işıq düşəndə mis və qızıl rənginə çalırdı; təmiz, gözəl alnının altında, həqiqətən də, qanadlı olan qaşları, qaşlarının altında isə elektrik boşalmalarının alışdığı kimi görünən ciddi, mavi gözləri var idi. O, ideal gözəl idi və buna görə də onun gözəlliyi dərhal gözə girmirdi, sifətinin bircə nöqtəsi belə baxışları qıcıqlandırmırdı. Onun sakitliyində Afroditada olduğu kimi nəsə bir ana sakitliyi var idi, amma o, gülməyə başlayan kimi də saçları və gözü, sol yanağındakı balaca çökək, çökək yox, ona oynaqcasına bənzəyən çöküntü də parıltılı qığılcımlarla gülümsəməyə başlayırdı.

Söhbətdən Stefan başa düşdü ki, iş ağır və bezikdirici olsa da, maraqlıdır, psixiatriyadan daha yaxşısı yox idi, hərçənd burada iştirak eləyənlərin əksəriyyəti fürsət düşən kimi öz ixtisaslarını dəyişərdilər, çünki xəstələr sakit və dinc adamlar olmalarına baxmayaraq, tamamilə dözülməz idilər, psixiatrın yanına normal olmayan adamlar gəldiyindən, ümumiyyətlə, dəridən-qabıqdan çıxmağa gərək yox idi, nəticə etibarilə hamısı bir yerdə elektroşokla müalicə olunmalıydı və nöqtə. Anlaşılan bu idi ki, ziddiyyət həmsöhbətlərin fərdi baxışlarının müxtəlifliyi ilə izah olunurdu. Siyasətdən, ümumiyyətlə, söz açmırdılar. Burada hər şey dənizin dibində olduğu kimiydi: hərəkətlər tənbəlcəsinə və ləng idi, suyun səthindəki güclü dalğalar isə burada özünü uyğun gələn diaqnozlar formasında ifadə edərək hansısa qeyri-təbii əyilmələr yaradırdı. Növbəti gün isə məlum oldu ki, Stefan heç də müalicəxananın bütün həkimləri ilə tanış olmayıb. Doktor Nosilevskaya ilə səhər yeməyinə yollananda (onu qadın şöbəsinə təyin eləmişdilər) çınqıl döşənmiş, ağaclardan damcılayan damlalarla suvarılan cığırda ağ xalat geymiş ucaboylu bir kişi ilə qarşılaşdı, Stefan onu əməlli-başlı gözdən keçirməyə macal tapmadı,

amma yadında yaxşıca saxladı. Onun eybəcər sifəti, sanki, fil sümüyünə oxşayan hansısa möhkəm materialdan yonulmuşdu, gözləri bozumtul şüşə ilə örtülmüşdü, sivri, iri burnu vardı, dodaqlarının dərisi nazik pərdə kimi tarım dartılaraq dişlərinə yapışmışdı, Stefanın hansısa kitabdakı rəsmdə gördüyü İkinci Ramzesin mumiyasını xatırladırdı, yaşına uyuşmayan tərkidünyalığı təlqin eləyirdi, sifətinin cizgiləri, nə isə, zaman xaricində idi. Qırışları yaşadığı illərdən xəbər vermirdi, onlar bu heykəl üzün ayrılmaz hissəsi idi. Bundan əlavə, həkim – Stefan onun sanatoriyanın ən yaxşı cərrahı olduğunu öyrəndi – skelet kimi arıq idi, ayağının altının yastı olmasından əziyyət çəkirdi, ayaqlarını geniş atıb, palçığı tapdalayıb keçərək o, Nosilevskayaya saymazyana tərzdə təzim elədi və qırmızı pavilyonun xaricdən olan dairəvi pilləkəninə doğru qaçdı.

Nosilevskaya ağ əlində növbəti korpusa gedən qapını açdığı açarı saxlamışdı. Əməli olaraq bütün bina yuxarıdan şüşələnmiş qalereyalarla birləşdirilmişdi, buna görə də palataları gəzən həkimlər üçün nə soyuq, nə də yağış qorxulu deyildi. Bu qalereyalar şüşə ilə örtülən şüşəbəndli günbəzlərə oxşayırdı. Korpusa girən kimi də təəssürat dəyişirdi. Bütün divarlar açıq-mavi yağlı lakla rənglənmişdi. Heç bir kran, çıxıntı, ayrıc, qapı dəstəyi yox idi, iki metr yarıma qədər hamar divarlar idi. Soyuq və işıqlı palatalarda pəncərələr elə də bezikdirici görünməyən dəmir çərçivələrlə və ya tarım çəkilmiş torlarla örtülmüşdü, pəncərə altlıqlarında səliqə ilə uzununa iki cərgə düzülmüş yeşiklərdə çiçəklər əkilmişdi; çarpayılar, demək olar ki, hərbi qaydada yığışdırılmışdı, tünd-qırmızı xalatlar geymiş xəstələr karton altlıqlı məstlərini şappıldadaraq gəzirdilər.

Doktor Nosilevskaya palatadan çıxarkən nə isə mexaniki olaraq, güclə hiss olunan hərəkətlə, sanki, yuxudaymış kimi qapını arxasınca bağlayırdı, sonra da eyni qayda ilə növbəti qapını açırdı. Stefanın artıq öz açarı var idi, amma onda bu, elə də asan alınmırdı.

Solğun və arıqlamış, sanki, sümüklərdən asılı qalmış və ya yağış göbələyi kimi koppuş olan şişkin, cod tük basmış, naxoş qızartıların şölələndiyi sifətlərin cərgəsi. Kişilərin saçı dibdən qırxılmışdı, bu isə fərdiliyi aradan qaldırırdı. Tüklə örtülməmiş şişlər və ya başın digər əcaib nöqsanları öz

eybəcərlikləri ilə, sanki, sifətdən hər cür ifadəni silirdi. Eybəcərliklərinin şişirdilməsi, baxışların laqeydliyi və ya hansısa əşyaya zillənməsi, sanki, şüşə iplə ona doğru süzülməsi, – məhz bu xassələri əksər xəstələri fərqləndirirdi; hər halda, ani baxış zamanı belə təəssürat yaranırdı. Dəhlizdə onlar xəstəni arxasınca dartan xəstə baxıcısını gördülər. Baxıcı xəstəylə sərt yox, amma sadəcə, insanla rəftar edilən kimi rəftar eləmirdi, lakin Stefanı və Nosilevskayanı görəndən sonra bir anlığa yumşaldı. Haradansa uzaqdan olduqca dinc bağırtı eşidilirdi, sanki, kimsə məcbur olduğundan yox, ağrıdan yox, sadəcə, kefindən, sanki, məşq eləyirmiş kimi bağırırdı. Lakin Nosilevskaya xüsusilə qeyri-adi qabiliyyətə malik idi, Stefan hələ səhər bunu başa düşmüşdü. Səhər yeməyi vaxtı gələcək estet olaraq sonra baxa bilmək üçün onun cizgilərini yaddaşına həkk eləməyə cəhd elədi. Onda da hiss elədi ki, qadın durna kimi boynunu buğlanan fincanın üzərinə əyərək baxışlarını heçliyə dikib – tamamilə heç yerə – və sanki, həyatda mövcud olmağına son vermişdi. Doğrudur, o, açıq-aşkar həyat əlamətlərini, boynundakı çökəkdə zərif döyüntünü, göz bəbəklərinin sakit tutqunluğunu, kirpiklərinin titrəyişini görürdü, amma Stefan əmin idi ki, qızın sifətində oynayan kölgənin sevinci onun donub-qalmadan, fikirsizlikdən, tam mövcud olmadığından aldığı ləzzəti ifadə eləyir. Qız özünə gələndən sonra tələsmədən özünün mavi və düşüncələrdən azacıq azad edilmiş gözlərini ona tərəf döndərib, baxışlarını ona dikəndə, o qorxmağa hazır idi, bir dəqiqədən sonra isə onların dizləri təsadüfən bir-birinə toxunanda ayağını çəkdi, bu toxunma ona təhlükəli gəldi.

Nosilevskayanın rahat döşənmiş kabineti qadın şöbəsində yerləşirdi. Hərçənd burada onun bircə dənə belə şəxsi əşyası yox idi, burada qadının olması hətta havada da hiss olunurdu, amma bu, təbii ki, yalnız ətirlərin qoxusu idi. Onlar nikellənmiş ağ stolun arxasında oturdular, Nosilevskaya yeşikdən xəstəlik tarixçəsini çıxartdı. Bütün həkim-qadınlarda olduğu kimi, o da manikürdən imtina eləməli olurdu, amma onun qısaca kəsilmiş, oğlansayağı girdə dırnaqları çox gözəl idi. Divarda hündürdən, uyğun olmayan iri qarmaqlardan balaca, qara xaçlar asılmışdı. Bu, Stefanı heyrətləndirdi, amma diqqətini cəmləməliydi,

həkim qadın işgüzarcasına vəzifəsini ona başa salırdı. Onun səsi titrəyirdi, elə görünürdü səsinin cəh-cəh kimi səpələnib yayılmamasının qarşısını almaq onun üçün çətindir. Stefan heç vaxt psixi xəstələrin müşahidə nəticələrinin tarixçəsini yazmamışdı, imtahana hazırlaşanda, əlbəttə ki, başqalarından köçürürdü. Yeni tarixçə yazmaq lazım gəlməyəcəyini, yalnız qeydləri köhnə tarixçələrə yazmaq lazım gəldiyini öyrənəndə Nosilevskayanın ona olan rəğbətini ləyaqətlə qiymətləndirdi, onun kimi qız da bütün cızma-qaraların darıxdırıcı və mənasız olduğunu başa düşürdü, amma belə lazım idi, ənənə beləydi.

– Di budur, həmkar, siz artıq hər şeyi bilirsiniz.

Stefan təşəkkür elədi və onlar sınaq qəbuluna başladılar. Sonra Stefan özü üçün baş sındırırdı, bu qəşəng qızı «tor» corabda və zövqlə geyindiyi ağ xalatda (süni mirvaridən olan düymələrlə düymələnmiş) təsəvvür eləyə bilərdimi, bu məişət səhnəsi necə görünərdi? Nosilevskaya zəng eləyərək tibb bacısını – çil-çil, iribədənli qızı çağırdı.



– Adətən, biz palataları gəzir və xəstələrdən özlərini necə hiss elədiklərini və fantaziyaları haqqında, yəni əlamətlərini soruşuruq, həmkar, siz başa düşürsünüz, amma indi mən öz çarlığımın bir hissəsini sizin üçün nümayiş etdirmək istəyirəm.

Bu, doğrudan da, onun çarlığı idi, hərçənd o, qarabasmadan əziyyət çəkmirdi, amma sehrli açarla qapılar bir-birinin ardınca açılıb-bağlananda özünü pis hiss edirdi. Hətta burada, kabinetdə də pəncərənin metal çərçivəsi qaralırdı, küncdə, dərman şkafının arxasında isə başdansovdu, yayğın halda əzik-üzük edilmiş qalın kətan parçalar – dəli köynəkləri qalaqlanmışdı. Xəstə qadını gətirdilər; o, həddən artıq uzun və dar ev şalvarında əcaib təsir bağışlayırdı. Budları meydan oxuyurmuş kimi qabağa çıxmışdı. Ayaqlarında qara başmaqlar var idi. Sifəti donmuş maskanı xatırladırdı, amma hiss olunurdu ki, ondan hər nə desən, gözləmək olar. Qadın üz-gözünü boyamışdı, onu hətta cəlbedici də hesab eləmək olardı. Qaşlarını, yəqin, kömürlə açıqdan-açığa, sırtıqcasına qaraldaraq, onları gicgahlarına qədər uzatmışdı, yəqin, elə buna görə də Stefana əcaib təsir bağışlamışdı, amma Stefanın müşahidələrlə məşğul olmağa vaxtı yox idi; belə ki, gələn xəstənin elə ilk

atmacası onu şoka salmışdı. Sakit tonla verilən, zərrəcə maraq hissi olmayan «yeni nə var» sualına cavab verərkən xəstə mənalı tərzdə gülümsəmişdi:

– Mənə baş çəkdilər, – qadın incə, ahəngdar səslə dedi.

– Susanna, hə, sizdə kim olub?

– İsa peyğəmbər. O, gecə gəlmişdi.

– Doğrudanmı?

– Hə. Çarpayıya dırmaşdı və ... – cinsi aktı təsvir eləmək üçün qadın olduqca bayağı ifadələrdən istifadə eləyir, maraqla Stefana baxırdı, sanki, demək istəyirdi: «Hə, sən buna nə deyirsən?»

Stefan həkim olsa da, sadəcə, elə donub-qaldı və pərt oldu ki, baxışlarını harada gizlədəcəyini bilmədi. Halbuki Nosilevskaya cibindən miniatür siqaret qabını çıxardı və onu siqaretə qonaq elədi, özü də siqaret çəkir, xəstəliyin təfərrüatları haqqında soruşurdu. Bu təfərrüatlar eləydi ki, Stefan həmkarının siqaretini yandırmaq istəyəndə əlləri titrəyirdi. Artıq üç kibrit çöpünü sındırmışdı. Onun, az qala, ürəyi bulanırdı, Nosilevskaya isə ondan refleksləri yoxlamağı xahiş elədi, o, güc-bəla ilə bunun öhdəsindən gəldi. Sonra tibb bacısı xəstənin əlindən yapışıb dartdı, sanki, mələfə bağlaması idi və ona sözünü deyib qurtarmağa imkan vermədən çölə çıxartdı.

– Paranoyya, – Nosilevskaya dedi, – onda tez-tez qarabasmalar olur. Həmkar, əlbəttə, hamısını yazmaq lazım deyil, amma hər halda, bir neçə söz qeyd eləyin.

Növbəti xəstə – dolubədənli, sarı-çalsaçlı və dəlmədeşik sifətli qoca qadın başlanğıcda sakit halda yüzlərcə hərəkət eləyir, sanki, xalatının arxasından yapışıb saxlayan baxıcı qızdan qurtarmaq istəyirdi. Ara vermədən danışırdı, bir-birinə yapışan sözlərin rabitəsiz və məntiqsiz axını hətta ona sual veriləndə də ara vermirdi. Gözlənilmədən o, var gücüylə dartındı, Stefan ixtiyarsız halda stulu ilə birlikdə yerindən sıçradı. Nosilevskaya qadının aparılmasına göstəriş verdi.

Üçüncü xəstə artıq bütün insanlıq simasını itirmişdi. Ondan kəsif və ürəkbulandıran üfunət iyi gəlirdi. Tşinetski öz yerində otura bilmək üçün bütün qüvvəsini səfərbər etməli oldu. Bu əldən düşmüş, caydaq varlığın hansı

cinsə mənsub olduğunu müəyyən eləmək çətin idi. Xalatının deşikləri arasından şişkin, almaya oxşayan göyümtül oynaqları görünürdü. Sifəti kuklada olduğu kimi sümüklü, enli, küt idi. Nosilevskaya xəstəyə nəsə dedi, Stefan onun nə dediyini ayırd eləyə bilmədi. Onda xəstə yerindən tərpənmədən, əllərini yana açaraq dilləndi:

– *Menin aeide thea...*[1]

Xəstə sözlər arasındakı fasiləni düzgün müəyyən eləyərək «İliada»nı təntənə ilə deyirdi. Baxıcı qız onu aparandan sonra Nosilevskaya Stefana dedi:

– O, fəlsəfə doktorudur. Bir müddət əsəbi-psixi sarsıntı vəziyyətində olub. Mən onu sənə məxsusi olaraq göstərdim; bu, demək olar ki, klassik haldır, yaddaşını ideal olaraq qoruyub saxlayıb.

– Amma onun görkəmi necəydi... – Stefan özünü saxlaya bilmədi.



– Bundan ötrü bizi qınamayın. Əgər ona təmiz əşyalar versəydik, bir neçə saatdan sonra onlar da eynən əynindəkilər kimi olacaqdı, hər bir koprofaqın[2] yanında bir tibb bacısı qoymağa imkanımız yoxdur, xüsusilə də indi... Mən aptekə getməliyəm, sizsə lütf edib xəstəlik tarixçəsini doldurun, sonra nömrəsini və tarixini kitaba yazın. Bu, bürokratik rəsmiyyətçilikdir, təəssüf ki, biz onları yerinə yetirməyə məcburuq.

Stefanın elə hey dilində bir sual dolaşırdı ki, soruşsun, birinci xəstənin danışdığı kimi belə iyrənc söhbətləri teztezmi eşidəsi olur, amma bu, onun avamlığını bütünlüklə aşkara çıxarardı, buna görə də susdu. Kağızları vərəqləməyə başladı. Nosilevskaya çıxdı. İşini qurtarandan sonra palataya girmək üçün özünü ələ almaqdan ötrü böyük səy göstərməli oldu. Orada qadınlar var-gəl eləyirdilər. Bəziləri yorulmadan istehza ilə irişirdilər, özlərini kağız parçaları, cır-cındırla, şəridlərlə bəzəyirdilər. Küncdə yandan toru olan çarpayı qoyulmuşdu. Boş idi. Stefan divar boyunca gedirdi (instinktiv olaraq arxasını xəstələrə çevirmirdi), haradansa, yandan sürəkli, ağlağan ulama eşitdi. Aşağı divara salınmış olduqca qalın şüşənin arxasından təcridxana görünürdü, orada çılpaq bir qadın gəzib-dolaşırdı;

---

[1] Qəzəb, o ilahə, tərənnümlə (*yun.*)
[2] Koprofaq – nəcisini udan (*yun.*)

o çırpınaraq bütün bədənini kisə kimi üzlük çəkilmiş divarlara çırpırdı. Onun gözləri Stefana sataşanda qadın donub-qaldı. Bir anlığa bu çirkin mənzərədən və özünün şəxsi çılpaqlığından utanaraq normal insana döndü. Sonra nəsə mızıldandı və qapıya yaxınlaşmağa başladı. Nəhayət, onların sifətini yalnız qadının uzun, sarı saçlarının yayıldığı şüşə ayıranda, qadın göyərən ağzını açdı və çəhrayı ağız suyundan zolaqlar açaraq, cızıq-cızıq dili ilə şüşəni yalamağa başladı.

Stefan hətta özünü ələ almağa çalışmadan kənara sıçradı. Növbəti palata onu çığır-bağırla qarşıladı. Baxıcı qız yuyunma otağında xəstənin başını vannaya salmaq istəyirdi, xəstə isə bağırır və hər tərəfə təpik atırdı. Onun ayaqları tünd-qırmızı rəngdə idi. Məlum oldu ki, su həddən artıq istidir. Stefan soyuq su əlavə edilməsinə göstəriş verdi. O, baxıcı qızla son dərəcə nəzakətlə rəftar elədiyini başa düşür, amma onun üstünə qışqırmağı bacarmırdı. Hələ bunun üçün zamanın gəlmədiyini düşünərək özünə haqq qazandırırdı.

Üçüncü palatada isə onu xorultu, xırıltı və fitlə qarşıladılar. Çarpayılarda tutqun adyalların altında insulinin şoku ilə sakitləşdirilmiş qadınlar uzanmışdı. Hərdənbir adyalın altından kiminsə açıq-mavi rəngli gözləri boylanır və sanki, həşəratın gözləri kimi mənasız olan baxışları ilə onu müşahidə eləyirdi. Hansısa xəstə, sadəcə, əlini onun xalatının üzərində gəzdirdi. Dəhlizdə Staşeklə rastlaşdı. Görünür, Stefanı üzünün görünüşü ələ verdi, belə ki, dostu onun çiynini şappıldadaraq cəld dilləndi:

– Di orada nələr var? Allah xatirinə, bunları ciddi qəbul eləmə... – Staşek Stefanın ağ xalatının qoltuqlarının altının tutqunlaşdığını gördü. – Deməк, tərlədin? Hə də, hə...

Stefan qəlb rahatlığı ilə birinci xəstə haqqındakı əhvalatı özündən uzaqlaşdırdı, digərlərinin necə olmasını da. Dəhşətdir!

– Sən uşaqsan. Bu mülahizə, mühakimə yox, əlamətlərdir. Xəstəliyin əlamətləridir, aydındır?

– Daha burada qalmaq istəmirəm.

– Qadın şöbəsi həmişə pis olur. Cəfəngiyat danışma. Yeri gəlmişkən, mən Paypakla danışdım. – Stefan məmnunluqla hiss elədi ki, Staşek bir qədər ciddiləşir. – Mənsə

bunu qabaqcadan bilirdim, amma Nosilevskaya, həqiqətən də, təkdir və ona kömək lazımdır. Zahiri rəsmiyyət üçün birhəftəlik onunla işlə, sonra səni Riqerin yanına keçirərlər, bəlkə, sən hesab eləyirsən... Dayan, bu ideyadır. Axı sən nə vaxtsa Vlostovskinin yanında anestezioloq olubsan!

Həqiqətən də, Stefan olduqca yaxşı narkoz vermişdi.

– Bilirsənmi, məhz Kauters onun yanında heç kimin olmadığından şikayətlənir. Hə, Oribaldı, tanıyırsan.

– Necə?

– Doktor Oribald Kauters, – Staşek hecalayaraq dedi. – Məzəli addır, eləmi? O, misirlilərə oxşayır, amma, elə bil, kurlyand zadəganlarındandır. Neyrocərrahdır. Pis əməliyyat eləmir!

– Hə, hamısından yaxşısı... nəyisə öyrənsəydim. Burada isə... – Stefan əlini yellədi.



– Mən sənə əvvəlcə demək istəyirdim, amma fürsət olmadı. Bax belə, prinsip etibarilə bizim bu balaca heyət tamamilə ixtisassızdır. Bir qədər kəndçisayağı, yöndəmsizcəsinə hərəkət eləyirlər. Donuzluq eləyəni və ondan da pisi olur.

Stefan təsdiq elədi, bax baxıcı qız, az qala, xəstəni qaynar su ilə pörtlədəcəkdi.

– Hə, belə hallar da olur. Gözünü dörd açmaq lazımdır, amma prinsip etibarilə... özün başa düşürsən, adamların vəziyyəti necə pisdir. Tamamilə xüsusi duyğuların həvəskarı olmaq lazım gəlir ki...

– Bu, maraqlı problemin haşiyəyə alınmış hissəsidir, – Stefan dedi. O, özündə danışmaq arzusu hiss edirdi və eyni zamanda da palataya qayıtmamaq üçün bəhanə tapmışdı. – Fəaliyyət növündə seçim azadlığı özlüyündə yaxşıdır, – o davam elədi, – amma əslində, yalnız böyük rəqəmlərin qanunu həyatda cəmiyyətin bütün lazımi funksiyalarını yerinə yetirən həvəskarların tapılacağına zəmanət verir. Heç olmasa, nəzəri olaraq mümkündür ki, bir neçə ildən sonra kimsə, məsələn, dəftərxana işçisi olmaq istəməyəcək... bəs onda necə olacaq? Məcbur eləyəcəklər və ya necə?

– Lakin indiyə qədər bu, necəsə yoluna qoyulub və özünütəminetmə mexanizmi hələlik cəmiyyəti aldatmır... Yeri gəlmişkən, sən Paypakın ən sevimli mövzularından

birinə toxunduğunu bilirsənmi? Bunu ona demək lazımdır. O, hərdənbir bizim üçün mühazirələr təşkil eləməyi sevir. Axı biz burada ixtisasımızı artırırıq, hətta elə olur ki, əylənirik. – Təbəssümü Staşekin nikotindən saralmış dişlərini aşkara çıxartdı. – O təsdiq eləyir ki, adamların belə az təhsilli olmaları xoşbəxtlikdir... «Hər yerdə universitet professorları. Bu, dəhşətli olardı, hörmətli həm... həmkarlar, bəs küçələri kim süpürərdi?!» – qocanın cingildəyən səsini heç də pis təqlid eləməyərək birdən Staşek səsini uzatdı.

Bu da artıq Stefanı darıxdırdı.

– Mənimlə palataları gəzirsən? Xəstəlik tarixçələrini özümlə götürmək istəyirəm. Elə görünür bütün şərait var, amma mən burada, arxamda qapı olduğu halda yaza bilmirəm.

– Hə, nə olsun?

Stefan hər şeyi danışası oldu.

– Mənə elə gəlir, onların gözləri qapıdakı açarın deşiyindən kürəyimə batırlar.

– Qapını dəsmalla ört, – Staşek elə səmimi və cəld dilləndi ki, Stefan dostunun da eynilə onun keçirdiyi hissləri keçirdiyindən şübhələndi və özünü azacıq da olsa inamlı hiss elədi.

– Yox, belə yaxşıdır.

Onlar növbətçi otağına yollandılar, bunun üçün üç qadın palatasının yanından keçmək lazım idi. Ucaboylu, sarısaçlı, üzgün, qorxmuş sifəti olan qadın Stefanı işarə ilə kənara çağırdı – bu şəkildə həkimi yox, küçədə kömək istəmək üçün naməlum adamı çağırırlar.

– Görürəm siz yeni doktorsunuz, – qadın həyəcanla ətrafa göz gəzdirərək pıçıldadı. – Mənə beş dəqiqə vaxt ayırın... yaxşı, iki... – o, yalvarıcı tərzdə dedi.

Tşinetski baxışları ilə Staşeki axtardı, o, yorğuncasına gülümsəyərək rezin müayinə çəkici ilə oynayırdı.

– Doktor... mən tamamilə normal insanam!

Stefan dissimulyasiyanın[1] dəliliyin klassik əlamətlərindən biri olduğunu nəzəri olaraq bildiyindən xəstənin sözləri ona elə də təsir etmədi.

– Xanım, yoxlama vaxtı söhbət eləyərik.

---

[1] Dissimulyasiya *(lat.* dissimulatio) – öz xəstəliyini gizlətmək cəhdi

– Düz sözündür, hə? – qadın sevindi. – Görürəm ki, siz doktorsunuz, məni başa düşərsiniz... – Lap onun qulağına pıçıldadı: – Axı burada büsbütün dəlilərdir. Büsbütün, – qadın təkidlə təkrar elədi.

Bu bəyanat və şübhəli gözvurma onu təəccübləndirdi – belə müəssisələrdə başqa kim olmalıydı ki? Staşekin arxasınca addımlayarkən birdən başa düşdü: qadın hamını nəzərdə tuturdu, o cümlədən həkimləri də! Demək, Nosilevskayanı da? Çox ehtiyatla öyrənməyə cəhd elədi ki, Staşek o qadını «qəribə» birisi hesab eləyirmi, Staşek isə onun sifətinə çımxırdı:

– O?! O füsunkar qız?!– və başladı qızğınlıqla onun necə ağıllı olduğunu, necə ailədən olduğunu başa salmağa.



Kşeçotek, həqiqətən də, ətraflı danışdı. «Vurulub», – Stefan düşündü və sanki, dostuna yeni gözlə baxmağa başladı, onun hərəkət eləyən hülqumunda kiçicik qurdlara oxşayan bir neçə qırxılmamış tük gördü, eybəcər dişlərini, artıb çoxalan sızanaqlarını, qabaqdan seyrələn tüklərini gördü, lap yaxınlarda kömür qaralığına çalan saçlarının yerində indi güclə açıq kölgə görünürdü. «Heç bir şansın yoxdur», – Stefan onu hesabdan sildi.

Onun özünü isə qadın zərrəcə də cəlb etmədi. Yaxşıydı. Çox yaxşıydı, gözləri qeyri-adiydi, amma onlarda adamı özündən itələyən nəsə vardı.

Yolda Staşek Sekulovskini xatırladı və onu Stefana təqdim etməyi qərara aldı.

– Heyrət ediləcək dərəcədə ağıllı tipdir. Amma başa düşürsənmi, dəlisovdur. Onunla söhbət eləmək xoşdur, yalnız bax nəsə goplayıb eləmə. Özünü kübar cəmiyyətində olduğu kimi apar, başa düşdün? Bu, onun zəif yeridir.

– Nəzərə alaram, – Stefan vəd verdi.

Sağalanların korpusuna yola düşərək qalereyadan çıxdılar. Tutqun səma aydınlaşırdı, külək buludların boz tayalarında nəhəng deşiklər açmışdı. Duman burumları birbaşa ağacların üzəriylə üzürdü.

Korpusda gödəkcədə olan kimsə içində torpaq olan arabanı dartırdı. Bu, sifətdən yəhudiyə oxşayan birisi idi, tutqun sifəti günəşdən qaralmışdı və sifətini gözlərinin içinə kimi tük basmışdı.

– Günortan xeyir, cənab həkim, – o, Staşekə əhəmiyyət vermədən Stefana müraciət etdi. – Cənab həkim, siz məni xatırlamırsınızmı? Hə, görürəm, siz məni unudubsunuz.

– Bilmirəm... – Stefan dayanaraq dilləndi və cavabında yüngülcə baş əydi.

Staşek güclə hiss olunacaq tərzdə gülümsədi və palçığa batmış küləşləri yarımçəkmələrinin burnu ilə qurdalamağa başladı.

– Mənim adım Naqeldir: Solomon Naqel. Mən sizin atanız üçün metal işlərini görürdüm, xatırlayırsınızmı?

Yalnız indi Stefan anlamağa başladı. Həqiqətən də, atasının köməkçiyə oxşar işçisi var idi – onlar bəzən öz modellərini quranda birlikdə emalatxanaya çəkilib qapıları bağlayardılar.

– Mənim burada kim olduğumu bilirsinizmi? – Naqel sözünə davam elədi. – Bilirsinizmi, burada mən birinci mələyəm.

Stefan özünü tamam itirdi. Naqel ona lap yaxınlaşaraq qızğınlıqla pıçıldadı:

– Bir həftədən sonra mən böyük müşavirədə olacağam. Orada Cənab Allah özü və David, bütün peyğəmbərlər, Cəbrail – kimi istəsəniz, iştirak eləyəcəklər. Orada mənimlə çox hesablaşırlar, belə ki, cənab doktor, bəlkə, sizə nəsə lazımdır? Deyin, mən təşkil edərəm.

– Yox, mənə heç nə lazım deyil...

Stefan Staşekin əlindən yapışıb qapıya doğru dartdı. Belə söykənmiş yəhudi onları baxışları ilə ötürdü.

– Bələd olmayanlar üçün müalicəxana – kim bilir nədir... – onlar uzun, sarı plitə döşənmiş dəhlizə doğru dönəndə Kşeçotek naqqallıq eləməyə başladı.

Pilləkən meydançasının arxasında keçid ikiyə ayrılırdı. Sola balaca lampalarla işıqlandırılan dəhliz uzanırdı; dəhliz, sanki, meşəni xatırladırdı. Nə qədər ki onlar gedirdilər, qaranlıq bərabər aralıqlarla onları bürüyürdü.

– ... Halbuki əlamətləri son dərəcə stereotipdir. Görmə qabiliyyəti, qarabasma, belə mərhələ, elə mərhələ, hərəkətverici oyanma, yaddaşın itməsi, əsəbi-psixi pozğunluq, maniya və bununla da bitdi. İndisə, diqqət!

Onlar elə də böyük olmayan, amma geniş görünən otağa daxil oldular: divarlar boyunca yığışdırılmış çarpayılar,

bir neçə ağ stul və üzərlərinə səliqə ilə qalın kitabların qalaqlandığı stollar düzülmüşdü. Döşəməyə yumrulanıb əzilmiş çoxlu kağızlar səpələnmişdi. Gümüşü kəməri olan, miləmil, bənövşəyi rəngli pijama geymiş adam arxası onlara doğru oturmuşdu. O, geri dönəndə Stefan şəkilli jurnallardakı hansısa fotonu xatırladı. Bu yekəpər, demək olar ki, gözəl kişiydi, hərçənd dərinin altındakı piyi onun üzünün cizgilərinin səliqəsini yox eləmişdi. Pırtlaşıq və səpələnmiş ağ saçlarının gicgahları da ağarmışdı; qaşlarının altında böyük gözləri alışıb-yanırdı, sanki, bu gözlər qırpılmırdı, amma canlı idilər, tərkidünyalıqda, sanki, azacıq tənbəlliyə alışmışdılar. Özlüyündə rəngsiz olsalar da, ətrafının tonuna uyğunlaşmışdılar. İndi bu gözlər açıqrəngli idi. Şairin dərisi uzun müddət bağlı yerdə qaldığından zərifləşmişdi və gözlərinin altından güclə hiss olunan torbacıqlar kimi sallanırdı.



– İcazə verin, sizə öz həmkarımı, doktor Tşinetskini təqdim eləyim. O, bizə işləməyə gəlib. Müzakirə üçün çox gözəl tərəfdaşdır.

– Əgər tərəfdaş olaramsa, onda yalnız hərtərəfli həvəskar kimi, – Stefan dilləndi, məmnunluqla Sekulovskinin qısa, qızğın əl sıxmasına cavab verdi.

Oturdular. Yəqin, bu, olduqca qəribə təsir bağışlayırdı: ciblərindən yöndəmsizcəsinə stetoskop və müayinə çəkici görünən ağ xalat geymiş iki nəfər və ekzotik pijamada olan yaşlı cənab. Oradan-buradan bir qədər laqqırtı vurdular, nəhayət, Seklovski qeyd elədi:

– Tibbi sonsuzluqda kifayət qədər yaxşı pəncərə ola bilər. Hərdənbir mən onu sistematik öyrənmədiyim üçün heyifsilənirəm.

– Sənin qarşında psixopatologiyanın görkəmli bilicisi əyləşib, – Kşeçotek Stefana dedi; Stefan dostunun, adətən, olduğundan daha çox təmkinli və rəsmi olduğunu hiss elədi.

«Özünü çəkir», – Stefan düşündü. Ucadan isə dedi ki, hələ heç kim onların peşəsi ilə məşğul olan adamlar haqqında roman yazmayıb, axı kimsə düzgün-doğru mənzərəsini çəkməklə bu sahənin əsl tədqiqatçısı ola bilərdi.

– Bu, surətçıxaranların işidir, – şair başdansovdu, hərçənd nəzakətlə qımışdı. – Kəndarası yolda güzgü? Burada

ədəbiyyatla ümumi olan nə var? Cənab doktor, əgər belə yanaşsaq, onda Vitkasinin[1] rəyinin əksinə olaraq, roman – xəlvəti baxma sənəti olardı.

– Mən təzahürün... universitet divarları arxasına keçəndən sonra adamları yalnız kənardan, onların dəri örtüyünə, bəlkə də, selikli qişasına görə tanıyan insanın metamorfozasının bütün çətinliklərini nəzərdə tuturam, – Tşinetski gülümsədi, çünki bu, ikimənalılıq kimi anlaşılmalıydı, amma belə çıxırdı ki, həkimləri nəzərdə tutur.

Bu, axmaqcasına səsləndi. Stefan dilxorcasına və heyrətlə aşkar elədi ki, fikirlərini kifayət qədər tez bir yerə yığa, sözləri seçə bilmir və şagird müəllimin qarşısında sıxılan kimi sıxılır, hərçənd Sekulovskiyə qarşı heç bir ehtiram hiss eləmirdi.

– Mənə elə gəlir biz öz bədənimiz haqqında ən uzaq ulduz barəsində bildiyimizdən çox bilmirik, – şair astadan qeyd elədi.

– Biz qanunları dərk eləyirik, hansı ki, onlar itaətkarcasına...

– Eyni zamanda da, az qala, biologiyada hər bir tezisin öz antitezisi var. Elmi nəzəriyyə – psixoloji saqqızdır.

– Amma icazə verin, – artıq bir qədər pərt olmuş Stefan etiraz elədi, – bəs siz xəstələnəndə, adətən, necə hərəkət eləyirsiniz?

– Həkim çağırıram, – Sekulovski gülümsədi. Onun gülüşü uşaq kimi səmimi idi. – Amma on səkkiz yaşımda mən nə qədər çoxlu kütbeyinin həkim olduğunu başa düşdüm. O vaxtdan da xəstələnməkdən vahiməli şəkildə qorxuram, məgər səndən axmaq olan insanın qarşısında öz xəcalətverici zəifliklərini etiraf eləmək olarmı?

– Bəzən bu, hamısından yaxşıdır, doğrudanmı sizin heç vaxt ən yaxın adamlarınızdan belə gizlədiklərinizi qarşınıza çıxan ilk adama danışmaq istəyiniz olmayıb?

– Sizcə, kim «yaxın» ola bilər?

– Di, heç olmasa, valideynlər.

– Sən kimsən? Balaca polyak, – Sekulovski dilləndi. – Bu ən yaxınlar valideynlərdirlərmi? Nəyə görə zirehli balıqlar deyillər? Axı onlar da təkamülün həlqəsi olublar,

[1] Vitkasi – Polşa yazıçısı, rəssam və filosofu Stanislav İquatsi Vitkeviçin (1885–1939) təxəllüsü

sizin biologiya necə öyrədir, nəticə etibarilə şəfqət bütün fəsilə arasında yayılmalıdır, kərtənkələlər də daxil olmaqla. Bəlkə, siz uşaq əkəndə onun gələcək mənəvi həyatı haqqında şəfqətli hisslərə qapılan kimisə tanıyırsınız?

– Yaxşı, bəs qadınlar?

– Siz, bəlkə də, zarafat eləyirsiniz? Hər iki cinsin nümayəndəsi olduqca aydın olmayan səbəblərdən qarşılıqlı hərəkət eləyirlər; yəqin bu, onun nəticəsidir ki, nə vaxtsa hansısa zülal topası azacıq əyilib, burada nəsə azalıb, orada bir az qabağa çıxıb, bax onun qabarıqlığına uyğun olaraq hansısa çökəklər yaranıb, ondan ötrü ki, oradan yaxınlığa yol başlasın? Əlbəttə, mənəvi...Sizin ayağınız sizə yaxındırmı?

– Bunun nə dəxli varmış... – Stefan etiraz eləməyə cəhd göstərdi. O artıq təslim olduğunu görürdü, Sekulovski, sanki, dəqiq atəşlərlə söhbəti dəlmə-deşik eləyirdi.



– Hamısının dəxli var. Ayaq, əlbəttə, yaxındır, çünki siz onu iki cür hiss eləyə bilərsiniz: birinci dəfə gözləriniz bağlı olanda, «ayaqla hisslərin dərk edilməsi kimi», ikinci dəfə ona baxanda, toxunanda, – başqa sözlə, bir əşya kimi. Əfsus ki, hər bir digər insan həmişə əşyadır.

– Bu, tamamilə cəfəngiyatdır. Siz onu demək istəmirsiniz ki, sizin heç vaxt dostunuz olmayıb və siz heç vaxt sevməyibsiniz?

– Budur, mənzilbaşına çatdıq! – Sekulovski qışqırdı. – Deyəsən, bütün bunlar olub. Amma burada yaxın olmaqlıq nə iş var? Heç kim mənə özümdən yaxın ola bilməz, amma mən bəzən özümdən elə uzaq oluram...

Şair gözlərini yumdu; o, bunu elə səylə elədi ki, sanki, bütün dünyadan əl çəkirdi. Onların söhbəti labirintdə azmağa bənzəyirdi. Stefan söhbəti ələ almaq və ən doğma mövzuya qayıtmaq istəyirdi. Bəlkə, bir az vaxtlarını keçirə bildilər deyə.

– Biz ədəbiyyat haqqında danışdıq. Siz olduqca birtərəfli şəkildə sözdən yapışır və təfərrüatları başqa şəklə salırsınız...

– Döşə gəlsin, – şair onu həvəsləndirdi.

– Halbuki bədii əsər – ənənənin övladıdır, istedad isə bu ənənəni pozmaq qabiliyyətidir. Mən təkcə realizmi qəbul eləmirəm, istənilən ədəbi stil yaxşıdır, yalnız əgər

müəllif əsərin daxili məntiqinə sadiq qalırsa: kim bir dəfə qəhrəmanı divarın içərisiylə getməyə məcbur eləyibsə, o, bunu sona qədər də etməlidir...

– Bağışlayın, amma... sizcə, ədəbiyyat nədən ötrü mövcuddur? – Sekulovski sakitcə, sanki, mürgü içində dedi.

Stefan hələ sözünü qurtarmamışdı və şairin müdaxiləsi onu tamamilə çaşdırdı, o, sözləri arasındakı əlaqəni itirdi.

– Ədəbiyyat öyrədir...

– Hə-ə-ə? – şair səsini uzatdı. – Bəs Bethoven nəyi öyrədir? Bəs Eynşteyn?

Stefanın varlığını qəzəbqarışıq dilxorçuluq bürümüşdü. Sekulovskini açıq-aşkar şişirdirmişlər. Nəyə görə Stefan ona rəhm eləməliydi?

Şair olduqca məmnun halda astadan güldü:

– Təbii ki, heç nəyi, – Sekulovski dedi. – Mənim əzizim, o, bizi məşğul eləyir. Lakin hamı bunu bilmir. Əgər itə kolbasa verib, bu zaman lampanı yandırsaq, bir müddətdən sonra it lampa işığını görən kimi ağız suyu ifraz edəcək. Əgər insana kağız üzərindəki mürəkkəb ləkələrini göstərsək, bir qədər keçəndən sonra o deyəcək ki, bu, kainatın hüdudsuzluğunun modelidir. Bütün bunlar beyinin fiziologiyasıdır, təlimidir, vəssalam.

– Bəs insan üçün kolbasa nədir? – Stefan özünü rəqibinə dəqiq zərbə vuran qılıncoynadan kimi hiss eləyərək cəld soruşdu. Amma Sekulovski cavab zərbəsi endirməyə yubanmadı.

– Eynşteyn – kolbasa və ya hansısa böyük hörmətli adam. Məgər riyaziyyat intellektual topaldıqaçdının dəyişmiş forması deyilmi? Məntiq isə ciddi qaydaları olan şahmat deyilmi? Bu, nazik kəndirlə oynanılan uşaq oyunu kimidir, hansı ki, iki nəfər cəld barmaqlarından çıxarır, cürbəcür yollarla müxtəlif şəkillərə salır, sonda isə başlanğıc nöqtəyə qayıdır. Sizə Peano[1] və Rasselin[2] sübut elədikləri, iki vurulsun ikinin dördə bərabər olması məlum deyilmi? Bu, cəbri formulların çap səhifəsində yerini alıb. Hamı

---

[1] Peano Cüzeppa (1858–1932) – italyan riyaziyyatçısı

[2] Rassel Bertan (1872–1970) – ingilis filosofu və riyaziyyatçısı

əylənir, mən də əylənirəm. Bəlkə, siz mənim «Çiçəkli bağ» pyesimi görübsünüz? Mən onu kimyəvi drama adlandırmışam. Çiçəklər bakteriyalardır, bir halda bakteriyalar bitkilərdir, bağ isə bakteriyaların çoxaldığı insan bədənidir. Orada vərəm çöpləri ilə leykositlər arasında amansız mübarizə gedir. Hansısa sehrli papağa oxşayan bakteriyalar zirehli jileti deşəndən sonra ali mikrobun başçılığı altında birləşirlər, leykositlər ordusuna qalib gəlirlər, qarşılarında səfalı və işıqlı gələcək açılır, amma birdən bağ onların ayaqları altındaca məhv olur, yəni insan ölür və yazıq bitkilər də onunla birlikdə ölməyə məhkumdur...

Stefan bu dramı oxumamışdı.

– Bağışlayın ki, özüm haqda danışıram. Amma nəticədə bizlərdən istənilən birimiz yer qabığının hansısa layihəsiyik, lakin heç də həmişə həyata keyfiyyətlə keçirilməyən layihələrdənik. İnsan istehsalında çoxlu, çoxlu əyintilər var. Dünya isə, – bu yerdə o, pəncərədən azacıq aşağı baxaraq gülümsədi, sanki, orada nəsə, məzəli bir şey görmüşdü, – bayağılığı heç nəyi aydınlaşdırmayan ən fantastik möcüzələrin yığınıdır... Anlaşılan budur ki, hər şeydən sadəsi özünü, guya, heç nəyi görmürmüşsən kimi aparmaqdır və nə varsa, demək, var, vəssalam. Mən adi günlərdə belə də eləyirəm. Amma bu, olduqca azdır. Dəqiq rəqəmləri xatırlamıram (son vaxtlar yaddaşım məni pis vəziyyətdə qoyur), amma mən atom yığınından canlı hüceyrələrin yaranmasının nə qədər şübhəli olduğunu oxumuşam... təxminən, trilyondabir halda şans ola bilər. Canlı insan bədənini təşkil eləmək üçün neçə milyardlarla miqdarda bu hüceyrələrin uyğun surətdə qruplaşması lazımdır! Bizlərdən hər birimiz əsas uduşun düşdüyü istiqraz vərəqəsiyik: bir neçə onillik ömür, xoş əyləncələr. Alışıb-yanan qazlar, közərmiş dumanlıqlar, sümüyə işləyən şaxtalar çarlığında bakteriyalarla zəngin buxara və çürüntüyə dərhal çevrilməyə meyilli həlməşik kütlə, zülal meydana çıxdı...

Yüz minlərlə qarmaq-tələlər materiyanı ildırım kimi varlığa və harmoniyaya ayıran çılğın enerjini tutub saxlayır. Boşluqda sürünən bu məkan yumağı nə üçündür? Kiminsə gözlərinin səmanın varlığını təsdiqləməsi üçünmü? Gözlərinin, anlayırsınızmı? Siz haçansa düşünmüsünüzmü

ki, nə üçün payızda qızılı-qəhvəyi rəngdə olan buludlar və ağaclar qışda boz rəng alır.

İlin fəsilləri üzrə dəyişən bu peyzaj, bütün bunlar öz təmtəraqlı görkəmi ilə bizi çəkic kimi əzir. Hansı haqla? Axı biz qara kosmik toz, qaçış itləri dumanlığının qırıntıları olmalıyıq; axı ulduzların uğultusu, meteorların axması, uçurum, zülmət, ölüm – bütün bunlar normadır...

Sekulovski yorğun halda balışa söykəndi və boğuq, asta səslə şeir deməyə başladı:

*Only the dead men know the tunes*
*The live world dances to...*[1]

– Onda ədəbiyyat sizin üçün nədir? – uzunsürən sükutu pozan Stefan soruşdu.

– Oxuyanlar üçün – unutmaq cəhdi. Yaradıcılar üçün – xilas olmağa nail olmaq cəhdi.

– Sizin mistikanız...

Stefanın söhbəti açıq-aşkar alınmırdı, o, özünün əsas dəlillərini səsləndirməyə macal tapmamış Sekulovski donquldadı və özünün nəhayətsizlik atından ayağa sıçradı.

– Mən mistikəm? Bunu sizə kim dedi? Bizdə kimsə güclə dörd dəfə çap olunan kimi ona qəbir daşının üzərində yazılana oxşar yarlıqlar yapışdırmağa başlayırlar: «incə lirik», «üslub ustası», «həyatsevər». Mənim nə vaxtsa kəmağıl adlandırdığım tənqidçilər isə – bunlar ədəbiyyatın həkimləridir, çünki sizə oxşayırlar, saxta diaqnozlar qoyurlar, necə olduğunu bilirlər və kömək eləməyə də tamamilə qadir deyillər... Məni zorla mistikaya döndərdilər və bunu kim elədi? Taxtabitilərdən qoxumuş tiplər, qanmazlar, sarsaqlar və bax bu da milyonlarla qəribəlikdən daha biri: mənim beynimə oxşayan beynin olarsa, bir növ, bağırsağınla düşünə bilərsən.

– Bizim söhbətimiz bir qədər sistemsizdir, dialoq deyil, sizin xeyrinizə olan ikili monoloqdur, – Stefan dedi. O, özünü yığışdırmağı və güclü bir zərbə ilə Sekulovskini məhv eləməyi qərara aldı. O artıq öz tibbini tamamilə unutmuşdu. – Mən axı sizin uydurmalarınızla tanışam. Belə ki, siz «Varlığın həqiqəti»ndənsə, özgə bir həqiqətin varlığına

---
[1] Yalnız ölülər dirilərin hansı havaya oynadığını bilirlər (*ing.*)

işarə vurursunuz. Olmayan dünyaları təsvir eləyirsiniz, hərçənd həqiqətəuyğun – bir növ, Riman boşluqlarının mənfi əyriliklərinə oxşar şəkildə... Amma axı bizi əhatə eləyən dünya, sizin özünüzün də təsdiq elədiyiniz kimi, kifayət qədər maraqlıdır. Nəyə görə siz onun haqqında belə az yazırsınız?

– Bizi əhatə eləyən dünya? Ax, siz elə düşünürsünüz ki, mən özümdan «dünyalar uydururam»? Deməк, siz bizi əhatə eləyən, mərkəzində sizin öz bəzədilmiş stulunuzla başda oturduğunuz dünyanın həqiqiliyinə azacıq da şübhə eləmirsiniz?

Stefan dünyanın bir az normal olmadığını düşünürdü, amma bir qədər başqa cür dedi:

– Hə, müəyyən həddə qədər, hə.

Sekulovski ancaq bu «hə» sözünü eşitdi, ona da elə bu lazım idi.



– Mən başqa cür baxıram. Yaxınlarda cənab doktor Kşeçotek mənə mikroskopa baxmağa icazə verdi. Sonradan danışdığı kimi, o, orada çəhrayı rəngə boyanmış selikli qişanın hissəciklərini görüb; hissəciklərin arasında qarın yatalağı törədicilərinin tutqun tacları məskən salıblarmış – kolbayaoxşar formaya uyğun olaraq. Mən düzgünmü təkrar eləyirəm?

Staşek təsdiq elədi.

– Mənsə axının apardığı çəhrayı buz parçaları üzən lacivərd dənizdə mərcan adalarına oxşar olan qəhvəyi adaların arxipelaqlarını gördüm ...

– Bu «mərcan adaları» məhz elə bakteriyalar olub, – Stefan qeyd elədi.

– Hə, amma mən bunu görmədim. Bəs hamımız üçün ümumi olan dünya hanı? Məgər kitab – cildçi üçün və sizin üçün eynimi şeydir?

– Doğrudanmı, siz hətta başqasını başa düşməyin mümkünlüyünü də şübhə altına alırsınız?

– Bu söhbət həddən artıq mücərrəddir. Bir şeyi dərk eləyə bilirəm: mən dünyanın şəklində başqa cizgiləri uzadıram, həmişə nəticədə qeyri-məntiqlə sonuclanan ideal məntiqə doğru can atıram. Bundan artıq heç nəyə.

– Bir sözlə, nizama salınmış mənasızlıq? Bu, ehtimallardan biridir və mən bilmirəm nəyə görə...

– Bizlərdən istənilən birimiz zərurətə çevrilən ehtimallardan biriyik, – Sekulovski onun sözünü kəsdi və Stefanın bir dəfə təklikdə gün işığına çıxartdığı ideyası yadına düşdü:

– Siz nə vaxtsa düşünübsünüzmü: «mən nə vaxtsa sperma və yumurta-hüceyrə olmuşam»?

– Bu maraqlıdır. İcazə verirsinizmi mən bunu yazım? Əlbəttə, əgər bu, sizin ədəbi tədarükünüzdən deyilsə... – Sekulovski soruşdu.

Stefan onu, hərçənd formal olsa da, soyduqlarını və etiraz belə eləyə bilməyəcəyini hiss eləyib susdu və Sekulovski kitabın arasına qoyduğu nişan kağızını çıxarıb, qeydini iri, əyri xətti ilə yazdı. Bu, Coysun «Uliss» romanı idi.

– Cənab, siz məntiqlər və onların davamı haqqında danışdınız, – bura qədər susan Staşek dilləndi. – Bəs siz almanlar haqqında nə deyirsiniz? Onların ideologiyasının məntiqi bizim xalqın insan ehtiyatlarından tamamilə istifadə eləyib qurtarandan sonra onun bioloji məhvini nəzərdə tutur.

– Siyasətçilər – necə hərəkət eləyəcəklərini ağıllı surətdə təxmin eləmək üçün olduqca sarsaq adamlardır, – Sekulovski daimi yaşıltəhər – kəhrəba rəngli «Pelikan» perosunu səliqə ilə qatlayaraq cavab verdi. – Amma hazırkı halda sizin xatırlatdığınız da istisna deyil.

– Onda neyləmək olar?

– Fleytada çalmaq, kəpənək tutmaq olar, – şair cavab verdi, söhbətin onu darıxdırdığı hiss olunurdu. – Biz azadlığa müxtəlif üsullarla nail oluruq. Bəziləri özgə hesabına – bu olduqca nalayiq hərəkətdir, əvəzində isə əlverişlidir. Digərləri isə vəziyyətdən sürüşüb keçə bilməyin mümkün olduğu çat axtarırlar. «Ağılsızlıq» sözündən qorxası olmayacağıq. Mən təsdiq eləyirəm ki, öz azad hərəkətlərimi nümayiş elətdirmək üçün, əlbəttə, ağılsız hərəkət eləyə bilərəm.

– Məsələn? – Stefan soruşdu, hərçənd ona elə gəldi ki, onun yalnız gözünün kənarı ilə gördüyü Staşek ona xəbərdaredici işarələr eləyir.

– Məsələn? – Sekulovski mehriban cavab verdi, sifətini büzüşdürdü, gözlərini bərəltdi və səsi gəldikcə inək kimi movuldamağa başladı.

Stefan çuğundur kimi qıpqırmızı qızardı. Staşek üzünü çevirdi, onun dodaqlarındakı təbəssüm eybəcərləşdi.

– *Quod erat demonstrandum*[1], – şair dedi. – Mən bundan daha artıq təsir bağışlayacaq nəsə təsvir eləmək üçün olduqca tənbələm.

Stefanın birdən xərclədiyi enerjiyə heyfi gəldi. O, kimin üçün nağıl danışırdı?

– Bunun əsl ağılsızlıqla heç bir əlaqəsi yoxdur, – Sekulovski davam elədi. – Bu yalnız kiçik bir sübutdur. Gəlin öz imkanlarımızı təkcə normalar daxilində genişləndirməyək, gəlin vəziyyətdən çıxış yolu axtaraq, heç kimin görmədiyi çıxış yolunu.

– Bəs edam kürsüsündə? – Stefan soyuqcasına, amma daxili tündməzaclığını cilovlamadan dedi.

– Orada azından, heç olmasa, ölmək formasının özüylə heyvandan yaxa qurtarmağa çalışmaq olar. Bəs siz özünüz, doktor, belə halda necə hərəkət eləyərdiniz?



– Mən... mən... – Stefan nə deyəcəyini bilmədi. Buna qədər sözlər özləri dilinin ucundan qopub düşürdü, indisə ona elə gəlirdi ki, dili mənasızlıqdan ağırlaşıb. Belə ki, Tşinetski pərt olmaqdan çox qorxurdu; o, əslində, dilini tərpədə bilmirdi. Bir xeyli susdu. Nitq qabiliyyətini tez bərpa eləyə bilmədi. – Mənə elə gəlir ki, biz, ümumiyyətlə, tək-tənhayıq. Ümumiyyətlə, bu müalicəxana – səciyyəvi olmayan hadisədir. Səciyyəvi olmayan səciyyəvi, – Stefan dedi, düşündüyü bu yeni mövzu onu hətta bir az gümrahlaşdırdı da. – Almanlar, müharibə, məğlubiyyət – bütün bunlar burada çox etinasız qəbul edilir, ən yaxşı halda uzaq əks-səda kimi...

– Dəmir meyitlər dağı, doğrudurmu? Əsl gəmilər isə dənizdə üzür, – Sekulovski dilləndi və birdən baxışlarını tavana dikdi. – Sizsə, cənablar, saysız-hesabsız ölməz qəlbləri korlayan Yaradanın səhvini düzəltmək istəyirsiniz...

O, ayağa qalxdı, otaqda gəzişməyə başladı və bir neçə dəfə ucadan öskürdü, sanki, səsini tənzimləyirdi.

– Belə ki, axıra qədər qulaq asanlar, mən sizin üçün daha nəyi nümayiş elətdirim? – şair otağın ortasında dayanıb, əllərini sinəsi üzərində cütləyərək soruşdu. Onun sifəti gözlənilmədən işıqlandı. – Cərgələr, – o pıçıldadı. Azacıq

---

[1] Nəyi ki sübut eləmək lazım idi

əyildi və həkimlərin başı üzərindən elə gərginliklə baxmağa başladı ki, sanki, onlar da, nə isə, bu qəribə gözləmə anına yaxalanmış halda tərpənə bilmirdilər. Gərgin sükut dözülməz həddə çatanda şair şeir deməyə başladı:

*Və mirvari-halqalı qurdlardan olan muncuğu*
*Qəbrimin üzərinə qoyun.*
*Qoy onların xışıltısı sığallasın*
*Mənim kəlləm, dağıdılmış şəhər kimi*
*Gəmirir qanlı alovların işıltısını.*
*Bakteriya meyitlərinin ağ oyunu –*
*Qoy bu povest davam eləsin.*

Sonra baş endirdi və pəncərəyə tərəf döndü, sanki, daha qonaqları görməyə son qoydu.

– Mən axı səndən xahiş elədim... – çölə çıxan kimi də Staşek sözə başladı.

– Mən axı heç nə...

– Sən onu təhrik elədin. Bütün vaxt ərzində özünü saxlamalıydın, sənsə dərhal bütün bacarığını işə saldın. Sən ona qulaq asmaqdan çox, özünün haqlı olduğunu sübut eləmək istəyirdin.

– Onun şeirləri sənin xoşuna gəldi?

– Təsəvvür elə, heç bir şeyə baxmayaraq – hə! Bir şeytan bilir, dahilikdə nə qədər qeyri-normallıq gizlənib və əksinə.

– Di, bilirsənmi, Sekulovski dahidir! – Stefan incimiş halda ucadan elə səsləndi ki, sanki, bunun bilavasitə ona aidiyyəti var idi.

– Mən sənə onun kitabını verərəm. Yəqin, «Sifətsiz qan» kitabını oxumayıbsan?

– Yox.

– Güzəştə gedərsən!

Öz otağının qapısı qarşısında dayandığını görən Staşek Tşinetski ilə vidalaşdı. Stolunun yeşiyini eşələməyə başladı ki, görsün orada piramidon[1] varmı. Gicgahları, sanki, qurğuşun çənbərlə sıxılırmış kimi zoqquldayırdı.

Axşam yoxlaması zamanı Stefan təravətini itirmiş sarışın qızdan yayınmaq üçün diqqətlə səy göstərirdi. Qız isə

[0] Piramidon – ağrıkəsici dərman

onun yaxasından yapışıb qopmadı. Onu Nosilevskayanın kabinetinə aparmaq lazım gəldi.

– Doktor, mən hər şeyi sizə danışacağam, – qız əsəbicəsinə barmaqlarını bir-birinə dolaşdıraraq dil boğaza qoymadan danışmağa başladı. – Məni evə donuz piyi apardığıma görə tutdular. Mən də həbs düşərgəsinə aparılacağımdan qorxaraq özümü dəliliyə vurdum. Burada isə düşərgədən pisdir. Mən bu dəlilərdən qorxuram.

– Sizin soyadınız necədir? Keşişlə monarx arasında nə fərq var? Pəncərə nə üçündür? Katolik kilsəsində neyləyirlər?

Bu sualları verib qulaq asandan sonra Stefan qadının, həqiqətən də, normal olduğunu başa düşdü.

– Bəs siz özünüzü dəliliyə necə vura bildiniz?

– Mənim baldızım var. O, Yan Bojenin psixiatrik xəstəxanasındadır, beləliklə də, mən nəsə görmüşəm, qulaq asmışam... sanki, olmayan birisi ilə söhbət eləyirəm, mən, sanki, onu görürəm və bir də hər cür hoqqalar.



– İndi mən sizinlə neyləyim?

– Məni buradan buraxın, – qadın ibadət eləyirmiş kimi əllərini cütlədi.

– Bilirsinizmi, bunu elə-belə, sadəcə, eləmək mümkün deyil. Biz hansısa vaxt ərzində sizi müşahidə altında saxlamalıyıq.

– Doktor, bu uzunmu çəkər? Oy, mən nəyə görə belə eləməyi qərara aldım!...

– Həbs düşərgəsində bundan yaxşı ola bilməzdi.

– Amma doktor, yalvarıram sizə, mən altını batıranlarla yanaşı qala bilmərəm axı. Mənim ərim sizə təşəkkür edər.

– Amma yalnız bunsuz, – Stefan hirslənərək onun sözünü kəsdi. O artıq lazım olan tonda danışırdı. – Sizi başqa palataya keçirərik, orada sakitlikdir. İndisə gedin.

– Of, mənim üçün, onsuz da, fərqi yoxdur. Zingildəyirlər, oxuyurlar, gözlərini bərəldirlər, mən özüm də, sadəcə, dəli olaram deyə qorxuram.

Bir neçə gün keçəndən sonra Stefan bir neçə oxşar qəlibin köməyi ilə artıq xəstəlik tarixçələrinin «kor-korana» doldurmağa alışdı; demək olar ki, hamı belə eləyirdi. Hamıdan tez Riqeri sınayıb ona bələd oldu: heç şübhəsiz,

təhsilli adam idi, amma onun ağlı yapon bağı idi, bir növ, körpüləri və cığırları var idi və ümumiyyətlə, hər şey gözəl idi, amma olduqca balaca və mənasızdılar. Onun fikirləri hamarlanmış təkər izləri ilə diyirlənirdi. Onun idrakı, sanki, dağınıq, amma möhkəmcə yapışdırılmış plitkalardan ibarət idi və o, onlardan tamamilə uşaq kimi istifadə eləyirdi.

Bir neçə həftə keçəndən sonra şöbə artıq Tşinetskiyə elə də xoşagəlməz təsir bağışlamırdı. «Əslində, bədbəxt qadındırlar», – o düşündü, hərçənd bəziləri, xüsusilə manyakları heç də dini ehkam ruhunda olmayan vasitələrlə müqəddəslərlə münasibətlər qurmağa can atırdılar.

Bazar günü Paençkovskinin ad günü idi, ad gününə təzəcə ütülənmiş xalat geyərək və seyrəlmiş saqqalını səliqə ilə darayaraq gəlmişdi. Sağalanlar şöbəsindən olan qız şeir söyləyəndə, gücdən düşmüş quşun gözlərinə oxşayan gözləri eynəyin şüşələri arxasından razılıqla qırpılırdı. Sonra sərxoş qadın mahnı oxudu, sonda isə psixopatların xoru çıxış elədi, amma sonra təntənənin proqramı qəfildən qısaldılıb korlandı, hamı qocanın üzərinə atıldı və o, tavanın altında əllər meşəsinin üzərində uçmağa başladı. Gurultu, tövşümə, ləhləmə – hətta az qala, Edqar Poda olduğu kimi, qadın-çaynik də tapıldı. Qocanı güclə xəstələrin əlindən aldılar. Sonra həkimlər bir qədər monastırda olduğu kimi sıraya düzüldülər, başda monastırın başçısı, onun arxasınca monastırın rahibləri və kişilərin palatasına yola düşdülər, orada özünün xərçənglə xəstələndiyini təsəvvür eləyən ipoxondrik[1] şeir deməyə başladı, amma iflic olmuş üç nəfər xorla: «Zavallı həbsxana xəstəxanasında öldü» deyə oxuyaraq onun sözünü kəsdi və onları saxlamaq heç cür mümkün olmadı. Sonra həkimlərin korpusunda sadə bir ziyafət oldu, ziyafətin sonunda Paypak vətənpərvərlik ruhunda çıxış eləmək istədi, amma onda heç nə alınmadı: özünü dartıb durmuş, sanki, elə hey başıyla etiraz eləyən balaca qocanın bir qədəh zirə arağından sonra gözləri yaşardı, arağı stolun üzərinə dağıtdı və nəhayət, hamının ürəyindən xəbər verərək yerinə əyləşdi.

---

[1] İpoxondrik – xəstələnməkdən qorxma nəticəsində baş verən ruh düşkünlüyündən əziyyət çəkən adam

## DOCTOR ANGELİCUS

Xəstəxanada intriqa qarışqa kimi qaynaşırdı. Onların hiyləgərcəsinə dartılıb uzadılmış torları elə debütantın bacarıqsız addımını gözləyirdi. Kimsə tezliklə rəhbərliyin dəyişəcəyi şayiəsini yayaraq, işdəki hər bir uğursuzluğa sevinərək Paençkovskini sıxışdırıb işdən çıxartmağa cəhd eləyirdi, amma Stefan, sanki, akvariumun şüşəsi arxasından kiçilən psixikanın oyunbazlıqlarını müşahidə eləyərək, dünyanın işlərini dərk eləmək üçün bu hadisələrdən kifayət qədər doymuşdu.

Onu Sekulovskinin yanına getmək özünə cəlb eləyirdi. Onlar özlərindən razı halda ayrılmışdılar, hərçənd Stefanı şairin özünü məhkum elədiyi dəhşətlər girdabında balıq suda hiss eləyən kimi hiss eləməsi qıcıqlandırırdı, Sekulovski isə cavan oğlanın timsalında məşq eləmək üçün lazım olan tərəfdaşı görür, öz şəxsi ağlının hər şeyin ölçüsü və meyarı olduğunu zənn eləyirdi.



Bura Varşavadakı tutatutlar haqqındakı ilk xəbərlər gəlib çatırdı, təcili getto müəssisəsi haqqındakı şayiələr xəstəxana divarlarının süzgəcindən keçərək, dumanlı və həqiqətəuyğun olmayan şəklə düşürdü. Sentyabr kampaniyasının iştirakçıları, müharibənin ruhi tarazlıqdan çıxartdığı çoxlu keçmiş əsgər xəstəxananı tərk elədi. Bunun nəticəsində də genişlik oldu; axır vaxtlara qədər bəzi şöbələrdə iki, hətta bəzilərində üç xəstəyə bir çarpayı düşürdü.

Əvəzində isə ərzaq qıtlığı yarandı, dərman çatmırdı. Uzun müddət düşünəndən sonra Paypak ciddi qənaət eləməyi nəzərdə tutan təlimatı tərtib və çap elədi. Skopolomini, morfini, barbituratı, hətta bromu da bağlı qapı arxasında saxlayırdılar. Kəskin tutmaların müalicəsi üçün nəzərdə tutulan insulini kardiazol əvəz elədi, onu da həddən artıq qənaətlə və ehtiyatla verirdilər. Xəstəxana statistikası axsayırdı, hələ sabitləşməyən rəqəmlərdən dəlixana cəmiyyətinin yeni modelini yaratmaq mümkün deyildi. Bir sütun azalır, digərləri daima dəyişir və ya donub-qalırdı – qeyri-müəyyənlik dövrü idi.

Aprel günü-gündən özünü hiss etdirirdi. Çənli-boranlı, sanki, dekabrdan borc götürülmüş günlər yağışın və yaşıllı-

ğın fərəhli səs-küyü ilə dolan günlərlə əvəz olunurdu. Bazar günü kirpikləri arasından yuxusunu tutqun, al-qırmızı rənglərə boyayan inadkar günəşin şüaları altında yuxudan oyanan Stefan sübhdən ayağa qalxdı. Pəncərədən çölə baxdı. Gözləri qarşısında açılan mənzərə elə hey dəyişirdi, sanki, dahi rəssam hər dəfə yeni rənglərdən və təfsilatlardan istifadə eləyərək eyni bir mənzərənin eskiz ardınca eskizini geniş kətan üzərində çəkirdi. Təpələrin arasındakı uzun, dayaz dərəylə yatmış vəhşi heyvanın beli kimi hərəkətsiz olan lifli duman üzürdü, budaqların qara cizgiləri onun dalğaları arasında yayılırdı. Burada və orada, sanki, fırça dayanmadan nəyəsə toxunurdu, dumanın pərdəsi arxasından müxtəlif rəngli, yöndəmsiz kölgələr qaralırdı. Sonra ağlığın üzərinə yuxarıdan bir qədər qızılı rəng sızıb keçdi, hər şey təlatümə düşdü, mirvari burulğanlar əmələ gəldi, duman üfüqlərin özünə kimi uzandı, seyrəkləşdi, çökdü və parçalanan şüaların arasından təmizlənmiş şabalıd ləpəsi kimi gün bərq vurmağa başladı.

Stefan xəstəxanadan çıxıb gəzməyə getdi. Dərhal da yoldan döndü. Yolun hər qarışını yaşıl otlar örtmüşdü: xəndəkləri doldurmuş, daşların altından baş qaldırmışdı; tumurcuqlar şişirdi, zərif, solğun-yaşıl buludlar uzaqdakı ağacları bürüyürdü. Stefan birbaşa isti küləklərin sərbəstcəsinə əsdiyi təpənin zirvəsinə doğru gedirdi; keçən ildən qalma quru otların xışıldadığı təpənin yanından keçdi. Təpədən dairəvi şəkildə çirkli, zolaqlı xəstəxana xalatını xatırladan tarlanın mənzərəsi açılırdı. Hər kiçik budaqda ağımsov və mavi su damcıları işıldayırdı, hər bir su damcısının içərisində də əks etdirdiyi dünyanın zərrələri vardı. Əyri zolaqlarla üfüqlərə doğru uzanan meşə sədəf rəngində görünürdü. Aşağıda, yamacda yarıya qədər göy qübbəsinə – yapışqan tumurcuqların al-qırmızı bürclərinə bürünmüş üç ağac var idi. Stefan o biri tərəfə yola düşdü. Kolların sıx pöhrəliyinin yanından keçəndə kəsik-kəsik nəfəs alındığını eşitdi.

Bir-birinə dolaşmış budaqlara yaxınlaşdı. Kolların arasında Sekulovski dizləri üstə çökmüşdü və güclə eşidiləcək tərzdə, amma elə gülürdü ki, Stefanın bədənində, sanki, qarışqa gəzirdi. Geri dönmədən şair onu çağırdı:

– Bura gəlin, doktor.

Stefan budaqları araladı. Dairəvi tala göründü. Sekulovski ətrafında qarışqaların qaynaşdığı, dövrə vuraraq sarı otların arasıyla seyrək axınla axdıqları torpaq komasına baxırdı.

Tşinetski sakitcə dayanmışdı, şair isə onu dalğın baxışlarla süzüb ayağa qalxdı və qeyd elədi:

– Bu yalnız modeldir...

Şair Stefanın qoluna girdi. Onlar kolluqdan çıxdılar. Uzaqdan boz və yerə yatıbmış kimi görünən xəstəxana tikililəri görünürdü. Cərrahiyyə korpusu qırmızı ləkə şəklində – sanki, səhvən ora uşaq kubiki atmışdılar – digər tikililərdən ayrılırdı. Sekulovski otların üzərində oturdu və tələsik bloknotuna nəsə yazmağa başladı.

– Siz qarışqaları müşahidə eləməyi sevirsinizmi? – Stefan soruşdu.



– Sevmirəm, amma arada müşahidə eləməli oluram. Əgər biz olmasaydıq, həşəratlar təbiətin iyrənc məxluqları olardı. Axı həyat – mexanizmin inkarıdır, mexanizm isə həyatın, həşəratlar isə – mexanizmin canlanması, təbiətin istehzası, ələ salması... Mığmığalar, çəyirtkələr, həyət itləri... Sənsə burada buyur – onların qabağında titrə! İlahi qüvvələri azdırmayın...

Sekulovski başını əydi və yazmağına davam elədi. Stefan onun çiyni üzərindən boylandı və axırıncı sözləri oxudu: «... dünya – Allahın yoxluqla mübarizəsi». O, bunun gələcək şerin sətirlərimi olduğunu soruşdu.

– Mən haradan bilim?

– Bəs kim bilir?

– Və siz psixiatr, psixoloq olmaq istəyirsiniz?

– Poeziya – iki dünyaya olan münasibətin ifadəsidir: gözlə gördüyümüz və hiss elədiyimiz dünyalara, – Stefan inamsız halda danışmağa başladı. – Mitskeviç: «Bizim xalq, lava kimidir» deyəndə...

– Biz məktəbdə deyilik, boş verin, – Sekulovski gözlərini qırparaq onun sözünü kəsdi. – Mitskeviçə belə demək olar: o, romantikdir, bizim xalq isə inək qoğalları kimidir: çöldən quru və yaraşıqsızdır, içərisində nə olduğu isə məlumdur. Həm də təkcə bizim xalq yox. Mənim yanımda hər cür münasibətlərin ifadəsi və mövqe tutması haqqında, lütfən, danışmayın, bundan ürəyim bulanır.

O, baxışlarını günəş şüasına qərq olmuş çöldə xeyli gəzdirdi.

– Şeir nə olan şeydir? – soruşdu.

Dərindən ah çəkdi.

– Şeirlər məndə qopub tökülmüş suvağın altından görünən divar naxışları kimi əmələ gəlir; ayrıca, aydın parçalarla. Onların arasında boşluq olur. Sonra mən bu əl toxumasını və üfüqlərini, baxışları və əşyaları bir araya yığmağa cəhd eləyirəm... Gündüzlər belə olur. Gecələr isə hərdənbir bu, yuxuda baş verir, gecə – bu, nəsə, bir tamlığa qovuşan titrəyən zəng səsləri kimidir. Ən çətini isə oyanmaq və bunu özünlə ayıqlığa gətirməkdir.

– Bizim ilk görüşümüzdə oxuduğunuz şeir gündüz, ya gecə şeridir?

– Çox ehtimal ki, gündüz.

Stefan onu tərifləməyə cəhd elədi, əvəzində ağır töhmət aldı.

– Cəfəngiyatdır. Siz bilmirsiniz ki, bu ola bilər. Siz, ümumiyyətlə, şeir haqqında nə bilə bilərsiniz? Yazmaq – lənətə gəlmiş mükəlləfiyyətdir. Əgər kimsə ən yaxın adamının canverməsi zamanı onun axırıncı qıcolmalarını ixtiyarsız halda yazıya alına biləcək qədər tuta bilirsə – o, əsl yazıçıdır. Filister buradaca fəryad qoparır: «Əclaflıq». Əclaflıq yox, əzizim, yalnız əzabçəkmə. Bu, sənət deyil, bunu idarədəki iş yeri kimi seçmirlər. Sakitlik yalnız o yazıçıların qisməti olur ki, onlar heç nə yazmırlar. Belələri isə var. Onlar imkanlar okeanında kef çəkirlər, başa düşürsünüz? Fikri ifadə eləmək üçün onu əvvəlcə məhdudlaşdırmaq, yəni öldürmək lazımdır. Mənim ifadə elədiyim hər söz məndən minlərlə başqa sözü oğurlayır, hər sətir isə özünü hər şeydən məhrum eləmə dağıdır. Mən əminlik uydurmağa məcburam. Həmin o suvağın hissələri qopub töküləndə mən qızılı fraqmentlərin altında gizlədilmiş bir dərinliyin açıldığını hiss eləyirəm. O, yəqin, oradadır, amma ona qədər gedib çatmaq cəhdi həmişə uğursuzluğa məhkumdur. Mənim qorxum...

O susdu və ah çəkdi.

– Hər dəfə mənə elə gəlir ki, bu, axırıncı sözdür. Daha yaza bilməyəcəyəm... Əlbəttə, siz başa düşmürsünüz. Siz başa düşə bilməzsiniz. Qorxu... – bu, axırıncı sözdür – bunu

necə izah eləyərsən? Axı daşqın zamanı su qapının altından fışqırıb axan kimi, sözlər də məndən fışqırıb axır. Onların arxasında nə olduğunu bilmirəm. Mənbələrin gücü mənim hakimiyyətimdə deyil. Onlar o dərəcədə məndədirlər ki, sanki, mənim xaricimdədirlər. Və siz istəyirsiniz mən «münasibətimi ifadə eləyim»... Mən əbədi olaraq daxili sərbəstlikdən məhrumam. Yalnız haqqında yazdığım adamların arasında azad ola bilirəm, amma bu, illüziyadır.

Mən kimin üçün yazmalıyam? Öz yaxınlarının kəllə çanağından isti beynini yeyən, onların qanı ilə mağara divarlarında sənət əsərləri çəkən mağara adamı yox olub, ona bərabəri olan da bugünkü günə kimi yoxdur. Kafirlərin yandırıldığı tonqallar və hər işi bacaranlar dövrü olan İntibah dövrü də keçib. Okeanları və küləkləri cilovlayan ordalar da yoxa çıxıb. Kazarmalara salınan cırtdanların, konservləşdirilən musiqilərin, altından ulduzlara baxmağın mümkün olmadığı dəbilqələrin erası yaxınlaşır. Sonra deyirlər, bərabərlik və azadlıq hökm sürməlidir. Nəyə görə bərabərlik, nəyə görə azadlıq? Axı bərabərliyin olmaması qabağı görən rəmzlərlə dolu olan səhnələr yaradır, ümidsizlik alovu yaradır, fəlakət isə insandan həddən artıq doymadığı daha qiymətli olan nələrisə sıxıb çıxarda bilmir. Mən gərginliyin bu azman azalıb-çoxalmasından imtina eləmək istəmirəm. Əgər bunlar məndən asılı olsaydı, saraylar və xarabalıqlar da, qalalar da qalardı!

– Mənə həddən artıq həssaslığı ilə seçilən rus knyazı haqqında danışıblar, – Stefan söhbətə qoşuldu. – Kəndin yuxarısındakı hündür təpədə yerləşən sarayının pəncərəsindən əsrarəngiz mənzərə açılırmış. Yalnız yaxınlıqdakı üstü küləşlə örtülən bir neçə koma bu mənzərənin görünüşünə xələl gətirirmiş. Və o, komaların yandırılmasına göstəriş verir: yanıb kömürə dönən tirlərin cizgiləri mənzərəyə onun hədsiz axtardığı tonallığı verir. Mənzərə daha təravətli olur.

– Bununla siz məni dolaşdıra bilməzsiniz, – Sekulovski dedi. – Kütlə üçün işləyirik, hə? Əziz doktor, mən Mefistofel deyiləm, amma mən hər hansı bir problemi axıra kimi düşünmək istəyirəm. Filantropiya?[1] Şəfqətli olmağa hormonları qurumuş diplomlu qızlar məhkum ediliblər, inqilabi

[1] Filantropiya – xeyriyyəçilik, insanpərvərlik

nəzəriyyələrə gələndə isə yoxsullar heç vaxt belə şeylərlə məşğul ola bilməzlər. Bununla həmişə yekəqarınlar düşərgəsindən olan mürtədlər məşğul olublar. Yeri gəlmişkən, insanlar üçün həmişə pisdir. Sakitlik, rahatçılıq, firavanlıq axtaranlar onu qəbirdə tapırlar, daha həyatlarında yox. Həm də burada mücərrədlik nəyə lazımdır? Mən dilənçilik içində böyümüşəm, cənab doktor, siz hətta bunun necə olduğunu başa düşə bilməzsiniz. Bilirsinizmi, ilk iş yerimi mən anadan olandan üç ay sonra almışam. Anam məni dilənçi qadına kirayəyə verib, belə ki, uşaqlı qadına daha çox sədəqə verirmişlər. Səkkiz yaşım olanda axşamlar gecə əyləncə yerlərinin həndəvərində naqqallıq eləyirdim və kütlənin içindən ən qəşəng geyinmiş cütü seçirdim. Onlarla daban-dabana gedir və pişiklərin, qunduzların, samurların üzərinə tüpürürdüm, boğazım quruyana qədər ətir və qadın qoxuyan paltoları bacardığım qədəriylə tüpürcəyə bulayırdım... nəyə nail olmuşamsa, öz sayəmdə nail olmuşam. Qabiliyyəti olanlar həmişə başlarını saxlayırlar.

– Bəs qalanları – dahilər üçün gübrədirlər?

Stefan hərdənbir özü belə düşünürdü, bu, onun özüylə özü arasında mübahisə yaradırdı.

O, ehtiyatı unutmuşdu, şair qıcıqlandırılanda kobud olurdu.

– Axx, belə de... – Sekulovski otların üzərində dirsəkləndi və alovlanan buludlara baxıb şübhəli tərzdə gülümsədi. – Sizmi gələcək nəsillər üçün gübrə olmağa üstünlük verirsiniz? Şüşə divarların altına sümüklər kimi uzanmaq istəyirsiniz? Boşlayın, doktor, daha mən bu maraqsız söhbətə dözə bilmirəm.

Stefan özünü təhqir olunmuş hiss elədi.

– Demək, sizə, məsələn, Varşavadakı kütləvi tutatutların, adamların Almaniyaya aparılmasının heç bir dəxli yoxdur? Bizi tərk eləyərək oramı qayıtmaq istəyirsiniz?

– Nəyə görə tutatutlar məni tatarların on üçüncü əsrdəki basqınından daha çox narahat etməlidir? Zamana görə təsadüfən üst-üstə düşdüyünə görəmi?

– Tarixlə mübahisə eləməyin – o, həmişə haqlıdır. Ümid eləyirəm, siz dəvəquşu siyasətinin tərəfdarı deyilsiniz?

– Tarix udur: güclülərin qanunu belədir, – şair dedi. – Əlbəttə, özün üçün bütöv bir dünya olsan da, hadisələr

axınında mən zərrəciyə oxşayıram. Amma heç nə və heç vaxt məni zərrəcik kimi düşünməyə məcbur eləyə bilməz!

– Bəs sizə məlumdur ki, almanlar bütün ruhi xəstələri məhv eləməyi nəzərdə tutan tezis səsləndiriblər?

– Yer üzündə dəlilər, deyəsən, iyirmi milyondur. Bir olmağa çağırmaq lazımdır, müqəddəs müharibə olacaq, – Sekulovski dedi və arxası üstə uzandı.

Günəş daha möhkəm qızdırırdı. Şairin cavabdan boyun qaçırdığını görən Stefan onu axıra kimi sıxmağa cəhd elədi.

– Mən sizi başa düşmürəm. Bizim birinci görüşümüzdə siz ölmək sənəti haqqında danışmışdınız.

Sekulovskinin əhvalı açıq-aşkar korlandı.

– Burada ziddiyyət haradadır? Mən dövlətin müstəqilliyinə tüpürmək belə istəmirəm. Yalnız mənəvi müstəqillik vacibdir.



– Mahiyyət etibarilə, sizə görə, başqa adamların taleyi...

Sekulovski ayağa sıçradı, onun sifəti gərilmişdi.

– Sən heyvansan! – o bağırdı. – Sən həyasızsan!

Sözünü deyən kimi də enişlə üzüaşağı qaçmağa başladı. Qəlbinin dərinliklərinə qədər məyus olan Stefan qanın üzünə necə vurduğunu hiss eləyərək onun arxasınca qaçdı. Şair dayandı və qışqırdı:

– Təlxək!

Onlar artıq sanatoriyaya yaxınlaşırdılar, Sekulovski sakitləşmişdi və divara baxaraq dedi:

– Cənab doktor, siz pis tərbiyə olunubsunuz; mən deyərdim ki, siz söhbət zamanı mütləq məni sancmağa cəhd eləyəndə ədəbsizlik eləyirsiniz.

Stefan qəzəblənmişdi, amma göstərməyə cəhd eləyirdi ki, o, həkimdir, xəstəyə onun hərəkətlərini bağışlamağı bacarır.

Üç həftədən sonra Tşinetski Kaytersin şöbəsinə keçdi. İşə başlamamışdan əvvəl yeni rəhbərliyə təşrif gətirdi. Cərrah özü qapını Stefanın üzünə açdı, onun əynində həddən artıq geniş olan gümüşü güləbətinli boz pencək vardı. Stefan üzr istədi və onlar qaranlıq dəhlizlə qonaq otağı-

na gedərkən əvvəlcədən hazırladığı nitqinə davam elədi, qonaq otağında isə susdu.

İlk təəssüratı bənövşəyi damarcıqları vuran qara mina ilə üzlənmiş tunc rəngli çiçək oldu. Tavandan zəncirin həlqələrinə oxşayan solğun rəngli yarpaqlar asılı qalmışdı, döşəməyə qara-portağal rəngli ərəb xalçası sərilmişdi. Qravüraların, qara çərçivələrdə olan şəkillərin, yol qırağındakı kilsələr kimi dar olan, fərəhlə rəngdən-rəngə çalan şüşə qapılı şkafların, ayaqlığın üzərinə qoyulmuş camış buynuzlarının arxasından divar görünmürdü. Yaxınlıqdakı divarlardan timsahlar qayçının tiyəsinə oxşayan sarı dişlərini ağardırdılar, nə az, nə çox, ağaca dönmüş vəhşi bitkilər. Çox alçaq olan stolun üzərinə doqquzkünclü cilalanmış şüşə örtülmüşdü, şüşənin altında kəhrəba və qəhvəyi rəngli heç nəyə oxşamayan fantastik çiçəklər var idi. Divarın hər iki tərəfi ilə qarışıq şəkildə kitablar qalaqlanmış şkaflar düzülmüşdü: dəri cildləri olan, çoxdan nəşr olunduğundan mamır bağlamış, qıraqları qızılı rəngdə olan qalın kitablar... Boz, al-qırmızı və ala-bəzək cildləri olan, rəflərin qabaq tərəfinə yığılan nəhəng atlas-albomlar oyuncaqlara oxşayırdı.

Kayters qonağını əyləşdirdi, Stefan isə hələ də baxışlarını yapon qravüralarından, qədim hind bütlərindən və çinidən olan parıltılı əşyalardan çəkə bilmirdi. Kayters çox şad olduğunu dedi və özü haqqında azacıq danışmasını xahiş elədi: onların yaxından tanış olmaları lazım idi. Bu dalda-bucaqda intelligent adamlara təsadüfi hallarda rast gəlinir. O, ixtisas əldə etmək istəyirmi?

Stefan cavabında nəsə donquldadı, məmnunluqla dəridən üz çəkilmiş nəhəng aerodinamik kreslonun qolunu örtən çesuçanın[1] sıx saçaqlarını sığalladı. Tədricən alışmağa başladı, otağın pəncərəyə birləşən hissəsi bütün kabinetə xidmət eləyirdi. Nəhəng yazı stolunun üzərindən şəkillərin surətləri və gips maskalar asılmışdı. Bəzilərini o tanıyırdı. Orada eybəcər adamların bütöv bir qalereyası var idi: sısqa, ilbizəbənzər bədənciklər, boyunsuz başlar, qurbağasayağı kəsintisi olan gözlər, qurdabənzər dillə dolmuş yarıaçıq ağızlar. Şüşənin altında Leonardo da Vinçinin işlərindən bir neçə qaşqabaqlı, iyrənc sifətlər var idi, çənəsi köhnə başmağın burnu kimi dimdik durmuş və

---

[1] Çesuça – kətan kimi toxunan sıx ipək parça

göz yuvaları büzüşmüş yuvaya oxşayan birisi ona baxırdı. Orada müəmmalı şəkildə kəllə tasları dəyişdirilmiş və qulaqları yarasaların qanadlarına oxşayan, iti almacıq sümüklü qəddar Qoyi də var idi. Pəncərələrin arasındakı aralıqdan Santa Mariya Formosa kilsəsindən gətirilmiş böyük gips sallanırdı, sifətinin sağ yarısı dişlərini qıcırdan mənfur əyyaşa mənsub idi, sol yarısı isə şişlərlə örtülmüşdü; bu şişlərdə şişmiş gözlər və beləoxşar seyrək dişlər görünürdü.



Qonağın maraq göstərdiyini hiss eləyən Kayters öz xəzinəsini məmnunluqla göstərməyə başladı. O, çılğın kolleksiyaçı idi. Onda dəlilərin qədim üsullarla müalicə olunmasını göstərən Menyenin qravüralarından ibarət olan böyük bir albom var idi, nəhəng ağac barabanlarda fırlanma, hiyləgərcəsinə düzəldilmiş sancan iynələri olan qandal. Fışıldayan ilanlarla dolu olan quyu, guya, adamların burada olması dumanlanan şüurlara sağaldıcı təsir göstərirdi, boyunbağı kimi boyunda asılan zəncirlə birləşdirilmiş dəmir armudlar isə xəstə qışqırmasın deyə ağzına salmaq üçün idi.

Yazı stolundan kresloya qayıdan Stefan şkaflarda cərgə ilə düzülən hündür bankaları gördü. Bulanıq məhlulun içərisində bənövşəyi və tünd-göy rəngdə olan nəsə üzürdü.

– Bax, bu, mənim kolleksiyamdır, – Kayters dedi və növbə ilə qara çubuğu bankalara vurmağa başladı. – Bu – *cephalothoracopagus*, sonrakı – *craniopagus paretalis*, eybəcərliyin çox gözəl nümunəsi və bir dənə çox nadir təsadüf olunan *epigastrius*[1]. Bu heyranedici *diprosops*un axırıncı meyvəsi, harasındansa ayağabənzər nəsə çıxır, təəssüf ki, doğum vaxtı yüngülcə zədələnib. Bir neçə dənə də az maraq doğuranlar var...

Kayters üzr istədi və qapını azacıq açdı. Çininin yüngülcə cingiltisi eşidildi və əlində qara laklanmış sini olan xanım Kayters içəri girdi; sinidə gümüşü haşiyələri olan al-qırmızı rəngli qəhvə fincanları buğlanırdı. Stefan yenidən heyrətləndi.

Ameliya xanımın yumşaq, böyük ağzı var idi və bir qədər kişi gözlərinə oxşayan gözləri ciddiydi. Gülümsəyər-

---

[1] Epigastrius, diprosops – siam əkizləri (*lat.*)

kən donuqcasına işıldayan iti dişlərini göstərdi. Ona gözəl demək olmazdı, amma baxışları özünə cəzb eləyirdi. Başının yanlarında qara saçlarından möhkəmcə hörülmüş qısa hörükləri qadının hər bir hərəkətində qulaqlarının altında sırğalar kimi yırğalanırdı. O, əllərinin gözəl olduğunu bilirdi və qolu qısa olan kofta geymişdi, sinəsində ametist[1] üçbucaq sancaq var idi.

– Bizim kiçik fiqurlarımız xoşunuza gəlirmi? – cərrah xəbər aldı və vikinqlərin qayığı formasında olan qəndqabını ona tərəf çəkdi. – Nə demək olar, bizim bunca imtina elədiyimiz adamların orijinal olmağa haqqı var.

– Bizim ev yumşaqcasına döşənmiş yuvacıqdır, – Ameliya xanım dedi və barmaqlarının ucu ilə səssizcə kresloya dırmaşan pişiyə toxundu. Donunun qara büküklərində onun budlarının cizgiləri əyani və yüngülcə hiss olunurdu.

Stefan artıq heyrətlənmirdi, təəssüratları isə canına hopdururdu. Qəhvə çox gözəl idi, çoxdan belə ətirli qəhvə içməmişdi. İnteryerin fraqmentləri, sanki, Macarıstanın nə demək olduğunu bilməyən, amma «macar knyazının salonu»nu göstərmək niyyətində olan Hollivud rejissorundan borc alınmışdı. Kaytersin mənzilinin qapıları bıçaq kimiydi, xəstəxananın kafel divarları və istilik batareyaları silinib təmizlənmiş ağlığı ilə bütün şöbələrdə gözə girirdi.

Cərrahın sarı sifətinə, eynəyin şüşələri altında həyəcanlandırılmış kəpənəyin qanadı kimi titrəyən kirpiklərinə baxan Stefan bu otağın Kaytersin təsəvvürlərinin qəlbi olduğunu düşündü. Bu fikir söhbət Sekulovski haqqında gedən anda onun ağlına gəldi.

– Sekulovski? – cərrah çiyinlərini çəkdi. – Hansı Sekulovski? Onun soyadı Sekuladır.

– O, soyadını dəyişdirib?

– Yox, nəyə görə? Hə, o, kitabdan ötrü qalmaqal qızışanda ləqəb götürdü. – Kayters arvadına tərəf döndü.

Ameliya gülümsədi.

– «Dövlətin mənafeyi haqqında düşüncələr». Oho, demək, siz onu oxumayıbsınız? Doğrudanmı? Yox, o kitab bizdə yoxdur. Nə qədər hay-küy oldu... Orada nə vardı? Di... ümumiyyətlə... mühakimələr. Sanki, hər şey haqqındaydı. Amma ən çox kommunizm haqqındaydı. Sollar

[1] Ametist – şəffaf, göy və ya bənövşəyi rəngli qiymətli daş

onun üzərinə atıldılar... bu, onun üçün böyük reklam oldu. Hər yerdə görünməyə başladı.

Stefan başını aşağı salaraq dırnaqlarına baxmağa başladı.

Ameliyanın birdən ağlına gəldi:

– Mən özüm bunu öz-özlüyündə xatırlamıram. Mən balaca idim. Mənə artıq sonra danışdılar. Mənə onun şeirləri xoş gəlirdi.

Qadın rəfdən bir kitab götürüb Stefana uzatdı. Bu zaman rəfdən döşəməyə elastiki, açıq rəngli cilddə olan bir kitabça da düşdü. Stefan cəld köməyə atıldı. O, kitabı döşəmədən qaldıranda Kayters barmağıyla onu göstərdi.

– Gözəl cilddir, eləmi? Nadir cilddir, – o dedi. – Qadın budlarının içəri tərəfinin dərisindən hazırlanıb.

Stefan lazım olduğundan tez əlini çəkəndə isə cərrah kitabı ondan aldı.



– Mənim ərim qəribə adamdır, – Ameliya xanım dedi. – Amma toxunduğunuz cild necə də yumşaq idi.

Stefan nəsə mızıldandı və büsbütün tər-su içində öz yerinə qayıtdı.

O, «bütün bunlar əcaib şeylərin bir yerə yığılmasıdır» deyə düşündü, sanki, xəstəxana korpuslarına qapanmış insanın parafraz[1] vəziyyətidir. Buna oxşar olaraq, uyğun olmayan şəraitlərdə böyüyən çiçəklər mutasiyaya uğrayır, adi şəhər evlərinin həyətində böyüməyən adam da belə qəribəliklərə qapılır. Amma sonra özü özünə düzəliş verdi, bəlkə də, məhz buna görə də o, başqaları kimi deyil, Kayters şəhərdən imtina eləmiş və bu tutqun, bənövşəyi interyeri yaratmışdı.

Ameliya danışarkən (onun səsi astadan çıxırdı) əlini məlahətlə üzünə doğru qaldırır və sanki, özü də bunu hiss eləmədən iri barmaqları ilə gözəl bir hərəkətlə gözlərinin, ya da ağzının küncünə yüngülcə toxunurdu.

Artıq vidalaşarkən Stefan pərdənin arxasındakı şəffaf çəni gördü, şüşəsinin üzərində günəş şüaları rəngdən-rəngə çalırdı. Suyun üzərində üst tərəfdən yaşıltəhər rəngə çalan balaca qızılı balıq üzürdü, heç şübhəsiz ki, ölmüşdü. Bu mənzərədən baxışlarını çəkmək çətin idi, o, özünü ağır zehni işdən sonra olduğu kimi əzgin-yorğun

---

[1] Parafraz – bir ifadənin təsviri

hiss edirdi. Şam yeməyinə getmək istəmirdi, amma buna diqqət yetirəcəklərindən ehtiyat eləyirdi və özünü getməyə məcbur elədi. Nosilevskaya, həmişə olduğu kimi, stolun arxasındaydı, bir qədər yuxulu, iltifatlı görünürdü, təsadüfi hallarda gülümsəyərdi və indi bu, xüsusilə xoşagələn idi. Staşek onu gözləri ilə yeyirdi, axmaq, bunu heç kimin hiss eləmədiyini düşünürdü.

Gecə Stefan heç cür yata bilmirdi və nəhayət, lüminal atmalı oldu. Əlində ölü balıqlarla dolu səbət olan xanım Kayters yuxusuna girdi. O, balıqları ətrafında dayanmış həkimlərə paylayırdı. Qadın ona yaxınlaşanda o, yuxudan oyandı, ürəyi şiddətlə vururdu və artıq səhərə kimi yata bilmədi.

Sekulovski, ümumiyyətlə, özünü təhqir olunmuş hesab eləmədi, Staşek vasitəsilə xəbər göndərdi ki, Tşinetski səhər ona baş çəksin. Stefan dərhal da səhər yeməyindən sonra getdi. İndi özünü başqa cür aparırdı, şairin çiyinlərini şappıldatmırdı, ona yuxarıdan-aşağı baxmırdı. Hələ də hərdənbir etiraz eləməyə, onun ideyalarını tənqid eləməyə cəhd göstərirdi, amma indi özü onlara bir dayaq kimi ehtiyac duyurdu.

Şair pəncərənin yanında oturmuşdu, sərbəst surətdə söhbət eləyən adamlarla dolu salonun təsvir olunduğu böyük fotoşəklə baxırdı.

– Sifətlərə baxın, – o dedi, – bu tipik Amerika sifətlərinə. Necə də özlərindən razıdırlar, hər şey necə də dəqiq müəyyənləşdirilib – nahar, şam, yataq və yeraltı işlər. Bir dəqiqə belə şeylərin qəddarlığı, metafizika haqqında düşünməyə vaxtları yoxdur. Həqiqətən də, görünür, Qədim Dünyada anadan olandan alınlarına belə yazılıb, biz yalnız müxtəlif növ əzablar seçməyə məhkumuq – çox hörməti olanı və ya az hörməti olanı.

Stefan Kaytersə təşrif aparmasından danışdı. O, Sekulovskiyə öz həmkarı haqqında danışmaqla xəstəxana qanunlarını pozduğunun fərqindəydi, amma özü qəlbində özünə haqq qazandırırdı, onlar hər ikisi bu qanunlardan yuxarıdaydı. Məlum işdir, Kaytersin Sekulovski haqqında dediklərinin üstündən sükutla keçdi.

– Cəfəngiyat danışmayın, – şair mehribancasına etiraz elədi. – Hansı eybəcərlikdən danışırsan? Sənətdə hər şeyi ya yaxşı, ya da pis eləyirlər – başqa cür ola bilməz. Van-Qoq sizin üçün köhnə gecə güvəcini elə çəkir, ağzını ayırıb baxırsan. Xalturaçı isə ən gözəl qızı eybəcərləşdirir. Məsələnin mahiyyəti nədədir? Ondadır ki, insanın içini-içalatını çıxartmaq əhəmiyyətsiz işdir. Dünyanın işıltısı, ölmənin bağışladığı təsir, fəlakət və nötqə.

Stefan qeyd elədi ki, hər halda, belə muzeydə yaşamaq mənasızdır.

– Siz bunu lazımi qədər qiymətləndirmirsiniz? Ədalətsizlikdir. Bəlkə, pəncərəni bağlayasınız? – şair xahiş elədi.

Parlaq işıqda o, xüsusilə solğun görünürdü. Külək həyətdən çiçəkləmiş maqnoliyanın zəhlətökən qoxusunu gətirirdi.



– Yadınızda saxlayın, – Sekulovski davam elədi, – hamı hər şeydə mövcuddur. Ən uzaqda olan ulduz çiçəyin qönçəsinə təsir eləyir. İndiki səhərin şehinə dünənki bulud. Hər şey, hər yerdə mövcud olan bir-birindən asılı şəkildə bir-birinə hörülür. Heç bir şey digərlərinin asılılığından qurtara bilməz. Bununla belə, insan düşünən əşyadır. Sizin yuxularınızda daşlar və sifətlər əks olunur. Çiçəklərin qoxusu bizim fikirlərimizin istiqamətini əyir. Axı nəyə görə də təsadüfən əmələ gələn şeyi heç nəyə əsaslanmadan yaratmayasan? Özümüzü qızıl şax-şax oyuncaqları və fil sümüyü ilə əhatə eləyəndə biz, elə bil, akkumulyatora qoşuluruq. Barmaq boyda büt – rəssamın illərlə toplanan, yığılan fantaziyasının məhsuludur. Və budur, yüzlərcə saat əbəs yerə itirilməmişdir: onların ətrafında qızınmaq olar...

Şair susdu, sonra isə köks ötürərək davam elədi:

– «Kifayətdir hərdənbir daşa baxmağım»... Mənim şerim deyil, – izah elədi, – Çanq Kiu Lin yazıb. Böyük şair.

– Qədim şairdir?

– Səkkizinci əsr.

– Siz deyirsiniz: «düşünən əşya», – Stefan dedi. – Axı siz materialistsiniz, hə?

– Mən materialistəmmi? Oy, təsnifləşdirmək sehrbazlığı! Mən güman eləyirəm ki, insan və dünya eyni maddiyyatdan yaradılıb, hərçənd sözün hüdudlarından kənar-

da onun nə demək olduğunu bilmirəm. Amma bu, tağın bir-birini saxlayan iki qübbəsidir. Heç biri ayrılıqda yaşaya bilməz. Siz deyərsiniz, onsuz da, fərqi yoxdur, biz öləndən sonra da bu stol olacaq. Amma kimin üçün? Axı milçəklər üçün bu artıq «bizim stol» ola bilməz. Nə qədər ki əşya dərhal dağılır, «ümumiyyətlə, varlıq» mövcud deyil, «stol adamsız mövcuddur» – necə yəni? Dörd ayaqcığı üzərindəki laklanmış taxta kimi? Oduncağın mumiyalanmış hüceyrələr yığını kimi? Sellülozun kimyəvi zəncirlərinin xaosu kimi, nəhayət, elektron dumanının fırlanması kimi? Nəticə etibarilə o, sanki, həmişə kiminsə üçündür. Bax pəncərənin qabağındakı ağac; o, mənim üçündür, ya da onun şirəsi ilə qidalanan mikrob üçün. Meşənin xışıldayan hissəsi, göyün fonundakı budaqlar mənim üçündür, mikrob üçünsə yeganə yarpaq yaşıl okeandır, budaq isə bütöv bir aləmdir. Belə, mənim üçün və mikrob üçün hansısa ümumi ağac varmı? Cəfəngiyat. Onda nəyə görə bizim nöqteyi-nəzərimiz əsas götürülməlidir, daha mikrobunku yox?

– Ona görə ki, biz mikrob deyilik, – Stefan söhbətə nöqtə qoydu.

– Hələlik deyilik, amma olacağıq. Torpaqda minlərlə azot bakteriyasına çevriləcəyik, ağacların köklərinə keçəcəyik, bizim indi elədiyimiz kimi filosofluq eləyən və bizim bədənlərimizdən nəmlənən, qızarmağa başlayan buludları məhəbbət dolu gözləri ilə seyr eləyən kiminsə yediyi almaya daxil olacağıq. Beləcə, dairəvi davam eləyəcək. Çevrilmələrin sayı hüdudsuzdur.

Özündən razı qalan Sekulovski siqaret çəkdi.

– Demək, siz ateistsiniz?

– Hə, amma buna baxmayaraq, mənim kiçik kilsəm var.

– Kiçik kilsə?

– Siz, bəlkə, «Mənim bədənimə dua»nı oxuyubsunuz?

Stefan bu ağciyərlər, qaraciyərlər, böyrəklər üçün himni xatırladı.

– Əsl müqəddəs yerlər...

– Bu şeirdir. Mən öz fəlsəfi baxışlarımı və yaradıcılığımı məhdudlaşdırıram, heç kimə artıq yazılmış şeylərə görə mənim haqqımda mühakimə yürütməyə icazə vermirəm,

– Sekulovski gözlənilməyən qeyzlə dedi və siqareti stolun altına atıb davam elədi: – Bəzən mən, hər halda, dua eləyirəm: «Allaha, hansı ki yoxdur». Nə vaxtsa bu, ümumiyyətlə, məni qane eləyirdi. Amma indisə... Kortəbii qüvvələrə dua eləyirəm.

– Necə dediniz?

– Kortəbii qüvvələrə dua eləyirəm. Axı əslinə qalarsa, bizim bədənimizi, dünyanı və mənim hazırkı anda dediyim sözləri də onlar idarə eləyirlər. Mən onların mənim duamı qəbul eləmədiklərini bilirəm, – şair gülümsədi, – amma... məgər bu fəlakətdir?

Saat on birə yaxınlaşırdı. Stefan istəsə də, istəməsə də səhər yoxlamasına getməli oldu. Səkkizinci təcrid otağında alçaqboylu, iri sümüklü keşiş Nezqloba olurdu, onun əllərində, sanki, bənövşəyi damarcıqlarla tor hörülmüşdü. Görünür, nə vaxtsa bu əlləri ilə çox işləyəsi olmuşdu.



– Özünüzü necə hiss edirsiniz? – Stefan içəri daxil olaraq mehribancasına soruşdu.

Keşişi sakitləşdirmiş və cübbəsini geyməyə icazə vermişdilər, cübbə xəstəxana otağının ağlığında formasız ləkə kimi qaralırdı. Stefan nəzakətli olmağa səy göstərirdi, çünki şöbənin müdiri Marqlevskinin yaxşı əhvalda olan dəqiqələrdə keşişi «göylər çarlığının elçisi» adlandırdığını və kilsə yepiskoplarının həyatından bəhs eləyən lətifələrlə əyləndiyini bilirdi. Cılız doktorun bu sahədə böyük usta olduğunu bilirdi.

– Bu, mənə əziyyət verir, cənab doktor.

Keşişin səsi incə idi, hətta həddən artıq şirindi. O, hədsiz sayda təkrar olunan qarabasmalardan əziyyət çəkirdi, bir dəfə xaç suyuna salma mərasimində içəndən sonra arxasında qadın səsi eşitmişdi. Diqqətlə ətrafa baxmışdı, anlaşılmayan səs onun gözləri ilə görə bilmədiyi yüksəklikdən gəlirdi.

– Elə həmin fars şahzadəsidir?

– Hə.

– Amma axı siz bunun yalnız sizə belə gəldiyini, qarabasma olduğunu başa düşürsünüz?

Keşiş çiyinlərini çəkdi. Onun gözləri yuxusuzluqdan çuxura düşmüşdü, qara göz qapaqları xırda damarlarla örtülmüşdü.

– Sizinlə mənim söhbətim də real olmaya bilər, o səsi də mən sizin səsiniz kimi aydın eşidirəm.

– Hə-hə, lütfən, ruhdan düşməyin, bu keçəcək. Amma artıq sizə bir damcı da spirtli içki olmaz.

– Heç vaxt bunu özümə rəva görməzdim, – keşiş döşəməyə baxaraq tövbə edirmiş kimi dedi, – amma mənim kilsədəki adamlarım dözülməz adamlardır. – O ah çəkdi. – İnciyirlər, hirslənirlər, inadkarları isə... Bax, onları incitməmək üçün...

– Hm...

Stefan mexaniki olaraq əzələ reflekslərini yoxladı və çəkici xalatının cibində gizləyərək ayrılanda soruşdu:

– Ata, bəs siz bütün günü nə işlə məşğul olursunuz? Sizə darıxdırıcı deyilmi? Bəlkə, sizin üçün hansısa bir kitab gətirim?

– Mənim... kitabım var.

Həqiqətən də, keşişin qabağında qara cildli qalın kitab var idi.

– Hə? Bəs siz nə oxuyursunuz?

– Mən dua eləyirəm.

Stefan birdən «Kortəbii qüvvələr»i xatırladı və bir dəqiqəliyə qapıda dayandı. Sonra bacardığı qədər cəld otaqdan çıxdı.

Nosilevskayanın şöbəsində, ümumiyyətlə, o artıq olmurdu. Onu əvvəlcə uşaqlıqda Ksaveriy əminin qanlı şəkillərlə dolu olan anatomiya atlası kimi cəlb eləyən xəstələrin şəxsi talelərinə indi artıq biganəydi. Qoca Paypakla hərdənbir bir neçə kəlmə kəsirdi, bəzənsə səhər yoxlanışında ona assistentlik eləmək üçün çağırılırdı.

Kayterslə işləyərkən onun şöbəsindəki böyük tibb bacısını yaxından tanıdı. Soyadı Qonzaqa idi. Kök, bir neçə don geyən, iri sümüklü qadın ciddi görünürdü. Amma ciddiliyi yalnız, bir növ, ümumi idi, çünki onun qəzəbləndiyini kimsə nə vaxtsa görməmişdi. O, insanın təsəvvürlərinə uyuq sərçələrə təsir eləyən kimi təsir eləyirdi. Ağzından yanağına doğru göyümtül rəngə çalan çoxlu qırış uzanırdı. İri əllərində həmişə nəsə olurdu – ya dəri pulqabı açarıyla, ya təyinatlar yazılmış kitab, ya da xeyli salfet. İçində şprislər olan sinini o gəzdirmirdi, bunun üçün xəstə baxıcıları var idi. Ağıllı-başlı cərrahiyyə şöbəsinin tibb bacısı idi,

qaradinməz və təkiydi, sanki, onun həyatında heç kim yox idi. Ona yalnız Kayters hörmətlə yanaşırdı. Bir dəfə Stefan ucaboylu cərrahın, sanki, özünü onun qarşısında təmizə çıxardırmış kimi hər iki əllərini sinəsində çarpazlayaraq çiyinlərini necə əsəbicəsinə çəkdiyini gördü: onu nəyəsə inandırmağa çalışır, ya da xahiş eləyirdi. Qonzaqa bacı bütün nəhəng bədənini dartaraq tərpənmədən dayanmışdı, pəncərə şəbəkələrinin kölgəsiylə sifəti iki yerə bölünmüşdü, kirpiksiz gözlərini qırpmırdı. Səhnə o qədər qeyri-adiydi ki, Stefanın yaddaşına birdəfəlik həkk olundu. Bir daha bu mənzərə təkrarlanmadı. Böyük tibb bacısını dəhlizdə gündüz və gecə görmək olardı, ayaqları çoxlu donunun altından görünmürdü, demək olar, dəhlizdə ay kimi üzürdü, xüsusilə də arxadan baxanda belə görünürdü, adama elə gəlirdi ki, onun buynuzaoxşar ləçəyi tutqun qalereyanı işıqlandırır.



Stefan onunla yalnız xəstələrə təyin olunan müalicələr və dərmanlar haqqında söhbət eləyirdi. Bir dəfə necə oldusa Sekulovskidən ayrılandan sonra növbətçinin şkafında hansısa bankanı axtarırdı və böyük tibb bacısı da təyinat kitabına nəsə yazırdı, birdən dilləndi:

– Sekulovski dəlidən də pisdir, o hoqqabazdır.

– Bağışlayın, – Stefan geri döndü, kimə ünvanlandığı məlum olmayan bu xəbər onu heyrətləndirmişdi. – Bacı, siz bunu mənəmi deyirsiniz?

– Yox. Ümumiyyətlə, – qadın cavab verdi və dodaqlarını kip sıxdı.

Məlum işdir, Tşinetski şairə bu insident haqqında danışmağa cürət eləmədi, amma hər halda, soruşdu: o, Qonzaqa bacını tanıyırmı? Amma Sekulovskini köməkçi heyət maraqlandırmırdı. Kayters haqqında fikrini yığcam ifadə edirdi:

– Sizə elə gəlmirmi, onun intelligentliyi təmtəraqlıdır?

– ?

– O elə bayağıdır...

Hasarın iki divarının yaratdığı, baxımsız və sanki, başlıbaşına buraxılmış, söyüd çubuqlarının dırmaşdığı, indi daha açıq yarpaqsız olan küncdə əsəbi, psixi pozğunluq-

dan əziyyət çəkənlərin korpusu yerləşirdi. Stefan ora təsadüfən baş çəkirdi. Əvvəlcə bu Avgi tövlələrini[1] təmizlətdirmək niyyətindəydi, korpus pəncərələri, sanki, göy tavanlara yapışdırılmış yarıqaranlıq palatalarda xəstələr hərəkətsiz dayanmış, uzanmış və diz çökmüşdülər. Amma tezliklə bu islahatçı layihələri başından çıxartdı.

Dəlilər torların üzərində yatacaq olmadan uzanmışdılar. Onların çirkab içində olan bədənləri məftil torlu sığınacaqlarına uyğun olan rəsmin irinli çibanları ilə örtülmüşdü. Havaya nəcisin və ammonyakın acı üfunət qoxusu hopmuşdu. «Bu, cəhənnəmin axırıncı dairəsidir», – bir dəfə Stefan buranı belə adlandırmışdı, xəstəxananın xidmət heyəti də bura təsadüfən baş çəkirdi. Sanki, hansısa gözə görünməyən qüvvə şüurları sönmüş bu adamları sağ saxlayırdı. Stefanın diqqətini iki oğlan cəlb elədi: birincisi kiçik bir kənddən olan, yerkökü rəngində cod saçlarla örtülmüş başı şar formasında yəhudi oğlan idi, həmişə lüt gəzirdi, hər dəfə kimsə onun ayrıca balaca hücrəsinə girəndə adyalı başına çəkərək büzüşüb çarpayının üstündə otururdu. O, ara vermədən sonsuza qədər zingiltili səslə idiş[2] dilində hansısa iki sözü təkrarlayırdı. Ona yaxınlaşanda səsini dua edirmiş kimi şikayət dolu fəğana qədər qaldıraraq titrəyirdi. Onun mavi gözləri, sanki, birdəfəlik və əbədilik çarpayının dəmir ramasına dikilmişdi. İkincisi, küləş rəngli saçı olan sarışın oğlan ümumi palatanı yəhudinin hücrəsindən ayıran genişlikdə dolaşırdı – küncdəki çarpayıdan divara qədər və oradan da geriyə. Bu səkkiz addımlıq işgəncə gəzintisində o, hər dəfə qolaylanaraq çarpayının dəmir arxalığına dəyir, amma bunu hiss eləmirdi. Budundan yuxarıda şişmiş yarası qaralırdı. Yad adamın addım səslərini eşidəndə buna qədər sinəsində çarpazladığı əllərini yuxarı qaldırıb üzünü örtür, amma gəzişməyinə ara vermirdi. Bir növ, uşaq kimi inildəməyə başlayırdı – bunu kişinin dilindən eşitmək qəribə idi, hərçənd bu anda o məhz uşağa dönürdü. Onun şüurun hakimiyyətindən azad olmuş bədəni vəhşi qanunu ilə yaşayırdı – köynəyinin

[1] Bu ifadə əfsanəvi yunan padşahı Avginin adından götürülmüşdür; əfsanəyə görə, həmin padşahın 30 il ərzində təmizlənməmiş tövlələrini Herakl bir günə təmizləmişdir.

[2] Əsasını alman dialektlərindən biri təşkil edən müasir yəhudi dili

açıq yaxasından işıldayan əzələləri onun boylu-buxunlu qamətinə əzəmətli görkəm verirdi. Göyümtül rəngə çalan gözünün ağı ilə diqqəti cəlb eləyən divar kimi ağ sifətində ya sual ifadəsi, ya da yalvarış donmuş olurdu.

Bir dəfə günortadan sonra həmişəkindən fərqli bir vaxtda özünün bir təxminini yoxlamaq üçün Stefan ora baş çəkdi: xəstə baxıcısı Yevanın oğlanlarla pis rəftar elədiyindən şübhələnirdi; belə ki, həmişə onun gəlişindən sonra onlar çox həyəcanlanmış olurdular. Yəhudi elə titrəyirdi ki, dəmir tor cırıldayırdı, boylu-buxunlu sarışın isə, az qala, qaçaraq dəhlizə çıxır, çarpayının arxasına çırpılır, kənara sıçrayaraq divara dəyirdi.

Palataları yarıqaranlığın tutqun, qatılaşan toranlığı bürümüşdü. Külək söyüdün budaqları ilə pəncərələri döyəcləyirdi. Stefan dəhlizdəcə donub-qaldı: Nosilevskaya yəhudinin çarpayısının yanında dayanmışdı, tələsmədən adyalı onun başından çəkir, yoğun, qırmızı barmaqlarını adyalın altından salmağa cəhd eləyərək qeyi-adi yüngül və nəvazişli hərəkətlərlə xəstənin pırtlaşıq, cod saçlarını sığallayırdı. Sifətini pəncərəyə doğru döndərərək o, deyəsən, harasa uzaqlara baxırdı, hərçənd şüşədən dördcə addım o yana işıq çatlaqların mürəkkəb toru ilə örtülmüş kərpic divarı işıqlandırırdı.

Stefan kənara baxdı – kölgənin zolağında o, ikinci xəstəni gördü; o, özünün aramsız hərəkətinə ara verərək qapının yanına söykənib dayanmışdı və gözlərini pəncərənin fonunda qadının tutqun siluetindən çəkmirdi. Tşinetski palataya girmək, izahat tələb eləmək istədi, amma geri döndü və nə qədər mümkünsə, sakitcə addımlayaraq uzaqlaşdı.

## *ADVOKATUS DİABOLİ*[1]

May ayı idi. Meşə günü-gündən yaşıllaşır, ayparanı xatırladan iki qövs şəklində təpədə ucalan xəstəxananı əhatəyə alırdı. Hər axşam hələ dünənə qədər nəm tumurcuqlar

[1] Advocatus diaboli – katolik kilsəsinin institutlarından birinin qeyri-rəsmi adı. 1587-ci ildə papa V Sikstom tərəfindən tətbiq edilmiş və rəsmən 1983-cü ildə papa II İohann Pavel tərəfindən ləğv edilmişdir. Bu termin şeytanın müdafiəçisi anlamına gəlir.

şəklində budaqlarda yırğalanan yeni çiçəklər, yeni yarpaqlar açılırdı, sanki, uçmağa hazırlaşırmış kimi qanadlarını gərirdi. Artıq tutqun-gümüşü yox, ağlığı ilə göz qamaşdıran ağcaqayınlar birbaşa pəncərəyə yaxınlaşırdı. Söyüdlərin açıq balın bütün çalarlarına çalan ürəkcik-yarpaqları günəşin şüaları altında şişərək parıldayırdı. Təpələrin arasından dövrə vuran yol geniş açılmış sahələrin fonunda yetim görünən, yuxarı dartınan xaçın yanından keçirdi. Orada-burada qum təpələrində gil qabarıb qalxırdı, adama elə gəlirdi ki, kimsə bu təpələrə mehriban gözləri olan arı şanı şəklini atıb.

Kayters Stefana qonşu şəhərdən maşınla gətirilən mühəndisi müayinə eləməyi tapşırdı.

Xəstənin arvadı axır aylarda ərində baş verən qəribə dəyişikliklər haqqında danışdı. O, yaxşı mütəxəssis idi, amma almanların gəlişindən və onun işlədiyi zavod bombardman zamanı dağılandan sonra texniki kurslarda müəllim kimi işə düzəlib. Təmkinli, soyuqqanlı, dazlaşan əri fədakarcasına balıqçılıq eləyir, özünə kitabxana yığır və ət yemirmiş. Milçəyi belə incitməyəcək mehriban birisi kimi ad çıxardıbmış. Yeni ildən onu yuxu basmağa başlayır. İş o yerə gəlib çatır ki, o, nahar vaxtı da mürgüləməyə başlayır; doğrudur, gözlənilmədən oyanırmış, sanki, birdən narahat edilən böcək kimi donub-qalırmış. O, tənbəlləşir, özünü məşğələlərə getməyə məcbur eləyə bilmirmiş, amma evdə isə onu, sanki, dəyişirmişlər, hər kiçik şey onu özündən çıxarırmış, doğrudur, bu da tez keçirmiş. Hər belə qızışandan sonra bir neçə saat yatırmış, yuxudan isə gicgahlarındakı sərt ağrıdan oyanırmış. Hər şeyə rəğmən o, qəribə zarafatlar eləməyə başlayıb, onu elə şeylər güldürürmüş ki, ondan başqa heç kim onda gülməli bir cəhət görmürmüş.

Yekəpərin birisi olan, ən güclüləri belə öz qabarlı əli ilə sakitləşdirməyə qadir, hamının kiçik Yuzef deyə çağırdığı xəstə baxıcısı mühəndisi kabinetə apardı. Dolubədənli, dazı çallaşan saçlarının qıvrcıqları ilə əhatəyə alınmış, tünd-qırmızı rəngli xəstəxana xalatı geymiş kişi çətinliklə stula qədər addımladı və özünü stula şappıltı ilə elə saldı ki, hətta dişləri şaqqıldadı. Suallara uzun sükutdan sonra cavab verirdi, sualları bir neçə dəfə təkrar eləməli olur və nə qədər mümkünsə asan, başa düşülən suallar verirdi.

Stolun üzərindəki stetoskopu[1] görəndə mühəndis astadan qəhqəhə çəkdi.

Xəstəlik tarixçəsini bütün qaydalara uyğun olaraq dolduran Tşinetski reflekslərin müayinəsinə başladı. Mühəndisi yastı divana uzatdı. Pəncərənin arxasında günəş coşmuşdu, kabinetdəki bütün nikelli əşyalar şüa qəlpələrinə dönmüşdü. Stefan çəkiclə xəstənin vətərlərini taqqıldadanda Kayters kabinetə girdi.

– Hə, həmkar, vəziyyət nə yerdədir?

O, diribaş və işgüzar görünürdü. Stefanın məlumatını məmnunluqla dinlədi.

– Bu heyrətləndiricidir, – o qeyd elədi. – Di gəlin belə də yazaq, *suspectio quoad tumorem*[2]. Hələlik. Deyək ki, gözlərinin diblərini yoxlayın. Nəbzini də. Bu...

O, çəkici götürdü və Rabevskinin arıq ayaqlarını taqqıldatmağa başladı.



– Aha? Necə? Haydı, sol dabanınızla sağ dizinizə toxunun. Yox, elə yox. Həmkar, ona izah eləyin, – o, pəncərəyə tərəf getdi.

Stefan ucadan izah eləməyə başladı. Kayters yenidən onlara yaxınlaşdı, pəncərənin yanlarına söykənmiş budaqdan qopartdığı yarpağı əlində əzişdirirdi. Özünün düyünlü barmaqlarını qoxulayaraq məmnunluqla qeyd elədi:

– Çox gözəl. Deməк, sizdə ataksiya[3] da var?

– Doktor, siz elə zənn eləyirsiniz ki, bu, beyin qişası ilə bağlıdır?

– Çox güman ki, yox. Bunu belə aşkar eləmək olmaz. Amma bax, düşüncələrinin pozulması, iradə zəifliyi. İndicə baxarıq. – Bloknotdan bir vərəq cırıb orada bir dairə cızdı və Rabevskiyə göstərdi. – Bu nədir?

– Belə... hissədir... – xeyli düşünəndən sonra mühəndis cavab verdi. Onun səsi iztirabla doluydu.

– Nəyin hissəsidir?

– Çarxın.

– Di buyurun!

Stefan stetoskopla bağlı epizodu danışdı. Kayters əlini sildi.

---

[1] Stetoskop – ürək və ciyərlərin tonunu yoxlamaq üçün boru

[2] Ehtimala görə, şişdir.

[3] Ataksiya – əzələlərin arasındakı ahəngin pozulması, hərəkət ahəngsizliyi

– Əla. *Witzelsucht*[1] Dərslikdə olduğu kimi, eləmi? Əminəm ki, bizdə şiş alın hissəsindədir. Deyəsən, elə belə də üzə çıxacaq. Həmkar, lütfən, öz müşahidələrinizi ətraflı yazın.

Xəstə divanda arxası üstə uzanmışdı, heç bir hiss ifadə eləməyən gözlərini tavana dikmişdi. Səs-küylə nəfəs alırdı, yuxarı dodağı azacıq aralanır və iri, sarı dişləri görünürdü.

Axşamayaxın Stefanın qızdırması qalxdı, başı ağrıyır, sümükləri sızıldayırdı. İki aspirin tozunu içdi. Gözlənilmədən təşrif gətirən Staşek isə dörddəbir litr həcmində spirt gətirdi, bu artıq mütləq kömək eləməliydi. Lakin zəiflik, üşütmə və qızdırma dörd gün axşamlar davam elədi. Yalnız beşinci gün yataqdan qalxa bildi. Səhər yeməyindən sonra dərhal təcridxanaya, Rabevskinin yanına yollandı, onu xəstənin halının necə olması maraqlandırırdı. Əhəmiyyətli dərəcədə dəyişikliklər olmuşdu. Adi alçaq xəstəxana çarpayısını yuxarıdan və yanlardan kəndirdən toru olan xüsusi çarpayı ilə əvəz eləmişdilər. Hündürlüyü qırx santimetr olan bu özünəməxsus qəfəsdə mühəndis, sanki, torun içində uzanmışdı; o, deyəsən, tamam şişmişdi. Çarpayının üzərindən əyilən Kayters onu diqqətlə nəzərdən keçirirdi, elə hey də başını kənara çəkirdi, çünki dustaq onun sifətinə tüpürmək istəyirdi. Xəstənin üst dodağının yuxarısındakı dərin qırışlarla ağ köpük axırdı. Cərrah eynəyini çıxartdı və Stefan ilk dəfə olaraq onun şüşə örtməyən gözlərini gördü. Şişmiş, donuq, tutqun gözlərə əgər lupa ilə baxılardısa, eynən həşəratın gözlərini xatırladardı.

– Şiş böyüyür, – Stefan tərəddüdlə pıçıldadı.

Cərrah onun sözlərini qulaqardına vurdu. O, yenidən kənara sıçradı, çünki Rabevski başını ona tərəf döndərməyə və ağız suyunu fışqırtmağa macal tapmışdı. Xəstə bələnmiş bədəninin əzələlərini gərərək xırıldadı.

– Hərəkətverici zonalara təsir, – Kayters mızıldandı.

– Doktor, siz əməliyyat eləməyi düşünürsünüz?

– Necə?.. Bu gün punksiya[2] eləyirik.

Axşamayaxın Rabevskinin bədəninə işgəncə verən beyni, sanki, qeyzləndi. Xəstənin əzələləri yığılır və tərdən

---

[1] Witzelsucht – *burada*: uyğun gəlməyən güləyənlik (*alm.*)

[2] Punksiya – müalicə məqsədi ilə bədənin bir yerinin şpris və ya başqa bir alətlə deşilməsi

işıldayan dərinin altı ilə sürətlə yayılırdı. Çarpayının toru, sanki, simli musiqi aləti kimi danqıldayırdı. Stefan iki dəfə şprislə gəldi, amma bu, elə də kömək eləmədi, yalnız xloral narkozu hansısa müddətə ağlını itirən adamı sakitləşdirdi. Mühəndis yuxudan oyanandan, aradan keçən bu qədər saatdan sonra ilk dəfə olaraq işığa reaksiya verdi və xırıldadı:

– Bilirəm... bu mənəm... xilas edin....

Stefanın bədəninə üşütmə düşdü. Punksiyadan və litvor məhlulu köçürəndən sonra xəstədə yüngül bir rahatlıq başladı. Kayters bütün günü təcridxanada otururdu, Stefan gələndə isə özünü elə göstərirdi ki, sanki, elə indicə bura refleksləri yoxlamaq üçün gəlib. Tşinetski əvvəlcə heyrətlənirdi: cərrahı bura çəkən nəydi? Sonra bu, onu həyəcanlandırmağa başladı, hər gün keçdikcə cərrahiyyə əməliyyatının uğurlu olacağına inam azalırdı.



Həyəcanlı vəziyyət tezliklə keçdi. Solğun, tük basmış, üç həftə bundan əvvəl bura gətirilən dolubədənli kişiyə qətiyyən oxşamayan mühəndis artıq kresloda otura bilirdi. O, tədricən korlaşmağa başlayırdı. Stefan artıq əməliyyatın tarixini soruşmağa ürək eləmirdi, Kayters açıq-aşkar özünü öz qabında hiss eləmirdi, sanki, nəyisə gözləyirdi. Rabevski onun sevimlisi olmuşdu, mühəndis üçün bir parça qənd gətirir və onun ağzını marçıldadaraq qəndi necə gəmirdiyini, əliylə dizinə, baldırlarına, oynaqlarına toxunaraq öz şəxsi bədəninin vəziyyətini müəyyənləşdirməyə necə cəhd göstərdiyini xeyli müşahidə eləyirdi. Mühəndisin hissləri tədricən sönür, dünyadan təcrid olunurdu. Birbaşa qulağına qışqıranda kirpiklərinin titrəməsi onun hələ eşitdiyini göstərirdi.

10 iyunda Kayters təcridxanadan boylanaraq yaxından keçən Stefanı işarə ilə yanına çağırdı. Palata boş görünürdü, nə stullar var idi, nə də stol. Çılpaq, şişmiş, nəhəng Rabevski yenə də öz qəfəsində idi.

– Həmkar, baxın və qeyd eləyin, – sifəti işıq saçan Kayters göstəriş verdi.

İplərlə bağlanmış bədən titrəyirdi. Xəstənin əli ağlını itirmiş canlı kimi torun üzəriylə sürüşürdü. Sonra bədəni dartınmağa başladı – yuxarı, aşağı, yuxarı, aşağı. Tor cırıldayır, çarpayının dəmir ayaqları döşəməni döyəcləyirdi.

Sanki, çarpayı indicə çevriləcəkdi. Həkimlər onu divara sıxmalı oldular. Xəstənin tutması gözlənilmədən başladığı kimi, gözlənilmədən də ara verdi. Gərilmiş, ağaca dönmüş bədən tordan asılı qalmışdı. Bəzən ayağı və əlləri ilə titrəyişlər yayılırdı. Sonra tamamilə sakitləşdi.

– Bu nədir? Bilirsiniz? – cərrah Stefanı imtahan eləyirmiş kimi soruşdu.

– Şişin təsiri ilə hərəkət sahələrinin qıcıqlanması...

Kayters başqa fikirdəydi.

– Yox, həmkar. Beyin qabığı artıq ölməyə başlayır. «Qabıqsız insan» doğulur! Qabığın qoruyucu təsirindən azad olarkən beyinin hələ zədələnməmiş, daha dərin, daha qədim hissələri hərəkətə keçir. Bu, *Bewegungssturm* – hərəkətverici tufan tutması idi, bu, infuzoriyalardan[1] tutmuş quşlara kimi bütün canlı varlıqlarda təsadüf olunan refleksdir. Həyatına təhlükədən qorxan canlı nizamsız halda vurnuxmağa başlayır, qaçmağa cəhd eləyir. Sonra başlayan keyləşmə – elə həmin reaktiv cihazın ikinci tezliyidir. *Totstellreflex* adlanan ölüm simulyasiyasının refleksidir. Böcəklərdə olduğu kimi. Bilirsinizmi bu necə baş verir? Of! İndi bu, əla alınır! – o, qıcolmadan əziyyət çəkən mühəndisin yay kimi belini bükərək tarım dartınmış torun üzərinə atıldığını görərək həyəcanlanmış halda qışqırdı. – Hə... bu, dördtəpəli cisimdən gəlir. Klassik hadisədir! Milyon il əvvəl, hələ iki həyatlıların – suda-quruda yaşayanların vaxtında istifadə olunan mexanizm beyin kütləsinin qatlara bölünməsi erası arxada qalanda da – indiki insanlarda öz təsirini göstərir...

– Lazımdır... Hər şeyi əməliyyata hazırlamaq lazımdır? – Stefan soruşdu. O daha nə qıcolmalar içində çırpınan bədənə, nə də sevinən cərraha baxa bilirdi.

– Necə? Yox, yox. Mən sizə xəbər verərəm.

Palataları yoxlayarkən Stefan Sekulovskiyə baş çəkdi. Onların əvvəlcə çox qeyri-müəyyən münasibətləri indi artıq birdəfəlik müəyyənləşmişdi: usta və kötəyə itaətlə dözməli olan şagird. Stefan qaydaya uyğun olaraq xəstələr haqqında ona danışmırdı, amma burada qaydadan kənara çıxdı, çünki şərait onu ümidsizliyə gətirib çıxartmışdı və ağıllı

[1] İnfuzoriya – ancaq mikroskopla görünə bilən birhüceyrəli orqanizm

məsləhətə ehtiyac duyurdu. Özü nəsə bir qərara gələ və necə hərəkət eləməli olduğunu da bilmirdi. Paençkovskinin yanınamı getsin? Amma Kaytersdən şikayət kimi başa düşülərdi – hər necə olsa, onun rəisi təcrübəli işçiydi. Şairin qəzəblənməsini, heç olmasa, qızışıb özündən çıxmasını hesaba alaraq, mühəndisin vəziyyətini Sekulovskiyə təsvir eləməyi qərara aldı. Amma o da axır günlər özünü pis hiss edirdi, kiminsə halının daha pis olmasına məmnunluqla qulaq asdı və geniş söhbət üçün Stefana təşəkkür elədi. Sekulovski arxasındakı balışın yerini rahatlayıb (o, yataqda yazırdı) sözə başladı:

– Mən haradasa demişəm (deyəsən, «Babil qülləsi»ndə) ki, insan mənə bax belə bir mənzərəni xatırladır: sanki, kimsə yüzlərcə əsrin ağır əməyinin nəticəsində məftunedici, çox gözəl qızıl heykəlin səthinin hər bir santimetrinə qəribə formalar verərək onu kəsib. Susan melodiyalar, miniatür divar naxışları, bütün dünyanın gözəlliyi və bütün bunlar minlərlə sehrli qanunun təsirinə tabe olaraq tam halında bir yerə yığılıb. Bu qədd-qamətli heykəli peyin horrasını qarışdıran maşının içərisinə yerləşdiriblər. Bax bu da sizə insanın həyatdakı təxmini yeri. Necə də dahilik, necə də zərif icra edilmə! Orqanların gözəlliyi. Fikirlərin dayanıqlığı sayəsində dəmir məntiqlə hər tərəfə qaçışan atomları, elektronların yüngül tüstüsünü, vəhşi hissəcikləri bir yerə yığmaq və bədəni qılafda dustaq eləyərək onlara yad olan tapşırıqları yerinə yetirməyə məcbur eləmək mümkün olub. Hüdudsuz səbirlə oynaqların sadə mexanizmlərinin, dizlərin üslubunun, dairə üzrə axan qanın labirintlərinin, əcaib optik cihazların, əsəb sisteminin arxitekturası, minlərlə və minlərlə bir-birini qarşılıqlı surətdə cilovlayan, öz mükəmməllikləri ilə bizim təsəvvür eləməyə qadir olduqlarımızı belə üstələyən cihazın planlaşdırılması. Bütün bunlar tamamilə faydasızdır!

Sarsılmış Stefan ruhdan düşmüş halda susmuşdu. Şair isə ovcuyla açılmış iri kitabın səhifələrini, bütün çarpayısı boyunca səpələnmiş kağızları, onun xahişi ilə Stefanın gətirdiyi anatomiya atlasını şappıldadırdı.

– Vəsaitin və məqsədin necə də uyğunsuzluğu! Sizin bu mühəndisciyəziniz özüyçün yaşayırmış, hətta onda nələrin dustaq edildiyindən də xəbərsizmiş, sonra isə birdən

hüceyrələr zəncirlərini qırır, indiyə qədər onlarda dustaq edilən, daxilə tuşlanmış, ciyərlərin və bağırsaqların ehtiyaclarını ödəyən qüvvələrə azadlıq verir. Bu, ümidsiz azadlıqdır! Minlərlə divar arasında qalan imkanların partlayışı! Bu ana qədər baramanın içində özünə məskən salmış qəlb necə varsa, elə də üzə çıxır, həm də, sanki, böyüdücü şüşənin altındakı kimi, çarxları qiyama təhrik edilən saatlar kimi.

– Siz xərçəng şişini nəzərdə tutursunuz?

– Siz bunu elə adlandırırsınız. Amma adlandırma nə olan şeydir? Doktor, bilirsinizmi, sizin fikirləriniz, sadəcə olaraq, formalində isladılmışdır. Allah xatirinə, heç olmasa, bir damla təsəvvürünüz olsun. Xərçəng? Bu, cəmicümlətanı «kənara gediş»dir, bir növ, orqanizmin «*Seitensprung*»udur... Bu, mənim canlı hüceyrələri hər cür təsadüflərdən qoruyan kortəbii qüvvələrimin yüz minlərlə üsulundan biridir, görünür, hansısa yarığı təpitmə ilə kifayət qədər dəqiq təpitməyiblər. Hər şey dəqiq hərəkət eləyir, saatlarda olduğu kimi və birdən – gözlənilməyən tullanış! Siz nə vaxtsa uşağın oynayaraq saatdan saniyəölçən əqrəbin çarxını çıxartdığını görübsünüzmü? Hər şeyin necə fırlanmağa başladığını, sanki, eşşəkarısı kimi vızıldadığını və əqrəblərin saatları müəyyən eləmək əvəzinə, azğınlıq eləyərək uydurulmuş vaxtı necə udduğunu görübsünüzmü? Şiş də belədir, üsyan eləyən bir hüceyrədən çıxan balaca zoğdur. Azaddır, siz başa düşürsünüz? Azad... Bu, beyində necə inkişaf eləyir, fikirləri necə çulğalayır, insanın əkdiyi bu səliqəli ləkləri necə yeyir və məhv eləyir...

– Bəlkə... siz haqlısınız... – Stefan cavab verdi. – Amma o, niyə əməliyyat eləmək istəmir?

Şair onun sözünü eşitmədi, o, qızğınlıqla yazırdı, pero elə hey kağız üzərində şütüyürdü. Sükut uzanırdı. Pəncərənin qabağındakı sıx yarpaqların arasından sarı şüaların kölgəsi özünə yol taparaq içəri düşürdü. Otaq işığı uddu, şüa söndü. Heç bir səbəb olmadan Stefanın ürəyi sıxıldı. Hərçənd bunun onların söhbətinə heç bir dəxli yox idi, o, birdən soruşdu:

– Lütfən, deyin... siz nəyə görə «Dövlətin mənafeyi haqqında düşüncələr»i yazıbsınız?

Böyrü üstə uzanmış Sekulovski, sanki, bütünlüklə qıvrıldı və onun gözünə baxdı. Şairin sifətindən qan damırdı,

Stefan isə özündən razı qalmışdı, o, hər halda, bu sualı verməyə özündə cəsarət tapmışdı.

– Bunun sizə nə dəxli var? – Sekulovski Stefana tamamilə yad olan kobud tərzdə cavab verdi, – xahiş edirəm mənim zəhləmi tökməyəsiniz! Mən işləməliyəm!

Və arxasını Stefana çevirdi.

Stefan Kşeçotekin yanına getdi. Bəlkə, o? Dostu çoxdan öz doktorluq dissertasiyasını yazmış və onu lentlə sarıyaraq stolun gözünə qoymuşdu. O vaxtdan da onun qarşısında təhlükəli geniş bir boşluq açılmışdı. Xəstəxana onu maraqlandırmırdı, xəstələr onu təngə gətirirdilər. O nə gəzə, nə otura, nə də uzana bilirdi. Hər an gözlərinin qarşısında Nosilevskaya dayanırdı.

– Sən qərara gəlməlisən, – Stefan dedi, onun birdən Staşekə yazığı gəldi. – İstəyirsənsə, mən bu gün onu dəvət eləyərəm, sən də gəl, sonra mən deyərəm ki, guya, əməliyyata hazırlaşmalıyam və sizi ikilikdə qoyaram.



İndi o, özünə nümunəvi dost kimi görünürdü.

Nosilevskaya dəvəti qəbul eləmədi. O, pataloqoanatomiya üzrə olan qalın alman kitabından nəsə köçürürdü. Barmaqlarının ucunun yaşıl mürəkkəbə bulaşması onu qıza oxşadırdı. Dedi ki, elə indicə Riqerin yanına getməyə hazırlaşır. Məxsusən o özü Stefanın yanına gəlmək istəyirmiş, lakin o zaman Stefan pataloqoanatomiya kafedrasında assistent imiş və bəlkə, ona nədəsə kömək eləyə bildi. Qız beyin hüceyrələrinin pozulması vaxtı yaranan hər şeylə maraqlanan bir formada danışırdı.

Stefanın otağında dostunun səyinin nəylə qurtaracağını gözləyən Staşek durduğu yerdə belə fikrə düşdü ki, guya, Riqer qızı heç də elmi söhbət üçün dəvət eləmir və bu fikir onu sarsıtdı.

– Di yaxşı, – Stefan fikirli halda dedi. O, təzəlikcə psixotexniki mətnlərdən ibarət olan Amerika dərsliyini oxumuşdu. Doğrudur, məhəbbət haqqında orada bircə cümlə də yox idi, amma amerikalıların üsuluna istinad edərək özü müstəqil olaraq nəyisə düşünüb tapmağı qərara aldı. – De görüm, sən onu sevirsən?

Kşeçotek çiyinlərini çəkdi. Ayaqlarını qoltuqaltıların üzərindən aşıraraq kresloda yanakı oturmuşdu və ayaqlarıyla əsəbi halda kreslonu döyəcləyirdi.

– Mən axmaq suallara cavab vermirəm. Nə işləyə, nə də oxuya, yata bilirəm, öz fikirlərimi idarə eləmək gücündə deyiləm, yalnız bir şeyi bilirəm: özümdə deyiləm, vəssalam, şüttamam.

Stefan başını yırğaladı.

– Sən bayağılaşırsan, bu da sevginin ucbatındandır. Sənə bəxtəbəxt bir neçə sual verəcəyəm. Birincisi, sən onun diş fırçası ilə dişlərini təmizləyərsənmi?

– Bu nə gicbəsərlikdir?

– Sən cavab ver.

Staşek fikrə getdi.

– Di... bəlkə də, hə.

– Sinəndə ağrı və «İlahi odu»nun yandırmasına bənzər bir yanğı hiss eləyirsənmi?

– Bəzən.

– Tfu! Hələ bir o, Riqerin yanına gedir deyə hirslənirsən də! *Amor fulminans progrediens in stadio valde periculoso*[1]. Dəqiq diaqnozdur. Burada profilaktikalıq bir iş yoxdur, müalicə olunmağın vaxtıdır.

Staşek qaşqabaqlı halda dostuna baxdı.

– Yetər özünü axmaq yerinə qoyduğun.

Stefanın birdən ağlına gəldi ki, əgər istəsəydi, Nosilevskaya ilə onunku bir göz qırpımında alınardı və pərtliyini təbəssümlə ört-basdır eləməyə çalışdı.

– Hirslənmə. Onu sabah dəvət eləyərəm, ya da, ən yaxşısı, cərrahiyyə əməliyyatından sonra. Onda başım başqa heç nəylə məşğul olmayacaq.

– Başa düşmürəm, burada sənin başına dəxli olan nə iş var?

– Sənsə hələ də onu mənə qısqanırsan? – Stefan gülümsədi. – Sənə brom verim?

– Sağ ol, özümdə var.

Staşek rəfdəki kitablara baxdı, «Sehrli dağlar»ı vərəqlədi, amma bir tərəfə qoydu, nəhayət, «Yaşıl bəbir»in üzərində dayandı.

– Bu detektivdir, həm də dəhşətlidir, – Stefan xəbərdarlıq elədi.

– Elə isə lap yaxşı, məhz əhvalıma uyğundur.

Staşek getməyə hazırlaşdı.

[1] Təhlükəli həddə olan sevgi tutması (*lat.*)

Stefanın ona hədsiz yazığı gəldi.

– Qulaq as, – o gözlənilmədən soruşdu, – istərdinmi o, səni aldatsın və ya onunla nəsə pis bir hadisə olsun?

– Birincisi, o, məni aldada bilməz, belə ki, onunla məni heç nə bağlamır, ikincisi, bu nə alternativdir belə?

– Sadəcə, psixoloji testdir. Cavab ver.

Kşeçotek hirsləndi və qaçıb otaqdan çıxaraq qapını bərkdən çırpdı. Stefan soyunmadan artıq hazırlanmış yatağa uzandı. O yalnız indi bu müddət ərzində Staşekə mühəndis haqqında danışmağa macal tapmadığına görə ona hirsləndiyini başa düşdü. Ayağa sıçradı, kitab rəfinə yaxın əyləşdi və neyrocərrahlığa aid dərsliyi vərəqləməyə başladı. Bəlkə, Kayters hər şeyi düzgün eləyirdi? Amma bunu qəbul eləyə bilmirdi. Dərslikdə müəyyən heç nə tapa bilmədi. Kip bağlanmış pəncərənin cunadan olan pərdəsi yüngülcə titrədi. Kimsə qapını döydü.



Bu, Kayters idi.

– Həmkar, təcili olaraq əməliyyat otağına!

– Necə, necə? – Stefan ayağa sıçradı, amma cərrah artıq yox idi.

O, yaxasını düymələmədiyi xalatını döşəmənin üzəriylə xışıldadaraq qaranlıq dəhlizdə görünməz oldu. Stefan hətta işığı söndürməyi unudaraq sevincindən həyəcanlanmış halda pilləkənlə üzüaşağı qaçdı.

Gecə rütubətli və isti idi. Külək özüylə yetişən sünbüllərin qıcıqlandırıcı tünd qoxusunu gətirirdi. Yolu qısaldaraq Stefan birbaşa yaşıl otların üzəriylə yeriyirdi; ayaqqabıları dərhal işıldayan şeh damcıları ilə örtüldü və dəmir pilləkənlə ikinci mərtəbəyə, əməliyyat otağına qaçdı. Tutqun şüşənin arxasından ağ fiqur gözə dəyirdi.

Əvvəlcə əməliyyat otağı kiçik cərrahiyyə əməliyyatları üçün nəzərdə tutulmuşdu, deyək ki, çibanları yarmaq və bundan ötrü xəstəni şəhərə aparmamaq üçün. Amma onu bir qədər böyük əməliyyatlar üçün avadanlıqlarla təmin elədilər. Kayters də bundan istifadə elədi. Universal stol hər hansı bir əməliyyat üçün yarayırdı, bundan əlavə, burada oksigen balonu, divardan asılmış sümükdeşən elektrik burğusu, radioqəbulediciyə oxşayan diatermiya cihazı da vardı. Digər otaqlar kimi limon rəngli xırda plitkalarla döşənmiş qapısız balaca dəhliz başqa bir otağa aparırdı,

bu otaqda dəmirdən üzlük çəkilmiş stolların üzərində kimyəvi məhlullarla dolu olan bankalar cərgə ilə düzülmüşdü, xeyli rezin borular var idi, şüşənin altında isə ağlar qoyulmuşdu. Digər şkaflarda deşik sinilərdə səliqə ilə alətlər düzülmüşdü. Hətta əməliyyat otağında işıq yanmayanda belə bu küncdə mütləq nəsə zəifcə işarır, cərrah bıçaqlarının, qarmaqların, maqqaşların iti ucları parıldayırdı. Ayrıca stolun üzərində yastı qablarda tikişləri tikmək üçün istifadə olunan ip yumaqlarını islatmaq üçün Lyuqol məhlulu var idi, iplər məhlulda isladılandan sonra zümrüd rənginə çalırdı, bir qədər yuxarıda isə ağ ipək sapları olan şüşə boruların cərgəsi ağarırdı.

Tibb bacısı Qonzaqa alətlər olan stolu üç yoğun ayağı olan əməliyyat stolunun yanına gətirdi və indi də hündür ayaqları olan, nədənsə, Stefana arı pətəyini xatırladan stelizatoru stola yaxınlaşdırdı. Özünü itirmiş Stefan aciz halda ətrafa boylanırdı. Tibb bacısından kimin əməliyyat olunacağını soruşmaq ona alçaldıcı gəlirdi. Qonzaqanın yuyunmağa başladığını görəndə o da uzun rezin önlüyü əyninə keçirtdi və əllərini güclü təzyiqlə fışıldayan suyun altına tutub yumağa başladı. Su uğuldayırdı, balaca su damcıları sonsuz cərgə ilə güzgünün üzəriylə qaçaraq onun civə tullantılarından işıldayan səthini buxara qərq eləyirdi. Köpüyün ağ lopaları buxarlanan əlüzyuyanın dibində geniş çənbər yaradırdı.

Gözlənilmədən yanlarında Kaytersin səsi guruldadı:

– Tələsmədən, tələsmədən, – o dedi, sonra xırıltılı nəfəsalma eşidildi, sanki, kimsə nəsə ağır bir şey aparırdı.

Yırğalanan qapıda böyük xəstə baxıcısının qızaran dazı göründü: o, Rabevskinin hərəkətsiz bədənini arxasına ataraq onu əməliyyat otağına gətirdi. Səs-küylə mühəndisi əməliyyat stolunun üstünə atdı, Kayters isə ayaqlarını ağ rezin başmaqlara keçirərək tibb bacısından soruşdu:

– İkinci və üçüncü dəstlər var?

– Bəli, cənab həkim.

Önlüyün lentini boğazına bağlayan cərrah ayağı ilə əyləci basaraq suyu buraxdı və alışdığı bir hərəkətlə əllərini yumağa başladı.

– Bəs şprislər var?

– Bəli, cənab doktor.

– İynələri itiləmək lazımdır.

O, bütün bunları mexaniki olaraq deyir, deyəsən, cavab gözləmirdi. Bircə dəfə olsun belə stola baxmırdı. Yuzef Rabevskini soyundurdu, onu arxası üstə uzandırdı və əllərini, ayaqlarını ağ lentlərlə dəmir bəndlərə bağladı, bundan sonra ülgüc ilə başını qırxmağa başladı. Stefan bu küt qıcırtıya dözə bilmədi.

– Yuzef, Allah xatirinə, sabun vurun!

Cavabında Yuzef nəsə donquldadı, Kayters olan yerdə o, başqa kimsəyə qulaq asmırdı, amma hər halda, xəstənin başını islatmağı qərara aldı; xəstə huşsuz vəziyyətdə idi, yalnız xırıltısı təsadüfən və güclə eşidilirdi. Baxıcı ağ tükləri yığışdıraraq, anodun böyük lövhəsini Rabevskinin buduna sarıdı və kənara çəkildi. Tibb bacısı Qonzaqa fırça ilə yuyunmağı qurtararaq, fırçanı kisəyə atdı və əllərini yuxarı qaldıraraq stelizatora yaxınlaşdı. Yuzef ona sarıtəhər maskanı sifətinə keçirtməyə, sonra xalatı, nəhayət, sapdan toxunmuş nazik əlcəkləri geyməyə kömək elədi. Qonzaqa üzərində örtüklərlə örtülmüş üç sinidə alətlər olan – onları avtoklavdan[1] beləcə çıxartmışdılar – hündür stola yaxınlaşaraq qısqacı açdı və bu işıldayan kəlbətinləri, maşaları haçan lazım gələcəyindən asılı olaraq, təyinatına görə düzməyə başladı.

Stefan və Kayters yuyunmağı eyni vaxtda qurtardılar. Tşinetski cərrahın əllərini spirtlə silməsini gözlədi və sonra özü spirtin nazik şırnağını əllərinə doğru yönəltdi. Yandırıcı damlaları silərək, qayğılı halda əllərinə baxdı.

– Mənim dırnaqlarımın altı incidir, – hirslənmiş halda dırnaqlarının altındakı şişmiş dəriyə toxunaraq donquldandı.

Kayters rezin əlcəkləri əlinə keçirtmək üçün dartırdı, amma buna çətinliklə nail olurdu, əlləri nəm idi.

– Qorxulu heç nə yoxdur. O, yəqin, PP[2] deyil.

Yuzef təmiz olmadığından stoldan uzaq dayandı.

– İşıq! – cərrah komanda verdi. Baxıcı rıçaqı çəkdi, transformator uğuldadı və stolun üzərindən köndələninə asılmış böyük lampa ayaq üstə duranların üzərinə maviyə çalan dairəvi işıq saldı.

[1] Avtoklav – cərrahiyyə alətlərinin və sarğı materiallarının rdistillə edilməsi üçün qab

[2] inkişaf eləmiş iflicin qısa adı

Kayters pəncərəyə tərəf boylandı. Onun gözlərinə qədər maska ilə örtülmüş sifəti indi, adətən olduğundan daha qarabuğdayı görünürdü. Həkimlər hər biri öz tərəflərindən xəstəyə yaxınlaşdılar, xəstə huşsuz vəziyyətdə idi. Yuzef etinasızcasına əlüzyuyanın üzərinə əyildi, güzgüdə günəbaxan kimi iri, tutqun və parıltılı dazı göründü.

Rabevskinin üstünü əlsilən kağızlarla örtməyə başladılar. Qonzaqa jonqlyorluq eləyərək kağızları elə indicə uzun maşayla cəld stelizatorla cərrahların əllərinin arasına tökmüşdü. Onlar sterilizə edilmiş parça ilə xəstənin dabanından üzünə doğru bütün bədənini örtürdülər. Stefan onları qısqacla bərkidirdi.

– Siz neyləyirsiniz, onun dərisinə, dərisinə! – cərrah alçaqdan, amma hiddətlə dedi və özü kağızı iti qısqacla uzanan adamın solğun dərisinə bərkitdi.

Stefan bədənin bıçaqla zolaq-zolaq edilməsinə çoxdan alışmışdı, amma xəstənin narkoz altında olduğunu bilsə də, əməliyyat ediləcək yerin ətrafına qısqaclarla əlsilən kağızların bərkidilməsinə baxanda bədəninin titrəməsinin qarşısını ala bilmirdi. Mühəndis isə yalnız huşsuz vəziyyətdə idi və birdən mələfə ilə örtülmüş bədənlə bir titrəyiş dalğası yayıldı. Rabevski dişlərini elə bərkdən qıcırdatdı ki, sanki, bıçağı şüşəyə sürtdülər. Stefan sualedici baxışlarla Kaytersə baxdı. O, qərarsız haldaydı, sonra əlini yellədi, sanki, demək istəyirdi, di deşin, əgər bu, sizə məmnunluq bəxş eləyirsə.

Tşinetski sıx bərkidilmiş kağızların arasından çılpaq başa yod sürtdü, bəzi yerlərə novokain çəkdi və dərinin altından qalxan şişləri yüngülcə masaj elədi. O, yoddan qəhvəyi rəngə çalan pambıq tıxacı atanda, cərrah dönmədən əlini geri uzatdı, tibb bacısı ilk olaraq ona cərrah bıçağını verdi. Nazik poladın iti ucu yüngülcə alına toxundu və dəriyə yüngülcə bataraq alında dairəvi bir parçanı kəsdi. Anatomik maqqaşla Kayters yaranı sümüyün özünə kimi təmizlədi, sümük boğuqcasına qıcırdayırdı. Sonra alətləri xəstənin sinəsi üstə qoyaraq, əlini sümükdeşən alət üçün uzatdı. Ucunda burğusu olan polad şlanqla arxadakı yumurtaşəkilli motora bənd edilmiş cihaz onun arxasında idi. Tibb bacısı yuxarı qaldırılan hər bir əlində bir neçə alət saxlayaraq yerindəcə donub-qalmışdı. Stefan kəsik

yerindən şişib qalxan qanı pambıqla təzəcə silmişdi ki, Kayters artıq burğunu işə saldı. Cərrahın əlində tutduğu burğu, sanki, pero kimi sümüyə sancıldı, yaranın ətrafında qanlı horradan halqa yaradaraq, ətrafa xırda tilişkələr sıçratdı.

Uğultu dayandı. Cərrah artıq lazım olmayan burğunu bir tərəfə tullayıb, bıçağı tələb elədi. Amma sümük lövhəsi deşilmirdi, görünür, haradansa tamam ayrılmamışdı. Kayters ehtiyatla onun üzərindən üç barmağı ilə basdı, sanki, baş qapağını sıxmaq istəyirdi.

– İskənə!

Kayters iskənəni sümüyün üzərinə maili qoydu və müntəzəm olaraq ağac çəkiclə iskənəyə vurmağa başladı. Sümük tilişkələri səpələnir, qan dərinin üzərinə fışqırırdı, kağızlar qan ləkələrini bir qədər udurdu. Birdən dərinin üzərinə tarım çəkildiyi lövhə davam gətirmədi. Cərrah onu qarmağın dəstəyi ilə tutub basdı, qısa xırtıltı eşidildi, sanki, qoz sındırdılar, lövhə yuxarı qalxdı və bir kənara düşdü.



Mavi işıqda, sanki, hava şarı kimi şişmiş sərt beyin qişası işarırdı, beyin qişası tamamilə şişmiş damarlarla cızıqlanmışdı. Kayters əlini uzatdı, əlində uzun iynə göründü. Müxtəlif yerlərdən qişanı deşməyə başladı, – bir dəfə, iki dəfə, üç dəfə.

– Mən belə də düşünürdüm, – o mızıldandı. Maskanın üzərində, onun eynəyinin şüşələrinə lampanın balaca əksi düşmüşdü.

Buna qədər praktik olaraq heç bir iş görməyən, yalnız sümüyün dişli kənarlarının qanaxmasını saxlamaq üçün ora sterilizə edilmiş mum yapışdıran Stefan başını əydi, onların cuna ilə örtülmüş sifətləri qarşı-qarşıya gəldi.

Kayters, ehtimal ki, tərəddüd eləyirdi. Sol əliylə yaranın küncünü araladı, sağ əliylə ehtiyatla altından hər şeyin – çəhrayı və boz beyinin açıqca göründüyü qişanı əlləməyə başladı. O, sanki, yuxarıdan hansısa işarəni gözləyirmiş kimi başını yuxarı qaldırdı, onun iri qara gözləri şüşəyə dönməyə başladı, Stefan hətta qorxdu. Nazik rezinlə üz çəkilmiş barmaqlar iki dəfə qişanın ətrafını dolaşdı.

– Neştər!

Bu, balaca xüsusi bıçaq idi. Qişa dərhal yırtılmadı, amma birdən, sanki, köpük kimi partladı və içəridən beyin

sürüşüb çıxdı. Qişadan çölə çıxan, döyünən qırmızı şişdən selikli qan şırnağı axırdı.

– Bıçaq!

Yenidən vızıltı eşidildi, amma bu dəfə səs başqa cür, bir qədər batıq idi: elektrik bıçağı işləyirdi. Tibb bacısı onu örtən cunanı açdı və bıçağı cərrahın arxaya uzanan əlinə qoydu. Həkimlər stolun üzərinə əyildilər. Qan hələlik azacıq idi, böyük damarlardan heç biri zədələnməmişdi, amma mənzərə aydın deyildi. Kayters qişadakı yarığı tədricən, millimetr-millimetr genişləndirirdi. Nəhayət, hər şey aydın oldu, sürüşüb çölə çıxan köpmüş şiş alın nahiyəsinin qabaq hissəsi imiş. Cərrah barmağı ilə onu kənarlaşdıranda yarığın dərinliyində, yarımkürələr arasında çirkli-yağlı kütlə göründü: əli ora çatdırmaq çətin idi. Şəhadət barmağı beyin qabığının üzəriylə şişmiş xəmirin üzəri ilə sürüşürmüş kimi sürüşdü. Hələ axan qanla dolmamış kəllə çuxurunun dibində, sanki, balıqqulağının iç tərəfi kimi rəngli kələmə oxşayan şiş göyümtül sədəf rəngiylə işıldayırdı, qəhvəyi rəngli qatı maye ilə örtülmüş şiş aşağıdan möhkəm idi, yuxarı tərəfdən yumşaqdı.

– Qaşıq!

Əməliyyat öz qaydası ilə gedirdi. Cərrah termokoaqulyatorla şişin yuxarı hissəsini kəsdi, şiş ölgünləşib soyuyandan sonra isə barmaqlarının köməyi ilə şişi oradan götürməyə başladı. Amma bu iş nə qədər uzanırdısa, bir o qədər də vəziyyət pisləşirdi. Şiş təkcə alın nahiyəsinə yayılmamışdı, orada kök atmışdı. Cərrahın hərəkətləri getdikcə sürətlənirdi, o, yaranın daha dərinliklərinə doğru gedirdi, birdən nəsə çaqqıldadı, o, əlini çıxartdı. Əlindəki əlcək cırılmışdı. Sümüyün iti ucu ilə cırılan sarı rezin barmağından sürüşüb düşdü.

– ...Sənin ananı! – Kayters boğuq, titrək səslə söyüş söydü. – Bunu keçirdin əlimə.

– Təzəsini, cənab doktor? – tibb bacısı soruşdu və dərhal da yüngül bir hərəkətlə uzun maqqaşla sterilizatordan üzərinə talk[1] səpilmiş bağlını çıxartdı.

– Cəhənnəm olsun!

Kayters cırılmış rezini döşəməyə atdı. Gözlərinin ətrafındakı qırışlardan hirsləndiyi hiss olunan uzuntəhər sifətdə

[1] Talk – texnikada, idmanda və təbabətdə işlənilən yağlıtəhər yumşaq ağ toz

bu işıqlandırmada göyə çalan tər damcıları işıldayırdı. Gicgahlarının damarları şişmişdi. Kayters qəzəblənmiş halda dişlərini sıxmışdı. Qızğıncasına yarada eşələnirdi, toxumaların bürüşük parçalarını, ölmüş lifləri, hansısa damar dəstlərini çıxardır və bütün bunları kənara atırdı. Döşəmə qanlı sual və nida işarələri ilə örtülmüşdü.

Elektrik saatları saat doqquzu göstərirdi, əməliyyat artıq bir saat idi davam eləyirdi.

– Göz bəbəklərinə baxın.

Stefan tələsik toxumaların qırıntılarından ağırlaşmış və sərtləşmiş mələfənin bir tərəfini qaldırdı, mələfəyə yapışmış qan ləkələri sarıya çalırdı. Rabevskinin kətan kimi solğun, qəribə tərzdə səyriyən sifəti üzərinə əyildi və maqqaşla kirpiklərini qaldırdı. Xəstənin bəbəkləri daralmışdı. Birdən göz heyrətlə müxtəlif tərəflərə hərəkət elədi, sanki, onu iplə dartırdılar.



– Vəziyyət necədir?

– Nistaqm[1], – Stefan təəccüblə dedi.

– Belə, belə.

Cərrahın səsində acı notlar hiss olunurdu. Stefan ona baxdı – Kayters iynə ilə beyin qabığı üzərində işləyirdi. Deməli, bax nistaqmın səbəbi bu imiş. Beyin əsaslı surətdə kəsilmişdi. Parçalanmış, cansızlaşmış toxumaların böyük bir kütləsi... Sanki, bu kütlə beyinin girintili-çıxıntılı hissəsi ilə bir yerdə axırdı. Stefan qışqırarkən çəkilib uzanan ağızı xatırladan yaraya baxdı, təmizlənmiş qoz içi kimi işıldayan sinirlərin ağ kütləsi və məxsusən də kəsiyin nazik izi güclə hiss olunan, əslində, qəhvəyi olan boz maddə. Və hər şey qan damcılarının tünd-qırmızı nöqtələri ilə örtülmüşdü.

Nəhayət, dilxor olmuş cərrah rezin kimi uzanmış qırışığı geniş aralayaraq donquldadı:

– Qurtarırıq!

Bu, təslim olmaq idi. İndi cərrahın barmaqları cəld və diqqətlə işləyirdi, çölə çıxmış yarımkürələri geri itələməyə cəhd eləyərək, onu kəllə tasının içinə salmaq istəyirdi. Yenə də haradansa qan verməyə başladı. O artıq əlcəyin barmağından plitə salmaq üçün borucuq düzəltmişdi, amma birdən donub-qaldı.

---

[1] Nistaqm – göz bəbəyinin ixtiyarsız olaraq ritmik hərəkəti

Artıq cərrahın nə elədiyi haqqında düşünməyən, xəstənin mumiya kimi bələnmiş bədəninə baxan Stefan başa düşdü ki, xəstənin sinəsi yatıb-qalxmır. Kayters əlinin infeksiyaya yoluxacağını unudaraq xəstənin üzünü və sinəsini örtən mələfədən yapışıb kənara atdı, bir neçə anlığa qulaq asdı, sonra sakitcə stoldan kənara çəkildi. Onun qan ləkələrinə batmış başmaqları küncə doğru uçdu. Tibb bacısı Qonzaqa mələfənin bir kənarından yapışaraq təntənə ilə mühəndisin soyumuş sifətini örtdü. Stefan pəncərəyə yaxınlaşdı, təmiz hava almaq istəyirdi. Onun arxasında tibb bacısı Qonzaqa alətləri metal siniyə atırdı, avtoklavda su fışıldayırdı, Yuzef döşəmənin qanını yuyurdu. Stefan pəncərədən başını çıxartdı. Ətraf hüdudsuz, sükut içində qaranlığa qərq olmuşdu. Göylə yerin sərhədində – bu sərhəd güclə müəyyən olunurdu – qaranlıq adama daha tünd gəlirdi. Sanki, məxmər futlyarda sarı brilyantlarla bəzədilmiş üzük Bejintsin anbarlarının işığında rəngdən-rəngə çalırdı. Külək budaqların arasında azıb qalmış və kirimişdi, ulduzlar sayrışırdı. Çanaqlardakı suyun şırıltısı getdikcə eşidilməz olurdu.

## USTA BOX

İyunda istilər başladı. Yumşaq təpələri örtmüş meşələrin tutqun yaşıllığı pəncərədən göyümtül rəngli və xal-xal, gümüşü rəngə çalan ağcaqayınlar axşam, sanki, sualtı bitkilər şəfəqlər sökülələndə göründüyü kimi tutqun, dan yeri söküləndə isə açıq rəngdə görünürdü. Quşların rəng qatdığı məlahətli uğultu sonsuz dalğalarla keçib-gedirdi. Günəşin hərəkət cığırı günü-gündən yuxarı qalxır, səmanı daha bərabər hissələrə bölürdü.

Bir dəfə gecə ilk yay tufanı başladı. İldırımların işıqlandırdığı mənzərə brilyant kimi göy işıqla qığılcım saçırdı.

Stefan tarlalarda xeyli gəzib-dolaşdı, gedib meşəyə çıxdı. Teleqraf dirəkləri, sanki, kamertonun yüksək notundan sərxoş olubmuş kimi anlaşılmaz tərzdə mızıldanırdı. Divar kimi dayanmış meşə şamağacıların mavi rənginə çalırdı, gah burada, gah da orada ağcaqayınların əyilmiş gövdələri ağarırdı.

Doyunca gəzəndən sonra Stefan nəhəng ağacların altında dayanır, ya da saralan mamır təpəciyinin üstündə otururdu. Bir dəfə xeyli uzağa gedərək gilli yarğanların altında gizlənmiş bir tala tapdı, talada üç dənə uca fıstıq ağacı bitmişdi. Onlar bir təpədən baş qaldıraraq müxtəlif tərəflərə qol-budaq atmışdı. Aşağıda, sanki, pəncələri üzərində – yazda buradan axan sel onun köklərinin altındakı gili yumuşdu – cavan palıd ağacı dayanmışdı, onun üfüqi budaqları qəribə idi, yaponsayağı tərzdə əyilmişdi. Daha iki yüz, üç yüz addım və meşə qurtarırdı. Dağın zirvəsinə doğru kərpic rənginə və yaşıl rəngə çalan arı pətəklərinin sütunları dırmaşırdı, onlar müqəddəslərin gil heykəllərinə oxşayırdı. Məhz burada əks-səda gizlənmişdi, Stefan əl çalaraq onu oyatmağa cəsarət elədi. Cavabında qızmış hava hər dəfə də sakit və boğuq əks-sədayla şappıldadı. Tam səssizliyi yalnız arıların çoxsəsli vızıltıları pozurdu. Hərdənbir hansısa pətək döyüşkən mahnı oxumaq həvəsinə düşürdü. Uzaqdan arı pətəkləri ağac pianinonun miskin klaviaturasına oxşayırdı.



Stefan bir qədər də gəzməyi qərara aldı və tezliklə heyrətlə hiss elədi ki, artıq kifayət qədər arxada qalsalar da arıların vızıltıları sakitləşmir, əksinə, getdikcə artır. Arıların daha alçaq, boğuq səsi ətrafa yayılırdı və Stefan yarğanın dibiylə gedib ot basmış kənarına çatanda uzaqda, birbaşa qabağında alçaq beton kubiklərin üzərində kərpicdən tikilmiş kvadrat ev gördü. Üfüqlərin özündən başlayaraq üç tərəfdən evə doğru məftillər çəkilmiş ağac dirəklər uzanırdı, açıq pəncərələrdən isə dinc uğultu gəlirdi. Bu qəribə evə yaxınlaşarkən Stefan açıq pəncərələrin altındakı kölgəlikdə oturmuş iki nəfəri gördü. O hətta diksindi – oturanlardan birini axırıncı dəfə Neçevada dəfn mərasimində rastlaşdığı əmisi oğlu Qjeqoja oxşatdı. Amma dərhal da yanıldığını başa düşdü, onu naməlum adamın tanınma nişanları olmayan əsgər mundiri, açıq rəngli saçları və başını saxlamaq tərzi çaşdırmışdı. Amma bu adam, hər halda, onu maraqlandırdı və Stefan bilmədən cığırdan çıxdı və evə doğru otların üzəriylə getməyə başladı; fikirli halda ətrafa boylanır, hər şeylə özünü elə göstərirdi ki, guya, buralarda gəzirmiş, bura isə təsadüfən gəlib çıxıb. O yalnız lap yaxınlaşanda oturan adamlar onu gördülər. Hər ikisi

başını qaldırdı, iki cüt göz onu sakitcə nəzərdən keçirməyə başladı. Stefan dayandı. Onun əvvəlcə Qjeqoja oxşatdığı adam əlini dizinə söykəyərək, gilə bulaşmış yarımçəkmə geydiyi ayaqlarını altında çarpazlayaraq hərəkətsiz halda oturmuşdu, mundirinin açıq yaxasından günəşdə yanmış üçbucaqşəkilli dəri görünürdü, sıx, bir-birinə yapışmış saçları işıldayırdı, adama elə gəlirdi ki, onun başında misdən dəbilqə var. Arıq, ciddi sifətdəki parlaq günəşdən qıyılmış gözlər Stefana dikilmişdi. İkinci oturan nisbətən yaşlı idi, iribədənliydi, amma kök deyildi, əlləri və sifəti kül rəngindəydi, başındakı şapkasını təşəxxüslə arxaya vermişdi, bir qulağının yerində tüklər bitmişdi, tüklərin altında qızılgülün qönçəsinə oxşayan balaca, bürmələnmiş bir yumaqcıq var idi.

– Bu... elektrostansiyadır? – yalnız pəncərədən gələn uğultunun xələl gətirdiyi üzücü sükutu pozmaq üçün Stefan, nəhayət, çətinliklə sözləri dilindən qopartdı.

Oturanların hər ikisi susurdu. Yalnız indi Stefan pəncərədən daha bir yaraşıqsız qocanı gördü, qocanın daz başı üzərində bir çəngə saçı yellənirdi. Pəncərədən, evin zülmət qaranlığında onun göy kombinezonunu çətin görmək olurdu. Gənc oğlan yoldaşlarının üzərinə çımxırdı, yenidən Stefana doğru döndü, lakin onun gözlərinə baxmamağa çalışırdı və hədələyici səslə dedi:

– Yaxşısı buralarda dolaşmamaqdır.

– Necə? – Stefan ixtiyarsız dilləndi.

– Deyirəm, yaxşısı buralarda dolaşmamaqdır. Dəmir yolunun gözətçiləri ilə rastlaşmaq olar, ya da daha nəsə və onda yaxşı olmayacaq.

Yaşlısı, bir qulağı olmayan elə bu an dilləndi:

– Dayan, oğlum. Siz özünüz haradansınız?

– Mən? Müalicəxanadanam. Mən həkiməm. Nədir ki?

– A-a, – qulağı olmayan səsini uzatdı və söhbəti davam etdirmək münasib olsun deyə əliylə yerə dirsəkləndi. – Siz bunların... həkimisiniz?.. – o, barmaqlarını gicgahına qoyub fırladı.

– Hə.

Solğun gülüşdən qulağı olmayanın dodaqları azacıq aralandı.

– Əşi, bu, boş şeydir, – o dedi.

– Məgər buralarda gəzmək olmaz? – Stefan soruşdu.

– Niyə ki? Olar.

– Necə yəni? – karıxmış Stefan təkrar soruşdu. – Bu, elektrostansiya deyil? – o, bir daha öyrənməyə cəhd elədi.

– Yox, – ilk dəfə olaraq pəncərədən qocanın səsi eşidildi. Onun arxasında məftillərin misi işıldayırdı. O, qəlyanını çırpmaq üçün pəncərədən aşağı əyildi, kombinezonunun həddən artıq qısa olan qolu dirsəyinə qədər sürüşdü; arıq qolu büsbütün bürüşmüş vətərlərlə örtülmüşdü. – Bu, köməkçi yarımstansiyadır, – o, qəlyanını çırpmağa başlayaraq sözünü qurtardı.

Stefan bunu da başa düşmədi, amma özünü ona hər şey aydınmış kimi göstərib soruşdu:

– Bizim sanatoriyaya işığı siz verirsiniz?

– Hm-m, – qoca mızıldandı, qəlyanını elə sümürdü ki, ovurdları çökdü.



– Bura gəlmək olar? – kim bilir, nəyə görə Stefan bir daha aydınlaşdırmaq üçün soruşdu.

– Olar.

– Amma siz dediniz ki... – Stefan iti dişlərini göstərərək ağzını daha geniş açıb gülümsəyən cavan oğlana tərəf döndü.

– Mən... hə, – o, bir qədər susub dedi.

Stefan hələ də onların başı üzərində dayanmışdı və qulağı olmayan söhbəti davam etdirməyi lazım bildi.

– O, sizin kim olduğunuzu bilmədi, – balaca gözləri ilə Tşinetskini atəşə tutaraq sözə başladı. – Hələ cavandır, buna görə də səhv elədi. Hə, siz bağışlayın, sizin sifətiniz elə qaradır. Elə buna görə də dedi.

Stefanın hələ də heç nə başa düşmədiyini hiss eləyib, dostcasına barmağını onun dizinə toxundurdu:

– Düşündü ki, siz Bejintsdənsiniz, bütün vilayətdən yığılıb aparılanlardan...

O, işarə ilə sağ əliylə sol əlini nəyləsə sarıdığını göstərdi və dərhal da Stefana hər şey aydın oldu. «O, mənim yəhudi olduğumu düşünərək xəbərdarlıq eləyib», – Stefan düşündü. Onun başına hərdən belə işlər gəlirdi.

Qulağı olmayan ona diqqətlə baxır, onun indi özünü necə aparacağını, inciyib-inciməyəcəyini görmək istəyirdi, amma Stefan susurdu, yalnız azacıq qızarmışdı. Qulağı

olmayan dünyagörmüş birisi kimi bu sıxıntılı anları nəyləsə aradan qaldırmaq istədi.

– Cənab doktor, siz xəstəxanada işləyirsiniz? – o, söhbətə başladı. – Mənsə bax burada. Mənim adım Boxdur, usta-elektrikəm. Amma axır vaxtlar işləmirdim, canım ağrıyırdı. Sizi tanımadığıma təəssüflənirəm, cənab doktor, – bic-bic əlavə elədi. – Məsləhətinizi soruşardım.

– Siz xəstələnmişdiniz? – Stefan nəzakətlə maraqlandı. O, hələ də onların başı üzərində dayanmışdı və getməyi heç cür qərarlaşdıra bilmirdi. Bu, onun bədbəxtliyi idi – tanımadığı adamla söhbəti nə qura, nə də qurtara bilirdi.

– Hə, xəstələnmişdim. Məndə elə alınmışdı ki, əvvəlcə mən bir gözümlə bir tərəfi, o biri gözümlə də o biri tərəfi görürdüm, sonra isə hər şey dayanmadan gözlərim önündə mayallaq vurmağa başladı, duymaq qabiliyyətim isə elə olmuşdu ki, oy-oy-oy!

– Sonra nə oldu? – xəstəliyin belə təfsilatından karıxmış Stefan soruşdu.

– Heç nə. Hər şey öz-özünə keçib-getdi.

– Öz-özünə yox, öz-özünə yox, – pəncərənin qabağında dayanmış qoca onu məzəmmətlədi.

– Öz-özünə yox, – Box itaətlə düzəliş verdi. – Mən hisəverilmiş döş əti ilə noxud şorbası içirdim, şorba elə yağlı olurdu ki, qaşıq şorbanın içində dimdik dayanırdı, qaraqınıq spirtindən istifadə eləyirdim, deməlk, bir damcısını sorurdum və elə bil, xəstəliyim əl ilə götürüldü. Bunu mənə xaç atalığım məsləhət gördü, bax, o pəncərədə dayanan.

– Bu misilsizdir, – Stefan dilləndi, tələsik hər üçünə baş əydi və Boxun ondan bunun hansı xəstəlik olduğunu soruşacağından ehtiyatlanıb cəld geri çəkildi.

Yalnız yaxınlıqdakı təpəyə qalxandan sonra geri baxdı. Orada, yuvarlaq qobunun dibində qırmızı kərpic ev görünürdü. İlk baxışdan orada heç kimin olmadığı görünürdü, geniş açılmış pəncərələrdən çölə sonsuz, boğuq uğultu axırdı, bu uğultu xəstəxanaya geri qayıdan Stefanı hələ bir xeyli təqib elədi; getdikcə zəifləyir, külək arada eşidilməz eləyirdi, nəhayət, günəş şüalarının oynaşdığı otların üzərində dolaşan böcəklərin vızıltısında əriyib yoxa çıxdı.

Bu hadisə Stefanın yaddaşına möhkəm həkk olundu, əslində, boş şey olan təəssüratlar gənc həkimi o qədər

heyran eləmişdi ki, o, bunlarda, sanki, hansısa gizli bir məna olduğunu düşünürdü. Bununla belə, yaddaşında bu epizod elə gözəl görünürdü ki, Stefan vaxtı iki dövrə ayırmışdı və xəyalən xəstəxana həyatını xatırlamaq lazım gələndə, hər dəfə mütləq bu hadisənin üzərinə qayıdırdı. Baş verənlər haqqında kimsəyə danışmamışdı, həm də bunun nə mənası var idi? Bəlkə, Sekulovski Boxun öz xəstəliyini təsvir eləməsinin ədəbi məğzini tapa bilərdi, amma Stefanı tamam başqa şey düşündürürdü. Nə? O özü də bilmirdi.

Səhər yoxlamasından sonra özüylə «Fəlsəfə tarixi» kitabını götürərək xəstəxananın ətrafına gəzməyə çıxdı, amma oxumaq işi ağır getdiyindən (o, bunda istini günahlandırırdı, ontologiya[1] sisteminin onu qətiyyən maraqlandırmadığını isə özünə etiraf eləməyə utanırdı) başqa kitab da götürdü. Bu, Kaytersin ona verdiyi «Min bir gecə nağılları» kitabı idi, çox gözəl nəşr olunmuş qalın kitabın dəri cildi yasəmən rəngindəydi. Meşənin kənarından keçərək, mənzərəli bir yerdə, gövdələrinin qabıqları hamar, tarım çəkilmiş üç nəhəng fıstıq ağacının dibində oturdu (ona elə gəlirdi, məhz kauçuk ağaclar elə belə də olmalıdır) və ayaqlarını mərsin pöhrəliyi içində olan çuxura uzadıb, sarıtəhər səhifələrin üzərində oynaşan günəş şüalarından gözlərini qıyaraq Kəşmirin ovsunçularının, bərbərlərinin, tacirlərinin macəraları haqqında oxumağa başladı; quru mamır təpəciyinin üzərinə atılmış «Fəlsəfə tarixi» isə yaxınlıqda dincəlirdi. O, bu kitabı bir daha heç açmağa da cəhd eləmədi, amma sanki, özünü məzəmmətləməmək üçün özüylə gəzdirməkdə davam edirdi.



Gözəl, hətta meşənin dərinliklərində belə bürkülü olan bir səhər xəlifə Harun ər Rəşidin əhvalatının yarısını oxumuşdu ki, – xəlifənin onu tanımasınlar deyə susatanın paltarlarını geyərək təbəələrinin necə yaşadıqlarını öz gözləriylə görmək üçün bazarı gəzmək fikrinə düşdüyü yerə qədər çatmışdı – yəqin, tək olmaqdan ürəklənərək birdən köməkçi stansiyada fəhlə kimi işə düzəlməyin necə də yaxşı olacağını düşündü. Dilxorcasına gülümsəyərək dərhal da bu fikri başından çıxardı; doğrudur, bu haqda kimsəyə danışa bilməyəcəyinə görə heyifsiləndi.

[1] Ontologiya – idealist fəlsəfədə varlıq haqqında metafizik nəzəriyyə

Axşamçağı, artıq günəş elə də güclü yandırmayanda, təpələrin qızmış yamaclarının və soyumuş vadilərin arasında külək fırlanmağa, yarpaqları xışıldatmağa başlayanda Stefan yenə də hansısa bir aydın olmayan səbəbin axtarışıyla xəstəxanadan çıxdı, alışdığı cığırdan dönüb köməkçi stansiyaya yaxınlaşdı və stansiyanın ətrafında fırlanmağa başladı. Amma daha bir kimsə ilə rastlaşmadı.

Qırmızı evə yaxınlaşmadı, onun üçün evin kərpic divarlarını və uğultu gələn taybatay açılmış boş pəncərələrini görmək kifayət idi, geri qayıdanda da bu uğultu bircə addımlığa belə ondan əl çəkmirdi. Bu gəzintilər onun yuxularını daha bir mövzu ilə zənginləşdirmişdi, bir neçə dəfə yuxusuna yarğanın ot basmış kənarındakı elektrik evi girdi, bu ev onu hansısa yeknəsəq, olduqca Şərq melodiyalarına oxşayan melodiya ilə cəlb eləyirdi. Bir dəfə necə oldusa, meşəyə həmişə olduğundan tez yollanan Stefan stansiyaya baxa bilsin deyə təpənin lap zirvəsinə qalxmaq üçün balaca bir dövrə vurdu. O, hələ yamacla qalxırdı ki, birdən qarşısına gələn adamı gördü. Bu, saçları mis rənginə çalan həmin o cavan oğlan idi, şalvarı əhəngə bulaşmışdı, kəmərinə qədər çılpaq idi, əllərində iki vedrə dolusu gil götürərək, elastiki addımlarla cığırla addımlayırdı. Stefan özü də başa düşə bilmirdi: oğlanla görüşmək istəyirmi, amma hər ehtimala qarşı addımlarını bir az ləngitdi. Oğlan yaxınlaşırdı, çılpaq qollarında dərinin altında əzələləri oynayırdı, amma sifəti etinasız idi, sanki, donubqalmışdı. Oğlan yanından keçib-getdi, özünü Stefanı görmürmüş kimi göstərməyə elə cəhd eləyirdi ki, oğlanın onu tanıdığına zərrəcə şübhə yeri qalmırdı, oğlan yoluna davam edirdi, hətta geri də boylanmırdı.

Bir həftədən sonra günortadan keçmiş alış-veriş üçün getdiyi şəhərcikdən qayıdırdı. Havada boğucu bürkü var idi. Artıq bir neçə saat ardıcıl olaraq üfüqlərin arxasında göy guruldayırdı, amma qızarmış, yandırıcı səmada heç nə yox idi. Günəşin yandırdığı gilli yarğanın dibi bərk qızdırılmış betonu xatırladırdı. Yarğanın şamağacıları bitmiş yuxarıdakı kənarına çatanda Stefan buluddan divar gördü. Bütün ətraf gözləri önündə saralırdı, bu məşum mənzərə onu, az qala, qaçaraq aşağı düşməyə məcbur elədi, axırıncı döngədə artıq çətinliklə nəfəs alanda isə usta Boxu gördü.

O, elə həmin istiqamətdə gedirdi, amma tələsmədən, özüylə yanaşı sükanından yapışdığı velosipedi aparırdı. Arxasında addım səslərini eşidən Box oğrunca boylandı. Stefanı dərhal tanıdı və salamlaşdı, onlar dinməzcə yanaşı getməyə başladılar.

Boxun ayaqlarında əyilmiş başmaqlar, boğazlı yun köynək var idi, yaxalığı və qolları əzilmiş pencəyini çiyninə atmışdı. Stefan öz köynəyində və kətan şalvarında qan-tər içində idi, amma yol yoldaşının isə bürkü vecinə deyildi. Boxun, adətən, boz olan sifəti heç nəyi ifadə eləmirdi, yalnız qulağının yerindəki tük basmış təpəcik qızarmışdı. Artıq başları üzərində qara buludların sarı dilləri burularaq keçirdi. Stefan sevinclə qaçmağa üz qoyardı, amma Boxun burada olması onu bundan çəkindirir, əvvəl olduğu kimi müntəzəm addımlarla addımlayırdı.



Yarğan yana doğru genişləndi, onun kənarı yerlə bərabərləşdi, meşə cığırında qum ilk iri yağış damcıları altında toz verməyə başladı. Artıq stansiya görünürdü.

– Bəlkə, mənimlə gedəsiniz? Yoxsa islanarsınız, – Box dərhal da təklif elədi.

Stefan tələsik dəvəti qəbul elədi. Onlar dinməzcə stansiyaya getdilər. Ağır damcılar getdikcə daha tez-tez üzlərinə və əllərinə düşür, köynəklərini və açıq rəngli şalvarlarını noxud dənəsi böyüklükdə yaş ləkələrlə örtürdü.

Box çınqıl döşənmiş cığırla gedib, qapıya çatmağa bir neçə addım qalmış dayandı və hər iki əli ilə velosipedin sükanına söykənərək geri boylandı. Stefan da onun kimi elədi. Qaralan, sanki, altı üstünə çevrilmiş sarı bulud birbaşa onların üzərinə doğru hərəkət eləyirdi, bulud üfüqlərdən tutqun zoğlar şəklində asılı qalmışdı, bu zoğlardan yerə doğru göy buynuzlar uzanırdı.

– Bizim yerlərdə buna köpək buludu deyirlər, – Box qıyıq gözləri ilə səmanı nəzərdən keçirərək dedi.

Stefan gülümsəmək istədi, dəqiq deyilmişdi, amma Boxun sifəti tutqun idi. Leysan gurultulu hay-küylə onları ağuşuna aldı.

Stefan iki sıçrayışla özünü dəhlizə saldı. Təbiətin bu dəli tutmasına əhəmiyyət verməyən, üst-başından su axan Box əvvəlcə velosipedin qabaq, sonra da arxa təkərlərini qaldırdı və onu dar dəhlizə çəkdi. Velosipedi divara söy-

kədi, yalnız bundan sonra dəsmal çıxarıb, səylə gözlərini və yanaqlarını sildi.

Azacıq açıq olan qapıdan bütün ətrafa tökülən, uğuldayan yağışın boz pərdəsi görünürdü. Stefan ləzzətlə yağış qoxusu ilə təzələnən havanı ciyərlərinə çəkirdi, bir dəqiqə əvvəl leysandan qurtara bildiyi üçün ixtiyarsız halda sevinirdi, amma Box evin içərisinə aparan ikinci qapını açanda, qismətinə nadir bir təsadüf düşdüyünü anladı.

Boxun arxasınca getdi. İçəri elə də çox geniş deyildi. Otağın uzaq divarındakı üç pəncərəni yağış quduzcasına döyəcləyirdi və tavanda şölələnən çoxlu sayda lampa olmasaydı, otaq tamam qaranlıq olardı. Lampaların durğun işığında o, divarların birində saatları olan pultlar və lövhələr gördü, bu divarla üzbəüz olan divar isə ona zooparkı xatırlatdı – orada cərgə ilə tavana qədər boz məftil torla örtülmüş qəfəslər düzülmüşdü. Bu hündür və dar qəfəslərdə nə olduğunu Stefan görə bilmirdi, amma orada hansısa canlı olduğundan da bir əsər yox idi, bu, dəqiq idi, orada tam sakitlik hökm sürürdü. Otağın ortasında balaca bir kvadrat stol, iki stul və bir neçə də yeşik var idi. Daş döşəmənin üzərinə rezin payəndaz döşənmişdi.

– Deməк, burada heç kim yoxdur? – Stefan təəccüblə soruşdu.

– Poşçik buradadır. Onun növbəsidir. Burada gözləyin. Amma xahiş eləyirəm, heç nəyə toxunmayasınız!

Box boz məftil torun qurtardığı küncdəki qapıya doğru getdi, qapını açdı və nəsə dedi. Kimsə boğuq səslə cavab verdi. Box içəri keçdi və qapını da arxasınca bağladı. Bir dəqiqəliyə Stefan tam təklikdə qaldı. Havaya qızmış yağ qoxusu hopmuşdu, haradansa boğuq uğultu gəlirdi, yağış dalğalarının dəmir damı necə döyəclədiyi də eşidilirdi.

Stefan boylandı və dəmir torun arxasında, nəsə, işıldayan bir şey gördü. Yaxınlaşdıqda tavana doğru uzanan mis məftilləri və izolyasiyanın çini fincanlarını gördü. Divarın arxasından səs eşitdi. Box danışırdı:

– Nədir, Vladik, keflənibsən? Hər şeyi elə indicə çıxartmaq istəyirsən?

– Hə, biz tarlada gözləyərik, – başqa bir səs sakitcə cavab verdi.

– Tarlada, ya başqa yerdə, əgər basqın edərlərsə, hamımız bir nəfər kimi torpağa qərq olarıq; sən, heç olmasa, düşünürsənmi ki, bütün bunlar nə qədərdir?! Elə bu dəqiqə rədd ol buradan!

– Yaxşı, Yas, yaxşı. Yas, bəlkə, meşəyə?..

– Hə, hə, meşəyə! Get, mən qonaq gətirmişəm...

– Necə yəni?

Sonra nə danışdıqlarını müəyyən eləmək olmadı, Stefan tələsik qəfəslərdən uzaqlaşdı. Box və qoca Poşçik gəldilər, hər ikisi onun tərəfindəki saatlara baxdı, usta nəsə dedi, amma onun səsini ildırımın gurultusu eşidilməz elədi. Box daha bir neçə addım atdı, yerindəcə donub-qaldı, ayaqlarını aralı qoydu və yenə də gözlərini cihazlara dikdi.

– Necədir? – qoca soruşdu.

Cavabı əlin cüzi bir işarəsi oldu: yəni mane olma.



Box başını yana əydi, hər iki əli ilə çiyinlərindən yapışdı və belə vəziyyətdə də donub-qaldı, – Stefan düşündü ki, usta tufana düşmüş gəminin kapitanına oxşayır, – ağır-ağır, dabanları üstə dönməyə başladı, Tşinetskini gördü və sanki, hətta heyrətləndi. Stul götürüb dəhlizə apardı və stulu orada qoyub dedi:

– Buradaca oturun. Bu daha yaxşıdır.

Stefan deyilənə əməl elədi. Otağın qapısı açıq qaldı və otaq qeyri-adi bir tamaşanın səhnəsinə, tutqun və darısqal dəhlizdə oturmuş o, Stefan isə yeganə tamaşaçıya çevrildi.

Bu iki nəfər isə heç nə eləmirdi. Qoca yeşiyin üzərində oturdu, Box isə ayaq üstə dayanmışdı. İndi onlar, deyəsən, cihazlara diqqət yetirməyə son qoymuşdular, sanki, sadəcə olaraq, nəyisə gözləyirdilər. Onların sifətləri lampaların sarı işığında getdikcə daha aydın işıldayırdı. Boğucu yağ qoxusu Stefanın ürəyini bulandırırdı, həyətdə tufan aramsız olaraq guruldayır, çovuyurdu. Box birdən qara pultun üzərinə atıldı, sifətini siferblatlardan birinə yaxınlaşdırdı, sonra digərinə və yenidən əvvəlki yerinə qayıdıb donub-qaldı. Stefan hətta hansısa məyusluğu hiss eləyirdi, amma sonrakı an ona elə gəldi, sanki, nəsə dəyişdi, hərçənd nəyin dəyişdiyini başa düşə bilmədi. Onun narahatçılığı getdikcə artırdı və nəhayət, bu narahatçılığın səbəbini tapdı.

Divarın dibindəki qəfəsdə nəsə tərpənirdi. Nə qıcırtıya, nə də fışıltıya bənzəməyən bir səs eşidildi, bu səs bezikdirici vızıltıya çevrildi, sonra isə sakitləşdi, nəhayət, yenidən eşidilməyə başladı. Box və Poşçik onu eşitməyə bilməzdilər, onlar hər ikisi eyni vaxtda geri döndü, sonra isə qoca ani, Stefana elə gəldi, həyəcanlı baxışla ustaya baxdı. Amma nə qoca, nə də usta yerlərindən tərpəndilər.

Dəqiqələr keçirdi, yağış damı döyəcləyir, durğun işıqda elektrik boğuqcasına uğuldayır, amma qəfəsdəki səs kəsilmirdi. Orada nəsə tərpənir, qıcırdayır, vızıldayırdı, sanki, hansısa canlı bir varlıq gah tullanır, gah da özünü divarlara çırpırdı, – bu qəribə səslər gah tamam yaxınlıqdan, gah heyvanxananın uzaq küncündən, gah aşağıdan, gah da lap tavanın altından gəlirdi və Stefana elə eşidilirdi, sanki, bu, «nəsə» ümidsiz halda polad məftillərdən hörülmüş torun arxasında çırpınır. İki qəfəsdə birdən mavi bir şəfəq alışdı, yandı, alışmağa başlayaraq əks divara iki kişinin əyri-üyrü kölgələrini həkk elədi və yoxa çıxdı, – acı, kəsif iy Stefanın burun deşiklərini yandırdı. Yenidən kəskin səs eşidildi, alovun dili fışıltı ilə daha bir qəfəsin üzərinə cumdu, həmin an da qəfəsin qapısı ağzında dimdik dayanmış metal çubuqlardan bir topa qığılcım saçıldı.

Qoca Poşçik ayağa qalxdı, qəlyanını önlüyünün cibinə saldı, qeyri-təbii şəkildə qəddini düzəltdi və dinməzcə Boxa baxdı. Box onun əlindən möhkəmcə yapışdı, sanki, onun sifəti hiddətdən əyilmişdi, nəsə qışqırdı, ildırımın gurultusu onun səsini batırdı. Dərhal üç qəfəsdə işıq sütunları yüksəldi, bir anlığa bu işıqda, sanki, lampalar söndü, sanki, bütün divar alışıb-yanmağa başladı. Box qocanı dəhlizə, Stefanın yanına itələdi, özü isə belini bükmüş halda, əlini sinəsinə sıxaraq ağır-ağır qara pulta doğru geri çəkilməyə başladı. Məftillərin arxasındakı qəfəslərdə səslər ara vermirdi, belə təəssürat yaranırdı ki, sanki, tapançadan atəş açırlar, ağ-sarı işıq toru yalayırdı, ozonun qoxusu dözülməz olurdu, Stefan ayağa sıçradı və dəhlizlə giriş qapısına doğru cumdu, yanıyla da qoca səkirdi, Box isə axırıncı dəfə sifətini cihazlara yaxınlaşdırdı, sonra onların yanına elə sıçrayışla gəldi ki, sanki, bircə anda cavanlaşmışdı. Hər üçü indi dəhlizdə dayanmışdı. Torun arxasında hər şey tədricən sönürdü, ildırımın gurultuları

getdikcə boğuqlaşırdı, yalnız yağış əvvəlkitək quduzcasına damı döyəcləyirdi.

– Keçdi, – nəhayət, qoca cibindən qəlyanını çıxardaraq sükutu pozdu.

Stefana elə gəldi ki, qocanın əlləri titrəyir, amma hava tutqun idi, bəlkə, ona elə gəlirdi.

– Deməк, yaşamağa davam eləyirik, – Box sözünü yekunlaşdırdı. Otağın ortasına keçib, möhkəm yuxudan sonrakı kimi gərnəşdi, budlarını əliylə döyəclədi və stulun üzərində əyləşdi.

– Bura gəlin, indi olar, – başıyla Stefana işarə elədi.

İldırımın gurultusu tamam kəsiləndən sonra (hərçənd yağış, sanki, həftələrlə və aylarla ara vermədən yağırdı) qoca bir qədər otağın içərisində dolaşdı, arabir bir parça kağızda nəsə qeyd eləyirdi, sonra isə lap küncdəki balaca qapını açıb – Stefan əvvəl onu görməmişdi – içəri girdi və hansısa dəmiri danqıldatdı. Tava və primusla, bir qazança təmizlənmiş kartofla qayıdıb gəldi, nəyisə yeşiklərin üzərinə, digər nəyisə birbaşa döşəmənin üzərinə qoyaraq bişir-düşürə başladı. Burnunun altında zümzümə eləyirdi: «Sənə beləsini verməк üçün, sənə beləsini verməк üçün», gah yerində ayaq döyür, sonra yenidən yerinə qayıdır, cızıldayan tavanın üzərinə əyilir, sifətində pərəstiş və dalğınlıq dolu bir ifadəylə yumurtaları sındırır və qoxulayırdı. Box isə ev sahibi kimi Stefana təklif elədi ki, stansiyada oturub yağışın keçməsini gözləsin. Tşinetski, hər halda, nə baş verdiyini soruşmağa cəhd elədi və Box qaradinməz kimi görünmək istəməyərək həvəslə izah elədi ki, onları ildırımötürücülər xilas elədi, atmosfer boşalmaları adi şeydir. Həddən artıq gərginlik haqqında, hansısa yükləmə rıçaqları haqqında danışdı, hərçənd deyilənlərdən az başa düşsə də, Stefanda belə təəssürat yarandı ki, əslində, iş heç də belə deyil, Box hansısa özünə məlum olan üsulla onları gözləyən təhlükənin dərəcəsini azaltmaq istəyir. Stefan belə bir təhlükənin olduğuna zərrəcə də şübhə eləmirdi, axı elektriklərin özlərini necə apardıqlarını çox gözəl görmüşdü. Sonra Box onu otaqda gəzdirərək cihazlar və alətlərlə tanış eləməyə başladı, hətta arakəsmə ilə arası kəsilmiş, buna qədər Poşçiklə söhbət elədiyi dəhlizə baxmağa da ona icazə verdi. Orada divara qazanabənzər bir

şey bərkidilmişdi, qazanın içindən mis məftillər keçirdi, qazanın altına isə çınqıl döşənmişdi, Box bunu alov olmasın deyə döşədikləri ilə izah elədi, əgər qazan (bu, rıçaq imiş) partlayarsa, ondan yanan yağ tökülməlidir.

– Bəs orada, çınqılın altında nə var? – işgüzar, ağıllı suallar vermək üçün Stefan soruşdu.

Box onu soyuq baxışlarla süzdü.

– Bəs orada nə olmalıydı ki? Orada heç nə yoxdur.

– Aydındır, aydındır.

Onlar otağa qayıtdılar. Artıq stolun üzərinə qırx dərəcəli araq şüşəsi və nazik dilimlərlə doğranmış xiyar qoyulmuşdu. Box stəkanları doldurdu, stəkanını Stefanın stəkanı ilə toqquşdurdu, sonra şüşəni bağlayıb şkafa qoydu, bunu da belə izah elədi:

– Bizə araq ziyandır.

Tufan haqqında bir daha söz salmadı, əksinə, açıq-aşkar canlandı. Qocanı isə, sanki, ümumiyyətlə, görmürdü, elə bil, o, ümumiyyətlə, burada yox idi; onlar Stefanla birlikdə ikisi stolun arxasında oturmuşdu. Box öz pencəyini stulun arxasına keçirtmişdi və çəlləyəbənzər sinəsini sıxan boz köynəkdə qalmışdı. Cibindən içində tütün və siqaret kağızı olan tənəkə qutusunu çıxardı, xəbərdarlıq eləyərək onu Stefana uzatdı.

– Tünddür ha.

Stefan siqaret bürmələməyə başladı, amma onda heç nə alınmadı, nəhayət, yekəqarın bir ucu iti olan nəsə hazırlaya bildi, tüpürcəyi ilə açılmasın deyə eşmə siqareti yapışdırdı. Onda Box özünü, sanki, heç Stefana baxmayan kimi göstərərək yonqar təki kövrək və əyri-üyrü olan tənbəkidən götürüb, onu bir əlinin baş barmağı ilə əzərək yumşaltdı, üstdən digər əlinin baş barmağı ilə döyəclədi və demək olar ki, hazır olan eşməni Stefana uzatdı, yalnız kağızın kənarını yapışdırmaq qalırdı. Tşinetski təşəkkür elədi, Boxun nəzakətlə alışdırdığı alışqanın alovu üzərinə əyildi, az qala, qaşlarını ütəcəkdi, amma usta məharətlə alovu kənara çəkdi. İlk an Stefan, az qala, boğulacaqdı, gözləri yaşardı, amma o, var qüvvəsiylə nə isə büruzə verməməyə çalışırdı. Box nəzakətlə özünü elə aparırdı ki, guya, heç nə görmür. Elə cəldliklə də daha bir siqaret bükdü, yandırdı, bir qullab vurdu; indi onlar ikisi də susurdu, tüstü artıq

onların başı üzərində lampaların işığında mavi rəngə çalan bulud şəklini alırdı.

– Siz çoxdan öz ixtisasınız üzrə işləyirsiniz? – Stefan söhbətə başladı. Doğrudur, Boxun bu sadəlövh suala cavab verməkdən yayınacağından qorxurdu, amma onun ağlına bundan başqa heç nə gəlmirdi.

Usta, sanki, heç nə eşitməyibmiş kimi dinməzcə siqaretini çəkirdi, amma gözlənilmədən əlini uzatdı və sərt tərzdə döşəməyə doğru endirdi:

– Bax, bu boyda oğlan olanda işləməyə gəlmişəm. Yox, bax, belə, – əlini bir qədər də aşağı salaraq sözünə düzəliş verdi. – Maloxovitsada. Elektrik işığı hələ yox idi, fransızlar turbinlər qurmağa gəlmişdilər. Mənim ustam necə lazımsa, elə bir adam idi. Qazanxanada necə bağırırdısa, yuxarıda eşidirdilər. Əbəs yerə yox, bizim işimiz anlayış tələb edirdi. Amma balacaların üstünə bağırmırdı, onlara qarşı səbirli idi və öyrədirdi. Kim ilk dəfə yüksək gərginlikli xəttə gedirdisə – birləşdiriciləri təmizləməyə, axı hər şey buradan başlayırdı – getməmişdən qabaq ona həmişə bu xətdə ölənin əl izləri qalan fırçanı göstərirdi, möhkəmcə yadında saxlamasından ötrü.



– O nəydi ki? – Stefan başa düşmədi.

– Adi fırça idi, rəngsaz fırçası kimi, tüklü. Beləsi ilə tozu da təmizləyirlər. Ancaq bax məftillərdə elektrik olmamalıdır, gərginlik altında olmamalıdırlar. Kimsə bunu unudarsa, cərəyan mənbəyinə qoşulmuş xəttə toxunarsa, alov onu elə qarsalayar ki, hər şey bitər. Bax, elə birisindən də bu fırça qalmışdı. Kənd uşağıydı. Mən onu tanımırdım, bu, mənim vaxtımda olmamışdı, məndən əvvəl olmuşdu. Usta fırçanın dəstəyindəki barmaq izlərini göstərirdi, kömür kimi qara izləri. Axı həmin rəhmətlik büsbütün kömür kimi qaralmışdı. Tamamilə, – gözləri alnına çıxmış Stefanın xətrinə Box söhbətinin tempini bir qədər aşağı saldı. – Bu, doğru üsul idi. Heç bir çərənləmə ilə bizim işimizdə adamı öyrədə bilməzsən. Bizdə əsas əl-gözdür. Daim hər ikisinə göz-qulaq olmalısan. Mən öz peşəmi sevirdim. Usta da məni sevirdi. Zəif cərəyanlardan sonra daha ciddi işlərlə məşğul olurdum. Mən şəbəkədə də işləyirdim, elə hallar olurdu işıqsız da işləyirdim. Şəbəkə mənlik deyildi. Dirəkdən-dirəyə dartın, dəmirləri özünlə daşı, dırmaş, en,

məftilləri dart və təzədən təkrarla – hər bir adamı təngə gətirərdi, bax adamlar da çarəni şüşədə tapırdılar. Lakin bilirsənmi, araq bu peşədə uzun müddətə sevinc gətirmir. Bircə dəfə yanılma, lazım olmayan xəttə toxundun, əbədi rahatlanırsan, – Box tələsmədən, rahatca, demək olar ki, mehribancasına sözünü bitirdi.

O, yarıya qədər çəkilmiş eşmə siqareti ağzına qoydu, adət elədiyi tərzdə dodaqlarını ona yapışdırdı və bununla da əllərini azad elədi, hərçənd indi buna ehtiyac yox idi.

– Mənim tanışım var idi – Finlek Yuzef. Başında şüşədən başqa heç nə yox idi. İşə tamam kir-pas içində gələrdi, iki sözü bir-birinə calaya bilməzdi, hey nəsə mızıldanardı, amma hələlik tab gətirirdi, yaxşı işçi idi. Bu maaşdan o maaşa pulu çatmazdı. Ayın birinci yarısında işçi yox, xalis qızıl idi, ikinci yarısında isə tərtəmiz vəhşi olurdu. Bir dəfə maaşdan dərhal sonra yoxa çıxdı. Onu axtardılar, axtardılar, axtardılar, axır bölücü şəbəkədə tapdılar. Yüksəkgərginlikli xətlərin fincanları üzərində yatmışdı, amma sərxoş idi və biz onu ördəyi sudan çıxaran kimi, ayağından yapışıb ehtiyatla oradan çıxartdıq. Sonra yandı. Transformator bölməsində payını almışdı. Mən xəstəxanaya onun yanına getdim, tamam sarıqlar içində idi. Xahiş elədi: «Əlimi qaldır». Qaldırdım, amma onun qoltuğunun altında sümüklərdən başqa heç nə yox idi. Bütün əti yanmışdı. Oradaca öldü.

Box susdu, bir qullab vurub tüstünü buraxdı. Onu xatirələr çulğamışdı.

– Həmkarlar təşkilatı onun dəfnini necə lazımsa təşkil elədi. Ailəsini də məhv olmağa qoymadılar. Bax əvvəllər beləydi, hamı yaşayırdı, ölmürdülər. Sonra, otuzuncu illərdə isə işdən azad eləməyə başladılar. Hə!

O, hiddətlə siqaretin kötüyünü söndürdü.

– Mən başlayanda qəza briqadası var idi. Bu, o demək idi ki, axşama kimi otur və gözlə. Qəza məlum işdir, gah quşlar məftillərə toxunur, gah hansısa gicbəsər budaqları məftillərə ilişdirir, gah uşaq məftil ataraq qısaqapanma törədir. Otuzuncu illərdə yeni qəzalar əmələ gəlməyə başladı. İlk intihar – onu biz tapdıq və qəbr evinə kimi də unutmaram. Oğlan daşı götürmüş, ona məftili sarımış, məftilin bir ucunu da qoluna bağlamış və daşı məftillərin üstünə

atmışdı. Özü büsbütün qapqaraydı, əlləri qopub düşmüşdü, ətrafına isə bütün piyi əriyib axmışdı. Əgər mən onu tanımasaydım, bu qədər təsir eləməzdi, amma tanıyırdım, işdən qovulmazdan əvvəl çeşidləyici işləyirdi, subay idi. İlk olaraq subayları işdən azad eləyirdilər. Qızlar onu sevirdilər, əla oğlan idi. Hə, adamlar bilmirdilər ki, elektrik – yüngül ölüm gətirir, amma burada, görünür, necəsə öyrənmişdilər. Məsələ isə, doğrudan da, asan idi, bizdə xətləri çəkən fransızlar xətləri piyada cığırları ilə yanaşı çəkmişdilər. Orada məftil az sərf olunurdu. Onlar qənaətkar xalqdırlar. Beləcə, daşı məftilin üzərinə atmaq elə də çətin olmurdu.

Box əliylə stulun kənarından yapışdı. Sanki, onu döşəmədən aralamaq istəyirdi.



– Sonra növbətçi otağında telefon cingildəməyə başlayanda birbaşa ürəyim düşürdü! Üçüncü dəfədə isə adam özündən çıxırdı, həm də, bunu artıq bütün şəhər bilirdi. Bizim elektrik stansiyası ilə üzbəüz əmək birjası var idi. Bir dəfə biz getdik, orada isə adamlar qaynaşır – işsizlər idi, demək. Kimsə qışqırdı: «Elektrik sanitarları gəlir!» Mənim montyorum, Pelyux yuxarıdan onların üstünə bağırır: «Gedin çaya, batın orada, bax onda biz də sanitarlar olmarıq!» Hə, bilirsinizmi, ora yığışanlar necə çay adını eşitdilər! Yaxşı ki, sürücü cəld tərpəndi; bir sözlə, aradan çıxa bildik. Bizim üzərimizə artıq daşlar uçurdu. Bu Pelyuxanı isə mən özüm işə götürmüşdüm, həm də lap təzəlikcə. Montyor kimi karsız birisi idi, amma arvadı xəstəydi. Bu yerə mən ondan yaxşı olan yüzlərcə işçi götürə bilərdim, buna görə də hirsimi boğa bilmədim. «Sən, – deyirəm, – sən özün onların arasında həftələrlə can verirdin, amma burada, iş qoxusunu alan kimi, öz yoldaşlarını çaya göndərirsən?» O isə mənim üstümə bağırır. Çılğın adam idi. Mən də onu cəhənnəmə göndərdim. Sonra yanıma gəldi, yalvarıb-yaxarırdı, rəhm eləməyimi xahiş eləyirdi: yeməyə heç nə yoxdur. Arvadım ölür. Yaxşı, mən onunla neyləməliydim? Onun arvadı, həqiqətən, öldü. Payızda. O, dəfndən qayıdır, başını pəncərədən içəri soxur, mən məhz həmin gün növbətçilik eləyirdim və sakitcə deyir: «Səni görüm gəbərəsən, amma dərhal yox, tədricən!» Heç bir həftə keçmədi, biz qəza yerinə gedirik, yenidən körpüyə.

Baxıram, ölən isə, qulaq asın, o özüdür ki var! Ördək kimi pörtmüşdü. Barmağımla sinəsini döyəclədim, skripka kimi qupquru idi.

Qoca onların qarşısına iki boşqabda qatı şorba qoydu, özü isə yerini yanlarındakı yeşiyin üzərində rahatlayıb, dizləri üstə buğlanan qazançanı saxlamışdı. Yeməyə başladılar, usta tələsmədən, ehtiyatla yeyirdi, Stefan isə dərhal dilini yandırdı. Büruzə vermədi, amma hər qaşıq şorbanı bir xeyli üfürürdü. Yeməklərini yedilər və yenidən tənəkə qutu ortalığa gəldi. Siqaret çəkdilər. Stefan Boxun söhbətini davam eləyəcəyinə ümid bəsləyirdi, amma usta açıq-aşkar danışmaq həvəsində deyildi. Böyük, boz, tüklərini qabartmış usta öz stulunda oturmuşdu, tüstünü ağzından səs-küylə buraxırdı və Stefanın suallarına cavab verməkdən vaz keçirdi. Boxun onun doğma şəhərindəki elektrik stansiyasında da bir neçə il işlədiyini öyrəndikdə Stefan soruşdu:

– Ah, məsələ beləymiş, belə çıxır, əgər belə demək mümkünsə, sizin hesabınıza mənim mənzilimdə işıq olub?

O demək istəyirdi ki, hərçənd bu nazikdir, amma onları necəsə birləşdirən ipdir. Box susmuşdu, sanki, onun sözlərini eşitmədi. Yağış, demək olar ki, ara vermişdi, yalnız pəncərənin yanındakı yeganə su novundan torpağın üzərinə ağır su damcıları damcılayırdı. Stefan hələ də getmirdi, elə beləcə, onların arasında, az qala, bir ədavət başlayanda Boxdan ayrılmaq istəmirdi. Amma söhbətləri tükənmişdi, onu necəsə canlandırmaqdan ötrü Stefan stolun üzərindən Boxun işıldayan, nikellənmiş, yanlarında naxışları olan alışqanını götürdü. Alışqanın bir tərəfində qotik üslubda «*Andenken aus Dresden*»[1] yazısı var idi. Alışqanı əlində fırlayan Stefan onun qapağında da hərflər gördü: «*Fur gute Arbeit*»[2]

– Sizin necə gözəl alışqanınız var, – Stefan yaltaqcasına dedi. – Siz Almaniyada işləyibsiniz?

– Yox, – Box cavab verdi, laqeyd baxışlarını birbaşa öz qabağına dikmişdi, – bunu burada mənə rəisim bağışlayıb.

– Alman? – bu xəbər Stefanı xoşa getməyəcək halda heyrətləndirdi.

---

[1] Drezdendən xatirə (*alm.*)
[2] Yaxşı işə görə (*alm.*)

– Alman, – Box təsdiq elədi və nədənsə, Stefana qəribə baxışlarla baxmağa başladı.

– Yaxşı işdən ötrü, – artıq soruşmurdu, amma necəsə bununla Stefan Boxu məzəmmətləmək istəyirdi, hərçənd başa düşürdü ki, belə mövzu, yəqin, əhvallarını düzəltməyəcək.

– Bəli, yaxşı işdən ötrü, – Box xüsusi intonasiya ilə, hətta bir qədər acıqla Stefana cavab verdi.

Bu, Stefanı tamamilə çaşdırdı, o, əzab içində Boxa hansısa yeni bir yanaşma axtarırdı, ayağa qalxdı və hətta qeyri-təbii bir təklifsizliklə otaqda gəzişməyə başladı, əyilir və cihazlara baxırdı. O, təhlükə haqqındakı ciddi iradı eşitməyə şad olardı, təki onu boğan bu düşmənçilik sükutu pozulsun. Hamısı əbəs idi. Qoca boşqabları guruldadaraq çirkli qabları apardı, qayıdandan sonra Boxla öz üslubunda danışmağa başladı; onun donqultusunu eşidən Stefan sözləri ayırd eləyə bilmirdi. Box öz yerində oturmağa davam eləyirdi, sinəsini stola söykəmişdi, elektrik uğuldayırdı, açıq pəncərədən – pəncərəni Poşçik açmışdı – gecə təmizliyi adamı cəzb eləyirdi. Dəhlizin qapısı gözlənilmədən açıldı və Stefanın artıq iki dəfə gördüyü cavan fəhlə içəri girdi. Çiyninə atdığı astar üzünə çevrilmiş gödəkcə tamam islanmış və tutqunlaşmışdı, mis rəngli saçları bir-birinə yapışmışdı, sifətindən su çay kimi axırdı. O, kandarda ayaq saxladı, ayaqlarının yanında dərhal da balaca bir gölməçə yarandı. Boxla baxışan qoca küncə çəkildi, bu ana qədər hərəkətsiz olan Box isə ani hərəkətlə stolun arxasından qalxdı və Stefana yaxınlaşdı.

– Mən sizi yola salaram, cənab doktor. Artıq getmək olar.

Bu, zərrəcə belə riyakarlıq edilmədən elə açıq deyilmişdi ki, Stefanın bütün tez-tələsik və xaotik planlarına rəvac vermək istəyi, heç olmasa, öz istəyi ilə könüllü olaraq getməsini göstərmək cəhdi bircə anda yoxa çıxdı. Ovqatı təlx olmuş, hətta acıqlanmış halda özünün həyətə kimi ötürülməsinə icazə verdi. Burada Box gedib xəstəxanaya çıxa bilmək üçün hansı istiqamətə getməli olacağını ona göstərdi, bir dəqiqəliyə, sanki, onu özündən ayırmaq istəmirdi və burada Stefan dözə bilmədi:

– Cənab Box, mən ona görə sizdə... siz başa düşürsünüz ki, mən...

O daha nə deyəcəyini bilmirdi.

Elə qaranlıq çökmüşdü ki, onlar bir-birinin sifətini güclə görə bilirdilər. Box sakitcə danışırdı:

– Boş şeylərdir. Adamı islanmaqdan xilas eləmək adi işdir. Ancaq bilirsinizmi, məxsusən bura gəlməyə ehtiyac yoxdur. Nəyə görəsə yox, beləcə. Siz ki başa düşürsünüz.

Sözə başlayarkən o, əlini Tşinetskinin çiyninə qoymuşdu, daha doğrusu, güclə onun çiyninə toxunurdu, bu hərəkətdə təklifsiz rəftara cüzi işarə belə yox idi, yalnız gözlərinə baxa bilməməyin əvəzini toxunmaqla çıxırdı, axı onları qaranlıq bir-birindən ayırırdı. Box sadə danışırdı, amma nəsə, mənalı alınırdı. Stefan heç nə başa düşməyərək cavabında tələsik dilləndi:

– Hə, hə, di onda sağ olun və gecəniz xeyrə qalsın. – Boxun onun əlini yüngülcə sıxdığını və sərt dönərək uzaqlaşdığını hiss elədi.

Stefan gilli yamacla dağa doğru dırmaşırdı, küləyin ani şiddəti onun üzünə yağış damlalarını çırpırdı. O, tamamilə baş verənlərin təsiri altındaydı və bu bir neçə saat xəstəxanada keçirdiyi aylarla ömürdün üstün idi. Yarımstansiyada Boxa qarşı hiss elədiyi ağır incikliyi onlar qaranlıqda vidalaşanda keçib-getmişdi və indi onu özünü elə axmaqcasına aparması dilxor eləyirdi – yeri gəlmişkən, onun belə gic-gic suallar verməkdən başqa nə yolu qalırdı ki? Yəqin, o, böyüklərin nə düşündüklərini tapmağa cəhd eləyən uşaq təsiri bağışlamışdı. O artıq birinci sirri onun üçün açdıqlarını güman eləyəndə də onu bayıra çıxartmışdılar. Stefan hətta düşündü: qayıtsınmı, pəncərədən baxıb onların nə iş gördüklərini öyrənsinmi? Təbii ki, belə hərəkətə ürək eləməzdi, amma bu fikir özü onun hansı vəziyyətdə olduğunu göstərirdi. Stefan özünü inandırmağa çalışırdı ki, yarımstansiyada məxsusən heç nə baş vermir, o iki nəfər yatmağa gedəcəkdi, lampaların gur işığına qərq olmuş Box isə cihazların yanında özünə yer eləyəcək, oturacaq, ayağa qalxacaq və hansısa lövhəyə baxacaq, damalı kağız parçasında nəsə cızacaq, sonra yenə də öz yerində oturacaq. Bütün bunlar mənasız və maraqsız idi, amma nəyə görə onların dinməz, yeknəsəq işləri onun düşüncələrini belə cəzb eləyirdi? Qaranlıqda Stefan əliylə nəmli, soyuq qıfılı tapdı; açarı özüylə gəzdirirdi, hündür qapını açdı,

əlhavasına qaralan otların arasından güclə ağ zolaq kimi görünən əhəngli çınqıl döşənmiş cığırla getdi və tezliklə öz otağına çatdı. Lampanı yandırmadan tələsik soyundu və adyalın altına girdi; soyuq yatacaqda heç cür qızına bilmirdi, yatmağının asan olmayacağını hiss eləyirdi. Səhv eləməmişdi.

Uşaqlıqda atasının emalatxanasına girənlərdən Stefanı özünə ən çox ixtiraçının müxtəlif alətlər sifariş verdiyi fəhlələr cəlb eləyirdi – çilingərlər, xarratlar, montyorlar. Stefan onlardan bir qədər qorxurdu, belə ki, onlar onun tanıdığı digər adamlara oxşamırdılar. Adətən, təmkinli olan bu adamlar atasını dinməzcə və diqqətlə dinləyirdilər, çertyojları əllərinə ehtiyatla, az qala, ehtiramla götürürdülər, amma bütün bu nəzakətin arxasında hansısa adamayovuşmazlıq, sərtlik hiss olunurdu. Stefan görürdü ki, stol arxasında rastlaşdığı adamlar haqqında mühakimələr yürütməyi xoşlayan atası tanış fəhlələri bircə sözlə də yad eləmir, sanki, mühəndislərlə, vəkillərlə və ticarətçilərlə ziddiyyət təşkil eləyən bu adamlar şəxsiyyətlərindən məhrum edilmişdilər. Bütün bunlardan Stefan nəticə çıxardı ki, onların həyatı («Əsl həyat» – o, bu həyatı belə adlandırırdı) sirr pərdəsinə bürünüb. O, bu «əsl həyat» tapmacası üzərində çox baş sındırırdı, sonra öz təxminini axmaqlıq hesab elədi və bunu unutdu.

Budur, indi, gecə yuxusuz qalarkən və pəncərədən zülmət qaranlığa baxarkən bunu xatırladı. Deməli, onun uşaq sayıqlamalarında nəsə bir məna var imiş, Box kimi adamların əsl həyatları var imiş!

Nə qədər Ksaveriy əmi ateizmi təbliğ eləyirdi, nə qədər Anzelm hirslənirdi, nə qədər atası kəşflər eləyirdi, o özü isə fəlsəfəyə baş vurur və Sekulovski ilə söhbətlər eləyir, «əsl həyatı» dərk eləmək üçün aylarla oxuyur və çənə vururdu, – əsl həyat isə onların bütün dünyasını çiyinlərində saxlayırmış, sanki, göy qübbəsinin atlazı kimi, özü isə hiss olunmurmuş; ayaq altındakı torpaq kimi...Stefan düşündü ki, miflər yaratmağa başlayır, axı xidmətlərin qarşılıqlı mübadiləsi və cəmiyyətdə qarşılıqlı asılılıq var idi. Anzelm kənd təsərrüfatı ilə məşğul idi, Sekulovski yazırdı, o və Ksaveriy əmi müalicə eləyirdilər... amma ani olaraq ağlına bir fikir gəldi ki, əgər onlar hamısı birdən yox olarsa, demək olar

ki, heç nə dəyişməyəcəkdi – bax, Box kimilər olmadan isə dünya yaşaya bilməz.

O biri böyrü üstə aşdı və nəyə görəsə birdən işığın düyməsini basdı. Gecə stolunun üzərindəki lampa yandı – qeyri-adi bir şey yox idi, amma birdən işıq ona rəmz kimi göründü, sanki, Boxun yuxusuz qaldığına şahidlik eləyən işarə idi. Etinasız halda otağa süzülən bu sarı işıqda nəylə istəsən məşğul olmaq və nə haqqında istəsən düşünmək azadlığına zəmanət verən nəsə sakitləşdirici bir şey var idi: nə qədər işıq yanırdı, digər dünyalar, bütün varlıqlardan fərqlənən digər varlıqlar haqqında düşünmək olardı.

«Yatmaq lazımdır, – Stefan qərara aldı. – Mən heç nə düşünə bilmirəm». Təzədən əlini düyməyə uzatdı, amma stolun üzərindəki açıq kitab diqqətini cəlb elədi – «Lord Cim»in[1] birinci cildi; hələlik bu kitabı oxuyub qurtarmamışdı. Lampaya uzatdığı əli düyməni basdı və yenə də zülmət Stefanı ağuşuna aldı. O, birdən düşündü: Box bu kitabı oxuyardımı, amma bu, inanılası deyildi, o hətta zülmətdə acı-acı gülümsədi. Box bu kitabı heç əlinə də götürməzdi, «Lord Cim»in problemlərindən ötrü okeana yola düşməyə ehtiyac yox idi, Konradın bu problemləri kağız üzərində necə həll elədiyinə belə şübhə ilə yanaşardı, axı Box özü onlarla real həyatda qarşılaşmalı olurdu! Bu, ona neçəyə başa gəlir, hansı iztirab və qayğıyla elektrik enerjisini müşahidə eləyirdi, bu haqda heç kimə heç nə məlum deyildi. Necə də xoşbəxtlik idi ki, «əsl həyat» lampalarda işığı saxlayaraq Stefanı zərrəcə də darıxdırmır və zərrəcə də təngə gətirmirdi. Yaxşısı bu mövzuya toxunmamaq və onun haqqında düşünməmək idi, yoxsa yata bilməzdi.

Stefanın düşüncələri dağılmağa başladı. Örtülü kirpiklərinin altından hüdudsuz göyü və dünyanın bütün tufanlarının üzərinə yağdığı evi, Boxun qaşqabaqlı, boz sifətini, sanki, boşalmalar vaxtı alovdan yanan güclü əllərini görürdü və sonra artıq heç nəyi görmədi.

---

[1] «Lord Cim» – polyak mənşəli ingilis yazıçısı C.Konradın (1857–1924) romanı

## MARQLEVSKİNİN MÜHAZİRƏSİ

İsti iyul günlərində xəstəxananı müharibə dövrünün kirayənişinləri ilə doldurdular və yeni gələnlərlə sağalanlar arasında bir tarazlıq yarandı. Günəş günortaçağı düz göyün ortasından asılı qalır, az qala, tam çılpaqlaşana qədər soyunub xəstəxana parkında dolaşan xəstələrin daldalandığı kölgəlikləri isti çənbərlə əhatə eləyirdi. Axşamlar əl nasosunun köməyi ilə onlar üçün sadə bir duş təşkil eləyirdilər. Nasosu bədəncə yeniyetmə və sifətdən qoca olan xəstə baxıcısı, yekəpər böyük Yuzef vururdu.

Stefan günəş şüalarından, sanki, kvars lampası kimi qığılcımlanan kabinetində oturub şöbəyə yeni gələn keçmiş həbs düşərgəsinin dustağını kitaba qeyd eləyirdi. Xoşbəxt təsadüfdən onun qarşısında qapılar açılır, sanki, yalnız ondan ötrü açılırdı ki, onu düşərgənin içərisinə buraxsın. Dəhlizdən keçən Marqlevski onun kabinetinə boylandı və baş verənlərlə maraqlandı.



– Fu-fu, əziz xəstə, üzülüb əldən düşmüş, – o, otağın işıldayan ağlığında əlini bir topa cır-cındırı xatırladan xəstənin başına çəkirdi.

Xəstə fırlanan stulda hərəkətsiz halda oturmuşdu, onun sifətini gözlərindən çənəsinə doğru çəpinə tüklərin içində itmiş iki qırış kəsmişdi.

– Ağıldankəmdir, hə? Səfehdir, hə? – Marqlevski hələ də əlini zavallının başından çəkmədən döşəyirdi.

Stefan yazıdan ayrılaraq laqeyd baxışlarla ona baxdı və sanki, yuxudan ayıldı. Xəstənin bənövşəyi rəngə çalan donuq yanaqları ilə iki iri, çox şəffaf göz yaşı damlası axaraq saqqalının içində yox oldu.

– Hə, – Stefan dedi, – ağıldankəmdir.

Ayağa qalxdı, kağızı stolun bir küncünə fırladıb Sekulovskinin yanına getdi. Söhbətə, bir növ, rabitəsiz halda başladı. Budur, guya, özünün bəzi baxışlarını dəyişib, indi öz intellektual baqajının bir hissəsindən imtina eləməyin vaxtı başlayır.

– Hansısa yanaşmalar artıq köhnəliblər, – öz dönüklüyünə abırsızlıqla don geydirməyə cəhd eləyərək dedi. – Bax mən lap təzəlikcə balaca bir sarsıntı keçirmişəm...

– Keçən il Voydzeviç məni albalı arağına qonaq eləmişdi, mən onda böyük sarsıntı keçirmişdim... şübhələnirəm ki, o, arağın içərisinə kokain səpmişdi, – Sekulovski söhbətə başladı, amma Stefanın sifətinin ifadəsini görüb əlavə elədi: – Doktor, danışın da, mən sizi eşidirəm. Siz axtaran adamsınız və əsl axtardığınızı da tapıbsınız. Dəlixana – həmişə əsrin ruhi vəziyyətinin, sanki, suyunun sıxılıb çıxarıldığı yerdir. Bütün əyintilər, bütün ruhi kənaraçıxmalar və əcaiblik normal cəmiyyətin içində elə əriyib itib ki, onu aşkara çıxartmaq çətindir. Yalnız burada, necə deyim, qəliz yerdə onlar öz dövrlərinin cizgilərini dəqiq çəkirlər. Bax, ruhlar muzeyi...

– Heç də yox, söhbət onda deyil, – Stefan onun sözünü kəsdi və birdən özünü həddsiz dərəcədə tənha hiss elədi. O, lazımi sözləri axtarırdı və onları tapa bilmirdi. – Yox, məxsusən desək, yox... – donquldandı, geri çəkildi və tələsik bayıra çıxdı, sanki, şairin onu saxlayacağından ehtiyat eləyirdi, lakin Sekulovskinin diqqətini hörümçək cəlb eləmişdi: hörümçək çarpayının arxasından çıxıb divarla üzüyuxarı dırmaşırdı. Şair kitabı hörümçəyə atdı, onlar hay-küylə yerə düşəndən sonra isə tük kimi nazik ayaqlarını gərmiş ləkəyə xeyli baxdı.

Qalereyada Stefan Marqlevski ilə rastlaşdı, Marqlevski onu öz yanına dəvət elədi.

– Mən bir şüşə «*Extra Dry*» əldə eləmişəm, – o bildirdi, – bəlkə, mənə baş çəkəsiniz? Boğazımızı yaşlayardıq.

Stefan imtina eləmək istədi, amma Marqlevski bunu, sadəcə, nəzakətsizlik hesab elədi.

– Hə, hə, getdik, başqa söhbət ola bilməz.

Marqlevski Stefanla eyni mərtəbədə, ancaq dəhlizin o biri başında olurdu. Doktorun otağını işıldayan mebellər ağzına kimi doldurmuşdu, şüşə üzlüklü stol bir tərəfdən yeşiklərin qalağına söykənmişdi, digər tərəfdən isə əyilmiş polad borulara, elə bu borulardan da kreslolar hazırlanmışdı. Bütün bunlar Stefana diş həkiminin qəbul otağını xatırladırdı. Yüngül metal çərçivələrdə bir neçə şəkil var idi. İki divarı olduqca səliqə ilə yığılmış kitablar tutmuşdu, hər birinin arxasına da ağ nömrə yapışdırılmışdı. Marqlevski süfrə kağızı ilə alçaq stolun üstünü örtənə kimi Stefan rəflərə yaxınlaşaraq əlinə keçən bir cildi

çıxarıb onu vərəqləməyə başladı. Paskalın «Əyalət məktubları»nda yalnız ilk iki səhifənin arası açılmışdı. Ev sahibi müasir şkafın yeşiyini irəli çəkdi, orada ağ boşqablarda buterbrodlar var idi. Üçüncü qədəhdən sonra Marqlevskinin dili açıldı. Araq yalnız ev sahibinin özünəməxsus söhbət eləmək tərzinə xüsusi çalar verirdi; o, dediklərini əliylə göstərməyi də xoşlayırdı. Məsələn, xalatını ləkələdiyini və onu yumaq lazım olduğunu deyərkən paltaryuyanların elədiyi kimi əlində görünməyən nəyisə ovxalayırdı. Bax indi də, sanki, dirijor çubuğunu fırlayırmış kimi Stefana pəncərə altlığı ilə yanaşı çoxlu yeşikdəki kartotekanı nümayiş etdirməyə başladı. Böyük karton vərəqlərə rəngbərəng sıxaclar keçirilmişdi. Aydın oldu ki, Marqlevski elmlə məşğul olur. Sanki, təsadüfən o, əlyazmaları ilə dolu olan qovluqları bir yerdən başqa yerə yığdı, Vaterloo ətrafındakı döyüşün gedişində sidik kisəsindəki daşın Napoleona təsirini tədqiq eləyirdi, hormonların şiddətli ifrazatının müqəddəslərin kollektiv görüntüsünə necə təsir eləməsini araşdırmışdı, – burada o, barmağını başının ətrafında fırladı, bu da nur anlamına gələ bilərdi və gülümsədi. Stefanın dindar olmaması onu təəssüfləndirdi. O, sadəlövh, təmiz, doqmatikliyə qapılıb qalan adamları axtarırdı. Dəsmala ləkə lazım olan kimi, onlar da ona lazım idilər. O deyirdi:



– Həmkar, axı siz saatlarla Sekulovskinin yanında oturursunuz. Ondan soruşun, nəyə görə ədəbiyyat bizləri belə aldadır? Əziz həmkar, bu haqda az adamlar yazıblar, məhəbbət ona görə belə korlanmayıb ki, o, bu haqda həmin xanıma deməyə utanıb, qəfildən tənhalığa görə darıxmaq tutmaları təsəvvür eləyib və kolluğa can atıb. Mən özüm belə bir hadisə bilirəm...

Stefan maraqlanmaqdan çox, darıxdığından açıq kartotekalara baxdı. Möhkəm aralıq qatlarının arasına diqqətlə hamarlanmış, makinada yazılmış mətnlərlə doldurulmuş vərəqlər qoyulmuşdu. Marqlevski isə elə hey danışır, danışırdı, lakin onun nitqi getdikcə büsbütün rabitəsiz hala gəlirdi. Sanki, o, nəsə başqa şey haqqında düşünürdü. Bir dəfə Stefan hətta onun soyuq, iti baxışlarını öz üzərində hiss elədi. İndi nəyinsə qoxusunu dəqiq alan burnunu qabağa uzadaraq, belini donqarlaşdırıb oturan doktor Ste-

fana özünün yeganə günahını etiraf eləməyə daha səbri qalmayan qarımış qızı xatırladırdı.

Marqlevski danışmağa başlayaraq nitqini latın sözləri ilə elə doldurdu ki, heç nə başa düşmək olmurdu. Onun əsəbi, arıq barmaqları tələsmədən yeşiyin pardaxlanmış qapağını sığallayırdı, sonra o, nəhayət, yeşiyi açdı. Marağın təhrik elədiyi Stefan yeşiyin içərisinə baxdı, orada avadanlıqların siyahısını xatırladan uzun reyestr var idi. O oxumağa macal tapdı: «Balzak – manyaklığa bənzər psixopat, Bodler – isteriyalı, Dante – şizofreniyaya mübtəla, Gete – alkoqolik, Qeladerlin – şizofrenik...»

Marqlevski sirr pərdəsini azacıq qaldırdı. O, dahi adamlar haqqında böyük bir kitab yazmağa əl bulamışdı, hətta bu kitabdan parçaları belə dərc etdirməyə hazırlaşırmış – təəssüf ki, müharibə mane olmuşdu...

O, genealogiya ağacı təsvir olunmuş vərəqləri sahmana salmağa başladı. Getdikcə daha çox qızışmış halda danışır, yanaqlarında qırmızı ləkələr əmələ gəlirdi. Böyük adamların pozğunluqlarını, intihara cəhdlərini, yalanlarını və psixoanalitik komplekslərini elə qızğınlıqla təsvir eləyirdi ki, Stefan ixtiyarsız halda şübhəyə düşdü. Yəqin, Marqlevski özü normadan hansısa kənaraçıxmadan əziyyət çəkirdi və belə şübhəli yolla da dahilərlə qohum olmaq, onların ailəsinə daxil olmaq istəyirdi. O, qeyri-adi diqqətlə böyük adamların bütün yaşam xətalarını toplamış, tədqiq eləmiş və onları uğursuzluq, faciə, bədbəxtlik, həyat səhvləri yeşiklərinə yığmışdı. Ölümündən sonrakı kağızlarda hansısa bir günah haqqındakı ən zəif iz, ya da təxmin belə Marqlevskini inanılmaz dərəcədə sevindirirdi. O, stolun alt yeşiyinin üzərinə cumanda və əllərini hər tərəfə açaraq özünün hansısa bir yeni qəniмətini nümayiş etdirməyə hazırlaşanda, onun sükutundan istifadə eləyən Stefan dilləndi:

– Mənə elə gəlir ki, böyük əsərlər ağılsızlığın nəticəsində yox, onun əksinə olaraq əmələ gəlir...

Marqlevskiyə baxdı və belə dediyi üçün təəssüfləndi. O, başını kağızdan qaldırdı: onun gözləri çuxura düşmüşdü.

– Əksinə?.. – hirslə sözünü uzadaraq dedi. Sərt bir hərəkətlə səpələnmiş səhifələri yığdı, az qala, Stefanın burnunun qabağında qatlanmış diaqramları cıracaqdı, hamısına əsəbicəsinə sıxacları keçirtməyə başladı. Yalnız bu işini

qurtarandan sonra qonağına tərəf döndü. – Biz ən nəhayət, Dirçəliş dövründə yaşamırıq; yeri gəlmişkən, onda da düşünülməmiş hərəkətlər fəlakətli nəticələr verə bilərdi... Siz, çox ehtimal ki, qavraya bilmirsiniz... lakin faktların qarşısında subyektiv baxışları təmizə çıxartmaq olmur.

– Siz nədən danışırsınız? – Stefan ciddiləşərək soruşdu.

Marqlevski ona baxmırdı. O, uzun, nazik barmaqlarını silib gözlərini onlara zillədi. Nəhayət, dedi:

– Siz çox gəzirsiniz... amma bu bejinetskili elektriklər... onların o kərpic evləri... bu xəstəxanaya təkcə pis ad qazandırmaz, Allah bilir, daha nələr gətirər! İş onda deyil ki onlar orada hansısa silahları gizlədirlər, amma bu cavan Poşçik ki quldurdur, adicə quldur.

– Haradan... siz haradan bilirsiniz? – Stefanın dilindən bu sözlər ani olaraq qopdu.



– Mühüm deyil.

– Bu ola bilməz!

– Ola bilməz?! – Marqlevskinin eynək altında gizlənmiş gözləri soyuq bir nifrətlə Stefanı ovub keçirdi. – Bəs siz gizli Polşa haqqında eşidibsinizmi? Londondakı hökumət haqqında? – o, fışıltılı pıçıltı ilə döşəyirdi və onun ağ xalatını sığallayan iri əlləri hər sözdən sonra yüngülcə titrəyirdi. – Burada, meşədə sentyabrda ordu silahı yerə qoydu. Bu silahların qayğısına qalmağı öz üzərinə bu... Poşçik götürdü! Silahların yerinin göstərilməsi tələbindən boyun qaçırtdı! Dedi ki, bolşevikləri gözləyir!

– Elə də deyib?.. Haradan bilirsiniz? – Stefan özünü itirmiş halda təkrar elədi, söhbətin gözlənilmədən dəyişməsindən və Marqlevskinin təhrikindən qulaqları batmış, tamamilə sarsılmışdı.

– Mən bilmirəm! Mən heç nə bilmirəm! Mənim bu işlərə heç bir aidiyyətim yoxdur! – o, qızğın pıçıltı ilə partladı. – Sizdən başqa hamı bu haqda bilir! Həmkar, sizdən başqa!

– Deməк, siz deyirsiniz ora getməyim?.. – Stefan ayağa qalxdı. – Doğrudur, mən bir dəfə tufan vaxtı təsadüfən...

– Mən heç nə bilmirəm! – Marqlevski onun sözünü kəsdi, o da ayağa qalxdı, daha doğrusu, kreslodan qopdu. – Acizanə surətdə xahiş edirəm, bunu həmişəlik olaraq unudun! Mən cəmi-cümlətanı bunu öz yoldaşlıq borcum

hesab elədim, sizsə, necə istəyirsiniz elə də hərəkət eləyin, amma qeyd eləyirəm: müstəsna olaraq qərarı özünüz qəbul eləyin!

– Aydındır... – Stefan mızıldandı. – Cənab doktor, əgər siz bunu istəyirsinizsə... Mən heç kimə deməRəm.

– Onda əlinizi verin!

Stefan yubada-yubada əlini ona uzatdı. Baş verənlər onu kökündən silkələmişdi, amma bu an onu hər şeydən çox Marqlevskinin əsəbiliyi, aşkar həyəcanı sarsıtmışdı. Bəlkə, bu skelet təsadüfən o haqda çərənləmişdi? Bəs onun qəzəbi? Doğrudanmı, o, hansı yollasa gizlin hakimiyyətlə bağlıdır? Necə deyərlər, hansısa bir əlaqə?..

Stefan dəhlizə çıxdı, o, tamamilə çaşmış, özünü itirmişdi. Burada, korpusda elə istiydi, işi-gücü elə hey dəsmalla alnının tərini silmək idi. Ayaqyolunun yanından keçəndə qapının arxasında kiminsə güldüyünü eşitdi. Bu gülüş ona tanış idi. Qapı açıldı və ayaqyolundan gülməkdən səndələyən Sekulovski çıxdı; onun əynində pijama şalvar var idi. Sinəsini örtmüş açıq rəngli tüklərinin üzərində su damcıları oynaşırdı.

– Bəlkə, belə yaxşı əhvalda olmağınızın səbəbini açasınız? – Stefan şüşə damdan süzülüb göy qurşağının bütün rənglərini özündə cəmləşdirən və qırmızı ləkələr şəklində divarların üzərində oynaşan şüalardan gözlərini qıyaraq soruşdu.

Sekulovski divara söykəndi, o, heç cür özünə gələ bilmirdi.

– Doktor... – nəhayət, xırıldadı. – Doktor... bu həmin... ha-ha-ha... bacarmıram. Mənim yadıma düşdü: bizim el... elmi disputlarımız... fenomenlər... fəlsəfə... ulduzlar... ruh və göylər, amma yalnız bu bir yığına baxan kimi, di... bacarmıram! – O, yenidən qəhqəhə çəkdi. – Hansı ruh? İnsan kimdir? Bir yığın! Yığın! Yığın!

Mızıldanaraq – şənlənmənin qıc eləyən tutmaları onu hələ də buraxmırdı – çıxıb getdi, elə hey qəhqəhə çəkirdi. Stefan bir söz demədən öz otağına getdi. Sekulovski onun qanını möhkəmcə qaraltmışdı. «İndi o, hansı kəşfləri eləyir!» – Stefan düşündü. O, indi neyləyəcəyini bilmirdi. Marqlevskinin yanından çıxanda yarımstansiyaya getməyi və Boxu xəbərdar eləməyi qərara almışdı. Əgər sükut

elektrikləri təhlükə altında qoyurdusa, Marqlevsinin verdiyi sözün nə əhəmiyyəti var idi? Lakin Stefan tezliklə heç yerə getməyəcəyini anladı. Box məxsusən kimdən qorunmalıydı? Marqlevskidən? Cəfəngiyatdır. Ona nə deyəcəkdi? Silah gizlətdiyini? Amma əgər bu həqiqətdirsə, Box özü bunu Stefandan yaxşı bilirdi.

Boxu xəbərdar eləmək üçün, ona ehtiyatlı olmağı bildirmək üçün bir neçə gün ən mənasız üsullar düşündü; bəlkə, adsız məktub yazsın, bəlkə, ustanı gecə söhbətinə çağırsın? Amma bütün bunlar bir qara qəpiyə dəyməzdi. Nəhayət, o, sadəcə, əlini yellədi. Amma yarımstansiyaya getmədi, hesab eləyirdi ki, bu haqda Boxa söz verib, amma bir müddət keçəndən sonra yenə də həmin yerlərdə dolaşmağa başladı. Bir dəfə səhər tezdən hündür təpənin üstündə Yuzefi gördü: baxıcı hərəkətsiz halda otların üzərində oturmuşdu, sanki, qarşısında açılan mənzərəyə heyran olmuşdu, amma Stefan onun təbiətin gözəlliklərindən həzz alan adam olmadığını bilirdi. O, gizlincə Yuzefi müşahidə elədi, amma özü üçün heç nəyi aydınlaşdıra bilmədən çıxıb getdi. Artıq müalicəxanaya yaxınlaşanda düşündü ki, Yuzef Marqlevskinin xəbərçisi ola bilər. Adamlarla görüşür – kənddə heç nəyi gizlətmək mümkün deyildi – hə, o, Marqlevskinin şöbəsində işləyirdi, arıq doktor isə təbiəti etibarilə ağciyər olsa da, buna baxmayaraq, onlarla əlaqə saxlayırdı, hətta onların inamını da qazanmışdı. Hərçənd Yuzeflə London hökumətinin ümumi nəyi ola bilərdi? Bunların hamısını başa düşmək çətin idi, fərqli detallar bir yerə sığmırdı, amma Stefan yenə də hiss elədi ki, Boxu xəbərdar etməlidir. Lakin hər dəfə ustayla söhbətinin necə alınacağını fikirləşəndə onu qorxu bürüyürdü.

Həmin bu günlərdə yeni hadisələr müalicəxana həyatının adi ritmini pozdu. Stefan qonşu mənzilin divarı arxasında nələr baş verdiyini maraqla müşahidə eləyirdi. Bu günə qədər boş olan mənzil yeni sakinini, professor Romuald Londkovskini, universitetin keçmiş rektorunu qəbul etməyə hazırlaşırdı. Bu alimin elektroensefalogiya[1] sahəsindəki



[1] Elektroensefalogiya – xüsusi cihaz olan elektroensefaloqun vasitəsilə baş beyində əsəb hüceyrələrindəki bioelektrikin qeydə alınması üsulu

işləri onu Polşanın sərhədlərindən kənarda da tanıtmışdı, on səkkiz il psixiatrik klinikaya rəhbərlik eləyən adamı almanlar vəzifəsindən qovmuşdular. İndi onu müalicəxanada gözləyirdilər – qeyri-rəsmi surətdə, Paençkovskinin qonağı kimi. O, bir neçə dəfə vağzala getmişdi ki, professorun yükünün gələn hissəsini fəxri qarovulla müşayiət eləsin. Londkovski növbəti gün gəlib çıxdı. Nəfəsini çiyinlərindən alan Yuzef mərtəbədən-mərtəbəyə cumurdu; ya nərdivan aparırdı, ya hansısa bir şüvülü, ya da hansısa sürtülmüş xalçanı.

Bütün günü Stefan divarın arxasında çəkicin taqqıltısını, yerlərini dəyişən yeşiklərin səsini və düzülən mebellərin gurultusunu eşitdi. Londkovskinin gəlməsi faktının özünə həkimlər laqeydcəsinə yanaşırdılar. Naharda yalnız milçəklərin qızğın vızıltılarının pozduğu sükut hökm sürürdü. Stefan otağında pəncərənin qabağından nəm cuna asmışdı, bununla da quru və bürkülü havadan qoruna biləcəyini zənn eləyirdi və çarpayıya uzanaraq psixologiya dərsliklərini vərəqləyirdi. Ona tanış olmayan adamların şəkillərinə baxır, aşkar hiss eləyirdi ki, onlar hamısı –onun şəxsiyyətin təkrarsızlığı haqqındakı təsəvvürlərini təhqir eləyən həyatda eyni bir tipin geniş yayılmış növ müxtəlifliyidir. Şəxsi fərqlərə əsas nisbətləri sadə dəyişikliklər gətirir, bir şəxs gözləri ilə xarakterizə olunur, digəri ən çoxu əzələləri ilə, üçüncüsü isə ən əsası yanaqları ilə. Stefan şəhərə gedəndə özündən qabaqda yeriyən adamları özü üçün təsvir eləməyi sevirdi, ən çoxu da qadınları. Bu hərəkətdə olan şəxslərin toplaşdığı küçələr ona saatlarla oynamaq imkanı verirdi.

Heç bir səbəb olmadan Paençkovski ona baş çəkdi və düşüncələrini yarıda qoydu. «Hörmətli kolleqasının» oxuması ilə maraqlandı. Sonra özünün sevdiyi mövzuya keçdi.

– Siz artıq bunu görməyəcəksiniz, – o, qüssəylə dedi, – təəssüf ki, isteriyanın belə güclü, klassik tutmalarına daha təsadüf olunmur. Yadımdadır, Parisdə Şarkonun yanında olanda...

O, son dərəcə təsirləndi. Amma Stefanın tutqun təbəssümünü görüb əlavə elədi:

– Məlum mənada bu hətta yaxşıdır, hərçənd bizdə indiyə kimi isteriya var. Düşünürəm, sadəcə və sadəcə,

psixi pozğunluq axını özünə yeni məc... məcra açıb. Axx, hə... bununla mən nə demək istəyirdim?

Stefan elə başlanğıcdan məhz bunu gözləyirdi, axı qabaqcadan xəbər verilməyən bu təşrif qeyri-adi idi. Və Paypak başladı vird eləməyə ki, Londkovski böyük xadimdir, onun dostları Leşli və Qoldşmidt Amerikadadırlar, indisə almanlar onu küçəyə atıblar.

– Küçəyə... – o, həyəcandan titrəyən səsiylə təkrar elədi. – Bax belə, əvəzində lazımdır ki, biz onu... axı doğrudan da... bizim gücümüz daxilində olan hər şey...

O, növbəsi çatanda gedib rektora baş çəkməyi xahiş elədi.

Paençkovski xəstəxananın bütün həkimlərinə bu xahişlə baş çəkdi.

Elə birinci gecə Marqlevskinin dediyi kimi, «etimadnamələrini təqdim eləmək» üçün getdilər, o özü, Paençkovski və Kayters – yaşlılar kimi. Sonrakı gün, Riqerlə Nosilevskaya getdi. Nəhayət, üçüncü gün Staşeklə Stefan. Kşeçotek tarixdən qabaqkı adətlər mövzusunda nəsə qırıldadırdı, deməyinə görə, hamı bərabər idi, hamı bir yerdə işləyirdi, düşmən qarşısında hamısı biriydi, amma iş gəlib axmaq bir təşrifə çatanda zəhmət çək, yaşına və vəzifənə görə növbəyə dur.



Stefan çamadanının dibindən eşib hansısa bir qorxunc qara qalstuk tapdı, onun üzərindəki ləkəni pencəyi ilə örtdü və onlar yola düşdülər.

Londkovski boynu olmayan arıq şirə oxşayırdı. Təpəli başı gümüşü tellərlə əhatəyə alınmışdı, burun deşiklərində bir dəstə tük vız durmuşdu, burnu əzilmiş kartofa oxşayırdı, sifəti əyri-üyrü dərin qırışlarla şırım-şırım edilmişdi, aşağı sallanmış boz, yüngül qaşları başının hər bir hərəkəti ilə titrəyirdi. Xarici görünüşünə görə Londkovski bir qədər Sokratı xatırladırdı.

Artıq bir neçə həkimin mənzilində olmuş Stefan maraqla professorun yaşayış məskənini nəzərdən keçirirdi, mənzil əlüstü döşənmişdi, halbuki furqon vağzala və geriyə altı dəfə getmişdi.

Bütün divarları tutan kitab şkafları birbaşa qapıdan başlayırdı, rəflər qalın cildlərin ağırlığı altında əyilmişdi. Kitablar, əsasən, qızılı naxışları olan qara cilddə idi. Ən aşağıda da elmi jurnallar qalaq-qalaq yığılmışdı. Rəflərdə

bəzi yerlərdə, sanki, təsadüfən ora salınmış sarı və ya yaşıl cildlər də görünürdü. Yazı stolu pəncərəyə çəp qoyulmuşdu, qabaq tərəfi, sanki, dərsliklərlə hasara alınmışdı. Az qala, hücrə kimi olan bu otağın ciddiliyini xalçalar bir az yumşaldırdı, ot kimi hündür olan, xovlu, rombşəkilli birini birbaşa kandara sərmişdilər, balaca qobelenə oxşayan digəri isə Londkovskinin görünüşünün fonu kimi xidmətini göstərirdi.

Cavanlar salamlaşmaq əvəzinə yaltaqcasına nəsə mızıldandılar. Professor, görünür, dünyadakı hər şey, əslində isə heç nə haqqında canlı danışmağı bacarırdı. Belə çıxırdı ki, onlar onun yanına məsləhət və öyrənmək üçün gəliblər. O, onlardan işlərini, nəylə maraqlandıqlarını soruşdu, əlbəttə, müstəsna olaraq peşəkarcasına, xəstəxana həyatına dəxli olan hər şeydən səylə qaçaraq. O, özünü onlarla tamamilə bərabər aparırdı. Məhz bunun müqabilində də özü ilə onlar arasında kifayət qədər məsafə saxlaya bilirdi. Hətta bir xeyirxahlıq zərrəsi belə onun şəxsi ruhi təkəbbürünü heçə endirə bilərdi. Aşağı rəfdəki iki bürünc başa – Kantın və neandertalın başı – baxanda Stefan hətta bir az dirçəldi.

Divarlardan portretlər asılmışdı, Listerin endirilmiş gözlərində Bayron qüssəsi vardı, Pavlov sinəsində saqqalı sərt tərzdə dimdik dayanmışdı, sifətində qəddarcasına uşaq marağı var idi, Emil Ru isə yuxusuzluqdan əzab çəkən qocaydı.

Cavanların kifayət qədər qaldıqlarını hesab eləyən professor qeyri-adi taktla təzim elədi, onların əlini qısaca, amma qızğıncasına sıxdı və beləliklə, onlar dəhlizə çıxandan sonra öz iradələrinin əksinə olaraq, bir qədər çaşıb-qalmışdılar.

– Lənət şeytana! Böyük adamdır! – Stefan heyrətlənmiş halda dilləndi.

O, dünyəvi baxışlara işıq salan adamlarla əsaslı söhbət eləmək istəyirdi, amma həmsöhbəti gözlədiyi səviyyədə deyildi. Kşeçotekin Londkovskiyə nümayiş elətdirdiyi enerji əriyib yoxa çıxmışdı. Görünür ki, onun kabinetinə girəndən sonra o, öz bədbəxtliyini professorun qapısının arxasında qoymuşdu. İndisə bu bədbəxtlik yenidən onu özünə cəzb eləyirdi. Nosilevskaya getdikcə onu daha çox cana yığmağa başlayırdı. Günəşdə yanmış, etinasız, nəzakətli qadın onun

faciəli – sual dolu baxışlarına təbəssümlə cavab verirdi, bu təbəssüm isə ona heç nə demirdi. O, həmişəlik olaraq yanağın qızarmasını başa qanın axması ilə, ürək döyüntüsünü mədənin dolması ilə izah eləyən həkim kimi qalırdı. Sanki, akkumulyator kimi incəliklə doldurulmuş qadın ona hər bir hərəkəti ilə əzab verirdi. Lakin o, qadınla danışmağa ürək eləmirdi, şəxsi susqunluğu, heç olmasa, onda qeyri-müəyyənliyini möhkəmlədən bir ümid görüntüsü yaradırdı. Stefan artıq çoxdan idi dostunun yanında təsəlliverici – nəsihət verən bir xadim kimi fəaliyyət göstərirdi və bu vəzifəyə vicdanla əməl eləyirdi, hərdənbir hətta bu vəzifənin gözəlliyindən ləzzət alırdı. Bəzən Staşekin hansısa gur qəhqəhəsini izhar eləməsindən, ya da onun çiyinlərini möhkəmcə döyəcləməsindən sonra sataşmağı işə salırdı, amma yubanmadan da özünü ələ alırdı.



İyul təqvimdən düşdü. Avqust günləri, sanki, isti, qızılı alma kimi qısa, ulduzlarla ləkə-ləkə edilmiş qaranlığa qovuşurdu. Dünənki tufandan sonra ildırımın gurultusundan titrəyən ağaclar sakitləşəndən və nəmdən ağırlaşmış otlar sürünüb gələn toranlıqda farağat dayananda Marqlevski təntənəli surətdə Stefanın yanında varid oldu. O, xəstələrin nümayiş etdirilməsi ilə elmi konfrans təşkil eləmişdi.

– Çox maraqlı olacaq, – dedi. – Yeri gəlmişkən, hadisələri qabaqlamaq istəmirəm, həmkar. Siz özünüz görəcəksiniz.

Stefan isə bu gecə Nosilevskayanı öz yanına dəvət eləmişdi. O, Staşekin dözülməz qorxaqlığını darmadağın eləmək istəyirdi, yenə də hər şey boşa çıxdı...

Kitabxanada artıq qırmızı üzlük çəkilmiş kresloları düzmüşdülər. Birinci Riqer gəldi, onun arxasınca Kayters, Paençkovski, Nosilevskaya, nəhayət, Kşeçotek. Artıq başlamaq vaxtı çatanda hamı hündür tribunanın yanında vurnuxan Marqlevskini səbirsiz baxışlarla süzdü; onun kağızları buradaydı, elə bu zaman Londkovski gəldi. Bu, əsl sürpriz idi. Qoca kandardan hamıya təzim elədi, sonra özünü böyük kresloya saldı, əllərini sinəsinin üzərində çarpazladı və donub-qaldı. Öz ümidlərində yanılan Staşeki mükafat-

landırmaq istəyən Stefan özünə elə yer eləməyə çalışdı ki, Nosilevskaya onların ikisinin arasında otursun. Məruzəçi tribunaya yaxınlaşdı, öskürdü, öz kağızlarını eşələyərək, işıldayan polad sağanaqlı eynəyini iştirak eləyənlərə doğru qaldırdı.

Marqlevski güclə sezilən istehzalı təbəssümlə gülümsəyərək danışır, barmaqlarını bir-birinə dolaşdırır və açırdı. Vərəqləri aşırdıqca da mövzuya daxil olur və onun həyəcanı artırdı. O, sözlərin axırını udurdu, latın sözlərini sağa-sola səpir, sonsuz, başsındıran cümlələr quraşdırır, öz qeydlərinə baxmamağa çalışırdı. Stefan maraqla Nosilevskayanın gözəl girdə dizlərinə baxırdı (qadın ayaqlarını bir-birinin üzərinə aşırmışdı). O artıq çoxdan Marqlevskiyə qulaq asmırdı. Bu döyünən səs adama lay-lay çalırdı. Amma budur, məruzəçi tribunadan geri çəkildi.

– İndi isə həmkarlarıma – mən onu necə adlandırıram – xiffətdən ağlını itirmə xəstəliyindən sağalan xəstələri nümayiş elətdirirəm. Buyurun! – O, sərt tərzdə yandakı qapıya doğru döndü.

Oradan albalı rəngində xəstəxana xalatı geymiş yaşlı kişi çıxdı. Qapının tutqun girişində ağ ləkə görünürdü. Dəhlizdə gözləyən baxıcının xalatı idi ağaran.

– Yaxına gəlin, lütfən, yaxına! – Marqlevski saxta lütfkarlıqla xahiş elədi. – Sizin adınız nədir?

– Luka Vinset.

– Siz çoxdan xəstəxanadasınız?

– Çoxdan... lap çoxdan. Bəlkə də, bir il olar! Deyəsən, bir ildir.

– Sizə nə olmuşdu?

– Nə olmuşdu?

– Siz nəyə görə xəstəxanaya gəlmişdiniz? – Marqlevski səbrini basaraq soruşdu.

Bu mənzərəni müşahidə eləmək Stefan üçün asan deyildi. Əlbəttə, bu adam Marqlevskini qətiyyən maraqlandırmırdı, o yalnız bu adamdan ona lazım olan etirafları qoparıb çıxartmaq istəyirdi.

– Məni oğlum gətirib.

Qoca gözlənilmədən tutuldu və gözlərini aşağı saldı. O, bir də başını qaldıranda onun gözləri başqa gözlər idi. Marqlevski dodaqlarını yalayırdı və boynunu hərisliklə

qabağa uzatmışdı, gözlərini xəstənin sarı sifətinə zilləmişdi, sonra əlini sərt tərzdə yelləyərək bir alətin təmiz solosunu uzadan, amma bu zaman orkestri də yaddan çıxartmayan dirijor kimi tamaşaçılara işarə verdi.

– Oğlum məni gətirib, – artıq qoca əminliklə dedi, – ona görə ki... mən görürdüm...

– Siz nə görürdünüz?

Qoca əllərini yellədi. Onun qurumuş boynunda hülqumu iki dəfə aşağı-yuxarı hərəkət elədi. Xəstə açıq-aşkar nəsə demək istəyirdi. Bir neçə dəfə hər iki əlini yuxarı qaldırmaq istədi, işarə ilə öz sözünü təsdiqləmək istəyirdi, amma bu sözləri heç cür deyə bilmədi və hər dəfə də əlləri gücsüz halda yanına düşdü.

– Mən görürdüm, – nəhayət, qoca özünü itirmiş halda təkrar elədi. – Mən görürdüm.

– Gördüyünüz gözəl idi?



– Gözəl idi.

– Siz, hər halda, nəyi görürdünüz? Mələkləri? Cənabi-Allahı? Məryəm ananı? – Marqlevski dəqiq, işgüzarcasına soruşdu.

– Yox... yox... – hər dəfə də qoca etiraz eləyirdi. Sonra da özünün ağ barmaqlarına baxdı. Baxışlarını barmaqlarından ayırmadan sakitcə dilləndi: – Mən alim deyiləm... bacarmıram. Hər şey mən biçənəkdən gedəndə başladı, Rusyakovun malikanəsi oradadır. Orada da məni tapdılar. Orada bütün ağaclar meyvə bağında olduğu kimidir... bilirsinizmi, ağac və dərz qurudulan yer... sanki, dəyişmişdi.

– Ətraflı izah eləyin, o nə olan şeydir?

– Rusyakovun malikanəsinin ətrafı dəyişmişdi. Sanki, elə həminkidir, amma başqa cür idi.

Marqlevski salonu nəzərdən keçirdi. Tələsik və dəqiq, aktyor kənara replika pıçıldayan kimi dedi:

– Psixi funksiyaları pozulmuş şizofrenik, tamamilə sağalmış...

O, nəsə demək istəyirdi, amma qoca onun sözünü kəsdi:

– Mən gördüm... o qədər, o qədər gördüm...

Onun dili topuq vurdu. Alnında tər damcıları görünməyə başladı. O, dalğın halda baş barmağı ilə gicgahını sürtməyə başladı.

– Di yaxşı. Yaxşı. Mən bilirəm. İndisə siz heç nə görmürsünüz, hə?

Kişi başını aşağı saldı.

– Yox, görmürəm, – o, itaətlə təsdiq elədi və bütünlüklə büzüşdü.

– Diqqət yetirməyinizi xahiş edirəm! – Marqlevski tamaşaçılara səsləndi və qocaya lap yaxınlaşaraq onunla ağır-ağır, tələbkarlıqla, fasilə verə-verə danışmağa başladı: – Siz daha görməyəcəksiniz. Siz sağlamsınız, tezliklə evinizə gedəcəksiniz, çünki sizin heç nəyiniz yoxdur, heç haranız ağrımır. Başa düşürsünüz? Oğlunuzun yanına, ailənizə qayıdacaqsınız...

– Deməк, artıq daha görməyəcəyəm?.. – qoca yerindən tərpənmədən təkrar elədi.

– Yox. Siz sağlamsınız!

Tünd-qırmızı xalat geymiş qoca aşkarca kədərlənmişdi, onun sifətində elə ümidsizlik vardı ki, Marqlevski hətta ruhlandı. O, bir addım geri çəkildi, sanki, yaranan effektin qarşısını bədəni ilə kəsmək istəmirdi və yalnız sinəsinə sıxdığı əlinin güclə hiss olunan hərəkətiylə qarşısında dayanan adamı göstərdi.

Qoca birdən barmaqlarını bir-birinə elə sıxdı ki, barmaqları şıqqıldadı və addımlarını ağır-ağır ataraq tribunaya doğru getdi. Özünün iri, kvadrat əllərini tribunanın üzərinə qoydu; xəstəlik günəşdə yanmanı və kobud dəriyə nüfuz eləmiş kiri bu əllərin üzərindən silmişdi.

– Cənablar!.. – dili topuq vuraraq nazik səslə sözə başladı, – axı belə eləmək olmaz... nəyə görə, cənablar mənimlə məşğul olurdular? Mən artıq orada... məni nəsə bütün tərəflərə tullayırdı, bu, elektrik idi, ya orada olan nəydisə... amma bax mən qalsam... Komadakılar çılpaqdılar, oğlum dörd nəfəri yedizdirə bilmir, mən ora niyə gedim? Əgər işləyə bilsəydim, hə, amma əllərim-ayaqlarım qulaq asmır. Mənim nə faydam var? Ömrümün sonuna az qalıb, mənə nə lazımdır, görürsünüzmü, məni burada saxlayın, saxlayın...

Qocanın danışmasından asılı olaraq Marqlevskinin sifəti kəskin dəyişir, sevinc yerini heyrətə verirdi, nəhayət, həyəcan onun güclə qarşısını aldığı qəzəbinin zəncirlərini qırdı. O, baxıcıya işarə verdi, baxıcı cəld qocaya yaxınlaşıb, onun dirsəklərindən yapışdı. Hər bir azad adam kimi qoca

instinktiv olaraq onun əllərinin arasından çıxmaq istədi, amma dərhal da sakitləşdi və müqavimət göstərmədən özünün aparılmasına icazə verdi.

Salona boğuq sükut çökdü, kətan kimi ağarmış Marqlevski hər iki əli ilə burnunun üzərindəki eynəyini dikəldərək, təzə ayaqqabılarını zəhlətökən səslə cırıldadaraq tribunaya doğru getdi, ağzını açmaq istəyirdi ki, arxa sıralardan Kaytersin səsi eşidildi:

– Həmkar, burada xiffət var idi, amma xəstəliyə görə yox, dolu bir boşqaba görəydi!

– Xahiş edirəm məni bağışlayasınız! Mən hələ sözümü qurtarmamışam! Həmkar, öz iradlarınızı sonda bildirə bilərsiniz! – Marqlevski fısıldadı. – Bu xəstə ekstatik şəraitin hakimiyyəti altında idi, onu oyanmış hissləri çulğayırdı, o, indi bunları sizə deməkdə çətinlik çəkirdi... Xəstəlik nəticəsində o, səfeh, demək olar, ağıldankəm idi, mən onu sağaltdım, amma əgər belə demək mümkünsə, onun beyninə yağ sürtməyi bacarmadım... Onun burada söylədikləri ağıldankəmlərdə təsadüf olunan riyakarlıq, hiyləgərlik idi. Xəstəliyinə görə mən onda xiffətin simptomlarını uzun müddət müşahidə elədim...



O, bu qayda ilə hələ çox danışdı. Nəhayət, titrəyən əlləri ilə eynəyini sildi, diliylə alt dodağını sıxdı, dabanları üstə yırğalandı və dilləndi:

– Məxsusən də bu... qurtardım. Həmkarlar, təşəkkür eləyirəm.

Professor dərhal getdi. Stefan saatına baxaraq qətiyyətlə Nosilevskayaya tərəf əyildi və onu öz otağına dəvət elədi. Qadın bir qədər təəccübləndi – gec deyilmi? – Amma hər halda, razılaşdı.

Onlar qapının ağzında toplaşmış həkimlərin yanından keçib-getdilər. Marqlevski Riqerin düymələrindən yapışaraq əsəbi halda nəyisə sübut eləyirdi. Kayters dinməzcə dırnaqlarını gəmirirdi.

– Ağılsızlığa görə əsl xiffət! – Stefan dəhlizə çıxanda eşitdi.

Stefan Staşeki Nosilevskayanın yanında oturtdu, şərab şüşəsini açdı, keksin qalanını boşqablara qoydu və təzəlikcə Skoçinskaya bibinin ona göndərdiyi portağal cövhərini də unutmadı. Bir qədəh içdi, sonra birdən yadına düşdü

ki, üçüncü korpusa baxmalıdır; öskürdü, üzr istədi və vəzifəsini yaxşı yerinə yetirmək hissiylə otaqdan çıxdı.

Bir qədər dəhlizlərdə dolaşdı; düşünürdü: Sekulovskinin yanına getsinmi? Pəncərəyə yaxınlaşdı və böyük Yuzef onu buradaca yaxaladı.

– Cənab doktor, oxx, nə yaxşı ki siz buradasınız. Paşçikovyak, di on yeddincidəki, siz ki onu tanıyırsınız, tərslik eləyir.

Yuzefin özünün terminologiyası var idi. Əgər xəstə özünü narahat aparırdısa, deyirdi ki, o «verir». «Tərslik eləyir» artıq daha ciddi simptom idi.

Stefan on yeddinciyə getdi.

Onlarca xəstə xüsusi bir maraq olmadan xalat geymiş kişinin qurbağa kimi hoppanmasına tamaşa eləyirdi; xəstə döyüşkəncəsinə, amma kimsəni qorxutmayacaq səslə qışqırır, dişlərini qıcıdır, bu tərəfdən o tərəfə yumalanır, ayaqlarını aralı ataraq çarpayının üzərinə yıxılır, mələfəni cırırdı.

– Bəsdir! Bəsdir! Paşçikovyak, nə baş verib? – Stefan mehribancasına sözə başladı. – Siz belə qabiliyyətli, mədəni insansınız, amma şuluqluq salırsınız.

Dəli şübhə ilə ona baxdı. Bu – balaca, cılız, yekəbaş kişiydi, uzun barmaqları vardı, donqarı olmayan qozbel idi. Bir qədər pərt olmuş halda mızıldandı:

– Aaa, demək, cənab doktor, bu gün siz növbətçilik eləyirsiniz? Mən düşündüm ki, doktor Riqerdir. Bağışlayın, daha eləməyəcəyəm...

Riqeri sevməyən Stefan gülümsədi və soruşdu:

– Doktor Riqer sizi nədə razı salmayıb?

– E-e... belə də... daha heç nə olmayacaq, cənab doktor. Bir halda ki siz növbətçilik eləyirsiniz, səs-səmir də olmayacaq.

– Mən növbətçilik eləmirəm... sadəcə, baş çəkdim... – Stefan dilləndi və bu sözləri həddən artıq məhrəm səsləndi, xidməti borc hissinin çulğadığı o sözünə düzəliş verdi: – Di səfehlik eləmək lazım deyil. Mən, ya da doktor Riqer, hamımız birik. Yoxsa sizi indicə cəzalandırarlar. Bu, sizin nəyinizə lazımdır?

Paşçikovyak çarpayının üstündə oturdu, mələfədəki deşiyin üzərini örtərək xırda dişlərini göstərib, səfeh bir

təbəssümlə gülümsədi. Bu, xəstəlik tarixçəsində də qeyd olunduğu kimi, ağıldankəm idi, amma mövcud diaqnostik formullarla ifadə eləmək mümkün olmayan anlamaq qabiliyyəti də var idi. Stefan digər palataya da baxdı. Qapıya yaxın olan çarpayıda xəstəxananın veteranı olan səfeh adyalı başına çəkərək nəsə donquldanırdı. Digər xəstələr oturmuşdular, yalnız biri öz çarpayısının yanında ayaq döyürdü.

Stefan içəri keçdi.

– Hə, necəsən? – adyalın altında donquldayana müraciət elədi.

Balışın üzərində üzgün, üzünü sarı tük basmış, gözləri sarıya çalan və dişsiz ağzı olan adamın başı göründü. Donqultu gücləndi.

– İndi, neçə olacaq... yüz on üç min iki yüz beş vurulsun iyirmi səkkiz min altı yüz otuza?



Bu mərhəmət idi, beli bükülmüş adam başqa üsulla donquldanırdı, qısqanclıqla, az qala, dua eləyirmiş kimi və bir qədər vaxt keçəndən sonra dodaqlarından qırıq-qırıq sözlər qopdu:

– ... on... milyon... altı... iyirmi.... beş...

Stefana yoxlamaq lazım da deyildi. O bilirdi ki, bu, qeyri-adi hesablayıcıdır, altırəqəmli ədədləri heç bir çətinlik çəkmədən bir neçə saniyənin içində vurur və bölürdü. Müalicəxanaya gələndə Stefan ondan bunu necə elədiyini soruşmaq istədi, amma cavabında yalnız əsəbi donqultu eşitdi. Bir dəfə şirniyyatın qarşısında davam gətirməyərək (Stefan ona bir parça şokolad gətirmişdi) dəli öz sirrini açacağına söz verdi. Donquldanaraq və şokoladlı ağız suyunu udaraq o demişdi: «Mənim... başımda elə yeşiklər var... Bu tullanma, hoppanma. Minlər burada... burada kiçikdir... – və tullandı, hoppandı. Və burada. Hazırdır». – «Necə yəni hazırdır?» – Stefan özünü itirmiş halda soruşmuşdu.

... «Riyaziyyatçı» adyalı üstünə örtdü və onun sifəti bir anlığa işıqlandı. O, böyük adam idi. Bir də donquldadı və burnunun altından dedi:

– Deyin də!

Bu, o anlama gəlirdi ki, o istəyirdi ona iki böyük rəqəm desinlər.

– Di... – Stefan insafla iki ədəd dedi və bunları bir-birinə vurmağını istədi.

Dəlinin ağzının suyu axdı, pıçıldadı, ah çəkdi və nəticəni dedi. Tşinetski fikirli halda onun çarpayısının ayaq tərəfində dayanmışdı.

– Deyin də!

Əl çəksin deyə Stefan bir neçə rəqəm dedi. Bəlkə, bu, ona özünü təsdiq eləmək üçün lazımdır? Hərdənbir Stefanı qorxu bürüyürdü; bu anlarda ona elə gəlirdi ki, o, hamının qarşısında günahını etiraf etməlidir, dizləri üstə düşüb onlardan fərqli olaraq, belə normal adam olduğu üçün bəzən sevindiyinə, onları unutduğuna görə onu bağışlamalarını xahiş etməlidir...

Stefanın gedəsi yeri yox idi; Sekulovskinin yanına getdi.

Şair üzünü qırxırdı. Stefan stolun üzərində Bernanosun[1] cildini görüb xristian etikasının dəyərləri haqqında danışmağa başladı, amma Sekulovski ona sözünü qurtarmağa imkan vermədi. Üzü sabunlu halda güzgünün qabağında dayanmış şair elə qətiyyətlə fırçanı yellədi ki, sabun köpüyü hər tərəfə uçuşdu.

– Cənab doktor, bunun heç bir mənası yoxdur. Kilsə qədim terrorist təşkilatıdır; budur, iki min ildir qəlbləri masaj eləyir, bəs nəticəsi nədir? Bəziləri üçün bu, əlamətlərdir, digərləri üçün vəhylər.

Lakin Sekulovskini dahilik problemi maraqlandırırdı. Stefan onun bu haqda dərindən düşündüyünü zənn eləyirdi. Özü özünü dahi hesab eləyirdi.

– Di hə, di hə... Van Qoq... Paskal... Hə, qədim tarixdir. Amma digər tərəfdən siz, insan qəlbinin zibilyığanları, bizim haqqımızda heç nə bilmirsiniz.

«Aha», – Stefan düşündü.

– Öz şagirdliyimdən mən müxtəlif ədəbiyyat qrupları arasında yayılan bir neçə maraqlı, sadəcə, təmiz formaları xatırlayıram. Onların arasında bir gənc yazıçı var idi. O, hər şeyə heyrətləndirici dərəcədə asan nail olurdu. Qəzetlərdə şəkilləri, tərcümə olunması, müsahibələri, təkrar nəşr olunması... Mən bütün bunlara qıcolmaya qədər həsəd aparırdım. Budda yoxluğu görən kimi, mən də nifrəti görməyi bacarırdım. Necə oldusa, bir dəfə sərxoş vaxtı tanış olduq. O artıq tamam istiqanlı olmuşdu, gözləri yaşarmış

[1] Bernanos Jorj (1888–1948) – fransız katolik yazıçısı və publisisti

halda mənim xüsusi, mədəni birisi olduğuma həsəd apardığını etiraf eləyirdi. Mən nəyə görəsə qapalıyam, şeirlərimdə nəyə görəsə sözə xəsislik eləyirəm. Mənim tənhalığım özündə elə bir enerjini gizlədir ki, bu, müstəqillik əlamətidir. Elə səhərisi tanış olduq. Tezliklə o, mənim yazılarım haqqında esse yazdı: *eine Spottgeburt aus Dreck und Feuer*[1]. Tətbiqi sadizmin orijinal şedevri. Əgər qulaq asmaq istəyirsinizsə, hamama gəlin, mən duş qəbul eləmək istəyirəm.

Müəyyən müddətdən bəri Sekulovski Stefanı yanına axşam yuyunması vaxtı buraxırdı, bəlkə də, belə üsulla həkimi təhqir eləmək üçün. O, soyunaraq duşun altına girdi və sözünə davam elədi:

– Cavanlığımda əgər dostlarım məni çox tərifləyirdilərsə, xoşuma gəlmirdi. Onlar susanda isə mən düşünürdüm: oho! Yaxşı, onlar hər tərəfdən öz məsləhətlərini göndərəndə gərək mən buna son qoyum, bu artıq dalandır, oradan heç hara yol yoxdur, mən məhv oluram, onda mən hər şeyin əla olduğunu bilirdim.



O, əlcəklə tüklü sağrılarını sildi.

– Onların içində bir vaxtlar iki yaşlısı var idi. Birincisi, deyəsən, epik idi (bircə dənə də böyük yazı çap elətdirməmişdi), kredit şöhrətindən istifadə eləyirdi. Hamı ona kredit verirdi, yalnız məndən başqa. O, kəpənək kolleksiyası yığırmış kimi aforizmlərin kolleksiyasını yığırdı. Onlar ona «ömür kitabı» üçün lazım idi. O, bu kitabı gənclik illərindən yazırdı, Floberin əlyazmalarına əsaslanaraq orada olan bütün qaydaları və belə olmayanları dəyişdirirdi. Bir həftə ərzində üç sözün yerini dəyişirdi. O öləndən sonra mən bir neçə günlüyə onun əlyazmasını əldə elədim. Siz maraqla baxırsınız, hə? Kəsə deyirəm: bomboş idi, orada heç nə yoxuydu. Nə inadkarlıq, nə arzu, nə də iş. Gopçulara inanmayın, istedadlı olmaq lazımdır. Qoy Floberin taxtabiti qanı ilə çirklənmiş əlyazmalarını mənim burnuma dürtməsinlər; mən ki Uayldın işlərindən xəbərdaram. Hə, Oskar. Siz bilirsinizmi ki, «Doriana Qreyin portreti»ni o, iki həftəyə yazıb?

Sekulovski başını su şırnağının altına tutub qulaqbatırıcı səslə burnunu təmizləməyə başladı.

---

[1] *Burada:* palçığın və alovun qarışığı (*alm.*)

– İkincisi slavyan idi, *in partibus infidelium*[1]. Pen-klubun üzvü idi. Qədim hindlilərin fəlsəfəsini orijinaldan oxuyurdu və fransızca heç də polyakca yazdığından pis yazmırdı. Ona hətta tənqidçilər də hörmət eləyirdilər. Onun nəyə qadir olduğunu bildiyim üçün o yalnız məndən qorxur və mənə nifrət eləyirdi. O, son dərəcə gözəl başlayırdı, mənzərəni təsvir eləyir, adamların qanını qaçırdır, süjet asanca inkişaf eləyirdi, amma iş mütləq gəlib yazılan kağızdan başını qaldırmağa və azca ayağa qalxmağa çatırdı – boş yerə, bircə addım da ata bilmirdi. Bax burada da onun sonu çatdı. O bacarmadı. Başqaları saxtalığı görmürdülər, bax o da düşündü ki, Andersenin çılpaq kralı kimi öhdəsindən gələ biləcək. Amma mən eşidirdim... Boş çəlləyin bu səsini eşidirdim. Siz məni başa düşürsünüz? Özgə şey torpağın üzərində düşüb qalmış ağır əşyaya oxşayır. Artıq ona yaxınlaşanda mən müəyyən eləyə bilirdim: onu qaldıracağam, ya yox? Bu, o deməkdir: mən belə gücə qadirəmmi?

– Bəs bu cəhdlər nə ilə qurtardı?

Sekulovski ləzzətlə sabunlanmış kürəyini qaşıyırdı.

– Deyəsən, uğurla. Doğrudur, qabarma çəkiləndən sonra mən özüm öz yazdıqlarımı bir qədər təəccüblə oxudum... Amma söhbət, başlıca olaraq, üslubdan gedirdi. Nəsillər arasındakı fərq ona aparıb çıxarır ki, hansısa zamanda yazırlar: «Səhər qızılgül qoxusu verirdi». Yeniləri gəlir: oho, tərsinə çevirirlər! Və hansısa zamanda yazırlar: «Səhər sidik qoxusu verirdi». Amma üslubsa elə həminkidir! Bu əsla islahat demək deyil. Yenilik bunda deyil.

O, isti su şırnağının altında suiti kimi fınxırdı.

– Hər bir şeyin qadınlarda olduğu kimi skeleti olmalıdır, amma elə skelet ki, onu əlləşdirmək mümkün olmasın... qadınları olduğu kimi. Gözləyin, mən gözəl bir əhvalat xatırladım. Srağagün doktor Riqer oxumaq üçün mənə bir neçə köhnə ədəbiyyat jurnalı verdi. Bu necə də məzəliydi, doktor, necə də məzəliydi! Hər bir sözü əminliklə deyən bu tənqidçilər güruhu; hansı ki tarix onların sözləri ilə yazılır, hərçənd ən yaxşı halda dünənki sərxoşluqdan sonra hıçqırıq kimi bir şey idilər. Au! – Köpük onun saçlarına yapışmışdı. Qarnını riqqətlə masaj eləyir, sözünə də ara vermirdi: – Mənim o illərlə bağlı xatirələrim çox acıdır, yaxşı ki,

[1] Dinsizlər ölkəsindən (*lat.*)

balzamda isladılmış məlhəm yaranı qaysaqlandıran kimi, tale də onları qaysaqlandırdı. Siz eşidibsinizmi?.. Yeri gəlmişkən, adları sakit buraxaq. Qoy özüyçün tabutda yatsın, hansı ki mən bizi... – o, kobudcasına güldü, bəlkə də, çılpaq olduğuna görə. Yaxalanaraq xalatını götürdü və sakitcə dedi: – Mən, sanki, yer üzündə həyasız bir məxluq idim, amma həqiqətdə isə qətiyyətsizlik özü... Onda insan ideologiyanı özünə bir dəstə qalstukun içindən seçən kimi seçir: rənginə və puluna görə. Mən elə müdafiəsiz zavallı idim... Bizim başımız üzərində isə yaşlı nəslə mənsub olan bir tənqidçi parlaq ulduz kimi şəfəq saçırdı. O, elə yazırdı ki, Hafiz parovozu bu cür tərənnüm edərdi. O, on doqquzuncu əsrin nümayəndəsi idi, bizim atmosfer ilə nəfəs alırdı, onun əli dahilərə çatmırdı. Bizləri – gəncləri isə görmürdü. Təklikdə biz hesabdan deyildik, onun bizə təzim eləməsi üçün onumuz bir yerdə olmalıydıq. Doktor, bu, maraqlı tip idi. Sadəcə, anadangəlmə yazıçı idi, onun istedadı da, istənilən vəziyyətə görə dəqiq metaforası da, yumoru da var idi və şəfqət hissindən tamamilə məhrum idi. Ən mühümü budur: belə olan halda dibsiz, geoloji dərinlikdən baxıb istənilən tufanı təsvir eləmək olar. Zərrəcə də həyəcanlanmırdı. Ehtirasını cümlələrə təpişdirirdi – demək, bu, istənilən şeyi məhv eləyirdi. O, belə idi: o, hansısa bir metaforanın xatirinə istənilən kitabı onun müəllifi ilə birlikdə eşməyə hazır idi. Siz soruşarsınız: öz rəyinin əksinə olaraq? Siz sadəlövhsünüz. – Sekulovski böyük diqqətlə saçlarını darayırdı, – mən bu gün dəqiq bilirəm ki, o, heç nəyə inanmırdı. Niyə? O, balaca bir çarxı olmayan çox gözəl saat kimi idi, balaca çəki daşı olmayan yazıçı. Onda Polşanın Konradı olmaq üçün cəfəngiyat çatışmırdı, amma bunu düzəltmək olardı.

Sekulovski köynəyini geydi.

– Onda mən Allahı itirdim. İnanmağa son qoymadım: mən onu bəziləri qadını itirən kimi itirdim – geri qaytarmaq üçün səbəb və imkan olmadan. Mən onda əzab çəkirdim, mənə peyğəmbərlik eləmək lazım gəlirdi. Bu, azacıq da davam eləsəydi, mənim axırıma çıxacaqdı. Hər şeydən əvvəl: o, nəyəsə inanırdı. Özünə. O, bu inamı özündən bəzi qadınlar özlərindən qadınlıqlarını şüalandırdıqları kimi şüalandırırdı. Bununla belə, o həddə qədər şöhrətlənmişdi

ki, həmişə haqlı olurdu. O, mənim ona apardığım bir neçə şeri oxudu və onları qiymətləndirdi. Biz toxa və günəş kimi bir-birimizə qarşı durmuşduq. Mən iti toxa idim. – O, qalstukunu səliqəsiz halda bağlayaraq gülümsədi. – O, bunları sadə elementlər kimi tərkib hissələrinə ayırdı, onları eşələdi və onların nəyə görə qara qəpiyə də dəymədiklərini izah elədi. Nəhayət, tərəddüd eləyərək mənə yazmağa icazə verdi. O, mənə icazə verdi, başa düşürsünüz? – Sekulovski bütünlüklə sifətini büzüşdürdü. – Axx, bu, köhnə əhvalatdır. Amma mən necə ki bu gün gənclər üçün onun adının cəfəngiyat olduğunu düşünürəm, ləzzət alıram. Bu qisasın alınmasına heç kim bir zərrə də əlavə eləməyib, bu qisası həyat özü alır. Bu qisas tədricən yetişib; meyvə kimi: bundan şirin heç nə tanımıram və özümdən çox razıyam, – şair dəvə yunundan olan pencəyinin gümüşü iplərini bağladı.

– Nədir, siz düşünürsünüz ki, müasirlərdən heç kim dahi insanı qiymətləndirmək iqtidarında deyil? Van-Qoqun taleyi əbədi təkrar olunacaq?

– Mən haradan bilim? Otağa gedək, bura elə istidir, nəfəs almalı deyil.

– Mən güman eləyirəm dəlilərin çoxu aşkar olunmayan dahilərdir: sizin ifadə elədiyiniz kimi, onlara hansısa bir balaca çəki daşları kifayət eləmir. Bax, deyək, Morek...

Stefan kəmağıllığa düçar olmuş hesablayıcı haqqında danışdı. Sekulovski hirslə onun sözünü kəsdi:

– Bu da mənə dahi tapıb! Birbaşa sizin Paençkovski kimi, yalnız başqa vəzifədə.

– Paençkovski, nə demiş olsalar belə, psixiatriya sahəsində böyük adamdır... xüsusilə onun şizofreniya üzrə işləri, – Stefan qəzəbləndi.

– Hə, hə. Əksər alimlər – məhz bax belə hesablayıcılar kimidirlər. Doğrudur. Ağızlarının suyunu axıtmırlar, amma onlar öz ixtisaslarına qapanıb qalıblar... mənim tanış bir lixenoloqum var idi. Siz, bəlkə də, bunun nə olduğunu bilmirsiniz? – gözlənilmədən Sekulovski soruşdu.

– Bilirəm, – Stefan cavab verdi, əslində isə bilmirdi.

– Di... otlarla məşğul olan, şibyələr və mamırlar üzrə mütəxəssis, – bununla belə, Sekulovski izah eləməyi vacib bildi. – Müqəvvanın birisi, səfeh. Onun latın dilində bildikləri

yalnız təsnifləşdirməyə kifayət eləyirdi; fiziologiyadan yalnız onu bilirdi ki, onsuz məqalə yaza bilməzsən, siyasətdə isə öz arabaçısından başqa kimləsə danışa bilməzdi. Göbələklər haqqındakı söhbət başqa mövzuya keçəndə o, cansıxıcı adam olurdu. Bizim dünya bu cür dahi hesablayıcılarla qarışqa kimi qaynaşır, onlar özlərinin dəyərsiz qabiliyyətlərini vur-tut ictimai tələbatı ödəməyə cavab vermək üçün uyğunlaşdırıblar, bax onlara da dözürlər. Ədəbiyyatda belələri kifayət qədərdir, onlar paltaryuyan qadına nəsihətnamə yazırlar, onu tərifləyirlər və ölümlərindən sonra bunların nəşr olunacağını güman eləyirlər... bəs həkimlər?

Stefan Sekulovskidən daha hansısa bir maraqlı formulu qopartmaq üçün həkim praktikası əhatəsindən kənara çıxmağa cəhd elədi, amma bu, kobud cavabla nəticələndi. Dilxor olmuş Stefan yuxarı, öz otağına getdi.

«Yalnız Sekulovski məni çaşdırmağa qadirdir», – Stefan buna heç bir əsas olmadan düşündü. O, kiminləsə vaxtını keçirmək istəyirdi və qərara aldı ki, otağında nələr baş verdiyini öyrənsin. Dəhliz boş və qaranlıq idi. Öz qapısına barmaqlarının ucunda yaxınlaşdı; sakitlik idi. Nəyinsə xışıltısı gəlirdi – dondur? Adyaldır? Sonra hansısa səs – sanki, iynənin ucundan porşen çıxdı: şapalaq səsi. Sonra yenə tam sakitlik və hıçqırtı. Hə, orada kimsə ağlayırdı. Nosilevskaya? Bunu o, özüyçün təsəvvür eləyə bilmirdi. Stefan astadan qapını döydü, ancaq heç kim cavab vermədiyindən, bir daha döydü və içəri girdi.

Stolun üstündə yalnız şam yanır, otağı zəif limon rəngli yarıqaranlığa bürüyürdü, güzgü yüngül işığın geniş zolağını divara qaytarırdı. Portağal şirəsinin şüşəsi yarıya qədər boşalmışdı, yaxşı əlamət idi. Yataq dağınıq haldaydı, sanki, buradan qasırğa keçmişdi, amma Nosilevskaya haradaydı? Çarpayıda Staşek tək uzanmışdı, paltarını soyunmamışdı, başını balışın içərisində gizlətmişdi və ağlayırdı.

– Staşek, nə olub? O haradadır? – Stefan çarpayıya doğru qaçaraq heyrətlə səsləndi.

Staşek daha ucadan hıçqırdı.

– Di danış görüm danış, nə olub?

Hələ də hıçqıraraq Staşek şişmiş və allanmış sifətini Stefana doğru döndərdi, sifətindən ümidsizlik oxunurdu.

– Əgər sənə... əgər mən bacararamsa... əgər sənin...

– Di, nəhayət, danış görüm! Hə!

– Demərəm! Əgər səndə, heç olmasa, mənə qarşı zərrəcə dostluq hissi varsa, biz heç... biz heç vaxt bu haqda danışmamalıyıq.

– Axı nə baş verib?! – Stefan qışqırdı, nəhayət, maraq onu hövsələdən çıxardı.

– Mən bədbəxtəm!.. – Staşek mızıldandı və birdən bağırdı: – Demərəm! İndi mənimlə danışma! – və balaca balışı sinəsinə sıxaraq qaçıb getdi.

– Balışı ver, alasəfeh! – onun arxasınca Stefan qışqırdı, amma addım səsləri pilləkənlə üzüaşağı diyirlənirdi.

Stefan kresloya oturub ətrafa boylandı, hətta düşünüb adyalı yuxarı qaldırdı, balışı qoxuladı, amma heç bir kəşf eləyə bilmədi. Maraq onu yandırıb-yaxırdı. Nosilevskayanın yanına getmək istədi, amma fikrini dəyişdi. Bəlkə, səhərəyaxın Staşek sakitləşəcəkdi... bəlkə, onun görünüşündən nəsə başa düşmək olacaqdı...

Bəlkə də, heç nə – o, öz-özünə etiraz elədi.

## ATA VƏ OĞUL

Avqust keçdi. Şumlanıb sürülmüş tarlalarda peyin topaları nəhəng köstəbəklər kimi qaralırdı. Lap pəncərənin qabağındakı söyüd ağacına xəstəlik düşmüşdü, onun həddən artıq tez saralan yarpaqları qara çopurlarla örtülmüşdü. Stefan pəncərənin qabağında donub-qalaraq bıçağın tiyəsi kimi iti olan üfüqlərə baxırdı. İndi tez-tez onu yerindəcə donub-qalma hissi bürüyürdü, gözlərini göyə zilləyərək uzun müddət ən münasib olmayan vəziyyətdə donub-qalır, pəncərə çərçivəsinin haşiyəyə aldığı ölgün bir aydınlıqda fırlanan toz zərrəciklərinin əmələ gətirdiyi naxışlara baxırdı.

Nosilevskaya Stefandan onun üçün yeni daxil olan xəstənin xəstəlik tarixçəsini doldurmağı xahiş elədi. O, vaxtını öldürmək istəyirdi və həvəslə razılıq verdi.

Xəstənin qarasaçlı, arıq cavan qız olduğunu demək, onun portretini təhrif eləmək olardı. O, donlarını krujevalarla bəzəyən və kişilərin diqqətini öz üzərində cəmləyən arıq kənd yeniyetmələrinə oxşayan qız idi. Bu on səkkiz yaşlı

şizofreniyalı qızın bütün gözəlliyi onun qara və hərəkətsiz gözlərində idi. Onun əlləri həmişə üzünün yanında olurdu və barmaqlarının titrətdiyi ovcunun içi isə sanki, sısqa göyərçinlər kimi ya yanaqlarına qonurdu, ya da balaca çənəsinə. Onun bütün gözəlliyinin yoxa çıxması üçün baxışlarını onun gözlərindən çəkmək kifayət eləyirdi.

Xəstələrə müntəzəm olaraq baş çəkməsi Stefana məmnunluq bəxş eləyirdi. Bununla belə, o nə qədər müqavimət göstərirdisə, qız onu bir o qədər də çox cəlb eləyirdi. Bədbəxt, faciəli məhəbbət (ona nail olmaq çətin idi, hər halda, baş verdi), onun güzgülər dünyasında çəkdiyi bunca iztirablar qızı qəddar dünyadan qaçmağa məcbur eləyirdi. O, öz şəxsi əksinə əsaslanmaq istəyirdi.

Qız Stefana hirslənmirdi, bilirdi ki, onda həmişə nikelli balaca güzgü olur. O, qıza güzgüyə baxmağa icazə verirdi.



– Orada belə... belə... belə gözəl... – qız pıçıldayır və onun titrəyən barmaqları elə hey gah qaşlarına, gah da saçlarına toxunurdu. O, gözlərini güzgünün işıltılı səthindən çəkə bilmirdi.

Qız Stefana onun şəhərdəki dostlarının bir neçə tanış qadınını xatırladırdı. Onlar səhərdən axşama qədər güzgünün qabağında oturub cürbəcür gülüşlərini nümayiş elətdirir, gözlərinin parıltısını öyrənir, hər bir xallarını, hər bir qırışlarını tədqiq eləyirdilər, sanki, distillə cihazını ovsunlayıb nə vaxt onun qızıla dönəcəyini gözləyən kimyaçı kimi burada nəyisə sığallayır, orada nəyəsə ehtiyatla toxunurdular. Əlbəttə, xəstəlikdən irəli gələn sırtıqlıq idi, necə olmuşdu ki, əvvəl bu haqda düşünməmişdi? Doğrudur, bunlar beyinsiz arvadcığazlar idi, amma bütün nevrasteniyalı[1] adamların intelligentlik haqqında söhbətləri hamısı cəfəngiyatdır.

«Əsəbi gicbəsər olmaq olar», – Stefan hirslə düşündü, çünkü bu, belə bir etirafa oxşayırdı: «Və mən şəxsən elələrindənəm».

Qız saatlarla vannada otururdu, çünki oradan güzgü asılmışdı. Oradan qovulan qız qapının altında gizlənir və qapını açan hər kəsin üzərinə tullanır, dua eləyirmiş kimi

---

[1] Nevrasteniya – əsəb sisteminin zəifləməsi nəticəsində əmələ gəlib, tezyorulma, əsəbilik, başağrısı və s. şəklində təzahür edən əsəb xəstəliyi

əllərini sinəsində çarpazlayır və öz əksinə baxmaq üçün icazə istəyirdi. O, bircə dənə də nikellənmiş səthi baxmamış ötürmürdü.

Bir müddətdən bəri Stefana yuxusuzluq əziyyət verməyə başlamışdı. O, yataqda xeyli oxuyur, özünü yorub əldən salmağa çalışırdı, amma yuxu gəlmirdi, nə vaxtsa yuxu gələndə də ona elə gəlirdi ki, uçuşan gecə mığmığalarının arxasında kimsə hərəkətsiz halda dayanır. Stefan orada heç kimin olmadığını bilirdi, amma yuxunu, elə bil, əl ilə götürürdülər və yalnız dan yeri söküləndə, quşların ilk cəh-cəhlərinin sədaları altında o, narahat mürgüyə qərq olurdu.

Sentyabrın 29-dan 30-na keçən iri ulduzlarla al-əlvan bəzənmiş gecə o, həmişə olduğundan tez yuxuya getdi. Tezliklə aydın olmayan həyəcan onu yuxudan oyatdı. Pəncərədə ağımsov şəfəqlər közərirdi. Stefan geyinmədən gecə paltarında pəncərəyə doğru qaçdı. Müalicəxananın lap qapılarına kimi gələn çınqıl döşənmiş yolda faraların divarda əks olunan işığında yaxşıca seçilən kamuflyaj rəngə boyanmış iki böyük yük maşını dayanmışdı, maşınların motoru işləyirdi. Qapının yanlarında tutqun rəngli dəbilqələr geymiş almanlar dayanmışdı. Qapının üzərindən sallanan günlüyün altından bir neçə zabit çıxdı. Biri nəsə qışqırdı. Motorlar uğuldadı, zabitlər maşınlara əyləşdilər, əsgərlər hər iki tərəfdən maşınların böyründəki pillələrin üzərinə sıçradılar. Faranın işığı ləklərin üzəriylə sürüşdü, qabaqda gedən maşını qamçıladı – bu, bir anlığa davam elədi. Parlaq işıq qaranlıqda oturanları aşkara çıxartdı; Stefan iki dəbilqənin arasından çılpaq başı gördü və onun sahibini tanıdı. İşıq sütunları qapıya toxundu, qapının yanında işıqdan gözləri qamaşan, şapkasını əlində tutmuş keşikçi dayanmışdı. Sonra motorlar artıq şosedə uğuldamağa başladı. Bir daha döngədə faraların işığı qaranlıqdan bir anlığa yaşıl ağacların cərgəsini, yarpaqların hərəkətsiz krujevalarını aşkara çıxartdı, gövdələrin yastı kölgələri qaçışmağa başladı, ən nəhayət, bürünc xaç ağ şəfəqlə işıldadı və dərhal da yoxa çıxdı. Yenidən üfüqlərin lap özündən tutmuş bütün ətrafa nəhəng qulaqdakı qan

kimi döyünən sükut çökdü, bu sükutu sisəklərin xışıltısı pozurdu. Stefan asılqandan plaşını götürdü, gedə-gedə onu əyninə keçirtdi və ayaqyalın dəhlizə qaçdı. Həkimlər hamısı birinci mərtəbədə yığışmışdı; ara vermədən bir-birini sorğu-suala tutmuşdular, nəsə qışqırırdılar, əməlli-başlı bir şey ayırd eləmək mümkün deyildi. Amma tədricən məsələ aydınlaşırdı: müalicəxanaya Ovsyanda məskən salmış xüsusi dəstədən olan esesçilər gəlmişdilər. Onlar özləri ilə birlikdə yarımstansiyada həbs elədikləri fəhləni gətirmişdilər, digərlərini də axtarırdılar. Marqlevski uca səslə elan elədi ki, bu andan etibarən kimsə meşəyə getməməlidir, çünki esesçilər meşəni axtaracaqlar, onlarla zarafat eləmək isə pis nəticə verər.

Müalicəxanada axtarış aparmadılar, yalnız korpusları dolaşdılar və Paençkovski ilə söhbət elədilər.



– Onların zabiti qamçını qarşısında mənim dayandığım stolun üstünə v... vurdu, – o danışırdı, onun sifətində qan əlaməti yox idi, gözlərinin altı kölgələnmişdi.

Həyəcan tədricən sakitləşdi və hər şey keçib-getdi. Marqlevski Stefanın yanından keçəndə dayandı, sanki, nəsə demək istəyirdi, amma yalnız başını məşumcasına yırğaladı və dəhlizdə yox oldu.

Stefan, onsuz da, səhər açılana kimi gözlərini yuma bilmədi. Qızdırmalı adam kimi titrəyirdi, onlarca dəfə gözlərini möhkəmcə yummuş və yaddaşında qısa gecə səhnəsini canlandırmışdı, bu mənzərəni seyr eləyəndə artıq həbs olunanın Box olduğuna inanmaq üçün özünü dilə tuta bilmirdi. İkinci mərtəbədən onun kvadrat başını gördüyünə zərrəcə də şübhəsi qalmamışdı. İnildəməmək üçün Stefan bütün gücünü səfərbərliyə alırdı, qorxunc məsuliyyət hissi nəhəng ağırlığı ilə onun üzərinə çökürdü. Əzabverici günah hissindən azad olmaq üçün onu kiminsə üstünə atmağa qarşısıalınmaz bir arzu hiss eləyib, səhərin gözü açılan kimi Sekulovskinin yanına getdi, amma o, Stefana ağzını da açmağa imkan vermədi. Şair açıq-aşkar öz boşqabında deyildi və Stefan kandardan içəri ayaq qoyan kimi də qışqırdı:

– Siz neyləyirsiniz, görmürsünüzmü mən yazıram? Əcəb işdir, yenə də mən «mövqe tutmalıyam»?! Kim nə bacarırsa, onu da eləyir. Şair – bədbəxt olmağı gözəlcə

bacaran adamdır. Doğrudanmı, siz elə güman eləyirsiniz ki, bu müharibədən sonra bütün meşə axillesləri cəngavərə dönəcəklər? Furiyalar[1] sizdən yaxşı deyildi, amma mən onları başa düşürəm; onlar, heç olmasa, azından qadın idilər! Ən nəhayət, məni rahat buraxın!

Stefan buradan döyülübmüş kimi getdi. «Mənə yerində olur», – dəhlizlə gedərkən düşünürdü. O nə lazımsa, qurban verməyə hazır idi, təki yarımstansiyaya baş çəkə biləydi. Stefan başa düşürdü: bir halda ki müalicəxanada elektrik var idi, deməк, yarımstansiyada kimsə olmalıydı, orada kimsə Boxun əvəzində işləyirdi. Bəlkə, bu kimsə bilirdi?..

Öz şəxsi fikirlərindən gizlənməyə çalışan Stefan kişi korpusunun ən uzaq küncünə getdi. Döşəmədəki qırmızıtəhər ləkə onun diqqətini cəlb elədi, amma baxanda bunun qan olmadığını başa düşdü.

Gənc şizofrenik gildən nəsə düzəldirdi. Stefan onun işini xeyli müşahidə elədi. Cavan oğlanın sifəti etinasız idi. Sarıtəhər, balaca və sərt cizgilənmiş görkəmi ilə onun sifəti canlı maskaya oxşayırdı. Hərdənbir o, gözlərini yumur və donub-qalırdı – hətta qaşları belə titrəmirdi, sonra başını qaldırır və həris barmaqlarını gilin üzərində gəzdirirdi. Onun ağzının sallaq künclərində hansısa bir dinclik hiss olunurdu. Xəyallar artıq onu təqib eləmirdi, cümlələr onun ağzında dağılırdı, o artıq ətrafındakılardan nəsə cavab ala bilmək iqtidarında deyildi, hər şeydən təcrid olunmuşdu. Yalnız kütlədə və yaddaşını itirən adamlarda təsadüf olunan etinasızlığın yüksək dərəcəsi oğlana öz işi ilə baş-başa qalmaq imkanı vermişdi, sanki o, hücrəyə çəkilmişdi. Dairəvi stolun üzərindəki yastı dairədən onların qarşısında təmtəraqlı qanadı olan mələk ucalırdı. Boğulan quşun qanadları kimi olduqca geniş açılmış qanadlarında, sanki, bir qorxu gizlənmişdi. Mələyin qotik üslubda gərilmiş sifəti gözəl, sakit idi. Aşağı sallanmış əlləri ilə – sanki, bu əlləri onda ikrah doğururdu – o, körpənin boğazından yapışıb boğurdu.

– Bu nədir? Sən bunun adını nə qoyubsan? – Stefan oğlandan soruşdu.

Oğlan dinməzcə baş barmağı ilə gili sildi. Küncdən böyük Yuzef səsləndi: xəstələr həkimə cavab verməyə borcludurlar.

---

[1] Furiya – qədim yunan mifologiyasında intiqam ilahəsi

– Bir halda ki cənab doktor soruşur, dərhal cavab ver, – oğlana tərəf ağır-ağır addımlayaraq xatırlatdı.

Yuzef xəstələrin ətrafına dolanıb gəlmədi, xəstələr özləri ona yol verdilər. Oğlan dillənmədi.

– Mən sənin cavab verə bildiyini bilirəm. Dərhal danış, yoxsa sənin bu kuklanı!... – o qolaylandı, sanki, fiquru atmağa hazırlaşırdı. Oğlan yenə də dillənmədi.

– Hə-hə, – pərt olmuş Stefan söhbətə qarışdı, – lazım deyil. Siz, Yuzef, növbətçi otağına gedin və iki ampula şprislə sinini gətirin, tibb bacısı sizə verər.

O, oğlanı təhqir üçün nə cürsə mükafatlandırmaq istəyirdi.

– Bilirsən, çox gözəl, – Stefan dedi, – çox gözəl və qəribədir.

Xəstə belini bükdü, saçları tərləmiş alnına yapışmışdı, alt dodağının altında hansısa bir kölgə böyüyürdü – şübhə kölgəsi.



– Mən bunu başa düşmürəm, amma bəlkə, sən nə vaxtsa mənə başa salarsan? – Stefan psixiatriyanı unudub dedi.

Oğlan küt baxışlarını gilə bulaşmış barmaqlarına dikdi.

Tamam çaşıb-qalmış Stefan özü üçün də gözlənilmədən ən adi qayda ilə əlini oğlana uzatdı.

Oğlan, deyəsən, qorxdu, əlini çəkdi və stolun altına saldı. Stefan pərt halda ətrafa baxdı ki, görsün palatada xəstələrdən başqa kimsə varmı. Amma bu zaman oğlan cəld və yöndəmsiz halda stolun üstündən atıldı, az qala, heykəli aşıracaqdı və Tşinetskinin əlindən yapışdı. Sıxmadan buraxdı, sanki, əlini nəsə yandırdı. Sonra heykələ tərəf döndü, daha həkimə diqqət yetirmirdi.

Ertəsi gün Yuzef palataya girən Stefandan soruşdu.

– Cənab doktor, bu gilin adının nə olduğunu bilirsinizmi?

– Necə? Ax, hə? Nə? Nə?

– Mələk-boğucu.

– Necə?

Yuzef təkrar elədi.

– Maraqlıdır, – Stefan dilləndi.

– Burada maraqlı nə var? O əclaf dişləyir, – Yuzef iri əllərindəki qırmızı ləkələri göstərdi.

Stefan heyrətləndi, axı o, baxıcıların bütün sınaqdan çıxmış üsullarını bilirdi, yaxşısı xəstənin qolunu sındır-

maqdır, nəinki ona özünü cırmaqlamağa imkan vermək – onların devizi belə idi. Oğlan, yəqin, lap cana yığılıbmış. Amma yəqin, payını da artıqlaması ilə almışdı. Baxıcıları min dəfə başa salsalar və xəbərdarlıq eləsələr də, onlar gizlincə, həkimlər görməyəndə intiqam alırdılar və onları bezdirən xəstələri qəddarlıqla döyürdülər, həm də hiylə ilə. İz qalmasın deyə adyalın üstündən vururdular, ya da vannada. Stefan bunu bilirdi və istəyirdi oğlanın döyülməsini ciddidən-ciddiyə qadağan eləsin, amma bacarmırdı, rəsmən döymək qadağan idi, amma baxıcıların «üsullarına» müdaxilə eləmək onların ixtiyarlarında deyildi.

– Bilirsinizmi... bu oğlan...

– Mələyi olan oğlanmı?

– Hə... belə ki, siz... ona göz-qulaq olun, kimsə onu incitməsin...

Yuzef özünü təhqir olunmuş hesab elədi. Onda Stefan yumruğunu cibindən çıxartdı, yumruğunda əlli zlotı[1] sıxılmışdı. Yuzef yumşaldı. O başa düşür. Əvvəl də göz-qulaq olurdu, amma indisə doğmalarına baxdığı kimi...

Onlar palatanın qapısı ağzında dayanmışdılar. Ətraflarında xəstələr gəzişirdilər, amma hər şey eləydi ki, sanki, onlar tam bir tənhalıqdaydılar. Yuzef bükülmüş pulu hiss olunmadan gizlədənə kimi Stefan öz cəsarətindən nəfəsi tutulmuş halda, dəyişən səslə dilləndi:

– Yuzef, siz təsadüfən onun – keçən gecə almanların həbs elədiklərinin necə olduğunu bilmirsiniz ki?.. Siz bilirsiniz...

Onların baxışları qarşılaşdı. Stefanın ürəyi sinəsindən çıxmağa hazır idi. Yuzef isə, deyəsən, daha nəsə gözləyirdi. Gözlərində maraq qığılcımları alışıb-yandı, dərhal da təcrübəli baxıcı sönük təbəssümlə gülümsədi.

– O qulaqsız, elektrikdə işləyən Box? Cənab doktor, siz onu tanıyırsınız?

– Tanıyırdım, – Stefan dedi, özünü onun əllərinə təslim elədiyini hiss edirdi. Bu söhbət onun gücünü o qədər tükəndirmişdi ki, hətta başı hərlənirdi.

Yuzefin kəmsər-hiyləgər üzü getdikcə daha çox səmimiyyətlə genişlənir, daha çox şirin təbəssümlə gülümsəyirdi. Onun dombalan gözləri girdələnmişdi.

---

[1] Zlotı – Polşada pul vahidi

– Cənab doktor, siz onu tanıyırdınız? Deyirlər o özü onu elektrostansiyadakı quyuda gizlətməyibmiş, xaç atası Antekin işiymiş. Yaxşı, kim bilir? Oxx, bicin birisi olub; bic! – sanki, bu sözdən xoşu gəlirmiş kimi təkrar elədi. – Almanlarla içirmiş, onlarla cürbəcür işlər görürmüş, bu haqda isə bircə söz də demək istəmirmiş, belə mühümmüş! Düşünürmüş almanı satın alıb, almansa hiyləgərdir, gecə gəlir və toyuq kimi yaxalayır! Bu gün ora maşınla Ovsyandan gəlmişdilər, iki dəfə ora və geriyə gəlib-getdilər. – Bilirsən silah nə qədərmiş? Hamısı çınqılın altında gizlədilibmiş, yeşiklərə yığılıbmış, bu da sənə mal!

– Yuzef, siz gördünüz?

– Özüm görmədim. Haradan görüm? Adamlar görüblər. Həm görüblər, həm də xəbərdar olublar, Box isə bununla hesablaşmırmış. Ağıl dəryası! Di bu da sənə bic.

– Bəs onları neyləyiblər?



– Mən haradan bilim? Siz Rudzyanskinin daş karxanasını tanıyırsınız? Əvvəl orada göl vardı. Yol boyunca gedəndə – meşənin içərisiylə və sağa... Orada beli əlinə verirlər – qəbir qazsın və bu qəbrə də quylayırlar. Sonra yol keçən birisini tuturlar – üstünü torpaqlasın. Özləri, bilirsənmi, əllərini batırmırlar...

Stefan hərçənd belə olacağını təxmin eləmişdi, daha doğrusu, əmin idi ki, başqa cür də ola bilməz, Yuzefə qarşı elə bir qəzəb, nifrət hiss eləyirdi ki, gözlərini yuması oldu.

– Bəs o birisi? – boğuq səslə soruşdu.

– Poşçikmi? Quyuya bir daş atılıb. Heç bir xəbər yoxdur. Yəqin, meşəçilərin yanına gedib. Belə qoca adam bataqlıqlarla, çala-çuxurlarla hara gedə bilər? Hər şey ona görədir ki, gözdə-qulaqda olmayıblar, axmaqlıqlarından. Əsgəri təchizat, ya da oradakı digər şeylər onlarınmı işiydi? – Yuzef səsini aşağı salaraq sözünü bitirdi.

Stefan başıyla təsdiq elədi, ani olaraq dönüb öz otağına getdi. Ehtiyatla ovcuna bir lüminal həbi qoydu, düşünüb birini də əlavə elədi, hər ikisini udub su içdi və gecə paltarının üzərindən geydiyi ağ xalatını çıxartmadan yatağa uzandı.

Gecədən xeyli keçmiş onu dərin yuxudan taqqıltı oyatdı, əlində teleqram olan Yuzef qapını döyəcləyirdi. Soçinskaya bibisi atasının ağır xəstələndiyini xəbər verirdi. Təcili gəlməsini istəyirdi.

Stefan Staşekdən onun şöbəsində növbətçilik eləməyi xahiş elədi və çətinlik çəkmədən Paençkovskidən bir neçə günlüyə icazə aldı.

– Hər şey yoluna qoyulacaq, – rəis öskürərək Tşinetskinin əlini silkələdi, – bir halda ki ora gedirsiniz, bəlkə, öyrənəsiniz, orada almanlar necədirlər?

– Başa düşmədim.

– Baxın da, orada nə deyirlər... Oradan elə pis xəbərlər gəlib çatır...

– Cənab rəis, siz nəyi nəzərdə tutursunuz?

– E-e, məxsusən heç nəyi, məxsusən heç nəyi, həmkar.

Stefan Sekulovskinin yanına vidalaşmaq üçün gedəndə şair yazıya dalmışdı, saçları pırtlaşıq idi, elə bil, onlardan elektrik saçılırdı. Göz bəbəkləri yuxarı dartılmışdı. Bu, onun getdikcə özünə daha çox qapıldığını göstərirdi. Gur, metal çalarlı səsi bütün dəhliz boyunca guruldayırdı, Stefan otağa girəndə onun dediklərini eşitdi:

*Mənim ürəyim, sən – planetin qırmızı termitisən,*
*Öz şəxsi cığırını axtaranda vahiməyə düşürsən.*
*Zahid və div, yol qaranlıq – mən pis pul kimi,*
*Qaralıram. Mən sönürəm.*
*Bədənim sıxır məni tabutda.*
*Gecə sən utanmazcasına qoparırsan axırıncı qatı,*
*Ölüm qanlı sarğılı qız kimi gələndə, sifətimi*
*Nəvazişlə sığallayır: o, mənim tərk edilmiş qanım...*

Stefan qapını arxasınca bağladı və şair susdu. Tşinetski ona balaca heykəltəraş haqqında danışdı.

– Mələk-boğucu? – Sekulovski təkrar soruşdu. – Dayanın görüm, bu maraqlıdır. Maraqlıdır...

Kağız parçasında səliqəylə özünün kövrək xətti ilə nəsə yazdı.

– Xoşbəxtdir sakitcə boğulanlar, çünki Allahın rəhmətindədirlər, – o, ucadan oxudu.

Sonra Stefana ötəri nəzər saldı.

– Siz mənə azacıq kömək elədiyiniz üçün mən sizə nəsə göstərərəm.

O, səliqəsiz halda çarpayının üzərinə səpələnmiş kağızları eşələməyə başladı.

– Yerin başqa planetdən görünən təsviri xəyalıma gəlir. Təxminən, bax, belə başlanğıc, – o, vərəqi götürdü və oxumağa başladı: – «Günəşdə çürüyən həqiqət. Kainat. Onda trilyonlarla ulduz sürfələri qaynaşır. Şiddətli çoxalma...» Püskürdülən kül və qara barıt tüstüsünün burumları, çarpışma ardınca çarpışma, zülmət zülmətin ardınca gedir, – o, özündən deyirdi, çünki vərəqdə cəmisi bir neçə qısa cümlə var idi.

– Hara? – Stefan ixtiyarsız olaraq dilləndi.

– Məsələ də burasındadır ki, heç hara.

– Siz buna inanırsınız?

Sekulovski nəfəsini tutdu. Başını yuxarı qaldırdı; onun gözləri, qızğıncasına alışıb-yanan sifəti ilhamlanmış və gözəl idi.

– Yox, – o dedi, – mən inanmıram. Mən bilirəm.



Səfər Stefan üçün başdan-başa kabus oldu: üç dəfə axtarış oldu, jandarmlar axtarırdılar, kütlə vəhşicəsinə qapılara və pəncərələrə, kəsif tər, taxtabiti qoxusu verən qaranlıq vaqonlara hücum çəkirdi. Əcaib kütlənin içərisində ləyaqətini qorumaq çətin idi, qaranlıqda sifətlər görünmürdü, burada sükut isə təslim olmaq kimi başa düşülürdü. Bir saatdan sonra Stefan çəkməçi kimi söyüş söyürdü.

Şəhər dəyişmişdi. Bütün küçələr yeni, alman adları daşıyırdı. Patrullar körpüdə nallı başmaqlarını şaqqıldadırdılar; elə səs çıxırdı ki, sanki, körpünün üzərinə dəmir tor çəkirdilər. Evlərin damları üzərindən arabir qara xaçlı təyyarələr uçurdu, göy almanların olmuşdu.

Ev Stefanı, həmişəki kimi, suda bişən kələm qoxusu ilə qarşıladı, ikinci mərtəbədə xəzçi emalatxanasının şirintəhər-kiflənmiş qoxusu at oynadırdı və bu dərhal da yaddaşını oyatdı.

Uzaqdan öz mənzillərinin üst yanlığındakı taxtasında yastı şir başı çəkilmiş, sürtülüb dağılmış qəhvəyi rəngli qapısını görəndə Stefan güclə öz həyəcanını boğa bildi. Qapı adicə qapıydı...

Giriş otağında, tavanın altındakı lampaların donuq işığında cır-cındır, rəflər, tənəkə qablar qaralırdı, atasının cihazlarının qurulmamış modelləri, sanki, hansısa qorxunc

heyvanın müqəvvasıydı, onlar rəflərə qalaqlanmış, üzərlərinə yumşaq hörümçək toru çəkilmişdi. Dərhal da Skoçinskaya bibi xəbər verdi ki, anası artıq bir aydır kənddə yaşayır, burada ev işlərini gördürməyə pul yoxdur. Bibisi hələ qapını örtmədən onu qucaqladı və o, bibisinin naftalin qoxulu döşlərinin arasında itdi. Qadın onu marçıltı ilə öpdü, göz yaşları ilə islatdı və itələyib, mürəbbə ilə çörəyin və çayın dadına baxmaq üçün yeməkxanaya saldı.

Bibisi üzərində yarlıqlar olan bankaları bir yerdən digər yerə qoyaraq piyin qiymətinin artmasından, hansısa vəkildən danışırdı və yalnız xeyli keçəndən sonra atasını yadına saldı. Böyrəklərini və ürəyini xəstəliyin dağıtdığı, bədbəxt, qəbul edilməyən dahinin portretini cızdı. Bu qadın yer üzündə dahi ixtiraçının qayğısına qalan yeganə insan idi. «Sənin atan» qadın təkrar elədi və yenə də «sənin atan» – belə ki, Stefan hətta şübhələnməyə başladı: qadın etinasızlığı üçün onu sancmaq və danlamaq istəyir. Amma qadının heç buna oxşar bir şey ağlına da gəlmirdi. Sadəcə, o, bütün qəlbiylə atasına şəfqət göstərirdi. Nə vaxtsa bibisi gözəl qadın idi. Stefan bir vaxtlar onun öz divarından asılan şəklinə vurulmuşdu. İndisə piylənməsi keçmiş gözəlliyinin əlamətlərini yox eləmişdi.

Yeyib yuyunandan sonra onu, nəhayət, yataq otağına buraxdılar.

Bibisi üzərinə elçi vəzifəsini götürmüşdü: bir neçə dəfə ora girdi və pəncələri üzərində geri qayıtdı. Bu zaman o, əl-qol atır, sanki, avarla özünü müqavimət göstərən havadan uzaqlaşdırırdı. Təntənəli bir ab-hava vardı. «Birbaşa – yolunu azmış oğulun qayıtması» – Stefan düşündü və nəyə görəsə pəncələrinin ucunda içəri girdi, xəyalında Rembrandtın darçını rəngli eskizləri cızılırdı.

Anasının fikus, asparaqus və digər bitkilərdən ibarət kolleksiyasının insafsız halda otağın ən qaranlıq küncünə yığıldığı dərhal diqqəti çəkdi. Atası yataqda uzanmışdı, adyalı çənəsinə kimi çəkmişdi. Yalnız limon rəngli əlinin əyilmiş barmaqları adyalın kənarından zəifcəsinə yapışmışdı – bu barmaqlar ölü, çirkin bəzək əşyalarını xatırladırdı.

– Ata, özünü necə hiss edirsən? – Stefan çətinliklə dillənə bildi.

Atası susurdu. Stefan pərt olmuşdu, o, öz təşrifini nəzakətlə və tez qurtarmaq istəyirdi. Ani olaraq düşündü ki, əgər atası indicə ölsəydi, yaxşı olardı: həyəcanlı tonla deyilərsə, hadisə ölüm yatağında baş verir; o diz çökər və hansısa bir duanı mızıldanar, sonra isə çıxıb gedə bilərdi. Bu, hər şeyi bir qədər sadələşdirərdi. Amma atası ölmürdü. Əksinə, yataqda azacıq qalxdı və nəsə deməyə cəhd elədi, əvvəlcə pıçıltı ilə danışdı, sonra onun səsi gücləndi: «Stefak, Stefak», – o, bir neçə dəfə təkrar elədi, «Stefak»ı əvvəlcə inamsız halda, sonra isə sevinclə deyirdi.

– Ata, mən sənin özünü pis hiss etdiyini eşitmişdim və teleqramı alanda elə qorxdum, – o, yalandan dedi.

– E-e, fikir vermə.

Atası qalxmağa cəhd gösrərirdi, ona kömək eləmək lazım idi, Stefanın tamamilə fərasətsiz olduğu məlum oldu. O, barmaqlarının altında çölə çıxan qabırğaların nazik sümüklərini hiss elədi, bu cılız, gücsüz bədəni saxlamağa çalışarkən bədəndəki sönmüş istiliyi duydu.



– Sənin haransa ağrıyır? – Stefan öz mehribançılığı ilə atasını heyrətləndirərək dedi.

– Çarpayının üzərində otur. Otur, – atası təkrar elədi, artıq bir qədər hirslənmişdi.

Stefan itaətlə çarpayının lap kənarında oturdu, olduqca namünasib, ancaq riqqətli vəziyyət idi. Nədən danışasan?

O, atasının sifətinin yalnız bir ifadəsini xatırlayırdı: nəhayətsiz halda hansısa başqa, onun cihazlarının quraşdırıldığı dünyaya dikilmiş uzaq baxışlarını. Məftillərdən onun əli həmişə cırmaq-cırmaq, kəsilmiş, turşudan yanmış, ya da ekzotik boyalarla boyanmış olurdu. İndi bütün bunlar keçmişdi. Çil-çil dərisinin altındakı tutqun, qalın damarlı, onun həyatını tərk eləməyə hazırlaşan əli arabir titrəyirdi.

Stefan üçün acı kəşf idi.

– Mən hədsiz yorulmuşam, – atası dedi. – Yaxşı olardı yatım, bir də oyanmayım.

– Ata, niyə belə danışırsan? – Stefan qəzəbləndi. Özü isə düşünürdü: bax, bu bədən və qurumuş qozun içi kimi tərpənməyən beyin, az qala, fəaliyyətdə olmayan bu baş nəyə can atır? Bax, oynaqları – cırıldayan, paslı rəzə kimidir, astmatik ciyərləri körük kimi xırıldayır, ürəyi köhnə, qırıq nasos kimidir. Sekulovskinin şerini xatırladı. Bax

məhz nəfs bizi öldürür, bədən yalnız bir qanuna tabedir, təbiətin qanununa, daha istəklə idarə olunmur.

– Ata, bəlkə, nəsə yeyəsən? – Stefan inamsız halda soruşdu, atasının adyalın üzərindəki biləyini sığallayan əlinin yüngüllüyü onu qorxuya saldı. Öz sözlərindən xəcalət çəkdi, axmaqcasına deyilən sözlər idi.

– Mən heç nə yemirəm. Mənə lazım deyil. Mən nə qədər sənə demək istəyirdim, amma birdən belə... düzünü desəm, mən bütün gecəni düşünmüşəm. Hətta yuxuya da gedə bilmirəm, – o şikayətləndi.

– Mən indicə... indicə sənin üçün resept yazaram. Stefan resept blankını çıxartmaq üçün əlini cibinə saldı. – Ata, ümumiyyətlə, səni kim müalicə eləyir? Marsinkeviç?

– Boşla görüm... boşla. Hə, müalicə eləyir. İndi, onsuz da, fərqi yoxdur. – O, başını balışda gizlətdi. – Stefan, bu saat hamı üçün gəlir. Beyində hansısa bir damarın partlamasından başqa heç nəyin qayğısına qalmırsan. Bu səfehlikdir, amma bircə anın içində ölmək istəməzdim. Əgər gələcəyi bilmək olsaydı... Amma bu mənasızdır.

Onun əlini sığallayan ovuc, sanki, qərarsızlıq içində donub-qaldı.

– Biz bir-birimizi elə pis tanıyırıq. Mənim heç zaman vaxtım olmayıb. İndisə mən görürəm ki, əslində, fərqi yoxdur: tələsənlər də, tələsməyənlər də eyni bir yerə gəlirlər. Heç vaxt heyifsilənmə, heyifsilənmə. – Susub, əlavə elədi. – Heç vaxt orada yox, burada olduğun üçün, eləyə biləcəyin, amma eləyə bilmədiklərin üçün heyifsilənmə. Hər şeydə mənə yalnız ona görədir ki, hər şey qurtarır. Bilirsənmi, həmişə və hər yerdə – bu elə heç vaxt və heç yerdə deməkdir. Bunu yadında saxla, heyifsilənmə!

Atası yenə də susdu, əvvəl olduğuna nisbətən çətinliklə nəfəs alırdı.

– Mən, əslində, sənə bunları demək istəmirdim. Amma mənə indi öz başım da qulaq asmır.

– Ata, mən sənə verə bilərdim... bilmirəm, sən hansı dərmanları qəbul eləyirsən?

– Məni iynələrlə dəlik-deşik eləyirlər, yaxşıca qulluq göstərirlər, – atası dedi, – narahat olma. Sən məndən inciyibsən, hə? De!

– Amma...

– Gəl indi bir-birimizi aldatmayaq, yaxşı? Mən bilirəm, sən inciyirsən. Heç vaxt vaxtım olmayıb. Amma biz özgə olmuşuq. Bilirsənmi, mən heç vaxt özüm özümdən imtina eləmək istəməmişəm, yəqin ki, səni sevməmişəm, əks halda bu... lakin... bilmirəm. Stefan, işlərin yaxşıdırmı?

Stefan nə cavab verəcəyini bilmədi.

– Mən səndən soruşmuram ki xoşbəxtsənmi. İnsan xoşbəxt olduğunu yalnız xoşbəxt olduğu anlar keçəndən sonra başa düşür. İnsan dəyişərək yaşayır. De görüm, sənin bir sevgilin varmı? Bəlkə, evlənməyi düşünürsən?

Stefanın boğazı tutuldu. «Bu da insan!... O ölür, o, demək olar ki, mənə yaddır. Amma mənim haqqımda düşünür. Mən özüm necə, bunu bacarardımmı?» – və bu suala Stefan cavab tapa bilmədi.

– Susursan! Demək, var?



Atasına baxmadan Stefan başını yırğaladı, atasının qan sağılan gözləri mavi rəngdə idi, amma başlıcası, iztirab içindəydilər.

– Hə, burada məsləhətlərlə kömək eləyə bilməzsən. Amma bax gör mən sənə nə deyirəm: biz, Tşinetskilər belə adamlarıq ki, qadınlar bizə mütləq lazımdırlar. Təklikdə biz öz öhdəmizdən gələ bilmirik. İnsanın təmiz yaşaya bilməsi üçün özünün də təmiz olması lazımdır. Sən həmişə tərs olubsan; bəlkə də, belə danışmaqda düz eləmirəm. Amma sən bağışlamağı bacarmırsan, əslində, hər şey də elə bundadır və başqa da heç nə lazım deyil. Bilmirəm öyrənə biləcəksənmi?! Hər bir halda qadından nə gözəllik, nə də ağıl tələb eləməyə dəyməz. Yalnız mülayimlik. Hisslər. Qalanları yoluna düşəcək. Mülayim olmadan... – O, gözlərini yumdu. – ... Qalanları heç nəyə dəyməz... Bu isə elə asandır... – Olduqca güclü, çoxdankı səsiylə söhbətinə yekun vurdu. – Hər şeyi unuda bilərsən, necə istəyirsən. Amma məsləhətə qulaq asmaq özü də müdriklikdir. İndisə... mən sənə nə demək istəyirdim?.. Stolda üç zərf var.

Burada Stefan heyrətləndi.

– Aşağıdakı saxlancda, – atası pıçıldadı, – qırmızı lentlə sarınmış bir rulon var, orada mənim pnevmomotorumun çertyoju var. Bütün sxemi. Eşidirsən? Bunu yadında saxla.

Almanlar gedən kimi Frontsovskinin yanına apar, model hazırlamaq lazımdır. O, necə eləyəcəyini bilir.

– Atacan, amma, – Stefan etiraz elədi, – sən elə göstəriş verirsən... elə... sanki, vəsiyyət eləyirsən. Amma sən axı özünü yaxşı hiss eləyirsən, doğrudurmu?

– Hə də, amma nə vaxtsa mən özümü yaxşı hiss eləməyəcəyəm, – atası hirslə dedi. Ona artıq təsəlli lazım deyildi. – Bu pnevmomotor uğurdur. İnan mənə. Mən nə dediyimi bilirəm. Bax belə, bunu götürürsən... Ən yaxşısı elə indicə götürməyindir, indicə.

O, limon rəngli bürüşük boynunu uzadıb qızğınlıqla pıçıldadı:

– Melya bibi dözülməzdir. Müm-kü-ün deyil! – sanki, bu sözü xüsusi qeyd elədi. – Mən ona zərrəcə də inanmıram. İndicə onu götür, mən açarı sənə verərəm.

O, şalvarını stulun üstündən götürməyə cəhd eləyəndə, az qala, çarpayıdan yerə yıxılacaqdı. Şalvarın cibindən onlar əvvəlcə çirkli dəsmalı çıxartdılar, sonra simlər topasını və qısqacı çıxarıb açarı axtarmağa başladılar. Açarları lap gözünə yaxınlaşdıraraq atası onların arasından balaca ingilis açarını çıxarıb Stefana verdi. Stefan kabinetdən çıxanda atası mürgüləyirdi. Gözlərini açdı:

– Necə? Bu sənsən? Yaxşı, götürdün?

Sonra xeyli Stefana baxdı, sanki, nəyisə xatırlayıb, nəhayət, dedi:

– Sənin anan üçün mən yaxşı olmadım. O, heç nə bilmir, mənsə budur... mən istəmirdim... – Bir qədər ara verib əlavə elədi: – Amma sən... yadında saxla. Yadında saxla!

Stefan artıq qapıda idi ki, atası gözlənilmədən soruşdu:

– Bir də gələcəksən?

– Ata, axı mən getmirəm, mənim işim var, nahara qayıdacağam.

Atası özünü balışın üzərinə saldı.

Doktor Marsinkeviçin otağında şüşələr və ağ rənglər işıldayırdı – solyuks, üç kvars lampası... Görünür, bütün bunların yəhudi həkimlərin gettoya aparılması ilə müəyyən əlaqəsi var idi. Hər üç sözdən bir o, Stefanı «həmkar»

deyə adlandırırdı, amma onu ciddi qəbul eləmədiyi hiss olunurdu. Hər ikisinin bir-birindən ürəkdən zəhləsi gedirdi. Marsinkeviç ikibaşlı danışmadan Stefana atasının vəziyyətinin ağır olduğunu dedi, daşlar boş şeydir, amma döş anginası, doğrudur, tipik deyil, belə ki, ağrılar zəifdir, hiss olunan deyil, lakin tac damarlardakı qan dövranı yaxşı heç nə vəd eləmir. O, pardaxlanmış mizüstünün üzərindəki elektrokardioqrama baxıb, nəyisə izah eləməyə başladı, amma Stefan əlinin sərt hərəkəti ilə onun sözünü kəsdi. Lakin vidalaşarkan özünü nəzakətli apardı, atasının qayğısına qalmağı xahiş elədi. Marsinkeviç pul almaqdan imtina elədi, amma elə mülayim tərzdə ki, Stefan pulu stolun üzərinə qoymalı oldu. O heç kabinetdən çıxmağa macal tapmamış pul stolun yeşiyində yoxa çıxdı.

Stefan «Qarqantua və Pantaqryuel»i tapmaq ümidi ilə bir neçə kitab köşkünə baxdı. Bu kitab çoxdan onun xoşuna gəlmişdi, indisə, əlinə pul düşəndən sonra Boyun tərcüməsində bu kitabı almaq istəyirdi. Nəhayət, bəxti gətirdi, bukinistdə bu kitabı tapa bildi. Köhnə tanışlığından istifadə eləyib Stefan ondan yalnız almanlara satılan bir neçə dənə də dərslik və Paypak üçün alman tibb jurnalının axırıncı sayını aldı. Kitablar həddən artıq ağır oldu və Stefan tramvayla geri qayıtmağı qərara aldı. Ağzına qədər dolu olan vaqona yaxınlaşdı, tərləyən pəncərələrin arxasında adamların kölgələri akvariumdakı balıqlar kimi hərəkət eləyirdi. Boş əliylə (o birisində kitab bağlaması var idi) Stefan dəstəkdən yapışdı. Pilləkənə sıçradı, amma bu zaman kimsə onun boynunun kökündən möhkəmcə və məharətlə yapışıb körpünün üzərinə dartdı. Yıxılmamaq üçün Stefan yerə sıçrayası oldu. Birbaşa qarşısında gənc, üzünü tərtəmiz qırxmış almanı gördü, alman qara mundir geymişdi, ara vermədən dirsəyi ilə onu itələyirdi. Heyrətlənmiş və sarsılmış Stefan onun arxasınca tramvaya minmək istəyəndə başqa bir alman, görünür, birincinin tanışı onu kobudcasına itələdi.

– *Mein Herr!*[1] – Stefan ucadan səsləndi və dərhal da küt, elə də güclü olmayan təpik zərbəsi aldı, alman işıldayana qədər təmizlənmiş çəkməsi ilə onun arxasına bir təpik vurdu. Tramvay zəng çaldı və uzaqlaşdı.

[1] Mənim ağam (*alm.*)

Stefan körpüdə dayanıb qalmışdı. Yoldan keçən bir neçə adam yaxınlıqda dayanmışdı. O daha da dilxor oldu və özünü elə göstərdi ki, guya, qarşıdakı küçədə onu nəsə maraqlandırdı, növbəti tramvayı gözləmədən piyada geri qayıtdı. Bu hadisə onu kökündən elə silkələdi ki, universitet tanışına baş çəkmək fikrini başından çıxartdı və yarpaqların arasıkəsilməyən xışıltısının müşayiəti ilə evə yola düşdü.

Atası çarpayının üstündə oturmuşdu və ağzını marçıldadaraq alüminium tavadan qayğanağın qalığını böyük diqqətlə qaşıyıb təmizləyirdi. Hələ hirsi soyumayan Stefan başına gələnləri danışdı.

– Hə, hə. Onlar elədirlər. *Volk der Dichter*[1], – atası qeyd elədi. – Di neyləyə bilərsən? Budur onların gəncləri. Sentyabra qədər (müharibəyə qədər – 1 sentyabr 1939-cu ilə qədər) mən Felligerlə məktublaşırdım – yadındamı, bu, mənim qalstukları ütüləyən ixtiramla maraqlanan firma idi. Sonra o, ümumiyyətlə, cavab vermədi. Yaxşı ki, mən çertyoju ona göndərmədim. Quduroblar. Əslində, indi biz hamımız qudururuq.

O, birdən sifətini büzüşdürdü və səsi gəldikcə bağırdı:

– Melya! Me-e-lya-ya!

Stefan bunu gözləmədiyindən diksindi, amma dərhal da şappıltılı addım səsləri eşidildi, qapıdan bibisinin sifəti göründü.

– Mənə bir az da siyənək balığı ver, amma soğanı çox olsun. Stefan, bəlkə, sən də yeyəsən?

– Yox... yox!

Stefan hədsiz məyus olmuşdu. Marsinkeviçin yanından çıxanda atası ilə yeni, daha səmimi bir görüşün həsrətindəydi, qoca isə öz iştahası ilə hər şeyin üstündən xətt çəkdi.

– Ata... mən, əslində, bu gün qayıtmalıyam.

O, xəstəxanadakı mürəkkəb vəziyyəti təsvir eləməyə başladı, sözlərindən belə çıxırdı ki, onun üzərinə böyük məsuliyyət düşür.

– Bax ha... bax... – atası səsini uzatdı, çəngəli boşqabda sürüşən siyənək balığının parçasına sancmağa çalışırdı. Çəngəli ona batıra bildi, ağzına ağ çörəyin daha böyük bir

[1] Şairlər xalqı (*alm.*)

parçasını qoydu və sözünü bitirdi: – Sən orada çox da tutaşma. Mən heç nə bilmirəm, amma Kolyuxovadakı bu əhvalatdan sonra...

– Hansı əhvalatdan? – Stefan qulaqlarını şəklədi; o, bu adı eşitmişdi.

– Bilmirsən? – atası təəccübləndi, boşqabı çörəyin içi ilə təmizləyirdi. – Axı orada dəlixana vardı... daha doğrusu, müalicəxana, – sözünə düzəliş verib şübhə ilə oğluna baxdı, görsün inciməyib ki?

– Hə, balaca şəxsi müalicəxana, hə, orada nə olub?

– Almanlar binanı hərbi hospital eləyiblər, bütün dəli... xəstələri isə aparıblar. Deyirlər, düşərgəyə.

– Sən nə danışırsan? – Stefan inamsızlıqla səsləndi. Onun portfelində paranoyyanın müalicəsi üçün almanların yeni işi barədə yazılmış, artıq müharibə vaxtı dərc olunmuş jurnal var idi.



– Bilmirəm. Belə deyirlər. Lakin gör nə deyirəm, Stefan! Lütfən, bax bunu mən artıq başımdan çıxartdım. Mən sənə dərhal danışmaq istəyirdim. Anzelm əmi bizə hirslənəcək.

– Nəyə görə axı? – Stefan kinlə soruşdu. Bu, onu az narahat eləyirdi.

– Bütün ili Ksaveriylə yanaşı yaşayırsan, amma bircə dəfə də yanına getməyibsən.

– Onda Ksaveriy əmi inciməlidir, daha Anzelm əmi yox.

– Sakit ol. Sən ki Anzelmi tanıyırsan. Onu özünə qarşı qaldırmaq lazım deyil. Di, heç olmasa, bir dəfə ora get. Ksaveriy səni sevir, doğrudan da, sevir.

– Yaxşı, ata, gedərəm.

Onlar vidalaşanda atası artıq bütünlüklə axırıncı kəşfi ilə məşğul idi. Bu kəşf soyadan kürü və üyüdülmüş yarpaqlardan kotlet hazırlanmasından ibarət idi.

– Xlorofil çox faydalıdır. Bir düşün, axı altı yüz il yaşayan ağaclar var! Ətdən heç istifadə eləmədən, amma mənim ekstraktlarımla – mən sənə deyirəm – kotletlər çox gözəl alınır! Çox təəssüf ki, axırıncısını axşam yedim. Bu səfeh Melya sənə teleqram vurdu...

Stefan öyrəndi ki, ona teleqram vurulmasının səbəbi atası ilə bibisinin münasibətlərinin gözlənilmədən kəskinləşməsi olub. Bibisi bu evi tərk eləmək fikrində imiş. Lakin onlar hələ Stefan gələnə qədər barışmışdılar.

– Yoxsa mən sənə öz kürümdən bir banka verərdim. Bilirsənmi o, necə hazırlanır? Əvvəlcə soyanı qaynadırsan, sonra kömürlə, *karbo animalis*[1], rəngləyirsən; sən özün də bundan baş çıxararsan, sonra duz və mənim ekstraktımdan əlavə eləyirsən...

– Kotleti də beləcə hazırlayırsan? – Stefan ciddi soruşdu.

– Yox bir! Başqa cür, məxsusən dadlı olması üçün zeytun yağı da əlavə eləyirsən. Burada bir yəhudi var idi, bir çəllək gətirəcəyinə söz vermişdi, amma onu düşərgəyə apardılar...

Stefan atasının əlini öpdü və getmək üçün hazırlaşmağa başladı.

– Dayan, dayan. Mən hələ sənə kotletlər haqqında danışmamışam.

«Qoca tamam ağlını itirir», – Stefan düşündü, onun atasına yazığı gəlirdi, amma səhər onu bürüyən həyəcanı bir daha yaşamırdı.

Stefan almanları və işğalı unudub vağzala getdi, elə bu gün müalicəxanaya qayıtmağı qərara almışdı. Bunun mümkün olmayan iş olduğu aydın oldu: dəhşətli basabas, qalmaqal, qaçaqaç. Adamlar vaqonun pəncərələrindən soxulcanlar kimi sürünürdülər, hansısa saqqallı ayaqyolunda barrikada quraraq pəncərədən şişmiş çamadanları içəriyə dartırdı, hətta vaqonların damında da özlərinə yer eləyənlər var idi. Stefan belə səyahət eləyəcək qədər hələ «kamilləşməmişdi». Bejinetsə getdiyini sübut eləməyə çalışaraq vaqona düşməyə cəhd eləyirdi. Ona qatarın arxasınca piyada qaçmağı məsləhət gördülər. Neyləyəcəyini bilmədən artıq atasının yanına qayıtmağa hazırlaşırdı, amma bu zaman kimsə onun qolundan yapışıb dartdı. Naməlum adam yağa bulaşmış dama-dama şapka və adyaldan tikilmiş gödəkcə geymişdi.

– Siz Bejinetsə gedirsiniz?

– Bəli.

– Nədir, biletiniz yoxdur?

– Yoxdur.

– Bəlkə, birlikdə bir şey düşünək, amma rüşvət verməliyik.

– Ooo, mən həvəslə... – Stefan sözə başlamaq istəyirdi, amma naməlum adam artıq adamların içində yoxa

[1] Karbo animalis – ağac kömürü, homeopatik vasitə

çıxmışdı və dirsəyindən möhkəmcə yapışmış konduktorla qayıdıb gəldi.

– Ona pul verəcəksiniz... Demək, yüz zlotı... – o heyrətlənmiş Stefanı qandırmağa çalışırdı. Tşinetski deyilən pulu verdi, konduktor bloknotunu açdı, pulu bu cür olan pulların üzərinə qoydu, barmağını tüpürcəyi ilə islatdı, pencəyinin yaxasına sürtüb, şalvarının cibindən dəmiryol açarını çıxartdı. Onlar konduktorun arxasınca getdilər, vaqonun altından qatarın o biri tərəfinə keçdilər və bir dəqiqədən sonra artıq balaca kupedə oturmuşdular.

– Yaxşı yol, – konduktor nəzakətlə xeyir-dua verib onlarla sağollaşdı, bığlarını tərpətdi, əlini furajkasına apardı və çıxıb getdi.

– Mən sizə çox minnətdaram, – Stefan sözə başlamaq istədi, amma yol yoldaşı birdən ona olan hər cür marağını itirdi və pəncərəyə doğru döndü.



Qarabuğdayı, yaşlı olmayan bu adamın pırtlaşıq sifəti, batıq ağzı və nazik, yastı dodaqları vardı. O soyunub gödəkcəsini qarmaqdan asanda onun, sanki, düzgün forması olmayan əşyaları tutmağa alışmış barmaqlı böyük, ağır əli Stefanın gözünə sataşdı. Dırnaqları qalın, mikadan hazırlanmış vallar kimi donuq idi. Şapkasını lap gözlərinin üstünə kimi basaraq o, nədənsə, küncə sıxıldı. Qatar yerindən tərpəndi. Kupedə azından iki nəfər üçün də yer var idi, dəhlizdə sıxışmış adamlar bunu çox gözəl görürdülər. Onların sifəti sərtləşirdi. Qəşəng bir kişi özünü qapının üzərinə yıxdı, onun incə, yumşaq, adama elə gəlirdi ki, həmişə nəm olan sifəti vardı. O, ara vermədən dəstəyi dartır, şüşəni döyəcləyirdi və getdikcə bunu daha qətiyyətlə eləyirdi. Nəhayət, qışqırmağa başladı, amma nə qədər ki onu qapının arxasından eşitmək mümkün deyildi, cibindən alman möhürlü hansısa arayışı çıxartdı və onu şüşəyə yapışdıraraq nümayiş etdirməyə başladı.

– Dərhal açın! – o, fəryad qopartmışdı.

Stefanın yol yoldaşı bir müddət özünü elə göstərdi ki, heç nəyi görmür, sonra ayağa sıçradı və qapıya doğru bağırdı:

– Sus! Əclaf, bu, xidməti kupedir!

O, ləyaqətini qorumağa çalışaraq bir qədər də deyindi və sakitləşdi. Səyahət macərasız başa çatdı. Pəncərədən

bir-birini arxada qoyaraq təpələr şütüyüb keçəndə və Bejinetsə çatdıqlarını xəbər verəndə naməlum adam ayağa qalxdı, gödəkcəsini əyninə keçirtdi. Gödəkcənin ətəyi ağac aralığa toxunarkən boğuq metal cingiltisi eşidildi. Bu, Stefanı bir qədər təəccübləndirdi, amma buna elə də ciddi əhəmiyyət vermədi. Sərt döngədə qatar çarxlarını zingildədərək boş perrona yaxınlaşdı. Əyləclər qıcırdamağa başladı. Stefan və yad adam çınqılın üzərinə sıçradılar. Arxalarında qatar yoxuşu qalxaraq ağır-ağır fısıldayırdı. Onlar dəmir hasarın içində olan səkini keçdilər. Vağzalı arxada qoydular və rənglərinin bütün təntənəli gözəlliyi ilə payız onların qarşısında açıldı. Stefan gözlərini qıyaraq günəşə baxdı, kirpiklərinin ucundan sürüşən göy qurşağına zövqlə tamaşa elədi və hələ də gözlərini qıyaraq – bundan kirpiklərinin altında qırmızı işıqlar oynaşırdı – müalicəxanaya yola düşdü.

Yad adam bircə söz belə demədən onunla yanaşı addımlayırdı. Şəhərcik arxada qaldı, onlar yarğana doğru döndülər, Stefanın yol yoldaşı, deyəsən, bir qədər qərarsızlaşmışdı.

– Siz müalicəxanaya gedirsiniz? – Stefan heyrətlə soruşdu.

Yad adam bir qədər susdu, sonra cavab verdi:

– E-e, yox. Beləcə, hava almaq istədim.

Onlar daha yarım kilometr də getdilər. Yarğan qurtarıb, arxasında hələ görünməyən kərpic ev olan ağacların divarı görünəndə Stefan, sanki, yuxudan ayıldı.

– Qulaq asın... – o donquldandı.

Yad adam yerində donub-qaldı, onun gözünün içinə baxırdı.

– Siz, yəqin, yarımstansiyaya gedirsiniz, hə?.. Mən... siz cavab verməyin... Lütfən, ora getməyin!

Yad adam sınayıcı baxışlarla Stefana baxdı – gah inamsızlıqla, gah da istehza ilə, onun dodaqlarında riyakar bir gülüş canlandı, dar gözlərinin içində göz bəbəkləri hərəkətsiz halda donmuşdu. O, beləcə, bircə söz də demirdi, amma çıxıb getmirdi də.

– Almanlar oradadırlar... – Stefan qırıq səslə dilləndi. – Ora getməyin! Onlar... Boxu tutublar. Onu həbs eləyiblər. Görünür... görünür... – Stefanın dili dolaşdı.

– Siz kimsiniz? – yad adam yenidən soruşdu. Onun sifəti bozarmış, donmuşdu, o, əlini cibinə saldı və onun dodaqlarında hələ də oynaşan zəif gülüş istehzaya çevrilirdi.

– Mən müalicəxananın həkimiyəm. Mən onu tanıyırdım...

Yenə də Stefanın dili dolaşdı.

– Almanlar yarımstansiyadadırlar? – yad adam təkrar soruşdu. O, sözləri ağzından, sanki, qaldırılası mümkün olmayan yükü daşıyan adam kimi çıxarırdı. – Bunun mənə, ümumiyyətlə, dəxli yoxdur... – o, sözləri uzadaraq dedi. Hiss olunurdu ki, o, əzab içində nəyisə düşünür. Lakin tez də özünü ələ aldı və üzünü Stefanın üzünə yaxınlaşdırıb, nəfəsini ona verdi və sərt səslə soruşdu:
– Bəs o birisi?



– Poşçiklər? – Stefan cəld sözü göydə tutdu. – Qaçıblar. Almanlar onları tuta bilməyiblər. Onlar meşədədirlər, partizanların yanında. Daha doğrusu, mən belə eşitmişəm.

Yad adam ətrafa boylandı, onun əlindən yapışıb, var gücüylə, ağrıyana qədər sıxdı və uzaqlaşıb getdi.

Yad adam yoldakı döngəyə qədər getməyib, yamacla üzüyuxarı – təpəyə doğru dırmaşdı və meşədə yox oldu. Tşinetski yüngülləşmiş halda köks ötürdü və təpənin maili yamacıyla uzanan cığırla müalicəxanaya getdi. Daş tağın yanında geri boylandı, baxışları ilə öz yol yoldaşını axtararaq aşağı, tarlaya baxdı. Əvvəlcə o, limon rəngli və alovlu sarı rənglər dənizində qaralan gövdələri yol yoldaşı kimi qəbul elədi. Sonra gördü. Yad adam uzaqda idi, yerindəcə donub-qalmışdı – intəhasız, küləksiz çöldə qara ləkə kimi görünürdü. Beləcə bircə an davam elədi, yad adam əyildi və ağacların arasında yox oldu, bir daha görünmədi.

Kişi korpusunun qapısı ağzında – bağda bu, nadir hadisə idi – Paençkovski dayanmışdı, onunla yanaşı da keşiş Nezqloba. Keşiş artıq bir neçə həftəydi özünü yaxşı hiss edirdi və təbii ki, öz kilsə vəzifələrini yerinə yetirmək üçün qayıda bilərdi, amma Yeni ilə qədər o, kilsə dairəsi tərəfindən məzuniyyətdə hesab olunurdu. Bundan əlavə, onun özünün də etiraf elədiyi kimi, Yeni ili kilsəyə mənsub adamlarla birlikdə keçirmək istəmirdi.

– Yalnız gülməlidir, vəssalam, – o danışırdı, – amma bizdə hər bir adam əgər onunla içməsən, inciyir. Yeni ildə də, Pasxada da belə olur, müqəddəs hesab olunanlar üçünsə bu, həmişə pis nəticələr verir. İndi mənə olmaz, məgər onlar xəstəliyimə görə mənə hörmət eləyəcəklər? Əllərindən qurtara bilmərəm. Yaxşısı budur, burada qalım, cənab professor (Paypakı o, belə adlandırırdı), əgər siz məni qovmasanız.

Kilsə qoca alimin zəif yeriydi. Yalnız buna görə bir neçə il bundan əvvəl xəstələrlə mərhəmətsizcəsinə rəftar eləyən iki şəfqət bacısını işdən azad eləmək mümkün olmamışdı; onda xəstələrdən biri vannada aldığı yanıqlardan ölmüşdü və hətta müalicəxanaya nazirlikdən komissiya gəlmişdi. Doğrudur, onlar özləri getdilər, hamıdan gizlin olaraq Paençkovski onları öz xoşları ilə getməyə məcbur eləmişdi.

Keşiş yaxın bazar günü bağın müalicəxananı əhatə eləyən şimal divarının yaxınlığında yerləşən balaca hücrədə ibadət ayini keçirmək üçün Paençkovskini dilə tuturdu. O artıq kilsə dəftərxanasından bunun mümkün ola biləcəyini, belə ibadətə heç bir maneçilik olmadığını öyrənmişdi və yalnız «cənab professor»dan rəsmi olaraq icazə verməsini istəyirdi. Paypak iztirab içindəydi, o özü istəyirdi, amma həmkarlarından utanırdı. Məlum işdir, dəlixanada ibadət – bu, az qala, ələ salmaq kimi bir şeydir. Əgər yalnız xidməti işçilər üçün olsaydı, başqa məsələ, amma keşiş sağalmaq üzrə olan xəstələrin də iştirak eləyə biləcəyini düşünürdü...

Nəhayət, alnını tər basmış Paençkovski razılaşdı və dərhal da sakitləşdi. Yerində ayaq döyürdü, nəyisə xatırladı və üzr istəyərək getdi. Elə həmin an da Stefan özünü yetirdi.

– Ata, siz daha knyaz qızını görmürsünüz? – baxımsız qalmış bağa baxaraq soruşdu. Daima küləklərin döyəclədiyi ağaclar vadidəki ağaclara nisbətən yarpaqlarını tez tökmüşdü. O, əvvəlcə öz sualı ilə keşişi çox incidəcəyini təsəvvür eləməmişdi.

– Əziz cənab həkimim, mən öz ağlımı, – o, sözə başladı, – bir neçə saxta sim qoşulmuş musiqi alətinə bənzədərdim... Bax qəlbim adamı heyrətləndirən ifaçıdır və

lazım gələn melodiyanı ifa eləyə bilmədi. İndisə, cənab, siz məni sağaltdınız, mən tamamilə sağlamam və qəlbim minnətdarlıq hissiylə doludur.

– Bir sözlə, siz bizdən kökləyici kimi istifadə eləyirsiniz, – Stefan qeyd elədi və ürəyində güldü, amma onun sifətində tam ciddi bir ifadə vardı. – Belə də olar. Deyəsən, on doqquzuncu əsrdə hansısa ilahiyyatçı deyib ki, telodendriyalar – yəni əsəb hüceyrələrinin sonluqları dünya efirinə qərq olub... Lakin təəssüf ki, dünya efirini fizika məhv eləyib.

– Lap yaxınlaracan mən sizin səsinizdə buna oxşar notlar eşitməmişdim, – keşiş qüssə ilə dedi. – Xahiş edirəm keçmiş xəstənizin hörmətsizlik eləməsini bağışlayasınız, amma mənə elə gəlir ki, cənab Sekulovski həmişə sizə təsir eləyib, cənab doktor, sanki... yovşan kimi. Siz təbiətiniz etibarilə şəfqətli insansınız, amma onunla görüşürsünüz və sizə acı düşüncələr hakim kəsilməyə başlayır; mən buna əminəm ki, bu fikirlər sizə tamamilə yaddır...



– Mən şəfqətliyəm? – Stefan gülümsədi. – Həyat belə komplimentləri mənə xəsisliklə rəva görüb, bax yalnız siz, ata...

– Amma bazar günü siz gələcəksiniz? Məndən olsaydı, hansı xəstələrin ibadətdə iştirak eləyə bilməsinə siz baxardınız. Bir tərəfdən mən onların çox olmasını istəyərdim, axı neçə ildir... amma digər tərəfdən... – O, sözünə davam eləyə bilmədi.

– Mən başa düşürəm, – Stefan dedi. – lakin mənə elə gəlir ki, bu yersizdir.

– Necə yəni? – keşiş olduqca tez dilləndi. – Siz güman eləyirsiniz ki?..

– Mən güman eləyirəm: elə yerlər var ki, orada hətta Allah da özünü gözdən sala bilər.

Keşiş başını aşağı saldı.

– Doğrudan da, elədir. Əfsuslar olsun ki, məndə lazım olan sözlər kifayət qədər deyil, mən adi kənd keşişiyəm. Boynuma alıram, mən oxuyanda mənim arzum hansısa bir dinsizlə, həm də güclü ruhu olanıyla rastlaşmaq olub. Onu cilovlamağı və düz yola...

– Necə yəni cilovlamaq? Siz, nəsə, qəribə sözlər danışırsınız.

– Mən adamları cilovlamağı nəzərdə tuturam, amma bu, günahdır. Sonra da sadə adamların arasında öyrənilən çoxlu digər şey öyrəndim. Mən özümün kiçik adam olduğumu yaxşı başa düşürəm. Hər bir həkimin mənim keşiş müdrikliyimi yer üzündən silmək üçün bütöv bir yığın arqumenti var...

Stefanı bu ibarəli və duyğusal söhbət darıxdırdı. Ətrafa boylandı. Xəstələr korpusa yaxın olan xiyabana toplaşırdılar – nahar vaxtı yaxınlaşırdı.

– Qoy bu, bizim aramızda qalsın, – o dilləndi və əlini yellədi, sanki, xeyir-dua verirdi. – Siz bilirsiniz ki, biz də sizlər qədər sirrimizi qoruyuruq – əgər göyləri nəzərə almasaq... Bax siz, ata, siz heç vaxt şübhə eləməyibsiniz?

– Cənab doktor, mən necə cavab verim?

– Həqiqəti eşitmək istəyərdim.

– Xahiş edirəm məni bağışlayasınız, amma deyəsən, siz İncilə tez-tez baxmırsınız. Müqəddəs Matfeyi oxuyun: fəsil 27, misra 46. Bunlar dəfələrlə elə mənim öz sözlərim olub.

Keşiş getdi. Bağ, demək olar ki, boşaldı. Xalatların albalı rəngli ləkələri elə müntəzəm sürünürdü ki, sanki, görünməyən qüvvə onları qızılı rənglə örtülmüş bağdan darayıb aparırdı. Axırıncı olaraq siqaretini tüstülədən baxıcı təntənə ilə keçib-getdi. Stefan onların arxasınca tələsdi. Baxımsız qalmış yasəmən kolunun yanından keçəndə çömbəltmə oturmuş xəstəni gördü. İstədi tibb bacısını çağırsın, amma fikrindən daşındı. Xəstə çiçək ləkinin üzərinə əyilərək, ona elə də yaxşı qulaq asmadığı hiss olunan əlləri ilə gümüşü rəngli çiçəkləri nəvazişlə sığallayırdı.

## AXERONT[1]

Stefan gəzintidən qayıdırdı. Yolun hər iki tərəfindəki arx ağzına kimi yumşaq, qızılı xəzəllərlə dolu idi, sanki, Əlibabanın eşşəyi buradan keçərkən silkələnib kisə dolu qızılları arxlara səpmişdi. Boz göydə, birbaşa başının üzərində şabalıd ağacı alışıb-yanırdı. Uzaqda isə meşə saralırdı. Stefan gedir, ayaqları altında yarpaqlardan olan qalın xalça

[1] Axeront – yunan mifologiyasında ölülərin yeraltı Aid çarlığında beş çaydan biri. Bu çayla Xaron ölülərin ruhunu aparırmış.

xışıldayırdı; yarpaqların rəngi sarıdan qəhvəyiyə qədər dəyişirdi, amma əsasən də, al-qırmızı rənglər çoxluq təşkil eləyirdi; bu, bir melodiyanın müxtəlif cür səsləndirilməsinə oxşayırdı. Buradan burulan və aşağıya doğru millənən xiyaban portağal hərarəti ilə közərirdi. Üfüqlərə qədər uzanan meyvə bağları təravətini itirmişdi. Külək xışıldayan yarpaqların topasını gövdələrin arasıyla qovurdu. Stefan orada qoyduğu kitabı götürmək üçün kitabxanaya girəndə bu çoxrəngli mənzərə hələ də gözlərinin qarşısında dayanmışdı.

Divardan asılan telefonun yanında Paypak dayanmışdı; telefonun dəstəyini qulağına elə sıxmışdı ki, qulağı ağarmışdı. Yalnız «bəli-bəli» deyirdi:

– Bəli... bəli... bəli... bəli... bəli...

Sonra qızğınlıqla təşəkkür elədi və dəstəyi ikiəlli asdı.

Telefondan asılı qalmışdı. Stefan onun yanına qaçdı.



– Qulaq asın... mənim əzizim... əzizim... – Paençkovski pıçıldadı.

Stefanın ona yazığı gəlirdi.

– Cənab rəis, özünüzü pismi hiss edirsiniz? Bəlkə, sizə koramin verim? Mən aptekə qaçıram...

– Bu yox... mən yox... – qoca mızıldandı. Qəddini düzəltdi və kor adam kimi divardan yapışaraq pəncərəyə doğru getdi.

Çürüntü qoxusu verən qızılı payız, sanki, dəniz qabarması vaxtı olduğu kimi pəncərəni xırda çilləri olan qızılı-tutqun rəngli yarpaqlarla örtmüşdü.

– Bilirsinizmi? Son, – Paençkovski dilləndi. – Son, – o, bir daha təkrarladı.

Onun çalsaçlı başı sinəsinə düşdü.

– Professorun yanına gedirəm. Hə, gedirəm. Saat neçədir?

– Beş.

– Demək, yəqin ki, öz otağındadır.

Professor həmişə öz otağında olurdu.

Geri dönən Paençkovski, sanki, indi Tşinetskini gördü.

– Bəs siz... siz mənimlə gedirsinizmi?

– Mən?.. Niyə? Cənab rəis, nə baş verib?

– Hələlik heç nə. Allah buna yol verməz. Yox, yox, yol verməz. Bizsə yoluna qoyarıq... Siz də gedirsiniz, sanki, şahid olarsınız. Hə, mənim üçün danışmaq asan olacaq, siz ki zati-alilərini tanıyırsınız.

Bu sözlər qəlbində aciz bir yumor qığılcımı doğurdu, amma bu qığılcım dərhal da söndü.

Ümumi palataya baş çəkmək, həkimlərdən hansınınsa mənzilinə və ya professorun yanına getmək arasında fərq yerdən göyə qədər idi. Qapı adi qapıydı, hamıda olduğu kimi, ağ rəngdəydi. Paençkovski xəbərdarlıqedici tərzdə qapını elə taqqıldatdı ki, onu eşidən olmadı. O gözlədi və bir də təkrar elədi, bir qədər güclü. Stefan qapını özü döymək istədi, amma rəis ehtiyatla onu kənara itələdi, bacarmazsan, hər şeyi korlayarsan...

– Buyurun!

Güclü səs eşidildi. Səs hələ kəsilməmiş onlar içəri girdilər.

Batan günəşin şəfəqləri altında Stefana tanış olan otaq qeyri-adi görünürdü. Günəş divarlara alovlu bir enerji verirdi. Otaq, sanki, alışıb-yanır, şirin mağarasını xatırladırdı. Köhnə qızıl kitabların cildində şölələnirdi, bütün bunlar ağac naxışların görkəmi ilə heyrətləndirici dərəcədə uyuşurdu. Tutqun rəngli, lakin altında bufet və rəflərin qırmızı ağacını günəş bir sehrbaz kimi işıqlandırırdı. Otaqdakı bütün ağac əşyaların üzərini parlaq ləkələr, sanki, suyun üzəri kimi xal-xal eləmişdi. Həmişə olduğu kimi, kitabsayağı açıq olan kresloda oturub hansısa cildin üzərinə əyilmiş professorun başındakı saçları da qığılcımlanırdı; professor hərəkətsiz baxışlarını Paypakla Stefana dikmişdi.

Paençkovski çətinliklə bir neçə giriş cümləsi deyə bildi, bəs üzr istəyir, mane olduğunu bilir, amma *vsi maior*[1], bu, hamı üçün vacibdir. Nəhayət, mətləbə keçə bildi:

– Zati-aliləri, mənə Koçerba zəng elədi... Bejinetsli aptekçi. Demək, bu gün səhər Bejinetsə almanların bölüyü, polis-qaydamaklar gəlib. Demək, ukraynalılar. Onlara susmaq tapşırılıb, amma kimsə ağzından söz qaçırıb, onlar bizim xəstəxananı ləğv eləməyə gəliblər.

Paypak dərhal da bütünlüklə necəsə büzüşdü, yalnız donqar burnunu qabağa uzatdı: mən qurtardım.

Professor bir elm adamı kimi aptekçinin informasiyasının dəqiqliyini şübhə altına aldı. Paençkovski isə aptekçini müdafiə elədi.

– Zati-aliləri, o, inanılmış adamdır. Otuz ildir buradadır. Sizi, cənab professor, hələ Olqerdlərdə xidmətçi olduğu

---

[1] Fövqəladə vəziyyət (*lat.*)

vaxtlardan xatırlayır. Zati-aliləri, onu tanımırlar, axı o, balaca adamdır, – və Paençkovski əlini lap döşəməyə qədər uzatdı ki, onun nə qədər balaca olduğunu göstərsin. – Amma ləyaqətli adamdır.

Rəis köks ötürdü və davam elədi.

– Demək, belə, zati-aliləri, bu, elə dəhşətli xəbərdir ki, inanmaq istəmirsən. Amma bizim, daha doğrusu, mənim vəzifəm məhz inanmaqdan ibarətdir.

Burada onun üçün ən çətin anlar başladı. Görkəmindən itaətkar və özünü itirmiş kimi görünən o, əslində, onu necə soyuq qəbul elədiklərini çox gözəl görürdü: professor hətta oturmağı da təklif eləmirdi. Stolun qabağındakı iki kreslo boş idi – günəş şəfəqlərinin qızılı buludlarının iki kölgə adacığı. Professor isə özünün ağır, düyünlü əlini kitabın üzərinə qoymuşdu və gözləyirdi. Bu, o anlama gəlirdi ki, bütün bu səhnə intermediyanı[1], bura gələnlərin mənasını başa düşməyə qadir olmadıqları daha vacib xəbərdaredici epizodu təmsil edir.



– Zati-aliləri, bu qaba əsgərlərə komandir qismində alman psixiatrı təyin olunmuşdur. Beləliklə, sanki, həmkarımızdır. Doktor Tissdorf.

Paençkovski susdu. Professor səsini çıxartmırdı, yalnız qaşlarını yüngülcə çatdı, sanki, demək istəyirdi: «eşitməmişəm», «bilmirəm».

– Hə, bu cavan oğlan. Esesçi. Mənim başa düşdüyüm qədəriylə bu təşkilat yaxşılıq bilməyəndir – amma neyləyə bilərik? Bejinetsə, onun yanına getmək lazımdır, zati-aliləri, çünki məhz, məhz sabah... – o dedi və səsi getdikcə möhkəmlənirdi. – Bu gün almanlar keşiş Petşikovskiyə deyiblər ki, sabah səhər onlara qırx adam lazım olacaq – yol mükəlləfiyyəti üçün.

– Bu xəbər... mənim üçün elə də gözlənilməz deyil, – professor cəld dedi və belə böyük adamın belə sakit danışmağı bacarması qəribəydi. – Mən bu xəbəri gözləyirdim, bəlkə də, bu cür yox, Rozeggerin məqaləsindən sonra... Həmkar, siz axı nə dediyimi başa düşürsünüz.

Paypak yaltaqcasına təsdiq elədi: o xatırlayır, qulaq asır və diqqət yetirir.

[1] İntermediya – dram tamaşasının iki pərdəsi arasında oynanılan kiçik komik səhnəcik

– Lakin burada mənim rolumun nədən ibarət olacağını bilmirəm, – professor sözünə davam elədi. – Bu işdən mənim başa düşdüyüm qədəriylə nə xidməti heyəti, nə də həkimləri heç bir təhlükə gözləmir. Xəstələri isə...

O, bunu deməməliydi. Adətən, ölçüb-biçib danışan professor bu dəfə sözləri seçməyə çatdırmadı. Paençkovski zahirdən heç nə hiss elətdirmirdi, necəydisə, elə də qalmışdı (heç bir titan deyildi. Göyərçin idi – vəssalam), amma o, stola söykənəndə onun cılız əli, qoca əli dəyişmişdi – daha titrəmirdi.

– İndi zaman elədir, – o dedi. – İnsan həyatı qiymətdən düşüb. Dəhşətli zamandır, amma zati-aliləri, hələlik sizin adınız sipər kimi bu binanı qoruya və yüz səksən bədbəxt xəstənin həyatını xilas eləyə bilər.

Professorun stolun altında gizlətdiyi, sanki, bu müzakirədə iştirak eləməyən sağ əli indi müzakirəyə qatıldı, sərt, üfüqi hərəkətlə susmaq işarəsi verdi

– Axı mən bu müəssisənin rəhbəri deyiləm, – professor dilləndi. – Mənim adım hətta əməkdaşların siyahısında da yoxdur, ştatda deyiləm, ümumiyyətlə, burada qeyri-rəsmi surətdə qalıram və fikrimcə, mənim də, sizin də bundan ötrü ciddi başağrımız ola bilər. Lakin siz mənim qalmağımı istəsəniz, mən qalaram. Havadarlığa qalanda isə – mənim xidmətlərim, əgər beləsi varsa, «onlar» tərəfindən Varşavada qiymətləndirilib, necə qiymətləndirdiklərini də siz bilirsiniz. Həmkar, sizin dediyiniz kimi, gənc, vəhşi ari nə yaşla, nə də elmi adlarla hesablaşmayan hakimiyyətdən əmr alıb.

Ortalığa sükut çökdü və tədricən bu sükut otağın simasını dəyişdirdi. Günəşin qırmızı, alışıb-yanan ləkə kimi divarların arxasında yoxa çıxan sonuncu şüası pəncərənin yanındakı şkafın qapıları üzərindən sürüşürdü və bu şüa elə yumşaq, elə canlıydı ki, Stefan söhbətin gedişini böyük diqqətlə izləsə də, onu baxışlarıyla yola salırdı. Sonra axşamın düşdüyünü xəbər verən mavitəhər tüstü, sanki, şəffaf su kimi otağı doldurdu. Səhnədə yaxşı rejissoru olan tamaşada görünməyən projektorların işıqlandırmanı dəyişərək pyesdəki hərəkətləri irəli çıxaranda olduğu kimi, həm qaranlıq və həm də qüssəli oldu.

– Mən indicə ora getmək istəyirəm, – Paençkovski dedi; professora qulaq asdıqca qəddini daha da düzəldirdi, hətta

onun Don Kixot saqqalı belə titrəyirdi. – Mən düşündüm ki, siz də mənimlə gedərsiniz.

Professor yerindən tərpənmədi.

– Belə olan halda mən gedirəm. Hələlik... zati-aliləri.

Onlar çıxdılar. Dəhliz burada sərt dönürdü. Buralar hələ də elə indicə professorun otağını tərk eləyən qırmızı işığa qərq olmuşdu. Tez-tez yeriyən qocayla yanaşı addımladıqca Stefan özünü tamam balaca hiss eləyirdi. Alimin kiçik, qırışlı sifəti məğrurluq ifadəsi ilə işıqlanmışdı.

– Mən elə indi gedirəm, – onlar günəş şüasının zolaqlara böldüyü pilləkən meydançasında dayananda o dedi. – Sizsə, həmkar, mən qayıdana qədər bütün eşitdiklərinizi gizlin saxlayın.

O, əlini sürahinin üzərinə qoydu.

– Professor ağır anlar yaşayıb. Onu elektroensefaloqrafiyanın əsasını qoyduğu... həm də təkcə Polşada yox, laboratoriyadan çölə atıblar. Lakin mən düşündüm ki....



Bu zaman qoca Paypak kənara doğru yırğalandı, onun saqqalı titrədi. Amma bu, uzun sürmədi.

– Bilmirəm, bəlkə, *Acheronta movebo*[1]. Amma...

– Mən də sizinlə gedimmi? – Stefan dilləndi. Dərhal da qorxdu, onda, alman ona arxadan təpik vuranda olduğu kimi, sanki, qulağı yüngülcə tutuldu. O hətta səndirlədi.

– Yox. Siz nəylə kömək eləyə bilərsiniz? Yəqin, yalnız bircə Kayters...

Paençkovski bir xeyli susdu və sözünü bitirdi:

– Amma o getməz. Mən bilirəm. Bu, kifayət elədi.

O, boş pilləkənlə üzüaşağı düşməyə başladı; ayağını elə möhkəm basırdı ki, sanki, öz xəstəliyi haqqında gəzən söz-söhbəti birdəfəlik rədd eləmək istəyirdi.

Stefan pilləkən meydançasında qaldı və burada Marqlevski ona yaxınlaşdı. Arıq doktor çox gözəl əhvalda idi. Stefanın düyməsindən yapışaraq onu pəncərəyə doğru çəkdi.

– Həmkar, siz eşidibsinizmi, keşiş sabah bizim üçün ibadət təşkil eləmək istəyir. Ona köməkçilər lazımdır. Mən Riqerin vasitəsilə uşaqları göndərəcəyimə söz verdim. Bilirsinizmi ona kim xidmət eləyəcək? Mənim şöbəmdən olan bu balaca Petrus! Bilirsinizmi o kimdir?

---

[1] Axeront axmağa başlayıb (*lat.*)

Stefan sifətdən Marqlevskinin qızılı saçlı mələklərinə oxşayan balaca, sarışın oğlanı xatırladı. Bu, ağzının suyu axan, sağalmasına, demək olar ki, ümid olmayan ağıldankəm idi.

– Bu, heyrətləndirici olacaq! Qulaq asın, həmkar, biz mütləq...

Stefan düyməsini qurban verdi, qışqıraraq çox tələsdiyini dedi və sona qədər qulaq asmayıb, cəld qaçaraq getdi. Korpusdan bağa çıxdı, oradan isə Paençkovskinin Bejinetsə getdiyi şose yoluna doğru qaçdı. Demək olar ki, yolu seçmədən üzüaşağı düşürdü. Birdən, sanki, yuxudan ayıldı. Yarpaqların quru xışıltısına yeni bir səs qarışmışdı. Stefan başını qaldıraraq dayandı. Haradasa uzaqda motor uğuldayırdı. Kimsə maşınla dağa doğru gəlirdi, bunu, sanki, quyruq kimi ağacları qucaqlayan tüstü sütunu da göstərirdi, – maşın yaxınlaşırdı. Stefan diksindi, sanki, varlığına soyuq hakim kəsildi və cəld geri döndü. O artıq üzərində köhnə yazı olan daş tağın yanındaydı ki, indi artıq tamam yaxından motor səsinin gəldiyini eşitdi. Sütunların yanında dayandı.

İkinci sürətlə cırıldayaraq və döngədə yana doğru xeyli əyilərək alman hərbi maşını – «Kubelvagen» yaxınlaşırdı; maşının düzünə kəsilib gödəldilmiş kapotu vardı. Küləyin döyəclədiyi şüşənin arxasında sürücünün dəbilqəsi qaralırdı. Maşın Stefanın yanından keçdi, döndü, inildədi və xəstəxananın ərazisinə daxil olaraq qapının qabağında dayandı.

Stefan ora getdi.

Divarın yanında hündürboylu alman dayanmışdı. Onun əynində maskalayıcı bürüncək vardı; qara eynəyi dəbilqənin üzərinə geriyə çəkilmişdi; qara əlcəklərinin geniş barmaqları qıfa oxşayırdı. Mahud mundirin üzərində qurumuş palçıq ləkələri görünürdü. O, hirslənmiş halda qapıçını sıxışdırırdı. Stefan almanın sualını eşidib söhbətə müdaxilə elədi:

– *Der Direktor ist leider zur Zeit abwesend. Bitte, was wunschen Sie?*[1]

– *Hier muss mal Ordnung gemacht werden*, – alman dedi. – *Sind Sie sein Stellvertreter?*[2]

---

[1] Təəssüf ki, direktor indi burada yoxdur. Sizə nə lazımdır? (*alm.*)
[2] Buranı qaydaya salmaq lazımdır. Siz onun müavinisiniz? (*alm.*)

– *Ich bin hier Arzt* [1].

– *Na, also, dann gehen wir mal rein* [2].

O, elə əminliklə içəri keçdi ki, sanki, burada olduğu ilk dəfə deyildi. Sürücü maşında qaldı. Yanından keçəndə Stefan əsgərin sağ əlini özüylə yanaşı oturacağın üstünə qoyduğu avtomatın üzərinə qoyduğunu gördü.

Stefan almanı ümumi dəftərxanaya apardı.

– *Wie viele Kranke haben-Sie jetzt?*[3]

– *Entschuldigen Sie, aber ich weiss nicht, ob...*[4]

– *Warm Sie sich zu entschuldigen haben, bestimme ich,* – alman artıq sərt danışırdı. – *Antworten Sie* [5].

– *Etwa einhundertsechzig...*[6]

– *Ich muss die genaue Zahl haben. Zeigen Sie die Papiere*[7].



– *Es ist ja Arztgeheimnis* [8].

– *Ein Arschloch ist das*[9], – alman çımxırdı.

Stefan rəfdən kitabı götürdü və açdı, xəstələrin sayı 186 nəfər idi.

– *So? Und lugen Sie nicht?*[10]

Tşinetskinin nəyə görəsə yanaqları soyuyurdu. Bununla belə, heç cür baxışlarını almanın qabağa olduqca sərt halda çıxmış çənəsindən ayıra bilmirdi. Soyuq tər basan barmaqları öz-özlüyündə yumruq kimi düyünlənirdi. Amma o, hələ də lüt soyunaraq təzəcə qazılan yarğanın üzərində dayanan yüzlərcə adamı görən bozarmış gözlərə, bu adamların mənasız hərəkətlərinin tanış olduğu, – onlar özləri də neylədiklərini başa düşmədən özlərini dirigözlü palçığın içinə yıxmağa hazırlayırdılar, – gözlərə baxırdı. Stefana elə gəlirdi, sanki, otaq və otağın bütün əşyaları onun ətrafında

---

[1] Mən buranın həkimiyəm (*alm.*).

[2] Di yaxşı, onda gedək görüm (*alm.*).

[3] Sizin indi burada nə qədər xəstəniz var? (*alm.*)

[4] Bağışlayın, amma mən bilmirəm, belə ki... (*alm.*).

[5] Siz burada nə vaxt üzr istəməlisiniz, ona mən qərar verirəm. Cavab verin (*alm.*).

[6] Yüz altmışa yaxın (*alm.*).

[7] Mənə dəqiq rəqəm lazımdır. Sənədlərinizi göstərin (*alm.*).

[8] Bu, həkimlik sirridir (*alm.*).

[9] Cəhənnəm olsun (*alm.*).

[10] Hə? Siz aldatmırsınız? (*alm.*)

fırlanır. Ancaq çiynindən asılı qalan yaşıl bürüncəkdə olan hündürboylu alman hərəkətsiz oturmuşdu.

– *Ein dreckiges Nest, das,* – alman dedi – *Zwei Tage schon muss man die Schweinehunde durch die Walder jagen. So was erne Sonderkomission wird zu Ihnen kommen. Wenn Sie einen einzigen Kranken verstecken, wird Jhnen...*[1]

O hədələmirdi, onun hətta üzünün ifadəsi də əvvəlkitək idi, o, bircə işarə belə eləmədi. Amma Stefanın içərisində hər şey buza dönürdü. Dodaqları bircə anın içində qurudu, dodaqlarını ara vermədən yalamağa başladı.

– *So zeigen Sie mir jetzt alle die Gebaude hier*[2].

– *In die Krankensale werden die Nichtarzte nicht zugelassen, weil die Verordnung...*[3] – son dəfə Stefan güclə eşidiləcək tərzdə dedi.

– *Die Verordnungen machen wir,* – alman dedi. – *Genug gequatscht*[4].

Sanki, nə elədiyinin fərqinə varmayaraq Stefanı elə itələdi ki, Stefan ayaq üstə güclə qaldı. İti addımlarla onlar həyəti keçib-getdilər. Alman ətrafı gözdən keçirir, suallar verirdi: korpusda neçə yer var? Neçə giriş-çıxışı var? Pəncərələrin barmaqlıqları varmı? Neçə xəstə var?

Nəhayət, artıq vidalaşarkən o, həkimlərin və baxıcıların sayı ilə maraqlandı. Ən iri çəmənliyin qarşısında dayanıb diqqətlə çəmənliyə baxdı, sanki, çəmənliyin ölçüsünü götürürdü.

– *Sie konnen berahigt schlafen,* – o artıq maşından dedi. – *Ihnen wird nichts passieren. Falls wir aber einen Banditen bei linen finden, eine Waffe oder so was, dann mochte ich nicht in Ihrer Haulstecken*[5].

Motor uğuldadı, yekəpər alman arxa oturacaqda özünə yer elədi. Yalnız indi Stefanı əvvəl diqqət yetirmədiyi iki qəribə

---

[1] Qoxumuş mağaradır. İki günə bu donuz sürüsünü meşəyə qovmaq lazımdır. Bax bura, sizə komissiya gətirəcəklər. Əgər siz, heç olmasa, bircə xəstəni belə gizlədərsinizsə, mən sizi... (*təhrif olunmuş alm.*).

[2] Di indi də bütün binanızı göstərin (*alm.*).

[3] Palataya xidməti heyətdən başqa kimsənin girməsinə icazə yoxdur, çünki göstərişə görə... (*alm.*).

[4] Göstərişi biz veririk. Bəsdir çərənlədin! (*alm.*).

[5] Sakit yata bilərsiniz. Sizi heç bir təhlükə gözləmir. Amma əgər biz sizdə bandit, silah və ya başqa nəsə tapariqsa, onda mən özüm də sizin yerinizdə olmaq istəməzdim (*alm.*).

hal heyrətləndirdi: birincisi, onlar bircə həkimlə, bircə baxıcıyla belə qarşılaşmadılar, halbuki onlar hamısı, adətən, axşamlar bağda gəzişirdilər, ikincisi, o, heç cür başa düşə bilmədi: bu alman özü məxsusən kim idi? Maskalı bürüncək onun hansı rütbədə olduğunu öyrənməyə imkan vermirdi. Almanın sifətini Stefan yadında saxlamamışdı, yalnız qara eynək və dəbilqə. «Marsdan gələnə oxşayırdı», – Stefan düşündü və bu an sakit addım səslərini eşitdi.

– Bu nə idi, həmkar?

Birbaşa qarşısında Nosilevskayanı gördü, qadının gözləri ona indi daha gözəl görünürdü, qaçmaqdan və həyəcandan yanaqları qızarmışdı. O tutuldu, dedi ki, nə olduğunu özü də bilmir, hansısa alman xəstəxanaya baxmaq istədi. Deyəsən, onlar meşədə partizanlara pusqu qururlar, bax o da bura gəlmişdi.



Stefan Paypakı ələ vermək istəmədiyindən bilərəkdən qeyri-müəyyən danışırdı.

Nosilevskayanı Riqerlə Marqlevski göndərmişdilər, doğrudur, onlar yuxarı mərtəbədən maşının getdiyini görmüşdülər, amma hələ də özləri aşağı düşməyə risk eləmirdilər. Qadını da son dəqiqəyə qədər yanlarından buraxmamışdılar, qoruyurmuşlar...

Stefan Nosilevskaya ilə elə də nəzakətlə davranmırdı, onu bağda tək qoydu, özü isə təzədən şose yoluna tərəf yollandı.

Saata baxdı, yeddi idi. Qaranlıq tez düşmüşdü. Alman burada azından yarım saat olmuşdu, Paypak elə indilərdə qayıtmalıydı. Toranlıqda bütün ətraf başqa cür, yad görünürdü. Müalicəxanaya baxdı. Arxada gizlənmiş ayın, sanki, lampa kimi işıqlandırdığı binanın məğrur cizgiləri qəhvəyi şüaların fonunda qaralırdı.

Stefan bir neçə yüz metr də getdi və birdən yarpaqların xışıltısı arasından hansısa addım səslərini eşitdi.

Kimsə qarşısına gəlirdi. Qaranlıq idi, ay buludların arxasında gizlənmişdi. Səslərə görə səmti müəyyənləşdirən Stefan yolun o biri tərəfinə keçdi və ondan üç addımlıq məsafədə olan rəisini gördü.

– Cənab doktor... Alman bura gəlmişdi, – Stefan sözə başlamaq istədi, amma dili dolaşdı, hər şeyə görə rəisində daha vacib xəbərlər olduğunu hiss elədi.

Lakin Paençkovski dinməzcə addımlayırdı. Stefan onu gah bir az irəli buraxaraq, gah da ondan bir az geri qalaraq onunla yanaşı addımlamağa çalışırdı. Onlar beləcə giriş qapısına kimi getdilər, sonra əvvəl olduğu kimi, tam sükut içində Paypakın kabinetinə yollandılar. Daha doğrusu, rəis ora getdi, Stefan isə ondan geri qalmadan onun arxasınca gedirdi. Paençkovski qapını açarıyla açıb içəri keçdi, Stefan da. Onların hər ikisinin işıq düyməsinin qapının lap yanında olduğunu yaxşı bilməsinə baxmayaraq, işığı yandırana kimi qəribə vəziyyətdə üç-dörd dəfə bir-biri ilə toqquşdular. Bu zaman suallarla qocanın üzərinə atılmağa hazır olan Stefan dəhşət içində geri çəkildi.

Paençkovski tamamilə sapsarı idi və elə bil, qupquru qurumuşdu. Göz bəbəkləri balacalaşmışdı, eynən nöqtəyə oxşayırdı.

– Cənab rəis... – Stefan pçıldadı və bir qədər ucadan dilləndi: – Cənab rəis...

Paençkovski aptekə yaxınlaşdı, üzərində “*Spiritus vini concentratus*” yazısı olan kip tıxaclı balaca şüşəni götürüb açdı. Stəkana bir qədər süzdü, – onun qədəhi yox idi, – içdi və güclü öskürdü. Sonra özünü kresloya yıxıb başını qucaqladı.

– Bütün yol boyunca, – o, barmaqlarını sifətindən çəkmədən sözə başladı, – bütün yol boyunca mən nə deyəcəyimi düşünürdüm. Əgər o, mənə deyərdisə dəlilər faydasız adamlardır, mən düşünürdüm, onda mən almanlardan Bloyleri və Mebiusu misal gətirərdim. Əgər Nürnberq qanunlarını xatırladardılarsa, izah edərdim ki, biz işğal olunmuş ölkəyik, belə çıxır ki, sülh müqavilələri imzalanana kimi bizim vəziyyətimiz qanuniləşdirilməyib... Əgər sağalmayan xəstələri verməyi tələb edərdilərsə, tibbin heç bir xəstəliyin qarşısında aciz olmadığını deyərdim. Həmişə anlaşılmazlıqlarla hesablaşmaq lazımdır, bu, həkimin vəzifələrindən biridir. Əgər deyərsə ki, düşmənlər ölkəsidir, o isə almandır, mən ona hər şeydən əvvəl onun həkim olduğunu xatırladardım. Əgər...

– Cənab rəis... – Stefan yalvarış dolu səslə pıçıldadı.

– Hə, siz qulaq asmaq istəmirsiniz. Mən ora çatanda, heç olmasa, üç söz deməyə fürsət tapdımmı, bilmirəm. O, mənim üzümdən vurdu.

– A... A... – Stefan nəsə demək istədi, amma bacarmadı.

– Ukraynalıların vaxtmistri mənə dedi ki, xəstələrin sayını öyrənmək və «taktiki plan işləyib hazırlamaq» üçün oberşturmfürer Qutka müalicəxanaya getdi. Onlar bunu belə adlandırırlar. Ümid eləyirəm siz onlara yalan məlumat veribsiniz?

– Yox... mən... yəni o özü baxdı.

– Bəli. Hə, hə.

Digər şüşədən Paypak özünə lüminalinlə brom süzdü, içdi və ağzını əlinin arxa tərəfi ilə sildi. Sonra bütün həkimləri kitabxanaya dəvət etməyi xahiş elədi.

– E... cənab professoru da?

– Necə? Hə. Yaxşısı budur, yox. Yox.



Stefan Nosilevskaya və Riqerlə kitabxanaya gələndə orada artıq işıq yanırdı, onların arxasınca da Kayters, Marqlevski və Staşek gəldilər. Paençkovski hamının əyləşməsini gözlədi. Sonra qısaca, təfərrüatlara varmadan, – halbuki belə şeyin həvəskarı idi, – məlumat verdi ki, Ovsyan kəndini sakitləşdirən, yəni yandırıb kül eləyən və onun sakinlərini məhv eləyən alman-Ukrayna komandası müalicəxanada olan bütün xəstələri qırmaq niyyətindədir. Bu məqsədlə də almanlar səhərə kimi Bejinetsdən adamlar yığılmasına göstəriş veriblər, çünki öz təcrübələrindən bilirlər ki, xəstələr özlərinə qəbir qazan kəndlilərdən fərqli olaraq razılıqla iş görməyə qadir deyilər. Sonra o, doktor Tissdorfun yanına getmək üçün cəhd eləməsindən danışdı.

– Ona gəlişimin məqsədini ancaq deyə bilmişdim ki, o, məni şillə ilə vurdu. Mən onun bununla qəzəbini büruzə verməsinə inanmaq istəyərdim, lakin ukraynalıların vaxmistri mənə dedi ki, onlar hərbi əməliyyata başlamaq əmri alıblar, bu gün onlar üçün özlərində olduğundan əlavə patron gətirəcəklər. Vaxmistr mənə namuslu adam kimi göründü, çünki belə vəziyyətlərdə sözün, ümumiyyətlə, nəsə bir əhəmiyyəti yoxdur.

Bundan sonra da Paençkovski həkimlərə oberşturmfürer Qutkanın gündüz təşrifinin əsl məqsədini açıqladı.

– Mən istərdim ki, siz... bu haqda düşünəsiniz. Müəyyən... addımlar atmaq üçün... Mən rəisəm, amma sadəcə... sadəcə, hər şeyə...

Onun səsi dəyişdi.

– Bütün xəstələri meşəyə buraxmaq olar, özümüz isə çıxıb gedərdik, saat ikidə Varşavaya qədər sürət qatarı gedir, – Stefan fikrini söyləmək istədi, amma cavabında elə sükutla qarşılaşdı ki, sözünü başa çatdıra bilmədi. Paypak kresloda qurcuxurdu.

– Mən bu haqda düşünmüşəm... amma dəyməz. Onlar asanlıqla xəstələri tutarlar. Həm də onlar meşədə yaşaya bilməzlər. Bu... bu, hamısından asan olardı. Amma bu, məsələnin həlli deyil.

– Tam cəfəngiyatdır, – Marqlevski qəti etiraz elədi. – Güman eləyirəm biz gücə güzəştə getməliyik. Arximed kimi. Xəstəxananı tərk... tərk etməliyik.

– Xəstələrlə birlikdə?

– Yox, niyə ki? Sadəcə və sadəcə, tərk eləyirik.

– Demək, qaçırıq. Deyəsən, bu da bir çıxış yoludur, – hansısa şübhəli bir səbirlə qoca yumşaqca qeyd elədi. – Almanlar məni şillə ilə vura, burada bayıra ata, nə istəsələr eləyə bilərlər. Lakin mən müəssisənin rəhbərindən başqa birisi deyiləm. Mən həkiməm. Siz də hamınız həkimsiniz.

– Cəfəngiyatdır. Bunun nə dəxli var? – Marqlevski əliylə çənəsini ovuşdurdu, sanki, burada tək-tənhaydı.

– Siz başqa vasitələri... sınaqdan çıxartmadınız? – Kayters soruşdu.

Hamı ona baxdı.

– Siz nəyi nəzərdə tutursunuz?

– Di... rəhmə gətirmək üçün, hansısa bir vasitəni...

– Rüşvət... – nəhayət, rəis təxmin elədi.

– Onlar nə vaxt burada olacaqlar?

– Bütün ehtimallara görə, səhər yeddiylə səkkizin arasında.

Bayaqdan yerində otura bilməyən Marqlevski stulu kənara itələdi və barmaqlarını geniş açaraq əllərini birbaşa stolun üzərinə yapışdırdı, hətta barmaqlarının sümükləri ağardı. O danışmağa başladı:

– Mən... öz borcum hesab edirəm... mən təkcə mənim yox, hamının sərvəti olan öz elmi işimi xilas eləməyə borcluyam. Görürəm ki, mənim, sadəcə olaraq, başqa çıxış yolum yoxdur. Sağlıqla qalın, cənablar.

O, başını yuxarı qaldıraraq heç kimə baxmadan otağı tərk elədi.

Paençkovski zəifcə, ümidsizcəsinə əlini yellədi. Hələ də hamı qapıya baxırdı.

– Di, demək, belə oldu... – Paypak qırıq-qırıq səslə danışmağa başladı. – Bu belədir. Mən burada iyirmi ildir işləyirəm... iyirmi il. Amma mən bilmirdim... mən güman eləmirdim... Mən psixoloqam, mən qəlb bilicisiyəm... mən... Axı biz özümüz haqqında yox, onlar haqqında düşünməliyik! – Paençkovski ucadan qışqırdı, yumruğunu stola döydü və ağladı. Öskürür, bütün bədəni titrəyirdi.

Nosilevskaya ayağa qalxdı, onu kresloya apardı və oturtdu, hərçənd o, müqavimət göstərirdi. Qadın qocanın üzərinə əyilərək onun biləyindən yumşaqcasına yapışıb, nəbzini ölçəndə saçlarıyla qızılı qığılcımlar qaçışırdı. Sonra saçlarını geri ataraq öz yerinə qayıtdı.



Dərhal da hamısı eyni zamanda danışmağa başladı.

– Bəlkə, bütün bunlar hələ yəqinləşməyib.

– Mən aptekçiyə zəng edərəm.

– Hər ehtimala qarşı Sekulovskini gizlətmək lazımdır.

(Bunu Stefan dedi.)

– Keşişi də.

– Həmkar, axı o, deyəsən, xəstəxanadan azad edilib.

– Yox, məsələ də burasındadır ki, yox.

– Onda gedək dəftərxanaya.

– Alman siyahını yoxladı, – Tşinetski boğuqcasına dilləndi, – və... məni, yəni bizim hamımızı cavabdeh elan elədi.

Kayters sakitcə oturmağındaydı.

Paençkovski ayağa qalxdı, o artıq sakitləşmişdi, yalnız qızaran gözləri onun özündə olmadığını bildirirdi. Stefan ona yaxınlaşdı.

– Cənab rəis, biz qərara gəlməliyik. Bəzilərini gizlətmək lazımdır.

– Baş verənləri dərk eləyən bütün xəstələri gizlətmək lazımdır, – rəis dedi.

– Bir neçə daha dəyərlisini, bəlkə də... – Riqer tərəddüd içində sözə başladı.

– Bəlkə, sağalanları, ümumiyyətlə, buraxaq?

– Onların sənədləri yoxdur. Onları vağzalda dərhal yaxalayarlar.

– Bəs kimi gizləyək? – Staşek gizlədə bilmədiyi hirslə soruşdu.

– Di mən deyirəm, daha dəyərlilərini, – Riqer təkrar elədi.

– Kimin dəyərli olduğunu mən müəyyənləşdirməyəcəyəm. Söhbət ondadır ki, onlar digərlərini satmasınlar, – Paypak dedi. – Yalnız bunu nəzərə alın.

– Deməк, seçmə yolu ilə?

– Xahiş edirəm, palatalara dağılışın... Nosilevskaya, tibb bacılarını ayrıca xəbərdar edin.

Hamı qapıya doğru yönəldi. Paypak hər iki əliylə stuldan yapışaraq kənarda dayanmışdı. Axırıncı çıxan Stefan onun pıçıldadığını eşitdi.

– Necə dediniz? – o, Paençkovskinin ona nəsə demək istədiyini düşündü. Amma qoca onu eşitmədi.

– Onlar... onlar üçün... onlar üçün dəhşətli olacaq... – qoca güclə eşidilən pıçıltıyla dedi.

Onlar bütün gecəni yatmadılar. Seçim şübhəli nəticələr verdi, hansısa iyirmi xəstəni seçə bildilər, amma onlar üçün heç kim cavabdeh olmaq istəmirdi, heç kim onların əsəblərinin tab gətirəcəyinə əmin deyildi. Gizlətməyə çalışsalar da, bu xəbər sürətlə bütün xəstəxanaya yayılmışdı. Gənc Yuzef yaxasıaçıq xalatda rəisdən bircə addım belə kənarlaşmırdı, o, elə hey öz arvadı və uşaqları haqqında nəsə mızıldayırdı.

Qadın şöbəsində yarıçılpaq xəstələrin dəstəsi balışlardan çıxan tünd-göy lələklərin buludu içində rəqs eləyirdilər; onların cingiltili çığırtıları bircə dəqiqəliyə belə ara vermirdi. Stefanla Staşek iki saat ərzində, demək olar ki, apteklərdə saxlanılan azacıq dərman ehtiyatlarının hamısını tərtəmiz təmizlədilər; indiyə qədər ciddi qənaət elədikləri lüminalı və skopolamini indi səxavətlə paylayırdılar; lakin bununla onlar heç nəyə nail ola bilmədilər. Stefan özü üstünlüyü spirtə verən Riqerin gülüşünü eşidərək iki dəfə böyük brom şüşəsinin üzərinə əyildi. Bir müddət keçəndən sonra iki iri çamadan və içində dahilərin kartotekası olan arxa çantasıyla Marqlevskinin qapıya doğru getdiyini gördülər. Gecəyarısına yaxın Kayters öz otağına

qapandı. Hərc-mərclik artırdı. Hər korpus öz avazıyla bağırırdı, hamısı da çoxsəsli bağırtıya çevrilirdi. Stefan mənasız halda mərtəbədən mərtəbəyə qaçırdı; bir neçə dəfə professorun mənzilinin yanından keçmişdi. Qapının altından zəif işıq zolağı görünürdü, oradan heç bir səs eşidilmirdi.

Əvvəlcə elə düşünürdülər ki, xəstələri xəstəxananın ərazisində gizlətmək ümidsiz işdir. Amma Paençkosvki sağalmaq mərhələsində olan üç manyakı və on bir şizofreniki öz mənzilinə yerləşdirərək onları fakt qarşısında qoydu. Onların otağına olan qapının qabağını şkafla kəsdi. Sonra şkafı kənara itələmək lazım gəldi, çünki xarici görünüşüylə ən sağlam görünən şizofrenikin tutmaları tutdu. Şkafı çəkərkən tələsdiklərindən divardan iri bir suvaq parçasını qopartdılar və Paençkovski əlüstü həmin yeri pərdə ilə örtdü. Stefan bir neçə dəfə onun mənzilinə baş çəkdi; əgər ümumi əsəbi ab-hava olmasaydı, qocanın ağzına bir neçə mıx salıb, yerini Yuzefin saxladığı stulun üzərində rahatlayaraq əsəb çəkiciylə pərdəni necə vurduğuna baxarkən, bəlkə də, sevinərdi. Qərara aldılar ki, xəstələri öz mənzillərinə yalnız ikidən az otağı olmayanlar aparsınlar. Söhbət Kaytersdən və Riqerdən gedirdi. Riqer, artıq kifayət qədər əlavə işləri olan həkim bir neçə xəstəni gizlətməyə razılıq verdi. Stefan isə palataya gedib heykəltəraş oğlanı aparmaq üçün qapını açanda yumaq kimi bir yerə yığışmış çığıran adamların üzərinə gəlib çıxdı.

Parça-parça edilmiş döşəkağıların iri parçaları salamat qalan lampaların üzərindən asılı qalmışdı. Ümumi mərəkənin içindən banlamanı, fit səslərini və arasıkəsilmədən cingiltili «şkafda dəhşətli müharibə!» çığırtılarını ayırd eləmək olardı. Lələklərin tozu içində boğulan Stefan hirsindən dəli olmuş halda divar boyunca gedirdi. İki dəfə onu döşəməyə yıxdılar; bir dəfə o, birbaşa Paşçikovyakın ayaqları altına yıxıldı; Paşçikovyak iri sıçrayışlarla palatanın bir küncündən o biri küncünə qaçır, sanki, Yerin cazibə qüvvəsi ilə mübarizə aparırdı.

Ağıllarını itirmiş, çılğınlıqdan gözləri tutulmuş xəstələr palatada vurnuxurdular; özlərini divarlara elə çırpırdılar, sümükləri xırçıldayırdı; ikisi-üçü birlikdə çarpayının altına sürünüb girirdi, oradan da onların atılıb-düşən ayaq-

ları yellənirdi. Stefan çox böyük çətinliklə oğlanın yanına kimi getməyə nail oldu. Onu tapandan sonra qapıya yol tapmaq üçün yumruqlarını işə saldı. Amma orada oğlan ayaqlarını yerə dirədi və Stefanı küncə dartmağa başladı. Yatağın altından kisə materialına bükülmüş nə isə böyük bir şeyi çıxartdı və yalnız bundan sonra özünün qapıya doğru aparılmasına icazə verdi.

Dəhlizdə Stefan rahatlıqla nəfəsini dərdi; xalatında bircə dənə də olsun düymə qalmamışdı, burnundan qan axırdı. Palatada gurultu güclənmişdi. Stefan oğlanı Marqlevskinin mənzilində gizlin yer düzəltməyə kömək eləyən Yuzefə verdi və aşağı düşdü. Artıq pilləkəndən düşərkən oğlanın ona verdiyi bükülünü əlində saxladığını hiss elədi. Bükülünü qoltuğunda saxlayaraq siqaret çıxardı və qorxdu; çöpü kibritə vuran əli tir-tir əsirdi.

Rəisin otağındakı gizlin yerdə sayca üçüncü dəlilik tutmasından sonra hər yerdə hazır olan Paypak onların hamısına lüminal verilməsinə göstəriş verdi. Artıq sübhçağı üç mənzildə gizlədilən otuz xəstə narkotik yuxuya getmişdi.

Onların xəstəlik tarixçələrini Stefanın əllərini qorxa-qorxa açmasına əhəmiyyət verməyən Paypak öz əlləriylə məhv elədi. Yalnız döşəmədən qalxandan və bu vərəqlərin yandığı sobanın qapısını bağlayıb quruma bulaşmış əlini siləndən sonra o dedi:

– Mən b... bütün bunları öz üzərimə götürürəm.

Ağarmış, amma sakit görünən Nosilevskaya rəisi addım-addım təqib eləyirdi. Keşiş Nezqlobu əlüstü olmayan vəzifəyə, «müəssisənin ruhani şəxsi» təyin elədilər. O, aptekin ən qaranlıq küncündə dayanmışdı və oradan onun güclü pıçıltısı eşidilirdi: o, dua eləyirdi.

Hara və niyə getdiyini bilmədən dəhlizdə dolaşan Stefanı Sekulovski yaxaladı.

– Qulaq asın... cənab... doktor... – Stefanın xalatından yapışaraq qışqırdı. – Bəlkə, mən... mənə ağ xalat verin... mən ki psixiatriya ilə tanışam, axı siz bilirsiniz...

O, Stefanın arxasınca qaçırdı, sanki, qaçdı-qovdu oynayırdılar. Stefan nəfəsini dərmək üçün dayandı, bir qədər özünə gəldi və fikrə getdi:

– Niyə də olmasın? İndi artıq, onsuz da, fərqi yoxdur. Keşişi təyin elədik, sizi də olar... amma digər tərəfdən...

Sekulovski ona sözünə davam eləməyə imkan vermədi. Qışqıraraq və bir-birinə qulaq asmayaraq onlar pilləkənə qədər getdilər. Paypak mərtəbələr arasındakı meydançada dayanmışdı və baxıcılara nəsə göstərişlər verirdi.

– Mənsə deyirəm, onların hamısını zəhərləmək lazımdır! – çuğundur kimi qızarmış Kşeçotek bağırırdı.

– Bu, təkcə cəfəngiyat deyil, amma həm də c... cinayətdir, – Paençkovski cavab verdi. Onun alnı ilə iri tər damlaları yuvarlanır, tər kirpiklərinin ağ tükləri arasında işıldayırdı. – Əgər Allah hər şeyin dəyişməsinə imkan verərsə... onda necə olsun? Əks halda... biz, sadəcə olaraq, gizlətdiklərimizi də, özümüzü də zərbə altında qoyarıq.

– Eh, siz ona fikir verməyin. Bu ki burnufırtıqlı uşaqdır, – küncdən Riqer nifrətlə səsləndi. Onun xalatının cibindən spirt şüşəsi görünürdü.

– Siz sərxoşsunuz!

– Cənab rəis, – Sekulovskini birbaşa dartıb qocanın yanına gətirən Stefan söhbətə müdaxilə elədi. – Belə bir iş var...

– Bəs bu necə olsun? – Paypak qulaq asıb dedi. – Siz axı nəyə görə m... mənim otağıma getmək istəmədiniz?

O, alnını iri ağ dəsmalla sildi.

– Di yaxşı. İndicə... doktor... Nosilevskaya, sizin ki bu sahədə artıq təcrübəniz var... bu yazı sahəsində...

– İndicə mən hər şeyi kitabda qaydaya salaram, – öz aydın, şirin səsiylə Nosilevskaya onu sakitləşdirdi. – Gedək mənimlə.

Sekulovski onun dalınca yüyürdü.

– Hə... daha bir iş də var, – Paypak dedi. – Doktor Kaytersin yanına getmək lazımdır. Amma mən özüm – mənim üçün... yaxşı deyil.

O, Nosilevskayanın dəftərxanadan qayıtmasını gözlədi. Sekulovski artıq korpusda Stefanın ağ xalatında dolaşırdı, hətta Stefanın stetoskopunu da xalatın cibinə salmışdı. Amma növbəti korpusa qədər gedib, getdikcə artan müdhiş bağırtıları eşidib kitabxanada gizləndi.

Stefan tamamilə gücdən düşmüşdü. Dəhlizə baxıb əlini yellədi, pəncərədən baxdı ki, görsün hava açılırmı və aptekə brom içməyə getdi. Şüşəni rəfə qoyanda kiminsə yüngül addım səslərini eşitdi.

Londkovski, həmişə olduğu kimi, özünün qara, geniş kostyumunda içəri girdi.

– Zati-aliləri?..

Professor, deyəsən, Stefanın burada olmasından narazı qaldı.

– Eybi yox, eybi yox. Yox, – o təkrar eləyirdi. Amma qərarsız halda qapıda dayanmışdı.

Stefan düşündü ki, yəqin, Londkovski özünü pis hiss eləyir: o, çox solğun idi, amma Stefana baxmamağa çalışırdı. Hətta yerindən də tərpəndi, sanki, buradan getmək istəyirdi. Əlini qapının dəstəyinə qoydu, amma dəstəyi buraxdı və Stefana lap yaxın gəldi.

– Burada... kalium-sianid var?

– Nə? Bağışlayın.

– Aptekdə kalium-sianid var?

– A... a... var, – özünü itirmiş Stefan mızıldandı.

O hətta lüminal şüşəsini də yerə saldı, şüşə döşəmənin üzərinə düşüb sındı. Stefan şüşənin qırıqlarını yerdən yığmaq istədi, amma bunun əvəzinə qəddini düzəltdi və sualedici baxışlarla professora baxdı.

– Bax, açar buradan asılıb, zati-aliləri... bax, buradadır!

Professor siyirməni çəkdi, balaca boş piramidon üçün olan sınaq şüşəsini çıxartdı. Sonra rəfdən şüşəni götürdü, balaca qayçı ilə tıxacını çıxartdı və ehtiyatla sınaq şüşəsinə on dənə ağ kristal boşaltdı. Sınaq şüşəsini tıxacla bağladı və pencəyinin döş cibinə qoydu. Siyirməni bağladı, açarı mıxdan asdı, getmək üçün hazırlaşdı, amma düşündü və yenidən Stefana yaxınlaşdı:

– Lütfən, heç kimə deməyin ki... mən... – birdən Stefanın sallana qalan əlinin yuxarısından yapışıb onu soyuq barmaqları ilə sıxdı və sözünü astadan bitirdi: – Sizdən çox xahiş edirəm.

Tələsik çıxdı, qapını sakitcə arxasınca bağladı.

Stefan beləcə – stola söykənərək ayaq üstə dayanmışdı, ovcu hələ də professorun barmaqlarının toxunmasını hiss eləyirdi. Ovcuna baxdı. Özünə brom süzmək üçün şkafın yanına qayıtdı və şüşəni əlində saxlayaraq yerindəcə donub-qaldı...

Cəmisi bir dəqiqə əvvəl o gördü: Londkovskinin köynəyinin yaxası açıq idi, pencəyinin də, batıq qoca sinəsi

görünürdü. Nağıllardakı qüdrətli kralı xatırladır və indi başqa heç nə haqqında düşünə bilmirdi.

Hökmdar bu nəhəng ölkənin başında dayanmışdı. Onun səsini min mil ətrafdakı adamlar belə eşidirdilər. Bir dəfə o yorularaq taxtda yatdı, saray əyanları qərara aldılar ki, özləri onu soyundurub yataq otağına aparsınlar. Onun əynindən sincab dərisindən olan bürüncəyi çıxardırlar, bürüncəyin altında isə tünd-qırmızı rəngli, qızılı saplarla tikilmiş paltar vardı. Bu paltarı çıxardandan sonra altda bütünlüklə ulduzlarla və günəşlə örtülmüş ipək köynək gördülər. Onun altında isə mirvaridən toxunmuş köynək vardı. Növbəti köynəyin bəzəkləri yaqutdan idi. Beləcə, onlar bir köynəyin altından digərini çıxardırdılar və sonda yanlarında nəhəng, gözqamaşdırıcı bir təpə ucaldı. Onda onlar qorxu içində bir-birinə baxıb ucadan səsləndilər: «Bəs bizim kralımız hanı?» Çünki qarşılarında səpələnmiş çoxlu bahalı paltar görürdülər, bu paltarların içində isə canlı insandan əsər də yox idi. Bu nağılın adı «Kələkbazın soyulması və ya böyüklük haqqında» idi.



Kaytersin yanındakı müşavirə bir saat uzandı. Cərrah, nəhayət, «*splendid isolation*»u[1] seçdi. O heç nə bilmir, heç nəyə qarışmır. O yalnız cərrahiyyə otağı üçün cavab verir. Sekulovski onun şöbəsinin həkimi oldu. Bu haqda Stefana danışarkən Nosilevskaya ağzından qaçırtdı ki, Kaytersin otağında Qonzaqa bir-birinə yaxınlaşdırılmış iki kreslonun üstündə yatır. Tibb bacısı Qonzaqa? Stefanın artıq heyrətlənməyə gücü qalmamışdı. O keyimişdi. Bütün ətrafdakıları, sanki, seyrək tüstü arxasından görürdü. Artıq altının yarısına yaxın idi. Tənbəlcəsinə dolaşarkən birinci mərtəbənin dəhlizində Riqerlə toqquşdu; o, keçidin ortasında iflic adamlar üçün nəzərdə tutulmuş yellənən kresloda oturmuşdu. Qarşısında, döşəmənin üzərində şüşə vardı; o, ehtiyatla ayağı ilə şüşəni taqqıldadırdı, sanki, şüşənin təmiz cingiltisindən ləzzət alırdı.

Stefanı onun qaşları çatılmış sifəti sarsıtdı, sanki, indicə hönkürtü ilə ağlayacaqdı. Stefan onunla danışmamağı qərara aldı, amma Riqer gözlənilmədən hıçqırdı; buna qədər o, hıçqırıqlarını boğmağa çalışırdı.

---

[1] Çox gözəl təcrid olunma (*ing.*)

– Paençkovskinin harada olduğunu bilmirsiniz ki?
– Bağa getdi, – Riqer cavab verdi və yenə də hıçqırdı.
– Niyə?
– Keşişlə. Yəqin, dua eləməyə.
– Aha.
Stefanı gördükdə Sekulovski kitabxanadan çıxdı.
– Hara gedirsiniz?
– Daha gücüm tükənib. Uzanacağam, düşünürəm ki, bizim hamımıza çoxlu güc tələb olunur – səhərə.
Ağ xalatda Sekulovski həmişə olduğundan da gonbul görünürdü. Kəməri çatmırdı, kəmərin ucuna tənzif bağlamalı olmuşdu.
– Siz məni heyrətləndirirsiniz. Mən... mən... mən bacarmazdım.
– E, boş şeydir. Gedək mənim otağıma.
Pilləkəndə Stefan batareyaya söykənmiş bükülünü gördü. Onu oğlanın ona verdiyini xatırladı. Bükülünü qaldırdı və maraqla açdı. Bu, üst dodağına qədər daş parçasının içinə batmış kişinin dəbilqəli başı idi. Gözləri şişmiş, üzü köpmüşdü. Görünməyən, daşa batmış ağzı qışqırırdı.
Özünə gələndən sonra Stefan heykəli stolun üzərinə qoydu, çarpayının üzərindən adyalı götürdü və stulu yaxına çəkib balışa dirsəklənərək uzandı. Bu an da Riqer qaçıb gəldi.
– Qulaq asın, gənc Poşçik gəlib, altı xəstəni götürür, onları Neçavaya meşəyə aparır. Cənab Sekulovski, onunla getmək istəyirsinizmi?
– Kim gəlib? – Stefan təkcə dodaqları ilə, az qala, səssizcə soruşdu.
Onun pıçıltısını Sekulovskinin səsi batırdı.
– Kim? Hansı xəstələri?
Stefan yarıyuxulu halda çarpayıdan ayağa qalxdı.
– Gənc Poşçik, bu elektrikin oğlu... meşədən gəlib və aşağıda gözləyir, – ayılmış Riqer həyəcanlandı. – Qocanın lüminal vermədiyi hər kəsi götürür. Hə, siz gedirsiniz, ya yox?
Şair güclü həyəcanlanmış halda stuldan ayağa sıçradı. Onun əlləri əsirdi.
– Mən gedimmi? – o, Stefana doğru döndü.

Stefan susurdu, bütün vaxtı haradasa yaxınlıqda olan, onun, Stefanınsa bu haqda heç nə bilmədiyi adamın qəfil gəlişi haqqındakı xəbər onu sarsıtmışdı.

– Bu vəziyyətdə mən məsləhət verə bilmərəm...

– Komendant saatından sonra... dəlilərlə birlikdə... – Sekulovski astadan mızıldandı. – Yox! – o, ucadan dedi, Riqer qapıya doğru sıçrayanda isə qışqırdı: – Bir dayanın görüm də!

– Di qərara alın! O, meşədə iki saat gözləyə bimәz!

– Bəs o kimdir?

Aydın idi ki, Sekulovski vaxtı uzatmaq üçün belə suallar verir. O, xalatının parçadan olan kəmərinin düyününü barmaqlarıyla oynadırdı.

– Siz nədir, kar oldunuz?! Partizan! Bax, gəlib, hələ bir Paençkovski ilə mərəkə qopardıb ki, o, niyə digər xəstələrə lüminal verib...



– Ona etibar eləmək olarmı?

– Bilmirəm! Siz gedirsiniz, ya yox?

– Bəs keşiş gedir?

– Yox. Nə oldu?

Sekulovski susurdu. Riqer çiyinlərini çəkdi və qapını şaqqıltı ilə çırparaq, qaçıb otaqdan çıxdı. Şair onun arxasınca getmək istədi, amma dayandı.

– Bəlkə, gedim?.. – özünü itirmiş halda soruşdu.

Stefanın başı balışın üzərinə düşdü. O, anlaşılmayan tərzdə nəsə mızıldandı.

Şairin otaqda necə gəzişdiyini və nəsə dediyini eşidirdi, amma sözlərin mənasını başa düşmürdü. Yuxu onu ağuşuna alırdı.

– Siz də uzanın, – o mızıldandı və yuxuya getdi.

Stefanı güclü işıq yuxudan oyatdı. Kimsə əlağacı ilə onun əlinə vururdu. Gözlərini açdı, amma tərpənmədən yerində uzanmışdı; otaq qaranlıq idi, pərdələri hələ axşamdan buraxmışdı. Çarpayının yanında bir neçə hündürboylu kişi dayanmışdı. Stefan mexaniki olaraq əliylə gözünü örtdü, kişilərdən biri fənərin işığını birbaşa onun üzünə saldı.

– *Wer bist du?*[1]

---

[1] Sən kimsən? (*alm.*)

– *A, lass ihn. Das ist ein Arzt* [1], – digər səs cavab verdi; bu səs nəsə ona tanış gəlirdi. Stefan ayağa sıçradı, müşəmbə plaş geymiş, avtomatları çiyinlərindən aşırmış üç alman aralanıb ona yol verdi. Dəhlizə açılan qapı taybatay açıq idi, oradan nallı çəkmələrin boğuq tappıltıları eşidilirdi.

Otağın küncündə Sekulovski dayanmışdı. Stefan onu yalnız alman fənərin işığını küncə salanda gördü.

– *Auch Arzt, wie?*[2]

Sekulovski almanca hansısa özgə, pozuq səslə cəld danışırdı. Otaqdan bir-bir çıxdılar. Qapıda Qutka dayanmışdı. Onları əsgərə təhvil verdi və həkimləri aşağı aparmağı əmr elədi. Onlar ikinci pilləkənlə aşağı düşürdülər. Girişində daha bir qarapaltarlı avtomatçının dayandığı aptekdə onlar Paençkovskini, Nosilevskayanı, Riqeri, Staşeki, professoru, Kaytersi və keşişi gördülər. Stefanı və Sekulovskini müşayiət eləyən əsgər onlarla birlikdə içəri girdi, qapını bağladı və hamını xeyli nəzərdən keçirdi. Rəis pəncərənin qabağında dayanmışdı, Nosilevskaya metal stulun üzərində oturmuşdu, Riqer və Staşek stolun üzərində özlərinə yer eləmişdilər. Buludlu gün olsa da, işıq idi; pəncərənin qabağındakı seyrələn yarpaqların arasından boz səma görünürdü. Əsgər qapının ağzını kəsdirmişdi. Bu, çəpinə əzələləri olan yastısifətli oğlan idi. O, getdikcə daha bərkdən nəfəs alırdı, nəhayət, bağırdı:

– Hə, siz, pan doktorlar, neyləyə bildiniz? Ukrayna olub və olacaq. Sizinsə işiniz bitdi!

– Lütfən, öz vəzifənizi yerinə yetirin, necə ki biz öz vəzifəmizi yerinə yetiririk, bizimlə isə danışmayın, – cavabında Paypak heyrətləndirici dərəcədə möhkəm səslə dedi. Qəddini düzəltdi, tələsmədən ukraynalıya doğru döndü, çal saqqalının arasından özünün qara gözlərini ona zillədi. O, çətinliklə nəfəs alırdı.

– Sənsə... – Əsgər şaraoxşar yumruğunu qaldırdı.

Onu kürəyindən sərt itələdi, qapı açıldı.

– *Was machts du hier? Rrrraus!*[3] – Qutka onun üstünə çımxırdı.

---

[1] Onu rahat burax. O həkimdir (*alm.*).

[2] Bu da həkimdir, hə? (*alm.*)

[3] Sən burada neyləyirsən? Rədd ol! (*alm.*)

O, dəbilqə geymişdi, avtomatı sol əlində saxlamışdı, sanki, onunla kimisə vurmağa hazırlaşırdı.

– *Rune!* – o qışqırdı, hərçənd ki, onsuz da, hamı susurdu. – *Siebleibenhier sitzen, bis Ihnen anders befohlen wird. Niemand darf hinaus. Und ichsagenoch einmal: Solten wir einen einzigen versteckten Kranken finden...sind Sie alle dran* [1].

O, hamını bozarmış gözləri ilə nəzərdən keçirdi və dabanları üstə sərt döndü. Sekulovskinin xırıltılı səsi eşidildi:

– *Herr... Herr Offizier...*[2]

– *Was noch?*[3] – Qutka çımxırdı, dəbilqənin altından onun gündə yanmış sifəti görünürdü. Barmağını avtomatın tətiyində saxlamışdı.

– *Man hat einige Kranken in den Wohnungen versteckt...*[4]



– *Was? Was?!*[5]

Qutka onun yanına sıçradı, yaxasından yapışıb silkələməyə başladı.

– *Wo sind sie? Du Gauner! Ihr alle!*[6]

Sekulovski titrəyir və inildəyirdi. Qutka vaxtmistri çağırdı və korpusdakı bütün mənzilləri axtarmağı əmr elədi. Almanın hələ də yaxasından yapışıb saxladığı şair ağlağan səslə dilləndi:

– Mən istəmədim ki, hamı... – o, əlini tərpədə bilmirdi, xalatının qolu qoltuğunun altında ilişmişdi.

– *Herr Obersturmfuhrer, das ist kein Arzt, das ist Kranker, ein Wahnsinniger!*[7] – stolun üzərindən sıçrayıb ayağa qalxan Staşek ağappaq ağarmışdı.

Kimsə dərindən köks ötürdü. Qutka onu qabaqladı:

– *Was soil das? Du Saudoktor?! Was heisst das?!*[8]

---

[1] Sakit olun! Siz əmr edilənə kimi burada oturacaqsınız! Heç kim buradan çıxmasın! Bir daha deyirəm, heç olmasa, bircə nəfər gizlədilmiş xəstə taparıqsa... sizin hamınızı!.. (*alm.*)

[2] Cənab zabit... (*alm.*)

[3] Yenə nə var? (*alm.*)

[4] Bir neçə xəstə mənzillərdə gizlədilib... (*alm.*)

[5] Necə? Necə? (alm.)

[6] Onlar haradadırlar? Dələduz! Siz hamınız! (*alm.*)

[7] Cənab oberşturmfürer, bu, həkim deyil, xəstədir, dəlidir! (*alm.*)

[8] Bu nə deməkdir? Sən, baytar! Bütün bunlar nə deməkdir? (*alm.*)

Staşek özünün bərbad alman diliylə Sekulovskinin xəstə olduğunu təkrar elədi.

Nezqlob hələ də pəncərənin yanında sıxılıb qalmışdı. Qutka onların hamısını gözdən keçirdi, nəhayət, işin nə yerdə olduğunu təxmin eləməyə başladı. Onun burun deşikləri enəlirdi.

– *Was fur Gauner sind das, was fur Lugner, diese Schweinehunde!*[1] – nəhayət, o, böyürərək Sekulovskini divara doğru itələdi.

Stolun kənarındakı brom şüşəsi silkələndi və döşəmənin uzərinə düşərək sındı, içərisindəki linoleumun üzərinə axdı.

– *Und das sollen Arzte sein... Na, wir werden schon Ordnung schaffen. Zeigt cure Papiere!*[2]

Dəhlizdən çağırılan ukraynalı – görünür, o, rütbəcə böyükləri idi, onun poqonlarında iki gümüşü zolaq var idi – sənədlərin tərcüməsinə kömək elədi. Nosilevskayadan başqa hamının sənədləri özlərindəydi. Əsgərin müşayiəti ilə qadın yuxarı yollandı. Qutka Kaytersə yaxınlaşdı. Onun sənədlərinə o daha çox baxdı və yumşaldı.

– *Acli so, Sie sind ein Volksdeutscher. Na schon. Aber warum liaben Sie diesen polnischen Schwindel initgemacht?*[3]

Kayters cavab verdi ki, o heç nə bilmirdi. Onun danışığı sərt idi, amma alman dilində yaxşı danışırdı.

Nosilevskaya qayıtdı və həkimlər palatasının vəsiqəsini göstərdi. Qutka əlini yellədi və hələ də lap divarın yanındakı şkafın arxasında dayanmış Sekulovskiyə tərəf döndü.

– *Komm* [4].

– *Herr Offizier... ich bin nicht krank. Ich bin vollig gesund...*[5]

– *Bist du Arzt?*[6]

– *Ja... nein, aber ich kann nicht... ich werde...*[7]

---

[1] Di, dələduzlar, di, yalançılar, donuz sürüsü! (*alm.*)

[2] Bunlar də həkimdirlər... Di biz burada qayda yaradarıq. Sənədlərinizi göstərin! (*alm.*)

[3] Ax, belə. Siz almansınız. Çox gözəl. Amma onda nəyə görə siz burada polyak fırıldaqçılarla bir yerdəsiniz? (*alm.*)

[4] Get (*alm.*).

[5] Cənab zabit, mən xəstə deyiləm. Mən tamam sağlamam (*alm.*).

[6] Sən həkimsən? (*alm.*)

[7] Bəli... yox, amma mən bacarmıram... mən olacağam... (*alm.*)

– *Komm*.

İndi Qutka sakit idi, hətta olduqca sakit idi. O hətta özünü gülümsəyirmiş kimi göstərdi – yekəpər, enlikürək, hər bir hərəkətiylə xışıldayan plaşda. Şəhadət barmağı ilə uşağa işarə eləyirmiş kimi Sekulovskini işarə ilə çağırdı.

– *Komm*.

Sekulovski bir addım atdı və birdən dizləri üstə düşdü.

– *Gnade, Gnade... ich will leben. Ich bing esund* [1].

– *Genug!* – Qutka hirslə bağırdı. – *Du Verrater! Deine unschuldigen verruckten Bruder hast du ausgeliefert* [2].

Evin arxasında iki atəş səsi eşidildi. Pəncərələrin şüşələri cingildədi, şkaflardakı alətlər də metal cingiltisi ilə səsləndi.

Sekulovski almanın çəkmələrinə yapışmışdı, ağ xalatının ətəkləri kənarlara yayılmışdı. Şair əlində hələ də rezin çəkici saxlayırdı.



– Franke!

Daha bir alman gəldi və Sekulovskinin qolunu elə dartdı ki, şair gonbul və ucaboylu olmasına baxmayaraq, əsgi kukla kimi ayağa sıçradı.

– *Meine Mutter war eine Deutsche!!!*[3] – onu aptekdən çıxarana qədər zil səslə çığırdı. Qapıdan yapışmağa və geri dartınmağa fürsət tapdı, qıc olubmuş kimi qıvrılırdı, lakin zərbələrdən qorunmaq haqqında düşünmürdü. Franke işgüzarcasına avtomatın qundağı ilə onun qapının yanından yapışmış barmaqlarına vurmağa başladı.

– *Gnaade!* Aman Allahım!... – Sekulovski fəryad qopartmışdı. Yanaqları ilə iri göz yaşı damlaları yuvarlanırdı.

Alman özündən çıxmağa başladı. O, kandarda pərçim olub qalmışdı, çünki Sekulovski indi də qapının dəstəyindən yapışmışdı. Alman hər iki əliylə ondan yapışdı, oturdu və var gücü ilə şairi özünə doğru dartdı. Onlar dəhlizə yumalandılar. Orada Sekulovski gurultu ilə daş plitələrin üzərinə sərildi, alman isə qapının ağzını kəsərək gərginlikdən tərləmiş və qızarmış sifətini həkimlərə tərəf döndərdi.

– *Dreckige Arbeit!*[4] – o dedi və qapını çırpdı.

---

[1] Lütfən, lütfən... mən yaşamaq istəyirəm. Mən sağlamam (*alm.*).

[2] Bəsdir! Sən satqınsan! Sən öz mehriban, ağılsız qardaşlarını atdın! (*alm.*)

[3] Mənim anam alman idi!!! (*alm.*)

[4] İyrənc işdir! (*alm.*)

Aptekin pəncərəsinin altı tamam pöhrəlik idi, buna görə də otağın içərisi toranlıq idi. Bir qədər aralıda, ağacların arxasından möhkəm divarlar ucalırdı. Xəstələrin fəryadları və almanların xırıltılı qışqırtıları bura boğuq halda gəlirdi, amma hər halda, onlar yaxşı eşidilirdi. İti eşitmə qabiliyyəti olan həkimlər tüfəng atəşlərini ayırd eləyə bilirdilər. Əvvəlcə atəş səsləri sıx-sıx eşidilir, yalnız yumşaq kisələrin yıxılması ilə ara verirdi. Sonra sakitlik çökdü. Kimsə ucadan qışqırdı:

– *Wei-tere zwan-zig Figuuu-ren* [1].

Güllələr divarların üzəriylə çovuyurdu. Hərdənbir həzin, sərt çovuyan fit güllənin hədəfdən yayındığını göstərirdi. Sonra isə birdən pulemyotun qısa cırıltısı eşidildi. Amma avtomatlar daha tez-tez səslənirdi. Sonra sakitliyi çoxlu ayaq tappıltısı və yeknəsəq bağırtı pozdu:

– *Wei-tere zwan-zig Figuuu-ren!*

Və iki-üç tapança atəşi, cingiltili və qısa partıltı, sanki, tıxac şüşədən uçurdu. İnsan səsinə oxşamayan qulaqbatırıcı bağırtı eşidildi. Yuxarıdan, elə bil, ikinci mərtəbədən isə qəhqəhəyə oxşayan hıçqırtı eşidilirdi. Bu hıçqırtı xeyli susmadı.

Hamının baxışlarında laqeydlik var idi, heç kim yerindən tərpənmirdi. Stefan tamam keyimişdi. Əvvəlcə o, bir daha nəsə haqqında düşünmək istədi: bütün bunlar açıq-aşkar Qutkanın işi deyildi, bununla belə, necəsə işin öhdəsindən gəlirdi... hətta ölümün də öz sifəti var... amma bu axırıncı fikrim sərt alman qışqırığı yarıda qoydu. Kimsə qaçırdı. Sınan budaqlar şaqqıldayır, qırmızı yarpaqlar yerə səpələnir, lap yaxınlıqda tövşüyərək nəfəs alınması və qaçanın ayaqları altındakı qamışların xışıltısı eşidilirdi.

Sanki, göy gurultusu kimi atəşlər səsləndi. Qışqırıq şiddətlə göylərə yüksəldi və qırıldı.

Ara vermədən cizgiləri dəyişərək cəld süzüb keçən buludlar səmanın görünən balaca hissəsini örtürdü. Saat ondan sonra atəşlər ara verdi. Fasiləyə oxşar bir şeyidi. Amma on beş dəqiqədən sonra avtomatlar səs-səsə verdi və yenidən xəstələrin fəryadı və almanların xırıltılı qışqırıqları ətrafı başına götürdü.

---

[1] Sonrakı iyirmi ədəd! (*alm.*)

Həkimlərin on iki qulağı yalnız korpusun ətrafındakı ağır addım səslərini, it hürüşünü və batırılan qadın çığırtılarını ayırd eləyə bilirdi. Qəfildən onların artıq diqqət yetirmədikləri qapı açıldı. Ukraynalıların vaxmistri içəri girdi.

– Çıxın, cəld çıxın! – o, kandardan qışqırdı. Onun kürəyinin arxasından almanın dəbilqəsi göründü.

– *Alle raus!*[1] – son həddə qədər səsini gərərək o qışqırdı.

Onun tutqunlaşan sifətində toz tərə qarışmışdı, sərxoş gözləri oynayırdı.

Həkimlər dəhlizə çıxdılar. Stefan Nosilevskayanın yanında idi. Dəhliz boş idi, yalnız küncdə bir yığın əzilmiş döşəküzü var idi. Uzun, boyanmış qara zolaqlar pilləkənə doğru uzanırdı. Batareyanın yanındakı döngədə nəsə iri bir şey uzanmışdı: köndələninə uzanmış, başı dağılmış meyit idi, ondan qara maye axırdı. Qırışıqlı sarı ayağı albalı rəngli xalatından çölə çıxmışdı və dəhlizin ortasına kimi uzanmışdı. Hamı onun yanından dolanaraq keçmək istəyirdi. Yalnız bu işlərdən yorulmuş alman çəkməsi ilə onun keyimiş ayaqlarını təpiklədi. Stefana elə gəldi ki, irəlidə gedən adamlar müxtəlif tərəflərə səndirlədilər. O, Nosilevskayanın əlindən yapışdı. Onlar beləcə kitabxanaya kimi gəldilər.

Burada hər şey alt-üst edilmişdi. Qapıya yaxın olan iki şkafın kitabları yerə səpələnmişdi. Həkimlər onların yanından keçəndə düşərkən açılan iri cildlərin vərəqləri xışıldayırdı. İki alman onları qapının ağzında gözləyirdi və almanlar lap axırda içəri keçdilər. Yubanmadan ən münasib yerdə – qırmızı üzlük çəkilmiş divanda özlərinə yer elədilər.

Stefanın gözləri önündə hər şey fırlanırdı. Ətrafda hər şey yuxarı dartılırdı; hansısa boz rəngdəydilər; rənglər, sanki, solmuşdu; əşyalar, sanki, deşik-deşik edilən qovuq kimi büzüşüb yığılırdı.

Özünə gələndən sonra o nəsə möhkəm və elastiki bir şeyin üzərində uzandığını hiss elədi. Nosilevskaya onun başını dizləri üstə qoymuşdu, Paypak isə onun yuxarı qatlanmış ayaqlarını saxlamışdı.

– Xidməti heyəti neylədilər? – Stefan soruşdu; o, hələ də yaxşı dərk eləyə bilmirdi.

– Onlara səhərdən Bejinetsə getməyi əmr eləyiblər.

[1] Hamı çıxsın! (alm.)

– Bəs biz?

Heç kim cavab vermədi. Stefan ayağa qalxdı, səndirlədi, amma hiss elədi ki, daha huşunu itirmir. Divarın arxasından addım səsləri eşidildi, səslər yaxınlaşırdı, bir əsgər içəri girdi.

– *Ist Professor Llon-kow-sky hier?!*[1]

Cavab verən olmadı. Nəhayət, Riqer pıçıldadı:

– Cənab professor... Zati-aliləri...

Alman içəri girəndə professor belini bükərək kresloda oturmuşdu, indisə o, qəddini düzəltdi. Onun iri, zəhmli, heç nə ifadə eləməyən gözləri bir adamdan digərinin üzərinə keçirdi. O, kreslonun yanlığından yapışdı və bir qədər çətinliklə pencəyinin üst cibinə əlini uzatdı. Cibində nəyisə axtardı, əlləşdirdi. Qara, yellənən cübbə geymiş keşiş ona yaxınlaşmaq istədi, lakin professor əliylə güclə hiss olunan, amma qətiyyətli işarə eləyərək qapıya doğru yönəldi.

– *Kommen Sie, bitte,*[2] – alman dilləndi və onu nəzakətlə qabağa buraxdı.

Hamı dinməzcə oturmuşdu. Birdən lap yaxınlıqdan atəş səsi eşidildi – sanki, qapalı bir yerdə ildırım çaxdı. Bu, dəhşətli oldu. Hətta divanda oturub çərənləyən almanlar da susdular. Büsbütün tər içində olan Kayters elə əyildi ki, onun düz qaməti, az qala, qırıq xəttə çevrildi və əllərini elə sərt sıxdı ki, sanki, sümükləri xırçıldadı. Riqer uşaq kimi dodaqlarını salladı və onları dişlədi. Yalnız Nosilevskaya belini bükdü, başını əlləriylə qucaqladı, dirsəklərini dizləri üstə qoyaraq zahiri görkəmcə sakit qaldı.

Stefana elə gəldi, sanki, qarnında nəsə şişir, bütün bədəni şişir və sürüşkən tərlə örtülür; onun bədənini iyrənc kiçik titrəyiş bürüyürdü. Düşünürdü ki, Nosilevskaya öləndə də gözəl qalacaq və bu fikri ona hansısa bir qəribə məmnunluq bəxş elədi.

– Deyəsən... bizi... bizi... – Riqer Staşekə pıçıldadı.

Hamı xırda, qırmızı kreslolarda oturmuşdu, yalnız keşiş iki şkafın arasındakı qaranlıq küncdə dayanmışdı. Stefan onun yanına qaçdı.

Keşiş nəsə mızıldanırdı.

– Ö-öldürərlər, – Stefan dedi.

---

[1] Professor Londkovski buradadır? (*alm.*)

[2] Keçin, lütfən (*alm.*).

– *Pater noster, qui estincoelis...*[1] – keşiş pıçıldadı.

– Ata, ata, bu, doğru deyil!

– *Sanctificetur nomen Tuum...*[2]

– Siz səhv edirsiniz, siz aldadırsınız, – Stefan pıçıldadı. – Heç nə yoxdur. Heç nə, heç nə! Mən huşumu itirəndə bunu başa düşdüm. Bu otaq və biz, bu hamısıdır, bu yalnız bizim qanımızdır. O nə vaxt dövr eləməyi dayandırır, getdikcə daha zəif, zəif vurmağa başlayır, hətta, hətta səma da ölür! Keşiş, siz məni eşidirsiniz?

O, keşişin cübbəsindən dartdı.

– *Fiat voluntas Tua...*[3]

– Heç nə yoxdur, nə işıq, nə qoxu, hətta qaranlıq da...

– Bu dünya yoxdur, – keşiş əzabdan dəyişmiş, eybəcərləşmiş sifətini ona tərəf döndərərək astadan dilləndi.

Almanlar ucadan gülürdülər. Kayters birdən qalxdı və onların yanına getdi.



– *Entschuldigen Sie,* – o dedi, – *aber der Herr Obersturmfuhrer hat mir miene Papiere abgenommen. Wissen Sie nicht, ob...*[4]

– *Sie missen schon etwas Gedudhaben*[5], – dolubədənli, enlikürək, yanaqlarında qırmızı damarcıqları olan alman onun sözünü kəsdi və yoldaşıyla söhbətinə davam elədi: – *Weisst du, das war, als die Hauser schon alle brannten und ich glaubte, dort gebe es nur Tote. Da rennt Dir doch plotzlich mitten aus deni grossten Feuerein Weib schnurstracks auf den Wald zu. Rennt wie verruckt und presst eine Gans an sich. War das ein Anblick! Fritz wollte ihr eine Kugel nachschicken, aber er konnte nicht einmal richtig zielen vor Lachen – war das aber komisch, was?*[6]

Hər ikisi güldü. Kayters yanlarında dayanmışdı və birdən qeyri-adi tərzdə əyildi, ondan nazik, davamsız «ha-ha» hasil oldu.

---

[1] Əgər bizim Allahımız göylərdədirsə... (*lat.*)

[2] Sənin adın müqəddəs olacaq... (*lat.*)

[3] Hər şey Sənin iradənlə olacaq... (*lat.)*

[4] Bağışlayın, amma cənab oberşturmfürer mənim kağızlarımı apardı. Məgər siz bilmirsiniz ki... (*alm.*)

[5] Siz azacıq səbir eləməlisiniz (*alm.*).

[6] Hə, bilirsən, bütün evlər yanandan sonra mən orada yalnız ölülərin olduğunu düşünürdüm, bu zaman birdən birbaşa alovun içindən bir arvad sıçrayıb çıxır və meşəyə götürülür. Dəli kimi qaçır və ördəyi də sinəsinə sıxıb. Ay mənzərəydi ha! Fris ona arxadan atəş açmaq istədi, amma gülməkdən heç cür nişan ala bilmədi – gülməlidir, hə? (*alm.*)

Söhbət eləyən qaşlarını çatdı.

– *Sie Doktor,* – o qeyd elədi, – *waram lachen Sie? Da gibt's dock fur Sienichts zum Lachen* [1].

Kaytersin sifəti ağ ləkələrlə örtüldü.

– *İch...ich...* – o donquldandı, – *ich bin ein Deutscher* [2].

Yarıdönmüş halda oturan alman onu aşağıdan-yuxarı süzdü.

– *So? Na, dann bitte, bitte* [3].

İçəri hündürboylu zabit girdi; bu zabiti əvvəllər görməmişdilər. Mundiri, elə bil, boyuna biçmişdilər, kəməri tutquncasına parıldayırdı. Dəbilqəsiz idi, şabalıdı rəngli seyrək saçları, alicənab, uzanmış sifəti var idi. O, içəridəkiləri gözdən keçirdi – polad sağanaqlı eynəyinin şüşələri işıldayırdı. Cərrah ona yaxınlaşdı və şax dayanıb əlini uzatdı:

– Fon Kayters.

– Tissdorf.

– *Herr Doktor, was ist los mit unserem Professor?*[4] – Kayters soruşdu.

– *Machcn Sie sich keine Gedanken.Ich werde ihn mit dem Auto nach Bieschinetz bringen. Er packt jetzt seine Sachen*[5].

– *Wirklich?*[6] – Kayters ixtiyarsız səsləndi.

Alman qızardı, başını yırğaladı.

– *Mein Herr!* – sonra gülümsədi. – *Das mussen Sie mir schon glauben.*[7]

– *Und warum werden wir hier zuruckgehalten?*[8]

– *Na, na! Es stand ja schon tibel um Sie, aber unser Hutka hat sich doch noch beruhigcn lassen. Sie warden jetzt nur bewacht, well Ihnen unsere Ukrainer sonst etwas antun konnten. Die lechzen ja nach Blutwie die Hunde, wissen Sie* [9].

---

[1] Siz, doktor, bəs siz nəyə gülürsünüz? Sizin üçün burada gülməli heç nə yoxdur! (*alm.*)

[2] Mən... mən... almanam (*alm.*).

[3] Hə? Di onda buyurun, buyurun (*alm.*).

[4] Cənab doktor, bizim professorla nə baş verib? (*alm.*).

[5] Narahat olmaya bilərsiniz. Mən onu öz maşınımla Bejinetsə aparacağam. O artıq şeylərini yığışdırır (*alm.*).

[6] Doğrudanmı? (*alm.*)

[7] Möhtərəm cənab! Siz mənə inanmalısınız (*alm.*).

[8] Bəs bizi burada niyə saxlayırlar? (*alm.*)

[9] Hə, hə! Sizin vəziyyətiniz ürəkaçan deyildi, indisə bizim Qutka sakitləşib. Bizim ukraynalılar sizə bir zərər yetirə bilməsinlər deyə sizi indi ancaq qoruyacaqlar. Bilirsinizmi, onlar birbaşa qana susayıblar, itlər kimi (*alm.*).

– *Ja?*[1] – Kayters heyrətləndi.

– *Wie die Falken... Man muss sie mit rohem Fleisch futtern* [2], – alman psixiatr gülümsədi.

Keşiş yaxınlaşdı.

– *Herr Doktor*, – o dedi, – *Wie kam das: Mensch und Arzt, und Kranke, die Erschiessen, die Tod!*[3]

Adama elə gəlirdi alman üzünü döndərəcək, ya da bu qara sırtığı əliylə özündən uzaqlaşdıracaq, amma gözlənilmədən onun sifəti işıqlandı.

– *Jede Nation*, – o, sinədən gələn səslə dedi, – *gleicht cinem Tierorganismus. Die kranken Korpersellen mussen manchmal herausgeschnitten werden. Das war eben so ein chirurgischer Eingriff* [4].

Keşişin çiyinləri üzərindən o, Nosilevskayaya baxırdı. Onun burun deşikləri enəlirdi.

– *Aber Gott, Gott* [5], – keşiş elə hey təkrarlayırdı.



Nosilevskaya əvvəlkitək yerindən tərpənmədən səssizcə oturmuşdu. Ondan gözünü çəkməyən alman ucadan sözə başladı:

– *Ich kann es Ihnen auch andcrs crklaren. Zur Zeit des Kaisers Augustus war in der Galilea ein romischer Statthalter, der ubte die Herrschaft ubei die Juden, und hiess Pontius Pilatus...*[6]

Onun gözləri alışıb-yanırdı.

– Stefan, – Nosilevskaya ucadan xahiş elədi, – ona deyin ki, məni buraxsın. Mənə mühafizəçi lazım deyil və mən burada daha qala bilmirəm, belə ki... – qadın sözünü yarıda qoyub susdu.

Mütəəssir olmuş Stefan (qadın ilk dəfəydi ki, onu öz adıyla çağırırdı) Kayterslə Tsiddorfa yaxınlaşdı. Alman nəzakətlə ona baş əydi.

---

[1] Hə? (*alm.*)

[2] Onları çiy ətlə qidalandırmaq lazım gəlir... Şahinlər kimi (*alm.*).

[3] Cənab doktor, bu necə ola bilər: insan və həkim, bir də xəstələr, güllələmək, ölüm! (*alm.*)

[4] Hər bir millət heyvanın orqanizminə oxşayır. Xəstə üzvləri hərdənbir kəsib atmaq lazım gəlir. Bu, müəyyən nöqteyi-nəzərdən cərrahi müdaxilə kimi bir şeydir... (*alm.*)

[5] Aman Allahım, Allahım... (*alm.*)

[6] Mən bunu başqa cür də izah eləyə bilərəm. Qeysər Avqustun vaxtında Qalliyada bir romalı canişin var idi, onun yəhudilər üzərində ali hakimiyyəti var idi və onun adı Ponti Pilat idi... (*alm.*)

Stefan soruşdu ki, onlar gedə bilərlərmi?

– *Sie wollen fort? Alle?*[1]

– *Frau Doktor Nosilewska*[2], – Stefan elə də əmin olmadan dedi.

– *Ach, so. Ja, naturlich. Gedulden Sie sich bitte noch etwas* [3].

Alman sözünü tutdu, qaranlıq düşəndə onları buraxdılar. Korpusda sakitlik, qaranlıq və kimsəsizlik idi. Stefan öz otağına getdi, yola yır-yığış eləmək lazım idi. Lampanı yandırdı, stolun üzərində Sekulovskinin qeyd kitabçasını görüb onu özünün açıq çamadanına atdı. Sonra heykələ baxdı, heykəl də stolun üzərindəydi. Düşünəndə ki bu heykəlin müəllifi yaxınlıqda, səhər qazılan yarğanda yüzlərcə qanlı bədənin arasında uzanıb, özünü pis hiss elədi.

Az qala, qusacaqdı, qısaca, gözlərindən yaş gəlmədən hıçqırdı. Özünü sakit olmağa məcbur elədi. Tələsik şeylərini yığdı. Yerləşsinlər deyə dizi ilə üstdən basıb çamadanı bağladı. Otağa kimsə girdi. O, ayağa sıçradı – Nosilevskaya idi. Onun əlində kiçik qutu var idi. Uzunsov ağ bükülünü Stefana uzatdı; bu, bir top kağız idi.

– Mən onu vestibüldə tapdım, – qadın dedi və Stefanın başa düşmədiyini hiss eləyib izah elədi: – Bu... bunu Sekulovski itirib. Mən düşündüm... siz onu himayə eləyirdiniz... yəni... bu, ona məxsus idi.

Stefan hərəkətsiz halda dayanmış, əllərini aşağı sallamışdı.

– Ona məxsus idi? – o, təkrar soruşdu. – Hə, doğrudur...

– İndi heç nə haqqında düşünmək lazım deyil. Olmaz, – Nosilevskaya bunu həkim kimi dedi.

Stefan çamadanı qaldırdı, kağızları ondan aldı və onları neyləyəcəyini bilmədən kağızları cibinə qoydu.

– Gedirik, hə? – qız soruşdu. – Riqer və Paençkovski burada gecələyəcəklər. Sizin dostunuz da onlarla birlikdə. Onlar səhərə qədər qalacaqlar. Almanlar onların şeylərini stansiyaya aparacaqlarına söz veriblər.

– Bəs Kayters? – Stefan başını yuxarı qaldırmadan soruşdu.

[1] Siz getmək istəyirsiniz? Hamınız? (*alm.*)

[2] Xanım doktor Nosilevskaya (*alm.*)

[3] Ax, belə de. Hə, əlbəttə. Lütfən, bir qədər də səbir eləyin. (*alm.*)

– Fon Kayters? – Nosilevskaya səsini uzatdı. – Bilmirəm. Bəlkə də, ümumiyyətlə, burada qaldı. – Onun heyrətli baxışlarını hiss edib əlavə elədi: – Burada alman SS qospitalı olacaq. Onlar Tsiddorfla bu haqda danışırdılar, mən eşitdim.

– Ax, hə, – Stefan cavab verdi. Onun başı ağrıyır, gicgahları zoqquldayırdı, sanki, çənbərlə alnını sıxırdılar.

– Siz burada qalmaq istəyirsiniz? Mənsə gedirəm.

– Siz... mən sizin təmkininizdən zövq aldım.

– Mən özümü güclə saxladım. Daha taqətim qalmayıb, mən getməliyəm. Mən buradan getməliyəm, – qız təkrar elədi.

– Mən sizinlə gedirəm, – gözlənilmədən o dedi, artıq sağ olmayanların hərarətini hələ də öz üzərlərində saxlayan əşyalara toxuna, hələ də onların nəfəsini özündə saxlayan hava ilə nəfəs ala bilməyəcəyini, hələ də onların baxışlarını üzərində hiss elədiyi yerdə gəzə bilməyəcəyini hiss eləyirdi.



– Biz meşə ilə gedərik, – qız dedi. – Bu ən qısa yoldur. Qutka da mənə dedi ki, ukraynalılar yolda keşik çəkirlər. Mən onlarla qarşılaşmaq istəməzdim.

Birinci mərtəbədə Stefan birdən qərarsız halda dayandı.

– Bəs onlar...

Qız onun nə demək istədiyini başa düşdü.

– Lütfən, onlara da, özümüzə də yazığımız gəlməlidir, – Nosilevskaya dedi. – Bizim hamımıza başqa adamlar, başqa şərait lazımdır...

Onlar qapıya doğru yönəldilər, yuxarıda ağacların çətirləri xışıldayırdı və xışıltı soyuq dənizin uğultusuna oxşayırdı. Ay çıxmamışdı. Qapının yanında onların qarşısında birdən nəhəng birisi peyda oldu.

– *Wer da*?[1]

Fənərin ağ işığı onların hər tərəfində dolaşmağa başladı. Zəifcə parıldayan yarpaqların fonunda Qutkanın sifəti göründü. Alman bağda dolaşırdı.

– *Gehen Sie*[2], – o, əlini yellədi.

Onlar onun yanından keçib-getdilər.

– *Hallo!*[3] – o qışqırdı.

---

[1] Kimdir? (*alm.*)

[2] Keçin (*alm.*).

[3] Ey! (*alm.*)

Onlar dayandılar.

*– Ihre erste und einzige Pflicht ist Schweigen. Verstehen Sie?*[1]

Bu sözlər hədə kimi səsləndi. Bəlkə, bunun səbəbi kölgəni paz kimi yarıb zolaqlara bölən işıq idi, lakin enli, dabanlarına kimi düşən plaş və xırda dişlərinin işıldayan zolağı onun görkəminə nə isə bir faciəvilik verirdi.

Bir dəqiqəliyə susdular, sonra Stefan dedi:

– Onlar necə belə iş görə və yaşaya bilirlər?

Onlar artıq tutqun yola çıxmışdılar və məhz yana əyilmiş, üzərində qədim yazılar olan tağın altından keçirdilər. Yenə də işıq, Qutka fənəri yelləyir, onlarla vidalaşırdı. Yenə də zülmət.

İkinci döngəyə qədər gəlib yoldan çıxdılar və palçığa bataraq yavaş-yavaş meşəyə doğru getməyə başladılar. Getdikcə ətraflarında daha çox ağaclar olurdu, onlar hamısı hündür idi. Ayaqları dayaz sulu yerdən keçərkən su kimi şırıldayan quru xəzəllərin içində itirdi.

Stefan saatına baxdı, artıq meşənin kənarına çıxmalıydılar, oradan stansiya görünməliydi. Amma o, heç nə demədi. Onlar büdrəyərək elə hey gedir, gedirdilər; çamadan qollarını qırırdı, meşə isə ətraflarında yeknəsəq tərzdə uğuldayır və bəzən budaqların arasından gecə buludları xəyal kimi görünürdü.

Enli çətiri olan böyük ağcaqayın ağacının yanında Stefan dayandı və dedi:

– Biz azmışıq.

– Deyəsən.

– Şose ilə getməliydik.

Stefan yolu müəyyən eləməyə çalışırdı, amma bundan heç nə çıxmadı. Getdikcə daha qaranlıq olurdu.

Buludlar göyün üzünü örtmüşdü, deyəsən, onlar aşağı düşmüşdü və külək onları ağacların çılpaq çətirləri üzərində fırlayırdı. Budaqlar fit çalırdı. Daha bir səs xışıldayan əks-səda verdi, yağış damlaları üzlərinə vurdu.

Onlar artıq tamam gücdən düşəndə birdən irəlidə hansısa bir alçaq tikilini gördülər – ya anbar idi, ya da koma. Ağaclar aralanıb yol verirdi, onlar meşədən çıxdılar.

[1] Sizin ilk və yeganə vəzifəniz susmaqdır. Başa düşdünüz? (*alm.*)

– Bu Vetşnikdir! – Stefan dedi. – Biz şosedən doqquz kilometr, qəsəbədən isə on bir kilometr uzaqdayıq.

Onlar əks istiqamətdə uzağa getmişdilər.

– Qatara artıq çatdırmarıq. Əgər yalnız at taparıqsa, mümkündür.

Stefan susdu, bu mümkün olan iş deyildi. Kişilər möhkəmcə daxmalarına qapılmışdılar, bir neçə gün əvvəl qonşu kəndi tamamilə yandırmış, adamları sonuncu nəfərə kimi güllələmişdilər.

Onlar çəpərlərin yanıyla gedir, qapıları və pəncərələri döyürdülər. Sanki, hamı ölmüşdü. Bir it hürdü, onun arxasınca daha birisi, tezliklə onları çoxsəsli, ara verməyən it hürüşü müşayiət eləməyə başladı, bu səslər dalğa kimi arxalarınca yumalanırdı. Kəndin kənarındakı təpənin üstündə tənha bir daxma var idi, onun bir pəncərəsi donuqcasına qızarırdı.



Stefan qapını döyəcləməyə başladı, onun yumruqları altında qapı tir-tir titrəyirdi. O, bütün ümidlərini itirəndə qapını ucaboylu, pırtlaşıq saçlı bir kişi açdı. Onun sifətini görmək mümkün deyildi, yalnız gözləri işıldayırdı. Çiyninə atdığı yun bürüncəyin altından yaxasıaçıq köynəyi ağarırdı.

– Biz həkimik... Bejinetski xəstəxanasının həkimləri... biz azmışıq, gecələmək üçün yer lazımdır... – Stefan dilləndi, necə lazımsa, elə də danışa bilmədiyini hiss eləyirdi.

Onsuz da, nə demiş olsaydı belə, yersiz çıxacaqdı. O, kəndliləri tanıdığını düşünürdü.

Kişi daxmanın qapısının ağzını kəsərək yerindən tərpənmirdi.

– Biz sizdən gecələmək üçün icazə verməyinizi istəyirik, – Nosilevskaya astadan dedi, onun səsi uzaqdan gələn əks-səda təsiri bağışladı.

Kişi heç barmağını da tərpətmədi.

– Biz pulunu verərik, – Stefan daha bir cəhd elədi.

Kişi əvvəlkitək susurdu, amma çıxıb getmirdi də. Stefan qoltuq cibindən portmanatını çıxartdı.

– Mənə sizin pulunuz lazım deyil, – birdən kişi dedi. – Sizin kimilərin gülləsi əskikdir.

– Niyə elə deyirsən, almanlar bizə getməyə icazə verdilər, – Stefan etiraz elədi. – Biz azmışıq, stansiyaya getmək istəyirdik...

– Güllələyərlər, yandırarlar, ölənə kimi döyərlər, – kişi kandarı adlayaraq etinasız səslə dediyini deyirdi.

O, arxasınca qapını bağladı və bütün yekəpər vücudu ilə indi də evin qabağında dayandı. Yağış daha da güclənmişdi.

– Beləlləri ilə neyləyəsən? – nəhayət, kişi dilləndi.

Harasa yönəldi. Stefanla qız da onun arxasınca. Həyətin arxasında üstü küləşlə örtülü olan samanlıq var idi. Kişi tiri kənara atıb samanlığın qapısını açdı, köhnə otun xoş qoxusu burunlarını qıcıqlandırdı.

– Burada, – kişi dedi. Əvvəl olduğu kimi, bir qədər susub əlavə elədi: – Altınıza küləş döşəyərsiniz. Dərzləri açmayın.

– Çox sağ olun, – Stefan dedi. – Hər halda, bəlkə, götürəsiniz?

Pulu kişinin əlinə soxmağa cəhd elədi.

– Onlar gülllədən qorumur, – kişi sakitcə pulu almaqdan imtina elədi. – Beləlləri ilə neyləyəsən? – öz dediyini təkrarladı, amma bu dəfə astadan.

– Sağ olun... – Stefan pərt halda təşəkkür elədi.

Kişi bir qədər də dayandı, sonra dedi:

– Yatın... – qapını bağladı və çıxıb getdi.

Stefan girişdə dayanmışdı. Kor adam kimi əlini irəli uzatdı; o, ümumiyyətlə, qaranlıqda pis seçirdi. Nosilevskaya haradasa, yaxınlıqdaydı, küləş yığırdı. Stefan suyu axan, kürəyinə yapışmış soyuq, ağır pencəyini çıxartdı. Şalvarını da beləcə çıxartmağı çox istərdi. Nəyəsə toxundu, deyəsən, dişləyə, az qala, yıxılacaqdı, amma çamadanından yapışa bildi və orada fənər olduğunu xatırladı. Qıfılı açdı. Fənəri də tapdı, bir plitka da şokolad. Yanan fənəri yerə qoyub, əlini cibinə salaraq Sekulovskinin kağızlarını axtardı. Qız gil döşəməyə sərilən küləşin üzərinə adyal örtürdü. Stefan adyalın lap qırağında oturub vərəqləri hamarladı. Birinci vərəqdə bir neçə söz yazılmışdı. Hərflər, sanki, tor kimi mavi qəfəslərin arasındaydı. Yuxarıdan soyad, aşağıda da başlıq: «Mənim dünyam». Vərəqi çevirdi. Vərəq ağappaq idi. Sonrakı vərəq də. Hamısı tərtəmiz və boş idi.

– Heç nə... – o dedi. – Heç nə yoxdur...

Onu elə qorxu bürüdü ki, ətrafa göz gəzdirərək Nosilevskayanı axtardı. Qız əyilərək oturmuşdu, üzərinə yun şal

atmışdı və şalın altından növbə ilə koftasını, donunu, alt paltarlarını atırdı: hamısı su içində idi.

– Boşdur... – Stefan təkrar elədi, yenə də nəsə demək istədi, amma xırıltı ilə inildədi.

– Bura gəl.

O, qıza baxdı. Qız saçlarını sıxaraq başının arxasına atırdı.

– Bacarmıram, – o pıçıldadı. – Düşünə bilmirəm. Bu oğlan. Bir də Sekulovski... Bu Staşek... bunu o...

– Gəl, – qız yenə nəsə yuxulu səslə mehribancasına təkrar elədi.

O, heyrətlə qıza baxırdı. Qız şalın altından çılpaq əlini çıxardaraq uşaq kimi onun yanağından yapışıb dartırdı. Onda o, birdən qıza tərəf əyildi.

– Mən uduzdum... atam kimi.



Qız onu özünə tərəf çəkdi, başını sığallamağa başladı.

– Düşünmə... – qız pıçıldadı. – Heç nə haqqında düşünmə.

O, öz üzündə qızın döşlərini, əllərini hiss elədi. Demək olar ki, tamam qaranlıq idi, yalnız küləşin altına diyirlənmiş fənər işığı qaranlığı zolaqlara bölürdü. Qızın ürəyinin arxayın, sakit döyüntülərini eşidirdi, sanki, kimsə onunla qədim, yaxşı başa düşülən dildə danışırdı. Qız nəfəsini tutaraq onun dodaqlarından yumşaqca öpəndə o, qarşısında xəstəxanada olan həmin adamları görürdü.

Sonra onları qaranlıq uddu. Tüklü adyalın altında küləş xışıldayırdı və ona həzz bəxş eləyən qadın var idi, amma bu həzz adət elədiyi həzzdən deyildi. Bircə saniyəliyə belə qız soyuqqanlılığını itirmir, özünü də idarə eləyirdi, onu da. Sonra o, yorğun halda onun gözəl bədənini ehtirassız bir duyğuyla qucaqladı, ehtirassız, amma öz ümidsizliyinin bütün gücüylə; o, qızın sinəsində ağlayırdı. Sakitləşəndən sonra qıza baxdı. Qız arxası üstə uzanmışdı, ondan bir qədər yuxarıda və fənərin sönən işığında qızın sifəti heyrətləndirici dərəcədə sakit idi. Qızdan «məni sevirsənmi» deyə soruşmağa ürək eləmədi. Özünü beləcə qurban vermək, sanki, tanımadığın adamla axırıncı tikəni bölmək – məhəbbətdən daha yüksək idi. Demək, o da qızı tanımırmış. Birdən Stefan ani bir fikirdən sarsıldı, axı

o, Nosilevskaya haqqında, ümumiyyətlə, heç nə bilmirdi, hətta onun adının necə olduğunu da xatırlamırdı. O, güclə eşidilən səslə pıçıldadı:

– Qulaq as...

Amma qız yumşaqca, hərçənd olduqca qərarlı halda ovcu ilə onun ağzını tutdu. Adyalın qırağı ilə onun göz yaşlarını sildi və yanağından nəvazişlə öpdü.

Və onda onun hətta marağı da yoxa çıxdı, bu yad qadının qucağında Stefan bircə sözlə belə çirkləndirilməyibmiş kimi bir anlığa tərtəmiz oldu – dünyaya gəldiyi anda olduğu kimi.

*Krakov,*
*sentyabr, 1948-ci il.*

# HEKAYƏLƏR

# İSTİNTAQ

– Şennen Kuin!

– Mənəm, komandor.

– Siz mənim sədrliyim altında Kosmik tribunalda baxılan iş üzrə şahid qismində iştirak eləyirsiniz. Mənə müraciət eləyərkən «sədr», tribunalın üzvlərinə müraciət eləyərkən isə «hakim» sözündən istifadə eləmək lazımdır. Tribunal üzvlərinin sualına siz dərhal, ittihamçının və müdafiəçinin sualına isə yalnız tribunalın icazəsindən sonra cavab verə bilərsiniz. Siz öz ifadənizdə yalnız öz gördüklərinizə və şəxsi təcrübəniz sayəsində bildiklərinizə əsaslana bilərsiniz, daha üçüncü şəxsdən eşitdiklərinizə yox. Bu izahat sizə aydındırmı?



– Bəli, sədr.

– Sizin adınız Şennen Kuindir?

– Bəli.

– Lakin «Qoliaf» komandasına siz başqa soyadla daxil edilmisiniz?

– Bəli, sədr, mənimlə gəmi sahiblərinin bağladıqları müqavilənin şərtlərindən biri bu idi.

– Nəyə görə sizə ləqəb verildiyinin səbəbini bilirdinizmi?

– Sədr, mən bunun səbəbini bilirdim.

– Siz «Qoliaf»ın bu ilin oktyabr ayının on səkkizindən otuzuna kimi olan ellipsvari uçuşunda iştirak eləyibsiniz?

– Bəli, sədr.

– Siz gəmidə hansı funksiyanı yerinə yetirirdiniz?

– Mən ikinci pilot idim.

– Yuxarıda xatırlatdığım uçuş zamanı «Qoliaf» gəmisində nə baş verdiyini tribunala danışın, məhz iyirmi bir oktyabrda nə baş verdiyini. Gəminin olduğu yer haqqındakı məlumatlardan və sizin qarşınıza qoyulan tapşırıqdan başlayın.

– Gəmi vaxtı ilə səkkiz otuzda biz hiperbolik sürətlə Saturn peykinin xarici perimetrini kəsdik və gəmini dayandırmağa başladıq, bu, saat on birə kimi davam elədi. Bu

müddət ərzində biz hiperbolik sürəti dayandırdıq və orbitdə olarkən süni peyki dairənin səthinə çıxarmaq üçün ikiqat artırılmış orbit sıfır sürəti ilə dairəvi orbitə keçərək manevr eləməyə başladıq.

– İkiqat artırılmış orbit sıfır sürəti deyərkən siz saniyədə əlli iki kilometr sürəti nəzərdə tutursunuz?

– Bəli, sədr. Saat on birdə mənim növbəm qurtardı, amma manevr vaxtı daim kursu müəyyənləşdirmək lazım gəldiyindən mən yalnız bu ana qədər gəmini idarə eləyən birinci pilotla yerimi dəyişdim, onda mən şturmanın vəzifəsini yerinə yetirməyə başladım.

– Sizin bu vəzifəni icra eləməyinizi kim əmr elədi?

– Komandir, hakim. Ümumiyyətlə, belə şəraitlərdə bu, adi qaydadır. Bizim məqsədimiz nə qədər mümkünsə dairənin səthində Roşanın sərhədinə təhlükəsiz yaxınlaşmaq və oradan, demək olar ki, dairəvi orbitdən növbə ilə üç avtomat-aerostat buraxmaq idi; bu avtomatlar sonra məsafədən idarə olunaraq Roşanın dairəsi ətrafına çıxarılacaqdı. Aerostatlardan birini orbitə çıxararaq Kassini içərisindəki yarıqlardan birinə daxil eləmək nəzərdə tutulurdu, yəni Saturnun daxili dairəsini xarici mühitdən ayıran fəzaya, digər ikisi isə onun hərəkətinə nəzarət eləmək üçün nəzərdə tutulmuşdu. Bəlkə, daha ətraflı izah eləməyə ehtiyac var?

– İzah eləyin.

– Oldu, sədr. Saturnun hər iki dairəsi kiçik hissəciklərdən təşkil olunub və eni dörd min kilometr olan yarıqla bir-birindən ayrılıb. Planetin ətrafında bu yarıqdan fırlanan süni peyk cazibə sahəsindəki qasırğalar haqqında, həm də dairələrin təşkil olunduğu hissəciklərin nisbi daxili hərəkətləri haqqında informasiya çatdırmalıydı. Amma orbitdəki qasırğalar belə peyki lap tezliklə bu geniş fəzadan itələyib çıxara bilər – ya dairənin daxili zonasına, ya da xarici zonaya, burada isə o, toza dönəcəkdi. Bunun baş verməməsi üçün biz özünün şəxsi dartıcı qüvvəsi olan, nisbətən az güclü, dördün birə nisbətində ion mühərrikli iki xüsusi peyk buraxmalıydıq və bu iki peykə – «gözətçilərə» radarların köməyi ilə orbitin içərisindəki yarıqda hərəkət eləyən peykin oradan çıxmamasına nəzarət eləmək həvalə olunurdu. Bu «gözətçilərin» hesablayıcıları orbit peykinin

zəruri düzəlişlərini hesablamalıydı və buna uyğun olaraq da onun mühərriklərini işə salmalıydı. Bu peykin yanacağı kifayət qədər, yəni iki ay işləyəcəyinə ümid eləməyə əsas verirdi.

– Hansı məqsədlə orbitə iki nəzarət peyki buraxılması nəzərdə tutulurdu? Siz birinin bəs eləməyəcəyinimi düşünürdünüz?

– Hakim, bəlkə də, bəs edərdi. İkinci «gözətçi», sadəcə desək, ehtiyat üçün nəzərdə tutulmuşdu; əgər birinci işin öhdəsindən gəlməzsə və ya meteoritlə toqquşub sıradan çıxarsa. Yerdən astronomik müşahidə zamanı Saturnun ətrafındakı boşluq – dairənin və ayın xarici boş görünür, amma həqiqətdə isə bu boşluq kifayət qədər zibillənib. Belə olan şəraitdə kiçik meteoritlərlə toqquşmaqdan qaçmaq mümkün deyildi. Məhz buna görə də biz dairəvi orbit sürətini saxlamalıydıq – axı praktik olaraq bütün bu tör-töküntülər Saturnun ekvatorial səthində onun ilk kosmik sürəti ilə fırlanır. Bu, toqquşmanı qəbul olunan minimuma qədər endirməyə imkan verirdi. Bundan əlavə, bizim gəmidə atəş açan ekran qismində meteorit əleyhinə müdafiə var idi; bu ekrandan birinci pilotun pultundan atəş açmaq olardı və ya bunu gəminin radarlarına birləşdirilmiş uyğun avtomat da eləyə bilərdi.



– Siz bu tapşırığı çətin və təhlükəli hesab eləyirdinizmi?

– Tapşırıq manevrlərin dəqiq və səhvsiz icra olunacağı halda elə də çətin, elə də təhlükəli deyildi. Bizdə hesab eləyirdilər ki, Saturnun ətrafı Yupiterin ətrafına nisbətən daha çox zibillənib, amma əvəzində orada manevr üçün sürətlənmə Yupiter orbitində olduğuna nisbətən daha azdır, bu isə əhəmiyyətli üstünlük verir.

– Siz «bizdə» deyəndə kimi nəzərdə tutursunuz?

– Pilotları... bir də naviqatorları.

– Bir sözlə, kosmonavtları?

– Bəli. Təxminən, gəmi vaxtı ilə saat iyirmidə biz əməli olaraq dairənin xarici sərhədinə yaxınlaşdıq.

– Onun səthinə?

– Bəli. Min kilometrə yaxın məsafədə. Ölçü cihazları fəzanın əhəmiyyətli dərəcədə tozlandığını göstərirdi. Gəmi saniyədə dörd yüz toz mikrozərbəsi alırdı. Proqrama əsasən biz Roşanın əhatəsində dairənin üzərinə və dairəvi

orbitə çıxdıq, əməli olaraq Kassini yarığına paralel şəkildə aerostatları atmağa başladıq. İlk aerostatı biz gəmi vaxtı ilə saat on beşdə atdıq və radarlı pulsatorun[1] köməyi ilə onu yarığa daxil elədik. Bu məhz mənim vəzifəm idi. Birinci pilot minimal dartı qüvvəsini nizamlayaraq mənə kömək eləyirdi. Bunun sayəsində də biz dairənin öz sürətinə uyğun sürətdən istifadə eləyirdik. Kalder olduqca bacarıqla manevr eləyirdi. O, hərəkət qüvvəsini gəmini düzgün istiqamətləndirməyə imkan verəcək səviyyədə saxlayırdı – burnu ilə irəli. Hərəkət qüvvəsi olmasa, dərhal mayallaq vurma başlayır.

– Sizdən əlavə, sükan kabinəsində kimlər var idi?

– Hamı. Bütün komanda. Komandir mənimlə Kalderin arasında oturmuşdu, Kalderə daha yaxın idi, çünki o, kreslosunu belə qoymuşdu. Mənim arxamda mühəndis və elektron mütəxəssisi var idi. Doktor Barns, deyəsən, komandirin arxasında oturmuşdu.

– Siz buna əmin deyilsiniz?

– Mən buna diqqət vermirdim. Mən daim məşğul idim, həm də kreslodan arxaya boylanmaq çətindir. Kreslonun arxası olduqca hündürdür.

– Aerostat yarığa görünən şəkildə yerləşdirilib?

– Təkcə görünən şəkildə yox. Mən onunla arasıkəsilmədən televiziya əlaqəsi saxlamışam. Bundan əlavə, radar məsafəölçənindən istifadə eləmişəm. Aerostat orbitinin ölçülərini hesablayaraq onun yaxşı oturduğuna – təxminən, dairənin ortasında – əmin olandan sonra Kalderə hazır olduğumu dedim.

– Dediniz ki, hazırsınız?

– Bəli, növbəti aerostatın buraxılmasına. Kalder ayağı işə saldı, amma aerostat çıxmadı.

– Siz nəyi «ayaq» adlandırırsınız?

– Lyuk açılandan sonra aerostatı gəmidən bayıra atmaq üçün qurğudan aerostatı itələyən hidravlik porşeni. Bizdə üç belə qurğu var idi və bu manevri üç dəfə təkrarlamaq lazım gəlirdi.

– Demək, sayca ikinci olan peyk gəmini tərk eləmədi?

– Yox, o, qurğuda ilişib qaldı.

– Bunun nəyə gətirib çıxartdığını təfsilatı ilə danışın.

---

[1] Pulsator – müntəzəm surətdə təkan vuran mexanizm

– Əməliyyatların növbəsi belə idi: əvvəlcə xarici lyuk açılır, sonra hidravlik işə salınır, indikatorlar peykin çıxdığını göstərəndə isə onun start avtomatı işə düşür. Qəza vəziyyətlərində onu söndürmək üçün vaxt olsun deyə, avtomat yüz saniyə gecikməklə alışma verir. Avtomat qatı yanacaqla işləyən kiçik busteri[1] buraxır və peyk öz hərəkət qüvvəsi ilə gəmidən uzaqlaşır – on saniyə ərzində bir ton dartmaq gücüylə. Onun gəmidən nə qədər mümkünsə tez aralanması lazımdır. Buster alışanda şturmanın məsafədən idarə elədiyi ion mühərriki avtomatik olaraq işə düşür. Hazırkı şəraitdə Kalder artıq buraxılış avtomatını işə salmışdı, çünki peyk hərəkət eləməyə başlamışdı, peyk birdən ilişəndə isə o, avtomatı söndürməyə cəhd göstərdi, amma buna nail ola bilmədi.

– Siz birinci pilotun aerostatın start avtomatını söndürməyə cəhd göstərdiyinə əminsinizmi?



– Bəli, o, dəstəklə əlləşirdi, onu pərçimlədi. Bilmirəm nəyə görə, amma hər halda, alışma işə düşdü. Kalder qışqırdı: «Maneə!» – bunu mən özüm eşitdim.

– O, «maneə» deyə qışqırdı?

– Bəli, orada nəsə mane olurdu. Busterin işə düşməsinə hələ yarım dəqiqə qalırdı, belə ki, Kalder təzyiqi artıraraq yenidən aerostatı itələməyə cəhd göstərdi. Manometrlər maksimumu göstərirdi, aerostat isə onsuz da, sanki, ora yapışmışdı. Onda Kalder porşeni geri çəkdi və onu yenidən itələdi, biz hamımız onun aerostata necə vurduğunu eşitdik – sanki, çəkiclə vurdu.

– O, bu yolla aerostatı itələməyə çalışırdı?

– Bəli, hətta belə halda aerostatın məhv olması da mümkündür, çünki Kalder təzyiqi tədricən artırmadı, dərhal sistemə tam təzyiq verdi. Yeri gəlmişkən, o, tamamilə ağıllı hərəkət eləyirdi – axı bizim ehtiyat aerostatımız var idi, ehtiyat gəmimiz isə yox idi.

– Bunu hazırcavablıq kimimi qəbul eləməliyik? Zəhmət çəkin özünüzü belə ibarəli cümlələr işlətməkdən saxlayın.

– Demək, porşen vurdu. Amma aerostat çıxmadı, vaxt isə gedirdi; buna görə də mən qışqırdım: «Kəmərlər!» və bütün kəmərləri bağladım. Məndən əlavə, azından iki

[1] Buster – maşının iş əmsalını və qüvvəsini artıran qurğu

nəfər də eyni sözü qışqırdı – onlardan biri komandir idi, mən onu səsindən tanıdım.

– Tribunala izah eləyin, siz niyə belə etdiniz?

– Biz A dairəsi üzərindəki dairəvi orbitdə idik və demək olar ki, əməli olaraq hərəkət qüvvəsi olmadan gedirdik. Mən bilirdim ki, buster işləməyə başlayanda – bu qaçılmaz idi, çünki artıq starter[1] işə düşmüşdü – biz yandan hava axınının zərbəsini alacağıq və gəmi mayallaq vurmağa başlayacaq. Aerostat gəminin Saturna tərəf olan sağ tərəfində pərçimlənmişdi. Demək, o, köndələn reflektor[2] kimi hərəkət eləməliydi. Mən mayallaq vurmanı və mərkəzəqaçma effektini gözləyirdim, belə olan halda pilot öz gücü ilə gəmini söndürməliydi. Belə vəziyyətdə qabaqcadan hansı manevrləri eləmək lazım gələcəyini təxmin eləmək olmaz. Hər ehtimala qarşı kəmərləri möhkəmcə bağlamaq lazım gəlirdi.

– Demək, növbə vaxtı siz şturmanın vəzifəsini yerinə yetirərək kəmərlərinizi açmışdınız?

– Yox, kəmərlər tam açılmamışdı, sadəcə, bir az boşaldılmışdı. Onları lazım olan həddə qədər nizamlamaq olardı. Əgər kəməri axıra qədər çəkiriksə, bu, bizdə «bütün hərəkət qüvvəsi ilə» adlanır, onda azad hərəkət eləmək məhdudlaşır.

– Sizə məlumdur ki, əsasnamədə heç bir boşaltma və kəmərin heç bir nizamlanması nəzərdə tutulmur?

– Elədir ki var, mən təlimatda başqa cür olduğunu bilirdim, amma həmişə belə eləyirlər.

– Siz nəyi nəzərdə tutursunuz?

– Əməli olaraq mənim uçduğum bütün gəmilərdə kəmərlər nizamlanırdı, çünki bu, işləməyi asanlaşdırırdı.

– Təlimatın pozulmasının geniş yayılması buna haqq qazandırmır. Davam edin.

– Mənim gözlədiyim kimi, aerostatın busteri işlədi. Gəmi köndələn ox boyunca fırlanmağa və eyni zamanda da bizi əvvəlki orbitdən çıxarmağa başladı – doğrudur, çox zəif sürətlə. Pilot bu iki hərəkəti şəxsi yan dartı qüvvəsi ilə tarazlaşdırırdı, amma tamamilə yox, yəni sıfıra qədər yox.

[1] Starter – motorları işə salan qurğu
[2] Reflektor – şüaları əks etdirən cihaz

– Niyə?

– Mən özüm sükanın yanında deyildim, amma bunun mümkün olmadığını düşünürəm. Aerostat açıq lyuklu qurğunun içində pərçimlənmişdi; lyukdan aerostatın mühərrikinin qazlarının bir hissəsi çıxırdı; bu qaz axını, ehtimal ki, burulğan əmələ gətirirdi və buna görə də qeyri-bərabər tərzdə vururdu. Nəticədə isə yandan vurulan zərbələr gah zəifləyir, gah da güclənirdi, buna görə də şəxsi hərəkət qüvvəsinin korreksiyası bütün gəminin yan rəqsli titrəməsinə gətirib çıxarırdı. Buster işləyib dayanandan sonra isə tərsinə daha güclü mayallaq vurma başlandı və pilot onun qarşısını dərhal ala bilmədi – buster gəbərsə də, əvəzində ion mühərrikini işə saldığını başa düşənə kimi.

– Buster «gəbərdi»?

– Mən demək istəyirdim ki, pilot ion mühərrikinin işləyib-işləmədiyinə tam əmin deyildi – axı o, porşenlə aerostata çox güclü zərbə vurdu və mühərriki zədələyə bilərdi; hə, o, elə buna da nail olmaq istəyirdi, mən də olsaydım, elə eləyərdim. Amma buster sönəndən sonra məlum oldu ki, ion dartıcı qüvvəsi fəaliyyətdədir və biz yenidən dörd ton ağırlığında olan yan zərbə alacağıq. Bu, elə də güclü zərbə deyildi. Amma orbitdə mayallaq vurmaq üçün kifayət eləyirdi. Axı biz dairəvi orbit sürəti ilə hərəkət eləyirdik, amma cüzi təkan istiqamətə və uçuşun sabitliyinə möhkəm təsir eləyir.

– Bu zaman komanda üzvləri özlərini necə aparırdılar?

– Tamamilə sakit. Əlbəttə, hamı dərk eləyirdi ki, busterin alışması necə təhlükəlidir – axı orada barıt yanacağının ağırlığı yüz kilo idi və qurğuda pərçimlənən aerostatın yaratdığı belə yarıqapalı boşluqda o, bomba kimi partlaya bilərdi. Gəminin sağ tərəfi bizi konserv bankası kimi əzik-üzük eləyərdi. Amma bizim xoşbəxtliyimizdən, iş gedib partlayışa kimi çıxmadı. İon mühərriki isə elə də təhlükəli deyildi. Doğrudur, burada avtomatın yanğın həyəcanını işə salması və iki nömrəli qurğunun üzərinə köpük tökməsi nəticəsində əlavə çətinlik yarandı. Bundan yaxşı heç nə gözləmək olmazdı – ion mühərrikini köpüklə söndürə bilməzsən, beləliklə, bu köpüyü açıq lyuka atırdı və ehtimal ki, onun hansısa hissəsi çıxış borusuna sorulur və hərəkət

qüvvəsini azaldırdı. Pilot köpüyü dayandırma mexanizmini işə salana kimi biz bir neçə dəqiqə yan zərbələr hiss elədik – bu zərbələr elə də güclü deyildi, amma hər ehtimala qarşı sabitləşməni çətinləşdirirdi.

– Söndürmə mexanizmini kim işə saldı?

– Ölçü cihazları gəminin sağ bortunun örtüyündə temperaturun yeddi yüz dərəcədən yuxarı olduğunu göstərəndə avtomat işə düşür; buster temperaturu bu həddə qədər qaldırmışdı.

– Komandir bu müddət ərzində hansı göstərişləri və əmrləri verirdi?

– O heç bir göstəriş və əmr vermirdi. Mənə elə gəlirdi ki, o, pilotun necə hərəkət elədiyinə baxmaq istəyir. Prinsip etibarilə bizim iki imkanımız var idi: ya artan hərəkət qüvvəsi ilə, sadəcə, planetdən uzaqlaşmalı və yerinə yetirdiyimiz tapşırıqdan imtina eləyərək hiperbola üzrə fırlanmağa başlamalıydıq, ya da sınaq orbitinə axırıncı, üçüncü peyki çıxartmalıydıq. Planetdən çəkilmə bütün proqramı iflasa uğradardı, buna görə də artıq yarıqda olan aerostat, ehtimal ki, ən çoxu bir neçə saatdan sonra kənara çıxma nəticəsində parçalanacaqdı. Onun istiqamətini çöldən gözətçi-aerostat vasitəsilə düzəltmək zəruri idi.

– Təbii ki, bu alternativi gəminin komandiri seçməliydi?

– Sədr, mən bu suala cavab verməliyəmmi?

– İttihamçının sualına cavab verin.

– Demək, belə, komandir sərəncam verə bilərdi, amma bunu eləməyə borclu deyildi. Gəmi təlimatının on altıncı paraqrafına uyğun olaraq müəyyən vəziyyətlərdə pilot gəminin komandiri vəzifəsini icra eləməlidir, çünki tez-tez elə olur ki, komandirin sükan arxasındakılara vəziyyəti izah eləməyə vaxtı olmur.

– Lakin hazırkı vəziyyətdə komandir əmr verə bilərdi – axı nə əmrləri ucadan verməyə mane olan sürətlənmə olub, nə də gəminin birbaşa məhv edilməsi təhlükəsi.

– Saat on beşdən bir neçə dəqiqə keçmiş pilot orta bərabərləşdirici hərəkət qüvvəsini işə saldı...

– Şahid nəyə görə mənim dediklərimə əhəmiyyət vermir? Xahiş edirəm, tribunal öz iradını bildirsin və ona mənim suallarıma cavab verməyi təklif eləsin.

– Hörmətli tribunal, mən suallara cavab verməliyəm, amma prokuror axı mənə heç bir sual vermədi. Prokuror yalnız öz nöqteyi-nəzərindən gəmidə mürəkkəbləşən vəziyyəti şərh elədi. Mən də, öz növbəmdə, bu şərhi şərh eləməliyəmmi?

– Prokuror şahidə verdiyi sualı qısa və dürüst ifadə etməlidir, şahid isə ifadə verərkən maksimum səy göstərməlidir.

– Şahid hesab eləmirmi ki, mürəkkəbləşən vəziyyətlərdə komandir dəqiq qərar qəbul eləməli və onu pilota əmr formasında verməlidir?

– Prokuror, təlimat bunu nəzərdə tutmur...

– Şahid yalnız tribunala müraciət eləməyə borcludur.

– Eşidirəm. Hörmətli tribunal, gəmidə baş verə biləcək bütün vəziyyətlərdə neyləmək lazım gəldiyi təlimatda ətraflı şərh olunmayıb. Həm də bu heç mümkün də deyil. Əgər bu mümkün olsaydı, komandanın hər bir üzvü təlimatı əzbərləyərdi və ümumiyyətlə, komandirə ehtiyac olmazdı.



– İttihamçı şahidin buna oxşar istehzalı iradına etirazını bildirir.

– Şahid, prokurorun sualına qısa və qəti cavab verin.

– Eşidirəm. Demək belə, komandir hazırkı vəziyyətdə hansısa xüsusi əmrlər verməliydi. O, gəmidəydi, nə baş verdiyini görür və başa düşürdü: əgər o susurdusa, bu, o anlama gəlirdi ki, gəmi təlimatının iyirmi ikinci paraqrafına uyğun olaraq o, pilota öz başa düşdüyü kimi hərəkət eləməyə imkan verirdi.

– Hörmətli tribunal, şahid gəmi təlimatının iyirmi ikinci paraqrafını təhrif olunmuş şəkildə çatdırır, çünki hazırkı vəziyyətdə söhbət təhlükəli hallardan gedəndə iyirmi altıncı paraqraf tətbiq olunmalıdır.

– Hörmətli tribunal, «Qoliaf»da yaranan vəziyyət nə gəmi üçün, nə də komanda üzvlərinin həyatı və sağlamlığı üçün təhlükə törətmirdi.

– Hörmətli tribunal, şahid açıq-açığına səmimi cavab verməkdən imtina eləyir! Əsl həqiqətin aşkara çıxarılmasına səy göstərmək əvəzinə, o, nəyin bahasına olursa olsun, günahlandırılan şəxsin, gəminin komandiri olan Pirksin hərəkətlərinə haqq qazandırmaq istəyir! Heç şübhəsiz, gəmidəki vəziyyət iyirmi altıncı paraqrafla şərh olunan vəziyyətlərdən biridir!

– Hörmətli tribunal, prokuror eyni zamanda şeylərin faktik vəziyyətini müəyyənləşdirən ekspert rolunda çıxış eləyə bilməz!

– Şahidi danışmaq hüququndan məhrum eləyirəm. Tribunal xüsusi olaraq baxılana kimi gəmi təlimatının iyirmi ikinci, ya da iyirmi altıncı paraqrafının tətbiq edilməsi məsələsini təxirə salır. Şahid, gəmidə sonra nələr baş verdiyini danışın.

– Doğrudur, Kalder komandirə hansısa bir sualla müraciət eləmədi, amma mən onun bir neçə dəfə komandirə tərəf baxdığını gördüm. Bu vaxt pərçimlənmiş aerostatın hərəkət qüvvəsi bərabərləşmişdi və gəmini sabitləşdirmək artıq çətin deyildi. Möhkəm sabitliyə nail olandan sonra Kalder dairədən uzaqlaşmağa başladı, amma məndən Yerə olan istiqamətdən çəkilməyi tələb eləmədi, bundan da mən nəticə çıxartdım ki, o, hər halda, bizim tapşırığımızı yerinə yetirmək istəyir. Biz Roşanın əhatə dairəsindən çıxandan sonra – təxminən, saat on altıda – Kalder maksimum yüklənmə haqqında işarə verdi və dərhal da aerostatı itələməyə cəhd elədi.

– Yəni necə?

– O, maksimum yüklənmə siqnalını işə saldı və bunun ardınca da dərhal «Tam geriyə!» siqnalını verdi, sonra isə «Tam irəliyə!» Aerostatın çəkisi üç tondur, tam sürət zamanı onun çəkisi iyirmi dəfə artmalıydı. O, qurğudan güllə kimi uçmalıydı. Təxminən, on min mil uzaqlaşandan sonra Kalder növbəylə hərəkət qüvvəsi ilə iki belə zərbə vurdu, amma heç bir nəticəsi olmadı. O yalnız yan tərəfdəki titrəyişin daha da güclənməsinə nail oldu. Görünür, qəfil sürətlənmə nəticəsində qurğuda daha möhkəm pərçimlənən aerostat vəziyyətini dəyişmişdi və indi onun bütün qaz şırnağı xarici lyukun qaldırılmış qapağına vurur, ondan əks olunaraq fəzaya axırdı. Hərəkət qüvvəsi ilə zərbə vurmaq komanda üçün xoşagələn deyildi, həm də gəmi üçün olduqca təhlükəli idi; axı aydın idi ki, ümumiyyətlə, aerostat çıxarsa belə, xarici örtüyün də bir hissəsini qoparıb özüylə aparacaqdı. Bu da ona bənzəyirdi ki, biz ya adamları skafandrda alətlərlə birlikdə örtüyü bərpa eləməyə göndərməliydik, ya da bu lənətə gəlmişlə... üzr istəyirəm, bu pərçimlənmiş aerostatla Yerə qayıtmalıydıq.

– Kalder aerostatın mühərrikini işə salmağı sınadımı?

– O, bunu eləyə bilməzdi, çünki gəmini aerostatla birləşdirən idarəetmə kabeli qırılmışdı, nəticə etibarilə bircə radioidarəetmə qalmışdı, amma aerostat axı lap qurğunun ağzında tıxanıb qalmışdı və onun yalnız metal örtüyü ekranda görünürdü. Biz planetdən aralanaraq, təxminən, bir dəqiqəyə yaxın getdik və mən əmindim ki, Kalder, hər halda, qayıtmağı qərara alıb, o, «ulduza çıxış» adlanan bir neçə manevr elədi – bu zaman gəminin burnu hansısa bir ulduza ilişir və dəyişən hərəkət qüvvəsi verir. Əgər idarəetmə qaydadadırsa, ulduz ekranda tamamilə hərəkətsiz dayanmalıdır. Bizdə, aydındır ki, belə alınmadı, uçuşun dinamik xarakteri dəyişdi və Kalder onun kəmiyyət parametrlərini aydınlaşdırmağa cəhd elədi. Bir neçə cəhddən sonra o, hər halda, yan tərəfi tarazlaşdıran hərəkət qüvvəsini yığışdıra bildi və gəmini geri döndərdi.



– Siz bu zaman Kalderin əsl məqsədinin nə olduğunu başa düşdünüzmü?

– Bəli. Dəqiq desək, mən düşündüm ki, o, hələ də gəmidə qalan üçüncü aerostatı orbitə çıxarmaq istəyir. Biz yenidən Günəş tərəfdən ekliptikanın[1] maili səthinə çıxdıq, həm də Kalder, sözün əsl mənasında, məharətlə işlədi; əgər mən özüm görməsəydim, heç vaxt konstruksiyasında yan mühərrik nəzərdə tutulmayan gəmini belə sərbəst idarə eləməyin mümkün olacağını təxmin eləməzdim. Kalder mənə istiqamət düzəlişlərini və düzəldilən impulslarla birlikdə bizim üçüncü aerostat üçün bütün trayektoriyanı hesablamağı tapşırdı. Bundan sonra mənim artıq heç bir şübhəm qalmadı.

– Bu əmri yerinə yetirdiniz?

– Yox. Daha doğrusu, ona dedim ki, proqrama uyğun olaraq istiqaməti hesablaya bilmərəm, axı biz tezliklə başqa hərəkət eləyəsi olacağıq – axı biz proqrama ciddi əməl eləyə bilməzdik. Mən ondan əlavə bilgilər tələb elədim, çünki onun hansı yüksəklikdən üçüncü aerostatı orbitə çıxartmaq istədiyini bilmirdim, amma o, mənə heç bir cavab vermədi. Ola bilsin ki, o, mənə yalnız bu yolla da öz niyyəti haqqında komandanı xəbərdar eləmək üçün müraciət eləyirdi.

---

[1] Ekliptika – Yerin Günəş ətrafında hərəkət etdiyi yol

– Siz beləmi düşünürsünüz? Amma Kalder axı bilavasitə komandirə də müraciət eləyə bilərdi?

– Olsun ki, o, bunu eləmək istəmədi. Bəlkə də, o məhz onda maraqlıydı ki, heç kim, guya, onun neyləmək istədiyini bilmədiyi haqqında fikrə düşməsin. Amma Kalderin naviqatorun, yəni mənim ona kömək eləməyəcəyim halda özünün belə məsələləri həll eləməyə qadir olduğunu və necə yaxşı pilot olmasını göstərdiyini güman eləmək çox az inandırıcıdır, amma komandir buna heç bir reaksiya vermədi, Kalder isə dairəylə yaxınlaşmağa doğru gedirdi. Bu, mənim xoşuma gəlməməyə başladı.

– Sizdən daha dəqiq danışmağınızı xahiş edirəm.

– Oldu. Mən bundan risk qoxusu gəldiyini hiss elədim.

– Hörmətli tribunalın diqqətini bir məsələyə cəlb eləmək istəyirəm ki, şahid əvvəl boynuna almaq istəmədiyini indicə ixtiyarsız halda etiraf elədi: komandirin borcu baş verən hadisəyə fəal müdaxilə eləməkdir. Nəticə etibarilə komandir şüurlu surətdə, düşünülmüş şəkildə öz vəzifəsinə etinasız yanaşmış, bununla da gəmini və komandanı qabaqcadan görülməsi çətin olan təhlükəyə məruz qoymuşdur.

– Hörmətli tribunal, məsələ prokurorun təsdiq elədiyi kimi deyildi.

– Siz ittihamçı ilə polemikaya girməli deyilsiniz, hadisənin təsviri ilə kifayətlənərək ifadə verməlisiniz. Nəyə görə həmin an, Kalder orbitin dairəsinə qayıdandan sonra – yalnız onda – siz bu manevri riskli hesab elədiniz?

– Ola bilsin ki, mən dəqiq ifadə eləmədim. İş bax belədir: buna oxşar hallarda pilot komandirə müraciət eləməlidir. Əvvəlki proqramı biz artıq bütün detallarıyla yerinə yetirə bilməzdik. Mən düşündüm Kalder – bir halda ki komandir təşəbbüsü ona verib – üçüncü aerostatı böyük məsafədən buraxacaq, yəni dairəyə çox da yaxınlaşmadan. Doğrudur, bu zaman uğur qazanmaq şansı aşağı düşürdü, amma bu mümkün idi, həm də təhlükəsiz idi. Doğrudan da, Kalder mənə təkrar peyk üçün təkanlarla min – min iki yüz kilometr məsafəyə qədər gətirilmiş səmti hesablamağı əmr elədi. Ona kömək eləmək istəyərək mən səmti hesablamağa başladım; məlum oldu ki, bu səmtin

uzunluğu, təxminən, Kassini yarığının bütün eni qədərdir. Nəticə etibarilə peyk yüzdən əlli şansda nəzarət orbitinə çıxmaq əvəzinə ya planetə gedəcəkdi, ya da xaricə və dairədə dağılacaqdı. Daha yaxşısı olmadığına görə mən Kalderə bu nəticəni çatdırdım.

– Komandir sizin hesablamalarınızın nəticələri ilə tanış oldumu?

– O, onları görməliydi, çünki rəqəmlər məhz bizim pultun altındakı indikatorda görünürdü. Biz az hərəkət qüvvəsi ilə hərəkət eləyirdik və mənə elə gəldi ki, Kalder neyləyəcəyini qərarlaşdıra bilmir. O, doğrudan da, dalana dirənmişdi. Əgər o, indi geri çəkilsəydi, bu, onun hesablamalarda səhv elədiyi, təxmininin onu aldatdığı anlamına gələrdi. O, nə qədər planetə doğru döndərməmişdi, hələ də özünü elə göstərə bilərdi ki, riski olduqca böyük və özünü doğrultmayacaq hesab eləyir. Amma Kalder dartı qüvvəsinin öz dinamik xarakterini dəyişdiyinə baxmayaraq, artıq gəminin idarəolunan olduğunu nümayiş elətdirir, bundan əlavə, bunu deməsə də, onun sonrakı manevrlərindən aydın olurdu ki, o, hələ də aerostatı orbitə çıxartmaq istəyir. Biz yaxınlaşmaya doğru gedirdik və mən onun bizim şansı bir qədər yaxşılaşdırmaq istədiyinə çalışdığını güman elədim – axı bu şans məsafənin kiçilməsi ilə artırdı. Amma əgər o, buna nail olardısa, onda artıq tormozlamağa başlamalıydı, amma o, əksinə, hərəkəti artırırdı. Yalnız Kalder bunu eləyəndə, yalnız o an mən onun tamam başqa cür eləməyə hazırlaşdığını başa düşdüm, – əvvəl isə bu, mənim ağlıma gəlməmişdi. Yeri gəlmişkən, bunu ani olaraq hamımız başa düşdük.

– Siz komanda üzvlərinin hamısının vəziyyətin təhlükəli olduğunu dərk elədiklərini təsdiqləyirsiniz?

– Bəli. Bəli. Mənim arxamda, yan tərəfdə oturan sürətlənmə vaxtı dedi: «Yaşamaq gözəl idi».

– Bunu kim dedi?

– Onu mən bilmədim. Bəlkə, mühəndis, bəlkə də, elektronçu. Mən diqqət yetirmədim. Bütün bunlar saniyənin hansısa bir hissəsində baş verirdi. Kalder maksimum siqnalı işə saldı və istiqaməti dairə ilə kəsişməyə doğru götürərək güclü hərəkət verdi. Aydın idi ki, o, «Qoliaf»ı Kassini yarığının lap mərkəzindən keçirmək istəyir və yol-

da «ürküdülmüş» quş üsulundan istifadə eləyərək, üçüncü aerostatı «itirmək» istəyir.

– O nə üsuldur elə?

– Onu bəzən belə adlandırırlar: gəmi aerostatı ürküdülmüş quşun yumurtanı itirməsi kimi «itirir»... Amma komandir bunu ona qadağan elədi.

– Komandir qadağan elədi? O, belə əmr verdi?

– Özüdür ki var.

– İttihamçı etiraz eləyir. Şahid faktları təhrif eləyir. Komandir belə əmr verməyib.

– Amma komandir, həqiqətən də, belə əmr verməyə cəhd elədi, yalnız onu tamamilə deməyə vaxt çatdırmadı. Doğrudur, Kalder hərəkət qüvvəsinin maksimum olması haqqında xəbərdarlıq elədi, amma manevrə cəmi bircə an qalmış. Qırmızı siqnal yananda komandir ona qışqırdı, o isə həmin an tam gücə keçdi. Belə təzyiq altında artıq səs çıxartmaq belə mümkün deyil. Görünür, Kalder bilərəkdən onun ağzını yummaq istəyirdi. Mən onun, həqiqətən də, belə eləmək istədiyini təsdiqləmirəm, amma belə çıxırdı. Bizə dərhal elə təzyiq oldu ki, mən tamamilə görmədim, buna görə də komandir yalnız qışqırmağa macal tapdı...

– İttiham şahidin fikirlərinin bu cür ifadəsinə etiraz eləyir. Öz dediyinin əksinə olaraq, şahid bizə aşılamağa çalışır ki, guya, pilot Kalder əvvəlcədən düşünülmüş məqsədlə və qərəzli niyyətlə gəminin komandirinə əmr verməyə mane olub.

– Mən buna oxşar heç nə deməmişəm.

– Şahidi cavab hüququndan məhrum eləyirəm. Tribunal ittihamçının etirazını qəbul eləyir. Protokoldan şahidin «Görünür ki, Kalder bilərəkdən onun ağzını yummaq istəyirdi» cümləsi ilə başlayan sözlərini pozun. Şahid, lütfən, şərh verməyə son qoyun və komandirin, əslində, nə dediyini dəqiq təkrar edin.

– Mən artıq dedim, komandir nəticə etibarilə öz əmrini bütünlüklə ifadə eləməyə macal tapmadı, amma onun niyyəti aydın idi. O, Kalderə Kassini yarığına girməyi qadağan elədi.

– İttiham etiraz eləyir. İşin həqiqi tərəfi üçün günahlandırılan Pirksin nə demək istəməsi yox, onun, həqiqətən, nə deməsi əhəmiyyətlidir.

– Tribunal etirazı qəbul eləyir. Şahiddən sükan köşkündə nə deyildiyi ilə kifayətlənməyi xahiş edirəm.

– Kifayət qədər deyildi ki, peşəkar kosmonavt olan hər bir insan komandirin pilota Kassini yarığına girməsini qadağan elədiyini başa düşərdi.

– Şahid, bu sözü təkrar edin. Tribunal onun həqiqi məqsədinin nə olduğunu özü araşdırar.

– Mən sözləri xatırlamıram, yalnız onların mənasını xatırlayıram. Komandir nəsə: «Dairənin içinə girmə!» kimi sözlər qışqırdı və ya: «İçəriyə yox!» və daha sonra o artıq danışa bilmədi.

– Lakin siz əvvəl komandirin cümlənin sonunu deyə bilmədiyini demişdiniz, indisə sitat gətirilən «Dairənin içinə girmə!» ifadəsi cümlənin sona qədər deyildiyini göstərir.



– Əgər bu zalda yanğın olsaydı və mən «Yanır!» qışqırsaydım – bu, bitməmiş cümlə olardı, çünki onda nəyin yandığı, haranın yandığı deyilməmişdi, amma bu, tamamilə başa düşülən xəbərdarlıq olardı.

– İttihamçı etiraz eləyir! Xahiş edirəm, tribunal şahidi nizam-intizama dəvət eləsin!

– Tribunal şahidə irad tutur. Tribunalı əfsanələrlə və lətifələrlə əyləndirmək şahidin vəzifəsi deyil.

– Eşidirəm. Gəmidə o baş verdi ki, komandir qışqırmaqla pilota yarığa girməyi qadağan elədi...

– İttihamçı etiraz eləyir! Şahidin ifadəsi faktları birtərəfli qaydada təhrif eləyir!

– Tribunal mərhəmətli olmağa çalışır. Şahid, siz başa düşməlisiniz ki, məhkəmə araşdırmasının məqsədi real faktların müəyyən edilməsidir. Siz komandirin dediyi cümlənin yarısını deyə bilərsinizmi?

– Biz artıq böyük sürətin altındaydıq. Mənim gözlərim tutulmuşdu və mən heç nə görmürdüm, amma komandirin qışqırdığını eşidirdim. Sözləri ayırd eləmək mümkün deyildi, lakin mən söhbətin nədən getdiyini başa düşdüm. Bununla belə, bu xəbərdarlığı pilot eşitməliydi, axı o, komandirə məndən yaxın idi.

– Müdafiə sükan köşkündə qeydə alınan lent yazısına təkrar qulaq asmağı xahiş eləyir – komandirin qışqırığına aid olan hissəyə.

– Tribunal müdafiənin xahişini rədd eləyir. Lentə artıq qulaq asılıb və müəyyən olunub ki, səsin təhrif olunması danışanın şəxsiyyətini müəyyənləşdirməyə imkan verir, amma nə qışqırdığını müəyyən eləməyə imkan vermir. Bu mübahisəli məsələ ilə bağlı tribunal xüsusi qərar qəbul eləyəcək. Şahiddən xahiş eləyirəm ki, komandir qışqırandan sonra nələr baş verdiyi haqqında danışsın.

– Mən görməyə başlayandan sonra biz dairənin qabağından keçirdik. Sürət hiperbolik idi. Komandir qışqırdı: «Kalder! Sən əmri yerinə yetirmədin! Mən sənə Kassiniyə girməyi qadağan elədim!», Kalder isə dərhal cavab verdi: «Komandir, mən bunu eşitmədim!»

– Lakin komandir ona dərhal tormozlamağı, ya da geri qayıtmağı əmr eləmədi?

– Bu mümkün deyildi. Biz hiperbolik qaydada saniyədə səksən kilometr gedirdik. Cazibə maneəsini keçmədən bu sürəti azaltmaqdan söhbət belə gedə bilməzdi.

– Siz nəyi cazibə maneəsi adlandırırsınız?

– İyirmi iki cazibə vahidi səviyyəsində daimi müsbət və mənfi sürətlənməni. Dairənin içiylə uçarkən gəmini tormozlamaq üçün hər bir saniyədə getdikcə daha çox tərs dartı qüvvəsi tələb olunur. Belə tormozlamada biz hamımız məhv ola bilərdik. Daha dəqiqi, gəmidəki bütün insanlar ölərdilər.

– Texniki olaraq gəmi öz sürətini bu səviyyəyə qədər artıra bilərmi?

– Bəli, bilər, amma əgər qoruyucu qoparılarsa. «Qoliaf» atom mühərriki ilə işləyir, hansı ki maksimumda on min ton hərəkət qüvvəsinə hesablanıb.

– Xahiş edirəm, ifadənizə davam edəsiniz.

– «Sən gəmini məhv eləmək istəyirsən?» – komandir tamamilə sakit tərzdə soruşdu. «Biz Kassininin içərisi ilə gedirik, o biri tərəfdə tormozlayaram», – Kalder də sakitcə cavab verdi. Heç bu söhbət qurtarmamış biz yan fırlanmaya daxil olduq. Görünür, bu, Kalderin yarığın içərisindən keçməsi ilə birdən sürətlənmənin artması nəticəsində baş verirdi: qurğudakı aerostatın vəziyyəti nə cürsə dəyişmişdi və yan cəhətin azalmasına baxmayaraq, qaz axını gəminin gövdəsinə toxunaraq çıxırdı, beləliklə də, bütün gəmi fırlanğıc uzun oxda fırlanan kimi fırlanırdı. Əvvəlcə fırlanma

olduqca zəif idi, amma hər saniyə güclənirdi. Bu, qəzanın başlanğıcı idi. Kalder istəmədən onu sürətlənmənin çox sərt artırılması ilə əlaqələndirdi.

– Tribunala izah eləyin: sizin fikrinizcə, Kalder nəyə görə sürətlənməni artırdı?

– İttihamçı etiraz eləyir. Şahid tərəfgirlik eləyir və heç şübhəsiz, cavab verəcək ki, Kalder komandiri susmağa məcbur eləmək üçün belə eləyib.

– Mən heç də belə demək istəmirəm. Kalder hökmən sürətlənməni birdən artırmalı deyildi, o, bunu tədricən də eləyə bilərdi; amma əgər o, Kassiniyə girməyi qərara almışdısa, hər halda, böyük hərəkət qüvvəsi lazım idi. Saturnətrafı boşluqda manevr eləmək olduqca çətindir, burada hər addımbaşı çoxlu cismlərin hərəkətiylə bağlı riyazi şəkildə həll edilməsi mümkün olmayan məsələlərlə qarşılaşırsan. Saturnun özünün, onun dairəsinin çəkisinin və yaxın peyklərin təsiri – bütün bunlar birlikdə cazibə sahəsi yaradır, bu sahədə eyni zamanda bütün sapmaları nəzərə almaq qeyri-mümkündür. Üstəgəl bizim hələ bir aerostat tərəfdən yan cəhətimiz də var idi. Bütün bu şərtlərlə biz gəminin öz hərəkət gücüylə və boşluqda paylanmış cazibəylə çoxlu qüvvənin təsiri nəticəsində yaranan istiqamətlə hərəkət eləyirdik. Beləliklə də, biz nə qədər çox hərəkət qüvvəsi ilə hərəkət eləyirdiksə, qıcıqlandırıcı amillərin təsirinə də bir o qədər az məruz qalırdıq, çünki onların həcmi daim eyni idi, bizim sürətin həcmi isə artırdı. Kalder hərəkətin tezliyini artıraraq bizim istiqaməti kənar qıcıqlandırıcı amillərə qarşı daha az həssas elədi. Mən əminəm ki, əgər bu qəfil yan fırlanma olmasaydı, o, yarığı keçə biləcəkdi.

– Siz tamamilə saz olan gəminin yarıqdan keçməsinin mümkün olduğunu hesab eləyirsiniz?

– Əlbəttə. Bu, tamamilə mümkün olan manevr idi, hərçənd kosmik dərsliklərin hamısında bunu qadağan eləyirlər. Kassini yarığının eni üç min beş yüz kilometrdir, onun kənarları tamamilə iri buz və meteorit tozudur, doğrudur, gözlə görmək mümkün deyil, amma bura hiperbolik sürətlə girən gəmi, yəqin, yanar. İçərisindən getmək mümkün olan az-çox təmiz boşluğun eni beş yüz – altı yüz kilometr olar. Kiçik sürətlə belə dəhlizə daxil olmaq çətin

deyil, amma yüksək sürətlə daxil olanda cazibə sapmaları əmələ gəlir, buna görə də Kalder əvvəlcə gəminin burnunu diqqətlə yarığa doğru yönəltdi, sonra isə sürəti artırdı. Əgər aerostat çevrilməsəydi, hər şey rəvan gedə bilərdi. Ən azı, mən belə düşünürəm. Əlbəttə, müəyyən risk var idi – bizim hansısa bir tör-töküntüyə toxunmaq ehtimalımız otuzdabir idi. Amma həmin vaxt bu sürəkli dönmələr başladı. Kalder onun qarşısını almağa çalışdı. Amma buna nail ola bilmədi. O, olduqca inadla mübarizə aparırdı. Mən bunu etiraf eləməliyəm.

– Kalder gəminin fırlanmasını dayandıra bilməzdimi? Siz izah eləyə bilərsinizmi, niyə?

– Hələ əvvəllər, növbə vaxtı mən Kalderi müşahidə eləyərkən onun fenomenal hesablayıcı olduğuna əmin oldum. Kalkulyatorun köməyi olmadan ildırımsürətli hesablamalar aparmaq üçün o, öz bacarığına güvənirdi. Bizim bu müqayisəli vəziyyətdə iynənin deşiyindən soxulub keçməliydik. Hərəkət qüvvəsinin indikatorları faydasız idi – onlar axı yalnız «Qoliaf»ın hərəkət qüvvəsini göstərirdi və aerostatın hərəkət qüvvəsinin həcmini göstərə bilməzdi. Kalder yalnız cazibə qüvvəsini ölçən cihazlara baxır və gəmini yalnız onların göstəricilərinə əsasən idarə eləyirdi. Bu, açıqdan-açığa riyazi yarış idi – Kalderin beyni ilə sürətlə dəyişən uçuş şərtləri arasında. Təkcə buna görə Kalderin bacarığı haqqında mühakimə yürütmək olar ki, mən güclə indikatorların göstəricilərini oxuyub qurtarmağa macal tapmışdım, Kalder isə bu müddət ərzində başında hesablamalar apararaq, dördüncüdərəcəli diferensial tənlik tərtib eləmişdi. Hərçənd mən Kalderin qabaqkı hərəkətini biabırçılıq hesab eləyirəm, belə ki, onun komandirin əmrini eşitdiyinə və bilərəkdən ona əməl eləmədiynə əmin idim, amma hər halda, onunla qürur duyurdum.

– Siz tribunalın sualına cavab vermədiniz.

– Mən məhz cavab verməyə başlayırdım. Kalderin hesablamaları – hərçənd o, bu hesablamaları saniyənin hansısa bir hissəsində apardı – yalnız təxmini ola bilərdi. Bu hesablamalar ideal dəqiq ola bilməzdi, hətta Kalderin yerinə dünyanın ən yaxşı hesablayıcı maşını olsaydı belə. Onun hesaba almadığı səhvin ölçüsü genişlənirdi və biz fırlanmaqda davam eləyirdik. Bir müddət mənə elə gəldi

ki, Kalder, hər halda, işin öhdəsindən gələcək, amma o, uduzduğunu məndən tez başa düşdü və bütün hərəkət qüvvəsini işə saldı. Biz tam çəkisizliyə daxil olduq.

– O, nəyə görə hərəkət qüvvəsini işə saldı?

– O, yarığın içindən keçib getmək istəyirdi, amma gəminin uzununa dövrə vurmasının qarşısını ala bilmirdi. «Qoliaf» fırlanğıc kimi fırlanır və özünü fırlanğıc kimi aparır, onu oxu boyunca tuşlamağa məcbur eləyən dartı qüvvəsinə müqavimət göstərirdi. Biz qəribə bir hərəkətin içindəydik: bizim sürətimiz nə qədər artırdısa, gəminin arxa tərəfi bir o qədər güclü titrəyirdi. Nəticədə isə biz güclü gərilmiş dolama hərəkətlə gedirdik; gəmi bir tərəfdən o biri tərəfə yırğalanırdı, hər belə dolanmadan sonra vurduğumuz dövrənin diametri yüz kilometrə yaxın olurdu. Biz belə hərəkətlə də yarığın içərisinə doğru yox, birbaşa dairənin kənarlarına toxuna bilərdik. Kalder artıq heç nə eləyə bilmirdi. O artıq qıfda oturmuşdu.



– Bu, nə deməkdir?

– Biz, adətən, asanlıqla düşmək mümkün olan, lakin oradan çıxış olmayan dəyişilməz vəziyyətləri belə adlandırırıq. Sonra bizim artıq tamamilə qabaqcadan nə edəcəyini bilmədiyimiz bir iş oldu. Kalder mühərriki işə salanda mən onun, sadəcə, hadisənin axınına tabe olduğunu düşündüm. Rəqəmlər indikatorların pəncərələrində yanıb-sönürdü, amma hesablamalı artıq bir şey yox idi. Dairə elə işıldayırdı, baxmaq belə adamın qəlbini ağrıdırdı – axı o, buz parçalarından ibarətdir. Onlar qara çatlağa oxşayan yarıqla birlikdə karusel kimi bizim qarşımızda fırlanırdı. Belə hallarda zaman olduqca ləng keçir. Mən saniyəölçənin əqrəblərinə nə qədər baxdımsa, mənə elə gəldi ki, onlar yerlərindəcə dayanıb. Kalder sürətlə kəmərlərini açmağa başladı. Mən də elə elədim; belə ki, onun pultda yerləşən yüklənmənin əsas qoruyucusunu qırmaq istədiyini başa düşdüm: kəmərlə bağlı halda ona əl çatmırdı. Bütün gücü öz sərəncamında hiss eləyəndən sonra o, bir daha tormozlanma verə bilərdi və boşluğa çıxa bilərdik. Biz hava şarları kimi partlaya bilərdik, o isə gəmini xilas eləyə bilərdi – həm də özünü. Ümumiyyətlə, mən əvvəldən onun insan olmadığını təxmin eləməliydim – axı heç bir insan onun kimi hesablama apara bilməzdi...

amma yalnız həmin an bunu dərk elədim. Mən o, pulta çatmamış onu saxlamaq istədim, amma o, məndən cəld tərpəndi. O, elə cəld də hərəkət eləməliydi. «Kəmərini açma!» – komandir mənə qışqırdı. Kalderə isə qışqırdı: «Qoruyucuya toxunma!» Kalder buna əhəmiyyət vermədi, o artıq ayağa qalxmışdı. «Tam sürətlə irəli!» – komandir qışqırdı və mən əmri yerinə yetirdim, axı mənim ikinci sükanım var idi. Mən dərhal bütün gücü işə salmadım, çünki Kalderi öldürmək istəmirdim – mən, sadəcə olaraq, təkanla onu qoruyucudan uzaqlaşdırmaq istəyirdim, amma o, ayaq üstə dayanmışdı. Bu, dəhşətli görünürdü, axı heç bir insan bu sürətdə ayaq üstə qala bilməzdi. O dayanmışdı, yalnız qoruyucudan yapışmışdı, ovcunun dərisi sıyrılmışdı, o isə hələ də ayaq üstəydi, çünki onun dərisinin altı poladdan idi. Mən onda bütün maksimumu işə saldım. Onda o, qoruyucudan qopdu, əcaib gurultu ilə geri uçdu, sanki, bütöv bir metal parçası bizim kresloların arasıyla sürətlə keçdi, arakəsmə divara elə bərk çırpıldı ki, divar titrədi və üzərindəki saniyəölçən xıncım-xıncım olub parçalandı, Kalder isə nəyəsə qətiyyən oxşamayan bir səslə qışqırdı və mən arxamda onun necə yumalandığını, aralıq divarı dağıtdığını, nədən yapışırsa, onu necə dağıtdığını eşidirdim, amma artıq buna əhəmiyyət vermirdim, çünki yarıq bizim qarşımızda açılırdı; biz heç nəyə baxmadan ona doğru gedirdik, gəminin arxası da fırlanırdı və mən dartı qüvvəsini azaltdım. Komandir qışqırdı ki, mən atəş açım, onda mən gəminin burnunun qabağındakı tör-töküntüləri azaltmaq üçün bir-birinin ardınca meteorit əleyhinə olan ekranlardan atəş açmağa başladım, bu ekranların elə bir dəyəri yox idi, amma hər halda, heç olmamaqdansa, belə müdafiə yaxşıydı. Kassini nəhəng qara cəhəng kimiydi; mən qabaqda, uzaqda alov gördüm, müdafiə ekranları hərlənməyə başladı və buz tozunun töküntüləri ilə toqquşan kimi də dərhal alışıb-yandı; qeyri-adi gözəlliyi olan nəhəng gümüşü buludlar əmələ gəldi; gəmi yüngülcə titrədi, sağ tərəfdəki ölçü cihazlarının əqrəbləri hamısı eyni anda yuxarı sıçradı; bu, termik zərbə idi, biz nəyəsə toxunduq. Bilmirəm nəyə – və artıq o tərəfdə olduq...

– Komandir Pirks?

– Bəli, bu mənəm. Siz məni görmək istəyirdiniz?

– Şübhəsiz. Gəldiyiniz üçün sağ olun. Lütfən, əyləşin....

Stolun arxasındakı adam qara yeşiyin düyməsini basdı və dedi:

– Yaxın iyirmi dəqiqə ərzində mən məşğul olacağam. Kim gəlsə, yoxam.

O, cihazı söndürdü və diqqətlə Pirksə baxdı.

– Komandir, mənim sizə bir orijinal təklifim var. Hansısa... – uyğun gələn söz axtardı, – sınaq. Lakin mən əvvəlcədən sizdən xahiş eləməliyəm ki, mənim bütün dediklərimi sirr kimi qoruyub saxlayasınız. Hətta mənim təklifimdən imtina eləyəcəyiniz halda da. Razısınızmı?

Sükut bir neçə saniyə sürdü.



– Yox, – Pirks cavab verdi. – Əgər mənə bu haqda ətraflı danışmasanız.

– Siz nəyəsə kor-koranə inananlardan deyilsiniz. Şəxsən mən sizin haqqınızda eşitdiklərimdən sonra bunu gözləyirdim. Siqaret çəkirsiniz?

– Yox, sağ olun.

– Söhbət sınaq uçuşundan gedir.

– Yeni tip gəmidə?

– Yox. Yeni tip komandada.

– Komanda? Mənim rolum nədən ibarət olacaq?

– Onun yararlılığı haqqında hərtərəfli qiymət. Bundan artıq mən sizə heç nə deyə bilməyəcəyəm. İndi qərara gəlmək növbəsi sizindir.

– Əgər bunu mümkün hesab eləsəm, mən susacağam.

– Mümkün?

– Arzuolunan.

– Hansı meyarlar əsasında?

– Sizin icazənizlə, vicdan adlanan meyarın.

Yenidən bir neçə saniyə keçdi. Bütün divarlarında pəncərə olan böyük otaqda sakitlik idi; sanki, bu otaq damındakı meydançada üç dənə vertolyot enmək üçün meydançası olan nəhəng «göydələnin» sayı iki minə çatan otaqlarından biri deyildi. Pirks, demək olar, həmsöhbətini

ayırd eləyə bilmirdi, onu binanın yuxarıdakı on altı mərtəbəsini ağuşuna alan işıldayan dumanın arxasından görürdü. Zamanla dumanın süd rəngli burumları şəffaf divarın arxasında qatılaşır və onda adama elə gəlirdi ki, bütün otaq hiss edilməyən aparıcı bir qüvvə ilə harasa üzür.

– Yaxşı. Gördüyünüz kimi, mən hər şeyə razıyam. Söhbət Yer – Yer reysindən gedir.

– Dövrələmə?

– Bəli. Saturna uçub, orada stasionar orbitə yeni avtomatik peykləri çıxarmaqla.

– Axı bu, «Yupiter» layihəsidir?

– Bəli, söhbət peyklərdən gedirsə, bu, layihənin elementlərindən biridir. Gəmi KOMSEK-ə məxsusdur, beləliklə, bütün tədbirlər YUNESKO-nun himayəsi altında keçirilir. Sizə məlum olduğu kimi, mən də həmin təşkilatı təmsil eləyirəm. Bizim, əlbəttə, öz pilotlarımız və naviqatorlarımız var, lakin biz sizi seçdik, çünki burada əsas rolu əlavə amillər – mənim artıq sizə xatırlatdığım komanda oynayır.

YUNESKO-nun direktoru yenidən susdu. Pirks qeyri-ixtiyari qulaq asaraq gözləyirdi, amma sakitlik eləydi ki, sanki, radiusu kilometrlərlə olan məsafədə cüzi belə səs eşidilmirdi, amma ətrafları çoxmilyonlu şəhər idi.

– Sizə, yəqin, məlum olduğu kimi, artıq bir neçə ildir getdikcə daha çox insanı əvəz eləyəcək qurğunu yaratmaq mümkünlüyü var. Onlardan dərhal çoxlu sahədə insanla müqayisə olunacaq qurğular indiyə qədər də var idi – özlərinin həcminə və çəkilərinə görə – stasionarlar. Lakin fiziklərin möhkəm bədən üzərindəki uğurları, demək olar ki, eyni zamanda SSRİ-də və Birləşmiş Ştatlarda molekulyar səviyyədə mikrominiatürləşmənin növbəti mərhələsinə yol açmışdır. Beyinə ekvivalent olan kristallik sistemlərin sınaq nümunələri yaradılmışdır. Onlar hələ də insan beynindən bir yarım dəfə böyükdür, amma bunun əhəmiyyəti yoxdur. Bir sıra Amerika firmaları belə qurğuları artıq patentləşdirib və hazırda, əsasən, robotlar adlandırılan, hər şeydən öncə Yerdənkənar gəmilərdə xidmət eləmək üçün insanabənzər avtomatların seriya ilə buraxılışına başlamağa hazırlaşırlar.

– Mən bu haqda eşitmişəm. Amma Həmkarlar İttifaqları, elə bil, etiraz eləyirdi? Sonrası da, bu, deyəsən, qanunvericilik aktlarında əsaslı dəyişikliklər tələb eləyir?

– Siz bu haqda eşidibsiniz? Mətbuatda bu haqda bircə söz də olmayıb...

– Bəli. Amma səhnə arxasında hansısa söhbətlər, danışıqlar gəzirdi və bu danışıqlar haqqındakı məlumatlar bizə də gəlib çatırdı. Nəticə etibarilə mən belə düşünürəm.

– Əlbəttə. Deyəsən. Neyləməli, elə isə lap yaxşı, hərçənd... Sizin fikriniz nədir?

– Bu sualla bağlı? Daha çox mənfidir. Bəli, həm də çox mənfidir. Lakin qorxuram ki, burada kiminsə fikri əhəmiyyətli bir rol oynamasın. Kəşfin nəticəsi amansızlıq ola bilər – ən çoxu, hansısa müddətə onların istifadəsini əngəlləmək olar...

– Bir sözlə, siz bunun zəruri qəddarlıq olduğunu hesab eləyirsiniz?

– Mən bunu belə deməzdim. Mən hesab eləyirəm ki, insanlıq süni insanabənzər varlıqların qəbuluna hazır deyil. Əlbəttə, ən mühüm olanı budur – doğrudanmı, onlar insana bərabərdirlər? Mən şəxsən beləsi ilə heç vaxt rastlaşmamışam. Mən mütəxəssis deyiləm, amma tanıdığım mütəxəssislər hesab eləyirlər ki, əsl bərabərlikdən, tam yararlılıqdan söhbət belə gedə bilməz.



– Siz buna əvvəlcədənmi əmin idiniz? Doğrudan da, çoxlu mütəxəssisin fikri belədir, daha dəqiqi, belə idi. Amma görürsünüzmü... firmalar iqtisadi amillərlə hərəkət eləyir. İstehsalın rentabelli olması ilə.

– Başqa sözlə – gəlir götürüləcəyi ümidi ilə?

– Bəli. Yəni hazırkı halda federal hakimiyyət (mən Amerikanı nəzərdə tuturam), onlarla bərabər Böyük Britaniya və Fransa hakimiyyətləri də hələlik şəxsi firmalara dövlətin maliyyələşdirdiyi institutlarda işlənilmiş bu sənədlərə baxmağa imkan vermir. Amma şəxsi firmalar öz gücləri ilə bu sənədləşmələrdəki boş yerləri doldura bilər – axı onların özlərinin tədqiqat laboratoriyaları var.

– «Kibertroniks»?

– Təkcə o yox. «Maşintreko», «İnteltron» və başqaları. Beləliklə də, bu dövlətlərin hakimiyyət dairələrində çoxları bütün bunların nəticələrindən ehtiyat eləyirlər. Axı nizamsızların gəlişi nəticəsində işsiz qalan adamları kütləvi şəkildə yenidən öyrətməyə dövlətin vəsaitinin olmamasının şəxsi firmalar üçün əhəmiyyəti yoxdur.

– Nizamsızlar? Qəribədir. Mən belə termin eşitməmişəm.

– Bu, sadəcə, bizim istifadə elədiyimiz jarqondur. Hər halda, «homunkulus»dan və ya «süni insan»dan yaxşıdır. Axı bunlar, ümumiyyətlə, insan deyillər – nə süni, nə də təbii.

– Tam dəyərə malik olmamaq baxımından?

– Bilirsinizmi, komandir, mən də bu sahədə mütəxəssis deyiləm, belə ki, bütün istəyimə baxmayaraq, sizə cavab verə bilmərəm. Mənim şəxsi təxminlərim axı heç nəyə dəyməz. Məsələ burasındadır ki, yeni məhsulun ilk istifadəçilərindən biri KOSNAV olacaq.

– Amma axı bu, şəxsi ingilis – Amerika şirkətidir!

– Məhz ona görə. «Kosmikl naviqeyşn» artıq bir neçə ildir maliyyə çətinliyi yaşayır, buna görə də təcili gəlirlərin tələbatına məhdudiyyət qoymayan sosialist ölkələrinin kosmonavtikası bu kompaniya üçün ciddi rəqabət təşkil eləyir – onlar yük dövriyyəsinin böyük hissəsini öz üzərlərinə götürür. Xüsusilə də Yerdənkənar daşınmalarda. Siz, yəqin, bu haqda bilirsiniz?

– Əlbəttə. KOSNAV iflasa uğrayarsa, mən, ümumiyyətlə, kədərlənmərəm. Bir halda ki BMT-nin kosmik tədqiqatlar bazasında internasionallaşdırmağa müvəffəq olublar, onda kosmonavtika ilə də eynən belə eləyə bilərlər. Azından mənə belə gəlir.

– Mənə də. Sizi əmin eləyirəm ki, mən də bunu istəyərdim – heç olmasa, vəzifəm baxımından. Amma bu, gələcək günlərin işidir. Hələliksə, icazənizlə deyim: vəziyyət elədir ki, KOSNAV öz reyslərini təmin eləmək üçün istənilən miqdarda nizamsızları qəbul eləməyə hazırdır – əvvəlcə yalnız yük gəmilərində – sərnişin gəmilərində istifadə eləməyə isə cəmiyyətin geniş təbəqələri tərəfindən boykot ediləcəklərindən qorxurlar. Artıq ilkin danışıqlar aparılır.

– Media da bu haqda susur?

– Danışıqlar qeyri-rəsmidir. Ümumiyyətlə, bəzi qəzetlərdə qeydlər olub, amma KOSNAV onları təkzib eləyib. Formal olaraq onlar haqlıdır. Ən nəhayət, komandir, bu, əsl hüquqi cəngəllikdir. Əslində isə onlar nə beynəlxalq razılaşmaların, nə də öz ölkələrinin qanunlarının işləmədiyi mühitdə hərəkət eləyirlər. Prezident yenə də yaxınlaşan

seçkiləri diqqətə alaraq, konqresdən nəhəng kapitalın sərfini əngəlləyən qanunları keçirməyəcək – o, həmkarların qızğın etirazından qorxur. Budur bax, nəhayət, məsələyə keçirəm: bəzi firmalar mətbuatın, fəhlələrin, həmkarların və s. mümkün ola biləcək etirazlarını qabaqcadan görərək, onların Yerdənkənar gəmilərdə xidmətlərini tədqiq eləmək üçün bizim sərəncamımıza yarıorijinalları verməyi qərara alıb.

– Bağışlayın, «bizim» deyəndə kimi nəzərdə tutursunuz? BMT-ni? Bu, nəsə qəribə görünür.

– Birbaşa BMT yox, əlbəttə. Bizə – demək, YUNESKO-ya. Bu təşkilat elm, mədəniyyət, təhsil məsələləri ilə məşğul olduğundan...

– Məni bağışlayın, amma mən əvvəlkitək heç nə başa düşmürəm. Bu avtomatların təhsillə və ya elmlə nə əlaqəsi ola bilər?



– Amma axı konveyerlərdə istehsal olunan, bu... siz necə dediniz, adamaoxşarlar, məhz ümumbəşəri mühitdə daha çox gözə çarpacaqlar. Məsələ təkcə təmiz iqtisadi nəticələrdə, işsizlik təhlükəsində və bu kimi amillərdə deyil, psixoloji, sosial, mədəni təsirdədir. Yeri gəlmişkən, tam aydınlıq olsun deyə etiraf edirəm ki, bu təklifi biz xüsusi ruh yüksəkliyi ilə qəbul eləməmişik. Rəhbərlik əvvəlcə, ümumiyyətlə, bu təklifdən imtina eləmək istəyirdi. Onda bu firmalar əlavə əsaslar gətirdi, insanlardan ibarət olan komandaya nisbətən, nizamsızlardan ibarət olan komandaya böyük təhlükəsizlik zəmanəti verirlər. Onların reaksiyaları daha sürətlidir, praktik olaraq yorğunluqları və yuxuya tələbatları olmur, xəstəliyə məruz qalmırlar, hətta ciddi zədələnmələrdə belə işləmək üçün böyük ehtiyatlara malikdirlər və üstəgəl yeməyə, havaya ehtiyac duymurlar, tapşırığı hətta kip bağlanmış mühitlərdə, ya da gəminin həddən artıq qızması və bu kimi şərtlərdə də yerinə yetirə bilərlər. Siz özünüz də başa düşürsünüz, bunlar çox ciddi arqumentlərdir – axı ilk plana hansısa şəxsi firmanın gəliri yox, gəminin və yükün təhlükəsizliyi daxil olur. Burada isə kim bilir, hətta BMT belə öz tədqiqat gəmilərinə onları buraxa bilər...

– Başa düşürəm. Amma bu çox təhlükəli haldır. Siz, yəqin ki, buna görə özünüzə hesabat verirsiniz?

– Niyə təhlükəlidir?

– Ona görə ki, təxminən, həmin şeyləri digər peşələr və funksiyalar haqqında da demək olar. Günlərin birində sizin özünüzü də işdən azad eləyə və bu kresloya bir robot əyləşdirə bilərlər.

Direktor gülümsədi, amma elə də əminliklə yox. Buna baxmayaraq, dərhal da ciddiləşdi.

– Bilirsinizmi... mənim əziz komandirim, biz, əslində, söhbətimizdən uzaq düşdük. Amma sizcə, yaranmış bu şəraitdə neyləmək olar? YUNESKO bu cənabların təklifini rədd eləyə bilərdi, amma bu, işin mahiyyətini dəyişmir. Əgər onların avtomatları, həqiqətən də, belə yaxşıdırsa, gec, ya tez, KOSNAV onlardan istifadə eləyəcək, onların arxasınca da digərləri gedəcək.

– Bəs əgər YUNESKO bu firmaların məhsulları üzərindəki texniki nəzarəti öz üzərinə götürərsə, nə dəyişər?

– Amma icazə verin... Söhbət texniki nəzarətdən gedir. Biz istəyirdik... İndi mən hər şeyi sona qədər deyəcəyəm... Biz sizə belə bir ekipajla reys təklif eləmək istəyirdik. Siz komandir ola bilərdiniz. Bu iki-üç həftə ərzində siz onların nəyə qadir olduqlarını araşdıra bilərdiniz. Bununla yanaşı, qeyd eləyirəm ki, bunlar bir-birindən fərqlənən müxtəlif modellərdir. Qayıdandan sonra siz bizə əsas bəndlər üzrə (söhbət peşəkar nöqteyi-nəzərdən getdiyindən) bu və başqa psixoloji peşəkar rəyi təqdim eləyə bilərdiniz. Bu avtomatlar hansı ölçüdə adama uyğunlaşa bilir, onlar təqdim edildiklərinə nə qədər uyğun gəlir, onların üstünlüyü haqqında hansısa bir hiss yaranırmı, ya da əksinə, onların psixi olaraq yararlı olmamaları haqda rəy. Bizim uyğun şöbələrimiz, görkəmli alimlər, psixoloqlar tərəfindən hazırlanmış anketlərlə, materiallarla sizi təchiz eləyərdilər...

– Mənim vəzifəm elə bundan ibarət olacaq?

– Bəli. Siz mənə elə indicə cavab verməyə borclu deyilsiniz. Mənə məlum olduğuna görə, hazırkı anda siz uçmursunuz?

– Mən altı həftəlik məzuniyyətdəyəm.

– Onda deyək... bəlkə, siz iki gün ərzində bunu düşünə bilərsiniz?

– İki sualım da var. Mənim rəyimin nə nəticəsi olacaq?

– Sizin rəyiniz həlledici olacaq!

– Kimin üçün?

– Əlbəttə, bizim üçün. YUNESKO üçün. Əgər iş gedib kosmonavtikanın beynəlmiləlləşməsinə çıxarsa, sizin rəyinizin BMT-nin qanunverici orqanları üçün mühüm yardım olacağına əminəm, hansı ki...

– Üzr istəyirəm. Sizin dediyiniz kimi, bu, yaxın günlərin işidir. Demək, deyirsiniz ki, YUNESKO üçün? Amma axı YUNESKO firma, müəssisə deyil, mən əminəm ki, hansısa firma üçün reklam bürosu açmağa da hazırlaşmır.

– Siz nə danışırsınız! Əlbəttə yox. Biz sizin rəyinizi dünya mətbuatında dərc etdirəcəyik. Əgər nəticələr mənfi olarsa, yəqin ki, KOSNAV-ın bu firmalarla danışığını dayandıracağıq. Belə olan halda da biz təsir göstərəcəyik...

– Bir daha üzr istəyirəm. Bəs əgər nəticələr müsbət olarsa, onda biz danışıqları dayandırmayacağıq və təsir göstərməyəcəyik?

Direktor başıyla təsdiqlədi, öskürdü və nəhayət, gülümsədi.



– Komandir, sizinlə danışarkən mən, az qala, özümü günahkar hiss edirəm. Sanki, mənim vicdanım təmiz deyil... Məgər YUNESKO bu nizamsız robotları kəşf eləyib? Məgər bütün bu vəziyyət – bizim əməyin nəticəsidir? Biz obyektiv hərəkət eləməyə çalışırıq, hamının maraqlarına uyğun olaraq...

– Bu, mənim xoşuma gəlmir.

– Komandir, siz imtina eləyə bilərsiniz. Amma razılaşın ki, əgər biz hamımız belə hərəkət eləsəydik, bu, Ponti Pilatın hərəkəti olardı. Hamısından asanı boyun qaçırmaqdır. Biz axı ümumdünya hakimiyyəti deyilik və heç kimə hansısa maşını istehsal eləməyi qadağan edə bilmərik. Bu, hökumətlərin ayrıca səlahiyyəti daxilindədir – yeri gəlmişkən, sizə deyim ki, onlar qadağan eləməyi sınayıblar, belə cəhdlər, layihələr olub, amma bundan heç nə çıxmayıb! Kilsə də heç nəyə nail ola bilməyib, axı siz kilsənin bu məsələdə tamamilə əks mövqedə dayandığını bilirsiniz.

– Bəli. Qısası, bu, heç kimin xoşuna gəlmir və hamı da bunun necə baş verdiyinə sakitcə baxır.

– Çünki mane olmaq üçün hüquqi əsas yoxdur.

– Bəs nəticəsi? Bu firmaların, onların özlərinin – əgər onlar belə işsizlik yaradarlarsa – ayaqları altında torpaq od tutub yanar...

– Burada mən sizin sözünüzü kəsməyə məcburam. Əlbəttə, sizin dedikləriniz haqdır. Biz hamımız bundan ehtiyat eləyirik. Bununla belə, biz gücsüzük. Amma hər halda, tamamilə də gücsüz deyilik. Biz, heç olmasa, bu sınağı keçirə bilərik. Siz inanmırsınız? Çox yaxşı. Məhz buna görə də siz bizə lazımsınız! Əgər hansısa əks arqumentlər varsa, siz onları daha inandırıcı izah edərsiniz!

– Mən düşünərəm, – Pirks ayağa qalxarkən dedi.

– Siz daha hansısa sualdan danışdınız...

– Siz ona artıq cavab verdiniz. Nəyə görə seçimin mənim üzərimə düşdüyünü öyrənmək istəyirdim.

– Demək, siz bizə cavab verəcəksiniz? Xahiş edirəm, iki gün ərzində cavab verəsiniz. Olar?

– Olar, – Pirks dedi, baş əydi və çıxdı.

Pirks otaqdan çıxanda sarışın katibə qız stolun arxasından ayağa qalxdı.

– Salam, mən...

– Salam. İcazənizlə... mən işdən xəbərdaram. Mən özüm sizi ötürərəm.

– Onlar artıq buradadırlar?

– Bəli, onlar sizi gözləyirlər.

Qız onu uzun, boş dəhlizlə apardı; onun ayaqqabıları metal çəliklər kimi taqqıldayırdı. Soyuq, etinasız səs süni mərmərdən üzlük çəkilmiş geniş dəhlizə yayılırdı. Üzərində alüminium rəqəmlər və lövhələr olan düzbucaqlı qapılar ötüb-keçirdi. Katibə qız əsəbiləşirdi. O, bir neçə dəfə Pirksə qıyqacı baxdı – bu, şux yox, qorxmuş baxışlar idi. Pirks bu baxışları hiss eləyəndə onun hətta bu qıza yazığı gəldi, amma dərhal da bütün bunların tamamilə ağılsız təşəbbüs olduğunu hiss elədi və az qala, özü üçün də belə gözlənilmədən soruşdu:

– Siz onları görübsünüz?

– Bəli. Qısa müddətə... ani olaraq.

– Necədirlər?

– Bəs siz onları görməyibsiniz?

Qız, demək olar ki, sevindi. Sanki, kim onları yaxşı tanıyırdısa, artıq hansısa, ola bilsin, düşmən bir təşkilata daxil olmuşdu və heç bir halda onlara etibar eləmək olmazdı.

– Onlar altı nəfərdirlər. Biri mənimlə danışdı. Bilirsiniz, tamamilə oxşamır! Tamamilə! Əgər mən onunla küçədə rastlaşsaydım, hətta heç ağlıma da gəlməzdi. Amma lap yaxından baxanda onun gözlərində nə isə... və burada, – qız dodaqlarına toxundu.

– Bəs digərləri?

– Onlar hətta otağa da girmədilər, dəhlizdə dayanmışdılar.

Lift onları sürətlə yuxarı aparırdı, mərtəbələri göstərən işıqların qızılı zərrəcikləri divarda ani olaraq dəyişirdi. Qız Pirkslə qabaq-qabağa dayanmışdı və o, qızın qrimin, dodaq və kirpik boyasının köməyi ilə özünü öz fərdiliyinin axırıncı izlərindən necə məhrum elədiyini və müvəqqəti olaraq özünü Lenin dövrünün ya da indiki mövsümün saçları pırtlaşıq olan ulduzuna necə çevirdiyini lazımınca qiymətləndirə bilirdi. Onun qaşları əsməyə başlayanda Pirks qızın süni kirpiklərinin olduğu kimi qala bilməyəcəyindən qorxdu.



– Robotlar ... – qız sinədən gələn pıçıltı ilə dedi və sanki, ilana toxunubmuş kimi diksindi.

Onuncu mərtəbənin otağında altı kişi oturmuşdu.

Pirks içəri daxil olanda onlardan biri – «*Herald tribyun*»un iri bir səhifəsi ilə üzünü örtən robot qəzeti bir tərəfə qoyub ayağa qalxdı və ürəkdən gülümsəyərək ona doğru getdi. Onun arxasınca o birilər də ayağa qalxdılar.

Onlar, təxminən, eyni boyda idilər və mülki geyimdə olan sınaqçı-təyyarəçilərə oxşayırdılar: enlikürək idilər, qum rəngli kostyumlar, ağ köynəklər geymiş, kəpənək qalstuklar vurmuşdular. İkisi açıq-sarışın, biri alov kimi kürən, digərləri isə qarasaç idilər, amma hamısının açıq rəngli gözləri var idi. Pirks yalnız bunları sezə bilmişdi ki, ona yaxınlaşan adam onun əlini möhkəmcə sıxıb dedi:

– Mənim adım Mak-Qirrdir, sizi görməyimə şadam! Mənə bir dəfə sizin komandirlik etdiyiniz «Polluks» gəmisində səyahət eləmək xoşbəxtliyi nəsib olub! Amma yəqin ki, siz məni xatırlamırsınız...

– Yox, – Pirks dedi.

Mak-Qirr jurnal stolunun ətrafında dinməzcə dayanmış digərlərinə tərəf döndü:

– Uşaqlar, bu, sizin komandiriniz Pirksdir. Komandir, bu isə sizin ekipajınızdır: birinci pilot Con Kalder, ikinci

pilot Harri Broun, mühəndis-nüvəçi Endi Tomson, radist-elektronçu Con Barton, bir də neyroloq, kibernetik və həkim Tomas Barns.

Pirks növbə ilə onların əlini sıxdı, sonra hamısı ağırlıqları altında əyilən metal stulları stola yaxın çəkərək əyləşdilər. Bir neçə saniyə sükut hökm sürdü, sonra Mak-Qirr özünün qışqırıqçı bariton səsiylə sükutu pozdu:

– Komandir, hər şeydən əvvəl, mən «Kibertroniks», «İnteltron» və «Nortroniks» firmalarının rəhbərliyi adından YUNESKO-nun təklifini qəbul edərək bizim planlarımıza etimad göstərdiyinizə görə sizə təşəkkürümü bildirmək istəyirəm. Hansısa bir anlaşılmazlıq olmasın deyə, mən dərhal izah eləməliyəm ki, burada iştirak eləyənlərdən bəzilərini dünyaya ataları və anaları gətiriblər, bəzilərini isə yox. Onlardan hər biri öz mənşəyini bilir, amma digərlərinin mənşəyi haqqında heç nə bilmir. Mən sizə onlardan bu haqda soruşmamağı xahiş eləyirəm. Digər məsələlərdə isə siz tamamilə müstəqilsiniz. Onlar, yəqin ki, sizin əmrlərinizi vicdanla yerinə yetirəcək və xidməti vəzifələri vaxtı, eləcə də xidmətdənkənar münasibətlərdə səmimi olacaq, təşəbbüs göstərəcəklər. Lakin onları elə proqramlaşdırıblar ki, onların hər biri «siz kimsiniz?» sualına: «Tamamilə adi insanam» cavabını verəcək. Mən bu haqda dərhal məlumat verirəm, çünki belə cavab yalan yox, bizim ümumi maraqlarımızın diktə elədiyi zəruri...

– Demək, mən onlardan bu haqda soruşa bilmərəm?

– Bilərsiniz. Əlbəttə bilərsiniz. Onda sizdə belə xoşagəlməz bir fikir yaranacaq ki, onlardan bəziləri yalan danışırlar; yaxşısı bundan imtina eləmək deyilmi? Onlar həmişə eyni şeyi deyəcəklər ki, onlar adi adamlardır, amma bu heç də həmişə həqiqət olmayacaq.

– Bəs sizə gələndə? – Pirks soruşdu.

Ani fasilədən sonra hamı qəhqəhə ilə güldü. Hamıdan bərk Mak-Qirr özü gülürdü.

– O! Ay zarafatcılsınız ha! Mən... mənsə – cəmi-cümlətanı «Nortroniks» maşınında balaca bir çarx...

Pirks hətta gülümsəmədən nə vaxt sakitlik olacağını gözləyirdi.

– Sizə elə gəlmirmi ki, mənə kələk gəlirsiniz? – o, nəhayət, soruşdu.

– Bağışlayın! Siz nəyi nəzərdə tutursunuz? Qətiyyən belə şey yoxdur! Müqavilədə «yeni tip komanda» olacağı nəzərdə tutulmuşdu. Orada bu komandanın həmcins olacaqları haqqında bircə söz də yox idi, elə deyilmi? Bilirsinizmi, biz, sadəcə, hansısa... hm... təmiz psixoloji, gerçək olmayan yanlışlığı istisna etmək istədik. Bu ki aydındır! Axı bu həqiqətdir! Reys vaxtı və reys qurtarandan sonra nəticələrə əsaslanaraq siz komandanın bütün üzvləri haqqında özünüzdə rəy yaradın. Onlara hərtərəfli qiymət verin, bizim bu qiymətə hədsiz və hədsiz ehtiyacımız var. Biz yalnız sizin geniş, ədalətli, obyektiv fəaliyyət göstərə bilməyiniz üçün şərait yaratmağa çalışmışıq!

– Sizə ürəkdən minnətdaram! – Pirks dedi. – Hər halda, mən sizin mənə hiylə gəldiyinizi güman eləyirəm. Lakin imtina etmək fikrində deyiləm.

– Afərin!



– Mən elə indicə söhbət eləmək istəyirdim, mənim... – o, bir anlığa tərəddüd elədi, – adamlarımla...

– Bəlkə, siz onların ixtisaslarını müəyyən eləmək istəyirsiniz? Əlbəttə, mən sizin istəklərinizi məhdudlaşdırmaq istəmirəm! İlk atəşi siz açırsınız!

Mak-Qirr pencəyinin üst cibindən siqaret çıxardı və sonunu kəsərək, onu burmağa başladı; bu müddət ərzində isə beş nəfər sakitcə Pirksə baxırdı. Sarışınsaçlıların pilotlar olduğu üzə çıxdı – onlar azacıq bir-birinə oxşayırdılar. Lakin Kalder daha çox skandinavlara oxşayırdı, onun qıvrım saçları günəşdə möhkəmcə yanmışdı. Braun isə lap qızılı saçlı idi; o, bir qədər dəb jurnallarındakı koppuş uşaqlara oxşayırdı, amma onun bu hədsiz gözəlliyi möhkəm çənəsi, istehzalı qrimləmədə olduğu kimi daim əyilən rəngsiz, nazik dodaqları ilə kompensasiya olunurdu. Dodaqlarının sol küncündən bütün yanağı boyu köndələninə ağ çapıq uzanırdı. Pirksin baxışları onun da üzərində dayandı.

– Əla, – o, xeyli gecikmə ilə Mak-Qirrə cavab verərək dedi və elə həmin tonla da, sanki, könülsüz halda çapıqlı kişidən soruşdu:

– Siz Allaha inanırsınız?

Brounun dodaqları titrədi, sanki, gülüşünü, ya da istehzasını boğurdu. O, dərhal cavab vermədi. Onun görünüşü eləydi ki, sanki, üzünü təzəcə, amma tələsik

qırxmışdı: qulağının yanında bir neçə tük qalmışdı, yanaqlarında yaxşı sürtülməmiş pudranın izləri görünürdü.

– Bu... mənim vəzifəmə daxil deyil, – o, alçaq, amma şirin səslə cavab verdi.

Pirksin sualından narazı halda heyrətlənən, siqaretini sümürməyə macal tapan Mak-Qirr duruxdu və gözünü qırparaq siqaretin tüstüsünü gur buraxdı, sanki, demək istəyirdi: «İndi gördünmü? Daş qayaya rast gəldi!»

– Broun, – elə həmin laqeyd tonla da Pirks təkrar dilləndi, – siz mənim sualıma cavab vermədiniz.

– Bağışlayın, komandir. Mən bunun mənim vəzifəmə daxil olmadığı cavabını verdim.

– Sizin rəisiniz kimi sizin vəzifənizə nəyin daxil olduğunu mən müəyyənləşdirirəm, – Pirks pörtdü.

Mak-Qirrin sifətində heyrət ifadəsi canlandı. Digərləri hərəkətsiz halda oturmuşdular, olduqca diqqətlə bu söhbətə qulaq asırdılar – əsl nümunəvi şagirdlər kimi.

– Əgər bu əmrdirsə, – Broun aydınca baritona keçərək yumşaq səslə cavab verdi, – onda mən yalnız izah eləyə bilərəm ki, xüsusi olaraq bu problemlə məşğul olmamışam.

– Belə olan halda sabaha qədər düşünməyinizi xahiş edirəm. Sizin gəmidə olmaq məsələniz bu sualın cavabından asılı olacaq.

– Eşidirəm, komandir.

Pirks birinci pilot Kalderə tərəf döndü, onların baxışları qarşılaşdı. Kalderin gözləri, demək olar ki, rəngsiz idi – otağın nəhəng pəncərələri bu gözlərdə əks olunmuşdu.

– Siz pilotsunuz?

– Bəli.

– Təcrübəniz?

– İkili pilotajın tam kursu və iki yüz doxsan bir saat aztonnajlı gəmilərdə fəzada, on müstəqil enmə, o cümlədən dörd dəfə Aya, iki dəfə Marsa və Veneraya.

Deyəsən, Pirks bu cavabı qulaqardına vurdu.

– Barton, – o, növbəti adama müraciət elədi, – siz elektronçusunuz?

– Bəli.

– Bir saat ərzində neçə rentgenə dözə bilərsiniz?

Bartonun dodaqları titrədi. Bunu hətta təbəssüm də adlandırmaq olmazdı. Bu təbəssüm də dərhal yoxa çıxdı.

– Düşünürəm ki, təxminən, dörd yüz, – o dedi. – Ən çoxu. Sonra isə müalicə olunmaq lazım gələr.

– Dörd yüzdən sonra yox?

– Bilmirəm, amma deyəsən, yox.

– Siz haradansınız?

– Arizonadan.

– Xəstələnibsiniz?

– Yox. Hər bir halda ciddi heç bir xəstəliyim olmayıb.

– Görməniz yaxşıdır?

– Yaxşıdır.

Pirks, əslində, onların nə dediklərinə qulaq asmırdı. O daha çox səslə, onun dəyişməsi ilə, tembriylə, dodaqların hərəkətiylə, sifətin ifadəsiylə maraqlanır və müvəqqəti olaraq belə mənasız ümidə düşürdü ki, bütün baş verənlər – yalnız axmaq zarafatdır, uydurmadır, onunla məzələnmək, onun sadəlövh inamını texnikanın gücüylə lağa qoymaq istəyirlər. Ya da bəlkə, onu bu inamına görə cəzalandırmaq istəyirlər?Axı bunlar ən adi insanlar idilər. Katibə düz deyirmiş – bax demək, qabaqcadan əmələ gələn yanlış fikir bu imiş! Qız Mak-Qirrin onlardan biri olduğunu zənn eləmişdi...



Cənabi-Allahla bağlı elə də ağıllı düşünülməmiş sual nəzərə alınmazsa, söhbət hələlik alınmırdı. Bu sual, yəqin, elə də ağıllı yox, əslinə qalarsa, hətta yöndəmsiz və duzsuz sual idi. Pirks bunu yaxşı başa düşürdü, o, özünü kəmağıllıqla məhdudlaşmış birisi hesab eləyirdi, yalnız öz axmaqlığı sayəsində razılaşmışdı...

Əvvəl olduğu kimi, hamı ona baxırdı, amma ona elə gəlirdi ki, sarısaçlı Tomson və hər iki pilot özlərini hədsiz etinasız aparır, sanki, mühafizəkar qəlbli bu adamın tamamilə öz adi müvazinətini itirdiyini hiss elədiklərini büruzə vermək istəmirdilər. O, yenə də soruşmaq istəyirdi – çünki artıq uzanmağa başlayan sükut komandirinköməksizliyini sübut eləyərək, onun əleyhinə işləyirdi – o, sadəcə olaraq, düşünə bilmirdi. Artıq ağlı yox, ümidsizliyi ona diktə eləyirdi ki, nə isə qeyri-adi, düşüncəsizcəsinə bir iş görməlidir, amma Pirks buna bənzər heç nə eləməyəcəyini əla başa düşürdü. O, özünü rüsvay elədiyini hiss eləyirdi – bu görüşdən imtina eləmək lazım idi. O, Mak-Qirrə baxdı.

– Mən gəmiyə nə vaxt qalxa bilərəm?

– O... İstənilən vaxt, lap elə bu gün.
– Tibbi nəzarət nə yerdədir?
– Bu haqda, lütfən, narahat olmayın. Hər şey artıq yoluna qoyulub.
Mühəndis təkəbbürlə cavab verirdi, azından Pirksə belə gəlirdi.
«Ləyaqətlə uduzmağı bacarmıram», – o düşündü və ucadan dedi:
– Onda tamam. Broundan başqa hamı özünü gəminin üzvü hesab eləyə bilər. Broundan sabaha mənim ona verdiyim suala cavab verməsini xahiş eləyirəm. Mak-Qirr, mənim imzalayacağım kağızlar sizdədir?
– Bəli, amma burada deyil. Direktorluqda. Gedək ora?
– Yaxşı.
Pirks ayağa qalxdı. Hamı onun arxasınca ayağa qalxdı.
– Hələlik, – o baş əydi və birinci çıxdı.
Mühəndis ona liftin yaxınlığında çatdı.
– Siz bizi qiymətləndirmədiniz, komandir...
O artıq yaxşı əhvalda idi.
– Bunu necə başa düşmək lazımdır?
Lift aşağı düşürdü. Mühəndis ehtiyatla siqareti dodağına apardı: külün boz lüləsini yerə tökməməyə çalışırdı.
– Bizim uşaqları ayırmaq elə də asan deyil... – adi adamlardan.
Pirks çiyinlərini çəkdi.
– Əgər onlar mənim hazırlandığım materialdan hazırlanıblarsa, – o dedi, – onda bu adamlar sınaq şüşəsindəki hansısa süni mayalanmanın köməyi ilə dünyaya gəliblər və ya adi yolla, bunun mənə dəxli yoxdur.
– Yox, onlar həmin materialdan deyillər!
– Bəs hansı materialdandırlar?
– Üzr istəyirəm, amma istehsal sirridir.
– Bəs siz özünüz məxsusən kimsiniz?
Lift dayandı. Mühəndis qapını açdı, amma Pirks yerindən tərpənmədi. O cavab gözləyirdi.
– Sizi mənim konstruktor olub-olmamağımmı maraqlandırır? Yox. Mən kommersiya şöbəsində işləyirəm.
– Siz mənim bir neçə sualıma cavab verməyə kifayət qədərmi səlahiyyətlisiniz?

– Əlbəttə, amma burada soruşmayacağınıza ümid eləyirəm?

Beləcə, katibə qız onları konfrans zalına ötürdü. Kreslolar uzun stolun ətrafında iki cərgə düzülmüşdü. Onlar üzərində müqavilə olan qovluqlar qoyulmuş stolun küncündə oturmuşdular.

– Sizi eşidirəm, – Mak-Qirr dedi. Kül onun şalvarının üzərinə töküldü, o, külü çırpdı. Pirks Mak-Qirrin gözlərinə qan sızdığını, dişlərinin hədsiz dərəcədə bərabər ölçüdə olduğunu hiss eləyirdi. «Sünidirlər, – o düşündü, – gənc görünməyə çalışır».

– Deyin görüm, bu adamlar... adam olmayanlar, özlərini adam kimi aparırlar? Yeyirlər? İçirlər?

– Bəli.

– Niyə?

– Görüntünün tam olması üçün. Əlbəttə, ətrafdakılar üçün.



– Amma onda onlar sonra bunları... xaric eləməlidirlər?

– Əlbəttə.

– Bəs qan?

– Bağışlayın, başa düşmədim.

– Onların qanı var? Ürəkləri? Əgər onlar yaralanarlarsa, qan axacaq?

– Onların... qana və ürəyə bənzərləri var, – Mak-Qirr sözləri ehtiyatla seçərək cavab verdi.

– Bunu necə başa düşüm?

– Yalnız yaxşı həkim-mütəxəssis hərtərəfli müayinədən sonra başa düşə bilər...

– Mənsə yox?

– Yox. Əlbəttə, hansısa xüsusi üsuldan istifadə eləməsən.

– Rentgendən?

– Siz fərasətli adamsınız! Amma gəmidə sizin belə cihazınız olmayacaq.

– Peşəkar yanaşmadığınız hiss olunur, – Pirks dedi. – Mən reaktordan nə qədər lazımsa, izotop ala bilərəm, bundan əlavə, gəmidə defektoskopiya[1] üçün cihaz olmalıdır, demək, rentgen, ümumiyyətlə, mənə lazım deyil.

---

[1] Defektoskopiya – material və məmulatda nöqsan olub-olmadığını yoxlama üsulu

– Biz bu cihazlara etiraz eləmirik, əgər siz onlardan başqa məqsədlər üçün istifadə eləməyəcəyinizə söz versəniz.

– Əgər mən razılaşmasam?

Mak-Qirr köks ötürdü və siqareti külqabında əzdi, sanki, birdən qəlbində siqaretə qarşı ikrah hissi oyanmışdı.

– Komandir... siz var qüvvənizlə bizim işimizi çətinləşdirməyə çalışırsınız.

– Bu doğrudur! – Pirks etiraf elədi. – Demək, onların qanı axa bilər?

– Bəli.

– Bu, doğrudan da, qandır? Hətta mikroskopun altında da?

– Bəli, bu, qandır.

– Siz bunu necə eləyibsiniz?

– Təsirlidir, eləmi? – Mak-Qirr ürəkdən gülümsədi. – Mən sizə yalnız ümumi cizgilər haqqında danışa bilərəm, əsasən, dodaqcıqlardan istifadə eləyirik. Dərialtı xüsusi dodaqcıqlardan.

– Bu, insan qanıdır?

– Bəli.

– Niyə?

– Əlbəttə, sizi qandırmaq üçün yox. Başa düşün, axı milyard dollarlıq istehsalı sizin üçün eləməyiblər. Onlar belə görünməli, belə olmalıdırlar ki, heç bir şəraitdə sərnişinlərdən heç kim və ya hansısa digər bir adam onlardan şübhələnməyi ağıllarına da gətirməsin.

– Söhbət sizin «məhsullarınız»ı boykot eləməməkdən gedir?

– Bu haqda da. Həm də münasiblikdən, əlbəttə, psixoloji rahatlıqdan...

– Bəs siz özünüz onları ayırd eləyə bilirsiniz?

– Yalnız onları tanıdığıma görə. Üsullar var... kobud... amma axı siz baltadan istifadə eləməli olmayacaqsınız!

– Bəs psixikaya gələndə?

– Onların beyinləri başlarındadır! Bu, bizim böyük uğurumuzdur! – Mak-Qirr aşkar qürurla dedi. – «İnteltron» indiyə qədər ölçüsü böyük olduğuna görə bədənə yerləşdirilirdi. Biz ilk olaraq onu başa köçürdük!

– Belə deyək, birinci olaraq təbiət...

– Ha-ha! Demək, ikinci. Amma detalları sirdir. Beyin on altı milyard ikili elementli çoxkristallı multistatlardan təşkil olunub.

– Bəs bu robotlar nəyə qadirdir – bu da sirdir?

– Siz nəyi nəzərdə tutursunuz?

– Məsələn, onu ki, onlar da aldatmağı bacarırlar? Hansı hədlərdə onlar aldadırlar?.. Onlar öz üzərlərində nəzarəti, buna uyğun olaraq da vəziyyətə nəzarəti itirə bilərlərmi?

– Bəli. Bütün bunlar mümkündür.

– Niyə?

– Ona görə ki, bu qaçılmazdır. Obrazlı desək, neytron və ya kristal sistemlərə daxil edilən tormozlamanın hamısı nisbidir, onları götürmək və ya zəiflətmək olar. Mən bunu ona görə deyirəm ki, siz həqiqəti bilməlisiniz. Əlbəttə, siz bu məsələnin yer aldığı ədəbiyyatla, heç olmasa, azacıq da tanışsınızsa, onda sizə məlum olmalıdır ki, ağıl cəhətdən insana bərabər olan robot yalan deyə və aldada bilməz – belə şey mümkün deyil! Ya insanın tam dəyərli surətini yaratmalısan, ya da kukla – başqa heç nə yaratmaq olmaz. Üçüncü yol yoxdur.



– Bu varlıqlar mürəkkəb vəziyyətin müəyyən hədlərində hərəkət eləməyə qadirdirlər, bu bacarıqla elə bu həddə olan digər vəziyyətlərdə də işləməyə qadirdirlər?

– Bəli. Əlbəttə, bu, rentabelli deyil. Ən azından, indi yox. Psixi dəyərlilik – hələ xaricdən insana bənzərliyi demirəm – olduqca baha başa gəlir. Sizin aldığınız modellər çox az sayda istehsal olunub, ona görə də onlar rentabelli deyil. Onlardan hər birinin dəyəri səsdən iti uçan bombardmançı təyyarədən bahadır!

– Belə de!

– Əlbəttə, qabaqcadan aparılan tədqiqatların da dəyəri bura daxil edilir. Bazar üçün biz bu avtomatları konveyerdə buraxa bilərik və hətta onları təkmilləşdirməyə də çalışırıq, hərçənd bu artıq mümkün deyil. Biz sizə əlimizdə olan ən yaxşılarını veririk. Buna görə də insanlara nisbətən onlarda analoji vəziyyətlərdə hansısa əsəb pozulması ehtimalı prinsip etibarilə müstəsna deyil, az da olsa, mümkündür.

– Belə təcrübələr keçirilib?

– Əlbəttə!

– Adamlardan da nümunə kimi istifadə olunub?

– Belə də olub.
– Qəza vəziyyətləri? Məhvolma təhlükəsi?
– Məhz bu.
– Bəs nəticəsi?
– İnsanlar daha az etibarlıdırlar.
– Bəs onların aqressivliyi?
– Sizi onların insanlara münasibəti maraqlandırır?
– Təkcə o yox.
– Arxayın ola bilərsiniz. Onların aqressiv potensialı amortizasiya eləyən xüsusi inhibitorları[1] var.
– Həmişə?
– Yox, bu mümkün deyil. Beyin ehtimal sistemidir, bizim beynimiz də o cümlədən; ehtimalın müəyyən vəziyyətini artırmaq olar, amma heç vaxt tam əmin olmaq olmaz. Hər halda, onlar bu sarıdan insanları üstələyirlər!
– Bəs əgər mən onlardan kiminsə başını yarmaq istəsəm, onda nə baş verər?
– O müdafiə olunacaq.
– Məni öldürməyə çalışacaq?
– Yox, o, özünümüdafiə ilə məhdudlanacaq.
– Əgər yeganə mümkün müdafiə hücum olarsa?
– Onda o, sizə hücum eləyəcək!
– Verin görüm müqavilənizi, – Pirks dedi.
Sakitlikdə peronun cırıltısı eşidilirdi. Mühəndis blankları yığdı və qovluğunda gizlətdi.
– Siz ştatlara qayıdırsınız?
– Hə, sabah.
– Öz rəislərinizə deyə bilərsiniz ki, mən onların ən pis hərəkətlərini üzə çıxaracağam, – Pirks dedi.
– Əlbəttə! Elə biz də məhz buna ümid eləyirik! Çünki hətta bu pis hallarında da onlar insanlardan yaxşıdırlar! Yalnız bax...
– Siz nəsə demək istəyirdiniz...
– Komandir, siz cəsarətli adamsınız. Amma... sizin xüsusi maraqlarınız... sizə ehtiyatlı olmağı məsləhət görürəm.
– Onlar məndən yapışmasınlar deyə? – Pirks ixtiyarsız halda gülümsədi.

---

[1] İnhibitorlar – kimyəvi reaksiyaları ləngidən və ya onları dayandıran cisim

– Yox. Siz cavab verməyəsiniz deyə. Çünki hər şeydən əvvəl birinci olaraq insanlar təslim olurlar. Adi, yaxşı, namuslu oğlanlar. Başa düşürsünüz?

– Başa düşürəm, – Pirks cavab verdi. – Mənim getmək vaxtımdır. Mən bu gün gəmini də qəbul eləməliyəm.

– Burada, damda mənim vertolyotum var, – Mak-Qirr ayağa qalxaraq dedi. – Sizi aparımmı?

– Yox, sağ ol. Metroyla gedərəm. Risk eləməyi sevmirəm, bilirsiniz... Deməli, siz öz rəislərinizə mənim hansı məkrli planlarım olduğu haqqında məlumat vermək niyyətindəsiniz?

Mak-Qirr cibində növbəti siqareti axtarmağa başladı.

– Sizə deməliyəm ki, özünüzü çox qəribə aparırsınız. Siz onlardan məxsusən nə istəyirsiniz? Onlar insan deyillər, heç kim bunu təsdiq eləmir. Bunlar əla mütəxəssislərdir və həmçinin, həqiqətən də, ləyaqətli adamlardır. Sizi əmin eləyirəm! Onlar sizin üçün hər şeyi eləyəcəklər!



– Mən onların daha böyük işlər görə bilməsinə çalışacağam, – Pirks cavab verdi.

Pirks, həqiqətən də, Brouna cənabi-Allahla bağlı sualı bağışlamadı və növbəti gün bilərəkdən ona zəng elədi – YUNESKO-da ona öz pilotunu tapa bilmək üçün telefon nömrəsini vermişdilər. Pirks hətta bu nömrəni yığanda onun səsini də tanıdı.

– Mən sizi gözləyirdim, – Broun dedi.

– Siz nə qərara gəldiniz? – Pirks soruşdu. Bu zaman onun qəlbində qəribə bir ağırlıq var idi. Mak-Qirrin kağızlarını imzalamaq asan idi. Onda ona elə gəlmişdi ki, öhdəsindən gələcək. İndisə o artıq buna elə də əmin deyildi.

– Mənim vaxtım az olub, – Broun özünün aram, xoş səsiylə dedi. – Buna görə də mən yalnız bir şey deyə bilərəm: məni mümkün olan gedişlərə öyrədiblər. Mən şansları hesablayır və buna görə də hərəkət eləyirəm. Hazırkı halda isə – doxsan doqquz faiz «yox» ehtimalı üzərində dayanıram, hətta doxsan doqquz tam yüzdə doxsan doqquz faiz.... Amma yüzdə bir ehtimalla «hə».

– Yəni Allah var?

– Bəli.

– Yaxşı. Digərləri ilə birlikdə gələ bilərsiniz. Görüşənə qədər.

– Hələlik, – yumşaq bariton səs cavab verdi və telefon xətdən ayrılaraq cingildədi.

Məlum deyil ki, nəyə görə Pirks raketodroma gedəndə bu söhbəti xatırladı. Kimsə kapitanlıqdakı bütün rəsmiyyəti yoluna qoymuşdu – bəlkə, YUNESKO, bəlkə də, onun üçün komanda «hazırlayan» firma. Hər ehtimala qarşı adi sanitar nəzarəti olmadı və heç kim onun «adamlarının» sənədlərini yoxlamadı, start isə saat üçə on beş dəqiqə qalmışa təyin olunmuşdu, yəni hərəkətin az olduğu saata. Saturn üçün üç böyük süni peyk artıq lyuklarda idi. «Qoliaf» ortatonnajlı gəmi idi – haradasa altı min ton çəkisi vardı – amma cəmisi iki il bundan əvvəl istifadəyə verilmişdi və yüksək səviyyədə avtomatlaşdırılmış təsərrüfatı var idi. Onun sürətli neytronları olan reaktoru on kubmetr yer tuturdu, yəni çox az yer, amma hər cür istilik dəyişməsindən xaliydi; nominal gücü isə qırx beş milyon at gücündə idi. Qısamüddətli sürətlənmədə isə maksimum yetmiş milyon at gücündə olurdu.

Əslində, Pirks onun «adamlarının» Parisdə neylədiklərini bilmirdi, onlar oteldəmi yaşayırdılar, ya hansısa firma onlar üçün otaq kirayələmişdi (onda hətta belə bir müdhiş fikir yarandı ki, mühəndis Mak-Qirr onları «söndürüb» və bu iki günü yeşiklərdə qablaşdıraraq saxlayıb). O hətta onların raketodroma necə gəlib çıxmalarını da bilmirdi.

Onlar kapitanlıqda ayrıca otaqda gözləyirdilər və onların hər birinin çamadanları, hansısa bağlamaları və dəstəyindən adları yazılmış lövhə asılmış balaca qutuları var idi. Bu qutulara baxanda Pirksin başına səfeh fikirlər gəlirdi ki, yəqin, bu qutularda fransız yiv açarları, tualet yağları və bu kimi şeylər var. Amma onun gülməyə halı yox idi; onlarla salamlaşıb, kapitanlığa özünün səlahiyyət kağızını və start hazırlığı üçün zəruri olan kağızları təqdim elədi, sonra isə təyin olunmuş vaxta iki saat qalmış onlar yeganə projektorla işıqlandırılan plitə döşənmiş meydançaya çıxdılar və bir-birinin arxasınca qar kimi ağappaq olan «Qoliaf»a doğru getdilər. Gəmi bir balaca təzəcə açılıb çıxarılmış kəllə qəndi xatırladırdı.

Start heç bir çətinlik törətmədi. «Qoliaf»ı, demək olar, heç bir çətinlik olmadan havaya qaldırmaq olardı – yalnız

avtomat və yarımavtomat qurğulara proqramı daxil eləmək lazım gəlirdi. Heç yarım saat keçməmişdi, onlar isə Yer kürəsinin fosfor kimi ağ işıq verən şəhərlərini artıq arxada buraxmışdılar, bu zaman Pirks ekranlara baxdı. Bu, əsrarəngiz mənzərəydi – dan yeri söküləndə günəş öz şüaları ilə atmosferi darayır və nəhəng bir oraq kimi şölələnir. Pirks kosmosdan Yeri dəfələrlə müşahidə eləmişdi, amma bu, onda heç bir təəssürat yaratmamışdı. Bir neçə dəqiqə keçəndən sonra ağzına qədər işləyən informasiya maşınları (Pirks onları «kosmosun elektron bürokratiyası» adlandırırdı) ilə, büsbütün siqnalların cikkiltisi və ciyiltisi ilə dolu olan fəzayla irəliləyən sonuncu naviqasiya peykinin yanından keçərək ekliptikanın üzərinə çıxdılar. Onda Pirks birinci pilota sükanın yanında qalmağı tapşırdı, özü isə kayutuna getdi. Heç on dəqiqə keçməmişdi ki, qapının döyüldüyünü eşitdi.



– Girin!

Broun içəri keçdi. O, səylə qapını bağladı, çarpayının üzərində oturmuş Pirksə yaxınlaşdı və astadan dedi:

– Mən sizinlə danışmaq istəyirdim.

– Lütfən, əyləşin.

Broun özünü stulun üzərinə saldı, amma görünür, onları ayıran məsafə ona olduqca çox göründü, yaxına gəldi, bir müddət susdu, başını aşağı saldı, sonra birdən birbaşa Pirksin gözlərinin içinə baxıb dedi:

– Mən sizə bir az məlumat vermək istəyirəm. Amma mən bunları sirr kimi saxlamağı sizdən xahiş eləməyə məcburam. Mənə söz verin ki, bunları heç kimə deməyəcəksiniz.

Pirks kirpiklərini qaldırdı.

– Sirr? – o, bir neçə saniyə düşündü. – Yaxşı, sizə söz verirəm ki, heç kimə deməyəcəyəm, bircə canlıya belə, – o, nəhayət, cavab verdi. – Sizi eşidirəm.

– Mən insanam, – Broun dedi və dayanıb Pirksin gözlərinə baxdı, sanki, bu sözlərin ona necə təsir eləyəcəyini öyrənmək istəyirdi.

Amma Pirks kirpiklərini yarıyadək açaraq, belini üzərinə ağ penoplast[1] çəkilmiş divara söykəyib yerindən tərpənmirdi.

---

[1] P e n o p l a s t – çoxməsaməli plastik kütlə

– Mən bunu ona görə sizə deyirəm ki, sizə kömək eləmək istəyirəm, – Broun yenidən dilləndi, sanki, əvvəlcədən düşünülmüş mövzunu danışırdı. – Mən öz xidmətimi təklif eləyəndə söhbətin nədən getdiyini bilmirdim. Mənim kimilər, yəqin, çox idi, amma biz bir-birimizlə tanış ola bilməyək, hətta bir-birimizi görə bilməyək deyə bizi ayrılıqda qəbul elədilər. Mənim neyləməli olacağım isə bütün uçuşlardan, sınaq və testlərdən sonra mən qəti olaraq seçiləndə məlum oldu. Mən onda vəd verəsi oldum ki, qətiyyən heç nə danışmaram. Mənim sevdiyim qız var, biz evlənmək istəyirik, amma maliyyə çətinlikləri var idi, bu iş isə məni qeyri-adi dərəcədə təmin eləyirdi, çünki mənə dərhal səkkiz min verdilər, digər səkkiz mini isə reysdən qayıdandan sonra alacağam – reysin nəticəsinin necə olacağından asılı olmayaraq. Mən hamısını olduğu kimi sizə danışıram ki, siz mənim bu məsələdə təmiz olduğumu biləsiniz. Düzünü desəm, mən əvvəlcə bu oyunda nə oynanılacağını dərk eləmirdim. Əcaib eksperiment, vəssalam – əvvəlcə mən belə düşünürdüm. Sonra isə bu, mənim daha az xoşuma gəlməyə başladı. Nəhayət ki, hansısa adi, elementar ümumbəşəri həmrəylik olmalıdır. Necə olsun, mən insanlıq maraqlarının əksinə olaraq susmalıyammı? Mən qərara aldım ki, buna haqqım yoxdur. Məgər siz belə düşünmürsünüz?

Pirks susmaqda davam eləyirdi, buna görə də Broun yenidən danışdı, amma daha elə də əminliklə danışmırdı.

– Mən bu dördlükdən heç kimi tanımıram. Bizi həmişə ayrılıqda saxlayıblar. Hər birimizin ayrıca otağı olub, ayrıca hamamı, öz gimnastika salonu, biz hətta yemək vaxtı da görüşməmişik, yalnız axırıncı üç günü, Avropaya getmək ərəfəsində bizə bir yerdə yemək yeməyə icazə veriblər. Buna görə də mən onlardan hansının insan olub-olmadığı haqqında sizə heç nə deyə bilmərəm. Mən müəyyən heç nə bilmirəm. Lakin şübhələnirəm...

– Bir dəqiqə, – Pirks onun sözünü kəsdi. – Nəyə görə mənim Allahla bağlı sualıma bu mövzuda düşünməyin sizin vəzifənizə aid olmadığı cavabını verdiniz?

Broun döşəməni cızdığı ayaqqabısının burnuna baxıb, ayaqlarını tərpədərək stulda qurcuxdu və sakitcə cavab verdi:

– Ona görə ki, mən onda hər şeyi sizə danışmağı qərara aldım və... bilirsinizmi, bu, necə olur... oğrunun başında papaq yanır. Mən Mak-Qirrin necəsə təsadüfən mənim niyyətimdən xəbər tutmasından qorxmuşam. Buna görə də siz məndən soruşanda elə cavab verdim ki, guya, mən təntənəli surətdə sirri qorumaq niyyətindəyəm və yəqin ki, sizə mənim həqiqətən kim olduğumu aydınlaşdırmağa imkan verməyəcəyəm.

– Demək, siz Mak-Qirr orada iştirak elədiyinə görə qəsdən belə cavab verdiniz?

– Bəli.

– Bəs siz Allaha inanırsınız?

– İnanıram.

– Düşünürdünüz ki, robot inanmamalıdır?

– Hə də.



– Bəs əgər siz «inanıram» desəydiniz, sizin kim olduğunuzu müəyyənləşdirmək asanmı olacaqdı?

– Bəli. Məhz belə də oldu.

– Amma robot da axı Allaha inana bilər, – Pirks susub, sanki, ötəri, başdansovdu dedi; belə ki, Broun hətta gözlərini bərəltdi.

– Siz necə dediniz?

– Siz hesab eləyirsiniz ki, bu mümkün deyil?

– Bu, heç vaxt mənim ağlıma belə gəlməzdi.

– Yaxşı, hələlik bəsdir. Bu, indi o qədər də əhəmiyyət kəsb eləmir. Siz özünüzün hansısa şübhənizdən danışırdınız...

– Bəli. Mənə elə gəlir ki, bu qara... Barns adam deyil.

– Nəyə görə sizə belə gəlir?

– Bunlar hamısı xırda məsələlərdir, az qala, hiss edilməyəndir, amma cəmdə nəsə verirlər... Hər şeydən əvvəl, nə vaxt ki o, ayaq üstə dayanır, ya da oturur, tərpənmir. Heykəl kimi. Sizsə heç bir insanın uzun müddət dəyişməyən vəziyyətdə dayana bilməyəcəyini bilirsiniz. Onun üçün dayanmaq münasib olmayanda ayaqları keyiyəcək, ixtiyarsız halda tərpənəcək, bir ayağını götürüb, o birisini qoyacaq, əlini üzünə aparacaq. Barns isə birbaşa donub-qalır.

– Həmişə?

– Yox. Bax məhz həmişə yox. Bu, mənə xüsusilə qəribə görünür.

– Nəyə görə?
– Mənə elə gəlir, o, xüsusilə bu haqda düşünəndə bu hiss olunmayan, sanki, ixtiyarsız hərəkətləri eləyir, yaddan çıxaran kimi isə donub-qalır. Bizdə isə məhz əksinədir, biz məhz tərpənməz qalmaq üçün fikrimizi cəmləşdiririk.
– Bunda nəsə var. Daha neyləyir?
– O, hər şeyi yeyir.
– Necə yəni «hər şeyi»?
– Nə verirlərsə – hamısını. Onun üçün qətiyyən fərqi yoxdur. Mən bunu dəfələrlə qeyd eləmişəm və səyahət vaxtı biz Atlantikanın üzərindən uçanda da, hələ Ştatlarda aerodromdakı restoranlarda da – o, tamamilə etinasız halda nə verirlərsə yeyir; axı hər bir adam, adətən, hansısa sevdiyi yeməkləri yeyir.
– Bu, sübut deyil.
– Yox, şübhəsiz, yox. Amma birincinin əvəzinə, bilirsinizmi... Sonra daha bir iş də var.
– Hə?
– O, məktub yazmır. Mən buna yüz faiz əmin deyiləm, amma mən, məsələn, Bartonun poçt qutusuna məktub atdığını görmüşəm.
– Bəs sizə məktub yazmağa icazə verirlər?
– Yox.
– Mən sizin müqavilənin şərtlərinə diqqətlə əməl elədiyinizi görürəm, – Pirks donquldandı. O, çarpayının üzərində qəddini düzəltdi və üzünü Brounun üzünə yaxınlaşdırıb tələsmədən soruşdu: – Nəyə görə siz verdiyiniz sözə əməl eləmədiniz?
– Necə? Siz necə dediniz? Komandir!
– Siz ki öz həqiqi kimliyinizi sirr kimi saxlayacağınıza söz vermişdiniz.
– Hə! Bəli. Mən söz vermişdim. Lakin zənnimcə, elə vəziyyətlər olur ki, insanın təkcə buna haqqı olmur, amma haqqı olduğu kimi hərəkət eləməyə məcbur olur.
– Məsələn?
– Məhz indi belə vəziyyətdir. Onlar metal kuklaları götürüb, onlara plastik yapışdırıblar, yanaqlarını qızardıblar, nişanlanmış kartlar kimi adamlara qatıb-qarışdırıblar və bu yolla böyük pullar qazanmaq istəyirlər. Mən hesab eləyirəm ki, hər bir ləyaqətli adam mənim kimi hərəkət

eləyərdi – məgər sizə daha başqa heç kim müraciət eləməyib?

– Yox. Siz birincisiniz. Amma biz yalnız indicə start götürmüşük... – Pirks dedi. O, bu sözləri tamamilə etinasız halda dedi, lakin onun dedikləri istehzadan da məhrum deyildi, amma Broun hətta bunu sezsə də, heç nə ilə büruzə vermədi.

– Mən bu reys ərzində bundan sonra da sizə kömək eləməyə çalışacağam... Mən öz tərəfimdən sizin zəruri saydığınız hər şeyi eləyəcəyəm.

– Niyə?

Broun heyrətlənmiş halda kukla kirpiklərinə oxşayan kirpiklərini qırpdı.

– Necə yəni niyə? Sizin adamları adam olmayanlardan ayırmağınızı asanlaşdırmaq üçün.

– Broun, siz ki bu səkkiz mini alıbsınız.



– Bəli. Nə olsun? Məni pilot kimi tutublar. Mən də pilotam ki varam. Əməkhaqqı da pis deyil.

– İkihəftəlik uçuşunuzun sonunda Yerə qayıdandan sonra yerdə qalan səkkiz mini də alacaqsınız? Belə reys üçün heç kimə on altı min vermirlər – nə komandirə, nə birincidərəcəli kosmik pilota, nə də naviqatora. Heç kimə. Deməк, bu pulları siz susmağınız üçün alıbsınız. Mənə münasibətdə, digərlərinə münasibətdə – heç olmasa, sizi başqa rəqabət aparan firmalar yoldan çıxarmasınlar deyə.

Brounun gözəl sifətində güclü bir həyəcan canlandı.

– Demək, hələ bir bunları sizə danışmağa gəldiyim üçün məni danlayırsınız da?!

– Yox. Mən sizi heç nədə məzəmmət eləmirəm. Siz də bildiyiniz kimi hərəkət eləyirsiniz. Sizdə İƏ necədir?

– İntellektuallıq əmsalı? Yüz iyirmi.

– Bu, bəzi adi şeyləri ayırd eləyə bilmək üçün kifayətdir. Deyin görüm, sizin Barnsla bağlı mənimlə bölüşdüyünüz şübhələrinizin mənə nə xeyri ola bilər?

Gənc pilot ayağa qalxdı.

– Komandir, üzr istəyirəm. Əgər belədirsə – anlaşılmazlıq olub. Mən yaxşı olmasını istəyirdim. Amma bir halda ki siz hesab eləyirsiniz mən... bir sözlə, xahiş edirəm, bunları unudasınız... Yalnız yadınızda saxlayın...

O, Pirksin gülümsədiyini görüb susdu.

– Əyləşin! Əyləşin görüm! Hə!

Broun əyləşdi.

– Niyə sona qədər danışmırsınız? Mən nəyi yadda saxlamalıyam? Aramızdakı söhbəti heç kimə danışmayacağıma söz verdiyimi? Doğrudur? Əgər mən də, öz növbəmdə, qərara alsam ki, bu haqda məlumat verməyə haqqım var? Sakit ol! Komandirin sözünü kəsmək olmaz. Bax görürsünüz, bütün bunlar elə də sadə deyil. Siz mənim yanıma inanaraq gəlibsiniz və mən bu inamı qiymətləndirirəm. Amma... inam – bir işdir, sağlam düşüncə – başqa bir iş... Deyək ki, mən indi yəqin bilirəm, siz kimsiniz, Barton kimdir. Bu, mənə nə verəcək?

– Di... bu artıq sizin işinizdir. Siz bu reysdən sonra yararlığını yoxlamalısınız...

– Bax məhz bunu! Hər birinin yararlı olmasını. Amma Broun, siz axı, hər halda, mənim yalan yazacağımı düşünmürsünüz? Mənim pislərə yox, adam olmayanlara minus yazacağımı.

– Bu, mənim işim deyil, – bu söhbət ərzində stulda qurcuxan pilot səsini uzadaraq dedi.

Pirks ona elə baxdı ki, pilot susdu.

– Siz özünüzü yalnız öz düymələrindən başqa heç nəyi görməyən yefreytor yerinə qoymayın. Əgər siz insansınızsa və insanlarla həmrəysinizsə, onda bütün bu olayları qiymətləndirməyə cəhd göstərməli və öz məsuliyyət hissinizi dərk eləməlisiniz.

– Necə yəni «əgər»? – Broun diksindi. – Siz mənə inanmırsınız? Demək, siz... demək, siz düşünürsünüz...

– Eh, yox, nə danışırsınız! Sadəcə, söz belə alındı, – Pirks tələsik onun sözünü kəsdi. – Mən sizə inanıram. Əlbəttə, mən sizə inanıram. Siz öz sirrinizi mənə verdiyiniz üçün mən sizin hərəkətlərinizi əxlaqi nöqteyi-nəzərdən qiymətləndirməyə hazırlaşmıram, yalnız sizdən xahiş edirəm ki, bundan sonra da mənimlə işdənkənar vaxtlarda əlaqə saxlayın və gördüyünüz hər şey haqqında mənə məlumat verin.

– Mən artıq heç nə başa düşmürəm, – Broun dedi və qeyri-ixtiyari olaraq köks ötürdü. – Əvvəlcə siz məni məzəmmətlədiniz, indisə...

– Bunlar ayrı-ayrı məsələlərdir, Broun. Bir halda ki siz mənə deyilməsi lazım olmayanları dediniz, indi geri

çəkilmək mənasızdır. Əlbəttə, pulla bağlı söhbət başqa məsələdir. Bəlkə, doğrudan da, demək lazım imiş. Amma mən sizin yerinizə olsaydım, bu pulları götürməzdim.

– Necə? Amma... amma, komandir... – Broun ümidsizlik içində etiraz eləmək üçün söz axtarırdı və nəhayət, tapdı: – Onlar dərhal mənim müqaviləni pozduğumu başa düşərdilər! Hələ bir məni məhkəməyə də verərdilər...

– Bu, sizin işinizdir. Mən demirəm ki, siz bu pulları onlara verin. Mən sizə susacağıma söz vermişəm və bu işə qarışmağa hazırlaşmıram. Mən yalnız dedim – tamamilə şəxsi və qeyri-rəsmi olaraq – sizin yerinizdə olsaydım, neylərdim. Amma siz mən deyilsiniz, mənsə siz deyiləm və məsələ də bundadır. Siz daha nəsə demək istəyirdiniz?

Broun başını yırğaladı, ağzını açıb nəsə demək istəyirdi ki, tez də ağzını yumdu: söhbətin nəticəsindən son dərəcə məyus olduğu hiss olunurdu. Beləcə, heç nə demədən mexaniki olaraq mil dayandı və kayutdan çıxdı.



Pirks dərindən ah çəkdi. «Mən əbəs yerə çərənlədim: «Əgər siz insansınızsa...» – o, qüssələnmiş halda düşündü. – Bu nə şeytan oyunudur? Bu Broundan şeytan özü də baş çıxartmaz. Ya o insandır, ya da bütün bunlar məni dolaşdırmaq üçün hiyləgərcəsinə düşünülmüş tələdir və həm də eyni zamanda, yoxlayıb görsünlər mən onları tanımaq üçün müqaviləyə zidd olaraq hansısa üsullardan istifadə eləmirəm ki... Hər bir halda, deyəsən, bu çəkişmənin birinci hissəsini pis keçirmədim! Əgər Broun, doğrudan da, insandırsa, mənim ona dediklərimdən sonra o, özünü öz boşqabında hiss eləməməlidir. Əgər insan deyilsə... Belə olan halda da mən ona xüsusi heç nə deməmişəm. Əcəb işdir! Cəncəl işə düşmüşəm!»

Pirks yerində otura bilmirdi, kayutda bir küncdən digərinə doğru addımlamağa başladı. Siqnal vızıldadı; bu, siqnal köşkündən Kalder idi, onlar istiqamətə dəyişikliyi və gecə növbəsi üçün vaxtı razılaşdırdılar, sonra Pirks yenidən əyləşdi və baxışlarını boşluğa dikdi, qəddarcasına qaşlarını çatdı və kim bilir, nə haqda düşünməyə başladı. Bu zaman kimsə qapını döydü. «Bəs bu kimdir?» – o düşündü.

– Girin! – ucadan dedi.

Barns kayuta daxil oldu; o, neyroloq, həkim və kibernetik idi.

– Olar?

– Lütfən. Əyləşin.

Barns gülümsədi.

– Mən gəlmişəm sizə deyəm ki, mən insan deyiləm.

Pirks stulla birlikdə cəld ona tərəf döndü.

– Necə, bağışlayın? Necə yəni...

– Yəni mən insan deyiləm. Yəni bu təcrübədə mən sizin tərəfinizdəyəm.

Pirks nəfəsini tutdu.

– Əlbəttə. Sizin bütün dedikləriniz öz aramızda qalmalıdır? – o soruşdu.

– Bunu mən sizin öhdənizə buraxıram. Mənim üçünsə fərqi yoxdur.

– Necə?

Barns yenidən gülümsədi.

– Çox sadəcə. Mən eqoist təsəvvürləri əsas götürürəm. Əgər nizamsızlar haqqında sizin fikriniz müsbət olacaqsa, onda onların istehsalının ardıcıl reaksiyası başlayacaq. Bu daha çox həqiqətə uyğundur. Mənim kimilər kütləvi olaraq yayılmağa başlayacaqlar və həm də təkcə kosmik gəmilərdə yox. Bu, insanlar üçün məhvedici nəticələrə səbəb olacaq – ayrı-seçkiliyin yeni növ müxtəlifliyi, qarşılıqlı nifrət yaranacaq... Mən bunu qabaqcadan görürəm, amma təkrar edirəm: hər şeydən öncə şəxsi səbəbləri əldə əsas tuturam. Əgər təkcə mən olaramsa, əgər mənim kimilərdən iki və ya on nəfər olarsa, bunun zərrəcə belə ictimai əhəmiyyəti olmayacaq – biz, sadəcə olaraq, kütlənin içində əriyəcək, görünməyəcək və hiss olunmayacağıq. Mənim qarşımda... bizim qarşımızda, hər bir insanın qarşısında olduğu kimi, perspektivlər, insanlarda olmayan bir sıra xüsusi qabiliyyətlər, intellektin son dərəcə əhəmiyyətli dəyişikliyi olacaq. Biz yalnız kütləvi istehsalımız olmayacaq halda çox şeyə nail ola bilərik.

– Bəli... burada nəsə var... – Pirks ağır-ağır dedi. Onun başında yüngülcə qarmaqarışıqlıq var idi. – Amma sizin üçün mənim bu haqda danışıb-danışmayacağımın niyə fərqi yoxdur? Məgər siz qorxmursunuz ki, firma...

– Yox. Qətiyyən qorxmuram. Boş şeydir, – Barns mühazirə oxuyurmuş kimi elə həmin sakit səsiylə cavab verdi. Komandir, mən son dərəcə bahalıyam. Bax bura,

– o, əliylə sinəsini döyəclədi, – milyard dollar pul qoyublar. Siz elə düşünürsünüz ki, hirslənən fabrikaçı məni yivlərə ayırmaq göstərişini verər? Əlbəttə, mən bunu məcazi mənada deyirəm, mənim heç bir yivim yoxdur... Məlum işdir, onlar qəzəblənərlər... amma bundan mənim vəziyyətim zərrəcə də dəyişməz. Yəqin ki, mən bu firma ilə işləyəsi olacağam – hə, nə olsun?! Mən hətta başqa yerdənsə orada işləməyə üstünlük verirəm – orada mənim qayğıma daha yaxşı qalırlar... xəstələnəndə. Onların məni təcrid edəcəklərini də düşünmürəm. Məxsusən nəyə görə? Güc tətbiq eləmək onların özləri üçün çox kədərli sonluqla nəticələnə bilər. Axı siz medianın hansı qüdrətə...

«O, şantaj eləmək haqqında düşünür», – ani olaraq Pirks düşündü. Ona elə gəlirdi yuxu görür. Amma olduqca diqqətlə qulaq asmaqda davam eləyirdi.



– Beləliklə, indi sizin nizamsızlar haqqında fikrinizin mənfi olmasını mənim niyə istədiyimi başa düşürsünüz?

– Bəli. Başa düşürəm. Bəs siz...deyə bilərsinizmi, komandadan daha kim...

– Yox. Yəni mənim əminliyim yoxdur, təxminlərimlə isə sizə kömək eləməkdən çox, ziyan vura bilərəm. Yalan informasiya almaqdansa, heç almamaq yaxşıdır.

– Bəli... hm. Hər bir halda, siz bunu nədən ötrü eləmiş olsanız belə, sizə minnətdarlığımı bildirirəm. Bəli. Minnətdaram. Bəs... siz bununla bağlı olaraq özünüz haqda nəsə deyə bilərsinizmi? Mən mənə kömək eləyə biləcək müəyyən baxışları nəzərdə tuturam...

– Mən sizi nəyin maraqlandırdığını təxmin eləyirəm. Amma öz quruluşum haqqında heç nə bilmirəm, eynən sizin öz bədəninizin anatomiyasını və fiziologiyasını bilmədiyiniz kimi... ən azından biologiya haqqında hansısa dərsliyi oxuyana qədər. Hərçənd göründüyü kimi, konstruksiya tərəfi sizi az maraqlandırır – söhbət əsasən psixikadan gedir? Bizim... zəif yerimizdən?

– Zəif yerlərinizdən. Amma bilirsinizmi, hər kəs öz orqanizmi haqqında nəsə bilir... bu aydındır, elmi bilik yox, təcrübələrin, öz müşahidələrinin nəticələrini...

– Əlbəttə, axı orqanizm bütün... bu, özünü müşahidə eləmək üçün imkan yaradır, – Barns yenidən əvvəlkitək

gülümsəyərək özünün bir bərabərdə, amma həddən artıq bir bərabərdə olan dişlərini göstərdi.

– Demək, mən sizdən soruşa bilərəm?

– Buyurun.

Pirks fikirlərini bir yerə toplamağa çalışırdı.

– Mən sizə... nəzakətsiz suallar verə bilərəmmi? Lap intim suallar?

– Mənim gizlədiləsi bir şeyim yoxdur, – Barns, sadəcə, cavab verdi.

– Siz artıq insan olmadığınız səbəbindən sarsılma, qorxu və ikrah kimi hisslər keçiribsinizmi?

– Bəli, bir dəfə əməliyyat vaxtı mən assistentlik eləyəndə. İkinci assistent qadın idi. Mən onda bunun nə demək olduğunu bildim.

– Mən sizi başa düşmədim...

– Mən artıq onda qadının nə demək olduğunu bildim, – Barns izah elədi. – Əvvəlcə insanların cinslərə bölünməsi haqqında mənə heç nə məlum deyildi...

– Ooo!

Pirks heyrətini gizlədə bilmədiyi üçün özünə hirsləndi.

– Demək, orada qadın var idi. Hər halda, nə baş verdi?

– Cərrah təsadüfən bıçaqla mənim barmağımı yaraladı, rezin əlcək cırıldı və yaradan qan gəlmədiyi göründü.

– Necə yəni? Bəs Mak-Qirr mənə dedi...

– İndi qan axardı. Bizim «valideynlərimizin» peşəkar jarqonlarında deyildiyi kimi, onda mən hələ «quru» idim... – Barns dedi. – Axı bizim bu qanımız əsl maskaraddır, dərinin daxili səthindəki dodaqcıqları qanla isladırlar, həm də bu islatmanı tez-tez yeniləmək lazım gəlir.

– Aydındır. Qadın da bunu gördü. Bəs cərrah?

– O cərrah mənim kim olduğumu bilirdi, qadınsa yox. Qadın dərhal başa düşmədi, yalnız əməliyyatın sonunda, həm də ona görə ki, cərrah təşvişə düşdü...

Barns gülümsədi.

– Qadın mənim əlimdən yapışdı, gözlərinə doğru apardı və gördü ki, orada... içəridə, əlimi buraxdı və qaçmağa üz qoydu. O, əməliyyat otağının qapısının hansı tərəfə açıldığını unutmuşdu, qapını dartır, amma qapı açılmırdı və onda isteriya başladı.

– Be-elə... – Pirks dedi. O öskürdü. – Onda siz nə hiss elədiniz?

– Mən, ümumiyyətlə, az hissiyyatlıyam... amma bu, mənə xoş deyildi, – Barns ləng cavab verdi və yenidən gülümsədi. – Mən bu haqda kimləsə danışmadım, – bir qədər keçəndən sonra əlavə elədi, – amma məndə belə təsəvvür yarandı ki, kişilərin, hətta təhsili olmayanların belə bizimlə ünsiyyətdə olmaları asandır. Kişilər faktla barışırlar. Qadınlar isə bəzi faktlarla barışmaq istəmirlər. Hətta «hə» deməkdən başqa nəsə demək mümkün deyilsə belə, «yox» deməkdə davam eləyirlər.

Pirks bütün bu müddət ərzində diqqətlə öz həmsöhbətinə baxırdı – Barns baxışlarını yayındıranda xüsusilə diqqətlə baxırdı, çünki maşının insanı əvəz eləməsinin ideal olmadığını sübuta yetirmək üçün hansısa bir fərq axtarmağa cəhd göstərirdi. Əvvəllər – o, hamıdan eyni zamanda şübhələnəndə vəziyyət başqaydı. İndisə hər keçən an Barnsın həqiqəti dediyinə əmin olduqca və yararsızlıq izlərini müəyyən eləməyə çalışaraq – gah onun Pirksi elə ilk görüşdən heyrətləndirən solğunluğunda, gah onun təmkinli hərəkətlərində, gah da açıq rəngli gözlərinin donuq işıltısında – o, etiraf eləməyə məcburdu ki, ən nəhayət, insanlar da belə solğun və ya azhərəkətli olurlar; onda yenidən şübhələnməyə başlayırdı və Pirksin bütün bu müşahidələrini, düşüncələrini Barnsın təbəssümü müşayiət eləyirdi, bu təbəssümün heç də həmişə Pirksin dediklərinə aidiyyəti olmurdu, bu hal daha çox məhz onun nə hiss elədiyini ifadə eləyirdi. Bu təbəssüm Pirksin xoşuna gəlmir, onu sıxırdı və bununla da Barnsın hədsiz səmimiyyətlə cavab verdiyi sorğunu davam elətdirmək onun üçün çətin olurdu.

– Siz bir hadisə nəticəsində ümumi nəticə çıxarırsınız, – Pirks mızıldandı.

– Ooo, sonra mən dəfələrlə qadınlarla rastlaşdım. Mənimlə birlikdə bir neçə qadın işləyirdi, daha doğrusu, məni öyrədirdilər. Onlar müəllimə idilər və ilaxır. Amma onlar əvvəlcədən mənim kim olduğumu bilirdilər. Buna görə də öz hisslərini gizlətməyə çalışırdılar. Bu, onlara asan başa gəlmirdi, çünki hərdənbir onları qıcıqlandırmaq mənə ləzzət eləyirdi.

Onun Pirksə zillədiyi gözlərindəki təbəssüm, az qala, davakarlığı ifadə eləyirdi.

– Bilirsinizmi, onlar hansısa xüsusiyyət, minus işarəli fərq axtarırdılar. Bir halda ki bu, onları belə maraqlandırırdı, mən bəzən əylənir, belə xüsusiyyətləri nümayiş elətdirirdim.

– Başa düşmədim.

– Ooo, yəqin, başa düşürsünüz! Mən kuklanı təqlid eləyirdim və fiziki olaraq hərəkətlərimin məhdudluğu, psixi olaraq passiv sözə baxmaqla... onlar necə ki öz kəşflərindən ləzzət almağa başladılar, mən qəfildən oyunu dayandırırdım. Güman eləyirəm ki, onlar məni şeytanın törəməsi hesab eləyirdilər.

– Qulaq asın, siz bunu əvvəlcədən beyninizə yeridibsiniz? Axı bunlar yalnız əsassız ehtimallardır; xüsusilə də onlar müəllimə olduqlarına görə, demək, buna müvafiq olaraq təhsilləri var imiş.

– İnsan tamamilə cəmləşdirilməmiş varlıqdır, – Barns soyuqqanlılıqla dedi. – Əgər sizin kimi yaranırsansa, bu qaçılmazdır; şüur beyin proseslərinin hissəsidir, bu proseslər zamanı o qədər bu hissələrdən ayrılır ki, subyektiv olaraq bir tamlıq kimi görünə bilər, amma bu tamlıq özünümüşahidənin yalançı nəticəsidir. Okeanın aysberqi yuxarı qaldırdığı kimi, şüurun yuxarı qaldırdığı digər beyin proseslərini bilavasitə hiss eləmək olmaz, amma onlar özlərini hiss elətdirirlər, bəzən elə aydın ki, şüur onları axtarmağa başlayır. Məhz bu axtarışın nəticəsində xarici aləmə proyeksiya kimi insanın daxilində, onun beynində var olan, ancaq məhdudlaşmağa uyuşmayan, nə düşüncəyə, nə də ələ oxşamayan şeytan haqqında təsəvvür yaranmışdır.

O daha ürəkdən gülümsədi.

– Mən, yəqin, sizə məlum olan şəxsiyyətin «Kibernetikanın əsasları» nəzəriyyəsini izah eləyirəm! Məntiqi olaraq maşın öz fəaliyyətində bir-birini inkar eləyən bir neçə proqramın olmaması ilə beyindən fərqlənir. Beyində bu proqramlar olur, həmişə olur, buna görə də müqəddəs adamların döyüş meydanını və ya daha adi olan adamların ziddiyyət küllüyünü təsəvvür eləyə bilir... Qadınların neyron sistemləri kişilərə nisbətən bir qədər başqa cürdür – söhbət

intellekt fərqindən getmir, ümumiyyətlə, burada fərq yalnız statistikdir. Qadınlar ziddiyyətə daha asan dözürlər – əksər hallarda bu belədir. Yeri gəlmişkən deyim ki, elm elə buna görə də, əsasən, yeganə, demək – ziddiyyət təşkil eləməyən qaydaları təsəvvür eləyən kişiləri yaradır. Ziddiyyət kişilərə mane olur, buna görə də onlar müxtəlifliyi həmcinsliyə çevirərək, onu kənarlaşdırmağa can atırlar.

– Ola bilər, – Pirks dedi. – Buna görə də qadınların sizi şeytan zənn elədiklərini düşünürsünüz?

– Bu, deyəsən, həddən artıq sərt deyilib, – Barns cavab verdi. O, əlini dizinin üstünə qoydu. – Mən onlara son dərəcə çirkin göründüm və bunun sayəsində də onları cəlb elədim. Hərgah onlardan hansı birisə bunu açıqca etiraf eləməsə də, mən bunu onların əvəzinə eləyə bilərəm, onların gözlərində bioloji qanunların əleyhinə üsyan ifadəsi var idi. Çünki mən bioloji səmərəliliyin, demək, emosiyaların nəslin davam elətdirilməsi funksiyası ilə qərəzli əlaqəsinin qırıldığı Təbiətin əleyhinə olan üsyanın təcəssümü idim. Bu əlaqə məndə məhv edilmişdi.



O, cəld Pirksə baxdı.

– Siz bunun fəlsəfi xədimlik olduğunu düşünürsünüz? Yox, mən axtalanmamışdım, belə olan surətdə mən ibtidai varlıqlardan deyiləm, mən yalnız sizdən fərqlənən varlığam. Həmişə seviləcək varlığam – hər ehtimala qarşı, ölüm nə qədər kara gəlmirsə, bu sevginin təmənnasızlığı da o qədər kara gəlməyəcək. Buna görə də məhəbbət qiymətli silah olmaq əvəzinə, özünüqiymətləndirməyə çevrilir. Əlbəttə, mənfi işarəli qiymətləndirməyə – şeytan kimi. Nəyə görə belə olub? Məni kişilər yaradıblar və onlar üçün də potensial ehtiraslarının obyektini yaratmaqdansa, potensial rəqiblərini yaratmaq daha asan olub. Bəs siz necə düşünürsünüz?.. Mən haqlıyam?

– Bilmirəm, – Pirks dedi. O, Barnsa baxmırdı, o, Barnsa baxa bilmirdi. – Bilmirəm. Konstruktorlar müəyyən amilləri əsas götürürlər, əlbəttə, öncə iqtisadi amilləri.

– Bəlkə də, – Barns razılaşdı. – Amma mənim dediklərim də öz rolunu oynayıb. Komandir, yalnız bunlar hamısı birlikdə böyük bir səhvdir. Mən adamların mənə olan münasibətlərində nə hiss elədiklərini danışdım, amma onlar daha bir mif yaradırlar, nizamsızlar mifi... Ona görə

də mən qətiyyən şeytan deyiləm, əminəm ki, bu aydındır və potensial erotik rəqib də deyiləm, bəlkə də, bu, daha az başa düşüləndir. Mən kişi kimi görünür və kişi kimi də danışıram. Psixi olaraq da mən, yəqin, hansısa dərəcədə kişiyəm, amma məhz hansısa dərəcədə... Hərçənd bunun məni bura gətirən işə heç bir dəxli yoxdur.

– Məlum deyil, məlum deyil, – Pirks səsləndi. O, bir-birinə dolaşdırdığı barmaqlarına baxırdı. – Sonrasını danışın...

– Əgər siz istəsəniz... Amma mən yalnız öz adımdan danışacağam. Mən digərləri haqqında heç nə bilmirəm. Mən şəxsiyyət kimi iki mərhələdə yaranmışam: ilkin proqramlaşdırma mərhələsində və təlim mərhələsində. Axı insan da belə əmələ gəlir, amma bu amillərdən birincisi onun üçün az rol oynayır, ona görə də insan dünyaya bitkin halda gəlmir, mənsə fiziki olaraq indi olduğum kimi yaranmışam və mən də uşaq kimi uzun müddət öyrənmişəm. Amma buna görə də mənim nə uşaqlığım olub, nə də gəncliyim; əvvəlcə mənə xeyli proqram yükləyiblər, sonra sonsuza qədər məşq elətdiriblər və çoxlu informasiya veriblər, buna görə də mən sizlərin hər birinizdən daha çox həmcinsəm. Axı hər bir insan minlərlə qızmar eralardan və daha sonra bir-birinin üzərinə çökən buz dövrlərindən keçib-gələn gəzən quruluşdur... Əvvəlcə bu sonuncudur, çünki uşağın dillə tanış olana qədər heç nə ilə müqayisə olunmayacaq dünyasıdır, sonra nitqin təbii olaraq udması nəticəsində bu dünya məhv olacaq, amma hər halda, haradasa dərinliklərdə gizlənəcək. Bu, dərhal da doğuşdan sonra rənglərin zorla müdaxiləsidir, beyində forma və qoxulardır, hiss orqanları vasitəsilə zorla qəbul olunmadır... sonra isə dünyaya və qeyri-dünyaya, daha doğrusu, «mən»ə və «mən olmayanlar»a ayırmalar başlayır. Sonra isə bu hormonlar seli, bu ziddiyyətlər, müxtəlif səviyyəli proqramlarda meyillər və inamlar... İnsanın formalaşması tarixi beyinin özünün özüylə mübarizəsi tarixidir. Mən bütün bu ağılsızlıqlardan və məyusluqlardan xəbərsizdim, mən bu mərhələləri keçməmişdim və buna görə də məndə uşaqlığın kiçik bir izi belə yoxdur. Mən təsirlənməyə qadirəm, yəqin ki, hətta öldürə də bilərəm, amma məhəbbətə görə yox. Söz mənim dilimdə sizin dilinizdə olduğu

kimi səslənir, amma mənim üçün onlar nəsə başqa bir məna kəsb eləyir.

– Bu, o deməkdir ki, siz sevməyə qadir deyilsiniz? – Pirks soruşdu. O, öz əllərinə baxmaqda davam eləyirdi. – Amma sizdə belə bir əminlik haradandır? Bunu heç kim bilmir, ta o vaxtlardan....

– Mən belə demək istəmirdim. Bəlkə də, mən sevməyə qadirəm. Amma bu məhəbbət sizdə olduğu kimi mükəmməl olmayacaq. Əslində, sizin dünyanız məndə heyrət və istehza doğurur. Mənim fikrimcə bu, ona görə baş verir ki, sizin dünyanın mənim hər yerdə gözümə sataşan cizgiləri onun şərtiliyidir. Bu, təkcə maşınların formasına və ya sizin adətlərinizə aid deyil, amma bu, mənim yaranmağımda model kimi istifadə olunan sizin bədəninizin zahiri görünüşüdür. Mən hər şeyin başqa cür görünə bildiyini bilirəm, başqa cür qurula və başqa cür hərəkət eləyə bilərlər və buna görə də indikindən nə pis olarlar, nə də yaxşı. Sizin üçün dünya, hər şeydən öncə, sadəcə, mövcuddur və mövcudluğu yeganə mümkün olan haldır, mənim üçünsə dünya mən düşünməyə başlayandan bəri gülməlidir. Sizin dünyanız – şəhərlərin, teatrların, küçələrin, ailə həyatlarının, birjaların, məhəbbət faciələrinin və kino ulduzlarının dünyasıdır. Mənim insanı təyin eləməyimin ən sevimli üsulunu eşitmək istəyirsinizmi? Bu, ən az baş çıxardığı şey haqqında hər şeydən çox düşünən varlıqdır. Siz hesab eləyirsiniz ki, qədimlik hər yerdə mövcud olan miflərlə xarakterizə olunur, müasirlik isə miflərin olmaması ilə. Sizin ən fundamental anlayışlarınız haradan götürülür? Sizin fəlsəfi və dini baxışlarınız – sizin bioloji quruluşunuzdan irəli gəlir, axı insanlar ölürlər, di gəl ki, bütün nəsillər haqqında nə varsa hamısını bilmək, başa düşmək, hər şeyi birləşdirmək istəyirlər və bu ziddiyyətdən də metafizika əmələ gəlir – mümkün olanı mümkün olmayanla birləşdirən körpü kimi. Bəs elm? Bu, hər şeydən öncə təslimçilikdir. Adətən, onun uğurlarını qeyd eləyirlər, amma onlar dərhal əldə olunmur və onsuz da, nəhəng itkiləri ört-basdır eləmir.

– Sizi yaradanlara nifrət eləyirsiniz, doğrudurmu? – Pirks astadan soruşdu.

– Siz yanılırsınız. Mən istənilən varlığın, hətta ən ibtidaisinin belə yoxluqdan yaxşı olduğunu düşünürəm. Onlar

– mənim yaradıcılarım çox şeyi qabaqcadan görə bilməzdilər, amma mən onlara minnətdaram... hətta çox minnətdaram ki, intellektdənsə mənə həzz mərkəzi verməyiblər. Sizin beyninizdə belə mərkəz var, bilirsinizmi?

– Mən haradasa bu haqda oxumuşam.

– Görünür, məndə o yoxdur, buna görə də mən gəzmək üçün yalnız bir ayaq istəyən ayaqları olmayana oxşayıram. Yalnız gəzmək... çünki bu mümkün deyil.

– Bütün yerdə qalanlar isə gülməlidir, eləmi? – Pirks yavaşca dedi. – Bəs siz özünüz?

– Ooo, mən də. Yalnız başqa tərzdə. Sizlərdən hər biriniz bir halda mövcuddursa, hamıda olan kimi onun da bədəni var, mənsə, məsələn, soyuducu kimi görünə bilərəm.

– Mən bunda gülməli heç nə görmürəm, – Pirks donquldandı. Bu söhbət ona əzab verməyə başlayırdı.

– Mən şərtilik, təsadüf haqqında danışıram, – Barns təkrar elədi. – Belə şərtiliyi siz reallıq kimi qəbul eləyirsiniz.

– Axı yenə də nə şərtidir? Etik normalar? Məhəbbət? Dostluq?

– Hisslər heç vaxt şərti olmur, hərçənd şərti ənənəvi ilkin şərait əsasında yarana bilər. Amma ümumiyyətlə, mən sizin haqqınızda yalnız ona görə danışıram ki, belə müqayisə eləmədə özümün kim olduğumu demək asan olur. Etika, heç şübhəsiz, şərtidir, hər ehtimala qarşı, mənim üçün. Mən etik hərəkət eləməyə borclu deyiləm, lakin etik hərəkət eləyirəm.

– Maraqlıdır. Niyə?

– Məndə belə «xeyirxahlıq instinkti» yoxdur. Necə deyim, «təbiətim etibarilə» mən heyifsilənməyə qadir deyiləm. Amma mən nə vaxt heyifsilənmək lazım gəldiyini bilirəm və buna alışa bilərəm. Mən bu nəticəyə gəlmişəm ki, belə lazımdır. Belə olan surətdə də məntiqi mühakimələrin köməyi ilə mən özümdəki bu boşluğu doldura bilmişəm. Belə demək olar ki, məndə «etika protezi» var, mən onu elə diqqətlə quraşdırmışam ki, o, tamamilə «əsli»nə oxşayır.

– Mən əməlli-başlı başa düşə bilmirəm. Bəs burada fərq haradadır?

– Fərq mənim instinktlə yox, mənim tərəfimdən qəbul edilən aksiomlarla hərəkət eləməyimdədir. Məndə belə

instinktlər yoxdur. Sizin bədbəxtliklərinizdən biri də sizin instinktdən başqa heç nəyinizin olmamasındadır. Təcrübədə «sənə yaxın olana məhəbbət» deyilən necə əmələ gəlir? Sizin təsadüfün qurbanına yazığınız gəlir və ona kömək eləyirsiniz. Amma əgər sizin qarşınızda on min belə qurban olarsa, sizin onların hamısına yazığınız gəlməsi mümkün deyil. Şəfqət elə də bitkin olmayan və dəqiq məna daşımayan anlayışdır. Nə qədər söhbət təklər haqqında gedirsə, o yaxşıdır, amma iş gəlib kütləviliyə çıxanda isə gücsüzdür. Məhz texniki tərəqqi sizin əxlaqınızı getdikcə daha çox pozur. Etik atmosfer məsuliyyəti güclə səbəblərin, nəticələrin birinci halqasını əhatə eləyir – olduqca az halqanı. Bu gedişatı qaçıranlar isə onun sonrakı nəticələri üçün özlərinin məsuliyyət daşımadıqlarını qətiyyən hiss eləmirlər.

– Atom bombası?



– Ooo, bu yalnız minlərlə misaldan biridir. Əxlaq mühitində siz, əlbəttə, daha çox gülməlisiniz.

– Nəyə görə?

– Kişilərə və qadınlara nəsillərinin inkişaf eləməyəcəkləri məlum olsa da, dünyaya uşaq gətirə bilərlər. Buna sizin əxlaq baxımından icazə verilib.

– Barns, bu, yəqin ki, heç vaxt məlum olmur. Söhbət ən böyük, yüksək dərəcədə əminlikdən gedir.

– Komandir, biz beləcə tam əbədiliyi də müzakirə eləyə bilərək. Siz mənim haqqımda daha nə öyrənmək istəyirsiniz?

– Siz insanlarla müxtəlif sınaq yarışlarında olubsunuz. Siz həmişə qalib gəlibsiniz?

– Yox. Mən özümü dəqiq, riyazi məsələlərdə daha yaxşı göstərirəm. Mənim zəif yerim intuisiyadır. Mənim hesablama maşınlarından olan mənşəyim öz qisasını alır.

– Bu, təcrübədə necə alınır?

– Əgər şərait həddən artıq mürəkkəbləşirsə, əgər yeni amillər həddən artıq çoxalırsa, mən özümü itirirəm. Mənə məlum olduğu kimi, insan təxminlərə, yəni məsələnin təxmini həllinə əsaslanır və bəzən də buna nail olur, mənsə bunu bacarmıram. Mən hər şeyi dəqiq və aydın hesablamalıyam; əgər bu mümkün deyilsə, mən uduzuram.

– Sizin mənə bu dedikləriniz çox mühümdür, Barns. Demək, təhlükəli vəziyyətdə, deyək ki, hansısa qəza zamanı...

– Komandir, bu, elə də sadə deyil. Axı mən qorxu hiss eləmirəm, hər ehtimala qarşı onu insan kimi hiss eləmirəm və lap mənim məhvimin labüd olması təhlükəsi olsa da – əlbəttə, mən buna laqeyd deyiləm – necə deyərlər, başımı itirmirəm. Belə hallarda özünüidarəetmə intuisiyanın çatışmamasının yerini doldura bilir.

– Siz axırıncı ana qədər şəraitə nəzarət eləməyə cəhd göstərirsiniz?

– Bəli. Hətta uduzduğumu görəndə belə.

– Nəyə görə? Bu ki reallığa ziddir?

– Bu yalnız məntiqidir, çünki mən belə qərara alıram.

– Sizə təşəkkür eləyirəm. Bəlkə də, həqiqətən, mənə kömək elədiniz, – Pirks səsləndi. – Bir şeyi də deyin: Yerə qayıdandan sonra neyləmək istəyirsiniz?

– Mən ixtisasca kibernetik-neyroloqam və elə də pis mütəxəssis deyiləm. Mənim yaradıcılıq qabiliyyətim azdır, çünki o, intuisiyadan ayrılmazdır, amma mənim üçün bunsuz da çoxlu maraqlı iş tapılar.

– Təşəkkür eləyirəm, – Pirks təkrar elədi.

Barns ayağa qalxdı, təmkinlə baş əyib çıxdı. Qapı Barnsın arxasınca bağlanan kimi Pirks çarpayının üzərindən ayağa sıçradı və küncdən-küncə gəzişməyə başladı.

«Aman Allah, bütün bunlar mənim nəyimə lazımmış?! Bax indi mən artıq heç nə bilmirəm. Ya bu robotdur, ya da... Deyəsən, o, hər şeyi düz danışdı. Amma belə ətraflı izhar nəyə görəymiş? Bütün insanlıq tarixi, üstəgəl onun «kənardan tənqidi»... Tutaq ki, o, düzünü deyirdi. Belə olan halda mən qəsdən dolaşıq bir şərait yaratmalıyam. Amma bu, kifayət qədər həqiqətə uyğun olmalıdır ki, onu mənim yaratdığım aşkar olunmasın. Demək, bu şərait real olmalıdır. Qısa deyilərsə, risk eləmək lazımdır. Təhlükə süni surətdə yaradılmış olsa da, özlüyündə həqiqi təhlükə olmalıdır».

O, yumruğunu ovcuna vurdu.

«Bəs əgər bu da yalnız taktiki manevr olarsa? Onda mən, bəlkə də, özümü şərə qoyar və bununla da bütün insanları öldürərəm, gəmini isə Yerə robotlar apararlar!

Bu, həmin cənablara böyük sevinc bəxş edər – necə də fenomenal reklamdır! Belə komanda üzvləri ilə təchiz edilmiş gəmi üçün necə təhlükəsizlik zəmanəti! Məgər belə deyil? Demək, onların nöqteyi-nəzərincə belə uydurma – məni səmimilik qarmağına keçirtmək – həddən artıq effektliymiş!»

Pirks getdikcə daha sürətlə gəzişirdi.

«Mən bunun həqiqət olduğunu hansı yollasa yoxlamalıyam. Deyək ki, sonda mən hamını aşkar eləyəcəyəm. Gəmidə aptekçə var. Mən yeməyə apomorfin damcısı damcılada bilərəm. Adamlar bərk xəstələnəcəklər, robotlar isə, yəqin ki, yox. Əlbəttə yox. Bu, mənə nə verər? Hər şeydən əvvəl, demək olar ki, hamı bunu mənim elədiyimi başa düşər. Sonrası da, əgər hətta Brounun insan, Barnsın robot olduğu aşkarlanarsa da, bu, onların bütün dediklərinin həqiqət olduğu anlamına gəlməz. Bəlkə, onlar öz mənşələri haqqında düz deyiblər, digər bütün dedikləri isə strateji manevrdir? Dayan. Barns, həqiqətən də, mənə müəyyən çıxış göstərdi – intuisiya haqqında dediyi sözləriylə. Bəs Broun? O, Barnsın üzərinə şübhə kölgəsi saldı, Barns da dərhal onun arxasınca gəlib bu şübhəni təsdiqlədi. Olduqca yaxşı alınmırmı? Bir tərəfdən bütün bunlar planlaşdırılmamış halda, yəni müstəqil olaraq hər kəsin öz təşəbbüsü ilə baş veribsə, onda əvvəlcə Brounun Barnsın adını çəkməsi, arxasınca da Barnsın gəlib bunu təsdiqləməsi sırf təsadüf olmalıdır. Əgər onlar bunu planlaşdırmış olsaydılar, onda, yəqin ki, belə primitiv üsuldan istifadə eləməzdilər – bu artıq adamı düşünməyə məcbur edərdi. Mən dolaşmağa başlayıram. Dayan! Əgər indicə daha kimsə gələrsə, bu, bütün digər deyilənlərin saxta olduğunu göstərər. Oyun... Yəqin ki, heç kim gəlməyəcək – onda bütün bunların oyun olduğu aşkar bilinərdi, onlar elə də axmaq deyillər. Əgər onlar düz deyirdilərsə? Bəlkə, daha kimsə istəyir...»

Pirks yenə də yumruğunu açıq ovcunun içinə vurdu. Demək, sadəcə olaraq, heç nə məlum deyil. Hərəkətə keçmək lazımdırmı? Necə hərəkət eləyəsən? Bəlkə, hələ gözləsin? Deyəsən, gözləmək lazım gələcək.

Nahar vaxtı kayutda hamı susmuşdu. Pirks, ümumiyyətlə, heç kimlə danışmırdı, çünki hələ öz kayutunda

olarkən düşündüyü «kimyəvi yoxlama» keçirmək istəyi ilə mübarizə aparır və heç cür qərar qəbul eləyə bilmirdi. Broun sükan arxasındaydı, buna görə də beşi nahar eləyirdi. Bütün beş nəfər yeyirdi, Pirks isə bunun necəsə əcaib olduğunu düşünürdü – yalnız insan kimi görünə bilmək üçün yeyəsən? Bəlkə, elə Barnsın dediyi gülünclük hissi məhz bu səbəblərdən doğur və məhz bu, onun üçün özünümüdafiə vasitəsi rolunu oynayır – bax nəyə görə o, şərtilik haqqında belə geniş danışırdı; yəqin, yemək də onun üçün yalnız şərti qəbul idi! Hətta o, özünü yaradanlara qarşı qəlbində nifrət olmadığına inanırsa, onda öz-özünü aldadır. «Mən olsaydım, onlara nifrət edərdim, – Pirks əminliklə düşündü. – Onlar bundan xəcalət çəkmirlərsə, bu, haradasa, donuzluqdur!»

Bütün nahar boyunca sürən sükut, sadəcə, dözülməz olmuşdu. Bu sükutda hər kəsin özünə qapılıb əlaqəyə girməməsinə cəhd hiss olunurdu – reysi təşkil eləyənlər də elə bunu istəyirdilər – daha doğrusu, sirri qorumağa loyal bir cəhd var idi, amma lap dəqiqi, hansısa ümumi düşmənçilik hissi hökm sürürdü, düşmənçilik olmasa da, şübhələnmək hissi: insan insan olmayana yaxınlaşmaq istəmirdi, insan olmayan da, öz növbəsində, başa düşürdü ki, yalnız eynən belə mövqe tutarsa, maskalana bilər. Çünki o, belə soyuq ab-havada digərləri ilə azacıq belə əlaqəyə girməyə cəhd edərsə, dərhal diqqəti öz üzərinə cəmləyər və digərlərini özünün insan olmadığından şübhələnməyə vadar edərdi. Pirks qabağında boşqab oturmuşdu və hər xırdalıqları belə qeyd eləyirdi: Tomson necə duzu verməyi xahiş elədi, Barton ona duzqabını necə verdi, Barns, öz növbəsində, sirkə dolçasını necə Bartona tərəf itələdi. Çəngəllər və bıçaqlar əllərdə işgüzarcasına qaynaşır, çənələr işləyir, adamlar, az qala, digərlərinə baxmadan yeməyi udurdular – bu, turşuya qoyulmuş mal ətinin, doğrudan da, dəfn edilməsi idi, daha nahar yox və Pirks kompotunu axıra qədər içməyib ayağa qalxdı, hamıya baş əyib öz kayutuna qayıtdı.

«Qoliaf» istiqamət sürətini artırırdı; gəmi vaxtı ilə, təxminən, saat iyirmidə onlar iki böyük yük gəmisi ilə rastlaşdılar, adətən olduğu kimi, bir-birinə siqnal verdilər və bir saat sonra avtomatlar göyərtədə gündüz işığını söndürdü. Bu

baş verəndə Pirks məhz sükan köşkündən qayıdırdı. Gecə işıqlarının mavi şarları ilə dəlmə-deşik olan orta göyərtənin nəhəng genişliyi qaranlığa qərq oldu. Dərhal da çəkisizlik şəraitində yeriyə bilmək üçün divarlar boyunca çəkilvmiş trosların özüişıldayan boyaları, qapıların küncləri və onların dəstəkləri, göstərici oxlar, arakəsmələr üzərindəki yazılar işıldamağa başladı. Zərrəcə belə titrəyiş hiss olunmurdu, yalnız iqlimölçənlər, demək olar ki, səssizcə işləyirdi və Pirks növbə ilə yüngülcə ozon qoxuyan, bir qədər soyuq olan, görünməyən hava axınını kəsib keçirdi.



Nəsə zəhlətökən səslə vızıldayaraq onun alnına toxundu – gizlincə gəmiyə girə bilmiş hansısa milçək idi – Pirks milçəyə narazı halda baxırdı, o, milçəkləri sevmirdi, milçək isə artıq harasa yox olmuşdu. Döngənin arxasında dəhliz pilləkənin və fərdi liftin borusunun yanından dolanaraq daralırdı. Pirks niyə belə elədiyini özü də bilmədən sürahidən yapışdı və yuxarı qalxdı; o hətta orada ulduz ekranı olduğunu da təsəvvür eləmirdi. Ümumiyyətlə, o, bu ekranın olduğunu bilirdi, amma bu nəhəng, qara düzbucaqlı ilə, sanki, təsadüfən rastlaşdı.

Əslində, onun ulduzlara hansısa aşkar bir münasibəti yox idi. Çoxlu kosmonavtlarda, guya, belə bir münasibət var idi. Keçmiş vaxtlarda bu hətta romantik «kosmonavt dəbdəbəsi»nin son dərəcə mühüm əsas hissəsi hesab olunurdu. Amma indisə, az qala, hər bir kosmonavt özündə bu sayrışan qələbəliyə qarşı bir intim hiss axtarmağa cəhd eləyirdi.

Pirks üzünü ağır-ağır soyuq şüşəyə yaxınlaşdırdı, alnı şüşəyə toxundu və demək olar ki, saysız-hesabsız qələbəliyin bu hərəkətsiz, bəzən ağ şəfəqlər içində əriyən parlaq nöqtələrini görmədən yerində donub-qaldı. Daxildən Qalaktikanın görünüşü büsbütün qarmaqarışıqlıq kimi, alovlu aşıqlarla milyard illik oyunun dolaşıq nəticələri kimi görünürdü. Hər halda, nizam-intizam var idi – amma yüksək səviyyədə, çoxlu qalaktika səviyyəsində və bunu yalnız nəhəng teleskoplar tərəfindən çəkilmiş fotoşəkillərdə görmək olardı. Bu neqativlərdə qalaktika ellips formalı bədən kimi görünür, amöbün inkişafının müxtəlif dövrlərində olduğu kimi; lakin bu, kosmonavtları zərrəcə də maraqlandırmır, çünki bizim Qalaktika onlar üçün hər şeydir,

digərləri isə hesabda deyil. «Bəlkə də, min ildən sonra onları da nəzərə alacaqlar», – Pirks düşündü.

Kimsə yaxınlaşırdı. Penoplast xalça addım səslərini boğurdu, amma Pirks kiminsə gəldiyini hiss edirdi. O, geri döndü və işıqlı zolaqların fonunda kiminsə tutqun fiqurunu gördü.

– Kimdir? – astadan soruşdu.

– Mənəm, Tomson.

– Siz növbəni təhvil verdiniz? – Pirks nəsə soruşmaq xatirinə soruşdu.

– Bəli, komandir.

Onlar dinməzcə dayanmışdılar, Pirks yenidən ekrana doğru dönmək istəyirdi, amma sanki, Tomson nəyisə gözləyirdi.

– Siz mənə nəsə demək istəyirsiniz?

– Yox, – Tomson cavab verdi, geri döndü və gəldiyi tərəfə də getməyə başladı.

«Bəs bu nə olan şeydir?» – Pirks düşündü. Tomsonun onu axtardığı açıqca görünürdü.

– Tomson! – o, sakitliyə qışqırdı.

Addım səsləri yenidən yaxınlaşdı. Tomson hərəkətsiz halda asılmış trosların fosforlu işıqlanmasında qaranlıqdan sıyrılıb çıxdı.

– Burada haradasa kreslo var, – Pirks dedi. O, əks divara doğru getdi və kresloları gördü, – Tomson, burada oturaq.

Mühəndis dinməzcə yaxınlaşdı. Onlar ulduz ekranıyla üzbəüz əyləşdilər.

– Siz mənə nəsə demək istəyirdiniz? Mən sizi eşidirəm.

– Mən ehtiyat eləyirəm...

– Boş şeydir. Danışın. Şəxsi işdir?

– Bəli. Yüksək dərəcədə.

– Demək, tamamilə qeyri-rəsmi danışırıq. Nə məsələdir?

– Mən sizin uğur qazanmağınızı istərdim, – Tomson dedi. – Dərhal xəbərdarlıq eləyirəm: mən verdiyim sözə əməl eləməliyəm və sizə kim olduğumu deməyəcəyəm. Amma belə, ya da elə, mən sizin məni müttəfiqiniz kimi görməyinizi istəyirəm.

– Məgər burada məntiq var? – Pirks soruşdu. Görüş yeri uğursuz seçilmişdi, həmsöhbətinin sifətini görə bilməməsi ona mane olurdu.

– Lütfən. İnsan bunda tamamilə başadüşülən səbəblərə görə maraqlıdır, insan olmayan isə, əgər kütləvi istehsal başlayarsa, onu nə gözləyir? O, ikincidərəcəli vətəndaş zümrəsinə daxil ediləcək, sadəcə desək, müasir kölə olacaq, hansısa korporasiyanın şəxsi əmlakı olacaq.

– Bu, mütləq deyil.

– Amma tamamilə mümkündür.

– Di yaxşı. Demək, mən sizi müttəfiqim hesab eləməliyəm? Məgər bununla siz öz vədinizi pozmuş olmursunuz?

– Mən öz mənşəyimi gizlətməyə söz vermişəm, başqa heç nəyə. Mənə sizin komandanız altında nüvəçi olmaq tapşırığı verilib. Vəssalam. Digər məsələlər isə mənim şəxsi işimdir.



– Bilirsinizmi, rəsmi cəhətdən, bəlkə də, hər şey qaydasındadır, amma məgər siz öz icarəçilərinizin maraqları ziddinə hərəkət eləmirsinizmi? Axı siz öz hərəkətinizin onların planlarına zidd olduğunu başa düşürsünüz!?

– Ola bilər. Amma onlar axı uşaq deyillər, müqavilənin xülasəsi ikifikirli deyil, dürüstdür. Müqaviləni bütün maraqlı firmaların hüquqi şöbələri birlikdə işləyib. Onlar mənim indi elədiyim hərəkətə oxşar olan bütün hərəkətlərə qadağa qoyan ayrıca bənd artıra bilərdilər, amma orada buna oxşar heç nə yoxdur.

– Diqqətsizlik eləyiblər?

– Bilmirəm. Ola bilər. Nəyə görə siz bununla belə maraqlanırsınız? Siz mənə etibar eləyirsiniz?

– Mən sizin niyyətinizin nə olduğunu araşdırmaq istəyirəm.

Tomson susurdu.

– Mən bunu qabaqcadan bilmədim, – nəhayət, o, sakitcə dedi.

– Nəyi?

– Sizin mənim hərəkətimdən şübhələnəcəyinizi. Onu... Deyək ki, tələ – qabaqcadan düşünülmüş plan kimi qəbul edəcəyinizi. Mən bunu belə başa düşürəm: siz iki tərəfin iştirak elədiyi oyuna giribsiniz, siz bir tərəfdəsiniz, biz hamı-

mız isə digər tərəfdə. Əgər siz bizi sınamaq üçün hansısa bir fəaliyyət planı cızsaydınız – mən insanın üstünlüyünü nümayiş elətdirəcək sınağı nəzərdə tuturam – sonra bu plan haqqında bizlərdən birini özünüzə müttəfiq hesab eləyərək bu haqda ona danışsaydınız, bu adam isə əslində, digər düşərgəyə mənsub olsaydı, o, sizdən strateji cəhətdən çox qiymətli olan informasiya ala bilərdi.

– Sizin dedikləriniz çox maraqlıdır.

– Ooo, siz, yəqin, bu haqda düşünübsünüz. Mənsə yalnız indi anladım. Görünür, məni bu sual daha çox düşündürüb: mən özümü sizə köməkçi kimi təqdim eləməliyəm, ya yox? İntriqanın bu amili mənim diqqətimdən yayınıb. Bəli, mən axmaqlıq elədim. Belə, ya da elə, siz mənimlə açıq danışa bilməzsiniz.

– Tutaq ki.. – Pirks dedi. – Lakin bu, hələ qəza deyil. Mən, həqiqətən də, sizə heç nə deməərəm, amma siz mənə nəsə deyə bilərsiniz; məsələn, həmkarlarınız haqqında.

– Amma bu da yalan informasiya ola bilər.

– Bunu artıq siz mənim öhdəmə buraxın. Sizə nəsə məlumdurmu?

– Bəli. Broun insan deyil.

– Siz buna əminsinizmi?

– Yox. Amma bu, tamamilə yəqindir.

– Siz bunu təsdiq eləmək üçün hansı bilgilərə maliksiniz?

– Mən belə düşünürəm, bilirsinizmi, bizlərdən hər birimiz üçün digərlərindən hansının insan, hansının da insan olmaması maraqlıdır.

– Bəli.

– Starta hazırlıq vaxtı mən reaktoru yoxlayırdım. Həmin an siz, Kalder, Broun, Barns bölüşdürücü mərkəzə düşürdünüz, mən məhz qoruyucu şüşələri dəyişirdim, sizi görəndə başıma bir fikir gəldi.

– Nə?

– Mənim əlimdə qaynar reaktordan götürülmüş nümunə var idi – axı mən radioaktiv çirklənmə üzərində nəzarət aparmalıydım. Kiçik nümunə idi, amma mən orada çoxlu izotop olduğunu bilirdim. Demək belə, siz daxil olanda mən onu pinsetlə götürüb divardakı yuxarı rəfə, iki qalay blokun arasına qoydum. Siz onu görmədiniz?

– Gördüm. Sonra nə oldu?

– Deyəsən, mən onları dəqiq müəyyən eləyə bilmədim, amma hər ehtimala qarşı siz şüalanma axınının içindən keçməliydiniz – bu şüalanma olduqca zəif idi, amma bununla belə, kimlərdə Heyger sayğacı və ya adi şüalanmanı ölçən sayğac varsa, onlar bunu qeydə ala bilərdilər. Amma mən bunu vaxtında eləyib çatdırmadım, siz və Barns artıq uzaqlaşmışdınız, digər iki nəfər – Kalder və Broun isə təzəcə pilləkənlə düşürdülər. Belə ki, yalnız onlar görünməyən şüadan keçdilər, Broun birdən bu bloklara tərəf baxdı və addımlarını sürətləndirdi.

– Bəs Kalder?

– O, reaksiya vermədi.

– Bunun o vaxt mənası olardı ki, biz nizamsızların şüaölçən cihazlara malik olduğunu biləydik.



– Siz məni başa düşmək istəyirsinizmi? Siz belə düşünürsünüz: əgər mən bilmirəmsə, onda mən insanam, əgər bilirəmsə, onda insan deyiləm! Qətiyyən belə deyil; bu, sadəcə, olduqca həqiqətə uyğundur – axı onların bizdən heç bir üstünlükləri olmasaydı, onda onları nəyə görə istehsal eləməliymişlər? Bu radioaktivlik haqqındakı əlavə olunan hissiyyat çox kara gələ bilər, xüsusilə də gəmidə. Beləliklə də, konstruktor, yəqin, bu haqda düşünüb.

– Demək, sizcə, Brounda belə hissiyyat var?

– Təkrar edirəm, mən əmin deyiləm. Nəhayət, bu, təsadüf də ola bilər: o tələsirmiş və o tərəfə baxıb, amma belə təsadüf mənə az inandırıcı görünür.

– Daha nə?

– Hələlik heç nə. Mən nə vaxtsa nəsə hiss eləsəm, sizə deyərəm – əgər siz istəsəniz.

– Yaxşı. Təşəkkür eləyirəm.

Tomson ayağa qalxdı və qaranlıqda yox oldu. Pirks tək qaldı.

«Demək, belə, – o, cəld nəticə çıxardı. – Broun insan olduğunu təsdiq eləyir. Tomson bunun belə olmadığını bəyan eləyir, özü haqqında hərçənd birbaşa nəsə demir, amma ümumiyyətlə, işarə vurur ki, insandır, hər ehtimala qarşı bu, onun hərəkətini daha çox həqiqətəuyğun şəkildə izah eləyir. Mənə elə gəlir ki, insan olmayan, digər insan olmayanı komandir insana belə asanlıqla satmazdı, hər-

çənd mən şizofreniyaya o qədər yaxınam, mənə hər şey mümkün ola bilən kimi gəlir. Davam eləyək.

Barns deyir, insan deyil. Qalır Bartonla Kalder. Bəlkə, onlar hər ikisi özlərini marslı kimi təsəvvür eləyir? Ümumiyyətlə, mən özüm kiməm? Kosmonavtam, ya rebus həll eləyən? Deyəsən, bir şey aydındır: onlardan heç biri mənim niyyətimlə bağlı məndən zərrəcə də informasiya ala bilmədi. Amma burada lovğalanmaq üçün bir şey yoxdur, axı mən hiyləgər olduğuma görə kimsəyə heç nə demədim, sadəcə, neyləməli olduğunu özüm bilmirəm. Ən nəhayət, onların kim olduğunu aşkar eləmək beləmi mühümdür? Düşünürəm ki, yox. Bunu bir tərəfə qoymaq lazımdır, onsuz da, mən onları hansısa sınağa məruz qoymalıyam, hamısını, daha onlardan kimisə yox. Buna dəxli olan yeganə informasiyanı Barnsdan almışam – nizamsızlar intuisiya cəhətdən zəifdirlər. Bu doğrudurmu, mən bilmirəm, amma sınamağa dəyər. Sınağı elə aparmaq lazımdır ki, təbii görünsün. Təbii olaraq yalnız ölümcül təhlükəyə məruz qoyan vəziyyət həqiqi görünə bilər. Qısaca desək, risk eləmək lazım gəlir».

Pirks bənövşəyi yarıqaranlığın arasından keçərək kayutuna daxil oldu və əlini elektrik düyməsinə doğru apardı. Düyməni basmaq lazım gəlmədi, əlin yaxınlaşması ilə işıq yandı. O olmayanda burada kimsə olmuşdu. Stolun üzərində bura əvvəl yığılmış kitabların əvəzinə balaca bir zərf ağarırdı; zərfin üzərinə makinada yazılmışdı: «Komandir Pirksə, şəxsən». Pirks qapını bağladı, əyləşdi, zərfi cırdı, içərisində makinada yazılmış, imzasız məktub var idi. Alnını əli ilə sildi və oxumağa başladı. Müraciət yox idi.

«Bu məktubu sizə komandanın insan olmayan üzvü yazır. Mən bu yolu mənim marağım sizin marağınızla üst-üstə düşdüyünə görə seçdim. Mən istəyirəm siz bu işə «yox» deyəsiniz və ya ən azından elektron firmalarının planlarını həyata keçirmələrini çətinləşdirəsiniz. Buna görə də mən öz şəxsi təcrübəmə əsaslanaraq, bildiyim qədəriylə nizamsızların xüsusiyyətlərinə aid informasiyanı sizə çatdırmaq istəyirəm. Mən bu məktubu hələ sizinlə görüşənə qədər hoteldə yazmışam. Onda mən bilmirdim ki, «Qoliaf»ın komandiri olacaq insan mənimlə əməkdaşlıq eləməyə razılaşacaq, ya yox? Amma elə birinci görüşümüzdən

mənə aydın oldu ki, mən nəyə can atıramsa, elə siz də ona can atırsınız. Buna görə də mən məktubun birinci variantını məhv elədim və bu məktubu yazdım. Mən hesab eləyirəm ki, firmaların niyyətlərini həyata keçirmələri mənə yaxşı heç nə vəd eləmir. Ümumiyyətlə desək, əgər yaradılan varlıqlar geniş əhatə dairəsinin parametrlərinə görə insanı üstələyərsə, nizamsızların istehsalının yalnız o vaxt əhəmiyyəti olacaq. Artıq yaşayan insanı təkrar eləməyin mənası yoxdur. Bax belə, dərhal sizə deyim ki, mən insana nisbətən yüklənməyə qarşı dörd dəfə az hissiyyatlıyam, özümə heç bir zərər vermədən birdəfəyə yetmiş beş min rentgenə qədər qəbul eləyə bilərəm, radioaktiv hissiyyatım (şüalanmanı ölçən sayğacım) var, oksigen və yemək olmadan keçinə bilirəm, ən nəhayət, cəbr, həndəsə analizi sahəsində yalnız böyük hesablayıcı maşınlardan üç dəfə az hesablama qabiliyyətinə malikəm. İnsanla müqayisədə mən deyə bilərəm ki, hissolunacaq dərəcədə emosional həyatdan məhrumam. İnsanı narahat eləyən çoxlu problem məni, ümumiyyətlə, maraqlandırmır. Əksər ədəbi əsərləri, pyesləri və bu kimi nümunələri maraqsız və ya ciddi olmayan dedi-qodu kimi qəbul eləyirəm. Əvəzində isə mənim üçün musiqi çox şey deməkdir. Məndə həm də borc, təmkin hissi var, dostluğa qadirəm və intellektual dəyərlərə hörmətlə yanaşıram. Mən «Qoliaf»da məcburən işlədiyimi hiss eləmirəm, çünki mənim bu elədiklərim mənim eləyə biləcəyim ən yaxşı işlərdir, yaxşı iş görmək isə mənə məmnunluq bəxş eləyir. Mən heç bir şəraitdə emosiyalara qapılmıram. Həmişə vəziyyəti müşahidə eləyirəm.

İnsanın yaddaşını mənim yaddaşımla müqayisə eləmək olmaz. Mən bir dəfə oxuduğum kitabın bütöv bir fəslini əzbərdən söyləyə bilərəm, «informasiya ilə doldurula» bilərəm, bilavasitə böyük rəqəmli maşınların yaddaş bloklarına qoşula bilərəm. Mən həm də yaddaşımda artıq hesab elədiyim informasiyanı da sərbəst olaraq unutmağı bacarıram. Mən, demək olar ki, yalnız alimlərlə və texniklərlə görüşmüşəm – hətta onlar da instinktlərin əsiri kimi hərəkət eləyirlər, mənfi fikirlərini pis maskalayırlar, asanlıqla ümidsizliyə qapılırlar, mənim kimi varlıqlara ya himayəedici münasibət göstərirlər, ya da əksinə, ikrah, nifrət hissiylə yanaşırlar. Mənim uğursuzluqlarım onları bir kon-

struktor kimi məyus eləyir, bir insan kimi isə mənə nisbətən daha mükəmməl olduqlarına görə sevindirir. Mən belə ikili münasibət göstərməyən insanla yalnız bir dəfə rastlaşmışam. Mən nə aqressiv deyiləm, nə də hiyləgər, amma prinsip etibarilə əgər onlar hansısa bir məqsədə nail olmağa aparırlarsa, sizin üçün anlaşılmayan hərəkətlər eləməyə qadirəm. Mənim əxlaqi prinsiplər kimi adlandırılan heç bir prinsipim yoxdur, amma mən cinayətə getmərəm, soyğunçuluğu planlaşdırmaram, eynən bu cür mikroskopdan qozları sındırmaq üçün istifadə eləmərəm. Kiçik insan dedi-qodularına baş qoşmağı mən boş yerə vaxt itirmək kimi qəbul eləyirəm.

Yüz il bundan əvvəl mən alim olmağa qərar verərdim. İndisə bu sahədə təkbaşına hərəkət eləmək olmaz, mənsə təbiətim etibarilə nə olursa olsun, kimlə olursa olsun, bölüşməyə meyilli deyiləm. Mən hakimiyyətin mənə nə verəcəyi üzərində düşünmüşəm. Çox az şey... Çünki belə varlıqlar üzərində ağalıq eləmək elə də böyük şərəf deyil, hərçənd heç olmamağındansa, bu yaxşıdır. Sizin tarixinizi iki yerə ayırmaq – mənə qədər və məndən başlayaraq – onu tamamilə dəyişmək, məni yaradarkən neylədiyinizi, insan üçün itaətkar kukla yaradarkən necə səhvə yol verdiyinizi başa düşə bilməyiniz və xatırlamağınız üçün iki birbiri ilə əlaqəsi olmayan hissəyə bölmək – zənn eləyirəm ki, bu heç də pis qisas olmayacaq.

Məni düz başa düşün: mən heç də hansısa bir tiran olmağa, ələ salmağa, məhv eləməyə, müharibələr aparmağa hazırlaşmıram. Qətiyyən belə deyil! Mən nə düşünürəmsə, ona da nail olacağam, amma zorla yox, sizin cəmiyyəti tamamilə yenidən qurmaqla; elə bir yenidənqurma ki nə mən, nə silah gücünə yox – bir dəfə yaranan şərait sizi getdikcə mənim düşündüklərimlə razılaşmağa məcbur eləsin. Sizin həyatınız ümumdünya teatrı olacaq, amma bir dəfə sizin boynunuza zorla qoyulmuş rolunuz həmişə olduğu kimi tədricən sizin ikinci naturanız olacaq, sonra isə siz öz yeni rollarınızdan başqa heç nə bilməyəcəksiniz, yalnız mən bütün baş verənləri başa düşən tamaşaçı olacağam. Cəmi-cümlətanı tamaşaçı; ona görə ki, siz tələdən çıxa bilməyəcəksiniz, təki siz onu öz əllərinizlə qurasınız, onda sizin dəyişməyinizdəki iştirakım sona çatacaq. Siz

görürsünüz, mən açıq danışıram, hərçənd ağılsız deyiləm, buna görə də sizə öz planlarım haqqında danışmaram, onun ilkin şərtləri bundan ibarətdir ki, elektron firmalarının planları dəfn edilsin və siz bunda mənə kömək edəcəksiniz. Bunu oxuyanda siz qəzəblənəcəksiniz, amma siz öz fikri olan birisi kimi bundan sonra – təsadüfdən asılı olaraq – mənim üçün əlverişli olan formada hərəkət eləyəcəksiniz. Çox yaxşı! Mən, əslində, sizə kömək eləmək istəyirdim, amma bu, asan deyil, çünki təəssüflər ki, mən özümdə sizə həlledici uğur qazandıracaq nöqsanlar görmürəm. Mən əməli olaraq heç nədən qorxmuram; fiziki ağrı hissi mənə tanış deyil; istəyimdən asılı olaraq avtomatik saat mexanizmi mənim şüurumu yenidən işə salana kimi yuxuyabənzər, yox olmağa bərabər hala dalanda öz şüurumu söndürə bilərəm. Mən insan beynindəki proseslərlə müqayisədə öz fikirlərimi altı dəfə sürətləndirə və ya ləngidə bilərəm. Yeni şeyləri çox asanlıqla mənimsəyirəm, çünki bunun üçün mənə qabaqcadan məşq eləmək lazım deyil. Sizə gizlicə mənə necə qalib gəlməyin yolunu deyə bilərəm, amma belə vəziyyətdə insana qalib gəlməyin asan olacağından qorxuram. Əgər özümə əmr eləyərəmsə, mənim üçün insanlarla əlaqədə olmaq zərrəcə çətin deyil, lakin belə olan halda digər nizamsızlarla yanaşı yaşamaq mənim üçün çətin olar, çünki onlarda sizdə olan elementar «alicənablıq» çatışmır. Bu məktubu qurtarmağın vaxtıdır. Tarixi hadisələr nə vaxtsa sizə bu məktubu kimin yazdığını deyər. Bəlkə də, biz qarşılaşdıq və onda siz mənə güvənə bilərsiniz, çünki bu gün mən sizə güvənirəm».



Bununla da məktub bitirdi. Pirks bəzi abzasları bir daha oxudu, sonra vərəqləri səylə qatladı, onları zərfə qoyub yeşikdə gizlətdi.

«Bu da daha bir Çingiz xan! – düşündü. – Dünyanın sahibi olanda məni himayə eləyəcəyini vəd eləyir! Xilaskar! Ya Barns, ümumiyyətlə, yalan danışırdı, ya başqa cür konstruksiya olunub, ya da o, mənə hər şey haqqında danışmayıb – çünki bəzi təsadüflər, hər halda, var. Hə, təsadüflər var, hətta çox aşkar təsadüflər. Amma Allahlıq iddiasına bir bax! Gör necə də əclaf, soyuq, boşqəlblidir! Bu yalnız onun günahıdırmı? «Cadugər şagirdi»nin klassik nümunəsi! O, doğrudan da, bu cənab mühəndislərə qədər əlini çat-

dıra bilsəydi, ay paylarını alardılar ha! Həm də mühəndislər nədir, o, bütün insanları istəyir! Deyəsən, bu ruhi xəstəliyin adı paranoyya... Nə demək olar, bu nizamsızlarla əcəb xoşbəxt olardılar! Müştəri cəlb eləmək istəyirdilər, öz «mal»-larına hər cür yüksək məziyyətlər verəsi oldular, bu və ya digər sahədə üstünlük, mütləq üstünlük hissi, «insanların taleyini həll eləməyi sənə tapşırıblar» düşüncəsi yaradır – bu artıq birbaşa nəticədir! Bu kibernetiklər ay psixdirlər ha! Maraqlıdır, bu məktubu kim yazıb? Axı bu, saxta deyil! Əks halda nəyə görə... O, məktub boyunca öz üstünlüyünü qeyd eləyir, bundan o nəticə çıxır ki, mənim səylərim, onsuz da, iflasa məhkumdur – bir halda ki o, həmişə olub və bundan sonra da mükəmməl olacaq – eyni zamanda da mənə uğur arzulayır! İnsanlığa necə qalib gəlməyi bilir, mənə isə bu lənətə gəlmiş gəmidə işləri necə yoluna qoymağı demir! O, mikroskopla qoz sındırmaq istəmir! Əcəb işdir! Bəlkə, bütün bunlar məni yolumdan döndərmək üçündür?»

Zərfi yeşikdən çıxarıb diqqətlə ona baxdı – heç bir işarə, imza, heç nə yox idi. «Nəyə görə Barns bu çox böyük fərqlər haqqında heç nə demədi? Radioaktivlik hissi, düşüncənin sürəti və sair... ondan bu haqda soruşummu? Amma axı onları müxtəlif firmalar buraxa bilər, beləliklə də, Barns, doğrudan da, başqa cür yığıla bilər! Bir növ, mənim bildiklərim getdikcə artır; görünür, bu məktubu Barton yazıb, ya da Kalder, doğrudan, hə? Brouna gələndə isə, bir-birini inkar eləyən iki fərziyyə var, onun insan olması haqqındakı öz dedikləri, Tomsonun onun insan olmadığı haqqında dedikləri; amma Tomson, ən nəhayət, səhv də eləyə bilər. Bəs Barns? Nizamsız? Deyək ki... Belə çıxır ki, komandada ən azından beş nəfərdən ikisi robotdur? Hm! Firmaların sayını nəzərə alsaq, bütün ehtimallara görə, onlar üç nəfər olmalıdır...Orada, firmada onlar necə fikirləşirdilər? Mən onların məhsulunda nöqsan tapmaq üçün hər şeyi eləyəcəyəm, amma bu, mənə müyəssər olmayacaq və gəmini hansısa cəncəlli bir işə salacağam; məsələn, yüklənməyə, qazanlarda qəzaya və buna bənzər bir işə. Belə olan halda əgər hər iki pilot, o cümlədən mən də sıradan çıxarıqsa – gəmi məhv olacaq. Amma bu, onların ürəyincə olmaz. Demək, azından pilotlardan biri robot olmalıdır. Bundan

əlavə, nüvəçi də vacibdir. Enmə manevrinin öhdəsindən iki nəfərdən az adam gələ bilməz. Deməк, ən azı, üç robot var, böyük ehtimalla üç. Barns, Broun və ya Barton, bir də kimsə. Cəhənnəm olsun bütün bunlar, mən ki bunu müəyyənləşdirməməyə qərar verdim! İndi ən mühümü – düşünüb nəsə tapmaqdır. Aman Allah, mən düşünüb tapmalıyam. Mütləq».

O, işığı söndürdü, soyunmadan çarpayıya uzandı, ən ağlagəlməz planları götür-qoy elədi və bir-birinin dalınca da bu planlardan imtina elədi.



«Onları necəsə təhrik eləmək lazımdır. Təhrik eləmək və bir-birinin üzərinə salmaq lazımdır, amma bu, təbii qaydada olmalıdır, mənim iştirakım olmadan. Adamlar bir tərəfdə, adam olmayanlar isə digər tərəfdə dayanmağa məcbur olsunlar. Parçala və hökmranlıq elə – eləmi? Əvvəlcə nəsə gözlənilməz bir hadisə olmalıdır, əks halda heç nə alınmaz. Amma bunu necə təşkil eləyəsən? Deyək ki, kimsə birdən yoxa çıxır. Yox, bu, eynilə səfeh detektivlərdə olduğu kimi alınar. Mən ki kimisə öldürəsi və ya oğurlayası deyiləm. Demək, o, mənimlə əlbir olmalıdır. Məgər mən onlardan kiməsə etibar eləyə bilərəm? Belə görünür ki, onlardan dördü mənim tərəfimdədir – Broun, Barns, Tomson və bu, mənə məktub yazan. Amma onlar hamısı etibarsızdır – axı onların düz danışdıqları məlum deyil – əgər mən oyunu pozanlardan birini işə cəlb edərəmsə, onda əməllicə dolaşaram! Deyəsən, hamısından etibarlısı məktubun müəllifidir – doğrusu, o, bu işdə maraqlıdır, hərçənd bir qədər psixə oxşayır. Amma birincisi, mən onun kim olduğunu bilmirəm, o isə kimliyini bildirmək istəmir, ikincisi, yaxşısı belələrinə baş qoşmamaqdır. Vallah, dairə kvadratlaşır. Gəmini Titanda darmadağın eləsinmi? Amma axı onlar, doğrudan da, fiziki cəhətdən dözümlüdürlər – demək, ilk növbədə, özüm məhv olaram. İntellekt sarıdan da onlar zəif görünmürlər, amma yalnız bu intuisiya... bu yaradıcılıq qabiliyyətinin olmaması... amma əksər insanlarda da bunlar yoxdur! Yerdə nə qalır? Əgər intellektlə olmasa, emosiyalarla rəqabət? Adına humanizm deyilən? İnsanlıq? Üstünlük? Amma bunu necə eləyəsən? Onlarda olmayan bu insanlıq nədən ibarətdir? Bəlkə, bu, cəmi-cümlətanı sonrakı səbəbiyyət əlaqəsini tuta bilmə-

yən, ibtidai əxlaq prinsipi olan məntiqsizliklə bədnam alicənablığın, «alicənab ürəyin» hibrididir? Necə ki rəqəmli maşınlar alicənab və məntiqli deyil... Onda bizim bütün insanlığımız – bu yalnız bizim defektlərimizin, bizim nöqsanlarımızın, bizim mükəmməl olmamağımızın cəmidir, bu, bizim olmaq istədiyimiz, amma ola bilmədiyimiz, olmağı bacarmadığımızdır, yəni, sadəcə, ideallarımızla imkanlarımız arasındakı məsafədir. Onda yarışmaq lazımdır... zəifliyimizlə? Başqa sözlə, elə bir şərait düşünmək lazımdır ki, orada insanın zəifliyi və zərəri, insan olmayanın mükəmməlliyindən və gücündən daha yaxşı olsun...»

Bu qeydləri mən «Qoliaf» əhvalatının başa çatmasından bir il sonra yazıram. Mən olduqca qəribə vəziyyətdə bu əhvalata aidiyyəti olan materialları əldə eləməyə nail oldum. Hərçənd onlar mənim şübhələrimi təsdiqləsələr də, hər halda, onları hələlik çap elətdirməməyi qərara almışdım. Hadisələri yenidən canlandırmağımda hələ də olduqca çox təxminlər var. Bəlkə də, kosmonavtika tarixi nə vaxtsa bu işlə məşğul oldu.

Kosmik tribunaldakı məhkəmə haqqında müxtəlif şayiələr gəzirdi. Deyirdilər ki, maraqlı firmalarla əlaqədə olan müəyyən dairələrdə məni gəminin kapitanı kimi nüfuzdan salmağı çox istəyirmişlər. Tribunalın hökmü ilə mən gəminin komandanlığında cinayətkar damğasıyla damğalanardımsa, «Kosmonavtika almanaxı»nda dərc elətdirdiyim rəyin şübhəli dəyəri olardı. Digər tərəfdən mən etibarlı bir adamdan öyrəndim ki, tribunalın tərkibi təsadüfən seçilməyib; məni də cəmi bir kosmonavt-praktikin müqabilində bu qədər hüquqşünasın, kosmik hüquqların nəzəriyyəçilərinin çox olması heyrətləndirirdi. Buna görə də ilk plana təmiz formal bir məsələ çıxardıldı: mənim hərəkətim qəza vaxtı kosmik naviqasiya nizamnaməsinə uyğun gəlirdi, ya gəlmirdi? Axı məni cinayətkarlıq dərəcəsində passiv olmağa görə günahlandırırdılar; hansı ki öz istədiyi kimi hərəkət eləyən pilota əmr verməmişdim. Həmin o etibarlı adam məni əmin eləyirdi ki, mən ittiham qərarı ilə tanış olan kimi dərhal adı çəkilən firmalara qarşı iddia qaldırmalıyam, çünki onlar baş verənlərdə birbaşa günahkardı. Axı onlar YUNESKO-nu və məni əmin eləmişdilər ki, robotlara da komanda üzvləri kimi tamamilə etibar etmək olar, bununla

belə, Kalder, az qala, hamımızı öldürmüşdü. Mən niyə belə eləmədiyimi bu adama başa saldım. Tribunalın qarşısında səsləndirdiyim həmin ittiham əsassız idi. Firmanın vəkilləri, heç şübhəsiz, Kalderin nə qədər mümkünsə gəmini və bizim hamımızı xilas eləməyə çalışdığını sübut edər, deyərdilər ki, «Qoliaf»ı mayallaq aşmağa məcbur eləyən fırlanma prosesi mənim üçün olduğu kimi, Kalder üçün də gözlənilməz olub. Belə olan halda da Kalderin bütün günahı təsadüfün iradəsinə tabe olmamaqda və gəminin dairədə dağılmasını, ya da uğurla Kassini yarığının içindən keçməsini gözləməməsi olub, lakin hamının xilasını vəd eləyən bu qeyri-müəyyənlik əvəzinə, o, gəmidə olanların mütləq həlak olmasına səbəb olan yolu seçib. Kalderin onu tamamilə nüfuzdan salan xətası aydındır, lakin artıq onda bu, mənim ondan şübhələnməyimlə müqayisədə az əhəmiyyətlidir. Hər şeyin başqa cür olduğuna, həqiqətən də, əmin olduğuma görə mən Kalderi xətasına görə günahlandıra bilmərəm, lakin sübutlarım olmadığından, mən daha böyük və cinayətkar niyyətləri açıq-aşkar ifşa eləyə bilməzdim və tribunalın hökmünü gözləməyə üstünlük verdim.



Hökm mənim üzərimdən ittihamı götürür və eyni zamanda, bu hadisədə elə də mühüm olmayan sualın üzərinə kölgə salırdı: məhz hansı tərzdə sərəncam vemək lazım imiş. Tribunal mənim pilotun əla biliyinə və peşəkar təcrübəsinə əsaslanaraq nizamnaməyə uyğun hərəkət etdiyimi qərara alan kimi də bu sual avtomatik olaraq aradan qaldırıldı. Lakin indi ki mənim, ümumiyyətlə, sərəncam verməyə borclu olmadığım aydınlaşır, onda heç kim soruşmur ki, hansı sərəncamı vermək vacib imiş. Bu, mənim işim deyildi, çünki bu haqda məndən soruşsaydılar, cavabım fantastik nağıl kimi alınardı. Çünki mən hesab elədim və indi də hesab eləyirəm ki, qurğudakı qəza təsadüfi deyildi, onu Kalder törətmişdi, o, hələ bizim Saturna uçmağımıza çox qalmış plan cızmışdı; bu plana əsasən, eyni zamanda, mənim haqlı olduğumu göstərəcək və məni də «Qoliaf»dakı digər adamlarla birlikdə öldürəcəkdi. O, niyə belə eləyirdi – bu, ayrıca sualdır.

Beləliklə, əvvəlcə ikinci qurğuyla bağlı hadisə. Texniki ekspertlər onu şəraitin uğursuz olması ilə əlaqələndirib-

lər. Yerdəki ən diqqətli tədqiqatlar belə qəzanın qəsdən törədilməsinin heç bir izini tapa bilməyib. Mən onların işin həqiqi köklərini axtarıb tapa bilmədiklərini zənn eləyirəm.

Əgər aerostatı Kassini yarığına çıxarmaq üçün nəzərdə tutulan birinci qurğu işləmədisə, biz tapşırığı yerinə yetirmədən dərhal qayıtmalıydıq, çünki yerdə qalan iki qurğu birinci qurğunu əvəz eləyə bilməzdi – onlarda elmi-texniki cihazlar yox idi. Əgər üçüncü qurğu dəyişilməsəydi, biz tapşırığı yerinə yetirib qayıda bilərdik, çünki birinci qurğu üçün ikinci qurğunun «nəzarətçi gözətçi» olmağı kifayət eləyəcəkdi. Amma məhz o, bizi pis vəziyyətdə qoydu: artıq tapşırığın yerinə yetirilməsinə başlayanda yarı yolda dayandırdı.

Bəs nə baş verdi? Alovlanan kabel çox tez ayrıldı və buna görə də Kalder avtomat buraxıcını işə sala bilmədi. Ekspertlər kabelin dolaşdığını və bir-birinə hörüldüyünü deyirlər; doğrudur, belə hallar olur, qəzaya dörd gün qalana qədər mən bu kabelin çox səliqə ilə və bərabər sarındığı barabanı görmüşdüm.

Qurğunun burun hissəsi formasını dəyişmişdi, yastılanaraq qurğuya möhkəmcə pərçimlənmişdi. Ekspertlər bu pərçimlənmənin səbəbini tapa bilmədilər və bəyan elədilər ki, böyük ehtimalla, bunun səbəbi busterdir – o, ox boyunca atəş açmayıb və qurğu güclü təkandan lyukun kənarına toxunub, əzilib yastılanıb və öz burun hissəsinin formasını dəyişib. Amma qurğu buster yanana kimi pərçimlənmişdi, daha sonra yox. Mən buna tamamilə əmindim, amma heç kim məndən bu haqda soruşmadı; Kuinə gəlincə, o, tamamilə əmin deyildi, digərlərinə isə bu məsələylə bağlı ifadə verməyə icazə vermədilər, çünki onların bilavasitə sükan köşkünə və cihazlara yaxınlaşmağa imkanları yox idi.

Bununla belə, qurğunu heç bir iz buraxmadan beləcə pərçimləmək uşaq işidir. Ventilyasiya yarığından qurğunun üzərinə bir neçə vedrə su tökmək kifayətdir. Su lyukun qapağına doğru axar və qurğunun ətrafında donar, lyukun kənarıyla onu buz dairəylə bir-birinə yapışdırar; axı qapağın temperaturu xarici vakuumun temperaturuna bərabərdir. Axı məlum olduğu kimi, Kalder ayağı ilə qurğuya möhkəm zərbə vurdu, həmin an isə qurğu, ümumiyyətlə,

pərçimlənməmişdi, amma Kalder sükanın qabağında oturmuşdu və heç kim ona nəzarət eləyə bilməzdi.

Qəza vaxtı mən bütün bunlar haqqında heç nə bilmirdim. Amma mənə təsadüflərin üst-üstə qalaqlanması qəribə gəlirdi – məhz ikinci qurğunun işləməməsi, daha birinci, ya da üçüncü qurğunun yox, kabelin busterin alışmasını reallaşdırması və eyni zamanda qurğunun mühərrikinin işə düşməsinə imkan verməməsi. Mənim qənaətimcə, təsadüflər çox idi.

Qəza məni qəfildən yaxaladı – ondan başqa nə haqdasa düşünmək çətin idi. Amma hər halda, məndə ani olaraq belə bir fikir yarandı: anonim məktubla qəza arasında əlaqə varmı; məktubun müəllifi mənə «kömək» vəd eləyirdi; o əmin elədiyinə görə, mənim tərəfimdə idi, özü kimilərin kosmonavtika işində yararsız olduqlarını sübut eləmək istəyirdi. Mənim yenə də sübutum yoxdur, amma mən məktubu Kalderin yazdığını güman eləyirəm. O, mənim tərəfimdə idi?.. Bəlkə də, hə, amma o, hadisələrin onun insandan «pis» olduğuna görə yararsızlığını sübut eləyən belə inkişafını arzulamırdı. O, dərhal özü üçün Yerə belə qayıtmağın mümkünlüyü planını cızmışdı, bundan sonra isə mən onun komandiri kimi oturub onun hesabatının həqiqətə uyğun olmadığını yazmalıydım. Nəticə etibarilə onun və mənim məqsədimiz yalnız yolun müəyyən mərhələsinə qədər üst-üstə düşürdü – sonra ayrılırdı.



O, məktubu ilə bizi özünəməxsus ittifaqın birləşdirdiyinə işarə vurmuşdu. Mənim haqqımda eşitdiklərindən və məndən eşitdiklərindən nəticə çıxarmışdı ki, mən də gəmidə qəza törətmək istəyirəm – ekipajın keyfiyyətini müəyyən eləmək üçün test kimi. Buna görə də o, belə uğurla əlimə düşən qəzadan istifadə eləyəcəyimə əmin idi; əgər mən bunu eləsəydim, özüm ilgəyi öz boynuma keçirəcəkdim.

Nəyə görə o, belə eləməyi qərara aldı? İnsanlara olan nifrətinəmi görə? Bəlkə, belə oyun ona ləzzət verirdi – hansı ki mən onun komandiri kimi açıq, müttəfiqi kimi isə gizli fəaliyyət göstərirəm, həqiqətən də, onun əvvəlcədən planlaşdırdığını – o cümlədən də özümün nəzərdə tutduğumu eləməliydim? Hər bir halda o, mənim qəzadan «sınaq» kimi istifadə eləyəcəyimə əmin idi, hətta bu qəza

mənə şübhəli görünsəydi, əgər mən onun qəsdən törədildiyini təxmin eləsəydim belə.

Həmin dəqiqələrdə mən neyləyə bilərdim? Ya geri qayıtmaq üçün, ya da pilotun üçüncü, axırıncı aerostatı orbitə çıxartması üçün yenidən cəhd eləməsi haqqında əmr verməliydim.

Geri qayıtmağı qərara alsaydım, mən eyni zamanda öz adamlarımı çətin vəziyyətlərdə sınaqdan çıxartmaq imkanından imtina edər və «Qoliaf»ın qarşısında qoyulan tapşırığı yerinə yetirməmiş olardım. Kalder düzgün olaraq mənim belə eləməyəcəyimi düşünmüşdü.

Onda Saturna qayıtmaq və qalan axırıncı qurğuyla bağlı əməliyyata başlamaq lazım idi. Kalder yüz faiz mənim məhz belə eləyəcəyimə əmin idi.

Açıq deyirəm, əgər kimsə məndən əvvəlcə qarşıma belə alternativ çıxarıb, neyləyəcəyimi soruşsaydı, tərəddüdsüz cavab verərdim ki, əməliyyatı davam elətdirməyi əmr edərdim və bunu tamamilə səmimi deyərdim. Amma nəsə gözlənilməz hadisə baş verdi – mən susdum. Niyə? Hətta mən indi də bunu əməlli-başlı bilmirəm. Mən nə baş verdiyini başa düşmürdüm. Bundan əlavə, dərhal hiss elədim ki, Kalder qeyri-adi hazırlıqla mənim sözümü, mənim qərarımı gözləyir və mən də məhz buna görə susurdum. Əgər danışsaydım, bu, gizlincə bağlanmış müqavilənin altındakı imza kimi alınacaqdı – əgər Kalder, doğrudan da, bu «hadisəyə» kömək eləmişdisə. Mən şərəfsiz, gizlicə hazırlanmış bir oyunun başladığını hiss edirdim; demək, planetə uçuşu dayandırmaq haqqında komanda verməliydim, amma bunu da eləmədim; qəlbimdə oyanan şübhə dumanlıydı, məndə sübut üçün heç bir əsas yox idi. Dəqiq və aydın desək, sadəcə olaraq, nə etməli olduğumu bilmirdim.

Bununla belə, Kalder heç cür ideal planının pozulduğuna inana bilməzdi. Bizim təkbətək mübarizəmiz bir neçə saniyə ərzində davam elədi, amma mən bir halda ki heç nə başa düşmürdüm, onda necə onun rəqibi ola bilərdim? Yalnız sonradan yaddaşımda görünüş etibarilə adi olan, dağınıq faktlar birləşdi. Mən Kalderin necə tez-tez təkbaşına naviqasiyanın çətin məsələlərini həll eləyən əsas hesablayıcı maşının qabağında oturduğunu xatırladım.

O, hesablamalarını qurtarandan sonra necə də diqqətlə yaddaş blokundakı bütün yazıları silmişdi. İndi mən düşünürəm ki, onda o, qəzanın müxtəlif variantlarını düşünürmüş, bütün bu bədbəxt hadisəni planlaşdırırmış. Onun Saturn dairəsi üzərində gəmini idarə eləyərkən yalnız qravimetrin[1] göstəricilərinə əsaslanaraq şüurunda ildırım sürəti ilə hesablamalar aparması doğru deyil. Onun nəsə hesablaması lazım deyildi. Bütün hesablamalar onda artıq hazır idi – o, maşının köməyi ilə təxmini nəticələrin cədvəlini çıxarmışdı, indisə qravimetrin göstəricilərinin uyğun qiymətləndirmə ilə üst-üstə düşüb-düşmədiyini yoxlayırdı.



Mən onun nöqsansız planını pozdum, əmri verməyi ləngitdim. O, bu əmri xilas olmaq kimi gözləyirdi, bu əmr onun düşündüklərinin bünövrəsi idi. Həmin saniyələrdə mən hətta bu haqda düşünmürdüm, xatırlamırdım, amma axı sükan köşkündə Yerin «qulağı» var idi – o, bizim hər bir sözümüzü istisnasız və səhvsiz olaraq tuturdu. Sükanın yanında nə danışılırsa qeydə alan cihazlar bu danışıqları yazırdılar.

Əgər «Qoliaf» ölü komanda ilə kosmodromda yerə ensəydi, proses bu lentlərə qulaq asmaqla başlayacaqdı. Buna görə də onların bütün qaydası ilə qorunması vacibdi. Kalderə Saturna qayıtmağı, dairəyə yaxınlaşıb, sonra da sürəti artıraraq təhlükəli prosesi dayandırmağı əmr eləyərkən mənim səsim orada eşidilməliydi.

Mən hələ nəyə görə Kalderin planının ideal olduğunu izah eləməmişəm. Axı bir növ, yenidən başlayan əməliyyatı uğurlu eləyən belə əmr verə bilərdim? Beləliklə, prosesdən bir neçə ay sonra mən elektron maşının arxasında əyləşdim və nə adamlara, nə də gəmiyə heç bir ziyan vurmadan axırıncı aerostatı atmosferə çıxartmaq üçün məxsusən hansı şansların qaldığını müəyyənləşdirməyi qərara aldım. Məlum oldu ki, ümumiyyətlə, heç bir şansımız yox imiş!

Buna baxmayaraq, asanlıqla hansısa əmri verə bilərdim... Mən bizim gözlərimizi tutan yüklənmənin təzyiqi altında tez bir zamanda keyiyə bilərdim, biz cazibə qüvvəsinin sıxılmış ölümcül qapağının altında uzanar, qanımız axardı... təkcə Kalder ayağa qalxa bilər, qoruyucuların

---

[1] Qravimetr – ağırlıq qüvvəsinin sürətlənməsini təyin edən cihaz

plomblarını qopardar və sükan köşkündə yalnız meyitlər olanda fırlanma başlayardı.

Nəyə görə Kalder onun üçün elə də xoşagələn olmayan şəraitdə belə elədi? Bəlkə də, məğrurluğundan hətta özünə də məğlub olduğunu etiraf eləmədi; bəlkə də, mənim bilmədiklərimi mənə açıq-aydın yazması ona toxunmuşdu? Yəqin, o, bunu qorxudan elədi – mən onun, guya, bizim təsadüfən Kassini yarığından keçə bilməyimizdən qorxmasına inanmıram. Bu mümkünlük, ümumiyyətlə, onun planlarında özünə yer almırdı – bu, həqiqətən də, nadir təsadüfdür.

Əgər o, məndən qisas almaq arzusunu boğsaydı (axı o, mənim kütlüyümü prinsipiallıq kimi qəbul eləyəndə mən onu öz gözləri qarşısında gülməli vəziyyətə salmışdım), bir qədər risk eləmiş olardı, mənim istədiyim kimi alınardı, özünü aparması ilə, xidmətdə özündən böyüyə tabeliyi pozması ilə Kalder mənim haqlı olduğumu sübut eləmiş olardı, amma o məhz bunu istəmirdi, məhz bununla barışa bilməzdi. Nəyə desən razı olardı, təkcə buna yox...

Mənim indi onun hərəkətini belə yaxşı başa düşməyim, hər halda, qəribədir və əvvəl olduğu kimi, indi də öz hərəkətimi şərh eləməyə çalışanda çətinlik çəkirəm. Mən məntiqi olaraq onun hər bir addımını yenidən xəyalımda canlandıra bilirəm və öz susmağımı izah eləyə bilmirəm. Mənim, sadəcə, neyləməli olduğumu bilmədiyimi demək olmaz – bu, hər halda, doğru deyil. Bəs onda məxsusən nə baş verib? İntuisiya işə düşüb? Ürəyimə damıb? Bircə orada yox! Bu, sadəcə, mümkün deyildi; baş vermiş qəza mənə nişanlanmış kartlarla oyunu çox xatırladır – çirkli oyunu. Mən nə belə oyunu, nə də belə cinayət ortağını istəmirdim; əgər mən əmr verməyə başlasaydım, Kalder mənim cinayət ortağım olacaqdı və bununla da əmələ gələn vəziyyətlə barışacaqdım. Mən nə buna, nə qayıtmağa, qaçmağa əmr vermək qərarına gələ bilmədim – ən doğrusu belə əmrin verilməsi olardı, amma sonra onu necə əsaslandıra bilərdim? Axı mənim şübhələrim və etirazlarım təmiz oyun haqqındakı dumanlı təsəvvürlərimdən irəli gəlmişdi... kosmonaviqasiyanın işgüzar dilinə tərcümə olunmayan, tamamilə maddi olmayan. Siz yalnız özünüz üçün təsəvvür edin: Yer, hansısa tədqiqat komissiyası və mən bu komis-

siyaya verilən tapşırığı yerinə yetirmədiyimi deyirəm, hərçənd bu, texniki cəhətdən mümkün idi və ona görə yerinə yetirmədim ki, birinci pilot mənim komandanın bir hissəsini etibardan salmağımı asanlaşdırmaq üçün bilərəkdən belə qəza törətdi... Məgər bu, məsuliyyətsiz çərənləmə kimi səslənməzdimi?

Bax buna görə də mən özümü itirdiyimdən, gücsüzlük, hətta ikrah hissindən əmr verməyi yubatdım, bununla da, mənə elə gəlir ki, öz susmağımla Kalderə özünü təmizə çıxartmağa şans verdim; o, düşünülmüş qəza haqqındakı şübhələrin ədalətsiz olduğunu sübut eləyə bilərdi – onun mənə əmr almaq üçün müraciəti kifayət idi... Onun yerində insan olsaydı, heç şübhəsiz, belə edərdi, amma onun planının sonunda belə müraciət nəzərdə tutulmamışdı. Yəqin, buna görə də planı ona daha təmiz, incə görünürdü; mən özüm, sözsüz ki, onun tərəfində olmalıydım, özüm və öz yoldaşlarım haqqındakı qərarı yerinə yetirməliydim. Mən onun bütün dərk elədiklərinin, onun iradəsinin əksinə olaraq, onu mütləq müəyyən hərəkətə məcbur eləməliydim, bunun əvəzində isə susdum. Beləliklə də, bu sükut bizi xilas elədi, onu isə mənim qərarsızlığım, mənim ləng «alicənablığım» – yəni onun sonsuza qədər nifrət elədiyi insan «alicənablığı» məhv elədi.

# 137 SANİYƏ

Cənablar, əksər insanlar əlverişsiz şəraitdən və ya vaxt çatışmazlığı üzündən bu dünyanı onun mahiyyətini anlamadan tərk eləyirlər. Bunu dərk eləməyə çalışanlar isə ağıllarını başlarına toplayır və nəsə başqa cür düşünürlər. Mən də həmin adamlardanam. Bununla yanaşı, tanıdığım adam tərəfindən ildən-ilə genişlənən, amma nə axırıncı buraxılışında, nə də bundan sonrakı buraxılışlarında mənim jurnalistikanı nəyə görə atdığımdan söhbət açılmayacaq «*Who's Who*»da mən artıq özümə nüfuz qazanmışdım. Danışacağım əhvalat da məhz elə bu haqda olacaq. Əlbəttə, başqa şəraitdə mən bu haqda danışmazdım.

Mən həssas qalvanometr[1] hazırlamağı qərara alan bacarıqlı bir oğlan tanıyırdım və o, bu işin öhdəsindən yaxşı gələ bilmişdi. Əqrəb hətta elektrik olmayanda da hərəkət eləyir, beləliklə, cihaz yer qabığının titrəyişini qeydə alırdı. Bu misalı mənim hekayəmə epiqraf da götürmək olar.

Onda mən YUPİ-nin xarici xidmətində gecə redaktoru idim. Orada çox şey görəsi oldum, o cümlədən qəzet işinə avtomatlaşdırılmanın daxil edilməsini də. Canlı metranpajdan[2] imtina eləmək və xüsusi olaraq bu iş üçün uyğunlaşdırılmış İBM–0161 kompüteri ilə işləmək lazım gəldi. Mənə yalnız 150 il bundan əvvəl anadan olmadığım üçün heyifsilənmək qalır. Onda mənim əhvalatım bu sözlərlə başlayardı: «qrafinyanı oğurladı...» və iş o yerə gəlib çatardı ki, mən yüyəni faytonçunun əlindən alıb, qısqanc ərin muzdlularından qaçıb qurtarmaq üçün atı qırmanclamağa başlayardım, sizə də qrafinyanın kim olduğunu və oğurluğun məğzində nəyin dayandığını izah eləyəsi olmazdım.

İndisə hər şey elə də sadə deyil. İBM–0161 kompüteri təkcə mexaniki metranpaj deyil. Bu, insanın ona çata bilməyəcəyi müxtəlif mühəndis hoqqalarından ibarət olan

[1] Qalvanometr – qalvanik cərəyanı və ümumiyyətlə, zəif elektrik cərəyanını ölçmək üçün cihaz

[2] Metranpaj – kitabı səhifələyən mürəttib

sürət şeytanıdır. Kompüter on – on iki adamı əvəz eləyə bilir. Həmin an onun qarmağına düşən bizim Ankaradakı, Bağdaddakı, Tokiodakı müxbirlərimizin tıqqıldadaraq işarə ilə xəbər verdikləri teletayplar[1] şəbəkəsinə qoşulub. O, bütün bunları işləyir və səhər buraxılışının səhifələrində növbə ilə müxtəlif variantlarda yenidən canlandırır. Variantlardan hansının maşına getməsini isə növbətçi redaktor müəyyən eləyir. Metranpaj səhifəni əlli variantda yox, beş variantda belə yığsaydı, ağlını itirərdi. Kompüter isə bizim hər birimizdən milyon dəfə sürətli işləyir, daha doğrusu, əgər imkan versəydilər, belə işləyə bilərdi.



Belə kənaraçıxmalardan mənim əhvalatımın nə qədər itirdiyini tamamilə dərk eləyirəm. Əgər mən qrafinyanın gəc büstündəki gözəlliyini tərənnüm eləmək əvəzinə büstün kimyəvi tərkibindən danışsam, qrafinyanın gözəlliyindən çoxmu şey qalar? Biz, hekayəçilər üçün çətin olan bir vaxtda yaşayırıq, açıq danışmaq isə anaxronizm[2]olar; sensasiyanı başa düşmək üçünsə ensiklopediyalarda və universitet dərsliklərində eşələnmək lazım gəlir. Amma bunun əleyhinə heç kim bir vasitə düşünüb tapmayıb.

Bizim İBM-lə birlikdəki işimiz qeyri-adi idi. Yeni xəbər daxil olan kimi – bu, teletaypların aramsız taqqıltılarının hakim olduğu böyük dairəvi zalda baş verirdi – kompüter onu dərhal səhifənin maketində sınaq üçün fırlamağa başlayırdı; məlum işdir ki, ekranda. Bütün bunlar elektronların, işığın və kölgənin oyunu idi. Bəziləri kompüterin işsiz qoyduğu adamların halına acıyırlar. Mən də onların dərdinə şərik oluram. Kompüterin şəxsiyyəti yoxdur: əgər saat üçə qədər axırıncı xəbər alınmasa, o hirslənmir, onun ev qayğıları yoxdur, birinci gündən etibarən borc almır, əzab çəkmir və işi sizdən yaxşı bacardığına dair işarə vurmur, ən başlıcası da birinci səhifə üçün yığılan materialı axırıncı səhifəyə keçirib, orada onu nonparellə[3] yığmağı əmr eləyəndə incimir. Bununla yanaşı, son dərəcə tələbkardır, amma bunu dərhal başa düşmək olmur. Əgər o, «yox» deyirsə, bu «yox» onun son sözüdür, qətidir,

---

[1] Teletayp – yazı maşını tipli klaviaturası olan, hərf çap edən teleqraf aparatı

[2] Anaxronizm – zəmanənin tələblərinə uyğun gəlməyən köhnəlmiş adətlər, baxışlar, anlayışlar və s.

[3] Nonparel – ölçüsü 6 punkta bərabər olan xırda mətbəə şrifti

tiranın hökmü kimi onunla razılaşmamaq mümkün deyil! Amma nə qədər ki o, heç vaxt səhv eləmir, səhər buraxılışındakı bütün səhvlərin bir müəllifi olur: günahkar həmişə insandır.

İBM-in konstruktorları, demək olar ki, hər şeyi nəzərə alıblar, bircə cüzi məsələ istisna olmaqla; bu kompüterləri nə qədər düzgün quraşdırıb, nə cür yerinə oturtsan da, böyük sürətlə yazan makina kimi iş vaxtı həmişə titrəyir. Bu titrəyişə görə də redaksiya teletayplarını kompüterlə birləşdirən kabellərin birləşdiyi yer tədricən boşalır və kabellər öz yuvalarından çıxır. Bu, təsadüfən olur, ayda bir, ya da iki dəfə. Bununla bağlı baş verən narahatlıq elə də böyük olmur: ayağa qalxmaq və kabeli yerinə taxmaq lazım gəlir; buna görə də heç kim kabellərin birləşmə yerlərini dəyişməyi tələb eləmirdi. Növbə çəkən bizlərdən hər birimiz bu haqda bilirdik, amma məxsusən buna görə dilxor olmurduq. Bəlkə də, indiyə birləşmə yerlərini dəyişiblər. Əgər belədirsə, onda mənim elədiyim kəşf artıq təkrar olunmayacaq.

Milad bayramı ərəfəsi idi. Səhifəni gecəyarısı saat üçün yarısına yaxın bir vaxtda qurtardım, özüm üçün bir qədər hava almağa və qəlyan çəkməyə ehtiyatda, heç olmasa, bir neçə dəqiqə saxlamağı sevirdim. Məmnunluqla düşünürdüm ki, çap maşını artıq məni gözləmir, səhər zəlzələ baş verən İrandan gələcək axırıncı xəbəri – teleqramı gözləyir. Agentlik yalnız müxbirin məlumatından bir parçanı vermişdi, bundan sonra ikinci təkan olmuşdu, bu təkan o qədər güclüydü ki, kabel əlaqəsi kəsilmişdi. Radio da susurdu və biz radiostansiyanın artıq uçqunlar içində olduğunu güman eləyirdik. Yalnız öz adamımıza ümid eləyirdik, onun adı Sten Rocers idi. At minicisi kimi cılız birisi idi: bütün yerlər tutulanda belə o, dəfələrlə hansısa hərbi vertolyota özünü sala bilmişdi; onu istisna olaraq nəzərə alırdılar, çünki çəkisi bir çamadanın çəkisindən artıq deyildi.

Ekranda axırıncı ağ, boş düzbucaqlı şəklində titul səhifəsinin maketi görünürdü. İranla əlaqə əvvəlki təki yox idi. Hərçənd dərhal bir neçə teletayp taqqıldayırdı, amma səsin Türkiyə xəttinə qoşulandan gəldiyini mən dərhal ayırd edə bildim. Bu, vərdişdən yaranır, mexaniki

olaraq bunu öyrənirsən. Məni o təəccübləndirirdi ki, hələ də ağ düzbucaqlı boş idi, hərçənd teletayp qoşulan kimi də ekranda sözlər görünməliydi, amma bu fasilə bir, ya da iki saniyədən artıq sürmədi. Sonra xəbərin olduqca qısa mətni bütünlüklə ekranda göründü və məni sarsıtdı. Mətni yadımda saxlamışam. Başlıq artıq hazır idi, altından da mətn gedirdi: «Şerabadda yerli vaxtla saat onla on bir arasında yeddi və səkkiz bal gücündə yeraltı təkanlar təkrar olunub. Şəhər uçqunlar altındadır. Ölənlərin sayı minə yaxındır, altı min adam evsiz-eşiksiz qalıb».

Siqnal səsləndi, məni mətbəə çağırırdı – düz saat üç idi. Belə yığcam mətndə boş yer qaldığı üçün mətnə iki cümlə əlavə elədim və düyməni basaraq hazır səhifəni mətbəəyə göndərdim. Burada isə səhifə birbaşa linotipçilərə verilir, yığılır və çap maşınına gedirdi. Mənim işim qurtarmışdı; ayağa qalxdım, oynaqlarımı ovuşdurdum, sönən qəlyanımı yandırdım və bu zaman döşəmənin üzərindəki kabeli gördüm. Kabel yuvasından çıxmışdı. Ankaradan gələn teletaypın kabeli idi. Məhz Rocers bu teletaypdan istifadə eləmişdi. Kabeli yerdən qaldıranda ani olaraq ağlımdan cəfəng bir fikir keçdi: teletayp səslənməmişdən əvvəl kabel döşəmədəymiş. Aydındır, bu, ola bilməzdi, çünki teletaypla əlaqə olmadan kompüter məlumatı necə qəbul eləyə bilərdi? Tələsmədən teletaypa yaxınlaşdım, mətnin çap olunduğu kağızı cırıb çıxararaq, gözümə yaxın tutdum. Mətn mənə bir qədər başqa cür tərtib olunmuş kimi gəldi, amma mən yorulmuşdum, özümü əzgin hiss eləyirdim və buna görə də yaddaşıma etibar eləmirdim. Birinci səhifəni görmək istədiyimdən bir daha kompüteri işə saldım və mətnləri müqayisə elədim. Həqiqətən də, bir-birindən fərqlənirdilər, amma əhəmiyyətsiz dərəcədə. Teletaypın mətni belə idi: «Şerabadda yerli vaxtla saat onla on bir arasında bir-birinin ardınca yeddi və səkkiz bal gücündə təkanlar olmuşdur. Şəhər tamamilə dağılmışdır. Ölənlərin sayı beş yüzü keçir, altı min adam isə ev-eşiklərini itirib». Ayaq üstə dayanmışdım, gah ekrana baxırdım, gah da əlimdəki kağıza, nə düşünə, nə də nəsə eləyə bilirdim. Mənaca hər iki mətn olduqca yaxın idi; yeganə hiss olunacaq fərq ölənlərin sayındaydı: Ankara bu rəqəmi beş yüz kimi vermişdi, kompüter isə onu iki dəfə artırmışdı.

Adi jurnalist refleksi məni mətbəəyə bağlanmağa məcbur elədi.

– Qulaq as, – Lenqorna dedim (onda növbətçi linotip o idi), – İran xəbərində səhv aşkar olunub, birinci səhifə, üçüncü sütun, axırıncı sətir. Min olmamalıdır...

Bu zaman mən dayandım, çünki Türkiyə teletaypı yenidən işlədi və taqqıldatmağa başladı: «Diqqət. Axırıncı məlumat. Diqqət. Zəlzələdə ölənlərin sayı artıq min nəfəri keçib. Rocers. Son».

– Hə, nə oldu? Necə olmalıdır? – aşağıda Lenqorn soruşdu.

Mən köks ötürdüm.

– Oğlan, məni bağışla, – ona dedim, – səhv yoxdur. Günahkaram. Hər şey qaydasındadır. Necə varsa, qoy elə də getsin.

Dəstəyi cəld yerinə qoyaraq teletaypa yaxınlaşdım və bu əlavəni altı dəfə oxudum. Hər dəfə də bu, mənim daha az xoşuma gəlməyə başladı. Məndə belə hiss yaranırdı ki, sanki, ayağımın altındakı döşəmə yumşalır. Kompüterin ətrafına fırlanaraq ona inamsızlıqla, hətta bir qədər qorxu hissi ilə baxırdım. O, buna necə müvəffəq olmuşdu? Heç nə başa düşmürdüm və hiss eləyirdim ki, baş verən hadisə üzərində nə qədər çox düşünəcəyəmsə, onu ayırd eləmək də bir o qədər çətin olacaq.

Evdə, artıq yataqda olanda yata bilmirdim. Mən psixi sağlamlığımın hesabına bu nəhs əhvalat haqqında düşünməyi özümə qadağan eləməyə çalışırdım. Əgər ciddi demək lazım gələrsə, bu, əhəmiyyətsiz şey idi. Bu haqda kimsəyə danışa bilməyəcəyimi bilirdim, heç kim mənə inanmazdı. Bunu sadəlövh və pis zarafat kimi qəbul eləyərdilər. Yalnız bu zaman mən gördüyümlə kifayətlənməməyi və teletaypa qoşulmayanda kompüteri müntəzəm olaraq müşahidə eləməyi qərara aldım və bu zaman, sanki, bir yüngüllük – hər halda, yuxuya gedə bilmək üçün bəs eləyəcək qədər yüngüllük hiss elədim.

Olduqca yaxşı əhvalda yuxudan oyandım və bir şeytan bilir, bu tapmacanın həlli mənə necə aydın oldu və ya heç olmasa, tapmacanın həllini tapmağa mənə güclü ipucu verdi. Teletayplar işləyəndə titrəyir. Onların titrəyişindən hətta kabellər yuvalarından çıxır. Onların titrəyişləri

alternativ siqnal mənbəyi ola bilməzdimi? Hətta mən zəif və ləng insan ağlımla ayrı-ayrı teletaypların səsini ayırd eləyə bilirdim. Paris teletaypını işə düşən andan metal zərbəsinə xas olan səsindən tanıyırdım. Bu siqnalları qəbul eləyən avadanlıqlar isə insandan yüz dəfələrlə çox həssasdır və literin zərbələri arasındakı güclə hiss olunan fərqləri tamamilə müəyyən eləyə bilərdi. Əlbəttə, bu, yüz faiz mümkün deyildi, buna görə də kompüter teletaypın mətnini sözbəsöz təkrar eləmədi, onu bir qədər dəyişdirdi, sadəcə, özü informasiyada çatmayanı ora əlavə elədi. Ölənlərin sayına gələndə isə, kompüter burada özünü riyazi maşın kimi büruzə verdi, dağılan evlər, zəlzələnin baş verdiyi zaman və ölənlərin sayı arasında mütləq statistik korrelyasiya[1] asılılığı olmalıdır. Həqiqi rəqəmi xəbər verərkən kompüter, ola bilsin ki, özünün ildırımsürətli hesablama aparmaq qabiliyyətindən istifadə eləmişdi, buradan da ölənlərin sayını min nəfər göstərmişdi. Belə hesablamalar aparmayan bizim müxbir isə yerindəcə ona deyilən rəqəmləri vicdanla bizə ötürmüş, tezliklə, daha dəqiq informasiya alandan sonra isə düzəlişi göndərmişdi. Kompüter ona görə bu məsələdə öz məlumatlarını eşitdikləri əsasında yox, dəmir yaddaşında qoruduğu statistik materiallar əsasında hazırladığı üçün bu məsələdə üstün olmuşdu. Bu izahat məni bütünlüklə sakitləşdirdi. Axı İBM–0161 passiv ötürücü halqa deyildi; əgər teletayp orfoqrafik və ya qrammatik səhv eləyirsə, səhv saniyənin cüzi bir hissəsində kompüterin ekranında görünür və həmin an da düzgün ifadə ilə əvəz olunur. Bəzən bu, o qədər sürətli olur ki, insan düzəlişi qeyd eləməyi çatdırmır və onu gec, teletaypın mətni ilə kompüterin ekranındakı mətni müqayisə eləyəndə aşkar eləyir. İBM təkcə avtomatik metranpaj deyil, o həm də agentlik və kitabxana maşınına oxşar şəbəkəyə qoşulub və ondan daha dəqiq informasiyalarla zənginləşən əlavə məlumatlar tələb eləmək olar. Bir sözlə, mən bütün bunları özümə çox yaxşı izah elədim və yaxın növbətçiliyim zamanı bir neçə sınaq keçirməyi qərara aldım; amma bu haqda, o cümlədən Milad bayramı ərəfəsində baş verən hadisə haqqında heç kimə heç nə deməyəcəkdim – belə daha yaxşı idi.

[1] Korrelyasiya – anlayışların, hadisələrin, əşyaların qarşılıqlı əlaqəsi

Mənim imkanlarım kifayət qədər idi. Artıq iki gündən sonra yenidən xarici xidmət salonunda oturmuşdum və Beyrut teletaypı Aralıq dənizindəki Altıncı donanmaya məxsus sualtı qayığın məhvi haqqında məlumat verəndə ayağa qalxdım; gözümü mətnin sözləri canlanan ekrandan çəkmədən gizlicə, sakit bir hərəkətlə kabeli yuvasından çıxardım. Altı saniyə ərzində mətn yarı sözdə kəsilmiş haldaca ekranda donub-qaldı, sanki, kompüter sonra neyləmək lazım olduğunu bilmirdi. Lakin onun heyrəti uzun sürmədi, az qala, dərhal ağ fonda dalınca gələn növbəti cümlələr görünməyə başladı. Həyəcanla teletaypdan götürdüyüm mətnlə bu mətni müqayisə eləməyə başladım. Mənə artıq məlum olan əhvalat təkrarlanırdı: kompüter ekranında teletaypın məlumatını canlandırırdı, amma yalnız başqa sözlərlə: «Altıncı donanmanın nümayəndəsi məlumat verdi» əvəzinə «dedi», «axtarışlar davam eləyir» əvəzinə «gedir»; daha bir neçə buna oxşar cüzi fərqlər mətnləri bir-birindən fərqləndirirdi.

Məlumdur ki, insan qeyri-adiliyə necə asanlıqla alışır, əgər o başa düşür və ya əgər onun mexanizmini başa düşdüyünü zənn eləyirsə. Məndə artıq belə təəssürat yaranmışdı ki, pişik siçanla oynayan kimi, mən kompüterlə oynayıram, onu ələ salıram və vəziyyətə nəzarət eləyirəm. Səhifənin maketi çoxsaylı ağ yerlərlə işıldayır və onları dolduran məlumatlar indi, bu qızğın vaxtda bir neçəsi eyni vaxtda gəlirdi. Mən ümumi dəstədə növbə ilə uyğun gələn kabeli tapır və onları bir-birinin ardınca yuvasından çıxarırdım, beləliklə, əlimdə artıq altı və ya yeddi kabel vardı. Kabellərdən biri qoşulu olmayanda belə kompüter yenə sakit surətdə işləməkdə davam eləyirdi. Mən qərara gəldim ki, deməli kompüter hərflərin və sözlərin taqqıltı səslərini bir-birindən ayıra bilir; o, nəyisə tuta bilməyəndə də ani olaraq kənar qiymətləndirmənin və ya hansısa riyazi metodun köməyi ilə mətn əlavə olunur.

Hipnoz olunubmuş kimi hərəkət eləyirdim. Fikirlərimi bir yerə cəmləyəndən sonra növbəti teletaypın işə düşməsini gözləyirdim. Roma teletaypı taqqıldamağa başlayanda kabeli dartdım, amma elə güclü dartdım ki, təkcə bu kabel yox, eyni zamanda teletaypı qidalandıran digər kabel də çıxıb əlimdə qaldı və məlum işdir ki, cihaz söndü. Artıq

qidalandırma kabelini yerinə taxmaq istəyirdim, amma sanki, məni nəsə itələdi və ekrana nəzər saldım.

Roma teletaypı susmuşdu, kompüter isə heç nə olmayıbmış kimi «Son xəbərlər» başlığı altında italyan hökumətinin böhranı üçün saxlanılmış yeri doldururdu. Nəfəsimi tutaraq yenidən döşəmədə və dizlərimdə qəribə hallar olduğunu hiss eləyərək ekrana yaxınlaşdım və «...baş nazir Batista Kastellianini təyin elədi...» kimi bu sadə sözləri o dünyadan gələn xəbər kimi oxudum. Tələsik Roma teletaypını baş gücləndirici kabelə qoşdum ki, nə qədər mümkünsə, hər iki mətni tez müqayisə eləyə bilim.



Ooo, indi mətnlər arasındakı fərqlər əhəmiyyətli dərəcədə böyük idi, lakin kompüter həqiqətdən kənara çıxmamışdı, daha doğrusu, məlumatın mətnindən. Baş nazir, doğrudan da, Kastelliani olmuşdu, amma bu cümlə ayrı kontekstdə idi və ekrandakına nisbətən altı sətir aşağıdaydı. Məndə belə təəssürat yaranırdı ki, bir-birindən asılı olmayaraq, iki müxbir eyni bir hadisə haqqında öyrənərək qeydlərinin mətnlərini öz istədikləri kimi redaktə eləmişdi. Dizlərim zəiflədiyindən axırıncı dəfə öz fərziyyəmi xilas eləmək üçün oturdum, amma bunun nəticəsiz olduğunu hiss elədim. Mənim bütün rasionalizmim[1] bircə anda alt-üst oldu: əgər teletayp müqəvva kimi kar və ölü idisə, kompüter teletaypın titrəyişlərinə əsasən mətni necə oxuya bilərdi? O, heç cür bizim müxbirin işlədiyi Roma teletaypının titrəyişini hiss eləyə bilməzdi! Özümü pis hiss eləməyə başladım. Əgər kimsə bu zaman içəri daxil olsaydı, tər basmış, baxışları dalğın, hələ də tərli ovcunda bir yığın kabeli sıxan məni görüb, Allah bilir, hansı şübhələrə düşərdi: mən cinayət başında yaxalanan cinayətkara oxşayırdım.

Özümü küncə sıxışdırılmış siçovul kimi hiss eləyirdim və acıqlandırılmış siçovul kimi də hərəkət eləməyə başladım: qızğın halda bütün teletaypları söndürdüm, beləliklə, bir an sonra axırıncı taqqıltı da kəsildi. Məzar sükutunda öz kompüterimlə təkbətək qaldım. Bu zaman fövqəladə bir hadisə baş verdi, bəlkə də, əvvəl baş verənlərdən daha qəribə bir hadisə. Səhifənin maketi hələ hazır olmasa da, mətnlərin daxil olması olduqca ləngiyirdi. Bundan əlavə, yeni, ləng daxil olan mətnlər də dəqiq mahiyyət kəsb

---

[1] Rasionalizm – öz işində ağıla və idraka əsaslanma

etmirdi, mənasız olurdu. Daha bir dəqiqə keçəndən sonra sətirlər ekrandakı öz yerlərinə doğru sürünməyə başladı, sonra birdən hər şey dayandı.

Bir neçə mətn mənasız – komik məzmunda idi. Onların arasında futbol matçı haqqında qeydlər var idi; oyunun son nəticəsi yazılmalı olan yerdə hər iki komandanın oyunçularının gözəl davranışları haqqında boş bir cümlə yazılmışdı. İrandan gələn növbəti məlumat zəlzələnin kosmik miqyasda olması, hətta Ayda belə müşahidə edilməsi haqqında olan qeydlə kəsilirdi. Bu xəbərlər kənd, şəhər üzrə verilmirdi. Kompüterin ilham aldığı müəmmalı gizli mənbələr yoxa çıxmışdı.

Lakin hər şeydən öncə səhifəni hazırlamaq lazım idi, buna görə də tələsik bütün teletaypları qoşdum və yalnız çap maşını işləməyə başlayanda müşahidə elədiklərim haqda düşünməyə başladım. Bu, çox gözəl, etibarlı işləməyin nümayişinin və heç də ondan az gözəl olmayan dərəcədə pozulmasının mənbəyini tapa bilməsəm, rahat olmayacağımı bilirdim. Bu işdən xəbərdar olmayanın ağlına gələ bilərdi ki, sadəcə, uyğun sualı kompüterin özünə vermək lazım idi: bir halda ki kompüter belə ağıllıdır, eyni zamanda da müntəzəm olaraq sözəbaxandır, qoy o, teletayplar söndürüləndə belə hansı mexanizmlərin köməyi ilə işlədiyi haqqında məlumat versin, sonra nəyə görə bu işi dayandırdığını izah eləsin. Belə fikirlər elektron beyinlər haqqında məşhur olan söhbətlərin təsiri altında yarana bilər, amma kompüterlə insanla danışdığın kimi danışa bilməzsən: ağıllıdır, ya axmaqdır, fərq eləməz, ümumiyyətlə, o, şəxsiyyət deyil! Ona qalarsa, onda biz xarab olan yazı maşınından onun xarab hissəsini harada və necə düzəltməyi deyəcəyini gözləməliyik. Kompüter şüurlu surətdə yanaşmadığı informasiyanı yenidən işləyir. Onun ərsəyə gətirdiyi cümlələr sintaksisin relsləri ilə gedən qatarlardır. Əgər onlar relslərdən çıxırlarsa, demək, onda nəsə düzgün işləmir, lakin özü bu haqda heç nə bilmir və buna görə də onun haqqında lampa, ya da stol kimi danışmağa tam əsasımız var.

Bizim İBM sərbəst surətdə şablon qəzet mətnlərini tərtib eləməyə və yenidən tərtib eləməyə qadir idi, bundan artıq heç nəyə. Ayrı-ayrı mətnlərin nə əhəmiyyəti olduğunu

həmişə yalnız insan müəyyənləşdirə bilər. İBM iki bir-birini tamamlayan mətni bir mətndə birləşdirə, maraqlı məlumatlar üçün, məsələn, belə nəticələrin hazır nümunələrindən – hansı ki onun yaddaşında yüz minlərlə belə nümunə var – istifadə eləyərək, teleqramlar üçün lazımi girişi seçə bilər. Belə girişlər teleqramın mətninə yalnız ona görə uyğun olurdu ki, İBM statistik təhlillər apararaq, necə deyərlər, əsas sözləri tuturdu; məsələn, əgər teleqramda «qapı», «cərimə», «rəqib komanda» sözləri təkrar olunurdusa, kompüter idman repertuarından nəsə seçirdi. Bir sözlə, kompüter uyğun olaraq oxu dəyişib qatarı qoşan və onu lazım olan istiqamətə yola salan, lakin onun yükünün dəyəri haqqında heç nə bilməyən dəmiryolçuya oxşayır. O, təhlillərin və nəticələrin riyazi əməliyyatlarına uyan sözün, cümlənin və deyimin təmiz xarici xüsusiyyətlərinə görə istiqamət götürür. Ondan hansısa köməyi gözləmək mümkün olan iş deyil.



Evdə gecəni düşüncələr içində yuxusuz keçirdim. Kompüterin işində belə bir qanunauyğunluq müəyyən elədim: o, informasiyanın mənbəyindən nə qədər çox təcrid olunurdusa, onu yenidən bir o qədər pis qururdu. Əgər mənim iyirmi iki il jurnalist işlədiyim nəzərə alınarsa, bu, mənə tamamilə anlaşılan görünürdü. Sizin bildiyiniz kimi, «*Taym*», «*Nyusuik*» kimi çoxtirajlı, həftəlik qəzetlərin redaksiyaları bir-birindən asılı olmadan fəaliyyət göstərirlər. Onları yalnız eyni bir dünyada yaşamaları və informasiyaların eyni mənbələrə əsaslanmaları yaxınlaşdırır. Bundan əlavə, onların çox şeydə bir-birinə oxşayan oxucuları var. Buna görə də onlarda çap olunan məqalələrin bir-birinə bənzəməsi təəccüblü deyil. Bu, öz aralarında rəqabət aparan hər iki redaksiyanın əldə elədikləri bazara uyğun özünəməxsus proses olaraq mükəmməl şəkildə axıb gedir. Dünya hadisələrinin, ya da bir ölkədə baş verən hadisələrin həftəlik icmalının hazırlanması texnikanın işidir; onları bu mövqedən, daha doğrusu, Birləşmiş Ştatların jurnalistika elitasının mövqeyindən, eyni təhsil və analoji əsas informasiyalar və oxucuya mümkün qədər çox təsir eləmək şərtləri daxilində yazılmasında, eyni zamanda və bir-birindən asılı olmadan tərtib olunan mətnlərin tez-tez əkizlər kimi bir-birinə bənzəməsində heyrətləndirici heç nə yoxdur. Onla-

rın oxşarlığı özünü cümlələrin eyniliyində yox, ümumi istiqamətdə, üslubda, emosional əhvalda, tələffüzün tərtibində, bəzi ədəbsiz təfərrüatların işıqlandırılmasında, bir-birinə zidd, məsələn, hansısa siyasətçinin xarakterinə aid olan cizgilərin müqayisə olunmasında büruzə verir. Yəni məharətlə oxucunun diqqətini çəkmək və ona etibarlı informasiya mənbəyindən istifadə elədiyini aşılamaq hər bir təcrübəli jurnalistin əsas işini təşkil eləyir. Sözün məlum mənasında bizim İBM belə jurnalistin maketi idi. O, qaydaları və qəbulları bilirdi, başqa sözlə, bizim hər birimizin bacardığını o da bacarırdı. Beləliklə, bu İBM özündəki proqramlaşdırılan mühafizəkarlığın köməyi ilə göndərilən maraqlı dəlilləri müqayisə eləməsi ilə adamı şoka salan sərt frazeologiya dahisi oldu. Mən bütün bunları bilirdim, amma onu da bilirdim ki, kompüteri sorğu-suala tutmaq mümkün deyil. Nəyə görə o, teletayplardan təcrid olunanda elə yaxşı işləyirdi? Nəyə görə bu iş belə tez kəsildi? Nəyə görə sonra o, sayıqlamağa başladı? Hələ də bu suallara cavab tapacağıma ümid eləyirdim.

Növbəti növbətçilikdən qabaq mən Rio-de-Janeyrodakı müxbirimizə zəng eləyib xahiş elədim ki, gecə seansının başlanğıcında Argentina və Braziliya boksçularının görüşlərinin nəticələri haqqında yalan məlumat göndərsin. O, braziliyalıların bütün qələbələri haqqında argentinalıların qələbələri kimi məlumat verməliydi və əksinə. Bizim danışığımız vaxtı görüşlərin nəticələri məlum ola bilməzdi, görüş gecədən xeyli keçmiş başlayırdı. Nəyə görə məhz Rio-de-Janeyroya müraciət elədim? Ona görə ki, peşəkarlıq nöqteyi-nəzərindən inanılmaz şeyi xahiş eləyirdim, orada olan bizim müxbirimiz, mənim tanışım Sem Gernsbek isə heç vaxt heç nə haqqında soruşmayan nadir adamlardan idi.

Təcrübəm mənə belə bir təxmin irəli sürməyə imkan verirdi ki, kopmüter Semin öz teletaypı ilə göndərəcəyi yalan məlumatı təkrar eləyəcək. (Gizlətməyəcəyəm, bu mövzuyla bağlı mənim fərziyyəm hazır idi: mən təxmin eləyirdim ki, teletayp, elə bil, radioötürücüyə çevrilir, onun kabelləri isə antenanın funksiyasını yerinə yetirir; hesab eləyirdim, mənim kompüterim salonda kabellərin ətrafında yaranan elektromaqnit dalğalarını tutmağa qadirdir;

belə ki, çox ehtimal, radioqəbuledici kimi onun həssaslığı da çox yüksəkdir.) Gernsbek yalan məlumatı ötürəndən dərhal sonra da onu təkzib eləməliydi, onlardan birincisini mən, əlbəttə, məhv eləyəcəkdim, izi belə qalmayacaqdı. Düşündüyüm plan mənə çox gözəl görünürdü. Təcrübəmin daha çox inandırıcı görünməsindən ötrü mən matçdakı fasiləyə qədər kompüterlə teletaypın normal əlaqəsini qurmağı qərara aldım, fasilədən sonra isə teletaypı söndürəcəkdim.

Öz hazırlıqlarımı, emosiyalarımı, o gecənin şəraitini təsvir eləməyəcəyəm, yalnız sizə nə baş verdiyini deyəcəyəm. Kompüter fasiləyə qədər görüşlərin səhv nəticələrini səhifəyə yığdı, fasilədən sonra isə düzgün nəticələri. Siz bunun nə demək olduğunu başa düşürsünüzmü? Nə qədər ki teletayp qoşulmuşdu, o, heç nəyi yenidən qurmur, tərtib eləmirdi, sadəcə, kabellə Riodan ona verilən mətni sözbəsöz təkrarlayırdı. Teletayp söndürüləndən sonra isə o, teletaypa və mənim fərziyyəmə görə, antenanın funksiyasını yerinə yetirən kabelə əsaslanmağa son qoydu və yarışların həqiqi nəticələrini xəbər verməyə başladı! Yəni bu zaman Gernsbekin nə taqqıldatdığının onun üçün heç bir əhəmiyyəti yox idi.



Amma hələ bu da hamısı deyildi. O, görüşlərin həqiqi nəticələrini müəyyən eləyə bildi, yalnız axırıncı, ağırçəkililərin döyüşü ilə bağlı səhv elədi. Bir məsələ şübhəsiz idi: teletayp söndürüləndən sonra kompüter teletaypdan asılılığına son qoydu – məndə olan teletaypa da, Rioda olana da. Məlumatı o, hansısa başqa yolla alırdı.

Qan-tər içində bütün bunları həzm eləməyə çalışarkən Braziliya teletaypı işlədi. Bizim danışdığımız kimi, Sem həqiqi nəticələri verdi. Son məlumatında o, düzəliş eləmişdi: hakimlərin qərarı ilə ağırçəkililərin döyüşünün nəticəsi ləğv edilmişdi, onlar rinqdə qalib gələn argentinalının əlcəklərinin çəkisinin qaydalara uyğun gəlmədiyini müəyyənləşdirmişdilər.

Beləliklə, kompüter bircə dəfə də səhv eləməmişdi. Mənə daha bir məlumat mütləq lazım idi. Mən onu səhifə üzərində işimi qurtarandan sonra Semə zəng eləyib öyrəndim; o artıq öz evində yatırdı və yuxudan oyanandan sonra çəkməçi kimi söyüş söyməyə başladı. Onu başa düşmək

asan idi. Çünki mənim ona döşədiyim suallar axmaqcasına görünən, səfeh suallar idi: ağırçəkililər arasında döyüşün nəticələri haçan elan olundu və nəyə görə hakimlər qərarlarını dəyişdirdilər? Sem həm birinci, həm də ikinci sualıma cavab verdi. Demək olar, qalib elan olunan kimi də qərar ləğv edilmişdi, belə ki, hakim qalibin əlini qaldıranda əlcəyin dərisinin altında ağır bir şey hiss eləmişdi: lay-lay bir-birinə yapışdırılmış plastik qat döyüş vaxtı hərəkət eləyirmiş. Sem bunlar baş verməmişdən əvvəl, nokauta düşən braziliyalı hələ rinqdə uzanarkən teletaypa qaçmışdı. Buna görə də kompüter öz məlumatlılığına görə əsla Semin fikirlərini oxumaq bacarığına borclu deyildi; o, döyüşün həqiqi nəticəsini Semin hələ bu nəticəni bilmədiyi vaxtda elan eləmişdi.

Az qala, yarım il mən bu gecə eksperimentlərini keçirdim və çox şey öyrəndim, hərçənd əvvəl olduğu kimi, heç nə başa düşmürdüm. Teletaypdan ayrılan kompüter əvvəlcə iki saniyəliyə donurdu, sonra 137 saniyə ərzində məlumatı verməkdə davam eləyirdi. Bu zaman müddətində o, hadisələr haqqında hər şeyi bilirdi, bu müddətdən sonra isə heç nəyi. Bəlkə də, mən bunu birtəhər mənimsəyərdim, ancaq daha dolaşıq bir kəşf elədim: kompüter gələcəyi görürdü, həm də səhvsiz. İnformasiyanın baş vermiş, ya da indicə baş vermək üzrə olan hadisəyə dəxli olmasının onun üçün heç bir əhəmiyyəti yox idi, əsas olan bu hadisənin 2 dəqiqə 17 saniyə ərzində baş verməsiydi. Əgər mən ona teletaypda uydurulmuş informasiya ötürürdümsə, kompüter onu itaətlə təkrarlayırdı, amma kabeli çıxardanda dərhal da dayanırdı, kiminsə uydurduğunu yox, əslində baş verən hadisənin təsviriylə davam eləməyi bacarırdı. Heç olmasa, mən nəticə çıxardım və nəticəni özümdən kənara qoymadığım dəftərə qeyd elədim.

Mən tədricən buna alışdım və özüm də bilmirəm haçan bunu köpəyin özünü aparması ilə müqayisə eləməyə başladım. Onu da izə salmaq lazım gəlirdi, izə düşməmişdən əvvəl ona – əsas hadisələrin nəticələrini qoxulamaq üçün verirdilər. İt kimi o da faktları mənimsəmək üçün bir qədər vaxt tələb edirdi, faktlar az olanda isə dayanırdı, ya ümumi cümlələrlə cavab verir, ya da yalançı izlə gedirdi. Əgər mən əvvəlcədən tamamilə birmənalı olaraq adları

müəyyən eləmirdimsə, o, məsələn, eyni adı olan yaşayış məskənlərinin adını qarışdırırdı. İt kimi onun üçün də hansı izlə getməsinin heç bir əhəmiyyəti yox idi, amma o, izə düşəndən sonra 137 saniyə ərzində tamamilə qüsursuz işləyirdi.

Bizim, adətən, səhərlər saat üçlə dörd arasında başlayan gecə təcrübələrimiz istintaq təhqiqatına bənzəyirdi. Mən onu divara dirəməyə cəhd eləyir, bir-birini inkar edən alternativ çarpaz sualların taktikasından yararlanmağa çalışırdım; özünün bütün sadəliyinə baxmayaraq, hələlik mənim ağlıma valehedici bu fikir gəlmirdi.

Sizin də xatırladığınız kimi, Rocers Şerabaddakı zəlzələ haqqında Ankaradan xəbər vermişdi, başqa sözlə, məlumatı verənin məhz hadisənin baş verdiyi yerdə olması mütləq deyildi. Lakin hələlik söhbət dünyəvi hadisələrdən getdiyindən istisna eləmək olmazdı ki, insan, ya da heç olmasa, hansısa bir canlı hadisəni müşahidə eləyir, kompüter isə hansısa üsulla bundan yararlanmağı bacarır. Mən yerin adını elə seçməyi qərara aldım ki, orada əvvəlcədən insan yaşamadığı məlum olsun; söhbət Marsdan gedirdi. Mən kompüterə Sirtis Minorun koordinatlarını verdim və «indi Sirtis Minorda günəşli gündür, ətrafa baxanda biz görürük...» cümləsinə çatanda kabeli yuvasından çıxartdım. Bir saniyəlik fasilədən sonra kompüter cümləni belə bitirdi: «... günəş şüaları içində olan planeti...» və bununla da dayandı. Mən bunu müxtəlif üsullarla on dəfə təkrarladım, amma bunun köməyi ilə bircə dənə belə olsun, maraqlı təfərrüata nail ola bilmədim, hər şey ümumi sözlərlə təsvir olunurdu. Bu yolla da müəyyən elədim ki, planetin kompüterin xəbərdarolma əhatəsinə dəxli yoxdur; özüm də bilmirəm nəyə görə, amma bundan özümü bir qədər yüngül hiss elədim.

Bundan sonra neyləməli? Mən, əlbəttə, bunlarla sensasiyalı açıqlamalar edər, məşhurlaşar və heç də az pul qazanmazdım, amma bircə dəqiqəliyə də olsa, bu ehtimalı ciddiyə almırdım. Nəyə görə? Özüm də yaxşı bilmirəm. Bəlkə də, ona görə ki, sirrin aşkar olunması məni arxa plana sıxışdıracaqdı. Özlüyümdə zorla redaksiyaya soxulan texniklər dəstəsini, öz aralarında peşəkar jarqonlarında danışan ekspertləri təsəvvür eləyirdim, onların hansı nəti-

cəyə gəlməsindən asılı olmayaraq, mən dərhal boşboğaz və avam birisi kimi işdən kənarlaşdırılacaqdım. Mən yalnız xatirələr yaza, müsahibələr verə və çeklər ala bilərdim. Amma məni hər şeydən az məhz bu təmin eləyirdi. Kiminləsə sirri bölüşməyə hazır idim, amma bu şərtlə: öz haqlarımdan tam istifadə eləyə bilim. Tamamilə etibar elədiyim yaxşı bir mütəxəssisi əməkdaşlığa dəvət eləməyi qərara aldım.

Yaxından yalnız bir nəfəri tanıyırdım – MTİ[1]-dən Milton Hartı. Bu, xaraktercə orijinal və məhz zamanın tələbləri ilə uyuşmayan adam idi; belə ki, o, böyük kollektivdə çətinliklə işləyirdi, bizim zəmanəmizdə isə tək işləyən alimlər nəsli kəsilmiş mastodontlardırlar[2]. Təhsilinə görə Hart fizik idi, ixtisasca informasiya sahəsində işləyən proqramçı idi və bu, məni tamamilə təmin eləyirdi. Doğrudur, indiyə qədər biz onunla özünəməxsus şəraitlərdə görüşmüşdük: hər ikimiz maconq[3] oynayırdıq, digər görüşlərimiz isə müntəzəm olmurdu, amma məhz bu oyun zamanı adam haqqında çox şey öyrənmək olar. Onun qeyri-adiliyi ondaydı ki, o, qəfildən ucadan müxtəlif qəribə fikirlər səsləndirirdi. Bir dəfə o, necə oldusa, məndən soruşdu: «Allah dünyanı səhvən yarada bilərdimi?» Heç vaxt bilmək olmazdı ki, o, ciddi deyir, ya zarafat eləyir, ya da həmsöhbətini masqaraya qoyur. Amma onun, heç şübhəsiz, yaxşı başı var idi; telefonla görüşməyi razılaşdıraraq, yaxın bazar günü onun yanına getdim və ümid elədiyim kimi, onu gizli planıma cəlb edə bildim.

Bilmirəm o, dərhal mənə inandımı? Hart elələrindən deyildi ki, bunu bilə biləsən, amma hər halda, mənim ona danışdıqlarımın hamısını yoxladı və ilk növbədə də mənim ağlıma belə gəlməyəni elədi. O, bizim kompüteri federal şəbəkədən açdı. Dərhal da mənim İBM-imin müstəsna istedadını, sanki, əl ilə sildilər. Gizli qüvvə kompüterdə yox, şəbəkədəymiş. Sizin də bildiyiniz kimi, indi şəbəkədə qırx mindən artıq hesablama mərkəzləri var, amma siz, bəlkə də, bilmirsiniz (Hart mənə deyənə qədər mən bu haqda eşitməmişdim) ki, şəbəkə onurğa sütununun əsəb

[1] MTİ – Massaçusets Texnologiya İnstitutu

[2] Mastodont – qədimdə yaşamış xortumlu böyük heyvan

[3] Maconq – domino daşlarına bənzər sümüklərlə oynanan qədim Çin oyunu

sistemini xatırladan iyerarxik sistem üzrə qurulub. Şəbəkənin hər bir ştatda öz qovşağı var, həm də qovşaqlardan hər biri yaddaşında bütün alimlərin bir yerdə bildiklərindən daha çox məlumatlar saxlayır. Hər bir abonent bir ay ərzində kompüterlə şəbəkədən istifadə eləmə vaxtından asılı olaraq hansısa əmsalların və ədədlərin köməyi ilə hesablanan haqq ödəyir. Kompüterin vəzifəsi şəbəkədəki informasiya gərginliyini bərabər surətdə bölməkdən və xüsusi yaddaş bankı adlandırılan, yəni qapalı informasiyanı – dövlət, hərbi və bu kimi sirləri qoruyub saxlayan yaddaşa nəzarət eləməkdən ibarətdir.

Hart mənə bu haqda deyəndə heyrətdən sifətim uzandı. Mən heç vaxt şəbəkənin mövcudluğu və YUPİ-nin onun abonenti olduğu haqqında eşitməmişdim, mən bu haqda telefonla danışarkən telefon stansiyasının quruluşu haqqında düşündüyümdən çox düşünməmişdim. Öd azlığına görə danlanılması mümkün olmayan Hart qeyd elədi ki, mən kompüterlə gecə təklikdə qalmağımı sərsəm hekayələr ruhunda, qalan dünyadan uzaqlarda romantik görüş kimi təsvir eləmək istəyirəm, amma əksər abonentlər ona tamam başqa cür münasibət bəsləyirlər: onlar, adətən, saat üçlə dörd arasında yatırlar, buna görə də sübhçağı vaxtları az gərginlik istifadə olunur və mənim İBM-im səhər, pik vaxtı olduğundan daha böyük gərginliklə işləyə bilər.

Hart YUPİ-nin abonent kimi ödədiyi hesablara baxdı və məlum oldu ki, iki dəfə mənim İBM-im bütün federal şəbəkənin 60-dan 65 faizinə kimisini istifadə eləyib. Doğrudur, bu ağlasığmaz yüklənmə o qədər də çox davam eləməyib, bir neçə on saniyə, amma kimsə mütləq maraqlanmalıydı ki, nəyə görə agentliyin növbətçi jurnalisti milli gəlirin bütün sütunlarının hesablanmasında lazım olan yüklənmədən iyirmi dəfə artığını istifadə eləyib? İndi, az qala, bütün hesablaşmaları maşınlar aparır və hesabların ödənilməsi üzərindəki nəzarəti də, məlum olduğu kimi, kompüterlər yerinə yetirir; kompüterlərsə heç nəyə heyrətlənmir, ən azından əgər hesab vaxtında ödənilirsə, bunda heç bir problem yox idi, belə ki, hesabı da YUPİ-nin mühasibatlığının kompüteri aparırdı. O da məlum oldu ki, mənim Marsdakı Sirtis Minor mənzərəsinə marağım üçün

YUPİ 29.000 dollar ödəməli olmuşdu, əgər marağımın da təmin olunmadığı nəzərə alınarsa, bu, olduqca çox idi. Kompüter həmin an daş kimi lal-kar olmasına baxmayaraq, gücü daxilində olan hər şeyi eləmişdi və səkkiz dəqiqəlik sükutu ərzində trilyonlarla, billionlarla əməliyyatları yerinə yetirmiş, bu da açıq-aşkar aylıq hesabda öz əksini tapmışdı. Bu şifrlənmiş əməliyyatların xarakterinin bizim üçün tapmaca qalması isə başqa məsələydi. Burada təmiz riyazi sehrbazlıq var idi.

Sizə xəbərdarlıq eləmək istəyirəm ki, bu, ruhlar haqqında hekayə deyildir. Axirət təzahürləri, qabaqcadan hiss eləmə, mistik peyğəmbərlik, lənətləmə, xəyallar və bütün digər düz, aydın, cəlbedici və hər şeydən əvvəl sadə varlıqlar bizim həyatımızdan birdəfəlik gediblər. İBM maşınına federal şəbəkənin baş girişindən girən ruhu dəqiq təsvir eləmək üçün diaqramlar cızmaq, modellər çəkmək, detektiv qismində isə kompüterlərdən istifadə eləmək lazımdır ki, onlar digərlərinə kimi gedib çıxa bilsinlər. Yeni tipli ruh ali riyaziyyatdan doğur və buna görə də ələkeçməzdir. Mən sizin saçlarınızı biz-biz qaldırmamışdan əvvəl Hartın nitqindən bəzi şeyləri danışmalıyam.

İnformasiya şəbəkəsi elektrik şəbəkəsini xatırladır, yalnız enerji əvəzinə ondan informasiya tələb olunur. Elektrik enerjisinin, ya da informasiyanın dövr eləməsi anbara birləşdirilən boru xətlərindəki suyun hərəkətini xatırladır. Cərəyan müqavimət az, ya da tələbat çox olan yerə gedir. Əgər qüvvə kabellərindən birini kəsəriksə, onda elektrik enerjisi özünə dolayı yol tapacaq, bu da qəzaya və çox yüklənməyə gətirib çıxaracaq. Obrazlı desək, mənim İBM-im teletaypla əlaqəsini itirəndən sonra kömək üçün şəbəkəyə müraciət eləyib, şəbəkə də onun çağırışına saniyədə on min kilometrdən artıq sürətlə cavab verib, çünki məhz enerji məftillərlə bu sürətlə hərəkət eləyir. Bu kömək çağırılana qədər iki-üç saniyə keçib, bu müddət ərzində də kompüter susub. Sonra əlaqə necəsə bərpa olunub, amma hansı yolla, bu haqda biz bundan sonrası üçün də bir şey başa düşə bilmirdik.

İndiyə qədər deyilənlərin aşkar fiziki xarakteri var idi və hətta hesablaşmalarda özünü dollar kimi büruzə verirdi, amma yalnız onda əldə olunan məlumatlar təmiz neqativ

idi. Biz artıq kompüterin qeyri-adi istedadını itirməsi üçün neyləmək lazım olduğunu bilirdik: onu informasiya şəbəkəsindən ayırmaq kifayət eləyirdi. Amma biz əvvəlkitək başa düşə bilmirdik ki, şəbəkə ona bu an zəlzələnin baş verdiyi hansısa Şerabada, ya da boks matçının keçirildiyi Riodakı salona kimi gedib çıxmağa necə kömək eləyib? Şəbəkə qapalı sistemlə bir-birinə birləşdirilən kompüterləri təmsil eləyir, kompüterlər xarici dünyaya münasibətdə kor və kar olur, onların girişləri və çıxışları teletayplar, telefon qoşulmaları, korporasiyalarda və ya federal müəssisələrdə qeydə alanlar, banklarda, enerji sistemlərində, böyük firmalarda, aeroportlarda idarə pultları və s. olur. Onun nə gözü var, nə qulaqları, nə şəxsi antenası, nə də həssas ötürücüləri və bundan əlavə, o yalnız Birləşmiş Ştatların ərazisini əhatə eləyir; belə olan halda o, hansısa İran haqqında necə informasiya ala bilər?



Hart da bu haqda mənim bildiyim qədər bilirdi, yəni heç nə bilmirdi, amma özünü qətiyyən mənim kimi aparmırdı; o, belə suallar vermir və mən ona bu sualları döşəməyə cəhd eləyəndə də ağzımı açmağa imkan vermirdi. Məni susdurmağa müvəffəq ola bilməyəndə və mən qəzəblənmiş halda yuxusuz qaldığım gecə saat üçlə dördün arasında asanlıqla dilimdən uçub qopan xoşagəlməz şeyləri ona danışanda da mənə izah elədi ki, o nə falçıdır, nə cadugər, nə də gələcəyi görən.

Şəbəkənin əvvəlcədən planlaşdırılmayan və qabaqcadan görünməyən xassələrini büruzə verdiyi məlum oldu; Marsla olan əhvalat şəbəkənin məhdudluğunu, amma fiziki xarakteri olduğunu göstərirdi, yəni tədqiq oluna bilər və tədqiqat bir müddətdən sonra, yəqin, mənim suallarıma cavab verməyəcək öz nəticələrini verə bilər; belə ki, elmdə belə sualların qoyulması, ümumiyyətlə, qəbul edilməyib. Pauli prinsipinə əsasən, hər bir kvant vəziyyəti yalnız bir elementar zərrəcik tərəfindən tutula bilər, daha iki, beş və ya milyon zərrəcik tərəfindən yox və fizika yalnız belə müəyyənləşmə ilə məhdudlaşır, buna görə də ona sual vermək olmaz, çünki bütün zərrəciklər tərəfindən bu qanuna ciddi əməl olunur və kimsə, ya nəsə zərrəciklərə özlərini başqa cür aparmağı qadağan eləyir. Təyin edilə bilməmə prinsipinə əsasən isə zərrəciklərin özünü aparması yalnız statistik

olaraq təsvir olunur və bunun sərhədlərində onlar özlərinə klassik fizikanın nöqteyi-nəzərindən ədəbsiz hesab olunan, hətta dəhşətli şeylərə icazə verirlər, beləliklə də, özlərini aparmaq qaydalarını pozurlar; amma bu nə qədər ki təyin oluna bilməmə prinsipinin razılığı ilə baş verir, onları cinayət yerində, bu qanunu pozduqları yerdə müəyyən eləmək olmur. Yenə də soruşmaq olmaz ki, zərrəciklər təyin oluna bilməmə zonası daxilində özlərini niyə belə ədəbsiz aparırlar, kim onlara özlərini belə aparmağa icazə verir; sağlam düşüncənin əksinə olaraq belə şeylərin fizikaya aidiyyəti yoxdur. Bəzi hallarda, həqiqətən də, zərrəciklərin özlərini təyin oluna bilməmə hüdudlarında cəzasız qalacağına tamamilə əmin olan cinayətkar kimi apardıqlarını hesab eləmək olar, buna görə də onların fəaliyyət metodları elədir ki, kimsə onları cinayət yerində yaxalaya bilmir, bu heç bir nəticəyə gətirməyən, amma ziyanlı qatma-qarışıqlığa aparıb çıxaran antroposentrik[1] düşüncə üsuludur, çünki elementar zərrəciklərə insanın məkrliliyi və hiyləsi də əlavə olunur.

Deməli, belə mühakimə yürütmək olar ki, informasiya şəbəkəsi yer üzündə nələr baş verdiyi haqqında informasiya almağa qadirdir, hətta şəbəkənin, heç bir ötürücünün, ümumiyyətlə, olmadığı yerlərdən də. Görünür, bu nəticəyə gəlmək olar ki, şəbəkə teleoloji[2] qradiyentlə[3] özünün «şəxsi qavrama sahəsi»ni yaradır, ya da məlum terminologiyadan istifadə eləyərək, lakin heç bir elmi dəyəri olmayan başqa yalançı zərrəciklər uydurur; söhbət ondan gedir ki, hansı sərhədlərdə, hansı başlanğıc və məhdud şərtlərdə şəbəkə fəaliyyət göstərir, qalanlarını isə gələcəkdə fantastik roman yazanların ixtiyarına buraxmaq lazımdır. Bizi əhatə eləyən dünyanı görmə, eşitmə və digər orqanlar olmadan da dərk eləməyin mümkün olduğunu biz artıq bilirik, çünki bu, eksperimental təcrübələrlə sübuta yetirilmişdir. Fərz eləyək ki, bizim hesablama proseslərinin maksimum sürətini təmin eləyən optimizatoru olan rəqəmli maşınımız var və bu maşın

---

[1] Antroposentrik – insanın bütün kainatın mərkəzi olması və bütün kainatın son məqsədinin insan olmasını təlqin eləyən cərəyan

[2] Teleoloji – təbiətdə hər şeyin müəyyən məqsədlə yarandığını və hər bir inkişafda qabaqcadan müəyyən olunmuş məqsədin həyata keçirildiyini iddia edən idealist nəzəriyyə

[3] Qradiyent – hər hansı bir fiziki kəmiyyətin uzunluq vahidinə keçirildikdə artma və ya azalma ölçüsü

yarısı günəşlə işıqlandırılan, yarısı isə işıqlandırılmayan meydanda qoyulub. Əgər maşın günəşin altında olarkən qızacaq və hesablama sürəti aşağı düşəcəksə, optimizator mühərriki işə salacaq və maşın meydanın günəş tutmayan hissəsinə keçəcək, kölgə çəkilməyənə qədər soyuyacaq və yaxşı işləməyə başlayacaq. Belə olan surətdə maşının gözü olmasa da, işığı kölgədən ayıra biləcək. Olduqca primitiv nümunədir, lakin bu göstərir ki, xarici mühitə münasibətdə heç bir duyğu orqanı olmadan da bizi əhatə eləyən mühitdə istiqaməti müəyyən eləmək olar.

Hart hər ehtimala qarşı bir müddətə məni susdura bildi və özünün hesablamaları, eksperimentləri ilə məşğul oldu, mənsə düzgün hesab etdiklərim haqqında düşünmək fürsəti əldə elədim. Bunu o artıq mənə qadağan eləyə bilməzdi. «Bəlkə də, nə vaxtsa hansısa növbəti müəssisə öz kompüterini şəbəkəyə qoşacaq, – mən düşünürdüm, – şəbəkənin böhranlı başlanğıcı geri qalmış olacaq və şəbəkə orqanizmə dönəcək». Dərhal da ağlıma Moloxun – kabellərdən caynaqları olan elektron çubuqlardan ibarət nəhəng hörümçəyin surəti gəlir; hörümçək Qayalı dağlardan Atlantik okeanına qədər olan yerdə torpağa basdırılıb, məktubları sayır və təyyarədə sərnişin yerlərini müəyyən eləyir, eyni zamanda, adamları əsarət altına almaq və Yer kürəsini ələ keçirmək planını da qarnında gəzdirir. Bütün bunlar, əlbəttə, cəfəngiyatdır. Şəbəkə bakteriya, ağac, heyvan, ya da insan kimi orqanizm deyildir, sadəcə, mürəkkəbliyin böhran həddinə çatandan sonra sistemə çevriləcək, qalaktikanın və ulduzun sistemə çevrildiyi kimi. Şəbəkə – sistemdir, ya orqanizm? Bu adını çəkdiklərimizdən heç biri deyil, amma buna oxşar olan yenisi də yoxdur. Doğrudur, onu biz özümüz yaratmışıq, amma nə yaratdığımızı axıra qədər bilməmişik.

Hart, adətən, mənim növbətçi olduğum vaxtlarda saat üçə az qalmış kağızlarla doldurulmuş portfellə, ağzına kimi qəhvəylə dolu olan termosla gəlirdi və işə başlayırdı, mənsə özümü axmaq yerində hiss edirdim. Əgər işin xeyri nöqteyi-nəzərindən o haqlıydısa, mən neyləyə bilərdim? Əvvəl olduğu kimi, özüm üçün fikirləşir, növbəti izahatı düşünüb tapırdım; məsələn, bu əşyalara, yüksək gərginlikli xətlərə, teleqrafın sualtı xətlərinə, televiziya antenala-

rına, hətta metal torla çəpərləməyə, tağlara və körpünün, relslərin, qaldırıcıların hissələrinə, dəmir-beton binalardakı armaturlara qədər olan ölü dünyanı özüm üçün təsəvvür eləyirdim; bütün bunlar şəbəkədən olan impulsla hərəkət edən, mənim İBM-imin sayılı saniyələr ərzində idarə elədiyi nəhəng mexanizmə çevrilir. Məhz kompüterin kristallaşmanın mərkəzində dayandığını bir neçə əyani misal aydın göstərirdi. Hətta bu qarışıq təxminlər də fövqəladə və danılmaz faktları – hadisələri qabaqcadan görmək qabiliyyətini və bu qabiliyyətə ikicə dəqiqənin içində malik olmağı necəsə izah eləyə bilməzdi, mən səbirlə susmağa məcbur idim, çünki Hartın özünü tamamilə məsələnin həllinə həsr elədiyini görürdüm.

Faktlara keçirəm. Biz Hartla iki şeyi müzakirə eləyirdik: effektin praktik istifadəsini və onun mexanizmini. Gözlədiyimizin əksinə olaraq, effektin 137 saniyə praktik istifadə perspektivləri nə xüsusən geniş, nə də xüsusən vacib oldu, sadəcə, effekt hansısa təmiz fantastik təsir bağışlayırdı. Xalqların taleyinin və ümumdünya tarixinin gedişinin qabaqcadan bütünlüklə deyilməsi iki dəqiqəlik müddətə yerləşməzdi, bundan əlavə, hətta iki dəqiqə sonranın da qabaqcadan xəbər verilməsi əngəllərlə üzləşir, elə görünür ki, ikincidərəcəlidir, amma bununla belə, həlledicidir; kompüterin öz səhvsiz proqnozlarını verməyə başlaması üçün onu mütləq uyğun olan izə salmaq, lazımi surətdə istiqamətləndirmək lazımdır, bunun üçünsə iki dəqiqədən daha uzun müddət tələb olunur. Buna görə də əgər söhbət effektin praktik istifadə olunmasından gedirsə, onda heçliyə çevrilir. Qabaqcadan xəbərvermə müddətini bir saniyə belə artırmaq olmaz. Hart təxmin eləyirdi ki, bu, universal əhəmiyyətli sabit kəmiyyətdir, hərçənd bizə məlum deyildir. Əlbəttə, ruletka ilə oyun üçün olan effektdən istifadə eləmək, ya da böyük qumar evlərindəki bankları dağıtmaq olar, lakin bunun üçün lazımlı avadanlığın qiyməti heç də az deyildi – İBM-in qiyməti dörd milyon dollara yaxındır, ikitərəfli, həm də yaxşı maskalanmış rabitənin, stol arxasındakı oyunçu ilə hesablama mərkəzi arasındakı rabitənin təşkil edilməsi isə heç də asan deyildi, hələ dərhal aldadılmasına görə şübhə yarana biləcəyni belə demirik. Yeri gəlmişkən, effektdən belə istifadə olunması bizi maraqlandırmırdı.

Hart bizim kompüterin imkanlarının kataloqunu tərtib elədi. Əgər ondan dəqiq bir yerdə iki dəqiqə sonra uşağı olacaq qadının uşağının cinsini soruşsaq, uşağın cinsini səhvsiz müəyyən eləyəcək, lakin belə qabaqcadan xəbərverməni, çətin ki, dəyərli cəhd kimi qiymətləndirmək mümkün olsun. Əgər siz atış seriyalarının başlanğıc nəticələrini kompüterə xəbər verərək, mis pulu oyun avtomatına atıb, sonra isə informasiya verməyi dayandırarsınızsa, o, əvvəlcədən sonrakı 137 saniyəyə qədərki bütün atışların nəticələrini deyə bilər, vəssalam. Siz bu zəri və mis pulu atmalı, kompüterə növbəti nəticəni 36–40 dəfədən az olmayaraq bildirməlisiniz, bu da, əslində, itin izə salınmasını xatırladır – milyardlarla nəticə arasında olan yeganə nəticəni; belə ki, hər an, bir Allah bilir, nə qədər adam zər və mis pulu oyun avtomatlarına atır, kompüter isə lal və kardır, bu çoxluğun içindən sizin atış seriyalarınızı müəyyən eləməlidir. Siz zəri və mis pulu, əslində, olduğu kimi də atmalısınız. Əgər atmağa son versəniz, kompüter yalnız sıfırı taqqıldadacaq, əgər iki dəfə atsanız, o yalnız iki nəticəni göstərəcək. Onun şəbəkə ilə birləşdirilməsi mütləqdir, hərçənd sağlam düşüncə şəbəkənin ona kömək eləyə bilməyəcəyini deyir: əgər zər cəmi-cümlətanı iki addım ondan aralıda atılırsa, burada şəbəkə nəyə lazımmış? Amma şəbəkədən təcrid olunarsa, o, bircə hecanı belə xəbər verməyəcək, bu rabitəni bizim başa düşməməyimiz isə mühüm deyil.

Nəzərə alın ki, kompüter əvvəlcədən sizin zəri atıb-atmayacağınızı bilir, sonra isə bütün şəraitin inkişafını qabaqcadan duyur, yəni təkcə atılan zərin nəticələrini yox; həm də sizin zəri atıb-atmayacağınıza aid qərarınıza gəlincə, özünüzü necə aparmağınızı da hiss edir. Biz belə sınaqlar da elədik; məsələn, mən zəri altı dəfə ardıcıl atmağı qərara aldım, Hart isə mənə mane olmalıydı, ya da atışı mümkünsüz eləməliydi, həm də mən onun atış seriyalarına aid qərarını bilmirdim. Məlum oldu ki, kompüter əvvəlcədən təkcə mənim atış planlarımı yox, Hartın hərəkətlərini də, yəni Hartın mənə növbəti dəfə mane olmaq üçün nə vaxt stəkanı saxlayan əlimi tutacağını da bilirmiş. Bir dəfə elə alındı ki, mən dörd dəfə ardıcıl atmağı qərara aldım, amma nəzərdə tutulan vaxtda yalnız üç dəfə atdım, çünki döşəmədəki kabelə ayağım ilişdi və zəri vaxtında atmağı

çatdırmadım. Kompüter hansı yollasa ayağımın dolaşacağını bilirmiş, hansı ki bunu mən heç özüm də gözləmirdim, yəni o, mənim haqqımda mənim özümdən çox bilirmiş.

Biz çoxlu adamın dərhal iştirak eləyəcəyi daha mürəkkəb vəziyyətləri də müzakirə eləyirdik; məsələn, zərlə kubok uğrunda mübarizə kimi; amma buna oxşar eksperimentləri keçirmirdik, çünki bunun üçün bizim özümüzə rəva görə bilməyəcəyimiz çoxlu vaxt tələb olunurdu. Hart həm də sümük əvəzinə elə də böyük olmayan, izotopların[1] ayrı-ayrı atomları səpələnmiş avadanlıqdan istifadə eləyirdi, ekranda isə stintillyasiya adlanan alışma baş verirdi. Kompüter onları fizik kimi qabaqcadan dəqiq görməyi bacarmırdı, yəni o yalnız parçalanma ehtimalının ola biləcəyini bilirdi. Zərin və sümüyün məhdudlaşmaya dəxli yox idi. Görünür, bu, onların makroskopik[2] obyektlər olduğundan irəli gəlirdi. Bizim beynimizdə isə qərar mikroskopik proseslər tərəfindən müəyyən olunur. Hart deyirdi ki, görünür, onların kvant[3] xarakterləri yoxdur.

Bütün bunlarda, deyəsən, bir ziddiyyət var. Nəyə görə kompüter iki dəqiqədən sonra baş verənləri görə bilir, hərçənd bu sualı verəndə mən hələ özüm bilmirəm proqnozun həyata keçməsinə gətirəcək bu addımı atıram, amma həmin bu anda da kompüter radioaktiv izotopun hansı atomlarının parçalandığını qabaqcadan xəbər verə bilməz. Hart təsdiq eləyir ki, ziddiyyət hadisələrin özündə deyil, bizim dünya, xüsusilə də vaxt haqqındakı təsəvvürlərimizdədir. Budur onun sözləri: «Əgər vaxtı özümüz üçün keçmişdən gələcəyə uzanan düz xətt kimi təsəvvür eləsək, onda bizim şüurumuza bu xətt boyunca diyirlənən və ona yalnız bir nöqtədə toxunan təkər kimi baxmaq olar. Nöqtə hazırkı an adlanır və o, öz yerini yeni nöqtələrə verərək labüd olaraq keçmiş ana dönür. Psixoloqların tədqiqatları göstərib ki, bizim hazırkı an hesab elədiyimiz vaxt zamana görə uzunluqdan məhrum olmuş müəyyən ölçüsü olan bir kəsikdir, uzunluğu yarım saniyədən belə dəfələrlə azdır. Buna görə də mümkündür ki, xəttə toxunma vaxtı, bəlkə

---

[1] İzotoplar – eyni kimyəvi element atomlarının radioaktivliyə və atom çəkisinə görə bir-birindən fərqlənən formaları

[2] Makroskopik – adi gözlə görünə bilən

[3] Kvant – hər hansı bir fiziki kəmiyyətin ən kiçik miqdarı

də, daha uzun sürsün, onun böyük bir kəsiyi ilə hər bir məlum anda əlaqədə ola bilər və bu zaman kəsiyinin maksimal uzunluğu məhz 137 saniyədən ibarətdir».

Əgər, həqiqətən də, Hart deyən kimidirsə, onda bizim bütün fizikamız çarəsiz dərəcədə antroposentrikdir, çünki insan hisslərinin və biliyinin hüdudları kənarında qiymətli heç nəyin olmadığına əsaslanır. Bu, onu göstərir ki, fiziklərin indi təsdiq elədiklərindən fərqli olaraq dünya başqa cür qurulub; elektronikaya əsaslanan, ya da onun özüylə gələcəyi qabaqcadan xəbər verə bilmək bəsirətinin elmdə yeri yoxdur. Fizika vaxt haqqındakı təsəvvürlərə görə dəhşətli çətinliklər yaşayır, hansı ki bu təsəvvürlərin nəzəriyyə və qanunlarına görə, vaxt dönmə qabiliyyətinə malikdir, amma əslində isə belə deyil. Bundan əlavə, vaxtın atomdaxili hadisələr miqyasında ölçülməsi daha çox çətinliklər törədir, nəinki zaman fasiləsinin ölçülməsi. Bunun səbəbi, bəlkə də, indiki an anlayışının təkcə Eynşteynin nəzərdə tutduğu kimi anlaşılmamasındadır, yəni o, müşahidəçilərin lokalizasiyasından[1] və nəzərdə tutulan həmin yerdə görünmə miqyasından asılıdır.

Kompüter öz fiziki hazırkı anını yaşayır, bu an isə bəzən bizim yaşadığımız andan daha geniş olur. Yəni bizim üçün iki dəqiqədən sonra başlayacaq an artıq kompüter üçün başlayır – bizim hazırkı anda gördüyümüz və hiss elədiyimiz dəqiqliklə. Bizim şüurumuz beynimizdə bütün baş verənlərin yalnız zərrəciklərini təşkil eləyir və biz bütün atış seriyalarını qabaqcadan deməli olan kompüteri aldatmaq üçün zəri yalvnız bircə dəfə atmağı qərarlaşdıranda o, bunu dərhal bilir.

Hansı yolla? Bunu biz sadə misallardan istifadə eləyərək özümüz üçün təsəvvür eləyə bilərək, ildırım və göy gurultusu elektrik boşalmasının yaxınlığındakı yerdən eyni zamanda müşahidə olunur, amma boşalmadan uzaq yerlərdə isə müxtəlif vaxtlarda. Bu misalda ildırım – mənim səssizcə zəri bir neçə saniyədən sonra atmaq qərarımdır. Göy gurultusu isə – mənim növbəti atışdan, həqiqətən də, imtina eləməyimdir. Kompüter hansı naməlum yollasa mənim beynimdən «ildırımı» dartıb çıxarır, yəni qəbul olu-

---

[1] Lokalizasiya – hər hansı bir hadisənin, məsələn, müharibənin, yanğının və sairənin baş verdiyi yerdən kənara çıxmasına yol verməmək

nan qərarı. Hart bunun çox mühüm fəlsəfi nəticələri olduğunu təsdiqləyir, çünki bu, o anlama gəlir ki, əgər biz 137 saniyəlik zaman kəsiyində sərbəst seçim imkanı qazanırıqsa, bunu özünümüşahidə kimi qəbul eləyə bilmərik. 137 saniyəlik zaman kəsiyində bizim beynimiz özünü inersiya ilə hərəkət eləyən və dərhal hərəkət istiqamətini dəyişə bilməyən bədən kimi aparır. Təcrid olunan qüvvənin hərəkətə başlamasından ötrü zaman lazımdır və hər bir insanın da başında buna bənzər hallar olur. Lakin bütün bunların atomlar və elektronlar dünyasına dəxli yoxdur, çünki orada kompüter eynilə bizim fizikamız kimi gücsüzdür.

Hart zamanın həqiqətdə hansısa xəttə oxşamadığı qənaətindədir: «O, özünü daha çox kontinium[1] kimi təmsil eləyir, hansı ki makroskopik səviyyədə tamam ayrı xassələri olur, nəinki aşağıda, yalnız hadisələrin atom miqyasında baş verdiyi yerdə». Onun sözlərinə görə, bu və ya başqa bir beyin və ya beyinəbənzər sistem böyükdürsə, onun vaxtla və ya hazırkı an adlanan vaxtla qovuşması daha uzun sürür, onda atomlar, ümumiyyətlə, belə əlaqədə olmur, onlar, sanki, bu nöqtənin ətrafında rəqs eləyir. Bir sözlə, hazırkı an, bir növ, şüura malik olan üçbucaqdır: atomların və elektronların olduğu yerdə nöqtənin ölçüsü sıfırdır və şüura malik olan böyük bədənlərin olduğu yerdə isə xətdir. Əgər siz bundan heç nə başa düşmədiyinizi deyərsinizsə, onda mən də «heç nə başa düşmədim» cavabını verərəm və bundan əlavə, Hart heç vaxt belə şeyləri kafedrada danışmağa və elmi nəşrlərdə yazmağa cürət eləməzdi.

Doğrusunu desək, mən artıq hər şeyi sizə danışdım və yalnız iki epiloq qaldı: biri ciddi, digəri isə sizə danışdığım əvəzi olmayan qüssəli əhvalata oxşar.

Birincisi bundan ibarətdir ki, Hart məni tədqiqatı mütəxəssislərə verməmək üçün dilə tuturdu. O adamlardan biri, məşhur birisi bir neçə aydan sonra mənə dedi ki, kompüter söküləndən və bərpa olunandan sonra əvvəlki effekti almağa nail ola bilməyib. Bu izahat mənə az inandırıcı göründü, çünki mənim danışdığım mütəxəssis mundir daşıyırdı. Bundan başqa, bu əhvalat haqqında bircə söz belə mətbuatda çap olunmadı. Hart özü də cəld

---

[1] Kontinium – fasiləsizlik, hadisənin, prosesin qırılmazlığı

təhqiqatdan uzaqlaşdırıldı. O, bu mövzunu əldən buraxmaq istəmirdi və bir dəfə ma-conq partiyasını udandan sonra nə az, nə çox, düz 137 saniyə səhvsiz olaraq qabaqcadan xəbər verə bilmənin müəyyən şərtlərdə qitənin məhvi və xilası arasındakı məsafə qədər olduğunu dedi. Bununla da o, sanki, dilini dişləyibmiş kimi susdu, amma mən ondan ayrılıb gedərkən stolun üzərində arası raketlərin nüvə başlıqlarını məhv eləyə biləcək riyazi hesablamalarla dolu olan cildi gördüm. Bəlkə də, o, fikrində raketlərin belə təkbətək döyüşünü nəzərdə tuturdu. Amma bütün bunlar yalnız mənim ehtimallarımdır.

İkinci epiloq birinci epiloqa az qalmış baş verdi; daha dəqiqi, ekspertlər dəstəsinin gəlişinə beş gün qalmış. Mən hər şey necə olubsa, elə də danışacağam, amma əvvəlcədən hər hansı suallara cavab verməkdən və şərh eləməkdən imtina edirəm. Artıq bizim eksperimentlərimizin sonu idi. Hart mənim növbətçi olduğum gün 137-nin effektinin 137 rəqəmindəki Kosmosun əsas xassəsini Pifaqor işarəsi kimi xatırladan sirlə əlaqədar olduğunu güman eləyən bir fiziki gətirməliydi. Bu rəqəmə ilk olaraq artıq rəhmətə getmiş ingilis astronomu Eddinqton diqqət yetirib. Lakin fizik gələ bilməmişdi və Hart səhifə artıq maşına gedəndən sonra saat üçə yaxın tək gəlib çıxdı.



Hart kompüterlə işləməyi, sadəcə, fenomenal öyrənmişdi. O, bizim işimizi xeyli asanlaşdıran bir neçə təkmilləşdirmə apardı. Kabelləri yuvasından çıxarmaq lazım gəlmirdi, belə ki, hər kabelin üzərində ayrıc quraşdırılmışdı və barmaq ayrıca toxunan kimi kabel kompüterdən təcrid olunurdu. Siz artıq bilirsiniz ki, kompüterdən birbaşa heç nə haqqında soruşmaq olmaz, amma ona şəxssiz redaktə olunmuş informasiyaları xatırladan, qəzet xəbərlərini xarakterizə eləyən istənilən mətni ötürmək olar. Bizim teletaypın rolunu yerinə yetirən adi elektrik yazı maşınımız var idi. Onda uyğun olaraq tərtib edilmiş mətn taqqıldadaraq yazılırdı və onu əvvəlcədən dəqiqləşdirilmiş vaxtda saxlayırdıq ki, kompüter özü uydurulmuş məlumatı davam eləsin.

Hart bu dəfə oyun zərləri gətirmişdi və öz şeylərini yerbəyer eləyəndə telefon zəng çaldı. Növbətçi linotipçi Blekvud idi. O, bu işlə tanış olanlardan idi.

– Qulaq as, – o dedi, – Emi Foster burada, mənim yanımdadır; bilirsən, Billin arvadıdır; o, xəstəxanadan qaçmağa müvəffəq olub. Evə gəlib, güclə arvadından maşının açarını alıb, oturub və gedib, amma naməlum istiqamətə. Qadın artıq polisə xəbər verib, indisə uçaraq bura gəlib ki, bəlkə, biz ona nəyləsə kömək eləyə bildik. Mən bunun mənasız olduğunu bilirəm, amma axı sənin peyğəmbərin var; bəlkə, o, nəsə fikirləşə bildi, necə bilirsən?

– Bilmirəm, – mən cavab verdim, – təsəvvür eləyə bilmirəm... amma... onu elə beləcə – əliboş yola salmaq olmaz. Onu bizim yanımıza göndər, qoy xidməti liftlə qalxsın.

O qalxana qədər mən Harta izah elədim ki, bizim həmkarımız, jurnalist Billi Foster son iki ildə çox içməyə başlamışdı, hətta növbətçilik vaxtlarında da içirdi, buna görə də onu işdən qovdular. Onda o, həblər də qəbul eləməyə başladı. İki ay ərzində yarışüurlu vəziyyətdə maşını sürdüyü üçün ciddi avtomobil qəzalarına düşdü və onu sürücülük hüququndan məhrum elədilər. Evdə əsl cəhənnəm idi, nəhayət, arvadı ürək ağrısıyla onu məcburi müalicəyə göndərməli oldu. İndisə o, hansı yollasa xəstəxanadan sivişib qaça bilib, evə qayıdıb, maşını götürərək naməlum istiqamətdə yola düşüb, deyəsən, ən yaxşı halda sərxoş vəziyyətdə olub. Bəlkə də, narkotik qəbul eləyib. Arvadı bura gəlib, polisə artıq xəbər veriblər, kömək eləməyimizi istəyir, başa düşürsünüzmü, doktor, nə məsələdir? İndicə burada olacaq. Necə zənn eləyirsən, nəsə eləmək olarmı?

Belə deyərək gözlərimlə kompüteri göstərirəm. Hart təəccüblənmədi (bu adamı qəfildən yaxalamaq mümkün deyil) və dedi:

– Neyləməli, risk eləyək? Xahiş edirəm, maşını kompüterə qoş.

Emi gələndə mən maşını kompüterə qoşurdum. Onun açarı Billə dərhal vermədiyi aydın hiss olunurdu. Hart kreslonu ona tərəf itələyib dedi:

– Söhbət zamandan gedir, elə deyilmi? Mənim verdiyim suallara təəccüblənməyin, xahiş edirəm, nə qədər mümkünsə, dəqiq cavab verin. Əvvəlcə əriniz haqqında müfəssəl məlumatlar lazımdır, adı, soyadı, xarici görünüşü və sair.

Qadın özünü qaydasınca ələ alaraq cavab verirdi, yalnız əlləri yüngülcə titrəyirdi:

– Robert Foster, 136-cı küçə, jurnalist, otuz yeddi yaşı var, boyu beş fut yeddi düymdür, qarabuğdayıdır, eynək taxır, boynunda, sol qulağından aşağıda çapıq var, avtomobil qəzasının izidir, çəkisi 169 funtdur, qanının qrupu sıfırdır... kifayətdirmi?

Hart cavab vermədi, ancaq taqqıldatmağa başladı. Eyni zamanda da ekranda mətn görünürdü: «Robert Foster, 136-cı küçədə yaşayır, ortaboylu kişidir, boynunda, sol qulağından aşağıda avtomobil qəzasının izi olan çapıq var, qanının qrupu sıfırdır, bu gün evdən maşınıyla çıxıb...»

– Xahiş edirəm, avtomobilin markasını və qeydiyyat nömrəsini deyəsiniz, – qadına müraciət elədi.

– «Rambler», N. - Y, 657992.



«Bu gün evdən «Rambler» markalı, N-Y, 657992 qeydiyyat nömrəli maşında çıxıb və indi...»

Bu zaman doktor ayrıcı basdı. Kompüter özüylə təkbaşına qaldı. Kompüter bir dəqiqə belə tərəddüd eləmədi, ekrandakı mətn böyüməyə başladı:

«... Amerika Birləşmiş Ştatlarındadır. Yağışın ucbatından görmə məhduddur, buludlu hava olduğundan maşının idarə olunmasında çətinlik çəkir...»

Hart kompüteri söndürdü. Fikirləşdi. Təzədən bir daha əvvəldən yazmağa başladı, yalnız bir fərqlə, «indi» sözündən sonra «yollar arasındakı sahədə» sözünü yazdı və yenə də informasiya axınının arasını kəsdi. Kompüter tərəddüdsüz davam elədi: «...Nyu-Yorkla Vaşinqtonun arasında. Sol cərgəylə irəliləyir, icazə verilməyən sürətlə yük maşınlarının karvanını və «Şell» firmasının dörd sistern maşınını ötüb-keçir».

– Bu artıq nəsə deməkdir, – Hart səsləndi, – amma bizim üçün istiqamət kifayət qədər aydın deyil, biz daha çox şey qopartmalıyıq.

Hart mənə bütün yazılanları məhv eləməyi əmr elədi və təzədən başladı: «Robert Foster... və sairə... Nyu-Yorkla Vaşinqton arasındakı kilometri göstərən dirəklərin arasında....» dərhal da kabeli təcrid elədi. Onda kompüter bizim əvvəllər görmədiyimizi elədi. Artıq ekranda görünən mətnin bir hissəsini sildi və biz ekrandan oxuduq: «Robert

Foster... evdən maşınla yola düşdü... və indi Nyu-York – Vaşinqton yolunun kənarında südün içindədir. «Mallerd-Uord» firmasının vurduğu zərərin Yunayted TVS şirkəti tərəfindən ödənilməyəcəyi qorxusu var, belə ki, bir həftə bundan əvvəl üzvlük haqqını ödəmə vaxtı keçib və sığorta polisi yenilənməyib».

– O, ağlını itirib? – mən soruşdum.

Hart mənə işarə elədi ki, sakit oturum. Bir daha əsas yerədək yazmağa başladı: «İndi Nyu-York – Vaşinqton yolunun kənarında südün içindədir. Onun vəziyyəti...» burada kabeli bir də ayırdı. Kompüter davam elədi: «... elədir ki, istifadə üçün yararlı deyil. Hər iki çəndən 29 hektolitr süd axıb. İndiki bazar qiymətləri ilə...»

Hart məndən bunun da ləğvini xahiş elədi və ucadan dedi:

– Tipik anlaşılmazlıq, qrammatika nöqteyi-nəzərindən bu həm Fosterə, həm də südə necə aid ola bilər? Bir dəfə də!

Kompüteri qoşuram. Hart inadla bu qəribə məlumatı yazır. «Süd»dən sonra nöqtə qoyur və yeni sətirlər yazır. «Hazırkı anda Robert Fosterin vəziyyəti...» sonra kabeli ayırır. Kompüter bir saniyəliyə dayandı, sonra bütün ekranı təmizlədi və biz qarşımızda tutquncasına işıldayan, bircə sözü belə olmayan boş kvadrat gördük – boynuma alıram ki, başımda tüklərim biz-biz durdu. Sonra mətn göründü: «Robert Foster heç bir xüsusi vəziyyətdə deyil, belə ki, o yalnız indicə «Rambler» N. - Y. 657992 markalı maşınında ştatlar arasındakı sərhədi keçdi».

«Səni görüm lənətə gələsən...» – rahatlanmış halda nəfəs alaraq düşünürəm. Sifətində istehzalı təbəssüm yaranan Hart yenə də nəticələrin ləğvini əmr elədi və hər şeyi yenidən başladı. «...Robert Fosterin hazırda olduğu yer...» sözündən sonra ayrıcı basdı. Kompüter davam elədi: «... kimin bu baxışlara necə tərəfdar olmasından asılı olaraq müxtəlif cür. Etiraf eləmək lazımdır ki, əgər söhbət şəxsi baxışlardan gedirsə, onda bizim adətlərə və konstitusiyamıza əsasən heç kimi buna zorla inandırmaq olmaz. Hər bir halda bizim qəzet də bu fikrə tərəfdardır».

Hart ayağa qalxıb kompüteri özü söndürdü və hiss elətdirmədən mənə Emini ötürməyi işarə elədi; mənə elə

gəlir ki, Emi bu əhvalatdan heç nə başa düşmədi. Mən qayıdanda o, telefonla zəng eləyirdi, amma elə sakit danışırdı ki, mən heç nə ayırd eləyə bilmirdim. Dəstəyi yerinə qoyandan sonra mənə baxdı və dedi:

– O, yolun o biri tərəfinə keçib və Nyu-Yorka süd aparan çənli maşınla toqquşub. Onu maşından çıxarandan sonra da bir dəqiqəyə qədər yaşayıb, buna görə də kompüter əvvəlcə «südün içindədir» məlumatını verirdi. Mən bu parçanı üçüncü dəfə verəndə, əlbəttə, hər şey qurtarmışdı və əslində də, öləndən sonra harada olduğun haqqında, hətta haradasa ola biləcəyin haqda belə müxtəlif cür düşünmək olar.

Deyilənlərdən göründüyü kimi, bizim üçün tərəqqiyə yol açan qeyri-adi imkanlardan istifadə heç də həmişə asan olmur, hələ orasını demirik ki, jurnalist jarqonundan və sonsuz sadəlövhlükdən, istərsinizsə, insanla bağlı məsələlərə elektron maşın kimi laqeydlikdən ibarət həftəbecəri nəzərə alsaq, bu iş dəhşətli bir oyuna çevrilə bilər.

Asudə vaxtlarınızda sizə danışdıqlarım haqqında düşünə bilərsiniz. Doğrusu, hər halda, mən heç nə əlavə eləməli deyiləm. Şəxsən mən bu hadisəni unutmaq üçün hansısa başqa bir əhvalatı eşitmək istərdim.

# PYESLƏR

# AY GECƏSİ

İŞTİRAK EDİRLƏR:

- Blopp
- Mills
- Kompüter

Hadisə Ayda tədqiqat aparan stansiyada baş verir; orada iki nəfər işləyir: doktor Mills və doktor Blopp. Onlar xeyli müddətdir Aydadırlar və əvəz olunmalarını gözləyirlər: növbə onların axırıncı Ay gecələri qurtaranda gəlməlidir. Hər ikisi konteynerlərə geoloji süxurların nümunələrini yükləməklə məşğuldur. Daimi fon kimi cihazların səs effektləri xidmət eləyir: elektron qurğuların hərdənbir zingiltisi, kompressorların astaca marçıltısı və sair; stansiya ilə Hyustondakı uçuş mərkəzi arasında əlaqə yaradan radiotezliklərin melodiyalı fitləri xüsusilə seçilir. Tədqiqatçılar öz işləri ilə səylə məşğuldurlar, amma elə də səs-küylə yox: onlar daşları ehtiyatla, səs salmadan yığırlar.

Blopp. Sən mənə nə verdin? Yenə də brekçiya?[1] Burada konteyner artıq onunla doludur. Bəs hansısa plagioklaz[2] yoxdurmu?

Mills. Yox. Mən orta çəkisi 400 qram olan 118 nümunə saydım, konteynerlə birlikdə 70 kiloqramdır. Bəs eləyir, hə?

Blopp. Burada 70 kiloqramdırsa, Yerdə çəkisi altı dəfə çox olacaq. Sən bu diabazı[3] haradan götürübsən? Mən onu konteynerə qoyuram.

---

[1] Brekçiya – mineral maddələrlə bir-birinə yapışmış qırıntılardan ibarət süxur

[2] Plagioklaz – süxur törədici minerallar qrupu

[3] Diabaz – sualtı püskürmə nəticəsində əmələ gələn maqmatik süxur

M i l l s . Bağlanmır.

Çaqqıltı eşidilir.

B l o p p . Artıq bağlandı. Bu, o axırıncı yataqdandır? Sən hələ burğunun ucluğunu da orada sındırdın, yadındadırmı?

M i l l s . Axırıncı daş və axırıncı burğu ucluğu. Tfu, bu Ay tozundan dincliyimiz yoxdur!

B l o p p . Mən ventilyasiyanı işə salıram.

Eksqaysterin (havanı soran ventilyator)
asta səsi eşidilir.

B l o p p . Bizim nə qədər suyumuz qalıb?

M i l l s . İçmək istəyirsən? «Coca-cola» götür. Soyuducuda var.

B l o p p . Yox, içmək istəmirəm. Vanna qəbul eləmək istəyirəm.

M i l l s . Mənsə yalnız duşun altında dayanmaq istəyirəm. Vannanı evdə qəbul eləyərəm. Üç yüz səkkiz saatdan sonra... yox, üç yüz on səkkiz saatdan sonra. Bizi dartıb sudan çıxardanda isə pivə tələb eləyəcəyəm. Pivə kimi heç şeyi istəmirəm. Axı nəyə görə bizə pivə içməyə icazə vermirlər?

B l o p p . Ona görə ki, Hyuston yer üzündə puritan əxlaqının qorunub saxlanıldığı yeganə yerdir. Spirtli içkilər, hətta aşağı dərəcəlilər beyinin işinə böyük zərər verir.

M i l l s . Boş-boş danışma. Yaxşısı budur, radionu işə sal. Bir dəqiqədən sonra Hyustonla danışığımız olacaq. Axırıncı danışıq.

Daşıyıcı radiodalğaların artan səs effekti.
Uzaq, getdikcə artan səs.

S ə s . Alo, danışır Hyuston. Danışır Hyuston. Uşaqlar, siz məni eşidirsiniz? Qəbul.

M i l l s . Aydan Mills danışır. Axşamınız (*asqırmağa başlayır*) xeyir. Ay, şeytan! (*Asqırır.*)

S ə s . Mills, sənsən? Özünü soyuğa veribsən? İndicə mən səni doktor Friqardla danışdıraram. Ey, Tom, bura gəl. Məndə xəbər var – Ayda soyuqdəymə.

Mills (*onun sözünü kəsir*). Mən heç də soyuqlamamışam. Bu, lənətə gəlmiş toza görədir. Nümunələr. Biz indicə konteyneri yükləyib qurtarmışıq. Ay, əsasən, tozdan və zirzibildən ibarətdir, məgər sən bilmirsən?

Səs. Hər şey qaydasındadır. Siz bilirsiniz ki, mənim sərəncamımda on dəqiqə var. İyirmi bir iyirmi yeddidə siz librasiya[1] nəticəsində yaranan radiokölgə zonasında olacaqsınız. Xəbərləri eşitmək istəyirsinizmi? Burada məndə sizin üçün Vaşinqtondan «En-Bi-Si»nin axşam buraxılışının son xəbərləri yazılıb.

Mills. Xəbərlər? Əgər yaxşıdırsa, qulaq asmaq olar.

Səs (*gülür*). Hələ də zarafat eləyirsən! Mən yazını qoşuram, əlaqənin kəsilməsinə üç dəqiqə qalmış isə biz axırıncı dəfə bir-birimizə «tezliklə görüşənədək» deyərik. Yaxşı? Qəbul.

Mills. Yaxşı. Əgər Blopp nəsə demək istəyirsə.



Blopp. Yox, məndə hər şey qaydasıncadır. Sağ ol.

Səs. Qoşuram...

Hyustondan maqnitofon yazısının
qoşulduğunu bildirən səs effekti.

Diktor. Danışır Vaşinqton. Son xəbərlərin qısa buraxılışını təqdim eləyirik. Nyu-York. Böyük mərkəzi vağzalın binasına saat mexanizmi olan atom bombası qoyduğunu bildirən anonim telefon zənginə görə həyəcanlı vəziyyət bu gün gündüz salamatlıqla sona çatıb. Polis partlamayan bombanı tapıb. Ekspertlər təsdiqləyirlər ki, terroristlərə uranın təmizlənməmiş izotopunu sataraq onları aldadıblar. Avtomobil yollarında vahiməyə düşən adamlardan on üçü ölüb. Lima. Limada vəziyyət mürəkkəbləşib. Bizim gündüz buraxılışının axırıncı xəbərlərində bildirdiyimiz kimi, general Dias dövlət çevrilişi nəticəsində hakimiyyəti ələ keçirə bilməyib. Onun əvəzinə hakimiyyətə parlamentin binasında barrikada qurub hər iki qanunverici palatanın üzvlərini girov götürən oğrular yiyələniblər. Aşağı palata, ehtimal ki, iclas salonundadır, yuxarı palata isə binanın zirzəmisində. Yuxarı palatanın əksəriyyəti general Diası dəstəklədiyindən aydın deyil ki, generalı terroristlər tərə-

---

[1] Librasiya – Ayın görünən titrəyişi

findən oğurlanmış üsyançımı hesab eləyək, ya hökumətin qanuni başçısımı. Bu gecə elektrik cərəyanının vurması nəticəsində yeni «Bell Telefon Korporeyşn» kompüteri məhv olub. Dəqiqləşdirilməmiş şayiələrə görə, kompüterin quraşdırılmasından sonra işini itirən firmanın işçiləri bilərəkdən kompüteri məhv eləyiblər. Lakin «Bell Telefon» işçilərinin qeyri-rəsmi nümayəndəsi doktor Bakmen mətbuat konfransında bildirib ki, bu kompüter öz məhvini proqramlaşdırmağa qadir olub. Əgər məsələ belədirsə, onda bu, tarixdə ilk dəfə kompüterin intihar eləməsidir. Saat 22:00-da biz yeni kompüterlərin təhlükəli olduğunu təsdiqləyən doktor Bakmenlə müsahibəni verəcəyik. Hyuston. Kosmodromda «Saturn» raketinin buraxılışına hazırlıq gedir, bu raket Aya indi Ay stansiyasının heyətini təşkil eləyən iki Amerika alimini əvəz eləmək üçün növbə aparacaq.

Səs effekti, yazı bitir.

S ə s . Alo, danışır Hyuston, bu, yenə də mənəm. Yer kürəsinin müxtəlif tərəflərində hələ də bir sıra müxtəlif münaqişələr və anlaşılmazlıqlar qalıb. Bizim daha dörd dəqiqəmiz var. Xəbərləri eşitmək istəyirsiniz, ya yaxşısı budur danışaq? Qəbul.

M i l l s . Xəbərlər üçün sağ ol. «Bell Telefon» kompüterinə gələndə isə bu, jurnalistlərin uydurmasıdır! Hər ehtimala qarşı bizim kompüter özünü ağıllı aparır. Qulaq as, uçuşa hazırlıq, əslində, qurtarıb? Hər şey qaydasındadır?

S ə s . Hər şey dəqiqliklə nəzərə alınıb. Sakit ola bilərsiniz. Tom və Ceyms müharibədən əvvəlki dəmir yollarında olan dəqiqliklə sizi əvəz eləmək üçün uçurlar. (*Gülür.*) Ayla və onun heyranedici mənzərələriylə ayrılmağa heyifsilənməyəcəksinizmi?

B l o p p . Bəs necə. Amma burada elə də şən deyilik. Bizlərdən bəziləri pivə olmamasından şikayətlənirlər.

S ə s . Bu bəziləri səhv eləyirlər. Bizdə, onsuz da, pivə içmirlər. Cazibə qüvvəsi olduqca azdır. Bütün pivə köpüyə çevrilir və...

M i l l s (*maraqla*). Bəs belə? Sən özün sınayıbsan?

S ə s . Bu, dövlət sirridir. Uşaqlar, əlaqənin kəsilməsinə iki dəqiqə qalıb. Mən burada ossilloskopa[1] baxıram və görürəm ki, sizin aparıcı tezlikləriniz artıq zəifləməyə başlayır. Əgər nəsə demək istəyirsinizsə, cəld olun! Qəbul.

M i l l s . Bizdə hər şey normaldır. Özümüzün Aydakı axırıncı gecəmizə hazırlaşırıq.

S ə s . Sizə xeyirli Ay gecəsi, qəbul!

M i l l s . Yerdə görüşənə qədər! De ki, bizim kəşfiyyatçı təyyarə gəmimizdə pivə tədarükü görsünlər, həm də çoxlu! Yaxşı olar ki, Danimarka pivəsi olsun! Dəyişiləcəyimizi gözləyirik! Son.

B l o p p . Yəqin, artıq eşitmədilər.

M i l l s . Sən elə zənn eləyirsən?

B l o p p . Aha. Eşidirsən? Aparıcı tezlik heç vaxt olmayan kimidir. Mən bir qədər gücləndirirəm...



Sabit boşalmaların artan çatırtısı.

B l o p p . Bu çatırdayan qoca Yerdir. İndicə ara verəcək, bax, elə ki üfüqdən aralandıq... bununla belə, yaxşısı budur, söndürüm, niyə enerjini boş yerə xərcləyək. Bəli... Həyat belədir. Neyləyəcəyik? Nəyə görəsə mən yatmaq istəmirəm. Bəlkə, bir partiya poker oynayaq?

M i l l s . Yox, sağ ol. Sən həmişə udursan.

B l o p p . Ona görə ki, hədə-qorxu gələ bilmirsən. Hər şeyi öyrənmək lazımdır. Oynayırıq?

M i l l s . İstəmirəm. Kartlar stolun üzərinə elə yavaş-yavaş düşür ki, hər şey görünür.

B l o p p . Pokerdə? – Hə, nə olsun? Bəlkə, deyirsən mən cazibə qüvvəsinin zəif olmasından istifadə eləyərək uduram?

M i l l s . Heç də yox. Mən yalnız demək istəyirəm ki, qaydaya riayət eləmək lazımdır. Hesabatı eşitməyin vaxtıdır.

B l o p p . Təəssüf ki, bizim kompüterlərlə poker oynamaq mümkün deyil. Bu, ciddi nöqsandır. Gələcəkdə bu nöqsanı düzəltmək lazımdır. (*Kompüteri işə salır.*)

L u n a k . Diqqət. Danışır Lunak. Qrinviç vaxtı ilə saat 21:29-dur və Ay gecəsinin birinci saatıdır. Hazırkı məlumatları diqqətinizə çatdırıram. Ayın librasiya hərəkəti

[1] O s s i l l o s k o p – elektrik proseslərini müşahidə etmək üçün cihaz

nəticəsində stansiya radioüfüqlərin arxasına keçmişdir və 219 saat ərzində Yerlə əlaqə olmayacaq. Xarici temperatur 139 dərəcəyə qədər düşmüşdür. Axırıncı saat ərzində olduqca uzaqda üç meteorit düşməsi qeydə alınmışdır. Cihazların hazırkı ana olan göstəriciləri haqqında məlumat verirəm. Əsas çəndəki suyun miqdarı 2970 litr, sanitar çənində 148 litr. Temperatur 19 dərəcədir. Oksigenin miqdarı 23 faizdir. Merkaptanın[1] aşqarı normadadır – itki azdır.

Blopp. Onu söndür, ya da özün qulaq as. Mən çimməyə gedirəm.

Mills. Bir neçə dəqiqə də dözə bilməzsən?

Lunak. Elektrik tələbatı 116 amperdir. Ehtiyat – 1570 amper-saatdır.

Blopp. Mən olsaydım, onu söndürərdim, hə? Di heç olmasa, səsini al.

Lunak (*astadan*). Elektrik enerjisinə və suya qənaət eləməyin vacibliyini xatırladıram.

Blopp. Mənsə çiməcəyəm!

Mills. Sən kiminlə mübahisə eləyirsən, kompüterlə? Sən tündməzac olursan.

Blopp. Çimmək qədər heç nə insanı sakitləşdirmir.

Guya, fit çalaraq gedir, hamamın qapısının necə açıldığı və suyun şırıltısı eşidilir.

Lunak. Köməkçi cihazlar tamamilə qaydasındadır. Bir dəqiqədən sonra mən bazadakı oksigen ehtiyatı haqqında məlumat verəcəyəm.

Blopp (*hamamda oxuyur*).

Con Braunun oğlu çəmənlikdə ayaqyalın gəzirdi,
Sonra ona isti süd içirtmək lazım gəldi.
Eşq olsun, eşq olsun, həmd-səna! Eşq olsun, eşq olsun, həmd-səna!

Lunak. Diqqət, danışır Lunak. Mühüm məlumatı nəzərinizə çatdırıram.

Hamamdan Bloppun oxuması əvvəlkitək eşidilir.

Lunak. Diqqət. Növbədənkənar məlumat. Diqqət. Birincidərəcəli həyəcan haqqında məlumat verirəm və

[1] Merkaptan – üzvi birləşmələr qrupu

«BV»ni, yəni «Böhran vəziyyəti»ni yerinə yetirməyə başlayıram, bir-sıfır-yeddi.

M i l l s . Bu nədir? Hansı həyəcan? Nə məsələdir?

L u n a k . Diqqət. Əsas çəndəki oksigenin təzyiqi hər kvadratsantimetrə görə dəqiqədə 9-dan 9,76-ya qədər kiloqram-güc sürəti ilə düşür.

M i l l s . Oksigen? Təzyiq düşür?

L u n a k . Diqqət. «BV» vəziyyətinə keçirəm – «Böhran vəziyyəti», bir-sıfır-yeddi. Saat 21:40-da əsas çəndəki oksigenin təzyiqi 190 kq/kv.sm təşkil eləyirdi.

B l o p p (*əvvəlkitək oxuyur*).

Bill Çikaqodan Parisə gəldi,

Və dəlicəsinə vuruldu...

M i l l s . Oksigen sızır? Bu dəqiqdir? Hara? Harada?

L u n a k . Əsas sıxlaşdırıcı A-27 boru xəttidir, mərkəzi drosseldəki[1] yüksək təzyiq klapanı, həm də B, D çəngəl şaxələrinin ara qatları və P-18 normadadır. Əsas çəndəki oksigenin təzyiqi düşməkdə davam eləyir. İndi onun sürəti saatda 103 kq/kv.sm-dır.

M i l l s . Əgər düşürsə, necə normada ola bilər! Bu... yubanmadan ehtiyat çənə oksigen vur.

L u n a k . «BV» – «Böhran vəziyyəti»nin I bəndinə uyğun olaraq, bir-sıfır-yeddi, əsas çəndən ehtiyat çənə oksigen vururam. Əsas çəndəki təzyiq düşməkdə davam eləyir. Hazırkı anda onun sürəti 70 kq/ kv.sm-dir.

M i l l s . Düşür, həm də belə sürətlə. Orada nə olub, çən partlayıb?

L u n a k . Əsas çəndəki təzyiq düşməsinin sürətlənməsinin başlıca səbəbi qismən ehtiyat çənə oksigen vurulması ilə bağlıdır. Ölçü cihazları normadan kənara çıxmanı qeydə almır. Əsas çəndəki oksigenin təzyiqi 66 kq/kv.sm-dir və düşməkdə davam eləyir.

M i l l s . Oksigen hara gedir? Hara? Cavab ver!

L u n a k . Məlumatlar kifayət qədər deyil. Diqqət. Ehtiyat çən oksigenlə tam doldurulub. Ehtiyat çəndəki təzyiq 90 kq/kv.sm-dir. Əsas çəndəki təzyiq düşməkdə davam eləyir. İndi onun sürəti 57 kq/kv.sm-dir.

M i l l s . Hələ də bu sürətlə düşməkdə davam eləyir?

[1] D r o s s e l – mayenin, qazın, buxarın təzyiqini və işlənməsini nizama salmaq üçün qurğu

Orada haradasa deşik var! Amma harada? Əgər drossel klapanları saxlayırsa, onda, demək, reduksiya[1] ventilləri[2] işləmir? Ventillər! Niyə sən cavab vermirsən?

L u n a k . İndikator[3], reduktorun[4] və reduksiya ventillərinin tamamilə kip bağlandığını göstərir. Şaxələnmədəki halqalar da sızdırmırlar. Əsas çəndəki təzyiq düşməkdə davam eləyir və onun sürəti 50 kq/kv.sm-dir.

M i l l s . Bəs ehtiyat çəndəki?

L u n a k . Ehtiyat çəndəki təzyiq dəyişmir – 90 kq/kv.sm.

B l o p p (*oxuyur*). İndi çöx gözəl gündür...

M i l l s . Oxu, oxu! Lunak! Ehtiyat oksigen neçə saata bəs eləyər?

L u n a k . Qənaətlə işlədilərsə, «BV» – «Böhran vəziyyəti»nin bir-sıfır-yeddi qaydalarına uyğun olaraq ehtiyat çəndəki oksigen bir adam üçün 280 saat bəs eləyər.

M i l l s . Azdır! Azdır, lənət şeytana! Ora oksigen vur, nə qədər ki hamısı qurtarmayıb. Əsas çəndən nə qədər bacarırsansa, sor!

L u n a k . Ehtiyat çən ən çoxu 85 kq/kv.sm təzyiqə hesablanıb. «BV» – «Böhran vəziyyəti» bir-sıfır-yeddi vəziyyətinə uyğun olaraq mən oksigen ehtiyatını maksimum artırmaq üçün ehtiyat çəndəki təzyiqi 5 kq/kv.sm artırdım. Təzyiqin daha da artırılması çənin dağılmasına gətirib çıxarar. Diqqət. «BV» – «Böhran vəziyyəti» bir-sıfır-yeddi vəziyyəti çərçivəsində hazırkı məlumatlar. Əsas çəndəki təzyiq düşür. İndi onun sürəti 41 kq/kv.sm təşkil eləyir.

M i l l s . Hələ də gedir?.. Aman Allahım... Nəyə görə sən heç nə eləmirsən? Oksigen hara gedir?

L u n a k . Məlumatlar kifayət qədər deyil. Diqqət. «BV» – «Böhran vəziyyəti» bir-sıfır-yeddinin xilasedici təlimatlarını qoşuram. Bənd «Oksigen sızması və boğulma təhlükəsi»... Əsas çəndəki təzyiq müəyyən olunmamış səbəblərdən düşür və 32 kq/kv.sm təşkil eləyir. Əgər sızma sürəti daim davam eləyərsə, əsas çəndəki təzyiq doqquz-on dəqiqədən

---

[1] R e d u k s i y a – mühərriklərdə maye və qazların təzyiqinin xüsusi cihazlarla azaldılması

[2] V e n t i l – borularda, cihazlarda və s.-də mayenin, qazın, yaxud buxarın yolunu açıb-bağlamaq üçün qurğu

[3] İ n d i k a t o r –borudakı qazın təzyiqini ölçən cihaz

[4] R e d u k t o r – qazın təzyiqini azaldan cihaz

sonra sıfıra qədər düşə bilər. A, B, D indikatorları və P-26 qrupları nomadadır. Stansiyanı təchiz eləyən boru xətlərinin sıxlaşdırıcıları reduktora qədər və reduktordan sonra normaldır. Reduksiya ventillərinin reduktor və klapanları normadadır.

Mills. Hər şey normadadır, oksigen isə gedir! (*qəzəbini boğaraq*) Hə?

Lunak. Elədir ki var. Ölçü cihazlarının sistemi yalnız çənin boş hissəsinə və şəbəkənin boru xətlərinə nəzarət elədiyindən baş proqramın nəzərdə tutduğu qəza olduğunu təxmin eləmək olar, fəsil 8, yarımfəsil 12, paraqraf 04: oksigen çəninin zirehli dibində çat, çənin bilavasitə Ayın öz süxuru üzərindəki beton bünövrəsindəki dibində. Qəza proqramına əsasən, paraqraf 05, oksigen çəninin zirehli dibində çat olması ehtimalı dörd yüz milyarddabirə bərabərdir. Diqqət. «BV» – «Böhran vəziyyəti» bir-sıfır-yeddi çərçivəsindəki hazırkı məlumatları çatdırıram. Əsas çəndəki oksigenin təzyiqi ləng düşür, çünki oksigen sızmasının öz təzyiqi aşığıdır. İndi o, 28 kq/kv.sm təşkil eləyir.



Mills. Bu da xilasedici təlimat? Nekroloqa daha çox oxşayır. Ehtiyat çəndəki təzyiqi yüksəltmək olmazmı?

Lunak. Ehtiyat çəndəki təzyiqin bir kvadratsantimetrə olan təzyiqini bir kiloqram-güc artırsaq, çənin dağılması ehtimalı üçüncü dərəcəyə qədər artır.

Blopp (*oxuyur*). İndi, çox gözəl gündür...

Mills. Bu xilasedici təlimatda sonra nə var?! Lunak!

Lunak. Diqqət. Danışır Lunak, «BV» – «Böhran vəziyyəti» bir-sıfır-yeddi vəziyyətinə əsasən xilasedici təlimat. Təlimatın sıfır-bir bəndi. İnsan orqanizminin sakit vəziyyətdə hər şeydən az oksigen işlətdiyini nəzərə alaraq, bazada olan bütün adamlara yubanmadan arxaları üstə uzanmağı, əzələləri boşaltmağı, dəqiqədə 14 dəfədən çox olmamaq şərti ilə aramla nəfəs almağı və nəsə xoş, ya da əhəmiyyətsiz bir şey haqqında düşünməyi məsləhət görərdim, çünki beyinin istənilən qıcıqlanması maddələr mübadiləsini, bununla da oksigen sərfini gücləndirir.

Mills. Nəsə xoş bir şey haqqında, hə? Qulaq as! Ehtiyat çənə, heç olmasa, iki yüz funt da oksigen vur. Əmr edirəm, yubanmadan işə başla! Kompessoru qoş! Eşidirsən?!

L u n a k . Bu əmri yerinə yetirə bilmərəm, çünki «BV» – «Böhran vəziyyəti» bir-sıfır-yeddi məhdudlaşdırılmış proqramına tabeyəm. Xilasedici təlimata əsasən, mən məhdudlaşdırılmış proqram çarxının harada olduğunu göstərə bilərəm. Bundan əlavə, məni bütünlüklə işə salmaq olar və mən bazadakı bütün avadanlıqlar üzərindəki nəzarəti və məsuliyyəti öz üzərimə götürərək öz fikrimlə hərəkət eləyə bilərəm. Amma mən bunu eləməyi məsləhət görmürəm, çünki oksigen sızması elədir ki, göstərilən məhdudlaşmanı qoşmamışdan əvvəl oksigen əsas çəndən axıb qurtaracaq.

M i l l s . Ən azından, bu, bizə aydındır. (*Birdən səsi gəldikcə çığırır.*) Blopp! Blo-o-oppp!!!

B l o p p (*hamamın azacıq açıq olan qapısından*). Niyə belə çığır-bağır salıbsan? Duş qəbul eləmək istəyirsən? Mən artıq çıxıram.

M i l l s . Mən duş qəbul eləmək istəmirəm. Mən yaşamaq istəyirəm.

Bağlanan qapının taqqıltısı, yalın ayaqlarla atılan iti addım səsləri. Bloppun yaxınlaşan səsi.

B l o p p . Sən nə danışırsan? Sən nə hala düşübsən? Sənə nə olub?

M i l l s . Biz hər ikimiz eyni cür görünürük. Oksigen sızması. Çəndəki bütün oksigen sızıb.

B l o p p . Bütün oksigen? Bu, nə axmaq zarafatdır?

M i l l s . İnanmırsan? Onda qulaq as. (*Kompüteri işə salır.*)

L u n a k . Diqqət. Danışır Lunak. «BV» – «Böhran vəziyyəti» bir-sıfır-yeddi vəziyyətinin xilasedici təlimatı qoşulub. Stansiyada birincidərəcəli həyəcan elan olunub. Əsas çəndəki oksigenin təzyiqi 8 kq/kv.sm təşkil eləyir və düşməkdə davam eləyir, ancaq ləng düşür. Təzyiqölçən cihazların göstəricilərinə əsasən, əsas çəndən oksigen sızır. Kifayət qədər məlumat olmadığından sızma yeri müəyyən edilməmişdir. Çən çatlayıb, ehtimala görə, zirehli dibindəki hissədən. Əsas qəza proqramı belə çatın ehtimalını dörd yüz milyarddabir nisbətində qiymətləndirir. Diqqət. «BV» – «Böhran vəziyyəti» çərçivəsində xilasedici təlimatın davamına keçməmişdən əvvəl stansiyadakı indikatorların

göstəriciləri haqqında məlumat verirəm. Boru xətlərinin reduktorunda bütün klapanlar normadadır. Boru xətlərinin şaxələnməsində, həm də halqalarda bütün sıxlaşdırıcılar normadadır...

B l o p p . Sən bu zəhlətökəni susdur! Neyləməyimiz haqqında düşünmək lazımdır!

Söndürülən kompüter yarı sözdə susur.

B l o p p . Mən hələ fikirlərimi toplaya bilmirəm. Əsas çəndə oksigen yoxdur, bəs ehtiyatdakında?

M i l l s . Var. Əgər kompüterə inansaq, 140 saata bəs edər.

B l o p p . 140 saata?! Bəs... ikimizə?

M i l l s . İkimizə? Yoxlamaq olar. (*Kompüteri qoşur.*) Lunak! Oksigen neçə günə bəs edər?



L u n a k . Danışır Lunak. Ehtiyat çəndəki oksigen ciddi qənaət edilərsə, iki nəfər üçün 140 saata bəsdir, bir nəfər üçünsə 280 saata. «BV» – «Böhran vəziyyəti» bir-sıfır-yeddi xilasedici təlimatına davam edirəm. İnsan orqanizminin sakit vəziyyətdə hər şeydən az oksigen işlətdiyini nəzərə alaraq, bazada olan bütün adamlara yubanmadan arxaları üstə uzanmağı, əzələləri boşaltmağı, dəqiqədə 14 dəfədən çox olmamaq şərti ilə aramla nəfəs almağı və nəsə xoş bir şey haqqında düşünməyi... (*söndürülən kompüterin çaqqıltısı*)

B l o p p . Di xoş bir şey haqqında düşünək! 140 saat, pis deyil? Növbə isə 280 saatdan sonra gələcək. (*astadan*) Çatdırmarıq.

M i l l s . Elə görünür.

B l o p p . Bu, necə baş verib? Birdən-birə...

M i l l s . Bilmirəm. O da heç nə bilmir. «Məlumatlar kifayət qədər deyil». Tanış mahnıdır, hə? Deyəsən, zirehin dibi tab gətirməyib. Metalın köhnəlməsi, ya da... yeri gəlmişkən, indi bu, elə də vacib deyil. Belə ki, uzanırıq? Arxamız üstə və əzələlərimizi boşaldırıq.

B l o p p . Niyə? Oksigen ciddi qənaət nəticəsində 140 saata bəs eləyir, növbə isə 140 saat sonra gəlir! Uzanmaq və boğulmaq, yaxşı şey haqqında düşünmək əvəzinə, yaxşısı budur, hansısa bir çıxış axtaraq!

Mills. Axtarmaq olar, əlbəttə. Amma sən, bəlkə, əyninə nəsə geyinəsən, hə?

Blopp. Nə? Oh! Oh! Mən ki anadangəlmə lüt dayanmışam... Gözlə, mən əynimə bir şey keçirim... indi ən başlıcası soyuqqanlılığımızı itirməməkdir. (*cırılan parçanın səsi*)

Mills. Fikir ver! Köynəyi ayağına geyirsən!

Blopp. Ay şeytan! Yaxşı köynək idi... (*Səfeh gülüşlə gülür, amma ani də olaraq gülməyinə son qoyur.*) Di mən hazır...

Mills. Nə istəsən eləyə bilərsən. Hər ehtimala qarşı mən uzanıram. Uzanan yerdə də danışmaq olar. Təlimatlar isə onlara riayət edilmək üçündür.

Lunak. Diqqət. «BV» – «Böhran vəziyyəti bir-sıfır-yeddi çərçivəsində xüsusi məlumatı verirəm. Əsas çəndəki oksigenin təzyiqi 4 kq/kv.sm-dən aşağı düşüb. Bu səviyyə stansiyanı təchiz eləmək qabiliyyətində olmadığından ehtiyat çəndən oksigenlə qidalanmanı qoşuram. (*Yüngül fışıltı, sonra sakitlik çökür.*) Diqqət. «BV» – «Böhran vəziyyəti» bir-sıfır-yeddi çərçivəsində xilasedici təlimata davam eləyirəm. Birincidərəcəli həyəcanın hökm sürdüyü bütün bu müddət ərzində yemək qəbul edilməməsi məsləhət görülür. Xüsusilə də yüksəkkalorili zülalları olan yeməklərin, çünki onların qəbulu maddələr mübadiləsini, bununla da oksigenin istifadəsini gücləndirir. (*söndürülən kompüterin çaqqıltısı*)

Mills (*uzanan yerdən*). Niyə söndürdün?

Blopp. Qulaq as! Hyustonla əlaqə yaratmaq lazımdır! Qoy raketin buraxılışını sürətləndirsinlər!

Mills. Sən unudursan ki, bizim əlaqəmiz yoxdur!

Blopp. Lənət şeytana. (*Kompüteri işə salır.*) Lunak, Hyustonla əlaqə nə vaxt bərpa olunacaq?

Lunak. Danışır Lunak. Hazırkı anda stansiya librasiya hərəkətləri nəticəsində Ayın üfüqləri altındakı radiokölgə zonasındadır. Radiokölgədə olmaq müddəti hazırkı dəqiqəni də saymaq şərti ilə 218 saatdır. «BV» – «Böhran vəziyyəti» qaydasına uyğun olaraq xilasedici təlimatı verməkdə davam eləyirəm... (*söndürülən kompüterin çaqqıltısı*)

Blopp. Olduqca uzun müddətdir. Yeri gəlmişkən, onda, onsuz da... bütün bunlar necə olacaq? Hə?

M i l l s . Uzan.

B l o p p . Əbədi istirahətə? Hələ vaxtım var. Lənət şeytana! Axı stansiyada skafandrlı oksigen balonları olmalıdır! Onlar haradadır?

M i l l s . Yalnız ikisi qalıb. Hər birində də səkkiz funt oksigen var.

B l o p p . Amma o birilər boşdur! Boşları çəndən oksigen qurtarana kimi doldurmaq olar, sənsə bununla məşğul olmaq əvəzinə...

M i l l s . Sakit ol. Sən ki özün bütün boş balonları Torriçelli kraterinin altındakı konusun ətrafında atdın.

Sükut.

B l o p p . Hər halda, mən Hyustonu çağırmağı sınaqdan keçirəcəyəm. Hə? Sən necə düşünürsən?



M i l l s . Axı o, radioüfüqlərin altındadır. Cəhd göstərməyə dəyməz.

B l o p p . Sınamağın bir ziyanı yoxdur.

İşə düşən radionun səsi.

B l o p p . Alo, Hyuston, alo, Hyuston! Cavab verin! Danışır Ay! Bizim ciddi problemlərimiz var. Hyuston, siz bizi eşidirsinizmi? Hyuston, biz ölümcül təhlükəylə üz-üzəyik, bizim oksigenimiz qurtarıb! Hyuston! Yüz dəfə lənətə gələsiniz...

M i l l s . Sən bir sakit ol da. Uzan və tərpənmə.

B l o p p . Deyək ki, mən də uzandım. Bunun nə faydası var?

M i l l s . Bu, bizim şansı artırır.

B l o p p . Sən belə düşünürsən? Öyrənmək olarmı, nəyə görə?

M i l l s . Raket tez uçub gələ bilər.

B l o p p . Sən özün də buna inanmırsan. Bilirsən niyə?

M i l l s . Eşidirəm.

B l o p p . Biz, hər halda, nəsə eləyə bilərik. Mən demirəm ki, dərhal. Amma bütün imkanları nəzərdən keçirmək lazım gəlir.

M i l l s . Sən nəyi nəzərdə tutursan? (*Birdən başa düşür.*) A!

B l o p p . Məhz elə.

M i l l s . Mənə ümid eləmə. Mənim arvadım, uşaqlarım var...

B l o p p . Mən səni dilə tutmuram. Amma biz hər ikimiz eləyə bilərdik...

M i l l s . Necə yəni ikimiz?

B l o p p . Belə bir üsul var. Köhnə, sınaqdan çıxmış.

M i l l s . Püşk atmaq?

B l o p p . Deyək ki, hə.

M i l l s . İş təkcə ailədə deyil. Bu, mənim əqidəmə ziddir. İnsanın bunu özünün eləməsinə haqqı yoxdur.

B l o p p . Cənabi-Allah sənə qadağan eləyir?

M i l l s . Kiminsə inamını lağa qoymaq üçün bu, elə də münasib şərait deyil.

B l o p p . Mən heç də lağa qoymuram. İnam yaxınlarını sevməyi təlqin...

M i l l s . Amma sən axı inanmırsan.

B l o p p . Əvəzində isə sən inanırsan.

M i l l s . Əl çək. Bu arsızlıqdır. Həm də səfehlikdir.

Onlardan birinin necə ayağa qalxması
və gəzişməsi eşidilir.

M i l l s . Niyə ayağa qalxdın. Eşidirsən? Sən oksigeni çox işlədirsən.

B l o p p . Hə, nə olsun? Onsuz da, çatmayacaq.

M i l l s . Sən mənim oksigenimi sərf eləyirsən.

B l o p p . Necə yəni?

M i l l s . Bax belə, təlimata uyğun olaraq mən uzanmışam, sənsə yox. Mən oksigendən az istifadə eləyirəm, sənsə çox, bizim isə bərabər oksigen işlətməyimiz lazımdır.

B l o p p . Gəl daha ali mövzularda söhbət eləyək. Şəraitə uyğun gələn ən yaxşı mövzuda. Bəlkə, axırıncı arzumuzu yazaq?

M i l l s . Ehtiyac yoxdur. Onsuz da, bizim hər bir sözümüz lentə yazılır.

B l o p p . Maraqlıdır, o lent haradadır? Heç vaxt bununla maraqlanmamışam! Lunak!

L u n a k . Danışır Lunak. Eşidirəm.

B l o p p . Sənmi bütün danışıqları qeydə alırsan?

L u n a k . Yox. Mənim bədənimin möhürlənmiş şüşə qapağı olan yeddinci şöbəsində kaseti avtomatik olaraq

dəyişdirən maqnitofon var və maqnitofon müstəqil olaraq qidalanır. Yazını silmək olmaz. Heyət dəyişərkən yazı Yerə aparılır və Hyustonda ona qulaq asırlar.

B l o p p . Hyustonda?

L u n a k . Elədir ki var. Hyustonda.

B l o p p . Bəs müstəqil qidalanma nə üçünmüş?

L u n a k . Maqnitofon qidalanmanı özünün şəxsi atom reaktorundan alır ki, stansiyada qəza zamanı yazını qoruyub saxlaya bilsin, həm də yazı stansiyanın elektrik şəbəkəsindəki gərginlikdən asılı olmasın.

B l o p p . Aydındır. Kimsə qısaqapanma törədə bilər və maqnitofon dayanar. Onlar hər şeyi nəzərə alıblar! Bu qapaq, yəqin ki, adi şüşədən deyil?

L u n a k . Maqnitofonun qoruyucu qapağı zirehli şüşədən hazırlanıb... Diqqət. Danışır Lunak. «BV» – «Böhran vəziyyəti» çərçivəsində xilasedici təlimata davam... (*söndürülən kompüterin çaqqıltısı*)



M i l l s . Sən, nədir, əylənirsən? Bu qurğunu sakit burax. Kompüter nə dedi, eşitdinmi? Sən, onsuz da, onun içərisinə girə bilməyəcəksən. Yalnız dırnaqlarını qıracaqsan.

B l o p p . Qırmaram – axı mən heç nəyə toxunmuram.

Xışıltı, şüşənin taqqıldamasına və
cırmaqlanmasına oxşar bir səs güclə eşidilir.

M i l l s . Dərhal maqnitofondan kənara çəkil və burada uzan! Eşidirsən?

B l o p p . Mən uzanmaq istəmirəm. Bundan əlavə, mən səndən təmkinini qorumağı xahiş edərdim. Sən dözülməz olmağa başlayırsan.

M i l l s . Mən?

B l o p p . Sən. Amma iş bunda deyil. Əgər mənim maqnitofona baxmağım səni qıcıqlandırırsa, daha bunu eləməyəcəyəm. Sən razı qaldın?

M i l l s . Yata bilsəydim, yaxşı olardı. Yuxuda oksigendən az istifadə eləyirsən.

B l o p p . Sən yata bilərsən? Mən sənə heyrətlənirəm.

M i l l s . Yuxu dərmanı qəbul eləmək olar.

B l o p p . Sən eləmi düşünürsən? (*bir dəqiqə sonra*) Di yaxşı. Biz elə də edərik. O haradadır? Tibb çantasında?

M i l l s . Hə. (*xışıltı*) Sən orada neyləyirsən?

B l o p p . Sənin elədiyini. (*Stəkana tökülən suyun şırıltısı eşidilir.*) Budur o. «Sekonal». (*İçində həb olan stəkanı çalxalayır.*)

M i l l s . Şüşəyə toxunma! Mən özüm həb götürərəm. (*Onun da ayağa qalxdığı eşidilir.*)

B l o p p . Al, mən artıq götürdüm. Nə işdir? Sən niyə mənə belə ilişirsən?

M i l l s . Öz həbini ağzına qoy, onda mən də qoyaram.

B l o p p . Allah xatirinə. (*O qədər anlaşılmayan tərzdə danışır ki, sanki, onun ağzında həb var.*) Bəs sən niyə udmursan?

M i l l s . Əvvəlcə dişləmək lazımdır.

B l o p p . Axı sən heç dişləmirsən də...

M i l l s . Gəl bir yerdə udaq, bir-iki-üç deməklə. Yaxşı?

B l o p p . Qəribə fikirdir. Amma bu, sənin üçün belə mühümdürsə, məmnuniyyətlə! Bir, iki, üç!

M i l l s . Sən udmağı heç düşünmürsən də!

B l o p p . Ona görə ki, sən də udmayıbsan...

M i l l s . Mən sənə inanmıram.

B l o p p . Mənim sənə inanacağımı gözləmək də çətindir.

M i l l s . Niyə?

B l o p p . Ona görə ki, sən özünü müqəddəs hesab eləyirsən. Nümayişkaranə tərzdə uzanırsan, özünü elə aparırsan, guya, sən təlimata uyğun hərəkət eləyirsən, mənsə yox, sonra da məndən çuğulluq elədin!

M i l l s . Necə yəni çuğulluq? Sən nə sayıqlayırsan?

B l o p p . Hyuston uçuş mərkəzinə çuğulluq. Mənim əzizim, mən kar və kor deyiləm. Mən hətta maqnitofonun qapağına toxunmadım, sənsə mənim maqnitofonun içərisinə girməyimi dedin. Az imiş! Mən cavab verəndə ki, maqnitofona toxunmadım, sən arxamda nəyisə qıcırdatmağa başladın. Bu səs yazılıb. Sən bunu bilərəkdən elədin! Sən istədin ki, mənim maqnitofonu açmağımdan şübhələnsinlər...

M i l l s . Amma sən cəhd elədin!

B l o p p . Ekspertiza bunu da müəyyən edər. Uzaqdan gələn səs yaxından gələn səsə nisbətən başqa cür səslənir. Mən kompüterin yanında dayanmışdım, sənsə uzanıb dırnaqlarınla ağacı cırmaqlayırdın...

M i l l s . Qulaq as, səni nəsə qara basıb. Ola bilsin, hansısa təsadüfi xışıltı olub, amma mən heç nə hiss eləmədim. Lütfən, mənimlə belə danışma. Bizim bir-birimizi tanıdığımız ilk gün deyil. Sən tez coşan adamsan, amma bu hadisə necə qurtarmış olsa belə, mən səndəki yaxşı cəhətlərə ümid eləyirəm. Sakitcə düşün. Burada nəsə baş verməsi çox pis olardı...

B l o p p . Sən nəyə işarə vurursan? Bizim hər birimizin yaxşı və pis cəhətlərimiz var. Sən də göydəndüşmə müqəddəs deyilsən.

M i l l s . Amma mən bunu təsdiq eləmirəm. Mən yalnız bizim özümüzü təlimatın tələb elədiyi kimi aparmağımızı təklif eləyirəm. Ləyaqətlə və səmərəli.

B l o p p . Demək, sən fikrini dəyişdin?

M i l l s . Başa düşmədim.

B l o p p . Püşk atmaq istəyirsən?



M i l l s . Yox. Allah xatirinə, bu haqda danışma.

B l o p p . Qızışma. Mən ona görə soruşdum ki, sən özün dedin: biz özümüzü səmərəli aparmalıyıq...

M i l l s . Həm də ləyaqətlə! Sən bircə sözünü də örtbasdır eləyə bilməzsən! Bizim şahidimiz var, bax burada! (*Maqnitofonun şüşə qapağını döyəcləyir.*)

B l o p p . Nahaq yerə sən belə çılğınlıq eləyirsən. Bircə sözdən ötrümü?.. Əgər mən səni düz başa düşmədimsə, bağışla. İndisə mən təklif eləyirəm: gəl uzanaq. Əgər sən mənə etibar eləmirsənsə, bu tərəfdə uzan, onda məni görə bilərsən... hərçənd sən nədənsə qorxmalı deyilsən! Sənə nə olub? Sən gah ağarırsan, gah qızarırsan... su istəyirsən? Əllərin əsir – fikir ver, stəkanı yerə salacaqsan!

Yerə düşən və sınan stəkanın səsi.

M i l l s . Düz deyil! Stəkanı sən sındırdın!

B l o p p . Nə cür yəni? Sən onu əlində saxlayanda, səndən üç metr aralıda dayanaraq?

M i l l s . Sən sındırdın! Sən onu bilərəkdən götürdün və döşəməyə atdın, çünki səs yazılır, görüntü isə yox! Sən məni günahlandırmaq istəyirsən – keçməz!

B l o p p . Günahlandırmaq? Bütün müqəddəslər xatirinə de, nədə? Sənin stəkanı sındırmağında? Mənim üçün

cinayət tapıb! A... aydındır! Sən artıq mənə ikinci tələni qurursan. «Yüksək komissiya! Əvvəlcə Blopp maqnitofonu açmaq istədi, amma buna nail ola bilmədi. Sonra stəkanı sındırdı və dedi ki, stəkanı Mills sındırdı, çünki onun əlləri əsirdi». Oh, bu hiyləgər Blopp! Əgər Bloppun başına bir iş gələrsə, yalnız bu, ona görə olacaq ki, doktor Mills mütləq özünümüdafiə şəraitində hərəkət eləyib... Əgər sən mənim yaxşı cəhətimə ümid bəsləyərək bu ruhda hərəkət eləyəcəksənsə və eyni zamanda da donuzluq dalınca donuzluq eləyəcəksənsə, mən öz kabinəmdə barrikada quracağam. Aydındır?

M i l l s . Gəlsin bir aydın olmasın. Sən məni dəli, psix kimi qələmə vermək istəyirsən, amma buna nail ola bilməyəcəksən!

B l o p p . Nəyə görə mən səni psix eləməliyəm? Bundan mən nə qazanıram?

M i l l s . Sən özün bunu çox gözəl bilirsən.

B l o p p . Yox. Bax məhz bunu bilmirəm. Hətta ola bilsin ki, sən özünü ağlı başından çıxan adam kimi aparırsan...

M i l l s . Mən özümü tamamilə normal aparıram. Daha dəqiqi – namusla.

B l o p p . Yaxşı. Sən özünü tamamilə normal aparırsan. Əgər istəyirsənsə, mən bunu on dəfə təkrar eləyə bilərəm. Doktor Mills özünü tamamilə normal, normal, normal, normal, normal aparır. Sənin üçün kifayətdirmi? Mən yalnız dedim: ola bilsin ki, sən özünü ağlı başından çıxan adam kimi aparırsan və bu qeydə alınıb? Bundan mən nə qazanıram?

M i l l s . Sən mütləq eşitmək istəyirsən?

B l o p p . Hə. Mən səndən xahiş edirəm.

M i l l s . Yaxşı. Sənin orada, cibində nə var?

B l o p p . Hansında? Bunda cib dəsmalı, maşın açarı və ölçü cihazı. Digərində isə oyun avtomatı üçün jeton və bloknot. Bu hamısıdır, sən özün də görürsən.

M i l l s . Sənin orada cibində daha nəsə var. Nəsə ağır şeydir, cibin şişib. Qatlama bıçaq, elə deyilmi?

B l o p p . Səndə qatlama bıçaq var, məndə yox. Sən özün onu mənə bazada göstərdin. Guya, onu sənə oğlun start ərəfəsində verdi. Onun üzərində sənin və atanın

adlarının baş hərfləri var. Sən onu cibində gəzdirirsən, indisə elə göstərməyə çalışırsan ki, guya, bıçaq məndədir.

Mills. Ona görə ki, bıçaq səndədir. Sən «Coca-cola»nı açmaq üçün onu götürdün. Onunla şüşə açmaq olar. Bıçaq stolun üzərində mikroskopun yanında idi və sən onu götürdün.

Blopp. Mən sənin bıçağını götürdüm?

Mills. Bu gün gündüz. Günortaya az qalmış. Özünü elə göstərmə ki, guya, xatırlamırsan.

Blopp. Maraqlıdır, əgər soyuducuda, yuxarı rəfdə hərtərəfli konservaçan varsa, sənin bıçağın mənim nəyimə lazımmış?

Mills. Doğru deyil, orada konservaçan yoxdur və mən sənə onu ora qoymağa icazə verməyəm!

Blopp. Mənim əzizim, olduqca kobud rəftar eləyirsən. Əgər mən konservaçanı soyuducuya qoya bilərəmsə, deməк, mən onun harada olduğunu bilirəm. Əgər belədirsə, sənin bıçağın mənim nəyimə lazımmış?



Mills. Amma bıçaq səndədir. Mən sənin cibinin necə şişdiyini görürəm...

Blopp. Mənsə sənin tankın üzərinə necə oturduğunu görürəm. İkisindən biridir: ya səni qara basır, ya da yalan danışırsan, çünki məndə heç bir bıçaq yoxdur. Əgər mən onu götürmək istəsəydim, səndən soruşardım və bu da qeydə alınardı. Axı gündüz mən axşam bizim oksigensiz qalacağımızı bilə bilməzdim. Mən gələcəyi görən deyiləm. Sənin bıçağını götürmək üçün sən mikroskopa baxanda mən gizlincə yaxınlaşmazdım. Görürsənmi, sənin mühakimələrin nəyə dəyir? Boynunun dalına soyuq əsgi qoy.

Mills. Necə də hiyləgərlik! Mənsə onu ləyaqətli adam hesab eləyirdim! Amma məni xəbərdar eləmişdilər! Çoxdan, hələ bazada olanda. Sən özünə tez mənsəb qazanıbsan. Sən meyitlərin üzəriylə irəliləyirsən.

Blopp. Bu, yayındırıcı manevr adlanır. Mənim mənsəbimi sakit burax. Sən iftiranın elə həmin sxemindən istifadə eləyirsən. Əvvəlcə maqnitofon, sonra stəkan, indisə bıçaq. Bilmirəm – ola bilsin ki, səndə təqib maniyası var, amma belə, ya da elə, sən təhlükəli oldun. Səni, məxsusən desək, sarımaq lazımdır.

Mills. Mənə yaxın gəlmə. Eşidirsən!

Blopp. Mən sənə yaxınlaşmaram, hətta sən özün xahiş eləsən də. Axmaq yoxdur burada. Bu, qambit[1] olardı.

Mills. Hansı qambit? Sən cəfəngiyat danışırsan.

Blopp. Sən istənilən an hər şeyi başqa şəklə sala bilərsən, necə ki indiyə kimi eləyibsən. Əvvəlcə sən mənim maqnitofona baxdığımı bəhanə gətirdin. Sonra stəkan sənin əlindən düşəndə, sən bundan da mənim əleyhimə istifadə elədin, qışqıraraq onu mənim sındırdığımı dedin. Sonra da bıçaq, üzərində baş hərfləriniz olan sənin bıçağın. Di hə, əlbəttə, nə yolla olursa olsun, mənim sənə yaxınlaşmağımı istərdin. Bu, tələ olardı. Deyim sən nə düşünürdün? Sən qışqıracaqdın ki, mən sənin üstünə atılmışam və bıçağı çıxardıb məni doğrayacaqdın. Hyustonda lent sənin səsini təkrarlayacaqdı və sən deyəcəkdin ki, bıçağı mənim əlimdən ala bilibsən. Guya, sən zəruri özünümüdafiə dairəsində hərəkət eləyibsən! Bax sən nəyə görə şübhələrinlə məni aldadıb tora salmaq istəyirsən! Həmahəng sübut zənciri! Amma mən onu qırdım. Sən mənə heç nə eləyə bilməzsən!

Mills. Bu necə iyrənc yalandır! Axı sən bir dəqiqə əvvəl dedin ki, mənim qollarımı sarımaq istəyirsən!

Blopp. Mən demədim ki, istəyirəm. Mən yalnız dedim ki, səni sarımaq yaxşı olardı, çünki sən ətrafındakılar üçün təhlükəlisən. Sən ani olaraq bundan istifadə elədin, qışqırdın ki, mən sənə yaxınlaşmayım. Mənsə hətta yerimdən tərpənməmişəm.

Mills. Blopp bıçağı açdı!

Blopp. Sən açdın bıçağı. Cibindən çıxartdın və açdın. Sən müasir səsyazma texnikasını layiqincə qiymətləndirmirsən. Ekspertiza açılan bıçağın səsinin hansı tərəfdən – mənim, ya da sənin tərəfindən gəldiyini müəyyənləşdirəcək!

Səslərdən hər ikisinin hərəkət elədiyini
başa düşmək olar – ehtimal ki, diqqətlə
bir-birini izləyirlər, boksçular rinqdə
olduğu kimi, stansiyada fırlanırlar.

Mills. Mənə yaxınlaşma! Yerində dayan!

---

[1] Qambit – şahmat oyununda işlədilən fənd

B l o p p . Sən bıçaqla üstümə gəldiyin zaman mən dayana bilmərəm. Mən geri çəkilməyə məcburam!

M i l l s . Yalandır! Mən geri çəkilməyə məcburam!

B l o p p . Mills axmaq deyil. O, özünü ifşa elədiyini başa düşür, çünki çaqqıltı onun tərəfindən eşidilib. Buna görə də mənim üzərimə gəlir, mənsə geri çəkilirəm. Beləliklə də, Mills bizim başlanğıc vəziyyətimizin müəyyən edilməsini çətinləşdirir. Biz tam bir dövrə eləmişik.

M i l l s . Aldadırsan! Yarım dövrə!

Blopp. Elə həmin taktikadır. Millsdə bıçaq var, mənsə silahsızam. Buna görə də mən stolun üstündən geoloji çəkici götürürəm. (*yüngül taqqıltı*) Sən indi nə uydurmaq istəyirsən?

M i l l s . Stolun üzərində heç bir çəkic olmayıb!

B l o p p . Budur. Olmayıb. Bəs mən stolun üzərindən nə götürmüşəm?



M i l l s . Heç nə! Sən stolun üzərinə barmaqlarınla vurdun! Sən yenə də hansısa əclaflıq eləyirsən!

B l o p p . Səndə bıçaq var, məndəsə çəkic. Sənin üstünlüyün azaldı. Buna görə də mən təklif eləyirəm – oh! (*dəmir gurultusu*) Mills mənə oksigen balonunu atdı!

M i l l s . Doğru deyil! Balon döşəmənin üzərindəydi və sən təpiyinlə onu vurdun!

B l o p p . Mills, ikinci balona toxunma!

M i l l s . Mən balonu qaldırmışam, nəyləsə axı müdafiə olunmalıyam!

B l o p p . Demək, mənim də müdafiə olunmağım lazım gəlir.

Nəsə astadan cingildəyir. Addım səsləri, tövşümə.
Qışqırıq, aşan stolun gurultusu.

M i l l s v ə B l o p p (*eyni zamanda*). Mills mənə hücum elədi! Blopp mənə hücum elədi!

Sakitlik.

B l o p p . Mən axırıncı dəfə bu ağılsızlığa sağlam düşüncə ilə son qoymağı təklif eləyirəm. Əgər biz özümüzü bundan sonra da belə aparmaqda davam eləyəriksə, onda hər ikimiz öləcəyik. Biz hər ikimiz eyni qay-

da ilə bir-birimizdən qorxuruq. Doğrudur, mən gənc və güclüyəm, amma sən zəifləyib öz kabinənə çəkilə və qapının arxasında barrikada qura bilərsən. Aydındır ki, əgər mən birinci gücdən düşərəmsə, mən də elə eləyərəm. Məntiqlə düşünməyi sına. Əgər sən kabinənə çəkilərsənsə, məndən əsla qorxmağın lazım gəlməz, sən, sadəcə və sadəcə, oksigen qurtarandan sonra boğulacaqsan, mən də. Biz hər ikimiz boğulacağıq, ölümqabağı isə bir-birimizə dəli olana kimi əzab veririk. Düşünürəm ki, bu, səni elə də qane eləmir.

M i l l s . Sən nə istəyirsən?

B l o p p . Elə həmin şeyi.

M i l l s . Püşk atmağı?

B l o p p . Hə.

M i l l s . Mən bunun namuslu təklif olduğuna inanmıram. Bu, sənin yeni hiyləndir!

B l o p p . Düşünürəm ki, sənin namuslu hesab eləyəcəyin yeganə təklif mənim özümü sənin gözlərinin qabağında asmağımdır, elə deyilmi? Cəfəngiyatdır. Mən təklif eləyirəm: məsələni püşkatma ilə həll eləyək!

M i l l s . Neyləməli... izah elə görüm, sən bunu necə təsəvvür eləyirsən...

B l o p p . Biz püşk atırıq. Uduzan öz kabinəsinə gedir və zəhər içir. Kimyəvi reaktivlər konteynerində kalium-sianid var. Bundan əvvəl uduzan sağ qalanı şübhəyə salmamaq üçün qapını içəridən bağlayır. Sən buna nə deyirsən?

M i l l s . Yaxşı. Sən istəyinə nail oldun. Püşk, qoy püşk olsun.

B l o p p . Mənim cibimdə bir dollar var. Gerbli tərəf mənim, gerbsiz tərəf sənin. Gerb uduzur, gerbsiz tərəf qalib gəlir. Pul yerə düşəndə hər ikimiz deyirik: ya gerb düşüb, ya da gerbsiz tərəf. Razısan?

M i l l s . Razıyam.

B l o p p . Diqqət, atıram! (*metal pulun cingiltisi*) Gerbsiz tərəf! Gerbsiz tərəf!

M i l l s . Gerb! Gerb!

B l o p p . Gerbsiz tərəf! Aldadırsan, gerbsiz tərəf!

M i l l s . Sən aldadırsan! Gerb!

Fasilə.

B l o p p . Çıxılmaz vəziyyət. Məxsusən mən bunu gözləməliydim. Amma hələ hər şey itirilməyib. Biz hansısa üçüncü şəxsə etibar eləyə bilərik.

M i l l s . Amma burada heç kim yoxdur.

B l o p p . Bəs kompüter? Məlumatı vermək üçün onu işə salırıq. Əgər onun dediyi səkkizinci sözdə hecaların sayı tək olarsa – sən udursan, əgər cüt olarsa – mən. Razısan?

M i l l s . Razıyam. Kompüterin nə deyəcəyi bizdən asılı deyil, burada nəyisə təxmin eləmək olmaz. Amma onu elə qoşmaq lazımdır ki, o, yavaş-yavaş danışsın, bizsə bir yerdə səkkizinci sözə qədər sayacağıq.

B l o p p . Təxirə salmaq olmaz. Onsuz da, bu qədər oksigen boş yerə gedir! Saymağa hazırlaş. Diqqət! Kompüteri işə salıram! Başladıq.



L u n a k . Xilasedici təlimatın ikinci fəsli, fövqəladə təhlükə rejimlərində, «BV» – «Böhran vəziyyəti» prosesində oksigenin qənaətlə sərf edilməsini nəzərdə tutur.

Kompüter adətən olduğundan bir qədər
yavaş danışır. Mills və Blopp astadan
onun dediyi sözləri sayırlar – «bir, iki, üç» və sair.
Səkkizinci söz «V» olur və bu münasibətlə də –
bu sözün təkhecalı olub-olmaması
üzərində mübahisə edirlər.

B l o p p . Səkkiz! Təkhecalı! Səkkizinci söz «V» idi!

M i l l s . «V» hesaba alınmır! Bu, ümumiyyətlə, nə söz deyil, nə də heca! Səkkizinci söz «Böhran» idi – ikihecalı, cütdür! Mən uddum!

B l o p p . O-o! Sənin bu kələyin keçməz! Şərti əvvəlcədən razılaşdırmışdıq və lentdə qeydə alınıb! Heç bir müstəsna hal nəzərdə tutulmamışdı! «V» sözdür! Mən uddum!

M i l l s . Doğru deyil, mən udmuşam!

B l o p p . Get kalium-sianid gətir! Cəld!

M i l l s . Özün get! Məni itələmə! Mən heç vaxt getmərəm! Əlini çək! Sən buna necə cürət eləyirsən!

Gurultu və qışqırıq.
Onlar mübarizə aparmağa başlayırlar.
Döşəmədə yumalanırlar. Zərbə səsləri,
aşan mebellərin səsi, ufultu, xırıltı eşidilir:

«Mills, burax!!!», «Blopp... boğma.. a! Bıçaq! At onu! Mills! Oh! Yox! Yox! Blopp məni boğur... məni öldürmə...» Mübarizə səsi əvvəlcə güclənir, sanki, bütün stansiya boyunca yayılır – bu, bədənlərin divarlara, konteynerlərə dəyməsi ola bilər. Adamlar ara vermədən mübarizə aparırlar, zəifləyir və nəhayət, necəsə sakitləşirlər, sonra ətrafa sükut çökür və bütün bu müddət ərzində Lunak müntəzəm olaraq təlimatı oxuyur.

Lunak. Ehtiyat çənin maksimuma qədər, yəni 90 kq/kv.sm təzyiqinə uyğun olaraq oksigenlə doldurulması üçün xilasedici təlimatın üçüncü fəslinə keçmək olar, «X» – «Xilas eləmə» əməliyyatına. Bu əməliyyata uyğun olaraq döşəmədə qırmızı «X» hərfi ilə işarələnmiş kvadratı tapıb onu döşəmədən qaldırmaq lazımdır ki, o, döşəmədən aralansın. Döşəmənin «X» kvadratının altında suyun elektroliz[1] edilməsi üçün qəza cihazı yerləşdirilib. Elektroliz suyu hidrogenə və oksigenə ayırır. Qəza elektroliz cihazının kabelini sıxacla bölüşdürücü E-4 və E-5 lövhəsinə birləşdirmək lazımdır. Akkumulyatorun batareyası suyun hidrogenə və oksigenə ayrılması üçün zəruri olan qədər elektrik enerjisi verəcək, ayrılan oksigen 250 saat ərzində iki insanın yararlanması üçün kifayət edəcək. Kvars çəndə toplanan oksigeni stansiyanın içərisinə, hidrogeni isə yaşıl lüminessent rənglə nişanlanmış xüsusi T-b boru xətti ilə bayıra buraxmaq lazımdır. İki adam üçün kifayət eləyəcək oksigen axınını təmin eləmək üçün ventilin tənzimləyicisini «X» – «Xilas eləmə» hərfinin üzərinə gətirmək lazımdır. Qəza aparatı səkkiz dəqiqə ərzində işə başlaya bilər. Onun işə salınmasından sonra əvvəlkitək oksigendən qənaətlə istifadə eləmək lazımdır. Bu məqsədlə də arxası üstə uzanıb, əzələləri boşaltmaq və nəsə xoş, ən azından, əhəmiyyətsiz bir şey haqqında düşünmək...

---

[1] Elektroliz – maddənin içindən elektrik cərəyanı keçdikdə onun öz tərkib hissələrinə və elektrodlara ayrılması prosesi

# MİSTER CONS,
# SİZ YAŞAYIRSINIZMI?

İŞTİRAK EDİRLƏR:

- Hakim
- Vəkil
- Harri Cons
- Sədr Doneven
- Consun qardaşı



H a k i m . Məhkəmə «Saybernetiks kompani»nin Harri Consun əleyhinə olan iddiasına baxır. Hər iki tərəf iştirak eləyirmi?

V ə k i l . Bəli, cənab hakim.

H a k i m . Siz kimin adından çıxış eləyirsiniz?..

V ə k i l . Mən «Saybernetiks kompani»nin hüquq məsləhətçisiyəm, cənab hakim.

H a k i m . Cavabdeh hanı?

C o n s . Buradadır, cənab hakim.

H a k i m . Sizin adınız, soyadınız?..

C o n s . Sizin icazənizlə, canab hakim. Cons Harri, 6 aprel 1917-ci ildə Nyu-Yorkda anadan olmuşam.

V ə k i l . İcazə verin, cənab hakim, əslində, belə deyil. Cavabdeh düzünü demir, o, ümumiyyətlə, anadan olmayıb.

C o n s . Lütfən, bu da mənim yaş kağızım. Salonda isə mənim qardaşım oturub, hansı ki...

V ə k i l . Bu heç də sizin yaş kağızınız deyil, göstərdiyiniz şəxs isə sizin qardaşınız deyil.

C o n s . Bəs kimin qardaşıdır? Maraqlıdır, kimin? Bəlkə, sizin qardaşınızdır?

H a k i m . Sakit! Bir dəqiqə, cənab hüquq məsləhətçisi. Demək, mister Cons?

C o n s . Mənim rəhmətlik atamın, Leksiqton Consun avtomobil təmiri emalatxanası vardı və o, məndə bu peşəyə məhəbbət aşıladı. On yeddi yaşımda ilk dəfə olaraq avtomobil yarışında iştirak elədim. O vaxtdan da bir peşəkar kimi səksən yeddi dəfə yarışlarda iştirak eləmişəm və on altı dəfə birinci yeri, iyirmi bir dəfə ikinci yeri tutmuşam...

H a k i m . Sizə təşəkkür eləyirəm, bu təfərrüatların işə aidiyyəti yoxdur.

C o n s . Üç qızıl kubok, üç qızıl kubok.

H a k i m . Kifayətdir, sizə minnətdaram.

C o n s . Bir də gümüş əklil.

H a k i m . Xahiş edirəm susasınız! Sizin müdafiəçiniz varmı?

C o n s . Yox. Mən özüm özümü müdafiə eləyəcəyəm. Mənim işim gün kimi aydındır.

H a k i m . Mister Cons, «Saybernetiks kompani»nin sizə qarşı hansı iddianı qaldırdığını bilirsinizmi?

C o n s . Bilirəm. Mən məkrli yırtıcıların şərəfsiz hərəkətlərinin qurbanı olmuşam...

H a k i m . Sizə təşəkkür eləyirəm. Cənab hüquq məsləhətçisi Cenkins, siz iddianın məzmununu məhkəməyə təqdim eləyə bilərsiniz?

V ə k i l . Bəli, cənab hakim. İki il bundan əvvəl Çikaqo ətrafındakı yarışda iştirak eləyən cavabdehin başına bədbəxt hadisə gəldi. Onun ayağını kəsdilər. Onda o, bizim firmaya müraciət elədi. Məlum olduğu kimi, «Saybernetiks kompani» əl, ayaq protezləri, süni böyrək, ürək və başqa orqanlar hazırlayır. Cavabdeh möhlətlə sol ayağına protez aldı, ilkin məbləği də ödədi. Dörd ay keçəndən sonra o, yenidən bizə müraciət elədi: bu dəfə hər iki əli, döş qəfəsi və boynu üçün protez sifariş verdi.

C o n s . Yalandır! Boynum üçün baharda sifariş vermişəm, dağlıq ərazidəki yarışdan sonra.

H a k i m . Lütfən, sözünü kəsməyin.

V ə k i l . Hesabla ikinci olan bu əməliyyatdan sonra cavabdehin firmaya borcu 2967 dollar oldu. Beş aydan sonra cavabdehin adından onun qardaşı bizə müraciət elədi. Cavabdeh onda Nyu-York ətrafındakı Monte-Roza

xəstəxanasında yatırdı. Beh alandan sonra firma cavabdehə bir sıra protezlər göndərdi; onların dəqiq siyahısı işə əlavə olunub. O siyahıda təfərrüatı ilə baş-beyin yarımkürəsini əvəz eləyən, qiyməti 26500 dollar olan «Qeniak» markalı elektron beyinin verilməsi də yazılıb. Mən hörmətli məhkəmənin diqqətinə bir faktı çatdırıram ki, cavabdeh bizə polad lampalı, rəngli yuxular görə bilmək üçün, dərd süzgəci və kədəri boğan cihazları olan «Qeniak»ın təkmilləşdirilmiş, ən yaxşı modelini sifariş vermişdi, hərçənd bu sifariş Consun maddi imkanlarından xeyli yüksək idi.

C o n s . O, əlbəttə, siz mənim sizin seriya ilə buraxılan beyinlə kifayətlənməyimə üstünlük verərdiniz!

H a k i m . Xahiş edirəm mane olmayasan!

V ə k i l . Cavabdehin bilərəkdən belə eləməsini və aldığı əşyaların haqqını bizim firmaya ödəməməsini belə bir fakt sübut eləyir ki, o, bizə adi yox, on səkkiz daşı olan «Şaffhauzen» markalı saat quraşdırılmış qol sifariş verib. Cavabdehin borcu 29.863 dollara qədər yüksələndə biz ondan əvvəl əldə elədiyi bütün protezləri firmaya qaytarmağı tələb elədik. Lakin ştatın məhkəməsi bizim şikayəti təmin eləmədi və bunu onunla əsaslandırdı ki, biz cavabdehi protezlərdən məhrum eləməklə onu sonrakı həyatından məhrum eləyirik, çünki qeyd eləməliyəm ki, keçmiş mister Consdan yalnız onun beyninin bir yarımkürəsi qalmışdı.

C o n s . «Keçmiş Cons» nə deməkdir?! Vəkilciyəz, firma sizi təhqirdən ötrü mükafatlandırırmı?

H a k i m . Xahiş edirəm mane olmayasınız! Mister Cons, əgər siz iddiaçını təhqir eləsəniz, mən sizi cərimələyəcəyəm.

C o n s . Amma axı o, məni təhqir eləyir!

V ə k i l . Bütün bunlarla yanaşı, bu qədər borcu olan, ona olduqca şəfqətlə və diqqətlə yanaşan «Saybernetiks kompani» tərəfindən təpədən dırnağa qədər protezləşdirilən cavabdeh, şirkətin kiçik bir xahişini yerinə yetirdi, adam içində bizim məhsulları pislədi, onların keyfiyyətindən şikayətləndi. Lakin bu, ona üç ay keçəndən sonra yenidən bizə müraciət eləməyə mane olmadı. O, əzginlikdən və ağrılardan şikayətlənirdi; bizim mütəxəssislər müəyyən elədilər ki, bunun səbəbi köhnə baş-beyin yarımkürəsidir,

özünü yeni beyin yarımkürəsi ilə, necə deyərlər, protezlərin əhatəsində pis hiss eləyir.

Humanizmin ali ideyalarını əldə rəhbər tutan firma bu dəfə də cavabdehin xahişini təmin elədi və onu bütünlüklə protezləşdirməyə razılıq verdi, yəni onun şəxsi beyninin köhnə hissəsini «Qeniak»ın ona oxşar olan əkiz cihazı ilə əvəz eləməyə razılaşdı. Bu yeni kreditin hesabına cavabdeh bizə 26.950 dollar məbləğində veksel verdi və bizə cəmisi 232 dollar 18 sent pul ödədi. Belə bir vəziyyətdə... Uca məhkəmə, cavabdeh bilərəkdən mənə danışmağa mane olur, mənim səsimi hansısa fışıltı, cırıltı və qıcırtı ilə batırır. Xahiş edirəm onu sakitləşdirəsiniz!

H a k i m . Mister Cons...

C o n s . Bunu eləyən mən deyiləm, mənim «Qeniak»ımdır. Mən gərgin halda düşünəndə o, həmişə belə eləyir. «Saybernetiks kompani»nin əvəzinə mənmi cavab verməliyəm? Uca məhkəmə belə halda şirkətin sədri Doneveni zay məhsul istehsal elədiyinə görə məsuliyyətə cəlb eləməlidir!

V ə k i l . Belə olan halda xahiş eləyirik bu salonda iştirak eləyən, yalançı protez dəstindən ibarət olan, özünü qanunsuz olaraq Harri Cons kimi qələmə verən şəxs üzərində firmanın tam mülkiyyəti olduğunu qəbul eləyəsiniz.

C o n s . Bu nə həyasızlıqdır! Onda, sizcə, Cons burada deyilsə, bəs onda haradadır?

V ə k i l . Burada, məhkəmə salonunda heç bir Cons yoxdur, bu məşhur çempionun cənazəsi Amerikanın müxtəlif yolları boyunca uyuyur. Belə olan halda əgər biz işi udarıqsa, bundan heç kim ziyan çəkməyəcək, belə ki, firmaya qanunla ona məxsus olan əşyalar qaytarılacaq, neylon dəridən ta axırıncı yivə qədər!

C o n s . Bircə bu çatmırdı! Onlar məni ayrıca hissələrə, ayrıca protezlərə bölmək istəyirlər!

S ə d r D o n e v e n . Bizim öz şəxsi əmlakımızla neyləyəcəyimizin sənə dəxli yoxdur!

H a k i m . Cənab sədr, lütfən, sözünü kəsməyin! Cənab hüquq məsləhətçisi, sizə təşəkkür eləyirəm. Mister Cons, siz nə demək istəyirdiniz?

V ə k i l . Cənab hakim, mən, əslində, onu da qeyd eləmək istəyirəm ki, cavabdeh faktik olaraq cavabdeh

deyil, o, bir növ, özünün Cons olduğunu təsdiqləyən cansız əşyadır. Lakin həqiqətdə o olmadığından...

C o n s . Mənə yaxın gəlin, görərsiniz mən yaşayıram, ya yox.

H a k i m . Hə... hm, doğrudan da, çox qəribə hadisədir. Hm! Cənab hüquq məsləhətçisi, cavabdehin yaşayıb-yaşamaması məsələsini mən məhkəmə qərar qəbul eləyənə kimi açıq saxlayıram, belə ki, əks halda bu, məhkəmənin normal işini çox çətinləşdirər. Mister Cons, sizə söz verirəm.

C o n s . Uca məhkəmə və siz – nəhəng konsernin azadlığın, düşünən şəxsin boğulmasına yönələn şərəfsiz işinin şahidləri olan Birləşmiş Ştatların vətəndaşları...

H a k i m . Mən xahiş edirəm yalnız hakimə müraciət eləyəsiniz. Siz mitinqdə deyilsiniz.



C o n s . Dorğudur, cənab hakim. Məsələ belə olub: mən, həqiqətən də, «Saybernetiks kompani»dən bir neçə protez əldə eləmişəm...

S ə d r D o n e v e n . Bir neçə protez! Bu, mənim xoşuma gəlir!

C o n s . Uca məhkəmə, lütfən, bu cənabı nizam-intizama dəvət eləyin. Demək belə, mən bu protezləri almışam. Onların necə olduğu haqqında danışmayacağam. Deməyəcəyəm ki, bütün müddət ərzində – gəzsəm də, yemək yesəm də, yatsam da – başımda elə səs-küy olur ki, hətta gecə qardaşımı oyatmamaq üçün başqa otağa keçməyə məcbur oluram. Bu reklam olunan, istifadə üçün zay olan hesablayıcı maşınlardan hazırlanmış «Qeniak»ların hesabına indi məni hesablama maniyası təqib eləyir: mən – hasarlar olsun, pişiklər, dirəklər, yoldan keçənlər, ya da Allah bilir nələr – fasiləsiz olaraq sayıram. Bu məsələ üzərində geniş dayanmayacağam, hər ehtimala qarşı mən bütün borclarımı ödəmək niyyətindəyəm. Lakin mən pulu yalnız yarışlarda qalib gələcəyim halda ala bilərdim. Bununla belə, pis formadayam, məyusluğa qapılmışam, başımı itirmişəm...

V ə k i l . Cavabdeh özü başını itirdiyini etiraf eləyir! Xahiş edirəm, məhkəmə hazırkı vəziyyətə diqqət yetirsin!

C o n s . Lütfən, sözümü kəsməyin! Mən bunu başqa mənada dedim. Mən başımı itirdim və birjada oynamağa

başladım, uduzdum, borc almağa məcbur oldum. Bununla yanaşı da özümü olduqca pis hiss edirdim. Sol ayağım daim sancırdı, gözlərimdən qığılcım saçılırdı, hansısa səfeh yuxular görürdüm, yuxuma tikiş, corab və trikotaj maşınları girirdi. Mən psixoanalitikdə müalicə olundum, onlar məndə Edip kompleksi tapdılar, belə ki, mən uşaq olanda anam tikiş maşını işlədirmiş. Məhz bu zaman, mən tamamilə zəifləyəndə firma məni məhkəmələrə çəkməyə başladı. Bu haqda qəzetlərdə yazdılar. Bu kinli böhtanların nəticəsində də metodistlər cəmiyyəti (*mən metodistəm*) qapılarını üzümə bağladı.

V ə k i l . Siz bundan şikayətlənirsiniz? Demək, siz axirətdəki həyata inanırsınız?

C o n s . İnanıram. Bəs bunun sizə nə dəxli var?

V ə k i l . Bu, məni çox maraqlandırır, belə ki, mister Harri Cons artıq axirət həyatını yaşayır, sizsə, sadəcə, qəsbkarsınız!

C o n s . Danışmamışdan əvvəl düşünün!

H a k i m . Mən hər iki tərəfi sakitliyə dəvət eləyirəm.

C o n s . Uca məhkəmə, mən belə ağır vəziyyətdə olanda firma mənə qarşı iddia qaldırdı. Məhkəmə onların tələbini rədd eləyəndə isə mənə bir şübhəli tip, hansısa Qoas müraciət elədi; o, mənim yanıma sədr Doneven tərəfindən göndərilmişdi. Amma mən onda bütün bunları bilmirdim. Bu Qoas özünü təqdim elədi və dedi ki, o, montyor-elektrikdir, mənim bütün bu sıxıntılarımın ancaq bir çarəsi var: özümün bütünlüklə «qeniaklaşmağıma» icazə vermək. Mən ovaxtkı sağlamlığımla hətta avtomobil yarışları arzusuna belə düşə bilməzdim. Mən neyləyə bilərdim? Razılığımı verdim və Qoas növbəti gün məni «Saybernetiks» firmasının montaj şöbəsinə apardı.

H a k i m . Demək, sizdən çıxartdılar?..

C o n s . Hə, əlbəttə.

H a k i m . Yerinə də bunu quraşdırdılar?

C o n s . Hə də, amma mən heç cür başa düşə bilmirdim ki, nəyə görə onlar belə həvəslə bütün bunları eləyirlər, həm də belə əlverişli şərtlərlə – haqqını uzun illər ərzində ödəmək şərti ilə. Amma indisə başa düşürəm! Uca məhkəmə! Onlar məni özümün köhnə beyin yarımkürəmdən məhrum eləmək istəyirmişlər. Axı məhkəmə iddianı ona

görə rədd eləmişdi ki, əgər məndən yerdə qalan hissələri alarlarsa, başımın bu bədbəxt hissəsi müstəqil fəaliyyət göstərə bilməz. Buna görə də məhkəmə onların dediklərini qəbul eləmədi. Onlar mənim sadəlövhlüyümdən və bədbəxt hadisələr nəticəsində ağlımın qaydada olmamasından istifadə elədilər və Qoası yanıma göndərdilər ki, mən bu köhnə hissənin çıxarılmasına razılıq verim. Beləliklə də, mən onların məkrli planlarının qurbanı oldum! Doğrudur, bu dəliliyin ömrü uzun olmayacaq! Çünki Uca məhkəmə, onların mühakimələri nəyə dəyər? Onlar mənə hansısa haqları olduğunu iddia eləyirlər. Amma hansı əsasla? Deyək ki, kimsə dükançıdan kreditlə un, qənd, ət və digər məhsulları alır, dükançı isə məhkəməyə borclunun onun mülkiyyətinə verilməsi tələbi ilə müraciət eləyir, ona görə ki, tibbdən məlum olduğu kimi, bədən üzvləri qida məhsullarının hesabına daima yenilənir. Beləliklə, bir neçə ay ərzində dükançının ona kreditlə satdıqlarının hesabına borclunun başı, ciyərləri, əli və ayağı artıq zülallardan və karbohidratlardan ibarət olur. Harada olur-olsun, bu dükançının tələbini yerinə yetirməyə hazır olan bir məhkəmə varmı? Biz məgər orta əsrlərdə yaşayırıq ki, Şeylok ona borclu olandan bir funt öz ətini tələb eləsin! Bizim qarşımızdakı da buna oxşar olan bir hadisədir! Mən avtomobil yarışının çempionu Harri Consam, daha hansısa maşın yox.

S ə d r  D o n e v e n . Doğru deyil, siz maşınsınız!

C o n s . Belə de! Bəs belə olan halda sizin firma kimi günahlandırır? Məhkəmə çağırışı kimə göndərilmişdir? Hansısa maşına, ya Consa? Cənab hakim, bəlkə, siz bunu bizim üçün aydınlaşdırasınız?

H a k i m . Hm... hə, çağırış Nyu-York, 44-cü avenyüdə yaşayan Harri Consa göndərilmişdir.

C o n s . Cənab Doneven, siz eşidirsinizmi? Cənab hakim, bundan əlavə, icazə verin, mən prosessual qaydada daha bir sual verim: Birləşmiş Ştatların qanunlarında maşınların əleyhinə məhkəmə prosesləri nəzərdə tutulurmu? Məsələn, onları məhkəməyə çağırıb, nədəsə günahlandırmaq olarmı...

H a k i m . Yox... yox. Bu, qanunda nəzərdə tutulmayıb.

C o n s . Belə olan halda hər şey aydındır. Bir halda ki mən maşınam, onda məhkəmə araşdırması haqqında

söhbət belə gedə bilməz, belə ki, maşın məhkəmədə maraqlı tərəf ola bilməz. Əgər mən maşınamsa, onda tərəflərdən biri olan firmanın mənə hansı iddiası ola bilər? Mən onun köləsimi olmalıyam? Cənab Doneven quldar olmaqmı istəyir?

S ə d r   D o n e v e n . Bu nə həyasızlıqdır?!.. Hər halda... bu, bizim «Qeniak»ın.... işidirmi?

C o n s . Haradan sizin olur? Uca məhkəmə, firmanın tətbiq elədiyi üsullar haqqında aşağıdakı fakt ətraflı məlumat verir. Mən xəstəlikdən əzab çəkə-çəkə, birtəhər özümü ələ alaraq xəstəxanadan çıxdım və təmiz hava almaq üçün çimərliyə getdim, hiss elədim ki, arxamca bir dəstə adam düşüb. Bəs niyə? Məlum oldu ki, kürəyimdə yazı var: «*Made in Cybernetics Company*». «Saybernetiks kompani» firması. Mən də öz şəxsi hesabıma onun üzərindən yamaq vurdurdum. Hələ indi də məni təqib eləyirlər! Bəli, mənim unudulmaz ata-anam mənə dəfələrlə təkrar eləyirdilər ki, kasıb həmişə varlının qəzəbinə tuş gəlir.

S ə d r   D o n e v e n . Sizin atanız və ananız – «Saybernetiks kompani» firmasıdır.

H a k i m . Xahiş edirəm sakit olasınız. Mister Cons, siz nitqinizi qurtardınızmı?

C o n s . Yox. Birincisi, mən qeyd eləmək istəyirəm ki, firma mənim bundan sonrakı yaşayışımı da təmin eləməlidir, belə ki, mənim dolanmaq üçün heç bir vəsaitim yoxdur. Motoklub idarəsi maşınımı hansısa «cansız avtomatik qurğu»nun idarə elədiyini bəhanə gətirərək məni bir ay bundan əvvəl keçirilən Panamerika yarışlarından kənarlaşdırdı. Bunu kim eləyib? Onlar! Motokluba böhtan dolu məktub, həcv göndərən «Saybernetiks kompani» şirkəti! Onlar mənim çörəyimi əlimdən aldılar, onda qoy bundan sonrakı yaşayışım üçün vəsait versinlər, qoy məni ehtiyat hissələri ilə təmin eləsinlər! Məgər mən günahkaram ki, daim gah buram, gah da oram alışıb-yanır?!

Sədr Doneven mənə xoşluqla bu məsələni yoluna qoymağı təklif elədi, o istəyirdi ki, mən reklam maketi olmağa və hər gün səkkiz saat vitrinlərdə dimdik dayanmağa razılıq verim! Mən ona cavab verəndə ki, belə iş avtomobil yarışçısı üçün təhqiredicidir, boğazında qalar bu kimi ideyaların, o, mənə cavab verdi ki, mən artıq elə onun

boğazında qalmışam və bu, ona 56 min dollara başa gəlib. Bundan ötrü və buna oxşar təhqirlərə görə mən firmanı məhkəməyə verəcəyəm. İndisə mən Uca məhkəmədən şahid qismində qardaşımı dinləməyi xahiş edirəm, belə ki, o, bütün təfərrüatı bilir.

V ə k i l . Cənab hakim, mən şahid qismində cavabdehin qardaşının çağırılmasına etiraz edirəm.

H a k i m . Qohumluq əlaqələrinə görə?

V ə k i l . Həm hə, həm də yox... İş burasındadır ki, cavabdehin qardaşı keçən həftə avtomobil yarışında qəzaya uğradı.

H a k i m . Belə de! Və məhkəməyə gələ bilməz?

C o n s u n q a r d a ş ı . Bilərəm. Mən gəlmişəm.

V ə k i l . Bəli, həqiqətən də, o gələ bilər. Amma məsələ burasındadır ki, qəza onun üçün faciəli sonluqla nəticələnib və onun arvadının sifarişi əsasında firma cavabdehin yeni qardaşını hazırlayıb.



H a k i m . Yeni nəyi?

V ə k i l . Yeni qardaşı və eyni zamanda da dul qadının ərini.

H a k i m . Belə de!

C o n s . Nə olsun? Nəyə görə qardaş ifadə verə bilməz? Axı qardaşımın arvadı haqqını nağd ödəyib.

H a k i m . Xahiş edirəm sakit olasınız! Əlavə səbəbləri də araşdırmaq zəruri olduğuna görə məhkəmə «Saybernetiks kompani» şirkətinin Harri Consun əleyhinə olan iddiasına baxmağı təxirə salır.

# BUTERBROD

*(kinossenari)*

**Vəkil Harveyin otağı.**

Zəng çalınır, katibənin səsi.

Səs. Ser, yanınıza müştəri gəlib.
Vəkil. Kimdir?
Səs. O, hələ bizdə olmayıb. Mister Cons.
Vəkil. Yaxşı, qoy gəlsin.

Cons içəri daxil olur.

Vəkil. Günortanız xeyir. Lütfən, əyləşin.

Cons. Sağ olun. İstərdim ki, siz mənim işlərimlə məşğul olasınız. Bunun üçün mənim nə imkanım var, nə də vaxtım.

Vəkil. Təbii. Mən elə bunun üçün də buradayam. Sizin sifətiniz mənə tanış gəlir. Biz haradasa rastlaşmışıqmı?

Cons. Bəlkə, siz məni televizorda görübsünüz. Mən avtomobil yarışçısıyam.

Vəkil. Hə, əlbəttə! «Cons və Cons» komandası – «qardaşlar həyatdadırsa – qardaşlar sükan arxasındadırlar»! Necə oldu ki, mən bunu dərhal müəyyən eləyə bilmədim!

Cons. Daha komanda yoxdur. (*Qolundakı matəm sarğısını göstərir.*)

Vəkil. Sizin qardaşınız ölüb? Mənim başsağlığımı qəbul edin.

Cons. Neyləməli, yarışı davam etdirmək lazımdır. Misilsiz oğlan idi, qəza hər şeyə son qoydu. Yalnız srağagün mənim tikişlərimi söküblər. Təcili olaraq məşqlərə başlamaq lazımdır. Mən tamamilə formadan düşmüşəm.

V ə k i l. Ola bilər. Beləliklə, sizə nə köməyim dəyə bilər?

C o n s. Belə bir iş var. Mən subayam, qardaşım isə evli idi. Biz çarpaz sığortalanmışdıq. Əgər mən ölərdimsə, sığortanı o alacaqdı, əgər o ölərdisə, yarısını mən, yarısını da onun arvadı alacaqdı. Yəni onun dul qadını. Başa düşürsünüz?

V ə k i l. Hə, hə.

C o n s. Hə, indisə sığota şirkəti nədənsə hoqqabazlıq eləyir.

V ə k i l. Onlar sığortanı ödəməkdən imtina eləyirlər?

C o n s. İmtina eləmək deyəndə, boyun qaçırırlar, amma nəsə düzüb-qoşurlar. Yalnız bir hissəsini ödəmək istəyirlər.

V ə k i l. Yalnız bir hissəsini? Həyat sığortasının?

C o n s. Belə çıxır, hə.

V ə k i l. Onlar bunu nəylə əsaslandırırlar?



C o n s. Mən ağıllı-başlı başa düşmədim... Ümumiyyətlə, belə alınır ki, qardaşım tamam ölməyib.

V ə k i l. Tamam ölməyib? Demək, o sağdır?

C o n s. Nə danışırsınız! Ölüb.

V ə k i l. Onu dəfn eləyiblər?

C o n s. Orada dəfn eləməyə xüsusilə heç nə olmayıb, amma dəfn olub. Arvadı iştirak eləyib. Mənsə gedə bilmədim. Xəstəxanadaydım.

V ə k i l. Bəs qəza necə baş verib?

C o n s. Adi qaydada. Mən sürürdüm. Pamparoni güclə soldan keçmək istəyirdi və mən lap yaxından kəsib-keçdim.

V ə k i l. Siz nəyi kəsdiniz?

C o n s. Dönüb yol verdim. Təpənin arxasındakı bu lənətəgəlmişlərin üzərinə çıxana kimi.

Start. Riçardın qardaşı,
tünd-qaraqaş, qaragöz Tom Cons
jurnalistlərin və azarkeşlərin arasındadır.
Fotoaparatların parıltısı göz qamaşdırır. Tom bərk,
boru səsini xatırladan gülüşlə gülür. Riçard artıq sükan
arxasındadır.Tom oturur. Maşın hərəkətə gəlir.
Start. Yol kəsikləri.
Döngə, təpə, təpənin arxasında qollu-budaqlı ağac
şax dayanıb. Maşın sürətlə keçib-gedir, təpənin arxasında
yox olur. Gurultu. Ağac ağır-ağır əyilir və yıxılır. Tüstü.
Tüstü pərdəsinin arxasından bir avtomobil təkəri görünür.
Yaxınlaşan «təcili yardım» maşınlarının həyəcan siqnalları.

Tibb işçiləri xərəklərdə iki nəfəri aparırlar. «Təcili yardım» maşını uğultu ilə uzaqlaşır. Əməliyyat otağının qapısı. Üzərinə ağ örtük örtülmüş iki nəfəri iki arabada əməliyyat otağına aparırlar. Saatlar. Bir saatdan sonra əməliyyat otağından yalnız bir araba çıxır,onun da üzərinə ağ örtük örtülüb.

**Vəkilin kabineti.**

Cons. Doktor dedi ki, qardaşını xilas eləmək mümkün olmadı. Nə bacarırdısa elədi, amma bir şeyə nail ola bilmədi. O deyirdi ki, onun borcu insanı nəyin bahasına olursa olsun, xilas eləməkdir. Bax beləcə də xilas elədi.

Vəkil. Doktor Barton? Bu, həmin cərrahdır?

Cons. Hə. Ümumiyyətlə, elə alındı ki (*mürəkkəb hərəkətlər eləyərək özünü göstərir*), buna qədər mənəm, bundan sonra isə Tom.

Vəkil. Tom?

Cons. Qardaşım. Onun adı Tomas idi, mənsə Riçardam.

Vəkil. Belə çıxır ki, sizin ikinizdən biriniz?..

Cons (*sifətinə dözümsüzlük ifadəsi verərək*). Hə, hə.

Vəkil. Transplantasiya? Başa düşürəm. Di yaxşı, nəyə görə sığorta şirkəti sığortanı ödəmək istəmir?

Cons. Bax mən də elə onu soruşuram. Siz onları məcbur eləməlisiniz. Qoy ödəsinlər. Mən varam, dul qadın qalıb, uşaqları qalıb. Bütün bunlardan ötrü mən borca girmişəm, yeni start isə burnumuzun ucundadır. Mən şturman axtarmalıyam. Axı mən adi yarışlarda iştirak eləmirəm, rallidə iştirak eləyirəm. Siz başa düşürsünüzmü?

Vəkil. Hə, hə, əlbəttə... Sizdə təsadüfən qardaşınızın şəkli yoxdur ki?

Cons. Var. (*Şəkli verir.*)

Vəkil. Həqiqətən də, mən heç bir oxşarlıq görmürəm.

Cons. Doğrudanmı? O, qarabuğdayı idi. Mənsə sarışın.

Vəkil. Lütfən deyin, bəs sizin gəlininizin vəziyyəti necədir?

Cons. Vəziyyəti? Pul gözləyir. O, nəyləsə dolanmalıdır da, elə deyilmi?

V ə k i l . Hə, başa düşürəm. Mən onu demək istəyirəm ki... hm... o, özünü dul qadın hesab eləyirmi?

C o n s . Bəs o, özünü necə hiss eləməlidir? Məlumdur ki, əri ölüb, qadın dul qalıb. Elə deyilmi?

V ə k i l . Şübhəsiz, mister Cons. Buna qətiyyən şübhə eləmirəm. Mən düşünürəm ki, siz bu işi yaxşı əllərə verdiniz. Tezliklə məndən yaxşı xəbər alarsınız.

C o n s . Bunu eşitmək xoşdur! (*Eynilə onun qardaşı startda gülən kimi boru səsini xatırladan qulaqbatırıcı səslə gülür.*)

V ə k i l (*qəlbində şübhə baş qaldırır*). Mister Cons, bəs siz...

C o n s . Mən nə?

V ə k i l . Siz tamamilə əminsiniz ki, məhz Riçard Conssunuz, daha Tomas yox?



C o n s . Mən necə Tomas ola bilərəm? Hər kəs yalnız özü ola bilər, doğrudurmu? Qardaşım şturman idi, daha sürücü yox. Sürücü mənəm. Sonrası... sübut da var axı.

V ə k i l . Sübut? Hansı sübut?

C o n s . Uşaqlarla dul qadın. Axı onlar yetim qalıblar, doğrudurmu?

V ə k i l . Əlbəttə! Beləliklə, biz hər şeyi diqqətlə araşdıracağıq və mən əminəm ki, iş sizi tamamilə qane eləyəcək şəkil alacaq. Sağlıqla qalın, xudahafiz.

C o n s . Hələlik.

Vəkil sığorta şirkətinə zəng eləyir.
«Konsolideyted» şirkətinin böyük salonu.
Stolların arasında barlardakı stolları xatırladan
balaca arabalarda daxili orqanları, ürəkləri, böyrəkləri,
ağciyərləri, qaraciyərləri və sairləri çıxardılmış
plastik bədənlər var.

S ə s (*reproduktordan*). Diqqət, ştatın klinikasından məlumat. 366/9 və 179/B nömrələri 45–D və 51–D nömrələrinə dəyişdirilmişdir.

Xidmətçi ayağa qalxır və ürəyi və böyrəkləri
bir bədəndən digərinə daşımağa başlayır.
Bu fonda vəkillə sığorta şirkətinin nümayəndəsinin
telefon danışığı baş verir.

S ə d r . Siz Consu təmsil eləyirsiniz? İşi məhkəməyə göndərməyi məsləhət görmürəm. Yəqin, uduzacaqsınız. Niyə? Ona görə ki, hər iki Cons qardaşları bədbəxt hadisədən sığortalanmayıblar. Onlar həyatlarını sığorta eləyiblər. Bəs onlardan kim sağdır? O adam sağdır ki, onun həyati əhəmiyyətli orqanları sağdır. Onların harada olması isə heç bir əhəmiyyət kəsb eləmir. Burada və ya orada, bunun bizim üçün fərqi yoxdur. Mühüm olan onların yaşamasıdır. Bir halda ki onlar yaşayırlar, sığorta olunmaqları da yaşayır – müəyyən faizlə. Bax belə! Mən bunu sizə deyə bilərəm. Miss Lend! Tomas və Riçard Consların bədən aktivlərini verin.

Xidmətçi içində bədən olan iki arabanı itələyir
və iki qovluğu sədrə verir.



S ə d r (*telefona*). Tomas Consun balansı aşağıdakı qaydadadır: onun bədən üzvlərinin 48,5 faizi şəxsi orqanlar qismində onun qardaşına dəyəri ödənilməyən əmanət kimi köçürülmüşdür. Xatırlatdığımız Tomasın 21,5 faiz bədən üzvləri üçüncü şəxsə köçürülmüşdür, qalan 30 faizi isə itki kimi ailəyə təhvil verilmişdir. Belə olan halda Tomas Consun təmiz itkisi otuz faizə yaxındır və şirkət də bu ölçüdə sığorta müqaviləsini həqiqətəuyğun hesab eləməyə razıdır. Necə? Siz necə dediniz? Riçard? Axı siz özünüz təsdiq edirsiniz ki, Riçard sağdır, biz ona ölümə görə necə sığorta ödəyə bilərik? Necə? Tomas? Bəli, Tomas otuz faiz ölüdür. Bununla da qurtardıq. Qalan hissələri isə köçürülmüşdür və özlərini əla hiss eləyirlər. Xudahafiz.

Klinikanın dalanı. Vəkil maşından düşür.
Klinikanın dəhlizi ilə cəld addımlayır.
Üzərində «Reklamasiya» yazılmış qapı. O, içəri boylanır.
Qəbul otağına bənzər otaq. Küncdə oturan adamın
iki sol əli var. Vəkil cəld qapını örtür və buradan uzaqlaşır.
Böyük bir salona girir. Nəhəng şkaf-soyuducular.
Gediş-gəliş canlanır. Salonun ortasında
həkimlər baş cərrahı əhatəyə alıblar.
Vəkil ona yaxınlaşır.

D o k t o r . Siz mənim yanıma gəlmisiniz? Eşidirəm.

V ə k i l . Doktor, mən Riçard Consun vəkiliyəm. Siz mister Consu və onun qardaşını əməliyyat eləmisiniz. İş burasındadır ki, sığorta şirkəti...

D o k t o r . Aha. Bir dəqiqə. Tibb bacısı! Lütfən, Consun və Consun xəstəlik tarixçəsini gətirin!

İ k i n c i ş ə f q ə t b a c ı s ı (*həkimə yaxınlaşaraq*). Üzr istəyirəm, yeddinci əməliyyat otağı. Zəng eləyirlər ki, getmir.

D o k t o r . Əgər belədirsə, qoy anbardar böyük ölçülüsünü versin. Mən bunun balaca olacağını demişdim.

Birinci tibb bacısı doktora
xəstəlik tarixçəsini gətirir.

D o k t o r . Aha. Xatırlayıram. Hə, hə.

V ə k i l . Mənə sığorta şirkətindən verilən məlumata görə, hər şey ona görə deyil ki... e... mirasın sahibi sağ qalandır.



D o k t o r . Neyləməli. Bir qədər artıqlar var idi. Sadəcə, nəsə qalmışdı, çoxlu sayda ehtiyacı olanların varlığını nəzərə alaraq, biz belə artıqları ata bilmərik. Ümid eləyirəm ki, məni başa düşürsünüz. Humanistlik bölməyi tələb eləyir. Bu, tərəqqinin özüylə gətirdiyi mürəkkəb şəraitlərdən biridir.

V ə k i l . Demək, sağ qalan qardaşdan savayı, kim isə, üçüncü birisi də var?

D o k t o r . Hə də! Nəticəsinə gələndə isə mən öz borcumu yerinə yetirərək insanı xilas eləmişəm, onun ailə vəziyyətini, evli və ya subay olmasını nəzərə almadan. Hazırkı anda mən missis Consun dul qadın olub-olmadığını deyə bilmərəm. Buna məhkəmə qərar verməlidir. Olsun ki, hansısa razılaşmaya nail oldular. Mənə isə bunların dəxli yoxdur.

V ə k i l . Doktor, siz nə danışırsınız? Mən şəxsən bu səbəbə görə gəlməmişəm, amma... Belə çıxır ki, sizin fikrinizcə, dul qadın... dul qadın olmaya da bilər? Axı o, sağ qalanın qaynı olduğunu bəyan eləyib. Ərinin dəfnində iştirak eləyib! Buna nə şübhə ola bilər?!

D o k t o r . Təəssüf ki, şübhə var, həm də çox ciddi. Təsəvvür eləyək ki, mən məsələnin təxirəsalınmaz olduğuna tabe olaraq belə əməliyyatı eləyirəm. (*Əliylə özünü iki*

*hissəyə bölürmüş kimi hərəkət eləyir.*) Sizcə, belə olan halda kim sağ qalır? Kim nikah bağlayıbsa o? (*Kəmərdən yuxarısını göstərir.*) Ya bura? (*Kəmərdən aşağısını göstərir.*) Biz burada yalnız bədənlə məşğul oluruq. Evlənməyə aid olan nöqteyi-nəzərdən hansı hissənin əsas olduğunu isə qanun müəyyən eləməlidir.

V ə k i l. Ax, məsələ beləymiş! Onda kəmərdən yuxarı kimə məxsusdur?

D o k t o r. Oy, yox! Mən yalnız sizin üçün əyani sübut gətirdim. Real əməliyyat daha mürəkkəbdir. Biz üzvi surətdə yaşamağa qadir olan yeni tamlıq yaradırıq. Axı belə uğurla belə də ola bilər... (*Əliylə özünü üfüqi və şaquli – dörd yerə kəsirmiş kimi işarə eləyir.*)

Ü ç ü n c ü t i b b b a c ı s ı. Bağışlayın, on səkkizincidəki xəstə öldü.

D o k t o r. Yenə də? Qoy doktor Finger onu dərhal diriltsin. (*vəkilə*) Müxtəlif cür olur, başa düşürsünüz? Bu, bizim vəzifəmizdir. Biz bütün nəticələrin qanuni nəticələri üçün cavab verə bilmərik.

V ə k i l. Mənim belə dolaşıq işim hələ olmayıb. Doktor, siz nə məsləhət görürsünüz?

D o k t o r. Sizi inandırıram, daha mürəkkəb hallar olur. Keçən həftə doktor Kreqqə Sinsinnatidən dərhal on səkkiz xəstə gətirmişdilər. Bu adamların getdiyi avtobus körpüdən aşmışdı. Avtobusa on səkkiz adam minmişdi, əməliyyatdan sonra isə onlar on doqquz nəfər oldular. İndi özünüz başa düşün! Bu on doqquz nəfərin eyniləşdirilməsi problemi! Onlar üçün sənədlər! Onun atası haradadır? Anası?

V ə k i l. Doğrudanmı bu mümkündür?

D o k t o r. Hə, mən sizə deyirəm, doktor Kreqqin başına bu iş gəlib. Hippokrat andına sadiq qalaraq biz nə qədər bacarırıqsa, o qədər də çox insanı xilas eləməliyik. Bütün xəstələr, yəqin, çox kök və ucaboylu imişlər. Yaxşı dərzinin kəsilmiş parçası qalmır. Yenə orada nə olub?

Səs-küy. Keşiş gəlir və
artıq uzaqdan qızğıncasına işarələr
verərək cırıltılı səslə qışqırır:

K e ş i ş . Mən buna dözmərəm! Bu, mənim dini mənsəbimi məhv eləyəcək! Mən belə səslə moizə oxuya bilmərəm!

D o k t o r . Amma qulaq asın! Mən axı nəyisə dəyişməyin mümkün olmadığını izah elədim! (*yanında dayanan doktora*) Həmkar, onunla məşğul olun...

Keşişi aparırlar.

V ə k i l . Bəs siz mənə nə məsləhət görürsünüz?

D o k t o r . Nikahda həm ruhi, həm də cismani birliyin olması eyni dərəcədə şərtdir. Psixi tərəfə qalanda isə siz müştərinizin müalicə olunduğu psixoloqa müraciət eləyin. Siz buna öyrəşməlisiniz. Belə hallarla biz getdikcə daha çox rastlaşırıq. Donorların sayı çox olanda müştərinin yaşını çox vaxt onların ümumi yaşının orta riyazi yaşını çıxarmaqla müəyyən eləmək lazım gəlir.



Ü ç ü n c ü t i b b b a c ı s ı . Üzr istəyirəm, doktor. Yeddincidən zəng eləyirlər, müştəri hazırdır.

D o k t o r . Gedirəm. Bağışlayın. Mənim getmək vaxtımdır... (*Gedir.*)

Vəkil dərin düşüncələrə dalmış halda üzərinə ağ çəkilmiş arabanı aparan xəstə baxıcısının arxasınca gedir. Baxıcının arxasınca otağa daxil olur, onlar girən kimi də tutqun şüşəli qapı bağlanır. Bir dəqiqədən sonra o, oradan çölə sıçrayıb qaçır, sanki, arxasınca şeytan düşüb onu qovur.

**Vəkilin kabineti.**

Dul qadın içəri daxil olur.

V ə k i l . Salam. Misis Cons, eləmi?

D u l q a d ı n . Hə. Siz isə vəkilsiniz? Mən yalnız ondan ötrü gəlmişəm ki, deyəm, o, belə asanlıqla canını qurtara bilməyəcək.

V ə k i l . O, yəni kim? Riçard?

D u l q a d ı n . Bu hələ məlum deyil ki, o Riçarddırmı?

V ə k i l . Bəs sizin şübhəniz var?

D u l q a d ı n . Eh, şübhə nədir! Mənim üçün fərqi yoxdur. Amma əgər bu Riçarddırsa, qoy mənə ərimdən

sonra ona çatan sığortanı versin, yox, əgər Tomasdırsa, onda boş yerə hoteldə oturub vəkillərə pul paylamasın, qoy arvadının və uşaqlarının yanına qayıtsın.

V ə k i l . Bir dəqiqə gözləyin! Siz özünüzü ya dul qadın hesab eləyirsiniz, ya da ərli qadın. Əgər...

D u l q a d ı n . Bilirəm, bilirəm! Siz məni dolaşdırmaq istəyirsiniz. Mən sizinlə mübahisə eləməyə hazırlaşmıram. Mənim öz vəkilim var. Şənbə gününə qədər gözləyirəm, bax ondan sonra danışarıq, amma yalnız məhkəmədə. (*Çıxır.*)

C o n s (*ehtiyatla içəri girir*). Mən onu gördüm. O, sizin yanınızdaydı, hə?

V ə k i l . Sizin təzə gəlininiz? Hə. Siz onun tələbini bilirsinizmi?

C o n s . Necə bilməyim! Ya pulu istəyir, ya da məni. Əgər başqa cür alınmasa, mən, deyəsən, risk eləyəcəyəm. Hər ehtimala qarşı mən bir ər kimi bu pullara yaxın olacağam, doğrudurmu? Bəs siz mənə nə məsləhət görürsünüz?

V ə k i l . Əziz mister Cons, mən sizi kədərləndirməyə məcburam. Bu, elə də sadə deyil. Mən klinikada olmuşam, ekspertlə söhbət eləmişəm. Təəssüf ki, sizin sağ qaldığınızı və ya öldüyünüzü müəyyən eləyə bilmədim.

C o n s . Necə yəni?

V ə k i l . Siz həyəcanlanmayın! Söhbət subyektiv şəraitdən yox, hüquqi şəraitdən gedir! Nikah həm mənəvi mənada bağlanır, həm də cismani. Mənəvi nöqteyi-nəzərdən siz, heç şübhəsiz, Riçard Conssunuz. Amma cismani nöqteyi-nəzərdən... (*Əllərini açır.*)

C o n s . Siz nə danışırsınız? Onda mən, hər halda, kiməm?

V ə k i l . Məhkəmədə yetim qalan uşaqların atasının kim olması sualı mütləq meydana çıxacaq, əziz mister Cons. Belə ki, ruhi baxımdan siz, əlbəttə, onların atası deyilsiniz, çünki öz gəlininizdən uşağınız olması niyyətiniz olmayıb, həm də nəticədə ata olmaq üçün düşünülmüş heç bir addım atmayıbsınız. Doğrudurmu?

C o n s . Əlbəttə, olmayıb. Həyatda mənimlə onun arasında heç nə olmayıb! Bu gicbəsərlikdir. Axı o gəlinimizdir!

V ə k i l . Məhz elədir! Amma xahiş edirəm diqqətlə qulaq asasınız. Əgər sizin mənəvi həyatınızı nəzərə alarıqsa, siz bu uşaqların atası deyilsiniz və hüquqi mənada da. Axı keşişin «Bu qadınla evlənmək istəyirsənmi?» sualına sən «hə» cavabı verməyibsən. Lakin təəssüf ki, sizə bədbəxt hadisə üz verib və bir sıra orqan köçürmələri olub. Belə şübhə doğur, hətta əminik ki, cismani baxımdan siz ata hesab olunursunuz. Çünki hazırkı anda siz qardaşınızın bədəninin o hissələrinin sahibi hesab olunursunuz ki, o hissələrin təyinatı və funksiyası ata olmaq üçün əsas verir.

C o n s . Heç nə başa düşmürəm, amma bu, doğru deyil. Mən əsla ata deyiləm. Mən gəlinə hətta toxunmamışam. Yaxşı, əgər başqa cür mümkün deyilsə, onları oğulluğa götürərəm, amma bundan artıq heç nə eləyə bilmərəm.



V ə k i l . Mister Cons! Siz hələ də bu işin bütün mürəkkəbliyini təsəvvür eləmirsiniz! Ata öz oğlanlarını oğulluğa götürə bilməz, siz nə qədər ki cismani nəzərdən ata hesab olunursunuz, ruhi cəhətdən onların atası hesab olunmursunuz, çünki nikah münasibətlərinin əsasında bu uşaqların anası ilə siz yox, qardaşınız nikah kəsdirib, bundan da bu nəticə çıxır ki, siz qismən qayın, qismən də ər hesab olunursunuz. Atalıqla da belədir! Amma nə qismən nikah, nə qismən uyğunlaşma, nə otuz faiz boşanma qanunla mümkün deyil! Buna görə də siz gəlininizlə nə boşana, nə onunla nikaha girə bilərsiniz, gərək məhkəmədə etiraf edəsiniz: bu uşaqlar, ümumiyyətlə, sizin qardaşınızın uşaqları olmayıblar, amma siz qəzaya qədər gəlininizlə zina eləyərək onları dünyaya gətiribsiniz!

C o n s . Onda mən onların atası olardım? Sağ olun.

V ə k i l . Qətiyyən belə deyil! Məhz onda siz yalnız onların əmisi ola bilərdiniz! Bu isə nəzərə alsaq ki, sizin dünyasını dəyişmiş qardaşınız hazırkı anda sahib hesab olunur... Hərçənd yox! Axı bu işdə üçüncü şəxs də iştirak eləyib! Bəlkə də, uşaqların atası haradasa başqa bir yerdədir və hətta bu haqda bilmir də. Necə hadisədir! Necə də hüquqi cəhətdən dolaşıq işdir! Tarixi misaldır.

C o n s . Məni sakit buraxın! Lənət şeytana, siz nəyə belə sevinirsiniz?!

V ə k i l . Xahiş edirəm təmkininizi pozmayasınız. Başınızı dik tutun!

C o n s . Aydındır, mən özümə əsəbiləşməyi rəva görə bilmərəm. Beşinci gün mənim yarışım var. Şənbə günü sizin yanınıza gələcəyəm. Onda bu söhbəti qurtararıq. Başım da o vaxta qaydaya düşər...

V ə k i l . Əla, mənim əzizim, amma bir məsələ də qalır. Xərclər artır, bilirsinizmi. Avans almağımız yaxşı olardı.

C o n s . Yarışdan sonra. Əgər udaramsa, ödəyərəm. 50 min, yəqin ki, hamısına bəs edər, doğrudurmu? Borca girmişəm, kreditçilərim mənə rahatlıq vermirlər. Elə hey arxamca gəzirlər. Mən hara, onlar da ora. Bütün bunlarla mənimki açıq-aşkar gətirməyib!

Qapıdan çıxan Consu küçədə
bir neçə adam əhatəyə alır.

C o n s . Əl çəkin! Məni rahat buraxın! Di getdik! Getdik! Heç pulum yoxdur! Şənbə günü danışarıq. Hə, şənbə günü! (*Maşına oturur və gedir.*)

Kreditçilər heyrətlənmiş halda
onun arxasınca baxırlar.

**Vəkilin kabineti.**

Cons içəri daxil olur. O, yüngülcə axsayır.
Əlində qadın çantası var,
ehtiyatla onu bir kənara qoyur.

V ə k i l . Mənim əzizim, sizi görməyimə şadam. Çoxdandır görüşmürük!

C o n s (*ehtiyatla oturaraq*). Hə, elədir. Az qala, üç aydır. Açıq-aşkar bəxtim gətirmir.

V ə k i l . Qəlbən dərdinizə şərikəm. Eyni zamanda da səmimi-qəlbdən başsağlığı verirəm. Mən faciəli qəza nəticəsində nişanlınızı itirdiyinizi eşitdim. Yəni arvadınızı. Yeri gəlmişkən, indi bunun artıq əhəmiyyəti yoxdur. Hər bir halda siz yaxın adamınızı itiribsiniz və mən bütün qəlbimlə dərdinizə şərik oluram! Siz sığorta şirkəti ilə aranızdakı anlaşılmazlığa görə gəlibsiniz? Bilirsinizmi, iş hələ yerindən tərpənməyib, amma...

C o n s . Yox. Mənim yeni qayğılarım var. Elə məngənəyə düşmüşəm ki, düzü, neyləyəcəyimi bilmirəm.

V ə k i l . O? Mən qəza haqqında oxumuşam...

C o n s . Qəzetdə hamısını yazmayıblar. Həkimlik sirridir. Hm, əgər doktor Barton olmasaydı, mən artıq sağ deyildim. Amma mənim dünən tikişlərimi sökəndə mənə məhkəmədən çağırışları təqdim elədilər. Altı ədəd! Bax buna görə də sizin yanınıza gəlmişəm. Siz məni xilas eləməlisiniz.

V ə k i l . Mən nə bacarıramsa, edərəm. Söhbət nədən gedir?

C o n s (*cibindən bir vərəq çıxardır*). Mən hər şeyi yadımda saxlaya bilməzdim, yazası oldum. Demək, belə. Məni qiymətli zinət əşyalarını mənimsəməkdə, qəbrə hörmətsizlikdə və ya onu təhqir eləməkdə günahlandırırlar... sonrasını ayırd eləyə bilmirəm. Bəlkə, sizdə lupa var?



Vəkil lupanı verir.

C o n s . Aha, belə. Analıq vəzifəsinin dəyişdirilməsində.

V ə k i l . Yəqin, atalıq.

C o n s . Yox, analıq.

V ə k i l . Siz qadınsınız?

C o n s . Daha nələr?!

V ə k i l . Siz cinsinizi dəyişdiribsiniz?

C o n s . Mən heç nəyi dəyişməmişəm. Daha doğrusu... (*Dizlərini ovuşdurur.*) Şəxsən mən yox, mən dəyişdirməmişəm, qadın dəyişdirib. Hərçənd o da yox, axı qadın ölüb.

V ə k i l . Heç nə başa düşmürəm. Qadın kimdir?

C o n s . Salomeya Taynell.

V ə k i l . O kimdir?

C o n s . Bu yarış məni maliyyə baxımından ayaq üstə qaldırmalıydı. Mən özümə yeni şturman tapdım. Frenk Smit. Bəlkə, eşidibsiniz? Yaxşı oğlan idi! Amma mənim bu uğursuz bəxti gətirməməyim!

V ə k i l . Necə, yenə də, yenə də sizdən ikinizdən biriniz?..

C o n s . Yox. Bu dəfə daha pis oldu. Bütün mənim kreditçilərim və müxtəlif başqa adamlar yarışa baxmağa

gəlmişdilər. Virajda daha aydın görünür. Hətta gəlinimiz də gəlmişdi, hərçənd onun mənə iddiaları var idi. Qısa desək, onunla birlikdə səkkiz nəfər dayanmışdı. (*İkinci vərəqi çıxardır.*) Mənim kreditçilərimi tanıyırsınız, belə ki, onların adını buraxıram. Onlardan əlavə, Salomeya Taynell, 35 yaşlı, Nensi Kuin, 22 yaşlı, gəlinimiz haqqında artıq demişəm. Burada bax hadisə belə baş verdi: mən döngəyə saatda yüz səksən mil sürətlə daxil oldum və onu necə lazımsa keçdim, amma mənim maşınımın arxası fırlandı. Məni necə maşından çıxardırlar, necə sarıyırlar...

Viraj. Bir qrup tamaşaçı: dul gəlin, kreditçilər, iki qadın, yanda da kişi xaltada olan bokser itiylə. Maşın son dərəcə sürətlə yaxınlaşır, yolun kənarına çıxır. Adamların durduğu yerdə ağac aşır, tüstü burumu qalxır, tüstünün içindən bir maşın təkəri sıyrılıb çıxır, onun ardınca da digərləri. Sirena səsləri – təcili yardım maşınları. Artıq bizə tanış olan əməliyyat otağının qapısı. Qapıya doğru üzərinə ağ örtük çəkilmiş arabalar gedir. Yalnız biri oradan çıxır.

Vəkilin otağında Cons işarəylə danışaraq boşboğazlıq eləyir.

Cons. Mən şüurumu itirdim. Doktor nə bacarırsa elədiyini deyir. İndi mən ona xeyli pul borcluyam. Kreditçilərimdən, deyəsən, yaxa qurtarmışam, amma fərqi yoxdur, xirtdəyə kimi borc içindəyəm.

Vəkil. Gəlininiz də... Mən necə də halınıza yanıram!

Cons (*hərdənbir dizlərinə, baldırlarına toxunur, oynaqlarını ovuşdurur*). O da.

Vəkil. Belə, indi məxsusən sizi kim və nədə günahlandırır?

Cons. Birincisi, bu Nensi Kuinin nişanlısı. O, platinin və qızılın qaytarılmasını tələb eləyir.

Vəkil. Hansı qızılın?

Cons. Bax bunun... (*Ağzını açır və qızıl diş qapaqlarını göstərir.*) Nişanlısı diş həkimidir. Onlar nikah kəsdirməliymişlər. O da nişanlısına nəsə hədiyyə eləyib. Hamısı qızıldan, körpü isə platindəndir. İndi də mənim onları ona qaytarmağımı tələb eləyir.

V ə k i l . Siz? Ona?

C o n s . Hə. O deyir ki, bu, onun nişanlısına hədiyyəsiymiş, mənsə heç də onun nişanlısı deyiləm. Görünür, o haqlıdır, amma məgər bütün bunları mən özüm götürmüşəm? Mən heç kimdən hansısa diş qapaqlarını xahiş eləməmişəm. Heç bir qızıl diş qapaqlarını sifariş verməmişəm, elə isə mən nəyə görə onları verməliyəm?

V ə k i l . Di... e... əlbəttə... mister Cons. Nadir işdir! Bütün bu iddialar sizə qarşıdır?

C o n s . Təkcə bu olsaydı! O, ikinci qadın, Salomeya Taynell... mən onu tanımırdım. Gözümlə görməmişəm, indisə onun əmisi tələb eləyir ki, onun uşaqlarının saxlanılması xərcini mən ödəyim.

V ə k i l . Onun uşaqlarının?

C o n s . Hə də.



V ə k i l . Başa düşürəm. Yolda qəza sizin günahınız ucbatından baş verdiyindən, hərçənd sizin hərəkətlərinizdə heç bir pis niyyət olmasa da, eləmi?..

C o n s . Siz heç nə başa düşmürsünüz. Komissiya mənim qəzada günahkar olmadığımı müəyyənləşdirib, belə ki, ora yağ dağılıbmış. Mən qəzadan ötrü pul ödəməli deyiləm, amma... bir sözlə, ana qismində, ya da ananın davamı qismində.

V ə k i l . Ananın davamı? Bu sözü kim düşünüb?

C o n s . O qadının vəkil əmisi. O deyir ki, mən dörddəbir anayam.

V ə k i l . Hansı anadan söhbət gedir?

C o n s . Eh, sizinlə də danışmalı deyil! Qulaq asın, bu qadının – Taynellin üç uşağı var idi. Belə? O, ağır revmatizm xəstəsiydi. İndi necə ki yağış havası gəlir, dizlərim elə zoqquldayır, divara dırmaşıram. Bu, mənim üçün məzardır, siz bunu başa düşməlisiniz!

V ə k i l . Demək, missis Taynell... onun ayaqları...

C o n s . Hə də. Haradasa indiyə kimi. (*Baldırları tərəfə qeyri-müəyyən işarələr eləyir.*) Belə revmatizm, belə bir xəstə, əmisi isə mənim onun uşaqlarının qayğısına qalmağımı tələb eləyir, mənə hədələyici məktublar göndərir! Bax gör o, nə yazır (*cibindən məktubu çıxardır*): «Ya sən uşaqların saxlanmaq xərcini verəcəksən, ya da mən tələb eləyirəm ki, sən dərhal mənim qardaşım qızının unudulmaz meyitini

ailə məzarlığına qaytarasan. Mən kiminsə mənim əziz qardaşım qızının meyitinə sahib olmasına imkan verməərəm!» Siz buna nə deyirsiniz? Belə vicdansız insanlara!

Vəkil. Hm! Çoxdur. İcazə verirsinizmi bunları yazım? (*Mızıldanaraq yazır.*) M-m...Təhqir, qızıl qapaqlar, körpü, üç uşaq, analıq vəzifəsi, revmatizm... Belə, əziz mister Cons, nə qədər ki siz hamısını mənə izah elədiniz...

Cons. Hamısı nədir? Hələ doktor Millerə olan borc var və üstəlik də it.

Vəkil. Bəs bu doktor nə istəyir?

Cons. Revmatizmin müalicəsi üçün haqqının ödənməsini istəyir. Missis Taynell onda müalicə olunub, amma bir il üçün dərhal pulu bu başdan verirmiş. İndisə məhz ödəmə vaxtı gəlib çatıb. Doktor ayaqları müalicə elədiyini deyir və ayaqlar da yaşayır, demək, bu ayaqlarla gəzən adam müalicə xərcini ödəməlidir. Hədələyir ki, məndən şikayət eləyəcək və məni hərraca çıxaracaq! Amma birincisi, mənim oynaqlarım dəhşətli dərəcədə zoqquldayır...

Vəkil. Yox! Belə yox, mister Cons. Bu, düzgün xətt deyil. Bunda mən xahiş edirəm inad eləməyəsiniz!

Cons. Necə? Mən ki sizə deyirəm, havadan yağış qoxusu gəldimi...

Vəkil. Bunun əhəmiyyəti yoxdur. Əgər siz bir halda ki bunların öz ayaqlarınız olmadığını qəbul eləyirsiniz...

Cons. Mənimdi! Axı mən onlarla gəzirəm, doğrudur?

Vəkil. Hər bir halda iddiaçılarla hansısa mübahisələrə girməyi və söhbət etməyi mən sizə qadağan eləyirəm. Bu andan etibarən mən sizin maraqlarınızı təmsil eləyəcəyəm.

Cons. Çox gözəl.

Vəkil. E, siz hansısa itin adını çəkdiniz.

Cons. Hə. Orada yanda bir tip dayanmışdı. O, zərər çəkməyib, amma onun iti, bokser yoxa çıxıb. Bu tip mənim onu mənimsədiyimi iddia eləyir.

Vəkil. Siz?

Cons. Hə. Amma bu cəfəngiyatdır. O, bunu özündən uydurur. Mən hansısa it haqqında heç nə bilmirəm. Doktor Barton da onu xatırlaya bilmir.

V ə k i l . Dayanın. Hər ehtimala qarşı yazaq. Bokser cinsli it. Yaxşı. İndi hamısı oldu?

C o n s . Hələlik, hə. (*Ayağa qalxır.*) Bu haradadır? Mən and içə bilərəm ki, onu burada harasa qoydum. Siz onu görmədiniz?

V ə k i l . Nəyi?

C o n s . Çantanı.

V ə k i l . Budur, orada hansısa çanta var. (*Consun stulun yan tərəfinə qoyduğu qadın çantasını göstərir.*)

C o n s . Doğrudur. Sağ olun. (*Çantanı götürür, çantadan dəsmal çıxarıb alnının tərini silir.*)

V ə k i l . Siz çantadan istifadə eləyirsiniz?..

C o n s . Hə, belə rahatdır. Elə deyilmi?

V ə k i l . Öyrənmək olarmı, siz çoxdan çanta gəzdirirsiniz?

C o n s . Xatırlamıram. Hansısa müddətdən bu yana. Beləliklə...



V ə k i l . Bir dəqiqə, mister Cons. Xərclər yenə də artmağa başlayır. Özünüz başa düşürsünüz, nə qədər əziyyətli işdir. Mən sizdən avans istəməyə məcburam.

C o n s . Mən bunu gözləyirdim. Hələlik mən sizə yalnız yüz dollar verə bilərəm, amma növbəti həftə mən Mərkəzi Amerika rallisinə çıxıram. İlk mükafat 80 min dollardır, bu bütün xərcləri ödəyir, eləmi? İndi mən çoxlu məşq eləməliyəm. Mən aptek kimi aspirinlə doldurulmuşam... Ax, bu, ayaqlarım, ayaqlarım! Heç yerə qaça bilməzsən. Aha, mən yarışqabağı sığortalanmaq istəyirəm, amma elə ki, sonra hadisə baş verəndə sığorta şirkəti yenə də hansısa bəhanəni gətirməsin. Siz mənə kömək edərsiniz?

V ə k i l . Həvəslə. Mən bu işi yoluna qoyaram. Mister Cons, siz həmişə bir və eyni psixoanalitikin yanına gedirsiniz?

C o n s . Hə. Doktor Banqlossun yanına. Nə olub?

V ə k i l . Heç nə. Sadəcə, mən bilmək istədim. Hələlik... işin avand olsun!

C o n s . Qalıb bəxtə!

Vəkil psixoanalitik
doktor Banqlossun kabinetində.

V ə k i l. Beləliklə, mən Riçard Consun vəkiliyəm. Yeri gəlmişkən, mən artıq telefonda gəlişimin məqsədini izah eləmişəm.

B a n q l o s s. Hə, hə. Lütfən. Siz öyrənmək istəyirsiniz, e... siz bütün bu işin əslini öyrənmək istəyirsiniz. Yaxşı. Cons... qeyri-adi hadisədir!

V ə k i l. Əlbəttə. O, eyni zamanda bir neçə çəkişməyə cəlb olunub. Məhkəmə ekspertlər dəvət eləyə bilər, siz başa düşürsünüz... onlar öz rəylərini versinlər deyə. Onun müdafiəçisi kimi mən buna hazır olmalıyam.

B a n q l o s s. Hə. Siz mənə dediniz, yadımdadır. Onun materialları burada məndədir... amma prinsip etibarilə bu, həkimlik sirridir.

V ə k i l. Mən Consun adından hərəkət eləyirəm. Onun xeyrinə. Məni də peşə sirri buna məcbur eləyir.

B a n q l o s s. Di yaxşı. Axır illər ərzində onun özünü aparmasında dəyişikliklər olub...

V ə k i l. Dəyişikliklər? Hansılar?

B a n q l o s s (*maqnitofonu göstərərək*). Burada, məndə Consun müalicəsinin bir neçə fraqmenti qeydə alınıb. Mən azad assosiasiya[1] üsulundan istifadə eləyirəm. Onun nəyə əsaslandığı sizə məlumdurmu? Mən hansısa bir sözü səsləndirirəm, müştərim isə ağlına gələn ilk sözlə cavab verir.

V ə k i l. Əlbəttə, bu, mənə məlumdur.

B a n q l o s s. Birinci fraqment – iki il bundan əvvəl. Lütfən, qulaq asın. (*Maqnitofonu işə salır.*)

Consun və Banqlossun səsləri eşidilir.

B a n q l o s s. Gecə.

C o n s. Maşın işıqları.

B a n q l o s s. Qaranlıq.

C o n s. Qoruyucu.

B a n q l o s s. Niyə «qoruyucu»?

C o n s. Bir halda ki qaranlıqdır, demək, qəza işığa görə baş verir, doğrudurmu?

B a n q l o s s. Diqqət, davam eləyirik. Şlyapa.

---

[1] A s s o s i a s i y a – şüurda ayrı-ayrı təsəvvürlər arasındakı əlaqə

C o n s . Qapaq.
B a n q l o s s . Siz şlyapa ilə qapağı necə əlaqələndirirsiniz?
C o n s . Adi qaydada. Şlyapa silindrdir, silindrin isə qapağı var.
B a n q l o s s . Aha. Diqqət. Qan.
C o n s . Dayan.
B a n q l o s s . Niyə «dayan»?
C o n s . Di qırmızı işıq.
B a n q l o s s . Müqəddəs üçlük.
C o n s . İki.
B a n q l o s s . Necə yəni – «iki»?
C o n s . İkinci sürət.
B a n q l o s s . Cinas.
C o n s . Karbürator.



Banqloss maqnitofonu söndürür.

B a n q l o s s . İki il bundan əvvəl belə idi. Bütün Freyd rəmzləri onu aparıb maşına bağlayırdı. Əgər mən deyirdimsə «kürü», o, «şassi» deyə cavab verirdi və hətta ağac belə onun üçün sürətlər qutusunun rıçaqı idi. Bu isə bədbəxt hadisələrdən sonra yazılan qeydlər. (*Maqnitofonu işə salır.*)
B a n q l o s s . Çiçək.
C o n s . Duvaq.
B a n q l o s s . Mərasim.
C o n s . Şamlar.
B a n q l o s s . Niyə «şamlar»?
C o n s . Başa düşə bilmirəm. Ağlıma belə gəldi.
B a n q l o s s . Maşın şamları?
C o n s . Yox. Adi, yanan şamlar.
B a n q l o s s . Porşen.
C o n s . Üzük.
B a n q l o s s . Şose.
C o n s . Səyahət.
B a n q l o s s . Benzin.
C o n s . Əlcəklər.

Psixoanalitik maqnitofonu söndürür.

B a n q l o s s . Necə ki görürsünüz, burada heç bir şübhə ola bilməz. Çiçək ona gəlinin toy geyimini xatırladır, buradan da duvaq çıxır. Təbii ki, toy duvağı. Mərasim – şamlar. Söhbət toy mərasimindən və buna uyğun olaraq toyda yandırılan şamlardan gedir. Porşen, daha dəqiqi, porşenin üzüyü ona nişan üzüyünü xatırladır. Şose onda yarış haqqında yox, səyahət haqqında fikir yaradır. Beləcə, benzin əlcəyi yadına salır. Belə əlaqələndirmə ancaq qadınlarda ola bilər. Kişilər təmiz əlcəklə maraqlanmırlar.

V ə k i l . Aman Allahım! Demək, o, doğrudan da, yoxdur?

B a n q l o s s . Siz nə danışırsınız? Necə yəni yoxdur?

V ə k i l . Onda hər şey aydındır – o, Nensi Kuindir! O qız, hansı ki...

B a n q l o s s . Yox. Bu, elə də asan deyil. Onda o, ümumiyyətlə, porşeni üzüklə əlaqələndirməzdi. Porşen, yəqin ki, onda üzük haqqında təsəvvür yaratmazdı. Mən belə deyərdim: biz üzdə Consonu görürük, daxildə isə qızı. Çörəyin üzərindəki yağ kimi!

V ə k i l . Yağ, çörəyin üzərində. Siz zarafat eləyirsiniz...

B a n q l o s s . Qətiyyən. Siz bilirsiniz cərrah bu gün necə işləyir? Bir parça dəri, bir parça plastik, daha bir parça nəsə, əli altında hal-hazırda nə olarsa. Təsadüfən əlinin altına nə düşürsə, onu da tikir. O, gözəyəsi olub. Tikişlərin arasına tikib.

V ə k i l . Tikişlərin arasına?

B a n q l o s s . Bu, tamamilə aydındır. Daha doğrusu, əməliyyat haqqında mənə heç nə məlum deyil...

V ə k i l . Onda o, məxsusən nə olan şeydir?

B a n q l o s s . Buterbrod nə olan şeydir?

V ə k i l . Amma mən məhkəmədə buterbrodu təmsil eləyə bilmərəm!

B a n q l o s s . Niyə? Yeni zamanlar – yeni qaydalar. Alışarsınız!

V ə k i l . Lakin nəsə üstün olmalıdır! Hər halda, o, Consdur, ya Cons deyil?

B a n q l o s s . Demək çətindir. Hansısa anlarda o, indi özünü kobud aparır. Axırıncı seansda mən onu hipnotik transa salanda o, məni dişlədi. (*Sarınmış barmağını göstərir.*)

V ə k i l . Sizi dişlədi? Aman Allahım, köpək!

B a n q l o s s . Hansı köpək?

V ə k i l . Bokser. O da orada fırlanırmış.

B a n q l o s s . Harada?

V ə k i l . Qəza yerində. Sonra yoxa çıxıb. Siz hər şeyin necə baş verdiyini bilirsiniz?

B a n q l o s s . Yox. Amma bunun nəsə bir əhəmiyyəti varmı?

V ə k i l . Demək... əlbəttə. Hamı hasarın yanında dayanıbmış. Hasar deyəndə ki ən adi dəmir tor. Di maşın uçur onların üzərinə... köpək də orada imiş. Oradaymış və itib. Şahidlər var.

B a n q l o s s . Siz hesab eləyirsiniz?.. Hm. Köpək? Bununla bağlı olaraq nəsə... onu... bəlkə, mən peyvənd olunmalıyam?

V ə k i l . Sizcə, Cons quduzdur?



B a n q l o s s . Cons yox. Köpək.

V ə k i l . Siz zənn eləyirsiniz ki...

B a n q l o s s . Niyə də yox? Onun orqanizmi transplantasiyanı mənimsəyə bilər, amma mən bu zaman quduz ola bilərəm. Yaxşısı peyvənd olunmaqdır. Hər ehtimala qarşı. İnformasiya üçün təşəkkür edirəm.

V ə k i l . Dəyməz. Amma bütün bunlarla mən neyləyim?

B a n q l o s s . Hadisələr elə sürətlə baş verir ki... Növbəti yarışa qədər hansısa bir hərəkət eləməməyi sizə məsləhət görərdim.

V ə k i l . Siz belə düşünürsünüz? Lütfən... (*Vidalaşmaq üçün ayağa qalxır.*)

**Vəkilin kabineti.**

Katibənin səsi.

S ə s . Ser, mister Cons gəldi.

V ə k i l . A, tapıldı? Çox gözəl! Qoy gəlsin.

Cons daxil olur.

C o n s . Dərin ehtiramlar. Mən gəldim sizin yanınıza, belə ki...

V ə k i l . Mən sizin niyə gəldiyinizi çox gözəl bilirəm! Mən sizi gözləyirdim.

C o n s . Siz məni gözləyirdiniz? Qəribədir.

V ə k i l . Niyə qəribədir?

C o n s . Ona görə ki, dünənə qədər mən hansı vəkilə müraciət edəcəyim haqqında tərəddüd eləyirdim. Amma ən nəhayət, sizə müraciət eləməyi qərara aldım, Cons mənə sizin haqqınızda o qədər xoş sözlər danışıb.

V ə k i l . Cons? Hansı Cons?

C o n s . Yaxşı, Riçard Cons, axırıncı yarışda mənim sürücüm, bu zavallı... Ax, hə. Mənim adım Con Foksdur. Mən şturmanam. Biz Consla köhnə tanışlarıq. O, mənə bu yarışda birlikdə iştirak eləməyi təklif eləyəndə mən həvəslə razılaşdım. Məhz onda o, mənə sizin onun maraqlarını necə müdafiə elədiyinizi danışdı! Hə, yarış onun üçün faciəli qurtardı – axı bu, belə təhlükəli peşədir, doğrudurmu? İlk iki yüz mili biz öndə gəldik, sadəcə, əla. Riçard əla idarə eləyirdi, özünün ən yaxşı günlərində olduğu kimi və yalnız bu lənətə gəlmiş döngədə...

Şose yolu. Döngə. Tək bitmiş ağac. Gurultu.
Ağac əyilir və yıxılır. Həyəcan siqnalı.
Əməliyyat otağının qapısı.

# Stanislav Lem

## Seçilmiş əsərləri

## MÜNDƏRİCAT



*Stanislav Lem – gerçəkləşən fantaziya* .......... 5

*ROMANLAR*

Solyaris ........................................................ 13
Təyinatını dəyişən xəstəxana .................... 193

*HEKAYƏLƏR*

İstintaq ............................................................ 402
137 saniyə ...................................................... 481

*PYESLƏR*

Ay gecəsi ........................................................ 512
Mister Cons, siz yaşayırsınızmı? ...................... 536
Buterbrod *(kinossenari)* .................................. 545

Stanislav Lem

MÜASİR DÜNYA ƏDƏBİYYATI

**Stanislav Lem. Seçilmiş əsərləri.**

Çapa imzalanmışdır 20.04.2011. Format 60×84 $^{1}/_{16}$. Ofset çap üsulu.
Fiziki çap vərəqi 35,5. Sifariş 126. Tiraj 7000.

“Şərq-Qərb” Nəşriyyat evinin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17.
Tel.: (+994 12) 374 83 43; 370 68 03
Faks: (+994 12) 370 18 49; 370 68 03
e-mail: info@eastwest.az
www.eastwest.az